# ELMİN VƏ SƏNƏTİN UCALIĞINDA

Bakı - 2020

Elmi redaktoru:

**Zahid Xəlil**
filologiya elmləri doktoru, professor

Rəyçilər:
**Mahmud Allahmanlı**
filologiya elmləri doktoru, professor

**Yaqub Babayev**
filologiya elmləri doktoru, professor

Elmin və sənətin ucalığında. Rafiq Yusifoğlunun həyatı və yaradıcılığı haqqında məqalələr. ADPU nəşriyyatı, Bakı: 2020, 512 səh.

Kitaba Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, görkəmli şair, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, "Qızıl kəlmə", "Qızıl qələm", "Vətən", "Araz", "İlin ən yaxşı kitabı" və s. mükafatların laureatı Rafiq Yusifoğlunun ömür yolu və çoxşaxəli yaradıcılığı haqqında son on ildə yazılıb dərc edilən məqalələr daxil edilib.

**© Rafiq Yusifoğlu, 2020**

# ÖN SÖZ ƏVƏZİ

Allaha şükürlər olsun ki, ömrümün yetmişinci baharını, payızını, yayını, qışını görmək mənə nəsib oldu.Yaradıcı insan ömrünün izləri onun yazdıqlarında qalırsa, həmin insanın ömür və yaradıcılıq yoluna münasibət də haqqında yazılan məqalələrdə, deyilən fikirlərdə yaşayır. Bu baxımdan da bəxtim gətirib. Haqqımda irili-xırdalı o qədər məqalələr yazılıb ki! 70 illik ömür yolunda o qədər mehriban, dəyərli insanların nəzərlərini üstümdə hiss eləmişəm ki...

Yaradıcılığım, əsərlərim haqda yazıların, ayrı-ayrı illərdə, ayrı-ayrı mətbuat orqanlarında çap olunan məqalələrin bir qismi “Xatirə kəcavəsi” (1999), bir qismi  “Bir sevdalı ürəyim var” (2003), bir qismi “Tanrının ömür payı” (2007) və bir qismi də “Taleiymdən keçən yollar” (2019)  kitablarımda toplanıb. Həmin toplulara  daxil edə bilmədiyim xeyli məqalə qalıb. Ona görə bu yazıları  70 illik yubileyim münasibətilə bir yerə toplayıb, ayrıca bir kitab nəşr etdirmək qərarına gəldim.

İlk sənət dərslərimi ana babam, “Molla Nəsrəddin”çi şair, həmin jurnalda “İstot” təxəllüsü ilə şeirləri çap olunan Nuşirəvan Kərimovdan, hansı mövzuda, necə şeir yazmaq tövsiyəsini onun yetişdirməsi, qohumumuz, görkəmli şair-ədəbiyyatşünas Qasım Qasımzadədən alsam da, şeirlərim haqda ilk yazı yazan ali məktəb müəllimim, görkəmli yazıçı İsmayıl Şıxlı olub. Onun yaşıl rəngli qələmlə 1967-ci ildə mənə yazdığı məktub elə əsl sənətə gedən yolumun üstündə də yaşıl işığa çevrilib. Dörd il bu böyük insandan əsl ədəbiyyatın nə demək olduğunu öyrənməyə çalışmışam, SSRİ Yazıçılar İttifaqının mənə verilən üzvlük biletində də İsmayıl Şıxlının imzası var.

Redaksiyaya gələn ayrı-ayrı şeirlər haqqında yazılan icmallarda adımı görəndə sevindiyim günlər heç yadımdan çıxmaz. Gözəl şair, gözəl insan Məmməd Arazla hələ 1966-cı ildən tanış olsam da, onun şeir-sənətlə bağlı mənə fərdi qaydada verdiyi tövsiyələri dinləsəm də, haqqımda yazdığı bu cümlələr heç vaxt yadımdan çıxmaz: *"Oxuduğumuz məktublarda Rafiq Yusifoğlunun "Qış" şeiri maraqlıdır. Müəllif özünəməxsus boyalarla, səmimi yumorla qışın portretini yaratmağa çalışır. Yaşından asılı olaraq hər kəsin qışı necə qəbul etdiyini poetik dillə təsvir edir, əsasən də buna nail olur:*

*Qış da bir qocadır, ancaq nədənsə,*
*Onun qocalarla söhbəti tutmur..."*

**Məmməd İBRAHİM (Məmməd Araz)**

*"Sovet kəndi" qəzeti, 3 aprel 1969-cu il.*

Sonralar da şeirlərim haqda mətbuatda bir-iki cümləlik xoş sözlər yazılıb, hətta Xıdır Alovlunun "Sosialist Sumqayıtı", Zahid Xəlilin "Gənc müəllim" və "Avanqard" qəzetlərində haqqımda yazdıqları kiçik məqalələr işıq üzü görüb. Mənə respublika mətbuatında ilk uğurlu yol diləyən isə xalq şairi Nəriman Həsənzadə olub. Həmin məqalə budur:

## "UĞURLU YOL

Son illərdə ədəbiyyatımıza istedadlı gənclər gəlməkdədir. Bəzən mətbuatda onların elə şeirlərini oxuyuram, düzü, yaxşı mənada həsəd çəkirəm ki, kaş bu şeiri mən yazaydım. Bu, məncə, təbiidir. Çünki ədəbiyyatımızın müasir inkişaf səviyyəsi elədir ki, zəif və istedadsız şeir, yaxud epiqonçuluq o saat görünür.

Bu da təbiidir ki, ədəbiyyatımızı, tutalım, filan nəsil yox, bir neçə nəsil yaradır. Gənclər və qocalar nəsli. Təbiətdə də belədir. Yaşından asılı olmayaraq, böyük bir sahəni əhatə edən meyvə

ağaclarının hamısına birlikdə bağ deyirlər. O bağdakı ağacların yaşı müxtəlif, meyvələrinin də dadı başqa-başqadır. Bütöv bir millətin ədəbiyyatı da bu cür – birlikdə götürüləndə ədəbiyyat olur. Əlbəttə, ayrı-ayrı böyük sənətkarlar olur ki, onlar bütöv bir ədəbiyyatı təmsil edirlər. Amma bunlar istisnalardır…

Dediyim gənclərdən biri də istedadına hörmət bəslədiyim Rafiq Yusifoğludur. Ədəbiyyatda gənc sözünü mən ancaq yaşla əlaqədar başa düşmək istəyirəm. Bığ yeri təzəsə tərləmiş bir gəncin çiyinlərinə paqonlar taxıldımı, Vətənin taleyi ona tapşırılmış olur. O, misal üçün, ən yaxşı əsgərin dayandığı postu təhvil alıb, Vətənin sərhədlərini düşməndən qorumalıdır. Söhbət daha gənc, yaxud qocadan deyil, ümumiyyətlə əsgərdən gedir. Ədəbiyyat da vətənsiz deyil, bu, estafetdir.

Yazıçıya cəmiyyətin, xalqın tarixini yazmaq, onların adından danışmaq hüququ verilmişdir. Yaşlı yazıçıya bir az artıq, gənc yazıçıya bir az əskik yox, hamısına eyni bərabərdə. Bu mənada yaş məsələsi nisbiləşir.

Vətənin adından danışan oğulun böyüyü, kiçiyi yoxdur. Biz Rafiq Yusifoğlundan da eyni dərəcədə yaxşı əsərlər gözləməliyik. Onun şeirlərində mənim xoşuma gələn təfəkkür aydınlığıdır. Fikri çılpaq şəkildə yox, poetik ifadələrlə, obrazlı dil ilə, həm də asan başa düşüləcək bir şəkildə oxucuya çatdırmaq onun şeir yaradıcılığının məziyyətləri kimi yadda qalır. Bu, yaxşıdır.

Rafiq hələ yaşca çox gəncdir. O, 1950-ci ildə Qubadlı rayonunda anadan olmuşdur. Azərbaycan təbiətinin zərgin guşələrindən birində. O, qartalların uçuşunu, cüyürlərin qaçışını gözləriylə görüb, bulaqların, yarpaqların pıçıltısını qulaqlarıyla eşitmişdir. Bunlara əlavə olaraq onun təhsili də var. Pedaqoji institutun ədəbiyyat fakültəsini bitirmişdir. Elm, savad, mütaliə

olmayan yerdə, yalnız istedada arxalanmaqla böyük ədəbiyyat yaratmaq haqda düşünməyə dəyməz. Həm də ədəbiyyatçının yalnız ədəbiyyatçı olaraq qalması da onun məhdudluğu olardı. Bütün dövrlərdə böyük sənətkarlar hərtərəfli biliyə malik olublar.

Rafiq Yusifoğlunun həm yaxşı şeirləri, həm də gözəl şair təbiəti vardır.

Bizim xalqın gözəl adəti var: səfərə çıxanın dalınca su səpərlər. Yaxın qonşular da, yaxın dostlar da, tanışlar da belə edirlər. Qoy mənim bu yazım poeziya yolları ilə uzaq səfərə çıxan Rafiq üçün bir dolça su olsun!

**Nəriman HƏSƏNZADƏ"**

*"Azərbaycan gəncləri" qəzeti, 10 avqust 1971-ci il.*

Sonradan həyatın, taleyin diqtəsi ilə yaradıçılığımda ikinci bir qol əmələ gəldi. Uşaq ədəbiyyatı ilə məşgul olmağıma Zahid Xəlil səbəbkar olsa da, uşaq şeirlərim haqda mətbuatda ilk sözü **Tofiq Mahmud** söylədi. O, **"Pioner"** jurnalının 1978-ci ildə çap olunan birinci nömrəsində **"Niiyyəti saf, arzuları təmiz"** adlı bir yazı ilə çıxış elədi. Həmin yazı budur:

"Gənc şair Rafiq Yusifoğlunun şeirlərini oxuduqca duy-dum ki, uşaq ədəbiyyatımıza maraqlı, istedadlı bir şair gəlir. O, heç kimi təkrar etməyi sevmir. Hətta dəfələrlə yazılmış mövzularda belə öz nəfəsini, öz dəsti-xəttini qoruyub saxlamağa çalışır. "Bığlı Əmir" şeiri şən yumoru ilə diqqəti cəlb edir. Yaxud, qaranquş haqqında yazdığı şeirdəki "onun haça quyruğu qayçıdır, buludları kəsəcək" kimi qaranquşa məxsus cəhətləri əks edən bədii ifadələr xoşagələndir.

Rafiq Yusifoğlu şeirdən-şeirə inkişaf edir, sənətkarlıq sirlərini öyrənir, uşaqlarımızın qaynar, coşqun həyatından, onların

yeni cəhətlərindən yazır. Azərbaycan xalq ədəbiyyatının incəliklərindən istifadə etməyə güclü meyl göstərir.

Gənc şairin yaradıcılığının ən yaxşı cəhətlərindən biri də uşaqlarla danışmağa güclü meyl etməsidir.

Rafiq Yusifoğlu ədəbiyyata həvəslə, məhəbbətlə, xeyirxahlıqla gəlmişdir. Özü məktəbdə, şagirdlərin arasındadır, onlardan ayrılmaq fikrində də deyildir. Demək, o, müəllimliklə yanaşı, poeziya cəbhəsində də çalışmaq niyyətindədir. Kimin ki, məqsədi aydındır, ədəbiyyata gözəl arzularla gəlir, onun yolu uğurlu və mənalı olacaqdır."

Sonralar ayrı-ayrı məqalələrdə, kitablara yazılan ön sözlərdə S.Rüstəm, Ə.Vəliyev, N.Xəzri, B.Vahabzadə, Q.Qasımzadə və başqa bu kimi tanınmış adamların adımı çəkmələri məni yazıb-yaratmağa daha da həvəsləndirdi. Mətbuatda "Yurdum, yuvam", "Ətirli düymələr", "Aylı çığır", "Ocaq yeri" kitablarım haqda T.Mahmud, H.Ziya, T.Mütəllibov, C.Cavadlı, İ.Tapdıq, A.Laçınlı, Z.Xəlil, M.Qasımlı, Ə.Veysəlli, T.Məmməd, İ.Qasımlı, A.Həsənov, Ə.Əlioğlu, Ş.Məmmədov, Ə.Lələdağ, S.Şəfiyev, Z.Qafarlı və başqalarının məqalələri dərc olundu.

Sovet dövründə nəşriyyatların göndərişi ilə əsərlərimin əlyazmalarına müsbət rəy yazan, onların çapını gərəkli sanan M.Seyidzadə, M.Əlioğlu, F.Sadıq, V.Hacıyev, A.Hüseynov, V.Yusifli, F.Sahib, Ə.Salahzadə, M.Ələkbərli kimi qələm adamlarının da mənim ilk kitablarımın nəşrində xüsusi xidmətləri danılmazdır.

Müstəqillik illərində əsərlərim əsasında hazırlanan "Qəm karvanı" və "Bütün Azərbaycan əsgər olmalı" tamaşalarım haqda M.Aslanın, S.Bayramovanın, B.Şəfinin mətbuatda çap olunan məqalələrində də yaradıcılığım haqda çox xoş sözlər söylənildi.

Sonra “Qəm karvanı”, “Həsrət köçü”, “Təzə sevdalara doğru”, “Çiçək yağışı”, “Bahar qatarı” kitablarım haqda mətbuatda bir-birinin ardınca məqalələr çap olundu. A.Mansurzadə, M.Namaz, R.Şəms, D.Haqverdi, B.Şəfi, M.Süleymanzadə, Ə.Əsədov, İ.Də-mirli, A.Gülnar, Ş.Məmmədov, Z.Əsgərli, Q.Muğanlı, Zülfiyyə, Ş.Xəlilli, T.Əlişanoğlu, X.Cahangirov və başqalarının məqalə-lərində mənim əsərlərimin məziyyətləri haqqında dəyərli fikirlər söylənildi.

Daha sonrakı illərdə mətbuatda yeni kitablarım haqda məqalə yazıb çap etdirən F.Fərəcullayev, R.Tahir, Ə.T.Əhmədova, V.Yusifli, A.Eminov, Q.Məhərrəmli, Ş.Xəlilli, V.Qurbanov, Q.Muğanlı, A.İsmayıloğlu, A.Cəmil, A.Qəni, Ş.Hətəmoğlu, Ə.Tehran, S.Həmzəyeva, Q.İsabəyli, M.Nemətoğlu, Ş.Quliyeva, L.Mustafayeva, Ş.Elnur, M.Orucəliyeva, A.Hacıyev, Ə.Əsədov, A.Savalan, S.Nuruqızı, N.Rüstəmli, S.Hüseynoğlu, Y.Bağırova, N. Mirzəyev, Ə.Xələfli, X.Hüseynzadə, P. Rəhimov, X.Göyyallı, A.Ağbaba, R.Məmmədəlioğlu, A.Əbilov, A.Cəfərova, Ə.Nəcəf-xanlı, İ.Sarıyeva və başqalarının da adlarını dərin minnətdarlıq duyğuları ilə çəkməkdən məmnunluq duyuram.

Haqqımda yazılan məqalələrdən ibarət bu kitaba ölkəmizin çox tanınmış ədəbiyyat, mədəniyyat xadimlərinin, yazıçıların, şairlərin, ədəbiyyatşünasların məqalələri toplanıb. Bu yazıları oxuyanda duyğulanır və qürur duyuram ki, yaradıcı ömrüm hədər getməyib, məni duyan səviyyəli insanlarla çiyin-çiyinə yaşa-mışam. Məqalə müəlliflərinin hamısına öz dərin təşəkkürlərimi bildirirəm. Allah onların hamısından razı olsun!

**Rafiq Yusifoğlu**

# TƏLTİFLƏR, TƏBRİKLƏR










Azərbaycan Respublikası
Təhsil Nazirliyi
DİPLOM
I yer
Əliyev Rafiq Yusif oğlu
"Kiçikyaşlı məktəblilər üçün
ən yaxşı nəsr, nəzm və dram əsərləri"
müsabiqəsində
"Nəzm əsərləri" nominasiyası üzrə
I yerə layiq görülmüşdür.
Azərbaycan Respublikasının
təhsil naziri
Bakı - 2016


Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi
DİPLOM
RAFİQ YUSİFOĞLU
"Qızıl Kəlmə" Ədəbi Mükafatının
"Uşaqlar üçün yazılmış bədii əsərlər"
nominasiyası üzrə qalibi olan
"Nağıl qapısı"
kitabına görə təltif edilir.
Azərbaycan Respublikasının
Mədəniyyət naziri
Əbülfəs Qarayev
Bakı 2019


Qızıl Kəlmə


KƏMALİYYƏ
DİPLOMU
AZƏRBAYCAN JURNALİST HƏMKARLAR İTTİFAQI (AzərKİVİHİ)
RƏYASƏT HEYƏTİNİN FƏRMANI İLƏ
"QIZIL QƏLƏM"
MÜKAFATI VERİLMİŞDİR
YENİ UĞURLAR ARZUSU İLƏ:
Oqtay SALAMZADƏ
Bakı şəhəri


LAUREAT DİPLOMU
AZƏRBAYCAN JURNALİST HƏMKARLAR İTTİFAQI (AzərKİVİHİ)
RƏYASƏT HEYƏTİNİN QƏRARI İLƏ
«ARAZ»
ALİ ƏDƏBİ MÜKAFATI
VERİLMİŞDİR
YENİ UĞURLAR ARZUSU İLƏ:
Oqtay SALAMZADƏ


AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ
UNİVERSİTETİ HƏMKARLAR
İTTİFAQI KOMİTƏSİ
Elmi-pedaqoji sahədə göstərdiyi yüksək
fəaliyyətə, universitetin ictimai həyatında fəal
iştirakına və anadan olmasının
65 illiyi münasibətilə
FƏXRİ
FƏRMANLA
Dünya ədəbiyyatı kafedrasının əməkdaşı,
filologiya üzrə elmlər doktoru, professor
Əliyev Rafiq Yusif oğlu
təltif edilir.
dos. V.K.Əliyev
19 fevral 2015-ci il


AZƏRBAYCAN MƏDƏNİYYƏT İŞÇİLƏRİ
HƏMKARLAR İTTİFAQI
RESPUBLİKA KOMİTƏSİNİN
FƏXRİ
FƏRMANI
Uzun illər mətbuat işi sahəsində xidmətlərinə,
kollektivin ictimai həyatında fəal iştirakına görə və
anadan olmasının 70 illiyi münasibətilə «Göyərçin»
jurnalının baş redaktoru, Azərbaycan Respublikasının
Əməkdar Mədəniyyət İşçisi, filologiya elmləri doktoru,
professor
RAFİQ YUSİF OĞLU ƏLİYEV
TƏLTİF OLUNUR
SƏDR
C. SƏTTAROVA
Bakı şəhəri,
« 02 » Yanvar, 2020-ci il.

## Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, “Göyərçin” jurnalının baş redaktoru, şair Rafiq Yusifoğluna

Hörmətli Rafiq müəllim, Sizi 60 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə möhkəm can sağlığı, uzun ömür arzulayıram.

Siz 02 yanvar 1950-ci ildə respublikamızın gözəl guşələrindən biri olan Qubadlı rayonunun Çardaxlı kəndində anadan olmusunuz. 1970-ci ildən taleyinizi Sumqayıt şəhəri ilə bağlayaraq uzun müddət orta məktəblərdə dilimiz və ədəbiyyatımızın sirlərini gənc nəslə çatdırmısınız. Şagirdləriniz bu gün də Sizi sevimli müəllimləri kimi xoş xatirələrlə xatırlayırlar.

1985-ci ildən fəaliyyətinizi mətbuat sahəsində, “Göyərçin” jurnalında davam etdirmisiniz. “Göyərçin” jurnalı Sizin rəhbərliyinizlə öz forma və məzmununu əsaslı şəkildə yaxşılaşdırmış, uşaqların sevimli jurnalına çevrilmişdir.

Siz elmi yaradıcılıqla da məşğul olmuş, 1984-cü ildə namizədlik, 2006-cı ildə doktorluq dissertasiyasını uğurla müdafiə etmisiniz.

Azərbaycan ictimaiyyəti Sizı gözəl şair kimi yaxşı tanıyır, şeirlərinizi sevə-sevə oxuyurlar. Yazdığınız qırxa yaxın kitab Sizin məhsuldar ədəbi yaradıcılığınızı bariz çəkildə göstərir. Bədii tərcümə sahəsindəki fəaliyyətiniz də təqdirəlayiqdir. Dünyanın ondan artıq tanınmış müəllifinin əsərləri məhz Sizin tərəfinizdən böyük ustalıqla dilimizə tərcümə olunmuşdur. Əsərləriniz əsasında çəkilmiş “Qəm karvanı”, “Bütün Azərbaycan əsgər olmalı” televiziya tamaşaları izləyicilər tərəfindən maraqla qarşılanmışdır.

Ədəbi fəaliyyətiniz yüksək qiymətləndirilmiş, 2005-ci ildə Azərbaycan Respublikasinin Əməkdar mədəniyyət işçisi fəxri adına, “Vətən”, “Araz”, “Qızıl qələm” ədəbi mükafatlarına layiq görülmüsünüz. Siz həm də gözəl ailə başçısı, üç övlad atası, iki nəvənin sevimli babasısınız.

Hörmətli Rafiq müəllim, ümid edirəm ki, bundan sonra da fəaliyyətinizi uğurla davam etdirəcək, yeni-yeni nailiyyətlər qazanacaqsınız.

Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edir, gələcək işlərinizdə uğurlar arzulayıram.

**Vaqif Əliyev**
Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı.
Sumqayıt, 12 yanvar 2010-cu il.

## Rafiq Yusifoğlu – 60

Hörmətli Rafiq müəllim!

Sizi – tanınmış şair və ədəbiyyatşünas alimi 60 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Siz ədəbi fəaliyyətə erkən başlamış, ilk qələm təcrübələriniz 1966-cı ildən işıq üzü görmüşdür. "Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Qəm karvanı", "Həsrət köçü", "Böyük arzuya gedən yol", "Söz çəməni", "Aylı cığır", "Təzə sevdalara doğru", "Çiçək yağışı", "Ayrılığın qəm hasarı", "Həsrət sazağı", "Sevdalı sabahlar", "Eşqin qarlı yollarında", "Dəniz, sən və mən" və s. bədii kitablarınız nəşr edilmiş və geniş oxucu auditoriyası qazanmışdır. Siz tərcüməçi kimi də səmərəli fəaliyyət göstərmisiniz. Dünya uşaq ədəbiyyatı nümunələrindən ibarət on tərcümə kitabının müəllifisiniz.

Sizin çoxşaxəli yaradıcılığınızın bir sahəsi də elmi-tədqiqat işidir. Siz filologiya elmləri doktoru, professorsunuz. "Azərbaycan poeması, axtarışlar, perspektivlər" monoqrafiyanız, ali məktəb tələbələri üçün "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Uşaq ədəbiyyatı" kimi dərs vəsaitinizdən tədris sistemində uğurla istifadə olunur. Orta məktəblərin birinci sinifləri üçün "Ana dili" dərsliyinin də aparıcı müəllifisiniz.

Siz uşaqların sevimli şairisiniz. 1985-ci ildən uşaqların sevimli jurnalı "Göyərçin"də çalışırsınız. 1997-ci ildən həmin

jurnalın baş redaktorusunuz. 2005-ci ildə Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüsünüz.

Hörmətli Rafiq müəllim!

Sizi bir daha 60 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

*"Ədəbiyyat qəzeti", 15 yanvar 2010-cu il.*

## TELEQRAM

Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə.

"Göyərçin"' jurnalının baş redaktoru Rafiq YUSIFOĞLUNA

Hörmətli Rafiq müəllim! Sizi, tanınmış şair və ədəbiyyatşünas alimi 60 yaşınız münasibətilə ürəkdən təbrik edirəm. İlk qələm təcrübələriniz hələ ötən əsrin 60-cı illərindən oxuculara bəllidir. Daha sonralar bir-birinin ardınca çoxlu sayda uğurlu poeziya kitablarınız işıq üzü görmüş və ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Siz məhsuldar tərcüməçi kimi də yaxşı tanınırsınız. Filologiya elmləri doktoru, professor kimi ədəbiyyatımızın nəzəri problemlərinə gözəl töhfələriniz olan "Azərbaycan poeması: axtarışlar, perspektivlər", "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Uşaq ədəbiyyatı" adlı sanballı monoqrafiya və dərs vəsaitləriniz ali məktəblərimizdə uğurla tədris olunur. Sizə möhkəm can sağlığı, uzun ömür, çağdaş ədəbiyyatımızın inkişafı naminə fəaliyyətinizdə möhtəşəm nailiyyətlər arzulayıram.

**Hidayət ORUCOV**

Azərbaycan Respublikasının Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri. 16 yanvar 2010-cu il.

## Rafiq Yusifoğlu – 65

Hörmətli Rafiq Yusif oğlu Əliyev!

Sizi anadan olmağınızın 65, elmi-pedaqoji fəaliyyətinizin 45-ci ildönümü münasibətilə təbrik edir, ömrün bu müdrik çağında həyatın ən gözəl neməti olan cansağlığı, elmi və bədii yaradıcılığınızda yeni-yeni nailiyyətlər, pedaqoji fəaliyyətinizdə Sizi daima məmnun edən möhtəşəm auditoriya sevgisi arzulayırıq!

Siz uzun illərdir ki, ədəbiyyat tariximizdə şərəfli bir işin arxasında yorulmadan, yüksək əzmlə, fədakarlıqla çalışırsınız. Bu işıqlı yol böyüklü-kiçikli milyonların qəlbinə bir hərarət, sevinc, həyat sevgisi, vətən və torpaq məhəbbəti kimi əvəzedilməz, ölçüyəgəlməz hisslər aşılamışdır. Siz böyük qürur və iftixar hissi ilə etiraf edə bilərsiniz ki, geniş və diqqətli oxucu kütləsini öz bədii irsinizin sehrinə sala bilmisiniz. Uşaq dünyasına dərindən bələd olmanız, yaratmış olduğunuz maraqlı uşaq obrazları bu gün də uşaqların səmimi sirdaşlarına, məsləkdaşlarına çevrilməkdədir. İllər keçdikdən sonra da bizim gənc nəsil həmin poeziyadan, nəsr nümunələrindən lazımınca fayda götürə biləcəklər.

Əziz Rafiq müəllim!

Sizi təkcə bir uşaq şairi kimi yox, yazıçı, tənqidçi, tərcüməçi, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, "Göyərçin" jurnalının baş redaktoru, ADPU-nun Dünya ədəbiyyatı kafedrasının professoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" və "Araz" mükafatları laureatı, filologiya elmləri doktoru, sözü məqamında və yerində deməyi bacaran, müəllimlik və alimlik adına hörmət gətirən bir insan kimi də tanıyır və sevirik.

Siz həm də bir ədəbiyyatşünas kimi elmi ictimaiyyətin, ədəbi-bədii mühitin, hamımızın qəbul etdiyimiz və inandığımız, şəxsiyyəti və alimliyi bir-birini tamamlayan ziyalımızsınız.

Hörmətli Rafiq müəllim!

Siz bir alim, professor və müəllim kimi də uzun illər səmərəli fəaliyyət göstərmisiniz. Bu gün də yorulmaq bilmədən

şərəfli müəllim, yaradıcı alim və ziyalı, həmçinin ən layiqli insanlıq ömrünü yaşayırsınız. Siz fəxr edə bilərsiniz ki, elmimizin, ədəbiyyatımızın, xüsusən də uşaq ədəbiyyatımızın mövzu və mənaca zənginləşməsində kifayət qədər rol oynamısınız.

Əziz və hörmətli Rafiq müəllim!

Anadan olmağınızın 65, elm-pedaqoji fəaliyyətinizin 45 illiyi münasibətilə Sizi filologiya fakültəsinin kollektivi adından səmimi qəlbdən təbrik edir, bu gözəl yubiley günündə möhkəm cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Hörmətlə, **ADPU-nun Filologiya fakültəsinin dekanı,**
**prof. B.Ə.Xəlilov**

## Rafiq Yusaifoğlu – 70

Hörmətli Rafiq müəllim!

Sizi – tanınmış şair və ədəbiyyatşünas alimi 70 illik yubileyiniz münasibətilə təbrik edirik. Siz 1970-ci ildə ADPU-nun filologiya fakültəsini bitirərək Sumqayıt şəhərində müəllim kimi əmək fəaliyyətinə başlamısınız. Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında istehsalatdan ayrılmamaqla təhsil alaraq 1984-cü ildə “Azərbaycan sovet poemasının inkişaf problemləri (1956-1965)” mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, filologiya elmləri namizədi alimlik dərəcəsi almısınız. Gənc tənqidçilərin Moskvada keçirilən birinci (1982), ikinci (1985) və üçüncü (1988) Ümumittifaq seminarlarının, Qazaxıstanda keçirilən Beynəlxalq Uşaq ədəbiyyatı günlərinin (1989) iştirakçısı, 1985-si ildə Moskvada Ali Komsomol Məktəbinin bir aylıq jurnalistika kursunun müdavimi olmusunuz. 1985-ci ildə “Göyərçin” jurnalının redaksiyasına şöbə müdiri vəzifəsinə təyin olunmusunuz. “Göyərçin” jurnalının redaksiyasında məsul katib, Azərbaycan Dövlət Televiziyasının Xəbərlər Baş redaksiyasında “Elm, Mədəniyyət, İncəsənət” şöbəsinin müdiri vəzifəsində işləmiş, 1997-ci ilin may ayından “Göyərçin” jurnalının baş redaktoru təyin edilmisiniz və hazırda

həmin vəzifədə səmərəli fəaliyyət göstərirsiniz. 2005-ci ildə Azərbaycan mətbuatının inkişafındakı xidmətlərinizə görə Sizə Əməkdar mədəniyyət işçisi fəxri adı verilmişdir. 2006-cı ildə "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmisiniz. 2011-ci ildə professor elmi adı almısınız. 2000-ci ildən bu günə kimi Sumqayıt Dövlət Universitetində elmi-pedaqoji fəaliyyətini davam etdirməklə yanaşı 2008-2016-cı illərdə ADPU-da mühazirələr oxumusunuz. Siz zəngin yaradıcılığa malik qələm sahiblərindənsiniz. İndiyədək monoqrafiya və dərslikləriniz də daxil olmaqla 83 kitabınız nəşr olunmuşdur. "Qızıl kəlmə", "Qızıl qələm", "İlin ən yaxşı kitabı", "Vətən", "Araz" və sair ədəbi və media mükafatlarının laureatısınız. 2016-sı ildə Təhsil Nazirliyinin uşaq ədəbiyyatı üzrə elan etdiyi müsabiqədə poeziya üzrə birinci mükafata layiq görülmüsünüz. Sizin orta məktəb dərsliklərinə daxil edilən əsərlərininizin bibloqrafik göstəricisi dörd yüzə yaxındır. Sözlərinizə xeyli mahnılar bəstələnmiş, əsərlərinizin motivləri əsasında "Qəm karvanı", "Bütün Azərbaycan əsgər olmalı" və s. kimi televiziya tamaşaları çəkilmişdir. Dünya ədəbiyyatının bir neçə görkəmli nümayəndəsinin əsərlərini dilimizə ustalıqla tərcümə etmisiniz. Öz şeirləriniz də ingilis, alman, rus, özbək, qazax, Ukrayna, Belorus və sair dillərə tərcümə edilmişdir. Elmi-pedaqoji kadrların hazırlanmasında da xidmətləriniz böyükdür. Sizin rəhbərliyiniz altında bir neçə filoloq fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. Uzun illərdən bəri Nizami adına Ədəbiyyat İnstitutu nəzdindəki Dissertasiya şurasının üzvüsünüz. "Yurdum- yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı cığır", "Qəm karvanı", "Həsrət köçü", "Sladkiy dojd", "Rain, flowers and I", "Böyük arzuya gedən yol", "Təzə sevdalara doğru", "Çiçək yağışı", "Söz çəməni", "Ayrılığın qəm hasarı", "Günlərimiz, aylarımız", "Zamanın qatarı", "Həsrət sazağı", "Daha uşaq deyiləm", "Yollar", "Sevdalı sabahlar", "Ana dilim", "Eşqin qarlı yollarında", "Dəniz, sən və mən", "Quşlar dünyası", "Könül

səltənəti", "Qızılı məktublar", "Arzular kəhkəşanı", "Sabahın sorağında", "Bulud fayton", "Üçüncü qərinə", "Nağıl qapısı", "Ömür ağacımdan düşən yarpaqlar", "Yaddaş kitabı", "Sevdalı ömür yaşadım" adlı şeir, "Bahar qatarı", "Dəniz səviyyəsi", "Elm və Helm", "Tapmacalar ölkəsi", "Bitdilicə" adlı nəsr, "Xatirə kəcavəsi", "Bir sevdalı ürəyim var", "Tanrının ömür payı", "Ulu yurd yerlərimiz", "Qoruq və yasaqlıqlarımız", "Taleyimdən keçən yollar" adlı publisistika kitablarının, bir çox elmi monoqrafiyaların, dərslik və dərs vəsaitlərinin, tərcümə əsərlərinin müəllifisiniz.

Hörmətli Rafiq müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

*"Ədəbiyyat qəzeti", 28 dekabr 2019-cu il.*

Hörmətli Rafiq müəllim!

Sizi – tanınmış şair, ədəbiyyatşünas-alim, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisini 70 illik yubileyiniz münasibətilə "Azərbaycan" jurnalında çalışan həmkarlarınız ürəkdən təbrik edir. Siz keçən əsrin 70-ci illərində ədəbiyyata gəldiniz və elə ilk gəlişinizlə diqqəti cəlb etdiniz. Sizin bir alim kimi yazdığınız "Azərbaycan poeması: axtarışlar, perspektivlər", "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" və başqa əsərlərinizin ədəbiyyatşünaslıq elmimizdə öz yeri və çəkisi var. Rafiq müəllim, Siz uşaqlarımızın ədəbi zövqünün formalaşmasında və ümumiyyətlə, tərbiyəsində çox gərəkli işlər görürsünüz. Sizi yubileyiniz münasibəti ilə bir daha təbrik edir, Sizə möhkəm can sağlığı və yaradıcılıq uğurları arzulayırıq.

Hörmətlə, **İntiqam QASIMZADƏ**

*"Azərbaycan" jurnalı, 2020, №1, s.153.*

# PORTRET CİZGİLƏRİ

## Azərbaycan Milli Ensiklopediyası

### ƏLİYEV Rafiq Yusif oğlu

ƏLİYEV Rafiq Yusif oğlu (Rafiq Yusifoğlu) (d.2.1.1950, Qubadlı r-nunun Çardaqlı k.) – Azərb. ədəbiyyatşünası, filologiya e.d. (2007). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1970). "Göyərçin" jurnalında şöbə müdiri (1985–92), məsul katib (1992–96), Azərb. Dövlət Televiziyasının "Xəbərlər" baş redaksiyasında "Elm, mədəniyyət, incəsənət" şöbəsinin müdiri (1996–97) işləmişdir. 1997 ildən "Göyərçin" jurnalının baş redaktoru vəzifəsində çalışır. Pedaqoji fəaliyyətlə də məşğuldur. Tədqiqatları, əsasən, Azərb. poemasının inkişaf problemlərinə və sənətkarlıq xüsusiyyətlərinə həsr olunmuşdur. 1966 ildən şeirləri ilə mətbuatda çıxış edır. Dünya uşaq ədəbiyyatından tərcümələri var. Əsərləri bir sıra xarici dilə tərcümə edilmişdir. Bədii, elmi-publisistik kitabların müəllifidir. Əsərləri əsasında televiziya tamaşaları çəkilmiş, şeirlərinə musiqi bəstələnmişdir.

Əsərləri: Yurdum-yuvam. B., 1983; Bir sevdalı ürəyim var. B., 2003; Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri. B., 2010.

**http://ensiklopediya.gov.az/az/terms/18794/cild/20**

*Rafiq Yusifoğlu -60*

## ƏDƏBİYYATIMIZIN İNKİŞAFI NAMİNƏ

Hələ gənclik illərindən istedadlı bir qələm sahibi kimi tanıdığım, uzun illər mətbuatda imzasını maraqla izlədiyim, istər şeirlərini, istərsə də elmi-publisistik məqalələrini, kitablarını məmnunluq hissi ilə oxuduğum Rafiq Yusifoğlunun 60 yaşının tamam olduğunu eşidəndə bir qədər təəccübləndim. Düşündüm ki, illər nə tez gəlib keçdi, dünənə qədər gənc şair kimi tanıdığımız qələm dostumuz nə tez ömrünün ixtiyar çağına qədəm qoydu? Ancaq Rafiq Yusifoğlu qələminin məhsulu olan 50-yə yaxın kitabın, o cümlədən ali məktəb tələbələri üçün yazdığı "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Uşaq ədəbiyyatı", ümumtəhsil məktəblərinin birinci sinifləri üçün "Ana dili", ikinci sinifləri üçün "Azərbaycan dili" (şərikli) dərsliklərini, "Azərbaycan poeması: axtarışlar, perspektivlər" adlı sanballı monoqrafiyasını və sair kitablarını xatırlayanda mənə aydın oldu ki, bu qədər işi 40-50 yaşında bir adamın görməsi çox çətindir, hətta deyərdim ki, bir qədər də imkan xaricindədir.

Bu qədər faydalı əsərləri araya-ərsəyə gətirmək Rafiqin istedadından, tükənməz yaradıcılıq enerjisindən, zəhmətsevərliyindən xəbər verən danılmaz faktlardır. Necə deyərlər, Rafiq Yusifoğlu öz 60 illik yubileyini alnıaçıq-üzüağ, ləyaqətlə qarşılayır. Onun şeirləri, hekayələri, nağılları orta məktəb dərsliklərinin, oxu kitablarının bəzəyinə çevrilib. Dərslikləri gənc nəslə

ədəbiyyatın, nəzəriyyənin, ədəbi prosesin, bədii yaradıcılıq üslubunun incəliklərini öyrədir.

Bütün ömrünü, həyatını ədəbiyyata, onun tədqiqi və təbliğinə həsr edən Rafiq Yusifoğlu çoxşaxəli yaradıcılıq yolu keçən istedadlı qələm sahiblərindəndir. Onun istər poeziya, istər uşaq ədəbiyyatı, istər bədii tərcümə, istər jurnalistika, istərsə də ədəbiyyatşünaslıq sahəsindəki uğurları göz qabağındadır.

İlk dəfə məktəbə qədəm basan Azərbaycan uşaqları Abbas Səhhətin, Abdulla Şaiqin şeirləri ilə birlikdə Rafiq Yusifoğlunun da bir-birindən gözəl, mənalı şeirlərini oxuyur, əzbərləyirlər. Ədəbiyyata, şeirə-sənətə gedən yolun başlanğıcında onlara Rafiq Yusifoğlu poeziyası bələdçilik edir. Bu da təsadüfi deyildir. Bu gün Rafiq Yusifoğlu nəinki çağdaş uşaq ədəbiyyatımızın sayılıb-seçilən, görkəmli nümayəndələrindən biri, hətta cəsarətlə deyə bilərəm ki, birincisidir. Bu gün uşaq ədəbiyyatının yaranması, nəşri, tədqiqi və təbliği sahəsində Rafiq müəllimin xidmətləri çox böyükdür. Təsadüfi deyil ki, Rafiq Yusifoğlunun yaradıcılıq nümunələri tədqiqatçıların da diqqətindən kənarda qalmamışdır. Müasir uşaq ədəbiyyatı haqqında yazılan elə bir dissertasiya yoxdur ki, orada R.Yusifoğlu poeziyasından məhəbbətlə söhbət açılmasın, şairin bənzərsiz poetik üslubu təqdir edilməsin.

Dissertantlarımdan biri tədqiqat işi yazanda Rafiqin "Aylı cığır" kitabını mən də oxudum. Şeirlərin orijinallığı, poetik tutumu, məzmun yeniliyi məni çox məmnun etdi. Nüfuzlu məclislərin birində Rafiq müəllimi müasir uşaq poeziyamızın canlı klassiki adlandırdım və tam əminliklə dedim ki, son 50 ildə yaranan bütün uşaq kitabları bir yana, R.Yusifoğlunun "Aylı cığır" kitabı isə bir yanadır.

Sonra Rafiq müəllimin uşaqlar üçün yazıb nəşr etdirdiyi bir-birindən maraqlı "Bahar qatarı", "Böyük arzuya gedən yol", "Dəniz səviyyəsi", "Şirin yağış", "Çiçək yağışı", "Günlərimiz-aylarımız", "Zamanın qatarı", "Söz çəməni", "Yollar", "Ana dilim", "Daha uşaq deyiləm" və sair kitablarını oxuyanda fikrimdə yanılmadığıma bir daha əmin oldum. Hiss elədim ki,

Rafiqin uşaq ədəbiyyatı sahəsində qazandığı uğurlar xoşbəxt bir təsadüfün yox, parlaq istedadın, yorulmaz müşahidənin, sistemli axtarışların, gərgin əməyin qanunauyğun nəticəsidir.

Rafiqin şeirlərinin dili lakonikdir, obrazlıdır. Şair bədii təsvir və ifadə vasitələrindən, təşbehlərdən, metaforalardan, epitetlərdən məharətlə istifadə etməyi bacarır. İlk nəzərdə quru təsir bağışlayan mövzular şairin sehrli qələmi nəticəsində poetik məzmun kəsb edir. Məsələn, "Dəmir yumaqlar" şeirinə fikir verək:

Yolbasan yola çıxıb, küçəmiz təzələnir.
Təkərləri elə bil yumaqdı, çözələnir.
Aldatmıram mən sizi, gəlin baxın, uşaqlar.
Fırlandıqca, açılıb küçə olur yumaqlar…

Bu xüsusiyyət təkcə Rafiqin uşaqlar üçün yazdığı şeirlər üçün yox, bütün yaradıcılıq nümunələri üçün xarakterikdir.

Yarım gərək incə gələ, incə vara,
Sahib ola qəlbimdəki incə vara.
Söz demişəm, ürəyinə toxunmuşam,
Qəlbi safdı, küsən deyil incəvara…

Rafiq Yusifoğlu folklordan, klassik ədəbiyyatımızdan, eləcə də dünya ədəbiyyatının incilərindən yaradıcı şəkildə bəhrələnməyi bacaran qələm sahiblərindəndir. Onun şeirlərinin cövhərində folklor ruhu, folklor ab-havası, folklor müdrikliyi vardır:

Çən gəldi, çisəklədi,
Gözlərim çiçəklədi.
Dərd məni üstələyib,
Bayatıya kökədi.

Yağış deyiləm yağam,
Bu dərdə dözdüm, dağam.
Həsrətin dörd əli var,
Mənimsə bircə yaxam…

Dərd çox, sevinc kəm oldu,
Ağlar gözüm nəm oldu.
Sözdən bir qala tikdim,
Pəncərəsi qəm oldu.

Klassik poeziyamıza yaxından bələdlik "Qəm karvanı" kimi sanballı bir poemanın yaranmasına səbəb olmuşdur. Ustad təfəkkürünün məhsulu olan maraqlı fikirləri öz poetik düşüncələri ilə yoğuraraq yenidən həyata qaytaran şair Füzuli dünyasına bələdçilik edir. Poemanın hər bəndi oxucunu düşündürür, onun ruhunu təzələyir, poetik ovqatını yüksəldir.

Sözümü pas tutmaz ötsə də min il,
İlahi, nə qədər odlanım, yanım?
Məndə can qoymayıb bu şeyda könül,
Verim bir gözələ, qurtarsın canım.

Hicranı ömrümü etsə də yarı,
Kimsəyə uymadım, - sədaqəti gör.
Qiyamət günündə görməsəm yarı,
Saqi, sən özün gəl qiyaməti gör!

Alovlar püskürən qəlbimin başı
Buxar etməsəydi gözümdə nəmi,
Göz açıb yumunca, gözümün yaşı
Bir anda tutardı bütün aləmi…

Dünya ədəbiyyatının görkəmli nümayəndələrindən Bayronun, Lorkanın, Yeseninin və başqalarının şeirlərini dilimizə ustalıqla tərcümə edən Rafiq Yusifoğlunun öz poeziyasına da həmin şairlərin əsərlərinin təsiri yaxşı mənada duyulmaqdadır.

Rafiq Yusifoğlu həm folklordan, klassik ədəbiyyatdan, həm də dünya ədəbiyyatından yaradıcı şəkildə bəhrələnməyi bacarır. Dünya ədəbiyyatına yaxından bələdlik Rafiq Yusifoğlu poeziyasını əyalətçilik çərçivəsindən uzaqlaşdırır, elə buna görə də onun qələminin məhsulu olan əsərlər mahiyyətcə ümumbəşəri xarakter daşıyır.

Rafiq Yusifoğlu nədən yazırsa yazsın, hansı problemin bədii təsvirini verirsə-versin, daim özünə, öz poetik üslubuna, düşüncə tərzinə sadiqdir. Rafiqin folklor, klassik ədəbiyyat və dünya poeziyasının təsiri altında formalaşan poetik üslubu ənənəyə söykənsə də bənzərsizdir, fərdidir.

–Qaldır kirpiyini, səbrim yox daha,
Görüm gözlərini bir yol yaxından.
–Mənim kirpiklərim qalxa bilmir ha
Sənin baxışının ağırlığından…

Rafiq Yusifoğlu yaradıcılığının mövzu və problematikası çox zəngindir. Xalqımızın keşməkeşli taleyi onun poeziyasında özünəməxsus bir çalarda öz bədii əksini tapmışdır. Rafiqin bu qəbildən olan şeirləri vətəndaşlıq poeziyamızın maraqlı nümunələri hesab oluna bilər. Azərbaycan torpağının gözəlliklərinə həsr etdiyi şeirlər peyzaj lirikamızın gözəl nümunələri sırasındadır. Onun şeirləri insanları vətənin hər otunu, çiçəyini sevməyə, xalqımızın adına layiq ləyaqətli oğullar, qızlar olmağa səsləyir.

Ən yaxşı cəhət budur ki, Rafiq müəllim hansı mövzuda yazırsa yazsın, təsvir elədiyi hadisələrin ən incə, xarakterik məqamlarını ön plana gətirməyi bacarır. Bu cəhət həm onun uşaqlar, həm də böyüklər üçün yazdığı şeirlərin demək olar ki, hamısı üçün xarakterikdir. Əslində Rafiq Yusifoğlu yaradıcılığında uşaq şeiri, böyük şeiri şərti bölgüdür. Bu şeirlərin hamısının ana xəttində incə ruhlu bir şairin duyğuları, dərin zəka sahibinin düşüncələri dayanır. Rafiq ən adi həyat həqiqətlərini

belə mənalandırmağı bacarır. Ona görə də şeirlərinin əksəriyyətinin əsas məna yükünü öz üstünə götürən misraların əksəriyyəti poetik kəşflər səviyyəsinə yüksəlir. Başqa sözlə desək, Rafiqin alimliyi şairliyinə, şairliyi alimliyinə dayaq durur, onun poetik üslubunu şərtləndirən ən aparıcı amillər kimi özünü göstərir.

Qədim Qəbələ şəhərinin xərabələrinin bir tərəfindən Qaraçayın, digər tərəfindən Qocalançayın axması adi həyat həqiqətidir. Görün şair bu həqiqəti necə mənalandırır, necə poetik həqiqət səviyyəsinə yüksəldə bilir:

Qəbələ bir yüyrükdür,
Onu zaman tərpədir.
Qaraçay, Qocalançay
Sanki yüyrük ipidir.

Qaraçay, Qocalançay
Həzin-həzin oxuyar.
Bu yüyrüyün içində
Tarix gedib yuxuya…

Rafiq Yusifoğlu kənd həyatını, təbiəti, xalq yaradıcılığını yaxşı bilən şairlərimizdəndir. Elə buna görə də onun təsvirləri öz milli koloriti, cazibədarlığı ilə diqqəti cəlb edir.

Rafiq Yusifoğlu dilimizin incəliklərini, sözün məna çalarlarını çox gözəl bilir. Elə buna görə də onun poetik nümunələri içərisində sözçülükdən əsər-əlamət yoxdur. Xarakterik bir cizgi, detal mənanı sözün zahiri biçimindən onun alt qatına ötürür. Şeirin mövzusuna, məzmununa uyğun bənzərsiz, xarakterik bədii təsvir və ifadə vasitələri, orijinal qafiyələr tapıb işlətməsi onun ədəbi üslubuna bir orijinallıq gətirir. Rafiq istər əruz, istər heca vəzninin müxtəlif ölçülərindən, istərsə də sərbəst şeirdən məharətlə istifadə etməyi bacarır.

İşıq arzulayan toxum meydan oxuyur qabığa,
Günəşə dal çevirənin kölgəsi düşər qabağa.
Sevən sevdiyinə sarı ayağı yalınca gedər,
Üzü günəşə qaçanın kölgəsi dalınca gedər…

Rafiq Yusifoğlu öz taleyinin, ağrı-acılarının, sarsıntılarının şairidir. Xalqımızın başına gətirilmiş müsibətlər, itirilmiş torpaqlarımız, bir-birindən ayrı düşən doğmalarımızın, əzizlərimizin gözündə qalan arzuları şairin poeziyasının qəm yükünü bir qədər də ağırlaşdırır:

Hərəmiz bir eşqin şirin barıyıq,
İllər üstümüzə çökür toz kimi.
Məhəbbət daşıyan eşq qatarıyıq,
Zaman çəkir bizi paravoz kimi.

Bərq vurur saçımda illərin qarı,
Sükut qəbristanda xəyala dalıb.
Sərnişini düşən eşq vaqonları
Zaman qatarından açılıb qalıb…

Qəlbini atdılar oda anamın,
Arzuları düşdü hey pərən-pərən.
Qəbri ayrı düşən ata-anamın
Ruhları qovuşa bilibmi görən?

Rafiqin poeziyası ağrı-acı ilə, dərd-kədərlə yoğrulsa belə, onun şeirlərinin ümumi ruhu nikbindir, insanları gələcəyə, qurub-yaratmağa, sevib-sevilməyə, həyatın qədrini bilməyə, ulu yaradanan verdiyi fürsətdən yetərincə bəhrələnməyə həvəsləndirir:

Get dayan dənizlə nəfəs-nəfəsə,
Eşit ləpələrin pıçıltısını.
Meşənin qoynunda düşüb həvəsə,
Dinlə yarpaqların xışıltısını.

Bu necə cığırdı, bu necə yoldu? –
Yarır toranlığı durnanın döşü.
Qardaş, bir başını yuxarı qaldır,
Ayın danışdığı nağılı eşit…

Rafiq Yusifoğlu gənclərin, tələbələrin çox sevdiyi şairlərdəndir. İstər Sumqayıt Dövlət Universitetində, istərsə də Azərbaycan Dövlət Pedaqoji Universitetində mühazirələr oxuması onu gənclərə, gəncləri ona daha da yaxınlaşdırıb. Tələbələrin sevimli müəllimi həm də gənclərin sevimli şairinə çevrilib. Rafiq müəllimə gələn saysız-hesabsız oxucu məktubları onun yaradıcılığının təsir gücündən, əhatə dairəsindən xəbər verir. Rafiqin gənclərin məktubları, mesajları əsasında yazdığı şeirlər müasir sevgi lirikamızın gözəl nümunələridir. Bu şeirlər gənc oxucuların ürəyindən xəbər verdiyi üçün çox sevilir, çox oxunur. Daim gənclər arasında olması Rafiq Yusifoğlunun poetik ilhamını kökdən düşməyə qoymur, onu daim gənclik eşqi ilə yazıb-yaratmağa, sevda göylərində qanad çalmağa səsləyir:

Bənövşə arzular boynu bükülü,
Nəfəsin ayrılıq küləyi olub.
O ötən ayların, illərin külü
Arzu közlərimin bələyi olub.

Həsrətin əlində qalıbdır yaxam,
Bu dərdə, ağrıya dözürəm hələ.
Yayından ayrılan qızıl bir oxam,
Sevda göylərində süzürəm hələ…

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, “Göyərçin” jurnalının baş redaktoru, filologiya elmləri doktoru,

professor Rafiq Yusifoğlu ömrünün, yaradıcılığının ixtiyar çağlarını yaşayan istedadlı bir qələm sahibidir. Ədəbi, eləcə də pedaqoji ictimaiyyətimizdə özünəməxsus nüfuzu, çəkisi olan qələm dostumuzu qarşıda hələ yeni-yeni axtarışlar, yeni-yeni elmi, ədəbi uğurlar gözləyir. Ədəbiyyatımızın, elmimizin inkişafı naminə Rafiq Yusifoğluya uzun ömür, can sağlığı arzulayırıq.

**Nizami Cəfərov,**
**AMEA-nın müxbir üzvü,**
**filologiya elmləri doktoru, professor.**
*"Xalq qəzeti", 1 yanvar 2010-cu il.*

## TƏMƏNNASIZ OXUCU SEVGİSİ

Rafiq Yusifoğlunun 60 yaşına

Söz adamları onu yaxşı tanıyırlar. Necə deyərlər, təmkinli, özünəməxsus yerişi, sakit görkəmi və bir az da xəyalpərvər baxışları ilə istər-istəməz hər kəsin diqqətini çəkir. Elə ilk baxışdan onu kiçicik bir müşahidə ilə, söz, qələm adamı cümləsinə aid olduğunu müəyyən etmək mümkündür. Təbii ki, bütün bunlar həm Allah vergisidi, həm də Rafiq müəllimin sözün bütün mənalarında bir ziyalı, bir işıqlı insan kimi öz-özündə formalaşdırdığı keyfiyyətlərin toplumudu. Burada məzmun mahiyyət etibarilə mənanı da öz qoynuna alıbdı. Yəni söz adamının oxucuya təqdim etdiyi könül pıçıltıları ilə özünün cəmiyyətdəki yeri demək olar ki, bir bərabərlik, tamlıq həddindədi.

Uzun illərdi Rafiq Yusifoğlu imzası ilə tanışam. Müəyyən mənada ədəbi mühitin burulğanlarından azacıq zaman fərqi ilə eyni mərhələni keçməkdəyik. Onun da sözünün, qələminin təsdiqi üçün sovet dönəminin dolanbac ədəbi yollarını necə keçdiyini təxminən bilirəm. Çünki bu yol dövrünə görə demək olar ki, əksər

qələm adamlarının bəxtinə düşən bir yol idi. Amma etiraf etmək lazımdır ki, həmin yolu keçənlərin böyük əksəriyyəti sözün, qələmin vicdanlı cəfakeşləri olublar. Yəni onlar sözlə, qələmlə alver etməyiblər. Sözü, qələmi yalnız ilhamının ixtiyarına verib, onun bəhrəsini də halal çörəyə çeviriblər.

Bütün dövrlərdə fərqli yazanlar, daha doğrusu, yazıya fərqli münasibət bəsləyən, onu oxucunun deyil, kimlərinsə xidmətinə verənlər olub və bu gün də var. Rafiq Yusifoğlu məhz sözü oxucu xidmətinə təqdim edən və özü də ürəyin diqtəsi ilə yazan Söz adamıdı. İndi ömrünün 60-cı ilini yaşayan Rafiq Yusifoğlu ədəbi mərhələləri məhz elə sözü duyanlar üçün, oxucular üçün yaza-yaza gəlibdir.

Əməkdar mədəniyyət işçisi, “Qızıl qələm”, “Araz”, "İlin ən yaxşı kitabı" və s. mükafatlarının laureatı R.Yusifoğlu həm də çoxlu sayda şeir, publisistika, tərcümə kitablarının müəllifi, eləcə də ali məktəblər üçün üç, ümumtəhsil məktəbləri üçün iki dərsliyi araya-ərsəyə gətirən ədəbiyyatşünas alimdir.

Hər bir kitaba, hər bir təqdimata xüsusi diqqətlə yanaşan Rafiq Yusifoğlu oxucularla baş-başa qalanda özünün şeirlərinin, publisist yazılarının necə böyük bir maraq doğurduğunu yəqin ki, hiss edib. Çünki onun imzası və bu imza arxasında dayanan qaynar ilham bunu deməyə əsas verir. Elə kitablarından da məlum olur ki, Rafiq Yusifoğluna ünvanlanan çoxlu sayda oxucu məktubları onun necə uğurlu və sevilən  bir qələm adamı olmağından xəbər verir.

İllər bir-birini əvəz edir. Təbii ki, hər bir ilin öz uğuru, öz yaddaqalan xatirəsi olduğu kimi, əlamətdar günləri də var. Zənnimcə, Rafiq Yusifoğlu üçün 60 illik ömrün bu sakit axarı daha maraqlıdır. Çünki bu axarda kimin kim olduğu və kimin hansı mərtəbədə dayandığı aydınca görünür.

Bu günlərdə Rafiq Yusifoğlunun “60 ildə məni görmədilər” fikri məni düşünməyə məcbur etdi. Müəyyən qədər Rafiq müəllimə haqq qazandırsam da, amma onun Azərbaycan ədəbiyyatına, sözə təmənnasız xidmətindən yaxşı xəbərdar olduğumdan, sona qədər onunla razılaşa bilmədim. Çünki Rafiq

Yusifoğlu xarakterli, tərcümeyi-hallı insanların, ilk öncə isə qələm adamlarının əslində kimlərinsə görməsinə ehtiyacı yoxdur. Onsuz da söz öz sahibini bütün zamanlarda göz qabağında saxlayır. Təki o söz dəyərli və yaddaqalan olsun. Digər tərəfdən Rafiq Yusifoğlunun öz rübailərinin birində dediyi kimi:

Bir güləm, istəsən dərərsən məni,
Yolub küləklərə verərsən məni.
Sözümün altında gizlənmişəm mən,
Sözümü anlasan, görərsən məni…

Və yaxud da:

Bir gün çıraq kimi sönəsiyik biz,
Toxum tək torpağa enəsiyik biz.
Ha yana üz tutsaq, ha yana getsək,
Haqqın dərgahına dönəsiyik biz…

Bəli, 60 yaşını qeyd edən Rafiq Yusifoğlu sözə xidmətlərini uğurla davam etdirir və onun hər bir qələm məhsulu, hər bir yeni sözü müəllifin ürəyinin şirəsi, gözünün işığıdı. Ona görə də bu 60 illik ömrün sahibinin kitablarını vərəqlədikcə ürəyimə gələn bir sözü səmimi bir ərklə Rafiq müəllimə ünvanlayıram:

-Rafiq Yusifoğlu, kimlərsə, hansı kürsülərdəsə səni görməyə bilər, amma sözlə yaşanan, sözlə nəfəs alan və ömrünü-gününü sözə həsr edən hər kəs, özü də hər yerdə Sizi görür və Sizin yaradıcılıq uğurlarınıza sevinir. Bu sevincin 60 illik ömrünüzə işıq salacağına mən inanıram. Çünki o təmənnasız sevinc, təmənnasız istəkdir. Onu qələminiz Sizə qazandırır. Canınız sağ, qələminiz iti olsun!

**Əbülfət MƏDƏTOĞLU**

*"Ədalət" qəzeti, 6 yanvar 2010-cu il.*

## TANRININ ÖMÜR PAYI

Nə dünyaya gəlişimiz, nə də yaşadığımız ömür bizim istək və arzumuzla müəyyənləşmir. Bizi xəlq edənin möcüzəsi və bəxşişidi bunlar. Kiminə az, kiminə çox, kiminə mənalı, kiminə boş…

Tanrı payını alanlardan biri Rafiq Yusifoğlu da ömrünün 60-cı qapısını açmalı oldu. O, 1950-ci ilin yanvarında Qubadlı rayonunun Çardaxlı kəndində anadan olub. 1970-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirdikdən sonra Sumqayıtda müəllim işləyib. 1984-cü ildə namizədlik, 2006-cı ildə doktorluq dissertasiyası müdafiə edib. Bir tərəfdə bədii yaradıcılıqla məşğul olan Rafiq Yusifoğlu həm də “Göyərçin” jurnalının baş redaktorudur. Uşaqlar, eləcə də hamı üçün maraqlı, yaddaqalan, gözəl şeirlər yazır. Digər tərəfdən Sumqayıt Dövlət Universitetinin professorudur, pedaqoji və elmi fəaliyyətlə məşğuldur. 50-yə yaxın kitabın, o cümlədən ali məktəb tələbələri və orta məktəb şagirdləri üçün bir sıra dərsliklərin müəllifidir. Əməkdar Mədəniyyət işçisi Rafiq Yusifoğlunun əsərləri bir sıra xarici dillərə tərcümə olunub, şeirlərinə mahnılar bəstələnib. Tanınmış şairin bir neçə şeirini oxucuların diqqətinə çəkməklə 60 yaşını ürəkdən təbrik edirik.

(Çap olunan şeirlər: “Qubadlım”, “Ömür kitabı”, “Sənə soyuq dəyəcək”, “Dəniz niyə duzludur”, “Tez-tez yuxu görürəm”).

***“Azərbaycan” qəzeti, 9 yanvar 2010-cu il***

## Rafiq Yusifoğlu -60

## SÖZÜN KEŞİYİNDƏ

Rafiq Yusifoğlunun imzası ədəbi və elmi ictimaiyyətə yaxşı tanışdır. O, istər şair, istərsə də ədəbiyyatşünas kimi çoxşaxəli yaradıcılığında sözə, söz sənətinə böyük məsuliyyət duyğusu ilə yanaşır. Odur ki, Rafiq Yusifoğlunun həm ədəbi, həm də elmi müstəvidə özünün oxucu auditoriyası var. O, belə bir auditoriyanı yaratmaqdan ötrü illərdən bəri əqli, ruhi potensialını, ilham və zəhmətini qoyub…

Ali pedaqoji təhsilini başa vurandan sonra Sumqayıtda tərbiyəçi-müəllim, müəlllim işləyən Rafiq Yusifoğlu işləyə-işləyə təhsilini davam etdirmiş, aspiranturanı bitirmiş, Azərbaycan poemasının inkişaf problemləri ilə bağlı namizədlik dissertasiyası yazıb müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır (1984). Sonralar elmi fəaliyyətini davam etdirən Rafiq Yusifoğlu doktorluq dissertasiyasını da uğurla müdafiə etmiş, hazırda Sumqayıt Dövlət Universitetinin professoru kimi tələbə gənclərimizin yetişməyinə bir sıra dərslik və monoqrafiyaları ilə yardımçı olmaqdadır.

Əlbəttə, biz 60 yaşını tamamlayan bir Azərbaycan ziyalısının – şair, alim, pelaqoq və publisistin indiyə qədər gördüyü işlərinə ayrı-ayrılıqda dəyər vermək imkanından məhrumuq, çünki bu bir qəzet məqaləsinə sığışan yığcam olaylar təsnifatı deyil. Rafiq Yusifoğlu imzası öncə səmimi, büllur dilə, aydın düşüncəyə malik bir şairin varlığını təqdim edir. Yəni, əslində mən də bir çoxları kimi bu imzanın sahibini şair kimi tanımışam. Odur ki, daha çox onun poetik dünyaduyumuna özümüzü kökləməyimiz məqsədəyönlüdür:

Biz köçəndə bu dünyada
Qalacaqmı ömrün izi?
Var-dövlət yığmaqdan ötrü
Xərcləyirik ömrümüzü…

Şairin qənaətinə görə (didaktik olsa da) "ömrün izi" var-dövlət yığmaqla qalmır. İz yaşatmağın yolu sözdən keçir, ömrün izi yalnız sözdə əbədiləşir. Odur ki, söz sahibləri var-dövlət sahiblərindən daha "uzun ömürlüdür". Şairlik, həyata şairanə baxış isə fərqli bir yaşam tərzidir:

Çılğın ilhamımız şahə qalxanda
Məst olduq bir qızın məhəbbətindən.
Biz qərib durnaya gendən baxanda,
Kimsə kabab çəkdi durna ətindən…

Rafiq Yusifoğlunun şeirlərində Azərbaycan türkcəsinin şirinliyi var. Misralar axıcı, rəvan, kəlmələr, ifadələr aydın, anlaşıqlı və yerli-yerində. Hiss olunur ki, o, uşaqlıqdan xalq ədəbiyyatı çevrəsində, folklor mühitində böyüyüb, boya-başa çatıb. İndi işğal altında gözləri yol çəkən Qubadlının el-oba adətləri, etnoqrafik dəyərləri, folklor mühiti Rafiq Yusifoğlunun şair, alim kimi yetişməyində təbii ki, az rol oynamayıb. İlkin qaynaq, yaddaşa ilk yüklənən informasiya bir ömür boyu insanı tərk etmir. Bu həqiqətin məntiqidir ki, şair yurd yanğısına səmimi etirafını da qoşur:

Yadıma dağların, düzlərin düşür,
Kül altda uyuyan közlərin düşür,
Yoluma dikilən gözlərin düşür,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayıdacağıq?!

Mənim təsəvvürümdə yurd itkisindən, torpaq həsrətindən ağır dərd yoxdur. Şairin bu mövzuda yazdığı şeirlərdə kədərlə yanaşı, həqiqi vətəndaşlıqdan gələn bir üsyankarlıq var. Bu üsyankarlıq isə vətənin haqq-sayında ümumiləşdirilir:

Keşikdə durmuşam, zarafat deyil,
Hər vaxt sayıq olam gərək yerimdə.
Mənə ağır gələn avtomat deyil,
Vətənin haqqıdır çiyinlərimdə…

Rafiq Yusifoğlunun məhəbbət şeirlərində incə bir lirizm, təsirli bir ovqat var. Bu ovqat insanı sevgi aləminə, sevib-sevilmək dünyasına aparır. Belə şeirlər xüsusən gənc oxucularımıza saf məhəbbət, təmiz sevgi aşılayır.

Yenəmi ayrılıq yelləri əsdi? –
Baş-başa qalmışıq əzəblar ilə..
Sevgidən təmənna ummaq əbəsdi,
Sevginin əvəzi sevgidir elə…

Mən də bu fikirlə razıyam ki, "sevginin əvəzi sevgidir elə". İnsanın mənəvi dünyasının bəzəyi eşqdir, məhəbbətdir. Bu ali hissin, duyğunun isə əvəzləyicisi, başqa sözlə alternativi yoxdur. Rafiq Yusifoğlunun sevgi şeirləri şablondan, süzülmüş və üzülmüş deyimlərdən uzaq olduğu üçün insanı tərpədir, duyğulandırır.

Şairin balalarımız üçün yazdığı şeirlərin də çağdaş poeziyamızda öz yeri, öz dəyəri var. İllərdən bəri "Göyərçin" dərgisinin nəşrinə rəhbərlik edən Rafiq Yusifoğlu uşaqların həm də sevimli redaktorudur. Bu dərgidə dərc olunan yazılar baş redaktor kimi məhz onun ədəbi zövqündən qaynaqlanır.

Rafiq Yusifoğlu bu illəri dolu sünbül kimi yola salıb. Onun çoxsahəli və çoxşaxəli yaradıcılığında ədəbiyyatımıza, elmimizə namusla xidmət edən bir ziyalının obrazı canlanır. 60 yaşının tamamında hesab edirik ki, Rafiq Yusifoğlunun öyünməyə, qürrələnməyə haqqı var – çünki haqdan gələn sözün keşiyində illərdən bəri belə ləyaqətlə dayanmağın özü hər qələm adamına nəsib olmur…

**Adil Cəmil**

*"Ədəbiyyat qəzeti", 15 yanvar 2010*

## Rafiq Yusifoğlu -60

## ÜRƏKLƏRƏ SEVGİ DAŞIYAN ŞAİR

Əzəl gündən bu şairlər
Qəlbələrə sevgi daşıdı.
Yoxdu ayrı umacağı,
Mükafatı göz yaşıdı.

Bu gün imzasından sonra "Əməkdar mədəniyyət işçisi", "Qızıl qələm", "Araz", "Vətən", "İlin ən yaxşı kitabı" mükafatları laureatı yazılan Rafiq Yusifoğlu haqqında bu qeydləri etməyə hazırlaşanda şairin yuxarıda nümunə gətirdiyim bəndi yadıma düşdü. O, haqlıdır. Şairlər, həqiqətən də, ürəklərə sevgi daşıyırlar. Bir də onun 2003-cü ildə çapdan çıxan "Bir sevdalı ürəyim var" kitabının üzqabığında çap olunan şəkil diqqətimi cəlb etdi. İstedadla çəkilmiş rəsm əsərində şair gülümsünür, onun daxili aləmində bərq vuran sevgi üz-gözündə bərq vurur. Rafiqin günəş işığına meydan oxuyan tunc çöhrəsi də rəssamın diqqətindən yayınmayıb. Bu rəsm əsərinin üzərində dayanmağımın əsas səbəbi odur ki, Rafiq gözümün qabağında böyüsə də, bu şəkil sanki onu mənə yenidən göstərdi.

Mən Rafiqlə 1966-cı ildə tanış olmuşam. Azərbaycan Pedaqoji İnstitutunun birinci kürsuna daxil olmuşdu. Mən də elə həmin institutun "Gənc müəllim" qəzetinə təzəcə redaktor təyin olunmuşdum. O zaman Rafiqin gur qara saçları var idi. İllər o saçları süpürüb aparsa da, saçların altından çıxan və günəş işığını əks etdirməyə qadir olan o qırmızımtıl dəri şair ürəyinin bütün işığını əks etdirməyə qadirdir. Sanki rəssam da bu fikri təsdiq etmək üçün rənglərin çalarına xüsusi əhəmiyyət verib.

Rafiq "Gənc müəllim" qəzetinin nəzdində təşkil olunan ədəbiyyat dərnəyinin ən fəal üzvlərindən idi. Tez-tez yeni şeirlərini oxuyardı. Qubadlı dağlarının əzəməti, Çardaxlı kəndinin təbii gözəllikləri, kövrək sevgi duyğuları onun ilk mövzuları idi. Bu

günlərdə 60 yaşı tamam olacaq şair keçdiyi ömür yoluna nəzər salaraq yazır: “Ömür karvanımın sarvanı mənim sevdalı ürəyimdi. Bu sevdalı ürək ömrün bu başından o başına aparır məni”. Şairi yaşamağa sövq edən də bu böyük eşqdir, onun sevdalı ürəyidir.

Rafiq Yusifoğlunun ədəbi irsi zəngindir. O, uşaqların və gənclərin sevimli şairi, ibtidai və ali məktəblər üçün dərsliklərin, ədəbiyyatımızın müxtəlif problemlərinə dair monoqrafiyaların müəllifidir. Uşaqlar üçün nəşr olunan “Göyərçin”də baş redaktor işləyən şair, ali məktəblərdə mühazirələr oxuyan professordur. 60 illik bir ömürdə yaranan kitablar Rafiq Yusifoğlunun bir alim, jurnalist kimi fəaliyyəti belə bir fikri söyləməyə haqq qazandırır: ömür hədər getməyib. R.Yusifoğlu yazır: “Allah bizə ömrü dədəboyu – möhlət kimi verib ki, get yaşa, xalqına xidmət elə”.

Rafiq Yusifoğlunun yaradıcılıq yolu nə qədər zəngin olsa da, ədəbi irsindən söhbət düşəndə ilk dəfə yadımıza onun uşaqlar üçün yazdığı əsərlər düşür. Görünür, bu sahə ilə o, daha çox məşğul olub. Rafiqin çox maraqlı uşaq şeirləri var. Şairin uşaq ədəbiyyatı ilə bağlılığından söhbət düşəndə demək lazımdır ki, o, bu sahə ilə ciddi məşğul olmuş, ali və orta ixtisas məktəbləri üçün “Uşaq ədəbiyyatı” dərsliyini yaratmışdır. Həmin dərslik bir neçə dəfə nəşr olunmuşdur. Bir alim kimi uşaq ədəbiyyatının estetik problemləri ilə bağlı yazdığı məqalələr göstərir ki, söz sənətinin bu sahəsinin nəzəri cəhətlərini dərindən bilir, dünya ədəbiyyatı ilə tanışdır və başqa xalqların uğurlarından bizim ədəbiyyatımızda da istifadə olunmasını daim tələb edir.

Rafiq Yusifoğlu uşaqların və gənclərin sevimli şairidir. Onun “Yurdum-yuvam”, “Ətirli düymələr”, “Ocaq yeri”, “Aylı cığır”, “Şirin yağış” (rus dilində), “Çiçək yağışı”, “Daha uşaq deyiləm” və s. kimi kitabları göstərir ki, o, uşaq ədəbiyyatına ötəri yanaşmır, oxucuların yaş xüsusiyyətlərini, anlaq səviyyəsini nəzərə alır. Dünyanı kəşf etməyə başlayan uşaq üçün Rafiqin şeirləri bir mayak rolu oynayır, onlara təbiətin sirlərini öyrədir. Şair uşağı uşaq yerinə qoyan yüngül əhvalatlardan, lüzumsuz obrazlardan ustalıqla imtina edir. Bu işdə onun müəllimliyi də

köməyə çatır, “Göyərçin” jurnalının baş redaktoru olmağı da. Hər gün onlarla uşaq məktubu oxuyur, körpələrin fantastik dünyaları ilə nəfəs alır. Bu məktubların çoxu sonralar misralara çevrilərək şeirlərə səpələnir. “Əks-səda” şeirində uşaq heyrəti belə ifadə olunur:

Saç-saqqalı ağdı bu,
Dağdan ağır dağdı bu.
Adama söz qaytarır,
Elə bil uşaqdı bu...

Rafiq Yusifoğlunun uşaq şeirlərində yumor hissi güclüdür. Müəllif çalışır ki, yumor adi söz birləşməsindən, təsadüfən deyilən sözdən yaranmasın, təsvir olunan hadisələrin özündən doğsun. “Sap cığırı” şeirində corab toxuyan nənə təsvir olunur. Şirin xəyallara dalan nənə astadan zümzümə edir, ətrafda baş verənlərə diqqət yetirmir. Nənənin xəbəri olmur ki, onun yumağını oyuncağa çevirən pişik sapdan cığır salıb.

Sap cığırı uzanır,
Gedirəm qarasına.
Düz nənənin yanından
Güllərin arasına.

Sən demə bu cığırı
Bizim pişik salıbmış.
Yumağı siçan ilə
Tay-dəyişik salıbmış.

Ətrafdakı əhvalatlara yeni məna vermək bacarığı da diqqəti cəlb edir:

Yellənən budağa baxıb,
Qardaşı deyir Süsənə:
Ağaclar idman eləyir,
Külək əsəndən əsənə...

Uşaqlar üçün saysız-hesabsız, mənalı, düşündürücü lirik şeirləri ilə yanaşı şairin xeyli nağıl-poemaları da vardır. "Ağıl döyüşü", "Gül və bülbül əfsanəsi", "Bacadan yağan qızıl" kimi nağıl-poemaları fantaziyasının zənginliyini, uşağa təlqin etdiyi fikirlərin əhəmiyyətinə görə diqqəti cəlb edir:

Ağılda imiş əsl güc-qüvvət,
Qəlbimdə sizə yarandı hörmət.
Burda zəkalı igid çox imiş,
Bilikli xalqa zaval yox imiş...

Bu sözlər torpağımıza düşmən kimi gəlib, dost kimi qayıdan bir obrazın dilindəndir. O, uşaqları sorğu-suala tutur, ibrətamiz cavablar alandan sonra bu nəticəyə gəlir.

Rafiq Yusifoğlu gənclərin də sevimli şairidir. Çoxumuz kimi o da böyüklərin şairi olmaq üçün can atmış və ilk qələm təcrübələrini də bu janra həsr etmişdi. Rafiq böyüklər üçün də çoxlu şeir kitablarının müəllifidir. Bu gün ömrünün yetkinlik çağında çap etdirdiyi "Dəniz, sən və mən" (Bakı, 2009) adlı kitabı gənclər üçün nəzərdə tutulan şeirlər toplusudur. 400 səhifəlik bu kitab təkcə həcminə görə deyil, həm də mövzu rəngarəngliyinə, həyata ayıq, yaradıcı baxışına və sənətkarlıq cəhətlərinə görə diqqəti cəlb edir.

Bu kitabda toplanan əsərlərin böyük əksəriyyəti gəncliyin duyğularına, bəzi hallarda sevgi aldanışlarına həsr olunub. Şeirlərin xeyli hissəsi oxucu məktublarına cavab kimi qələmə alınıb. Şairin "mesaj" kimi verdiyi (əslində ismarıc olmalı idi) cümlələr bədii tutumuna görə diqqəti cəlb edir. Deməli müəllifə ismarıc və ya məktub göndərən qızlar (onların çoxunun altında qız imzası var) adi, yoldan ötən adamlar deyil, sənətə, sözə qiymət verən və elə buna görə də şairə vurulan insanlardır. Həmin ismarıclardan biri belədir: "Yaşamaq işığa doğru can atmaq deməkdir. Mənim məşəlim sizin əlinizdədir, ömrüm! Sizsizlik arzular xaosu, həsrətiniz xəyallar və əzablar dəfinəsidir, ruhum!"

Mətndəki “ömrüm” və “ruhum” sözləri çıxarılsa, bu bir oxucunun şairə ünvanladığı məktubdur. Dırnaqda verdiyimiz sözlər sadəcə qız aldanışıdır. Bu yeniyetmə hələlik şairin özünümü, poeziyasınımı sevdiyini tam müəyyənləşdirməyib. İllər keçəcək, həmin anın müvəqqəti duyğuları itəcək və gənc başa düşəcək ki, onun vurulduğu Rafiq Yusifoğlunun özü yox, poeziyasıdır. İsmarıc müəllifi kimi şairin özü də hələ çox şeyi tam yəqinləşdirmək halında deyil:

Günəş arzulayan könlün
Düşüb dumana, çiskinə.
Sənin sevdalı qəlbini
Həsrət qoyubdu pis günə...

Şair haqlıdır. Bu “ömrüm”, “ruhum” kəlmələri ismarıc edəni də, şairi də pis günə qoyub. Şeirin sonu hər iki tərəfəin çaşqın vəziyyətdə qaldığını sübut edir:

Niyə könül verdin axı
Saçlarında dən olana?
Ah-uf eləmək yaraşmaz
Sevgilisi mən olana!

Başqa bir şeirində bu tipli sevgiləri şimşəyə bənzədən şair tam yəqinləşdirir ki, bu müvəqqəti parıltılar tezliklə yox olacaq. Lakin lirik qəhrəman bununla razılaşmır. Yeni ismarıc göndərir: “Nə haqla sevgimizin ömrünü şimşəyə bənzədirsiniz? Hisslərimi kiçildərək təhqir etdiyinizin fərqindəsinizmi?” Bu ismarıcın cavabını şair belə verir:

Kədər buludları çəkdi köçünü,
Qəlbimin həmdəmi qərib göylərdi.
Sevgi yağışları yudu içimi,
Çat-çat ürəyimdə həsrət göyərdi.

Bəzən iddia edirlər ki, sevgi şeirləri yalnız hissin məhsuludur. Orada insan ağlı, məntiq iştirak etmir. Rafiqin şeirlərində ağıllı məntiq duyğu ilə bərabərhüquqlu komponentlər kimi çıxış edir. Hiss insanı həyəcanlandırır, məntiq hissləri cilovlayır.

Sən eşqin göylərində
şimşək kimi çaxa bilsən,
Bir dəstə çiçəklə
yolumun üstünə çıxa bilsən,
təbiətə sevgimizin gözləri ilə
baxa bilsən,
görəcəksən ki,
dünya necə gözəldir...

"Sevdalı ömür" şeirinin bu hissəsi məntiqə əsaslanır. Lakin elə həmin misralardan sonra oxuyuruq:

Yamyaşıl payız otlarının
üstündə bərq vuran
qızılı xəzəldir...

Bu misralar isə məntiqdən daha çox hiss və emosiya ilə bağlıdır. Yaşıl otların üstündə payız yarpaqlarının bərq vurması təkcə ilin yazı ilə payızının növbələşməsi mənasında deyil, həm də bir peyzaj kimi diqqəti cəlb edir. Şeirlərin alt qatında belə bir məntiq də gizlənir ki, sevgi eyş və işrət deyil, həyatdır, bütün cəhətləri ilə gözəldir. Payızı da yazı kimi əzizdir, müqəddəsdir. Bəlkə ona görə şair "yuxuda sizi gördüm, kimsə mənə deyirdi ki, siz hamıya Allahın gözü ilə baxırsınız, ona görə hamını sevirsiniz. Bu nikbinlik, dərinlik ordandır. Bu yuxu deyilmiş!" ismarıcına yazdığı şeirində deyir:

Qəlbi təmiz olanların
Səsini Tanrı eşidir.

Mən kiməm sevəm, seviləm,
Məhəbbət Tanrı işidir!

Rafiq Yusifoğlunun şeirlərinin öz fəlsəfəsi var:

Adi bir insan ömrünü
Nağıl eləyib şairlər.
Göydən gələn bumbuz qarı
Noğul eləyib şairlər.

Qız alıb, gəlin köçürüb,
Gənclərə "buta" içirib,
Neçə-neçə ögey dərdi
Öz köynəyindən keçirib,
Oğul eləyib şairlər.

Şairlər daim sevgi toranında, eşq burulğanında həyatını qərq etməyə çalışan lirik qəhrəmanlar yaradırlar. Görünür bu, poeziyanın qanunudur. Lakin eyni zamanda şairlər bu tufanların qoynunda vətəndaş olduqlarını yaddan çıxarmırlar. Rafiq bir an da olsun düşmən tapdağında qalan və həsrət-həsrət bu tərəflərə boylanan dağları da unutmur. O yazır:

Ana torpaq, bizsiz qaldın,
Sənsiz gözümüz qaralıb.
Sənin özün qapqarasan,
Bizim üzümüz qaradı...

Bu misraları oxuyanda başa düşürsən ki, kəpənək kimi güldən-gülə, çiçəkdən-çiçəyə qonan şair ürəyinin dərinliyində daha böyük, daha müqəddəs bir sevgi yaşayır. Rafiq Yusifoğlunu da yaşadan bu sevgidir, bu amaldır.

**Zahid Xəlil,**
**filologiya elmləri doktoru, professor.**
*"Respublika" qəzeti, 15 yanvar 2010.*

## RAFIQ YUSIFOĞLU – 60

Görkəmli şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, "Göyərçin" jurnalının baş redaktoru, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun 60 yaşı tamam olur. Bütün həyatını, ömrünü şeirə, sənətə, ədəbiyyata, onun tədqiqi və təbliğinə həsr edən Rafiq Yusifoğlu şərəfli bir ömür və yaradıcılıq yolu keçmişdir. O, 50-yə yaxın kitabın müəllifidir. Şerləri bir sıra dillərə tərcümə edilmiş, sözlərinə xeyli mahnılar bəstələnmiş, əsərləri dərsliklərə düşmüşdür. Rafiq müəllim özü də neçə-neçə dərsliyin müəllifidir. Azərbaycan uşaqlarının ilk dərsliyinin – birinci siniflər üçün "Ana dili" kitabının aparıcı müəlliflərindən biri də Rafiq müəllimdir. Bu kitabda onun 25-dən artıq şeirinin verilməsi də təsadüfi deyildir.
Qəzetimizin yaradıcı kollektivi adından Rafiq Yusifoğlunu yubileyi münasibətilə təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. Güman edirik ki, Azərbaycan Yazıçılar Birliyinin üzvü, istedadlı şair Hikmət Məlikzadənin Rafiq Yusifolu haqqında yazdığı məqalə oxucularda bu görkəmli Azərbaycan şairinin yaradıcılığı və şəxsiyyəti haqqında müəyyən təsəvvür yarada biləcəkdir.

**"Azad Azərbaycan"**

## ZIYALI TƏFƏKKÜRÜ İNSAN HƏYATI ÜÇÜN STİMULDUR

***(İstedadlı şair-alim Rafiq Yusifoğlunun yaradıcılığı barədə qısa qeydlər)***

"Ziyalı təfəkkürü insan həyatı üçün stimuldur". Məhz bu xüsusdan belə bir məntiq hasil etmək olur ki, qədim təsəvvürlərin əhəmiyyətli xüsusiyyətləri həyatın xronoloji mətnidir. Elmli insan bu idraki prosesin tənzimlənməsində böyük rol oynayır. Elmi, idrakı və aydın təfəkkürü ilə insanların dərin rəğbətini qazanmış

istedadlı şair Rafiq Yusifoğlu Allahın böyük dəyər verdiyi ziyalılardandır. Onun elmi təfəkkürü məhz insan və zaman anlamını özündə ehtiva edir.

İnsanın özünüdərk prosesi inkişaf tapdıqca möhtəşəmlik elmlə təmas yaradır. Bu təmasdan doğan simptomlar ilk növbədə həyati qanunauyğunluqların paraqmatik şəkli kimi təsir bağışlayır. Buradan isə belə bir nəticəyə gəlmək olar ki, cəmiyyətin sosial-ictimai strukturundakı nisbi sadəlik nə mistik anlayışdır, nə də ki, aqressiv poetikadır. Bu, kosmoqonik miflərdə əyaniləşdirilmiş qənaətdir. Bu elmi-fəlsəfi yozumu anlamaq, idraka sığışdırmaq üçün həmişə ziyalı köməyinə ehtiyac duymuşuq.

Rafiq Yusifoğlunun insan anlamına və onun bəşəri-fəlsəfi meyar kimi səciyyələndirilməsi prosesinə münasibəti həmişə müsbət olub. Onun bəşəri duyğuları böyükdür və bu duyğularda elmi-fəlsəfi bir anlam var. (Məhz bu uyğunluqdan doğur hərdən dünyanı ehtizaza gətirən amillər…) O, özünün insanlıq missiyasını əsl həqiqət timsalı kimi bəyan edə bilib.

Məşhur əxlaq nəzəriyyəçisi T.Karleyl fikirlə fəaliyyətin əlaqəsindən bəhs edərək yazmışdır: "Fikir fəaliyyətin anasıdır, onun canlı ürəyidir. Fikir fəaliyyətin yalnız təşəbbüsçüsü deyil, eyni zamanda, onun qoruyucusudur. Buna görə də fikir yer üzündə də bütün insan həyatının əsası, başlanğıcı və ən dərin mahiyyətidir".

Rafiq Yusifoğlunun bədii-elmi təfəkküründən bir nəticə doğur: "İdrak keçmiş deyil, indiki və gələcək fikirlərin qaynağından ibarət uzun bir zəncirdir." Demək, fikir həm də idraki prosesləri tənzimləyən məsamədir.

Ədəbiyyatda mənəviyyata üstünlük verən poetensial imkanlarımız az deyil. Rafiq Yusifoğlu mənəviyyatı həyatın amalı hesab edir. Onun fikir dünyasında əxlaqdan kənar (vulqar) söz yoxdur. O, bir də ona görə yüksək nüfuz sahibidir ki, mənəviyyatla yüksək ideyalar üzərində sistemləşən fəaliyyəti üz-üzə qoymur, əksinə, onların vəhdətinə çalışır, buna nail olan kimi isə strateji niyyətini real fəaliyyətində sübut edir. Bu da onun bir daha insan

və ziyalı-vətəndaş olmasının məntiqi nəticəsidir. Əbəs yerə deyildir ki, bu gün o, ardıcıl, yorulmaz, diqqətəlayiq ictimai-ədəbi, elmi-publisistik fəaliyyəti ilə “zəfəri maddiyyat körpüsündə sərvətdən sui istifadə etməyə cəhd edənlər deyil, xalqla bir olub həyatlarında zəhmətə böyük yer ayıranlar qazanır” fikrini təsdiqləyir.

Rafiq Yusifoğlu özünün hələ büruzə vermədiyi uğurlu əməli fəaliyyət və manevr imkanlarından, perspektivini şərtləndirən qabiliyyət və istedadından, sosial baza ilə işləmək bacarığından da xali deyil. O, hadisələri qabaqlamaq kimi fitri uzaqgörənliyə malik olsa da, zərurətə daha çox önəm verir. O, çoxlarının qibtə edəcəyi kimi tərbiyyat sahibidir.

Səmimi etiraf edək ki, Rafiq Yusifoğlunun əksər şeirləri cəmiyyətlərə üsyandır, cihaddır. Onun bu tərz şeirləri min illərin ictimai-tarixi, həyati-bəşəri məziyyətlərini özündə sistemləşdirir. O, ədəbiyyatın psixoloji-həyati istiqamətlərini yaxşı bilir və hər hansı bir mövzuya müraciət edərkən, fikir burulğanında itib-batmır. Şairin şeirləri ədəbiyyatımızın inkişaf istiqamətlərinin müəyyənləşməsi üçün zəmin yarada biləcək şeirlərdir. Bu şeirlərin spesifik xüsusiyyətləri, paradoksal-funksional sistem ardıcıllığı, ədəbi-bədii fikir sistematikası, parametrik göstəriciləri, bədii-estetik düşüncə tərzi, elmi-nəzəri və metodoloji siqləti və s. oxucu diqqətini cəlb edir və kütlədə böyük maraq doğurur. Bu şeirlər həm də ədəbi-bədii fikrin struktur təhlili nöqteyi-nəzərindən də xüsusi əhəmiyyət kəsb edir. Onun şeirlərində şair düşüncəsinin yayılma arealı genişdir; belə deyək, bütün dünyadır, fikirlər məntiqi baxımdan mövcud çərçivədən aşıb keçir.

Rafiq Yusifoğlunun şeirləri fikir dərinliyi, axıcılığı və ürəyəyatımlı olması baxımından oxucunun diqqətini özünə çəkə bilir. Onun şeirlərindəki misralarda fikir dolğundur, eləcə də bu misraların hər biri ayrı-ayrılıqda böyük məna kəsb edir.

Məhsuldar ömrünün böyük bir hissəsini insanların qəlbində elm, zəka və təfəkkür məşəli yandırmağa, poeziyanı sevdirməyə, ədəbiyyatın yüksəlişinə sərf etmiş Rafiq Yusifoğlunun müxtəlif

səpkili ədəbi-bədii, publisistik materialları, onun barəsində rəylər bu ədəbiyyat bilicisinin xarakter cizgilərini geniş auditoriyaya tanıtdırır. Onun bütün qələm nümunələrinin məqsədi demək olar ki, məhz budur.

Yüksək ziyalı mədəniyyəti, nəcib xarakterik keyfiyyətləri ilə seçilən şair zahirən sakit, təmkinli görünsə də, daxilən narahatdır. Ətrafda və dünyada baş verən hadisələri diqqətlə müşahidə edərək qəlbinin süzgəcindən keçirir. Qarabağ dərdləri, Qarabağ ağrısı şairi göynədir.

Rafiq Yusifoğlunun yaradıcılığının tamlığı, özünəməxsusluğu ədəbi irsinin tənzimatıdır. Şairin ümumi yaradıcılığında əsas olaraq ictimai-dünyəvi xüsusat səciyyəvi xarakter daşıyır, sosial-əxlaqi predmetlər, fəlsəfi-etik kateqoriyalar əsas hal kimi ehtiva olunur.

Şairin bir sıra şeirlərində təsvir etdiyi psixoloji aləmin inikası ədəbiyyatımızın mövcud vəziyyətin qarşısına qoyduğu tələblərə cavab verir, fikir və məzmun temperamentləri vahid bir bədii-məntiqi sonluqla tamlıq yaradır. Müəllif təxəyyülündə canlandırdğı dəqiq müşahidələri konkret bədii meyarlarla əsaslandırmaqda heç bir çətinlik çəkmir. Həmçinin bu şeirlərində müəllifin fikir qaynağı əsas etibarilə xalqın milli ideologiyası, tarixi və ictimai məziyyətləri kontekstində cilalanır.

İstedadlı şair, sağlam təfəkkürlü ziyalı-vətəndaş, alim Rafiq Yusifoğlunun şeirlərində həyat həqiqətləri, poetik çılğınlıq, kəskin təzad və s. yerləşib. Müəllifin bütöv yaradıcılığı boyu əsas obrazı SÖZdür.

O, ziddiyyətdən uzaq adamdır. Amma ziddiyyətli məqamları ustalıqla yaradır və bu ziddiyyətlər birbaşa sağlam sözə, fikrə rəng vurur. Ən nəhayət, onun ziddiyyətində bir mənəvi ağırlıq var.

Şairin bütün kitablarında demək olar ki, yetərli həyat fəlsəfəsi var. Bu fəlsəfə mənəvi və insani amilləri gücləndirməklə, həyatın mahiyyət baxımından dəyərini artırır. Müəllif yaradıcılığında əxlaqi dəyərlərə də geniş yer ayırır, şeirlərinin dili

ilə maddi, mənəvi və zahiri məsələlərdə həyati gerçəklikləri yaşam üçün meyar kimi səciyyələndirir.

İnsanın bir şəxsiyyət kimi formalaşa bilməsi əsrlər tələb edir. Rafiq Yusifoğlu da məhz bu hissə işarə vurur, insan və tamah arasındakı pillələri aspekt-aspekt, sıra-sıra müzakirə obyektinə çevirir. Bu müzakirədə (bir neçə şeirində) müəllif insanın daxili iztirabını və sarsıntısını həm də qabarıq verə bilib.

İnsan amilinə münasibət Rafiq Yusifoğlu üçün xarakterikdir. Onun şeirlərində təkcə yarımçıq insanlara nifrət deyil, həmçinin, bu nifrətin insan həyatı ilə mübarizədə əksini tapa bilməsi əsas amil kimi qabardılır. Bu, müəllifin yaradıcılıq uğurudur və bu uğur bir çox məqamlarda özünü aydın şəkildə göstərməkdədir.

Belinski yazır: “Bədii əsər birdən-birə yox, tədriclə açılır…” Bu fikirdə yekdil həqiqət var. Rafiq Yusifoğlunun şeirlərini hər dəfə bir ayrı kontekstdə görür və tədqiq edirəm. Bu da ona dəlalət edir ki, onun bir şair kimi fikirləri qapalı, hissləri pərdəli, lakin mövqeyi aydındır. Müəllifin bir sıra şeirlərində emosional səciyyə, estetik cəhət məxsusi əlamətlərlə özünü təzahür etdirir. Bu şeirlərdə şairin həyata və gerçək hadisələrə qarşı həssaslığı oxucuda marağı artırır.

Rafiq Yusifoğlunun şeirləri oxucu zövqünün mərkəz nöqtəsi hesab edilə bilər. Bu şeirlərdə söz məntiqin açarı kimi təqdim olunur. Bu şeirlərdə bir-birinə söykək olan bədii-fəlsəfi fikrin bir neçə qatda olduğunu görürük. Həm də aydın görürük ki, müəllif həm ağıl və məntiqə, həm də hisslərə əsaslanır. Bəlkə də bu səbəbdəndir ki, şairin bir çox şeirlərində hissin izharı üçün ideal fitri zəmin var.

Bildiyimiz kimi, insanın özü və ətrafdakılarla rabitəsi həyatın əsas istiqamətlərindən biridir. R. Yusifoğlunun əksər şeirlərində bu əlaqəni bədii söz sistemləşdirir; o söz ki, ruhi, mənəvi təkamül üçün rəmzi bir açardır. Şair bu kontekstdə oxucunu öz məsləkində iki nöqtəyə diqqət yetirməyi vacib buyurur: birinci nöqtə düşüncə və fikrin nəticəsi, ikinci nöqtə isə fikrin mahiyyət

etibarilə iman və təqva prinsiplərinə təqdis edilməsidir. Şübhəsiz, çirkin fikir və düşüncə nəticə olaraq fərdin fiziki və psixoloji sağlamlığına dağıdıcı təsir göstərə bilər. Qatı qaranlıqlar insanda qəzəb doğurar. Qəzəb də şəxsiyyətin bir çalarına çevrilər və bütünlükdə vücuda hopar. Müəllif oxucunu bu məqsəddən uzaq durmağa çağırır. Çünki izdivacın uzun çəkməsi total təfəkkürə əsaslanmaq üçün sağlam ideoloji təsirlərə qapı açır…

Rafiq Yusifoğlu şeirlərində oxucuda mehr-məhəbbət, ağıl və düşüncə nişanəsi, zidd rəftara yol verməmək prinsipi aşılayır. Bu aşılamadan aydın olur ki, insan üçün vacib olan müştərək həyatın davamı problem halqasına ilişmir, insan özü isə bir fərd olaraq vahid bir etiqadi nizama üz tutur. Çünki insanın öz "mən"i ilə ikili həyatını təkcə gözəllik deyil, həm də qarşılıqlı anlaşma, ruhi kamillik və təmiz əxlaq tamamlayır.

Rafiq Yusifoğlu şeiri təkcə yazmır, həm də yaşayır. Bəlkə də bu üzdəndir ki, o, adi bir misrasında poetik ruhunun işığı ilə min illərin qaranlıqlarını aydınlığa çevirir. O, həm də qələm nümunələrini psixoloji və ictimai zərbələrdən qorumağı ustalıqla bacarır. Bundan ötrü o, hər düşündüyünü, ağlından keçən deyil, ağlının real düşüncə üçün hazırladığı məqamları qələmə alır, nəticə etibarilə uyğun şeirlər ortaya qoyur. Onun şeirləri tam bəsirət və arxayınlıqla hər hansı bir filoloji təhlil üçün fikir yürütməyə zəmin yaradır. Mən deyərdim bu istixarəli kişinin yazdığı hər bir şeir ayrı-ayrılıqda bir duadır və bu dualar cəmiyyətimiz üçün aktual olan bütün məsələlərdə öz spesifik cəhətlərini təzahür etdirir. Ən xoşagələn cəhət də budur ki, Rafiq Yusifoğlu Allaha istixarəsi ilə Onun lütf və yaradanına ümidi artırır, hər bir duada (şeirdə) hüsn-zən və xoşbinliyi özündən kənar etmir.

Rafiq Yusifoğlunun şeirlərində qeyri-məntiqi tələb yoxdur. Qeyri-məntiqi tələblər ixtilaf və narazılıq yaradır. Lakin şair bu kontekstdə məqam üzrə fikir sistemləşdirir və xüsusi ideala üz çevirir, həmçinin, ikiistiqamətli amillərlə ardıcıl, geniş təmas qurur.

Dünyəvi baxımdan eşq bir meyar kimi bütün dövrlərdə təsbit olunub. Bir sıra fəlsəfi cərəyan və məzhəblər eşqə ikinci dərəcəli faktor kimi nəzər yetiriblər, amma həyatın ideologiyasını vahid bir çevrədə sistem halında tədqiq edən şairlər - elə Rafiq Yusifoğlu da eşqi həyat üçün nüvə hesab edir.

Rafiq Yusifoğlunun kitablarında SÖZün müxtəlif təzahür formalarını görürük. Bu kitablarda SÖZ insan vücudunda gözəl görkəmi xatırladır, şairlə oxucu arasında rabitə yaradır, həyati amilləri eqoist əhval-ruhiyyənin caynağında giriftar olmaqdan qurtarır, oxucuya həyatı yaxşı dərk etmək istiqamətində fiziki və psixoloji imkanlar verir. Nəhayət, bu kitablarda böyük sözün ən mühüm mənəvi vəzifəsi özünü aşkar edir, şairin sözlə təması əhdə sadiqlik şərti kimi səciyyələnir.

Çox sevindirici haldır ki, Rafiq Yusifoğlu ekstremal - həyatında baş vermiş amillərə xarici səbəblər: qismət, təsadüf, ətraf mühit tapmağa meyilli insan, şəxs deyil. Onun mənən güclü, daxilən saf və təmiz olması insanı empatiya (emosional vəziyyəti dərk etmə, başqa insanların həyəcanlarına şərik olma) vəziyyətinə gətirib çıxarır. Onun xarakteri, xasiyyəti həm şəxsiyyətinin, həm yaradıcılığının açılması üçün stimul verir.

Rafiq Yusifoğlunun yaradıcılığı kifayət qədər mürəkkəb məsələlərə kifayət qədər maraqlı tərzdə istinad edir. Ədəbi müstəvidə bu məsələlərə münasibətin sinkretik şəkil alması şairin oxucunu paradoksal vəziyyətdən çıxış yoluna istiqamətləndirməsi kimi səciyyələnir. Şairin şeirlərinin bədii səciyyəsi və tarixi əhəmiyyəti bir sıra periodik amilləri özündə mərkəzləşdirir. Onun ədəbi düşüncələrinin dinamikası rassionar fakt kimi oxucunu ehtizaza gətirir. Ən yaxşı hal odur ki, şair bütün şeirlərində hadisələrə ədəbi baxışını, insan faktoru və həyat kodeksinin müxtəlifliyini, onun spesifik incəliklərini aydın şəkildə şərh edə bilmişdir. Şairin yaradıcılığında insan və zaman anlayışı, müəllifin həyat fenomeninə münasibəti zənnimcə, bəşəri-məfkurəvi hisslərin sinkretikasıdır.

Rafiq Yusifoğlunun yaradıcılığının sanbalı onun təkcə bədii-elmi dəyəri ilə deyil, həm də dolğun məzmunu ilə ölçülür. “Elə kitablar var ki, onların ancaq dadına baxmaq, elələri də var ki, onları ən azı su kimi içmək lazımdır; nəhayət, bir parçasını çeynəyib həzm etməyə dəyər; başqa sözlə, bəzi kitabları ancaq qismən, digərlərini etinasız, nəhayət, bir parçasını başdan-ayağa, həm də diqqətlə oxumaq lazımdır.” – Bunu filosof Beko yazır. Bu dahi alimin fikirləri bütün dövrlərlə səsləşir. Tam cəsarətlə deyə bilərəm ki, yaradıcılığına və şəxsiyyətinə dərin hörmət bəslədiyim şair-alim Rafiq Yusifoğlunun kitabları “çeynəyib həzm etməyə” və diqqətlə oxumağa layiq kitablardır.

Deyirlər ki, daxili ədalətə nail olmadan ictimai ədalətə qovuşmaq mümkünsüzdür. Yalnız Tanrıya qul olmaqla həqiqi azadlığın ləzzətini dadmaq olar. Daha doğrusu, həqiqi azadlıq Allaha qul olmaqdan başqa bir şey deyil. Rafiq Yusifoğlunun dünyəvi ruhda şeirləri oxucuya aydınladır ki, meyl və istəklər seli qarşısında vüqarla dayana bilən insan insanlıq zirvəsinə ucalır, həqiqi hürriyyətə qovuşur, kamil insan olmaq şərəfinə nail olur. Bu mübarizədə kamil insan hər halda qalibdir. Yalnız iman və mənəviyyatdan qaynaqlanan bir əqidə bəşəriyyəti uçuruma yuvarlanmaqdan xilas edə bilər. Cəhalət və nadanlıq, mənəviyyatsızlıq və inamsızlıq bataqlığında boğulan bir toplumu peyğəmbər elm və iman yolu ilə qısa bir zamanda mütərəqqi bir millətə çevirdi. Rafiq Yusifoğlu isə şair kimi bu kontekstdə insanın zaman-məkan çərçivəsində vətəndaş mövqeyini qorumasını Allaha tapınmaq faktoru ilə təsdiqləyir.

**Hikmət Məlikzadə,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

*“Bütöv Azərbaycan” qəzeti, 25-31 dekabr 2009-cu il.*

## TƏFƏKKÜRLƏ TƏXƏYYÜL QOVUŞANDA

Qəbri qürbətdə – yadelli, özgə dinli əsgərlərin çəkmələri altında inləyən İraqın müqəddəs şəhərlərindən birində itib-batmış, ruhu:

Eşim qərib,
Eşim, yoldaşım qərib,
Bilməm mən nerəliyim,
Torpağım, daşım qərib. –

misraları ilə böyüyən Mövlanə Füzulinin şah əsərinin qəhrəmanı Məcnun müqəddəs Kəbəni ziyarət edərkən Ulu Yaradana üz tutaraq deyir:

Ya Rəb, bəlayi-eşq ilə qıl aşina məni,
Bir dəm bəlayi-eşqdən etmə cüda məni.

Yəni, dünya ədəbiyyatında ən humanist obrazlardan biri olan Qeys yarımçıq aşiq olmağı istəmir. Sufi təliminin prinsiplərinə uyğun olaraq Məhəmməd Füzuli xalis aşiq obrazı yaradır, onun qəhrəmanı üçün eşq bəlası həyatın mənasıdır.

Füzulinin əsəri şöhrətlənəndən sonra məhəbbət rübabını çoxları çalıblar. Onlardan biri yazıb:

Sevən qəlbdə nə sırsıra, nə şaxta? –
Salıb mənim saçlarıma sevgi dən.
Ulu Tanrım, gözlərimi işıqdan,
Ürəyimi əskik etmə sevgidən.

Bu misralar özü Füzuli sənətinin davamçısı olan, dili lətifəli, ürəyi sevgi ilə dolu olan, fəqət İraq səhrasında deyil, böyük Azərbaycanda, Sumqayıt və Bakıda özünə hörmət və məhəbbət qazanmış, insanlarla ünsiyyətdə doğmalaşmış bir dağlar oğlunun – Rafiq Yusif oğlu Əliyevin qəlbindən qələminə süzülüb. İlahinin alın yazısına baxın: onun adının mənası dostdur, atası din tarixində və bədii ədəbiyyatda məşhur olan peyğəmbərin – obrazın adını

daşıyıb. Soy adı isə İslam tarixində sevimli Peyğəmbərimizin adı ilə qoşa çəkilən yenilməz bahadırın, tarixi faciənin iştirakçısının adı ilə bağlıdır. Rafiq Qubadlı torpağında dünyaya göz açıb, müəllim ailəsində böyüyüb, Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirib. Həyata Sumqayıtda qədəm basıb, burada yurd-yuva qurub, sacayağı üç övlad böyüdüb. Və iki qüdrətli yaradıcılıq amili onu böyük arenaya çıxarıb. Rafiq Yusifoğlu bir şair, bir alim, bir publisist, bir müəllim-pedaqoq kimi tanınıb. Və keçmiş SSRI məkanında keçirilmiş ədəbi məclislərdə Azərbaycanı təmsil edib, harada olubsa, yumruq boyda ürəyində Vətən boyda sevgi daşıyıb:

Olsam da dünyanın hansı başında,
Qəlbimdə eşq varsa, vətənimdəyəm…

Nədir eşq? Ulu Nizaminin misralarını dinləyək:

Eşqdir mehrabı uca göylərin…

Azərbaycan klassik ədəbiyyatının başlıca bədii-fəlsəfi tərəflərindən biri olan təsəvvüfə görə, eşq bəşərin Tanrı ilə ruhi yaxınlığıdır, eşq ilahi sirdir. Dünyəvi (nəfs üçün), ilahi (ruh üçün), həqiqi (insanı dini, əqli, irqi, milli və zahiri məhdudiyyətlərdən azad edib, onu ümumbəşəri dəyərlərə yönəltmək üçün) eşq kimi Qəzzali ("Kimyayi-səadət" əsəri) tərəfindən təsnif olunan nəfsi paklaşdırıb kamilliyə yüksəldən əxlaqi-mənəvi amildir. Eşqlə insan özünü, Tanrı və kainatı tanıyır.

Rafiq Yusifoğlu Tanrının xoş nəzərlərlə baxdığı bəndələrdəndir; özündə təfəkkürlə təxəyyülü birləşdirən bir insandır. Və onun qeyri-adiliyi də bundadır.

Bəllidir ki, dünyanı anlamaq və ondan faydalanmaq vasitəsi və aləti ağıldır. Ağıl ərəb mənşəli əql sözü ilə bağlıdır. Əql Ərəbistanda dəvənin ayağına bağlamaq üçün ipdir. Əqli dəvənin ayağına bağlayırlar ki, onun üçün müəyyən edilmiş yerdən kənara çıxmasın. Şəms Təbrizi yazırdı: "Ağıl insanları bağlayan bənddir".

İnsan təfəkkür qanunları və məntiqlə dünyanı, özünü dərk edir, kainatı öyrənir. Hadisələr, faktlar dərk olunur, onları doğuran

səbəblər açıqlanır, nəticələr ümumiləşdirilir. Nəsillərin həyat təcrübəsi və bunun elmi-fəlsəfi ümumiləşdirilməsi məhz ağlın nəticəsində – traktat və monoqrafiyalarda, məqalələrdə zaman-zaman yaşayır. Elmin sayəsində bəşər zəkası zənginləşir, insan əqli cəhətdən kamilləşir. Rafiq Yusifoğlu təfəkkür sahibidir. O, çağdaş dövr Azərbaycan ədəbiyyatşünaslığında özünəməxsus yeri olan filoloq alimdir.

Neçə il əvvəl mərhum şair-alim Qasım Qasımzadənin rəhbərliyi altında namizədlik dissertasiyası müdafiə etmiş Rafiq Yusifoğlu ümumtəhsil məktəblərinin birinci sinifləri üçün "Ana dili" (şərikli), ali məktəb tələbələri üçün "Ədəbiyyatşünaslığın əsasları", "Uşaq ədəbiyyatı" dərsliklərinin, "Müasir ədəbi proses və ədəbi tənqid" dərs vəsaitinin müəllifidir. "Ədəbiyyatşünaslığın əsasları" və "Müasir ədəbi proses və ədəbi tənqid" kitabları dərs vəsaiti kimi ali məktəblərdə geniş istifadə olunur. Anlaşıqlı bir dildə, zəngin bədii faktlara əsaslanmaqla yazılmış bu əsərlər hazırda ali təhsil sistemimizdə elmi-metodik təminat sahəsindəki boşluğu doldurmaq üçün vaxtında çap olunmuşdur.

Son illər araya-ərsəyə gəlməsinə böyük ehtiyac hiss olunan əsərlərdən biri uşaq ədəbiyyatı ilə bağlıdır. Professor Qara Namazovun "Azərbaycan uşaq ədəbiyyatı" dərsliyindən sonra bu sahədə boşluq yaranmışdı. Rafiq Yusifoğlunun 2002-ci ildə Təhsil Nazirliyi Elmi-Metodik Şurasının "Məktəbəqədər tərbiyə və ibtidai məktəb" bölməsinin qərarı və Təhsil Nazirinin əmri ilə çap olunmuş "Uşaq ədəbiyyatı" dərsliyi dəyərli bir kitabdır.

Professor Rafiq Yusifoğlunun dəyərli əsərlərindən biri də poema janrının ədəbiyyatımızda inkişafı məsələlərinə həsr olunmuşdur. İlk dəfə Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə 1998-ci ildə "Elm" nəşriyyatında çap olunan bu monoqrafiyanın ("Azərbaycan poeması: axtarışlar, perspektivlər") yeni təkmilləşdirilmiş variantı da ("Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri") Təhsil Nazirliyi tərfəindən dərs vəsaiti kimi təsdiq olunmuş və bu il nəşr olunaraq oxucuların istifadəsinə verilmişdir. Müəllif kitabda alleqorik poema,

düşüncələr poeması, poema-əfsanə, poema-rəvayət, publisistik poema, kino-poema, fantastik poema və s. tipli əsərlərə geniş təhlil verdiyi monoqrafiyası ilə özünü yetkin bir tədqiqatçı kimi təsdiq etmişdir.

Buraya qədər yazdıqlarım alim Rafiq Yusif oğlu Əliyevin elmi araşdırmalarından soraq verən faktlardır.

***

Yenə də təsəvvüfə üz tutaq. Ağıl məhdudluq, bağlılıqdır, qəlb isə genişlikdir. Sufizm qəlb nuru və mənəviyyatla birləşməyən ağılı kor kimi tanıyır. Sufizm təlimini rəsmi islam dini çərçivəsinə yeridə bilmiş böyük sufizm nəzəriyyəçisi Məhəmməd Qəzzali yazırdı ki, qəlbin iki pəncərəsi var: hisslər aləmi, ruhlar aləmi. Qəlb ruh ilə nəfs arasında işıqlı bir gövhərdir.

Eşq daxili işıqlandırır, qəlb duyumu ağıl və məntiqin aciz qaldığı sərhədləri aşıb, bəşər təxəyyülünün qüdrətini tarazlayır. Sufiliyə görə, insanı bütün canlı və mələklərdən üstün eşq və mərifətdir. Mərifət bilikdir, onunla bağlıdır. Mərhələlərdən keçir. Eşq fəlsəfəsi isə mərifətin keyfiyyətcə yeni, son, yüksək mərhələsidir. Arif şəxsin eşqi daimi, vüsal anları keçicidir. Vüsal daimi və mümkün deyil, arzu və idealdır.

Rafiq Yusifoğlunun şeirlərini mövzu üzrə qruplaşdırma cəhdi belə nəticələndi: uşaq psixologiyası ilə səsləşən, klassik uşaq şeirləri poetikası ilə naxışlanmış əsərlər; Azərbaycan təbiətinin gözəllik və ülviyyətinin sözdə əksi olan şeirləri insan gözəlliyi və məhəbbətin insanda-şairdə oyadıb heyrət və intibahın ifadəsi olan poetik parçalar; həyat, kainat və insan təbiəti barədə bədii-fəlsəfi duyumların təsviri olan şeirlər… Bu şeirlər onun "Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı cığır", "Qəm karvanı", "Həsrət köçü", "Təzə sevdalara doğru", "Çiçək yağışı", "Ayrılığın qəm hasarı", "Həsrət sazağı", "Sevdalı sabahlar", "Eşqin qarlı yollarında", "Dəniz, sən və mən" adlı kitablarında toplanmışdır. Və bu kitablardan birinin – "Ayrılığın qəm hasarı" kitabının mündəricəsinə, kitabdakı bölmələrə baxaq: "Zirvəyə

gedən yollar", "Qızlar, məni xatırlayın", "Məhəbbətin sevinc fəsli", "Sevgi dalğaları", "Həsrət sazağı"…

Gözəllik önündə mat qalan şair üçün insan gözəlliyi, təbiət, mənəvi saflıq gözəllik qaynaqlarıdır (Henrix Heyne özünü gözəllik ilahəsinin ayaqlarına yıxıb).

"Yurd yeri" şeirində müəllif ona ünvanlanmış bir məktubun doğurduğu təəssüratı poetizmlərlə ifadə edir. Və bu hiss-təəssüratda Vətən yanğısı, yurd həsrəti üstünlük təşkil edir. Son misralara fikir verin, görün şair ürəyi necə geniş və böyük imiş:

Deyirsən: bizim dağların yerini heç hara vermir,
Ürəyində ağrı, nisgil, gözlərində yaş gəlmisən.
Mənim şair ürəyimdə ağrılar heç ara vermir,
Qəlbim qaçqınlar yurdudur, öz yurduna xoş gəlmisən!..

Rafiq Yusifoğlu bu gün keçmiş şagirdlərin, ali və orta ixtisas məktəblərində mühazirələr oxuduğu tələbələrin sevimli müəlliminə çevrilib. O, bu ənənəni İ.Şıxlı, F.Qasımzadə, M.Təhmasib, Ə.Dəmirçizadə, P.Əfəndiyev kimi müəllimlərdən miras olaraq qəbul edib. Ruhu qarşısında baş əydiyi müəllimlərdən biri dosent Əhəd Hüseynovdur. Rafiqin ötən əsrin 70-ci illərində yazıb "Azərbaycan müəllimi"ndə çap etdirdiyi şeirlərdən biri tanınmış alim-tənqidçi Əhəd Hüseynova ithaf edilib. R.Yusifoğlu tələbəlik illərinin təəssürat və duyumlarını belə ifadə edib:

Yarımçıq qoymazdın gördüyün işi,
Həyatdan dərs idi həyatın bizə.
Ölümdən söz düşsə, deyərdin: əşi,
Soyuqluq salmayın ürəyimizə!

"Qız yükü, duz yükü" deyərdin hərdən,
Qızların güləndə qışın yaz oldu.
Qayğılı ürəyin dayandı birdən,
Sənin yeddi qızın yeddi saz oldu.

…Bizi sarsıtsa da o matəm günü,
Qaldı ürəklərdə müqəddəs adın.
Sən qürb edəndə günəş ömrünü,
Bölüb şəfəqlərə bizə payladın.

Kim verə biləcək onun yerini,
Qəlbimdə bir dərin həsrət yaşayır.
Qoru mühazirə dəftərlərini,
Onun hər sətrində Əhəd yaşayır…

Professor Rafiq Yusifoğlu həyatsevər, dili lətifəli bir insandır. O, öz hərəkətləri, söhbətləri ilə dostlarını həyata, gözəl görən gözlərin gülməsini xoşbəxtlik sayır:

…Gözəl görəndə gözlərin gülürsə.
Ürəyin sevgidən inləyə bilirsə,
Qulaqların yarpaqların pıçıltısını,
ləpələrin, quşların səsini
dinləyə bilirsə, daha nə istəyirsən?

…Tanrı səni bu dünyaya gətiribsə,
Gözlərindən qəflət pərdəsini götürübsə,
Qəlbində arzu gülləri bitiribsə,
Səni xoşbəxtliyə, səadətə yetiribsə,
Daha nə istəyirsən? –
Xoşbəxtlik bu deyilmi?

Ömrünün 60 ilini zehni əməklə, bədii yaradıcılıqla yaşayıb tarixə çevirmiş Rafiq Yusifoğlu dövrün, zamanın hadisələrinə heç zaman biganə qalmayıb. Dağlıq Qarabağ hadisələri başlayanda Vətən torpağını qoruyanları "Ön cərgə" şeirində şair belə səciyyələndirərək təqdim edib:

Həmişə yolumuz dirənib dağa,
Göydən başımıza yağıb dolular.

Heç vaxt buraxmayıb bizi qabağa,
Durub ön cərgədə cibi dolular.

Onların bağına axıb yaxşı su,
Kababın yağlısı onlara bişib.
Maşının yaxşısı, evin yaxşısı,
Tikənin yaxşısı onlara düşüb.

Sovrulub havaya istəyin külü,
Gözümüz gül açır ürək dolanda.
Durmuşuq kənarda, boynu bükülü,
Həmişə olmuşuq arxa planda.

Varlının nə işi düşmən önündə,
Çəkilib kənara, dalda yer seçib.
Elin dar günündə, ağır günündə
Arxada olanlar qabağa keçib…

Dünyanın əbədi və tükənməz varı söz-poetizm və terminlər tükənməz sərvəti olan filologiya elmləri doktoru, professor Rafiq Yusif oğlu Əliyev yeni əsrin əvvəllərində də ön cərgədədir. İlahi köməyin olsun!

**Şamxəlil Məmmədov**
**pedaqoji elmlər üzrə fəlsəfə doktoru,**
**əməkdar jurnalist.**

*"Qarabağa aparan yol" qəzeti,*
*26 iyun 2010-cu il.*

# İYİRMİNCİ QRUPUN ŞAİRİ – RAFİQ YUSİFOĞLU

***(Şair, müəllim, filologiya elmləri doktoru, professor, tənqidçi, Əməkdar mədəniyyət işçisi, "Qızıl kəlmə", "Qızıl qələm", "Vətən", "Araz", "Tofiq Mahmud", "İlin ən yaxşı kitabı" mükafatları laueratı, "Göyərçin" jurnalının baş redaktoru Rafiq Yusifoğlunun 60 illiyinə)***

1970-ci ildə ADPU-nun filologiya fakültəsini bitirən 150 tələbənin içində bizim 20-ci qrupun öz yeri var idi. Sən demə, bu qrupda, müəllimimiz Adilə Hacıyevanın deyimi ilə ifadə etsək, "elə indidən seçilən", (yəni tələbə ikən seçilən) gələcəyin elm və sənət adamları oxuyurmuş. Bu "seçilən"lərdən biri Nizami təqaüdçüsü Nizami Xudiyev (Hazırda professor N.Xudiyev) idisə, o birisi 20-ci qrupun şair kimi qəbul etdiyi Rafiq Əliyev – Rafiq Yusifoğlu idi.

Bir-birimiz haqqında söz deyəcəyimizi ağlımıza da gətirməsək belə, indi bu xoş hisslərlə dolu söz böxçasını açmaq lazım gəlir. Nizami Xudiyev haqqında 1995-ci ildə bir yazı yazdım, ancaq onu bir şeirlə əvəz etdiklərindən redaksiya məqaləni ixtisara saldı. O zaman N.Xudiyev Naxçıvan Muxtar Respublikasının Şərur rayonundan Milli Məclisə deputat seçilirdi. Rafiqi isə bir dəfə Nizami adına Ədəbiyyat İnstitutunda gordüm – o da mənim xeyirxahım, indi rəhmətlə andığım, gözəl insan, şair, filologiya elmləri doktoru, "Ədəbiyyatda millilik və beynəlmiləllik" monoqrafiyasına görə Azərbaycanın Dövlət Mükafatını almış Qasım Qasımzadənin rəhbərlik etdiyi şöbənin aspirantı olmuşdu.

Üç il bundan Qabaq Rafiqlə bir də görüşdüm – hərçənd, səsini-sorağını mətbuatdan "eşidirdim". Rafiq, maşallah, sözün həqiqi mənasında cavan oğlana oxşayırdı, heç dəyişməyib, elə bil, illərin isti-soyuğu bu Qubadlılı balasına toxuna bilmir. Məncə, bunun bir sirri var – Rafiq saf adamdı! İçi də, çölü də. Şeiri də

özünə oxşayır – oxuyursan, müəllifi “görürsən”. Rafiq gördü ki, mən onun haqqında köhnə “baqajla” danışıram, xəsislik eləmədən mənə özünün bir xeyli kitabını bağışladı. Bu “bəxşeyişlər” içərisində elmi kitablar da var, bədii əsərləri toplanmış kitablar da. Ona bildirdim ki, poema haqqında monoqrafiyasını mağazadan almışam, “Ədəbiyyatşünaslığın əsasları” kitabını isə Naxçıvan Dövlət Universitetinin tələbələri dərslik kimi istifadə edirlər. Aşağıda mən həmin kitablara istinadən onun haqqında söz açmaq istəyirəm...

O zaman - biz tələbə olanda, Rafiqin yaddaşımda ilişib qalan bir “Söyüdüm” şeiri var idi. Üstündən illər keçsə də, bu şeirin doğurduğu humanist ideyalar hələ də mənə ecaz kimi görünür. Məlumdur ki, hamı sərv və söyüd ağaclarını barsızlıqda günahlandırır. Xəstə Qasım deyirdi “əsli qıtdı”, Səməd Vurğun onu Qacarla müqayisə edirdi və “Söyüd ağacında bar ola bilməz” deyirdi. Natəvan Qərənfili insanlaşdırdığı kimi, Rafiq də söyüdü insanlaşdırır və deyirdi ki, hamı sənə barsız deyir, ancaq “Övladsız qadının yaxşı bilirsən, öz dərdi özünə bəsdi, Söyüdüm!” Bu fikir o zaman on səkkiz yaşlı gənc şairin yadda qalan sözü idi.

Yuxarıda da işarəsini vurduğum kimi, Rafiq Yusifoğlunun yaradıcılığını üç hissəyə nisbət eləmək olar. 1.Poeziya ilə bağlı yardıcılıq. Buraya şairin çoxsaylı şeir və poemaları daxildir. Bunların içərisində janr etibarilə maraq doğuran nağıl-poema da var. 2. Elmi və elmi-metodiki yaradıcılıq. Bu barədə danışarkən R.Yusifoğlunun bir-birinin ardınca çapdan çıxan elmi monoqrafiyalarını, ədəbi-tənqidi məqalələrini, habelə, bir alim kimi elmi mühitdəki fəaliyyətini (Universitetlərdə və Akademiyada elmi-nəzəri çıxışlar, aspirant və dissertantlarla, müdafiə şuralarında iş, dissertasiyalara rəhbərlik və rəy vermək, opponentlik, TEC işlərinə rəhbərlik və s). Aşağıda biz Rafiq müəllimin çap olunmuş dərslikləri haqqında da bəhs edəcəyik. 3.Müəllimlik və naşirlik. Bu zaman unutmaq olmaz ki, Rafiq müəllim 40 ildən artıqdır ki, orta və ali məktəbdə şərəfli müəllim ömrü yaşayır. Onun dərs dediyi şagirdlər, tələbə, magistr və aspirantlar artıq Respublikamızın

həyatında əsl vətən övladı kimi çalışırlar. Bunların içərisində adlı-sanlı adamlar, gözəl ailə başçıları var.

Rafiq neçə illərdir ki, həyatını uşaqların sevimlisi olan "Göyərçin" jurnalı ilə bağlayıb. Bu jurnalda Rafiq 1985-ci ildən işə başlamış, pillə-pillə qalxmış, 1997-ci ildən bu vaxtadək icə onun baş redaktorudur. Bu dövlət və xalq əhəmiyyətli işinə görə o, dövlətimiz tərəfindən təltiflər almışdır.

Rafiq müəllimin Sumqayıt Dövlət Universitetində dərs deyə-deyə hazırladığı "Ədıbiyyatşünaslığın əsasları" kitabı hazırda ən yaxşı ali məktəb dərsliklərindəndir və bi sahədəki boşluğu uğurla doldurur. Yeri gəlmişkən, bu təcrübə, əslində, ali məktəb dərsliyi yaratmağın optimal vasitələrindən biridir. Əli Sultanlının "Antik ədəbiyyat", Məmməd Cəfərin "XIX əsr rus ədəbiyyatı", Afad Qurbanovun "Müasir Azərbaycan dili", Nizami Xudiyevin "Azərbaycan ədəbi dil tarixi" və s. dərsliklər həmin sahə ilə məşğul olan alim-müəllimlərin mühazirə mətnlərindən mənbəyini almışdır. Belə misalların sayını artırmaq da olar.

Rafiq Yusifoğlu uşaq ədəbiyyatının yaradıcısı, naşiri və bilicisidir. Buna görə də Qara Namazovdan sonra Rafiq Yusifoğlunun da haqqı çatıb ki, bir "Uşaq ədəbiyyatı" kitabı yazsın. Bu kitabda müəllifin özünə həsr olunmuş oçerk şair, filologiya elmləri doktoru Zahid Xəlilə məxsusdur və bu da əsil mənəviyyat adamı olan Rafiqin təvazö qaydalarına da əməl etməsi ilə bağlıdır. 2008-ci ilin noyabr ayının 13-də Bakıda keçirilən Beynəlxalq Türk xalqları Uşaq Ədəbiyyatı Konqresində bir çox görkəmli tədqiqatçı və yazarlarla yanaşı, "Göyərçin" jurnalının baş redaktoru, professor Rafiq Yusifoğlunun da "Azərbaycanda uşaq ədəbiyyatının yaranmasında varislik" adlı məruzəsi dinlənilmişdir.

Rafiq haqqında danışarkən Əkrəm Əylislinin Vasili Şukşinin kitabına yazdığı ön sözdə işlətdiyi ***"kəndli inadı ilə"*** ifadəsi yadıma düşdü. Döğrudan da, elmdə də, sənətdə də istedadla yarıbayarı bir zəhmət amili də var. Ağ kağızla üzbəüz oturub istedadın gücünü realizə eləmək qəhrəmanlıq kimi bir işdir.

Mən uşaq ədəbiyyatının keyfiyyətinə bir oxucu marağı ilə yanaşıram - əgər o məni deyiliş tərzi, asan əzbərlənə bilməsi, yadda qalması ilə tutursa, deməli, o, yaxşı şeirdir, yox, əgər o, qəliz yazılıbsa, pis əzbərlənirsə, içində nə qədər gözəl fikir olur-olsun, o şeir uşaqlar üçün uşaq ədəbiyyatı deyil, böyüklər üçün yazılmış uşaq ədəbiyyatıdır. Bu mənada Rafiqin bizim klassik ədəbiyyatda olan uşaq şeirlərinə oxşar olanı, yəni asan qavranılan bədii nümunələri çoxdur. Uşaq ədəbiyyatı yaradıcısı və tədqiqatçısı Zahid Xəlilin qələmindən çıxan yazılarda Rafiqin belə şeirlərindən nümunələr verilib. Əlavə etmək olar ki, R.Yusifoğlunun "Günlərimiz, aylarımız" (2003) kitabında toplanmış neçə-neçə belə şeir tapmaq olar. Musiqisi Cavanşir Quliyevə məxsus olan "Təzə il", dərsliyə düşmüş "Bənövşə, bəndə düşə..." kimi şeirlər dediklərimizə yaxşı nümunədir. Yeri düşmüşkən, "Günlərimiz, aylarımız" kitabında qırx dörd əlamətdar günümüzə həsr olunmuş altmış dörd maraqlı şeir vardır ki, bunlar da orta məktəbdə dərs deyən müəllimin ən yaxşı köməkçisidir.

Heç də təəccüblü deyil ki, hər şairin bir-iki şeiri daha çox yadda qalan olur.

R. Yusifoğlunun çox-çox şeiri var ki, onların birini o birisindən üstün hesab etmək qəbahət olardı. Bu da onun yaradıcılığının genişliyi ilə izah oluna bilər.

R.Yusifoğlunun xeyli şeir kitabları çap olunub. Tədqiqatçıların qeyd etdikləri "Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı cığır", "Qəm karvanı", "Həsrət köçü", "Şirin yağış", "Çiçək yağışı", "Bahar qatarı", "Xatirə kəcavəsi" kimi kitablarından başqa, onun "Ayrılığın qəm hasarı", "Həsrət sazağı", "Daha uşaq deyiləm" kitabları da var. Bunlar da hamısı deyil. "Azərbaycan poeması, axtarışlar, perspektivlər", "Müasir ədəbi proses və ədəbi tənqid", "Bahar qatarı", "Xatirə kəcavəsi", "Böyük arzuya gedən yol", "Təzə sevdalara doğru" və s. Bir sıra kitablarının isə yuxarıda adını çəkmişik.

R.Yusifoğlunun yaradıcılığı haqqında tədqiqat da aparılıb. Gənc tədqiqatçı Aygün Cəfərovanın "Rafiq Yusifoğlu lirikasının

sənətkarlıq xüsusiyyətləri”(2006) adlı monoqrafiyası ətraflılığı və şairi duymaq, başa düşmək xüsusiyyətləri ilə diqqəti çəkir. Mən inanıram ki, R.Yusifoğlunun yaradıcılığı haqqında bundan sonra daha ətraflı tədqiqatlar olacaqdır. Təəssüf ki, bu gözəl monoqrafiya haqqında geniş danışmaq imkanı burada yoxdur.

Sözarası qeyd edərdim ki, çap olunan kitabların region-region yayılması xəstəliyi, ümumazərbaycan səviyyəsində satılmaması, tirajının az olması müəllif-oxucu əlaqəsini çox zəiflətmişdir. Əgər R.Yusifoğlu kimi bir şairi ali məktəblərin filologiya ixtisaslı tələbələri az tanıyırsa, onda vəziyyətin necə olması, məncə, aydındır. Kurs və diplom mövzularından başlayaraq tələbələrdə - gələcəyin tədqiqatçılarında bu sahəyə marağı artırmalıyıq.

R.Yusifoğlunun poetik yaradıcılığını çox geniş mövzu olan uşaq ədəbiyyatı ilə məhdudlaşdırmaq olmaz. Onun lirikası incə bir qəlbin zərif çırpıntılarıdır.

Bu gecə yuxumda görmüşəm səni,
Qorxuram danışam, acığın tuta.
Əllərim köksündən çiçək dərirdi,
Gözlərin dönmüşdü bir top buluda.
Bilirsən heç necə bəxtiyar idim?!
Heyrətdən donmuşdum mən naşı kimi.
Asılıb qalmışdı kirpiklərindən
Ürəyim bir damla göz yaşı kimi.

“Saqqalın çal vədəsində” gələn sevgiyə Rafiq Yusifoğlu Mirzə Şəfi kimi “Ürəyə bax, neyniyirsən yaşı sən?” demir:

Yel əsir, xəzandır məhəbbət bağımda.
Sən mənə tuş oldun ixtiyar çağımda.
Sevdalı günlərim qalıbdır geridə,
Fəridə, Fəridə!

Tam səmimiyyətlə demək olar ki, Rafiqin şeirlərində orta əsrlərin sufi poeziyasından üzü bəri gələn irfan şairin məhəbbət lirikasında bir "vətəndaşlıq" qazanmış sənətkarlıq keyfiyyətidir...

Ədəbiyyatda "Qoşa qanad" ifadəsi var. Bu, yaradıcılığın diferensiallaşması ilə bağlı sözdür. Yazıçı-alim M.İbrahimov, Mir Cəlal, Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Şıxəli Qurbanov, Qasım Qasımzadə, Xəlil Rza, Çingiz Hüseynov, Elçin, Nəriman Həsənzadə, Atif Zeynallı, Kamal Abdulla kimi görkəmli simaların sırasında Rafiq Yusifoğlunun öz yeri olduğu şəksizdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Rafiq filologiya elmləri doktoru, professordur. Onun əsas tədqiqat sahəsi Azərbaycan poemasının inkişaf problemləri və sənətkarlıq məsələləri olsa da, alim bu mövzudan kənara çıxıb aktual bir məsələ - müasir ədəbi proses və ədəbi tənqid kimi çətin, nəzəri hazırlıq tələb edən bir mövzuya cəsarətlə girişmiş və ortalığa sanballı bir monoqrafiya qoymuşdur. 2004-cü ildə "Çaşıoğlu" nəşriyyatı tərəfindən dərs vəsaiti kimi buraxılmış 240 səhifəlik "Müasir ədəbi proses və ədəbi tənqid" monoqrafiyası dediklərimizə sübutdur. Burada aspirant, dissertant, magistr və bakalavrlar, bu sahə ilə məşğul olan mütəxəsisslər ədəbi prosesin gedişindən tutmuş, janr axtarışlarınadək bir sıra mövzuların cavabını tapa bilərlər. Rafiq bu mövzunu bir də ona görə uğurla həll edə bilir ki, o, ədəbi prosesə bələdliyi ilə yanaşı, ədəbiyyat nəzəriyyəsini tədris edən bir alim kimi də səriştəlilik nümayiş etdirir. "Ədəbiyyatşünaslığın əsasları" kitabı bir neçə dəfə təkrar çap olunub. Heç də gizli deyil ki, bu kitab Cəfər Xəndanın, Mikayıl Rəfilinin, Mir Cəlal və Pənah Xəlilovun xronoloji cəhətdən bizdən aralı düşmüş kitablarından sonra müasir tələblərə cavab verən dəyərli kitabdır. Bu kitabda bir sıra yeni müddəalar var ki, onlar həmin kitabı dərslik statusundan çıxarıb ona həm də elmi-tədqiqat mahiyyəti verir. Xüsusilə, əruzun Azərbaycan şeiri əsasında yenilik olaraq təqdim edilən bəhrləri və heca vəznində təqdim edilən fərqli nümunələr (məsələn, onluq şeir nümunəsi) dediklərimizə sübutdur. Bütün bunlar alimin bu işə mütəmadi diqqət yetirdiyini göstərir.

Bu yazıda R.Yusifoğlunun bir sıra kitabları, poemaları haqqında heç danşa bilmədik. Səmimiyyətlə etiraf edirəm ki, istedadlı şair, zəhmətkeş alim Rafiq Yusifoğlunu yaradıcılığını tam əhatə etməyin mümkünsüzlüyünü əvvəlcədən bildiyimdən yazının həcmini bəhanə də gətirə bilərəm. “Unutduğum” məsələlərdən biri Rafiq haqqında görkəmli elm və sənət adamlarının dəyərli sözləridir. Xöşbəxtlikdən, bu sözlər toplanıb və nəşr edilib.

60 yaşında belə cavan görünən şair və alim Rafiq Yusifoğlunun yaradıcılığı davam edir. Bu yaradıcılıq öz tədqiqini və tədqiqatçılarını gözləyir. O, hər gün yazır, yaradır, indi, vaxtilə dərs aldığı Azərbaycan Dövlət Pedaqoji Universitetdə də professor kimi fəaliyyətə dəvət alıb.

Biz Azərbaycan oxucusunun şair və alim kimi tanıdığı, 1967-ci ildə “Gənc müəllim” qəzetində çap olunan şeirdən sonra müasir Azərbaycan dili müəllimi, professor Zeynal Tağızadənin də elə mühazirədəcə “Şair” deyə müraciət efdiyi Rafiq Yusifoğlunun, onun oxuduğu 20-ci qrupun əzizinin 60 yaşı arxada qaldı. Nə qəm, yaş ilin arşınıdır. Sözün, əsil sənətin ölçüsü əbədiyyətdir. Biz bu inamla da yaşayırıq.

**Seyfəddin Eyvazov,**

**Naxçıvan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının baş müəllimi, filologiya elmləri namizədi**

## Rafiq Yusifoğli - 65

## SÖZ SƏRRAFI

“O şəxs ki, sənətə tələbkar deyil, o, hünər göstərə bilməz.
Canını zəhmətə sal, hünər göstər, arzuna çat”!
**(Ə.X.Dəhləvi)**

Ömrünün 40 ildən artıq dövrünü ədəbi-bədii, elmi fəaliyyətə həsr edən Rafiq Yusifoğlunun 65 yaşı tamam olur. Bu illər ərzində o, məhsuldar yaradıcılıq yolu keçərək onlarla kitab, yüzlərlə məqalə çap etdirmiş, filologiya üzrə elmlər doktoru, professor elmi dərəcə və elmi adını almış, fəxri və ədəbi mükafatlara layiq görülmüş, bir sıra yaradıcılıq birliyi və elmi şuralara üzv seçilmişdir. Lakin mən bu yazıda Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, görkəmli ədəbiyyatşünas, filologiya üzrə elmlər doktoru, professor, “Qızıl qələm”, “Vətən”, “Araz”, “İlin ən yaxşı kitabı” və s. ədəbi mükafatlarının laureatı, gözəl tərcüməçi və gözəl pedaqoq, tanınmış publisist Rafiq Yusifoğlundan yox, şair Rafiq Yusifoğlundan bəhs açmaq istəyirəm. Çünki mənim aləmimdə şair Rafiq Yusifoğlu alim, publisist, pedaqoq, tərcüməçi Rafiq Yusifoğlundan öndə dayanır. Başqa bir formada ifadə etsək, onun “ömür kitabı”ndakı şairlik səhifələri, digər fəaliyyətini əks etdirən səhifələrdən daha qalın, daha cəlbedicidir. Bu qalınlıq (söhbət kəmiyyətdən gedir) bir daha onu təsdiqləyir ki, Rafiq Yusifoğlu başqa sahələrə nisbətən poeziyaya çox vaxt ayırmış, qalın-qalın şeir kitabları çap etdirmişdir. Ancaq Rafiq Yusifoğlu poeziyası ilə tanış olduqda oxucu onun zəngin poetik irsinin həm kəmiyyət, həm də keyfiyyət göstəricisi qarşısında heyrətini gizlədə bilmir. Təbii olaraq burada bir sıra vacib məqamların təsirini danmaq mümkün deyil. Böyük Şəhriyar “şair ola bilməzsən, anan doğmasa şair” deyərkən ruhun, fitrətin, ilkinliyin, istedadın və s. sənətdə oynadığı rola diqqət çəkirdi. 16 yaşdan başlayaraq şeirləri çap olunmağa

başlayan Rafiq Yusifoğlunun ilk qələm nümunələrində belə şairlik ruhunun, şairlik vergisinin əlamətləri, o cümlədən istedad işartıları aydın şəkildə müşahidə olunur. Dağ çayları ümmana qovuşduğu kimi, zaman keçdikcə onun da özü ilə bərabər doğulan şairlik ruhu və istedadı poetik ucalıqda birləşə bildi.

Mən Rafiq Yusifoğlu şeirlərini təhlil edərkən bu şeirlərdə sözün və sənətin məsuliyyətini dərk edən bir şair obrazı ilə üz-üzə dayandım. Maraqlıdır ki, sənətdə məsuliyyəti ilə seçilən həmin şair çox yerdə əsərlərinin baş qəhrəmanı rolunda çıxış edir. Oxucunun nəzərində şairin bu məqamı Vətənə söykənib onun dünəni, bu günü və gələcəyi barədə düşüncələrini izhar edən qəhrəmanı xatırladır. Həmin qəhrəmanın (yəni şairin) həyata baxışı, görmək istədikləri, münasibət tərzi çoxlarından fərqlənsə də, bəzi dahilərin baxışları ilə üst-üstə düşür. Vətən timsalında Qubadlı dağlarının qaya-süxur möhkəmliyini, bu torpağın su-hava saflığını, insanlarının əqidə bütövlüyünü şeirlərinə hopduran Rafiq Yusifoğlunun poetik məni Gülhanə parkında ceviz ağacına çevrilən böyük Nazim Hikmətin və Heydərbaba dağı timsalında Azərbaycan ruhunu ifadə edən dahi Şəhriyarın poetik mənləri ilə paralelləşə bilir. Qeyd edək ki, Rafiq Yusifoğlunun şeirlərində həqiqi bir şair ömrünün səhifələrini vərəqləmək mümkündür. Onun tərcümeyi-hal xarakterli şeirlərində haqqında bəhs açdığımız şair-qəhrəman obrazının taleyi nədənsə oxucu diqqətini daha çox özünə cəlb edir. Burada biz sevgi və Tanrı ilə üz-üzə dayanan müxtəlif taleli iki şairə rast gəlirik. Sevgi ilə üz-üzə qalan "mən öz taleyimdən razıyam, gülüm, yolumun üstündə bitirib səni" – deyib taleyindən razı olan şairlə, Tanrı ilə üz-üzə qalan şair arasında fərq böyükdür. Çünki Tanrı ilə üz-üzə qalan şairin yurd həsrəti ("Qərib diyar", "Ay Allah", "Tərəzinmi xarab olub, Pərvərdigar", "Boz dünya" və s.), ata-ana, qohum qardaş nisgili ("Atamın mindiyi atlar", "Ata qəbri", "Ana qəbrindən qopan ah"), taledən şikayəti ("Dərd qəlbimin sakinidi", "Həsrətimdən solan çiçək", "Diktafona deyilən şeir" və s.), dünya nizamının pozulması ilə əlaqədar Allaha ünvanlanan sualları acı taleyin poetik ifadəsinə çevrilir:

Mənim həyatım
Qışdan başlayır.
Bəmbəyaz, sopsoyuq qar
Ömrümün ilk təməl daşına
Çevrilib.
Sonra o qar əriyib, əriyib,
gözlərimin yaşına çevrilib...
Elə ona görə də için-için ağlasam da,
dəli bəbəklərimin yaşı
tükənmir ki, tükənmir...

Bu parçada şair hisslərinin özünəməxsus təqdimi insan təsəvvüründə acı taleyin ümumi bir mənzərəsini yaradır. Bir anlıq oxucuda belə bir fikir formalaşır ki, sanki bu parçaların müəllifi "Gözlərim nur aşiqidi" şeir parçasında özünü "Allahın əsəri" hesab edən, eyni zamanda sevgi dənizinə baş vurub məhəbbətini qucan ("Sevgi dənizi"), "sevdalı sabahlar gözləyir bizi" deyən həmin şair deyil. Ancaq bu vəziyyətdə də Rafiq Yusifoğlu səmimi təsir bağışlayır. Çünki burada bir fərd olaraq konkret bir şəxsin – şairin ümumi talelərdən fərqli yaşantıları və tərcümeyi-halı ilə üz-üzə dayanırıq. Bu deyim həyatında sevgi ilə yanaşı, məhəbbət əzablarını da yaşayan, taleyin ona bəxş etdiyi əzabları yaradıcılığında (konkret olaraq "Necə keçdi ömrün?" şeirində) daha kəskinliyi ilə deməyi bacaran M.Şəhriyarla Rafiq Yusifoğlu arasındakı mənəvi-poetik rabitəni üzə çıxarır. M.Şəhriyarın acı taleyinə axıtdığı göz yaşları necə görünürsə, sanki Rafiq Yusifoğlunun da "için-için ağlayan gözlərinin tükənməyən yaşları" elə görünür. Bundan başqa hər iki şairin müqəddəs sandığı, sonsuz məhəbbət bəslədiyi ata itkisi ilə bağlı şeirlərində də deyim, ifadə və yanaşma müəyyən özünəməxsusluq daxilində verilsə də, buradakı oxşar ruhi-mənəvi üzüntünü duymaq çətin deyil:

...O öləndə gözlərdən nə qədər yaş süzüldü.
Onun varı, dövləti,
Məhəbbəti, hörməti

Sonsuz mirvarilər tək kipriklərə düzüldü.
Arxasınca hələ də ah çəkir el sinəsi,
Bir rəhmət qafiləsi, məhəbbət qafiləsi.
(M.Şəhriyar)

Hönkür-hönkür ağlayardıq, unutmaram o günü,
Üç ildir ki, torpaq üstə qəbrin olub daş ada.
Göz yaşları quruyubdur, zaman verib hökmünü,
Sənin qəlbin torpaq olub, mənim qəlbim daş, ata.
(R.Yusifoğlu)

Rafiq Yusifoğlunun poetik uğurları çoxdur. Maraq doğuran odur ki, o, bir çox məqamlarda fikirlərini oxucu ilə özü arasında olan gözəgörünməz əlaqə tipində çatdırmağı bacarır. Yəni şairin demək istədiklərini oxucu ağlın dediklərindən çox ruhi-mənəvi anlamda dərk edir. Bu cür nümunələr çağdaş şeirimizin yaddaqalan və təsirli nümunələri hesab edilə bilər:

Ömür bir göz qırpımı,
Ömür bir qısa andı.
Məhəbbət atəşində
Kərəm qovruldu, yandı.
Göydəki ulduz deyil,
Sevənlərin ahıdı.
Biri varıdı,
Biri yoxudu...

Rafiq Yusifoğlu hiss və duyğularını ürəyindən keçirib poetik mənalandırmada təqdim etməyi bacaran şairdir. Görünür, nəyi düşünüb yazmaq yox, necə düşünüb yazmaq fərqliliyi də bu nüansda özünü göstərir. Buna görə də Rafiq Yusifoğlunun yaradıcılığı üçün xarakterik olan Vətən, məhəbbət, gözəllik və s. tabloların poetik təqdimatı tam fərqlidir. Bu sırada şairin yurd həsrətli şeirləri onun milli duyğu və milli təəssübkeşliyinin təzahüründə əhəmiyyətli yerlərdən birini tutur. “Qalx ayağa”,

“Hara gedir bu millət”, “Qəlbimə dammışdı ki...”, “Ay Bərgüşad, ay Həkəri”, “Qubadlım”, “Qaçqın rübailəri”, “Bu ilin baharı”, “Vətən dərdi”, “Həsrət qaldığım yerlər” və s. şeirlərində Rafiq Yusifoğlunun qeyrət silahı taxmış təəssübkeş obrazı diqqətdən yayınmır. Torpaq itkisi, yurd tapdantısı ilə barışmayan, sönmüş ocaqların həsrəti ilə yanan şairin təəssüf və ağrıları bu tip şeirlərdə insanların milli duyğularını artırmış olur:

Yadıma dağların, düzlərin düşür,
Kül altda uyuyan közlərin düşür,
Yoluma dikilən gözlərin düşür.
Qubadlım, biz sənsiz sönmüş ocağıq.
Nə üzlə qoynuna qayıdacağıq?!

Və ya:

Həsrətdən saralıb soluram, Allah,
Göylər tək boşalıb, doluram, Allah.
Hər gecə evimiz yuxuma girir,
Gecələr bəxtiyar oluram, Allah!

Başqa misal:

Həsrət qaldıq doğma yurda,
Ayrı düşdük köçümüzdən.
Dərd çevrilib bir ac qurda,
Yeyir bizi içimizdən...

Göründüyü kimi, ağrı, acı ifadə olunan bu şeirlərin daxili qatında narahat insan ruhlarını bir araya gətirmək, yurd itkisinin ağır dərdləri fonunda düşmənə nifrət hissi oyatmaq aparıcı yer tutur. Yurd dərdi, Vətən həsrəti ifadə olunan bir qrup başqa şeirlərində isə “düşmənin əlindən bayraq salan sözləri” (M.Şəhriyar) ilə Rafiq Yusifoğlu Azərbaycançılıq ideyalarını, milli duyğuların ifadəsini, həmvətənlərimizin qələbə əzmini nümayiş etdirir.

Rafiq Yusifoğlu yaradıcılıcının bir cəhəti də ondan ibarətdir ki, o, toxunduğu bütün mövzulara ciddi yanaşır. Şair nə qədər səmimi və təvazökar olsa da, məhəbbət, sevgi şeirlərində də, yurd həsrətli, Vətən tərənnümlü şeirlərində də, tərcümeyi-hal, qohum-qardaş ovqatlı və s. şeirlərində də ciddi təsir bağışlayır. Bir cəhəti də qeyd edək ki, o, əksər hallarda mövzulara fəlsəfi təfəkkürlə yanaşır, şair ürəyi ilə qələmə alır. Təbii olaraq bu özünəməxsusluq daxilində şairin poeziyası yeni keyfiyyət çalarları qazanır. Bu tərz həm də şair yaradıcılığının lirik-fəlsəfi, lirik-psixoloji istiqamətinin formalaşmasına da təsirsiz qalmır:

Arabir ürək düşür dirilmək həvəsinə,
Mərmər qapım döyülür, yəqin başlayır yağış.
Aldanmışam deyəsən damlaların səsinə.
Baş daşıma söykənib bir gözəl ağlayırmış.

Demək olar ki, mövzu məhdudiyyəti tanımayan, sözləri inci kimi sapa düzməklə yanaşı, həm də iynənin gözündən keçirməyi bacaran Rafiq Yusifoğlu sənətin uca məqamında qərar tutur. Yaradıcılığında təvazökar, səmimi olan gözəl şairimiz Rafiq Yusifoğluna daha böyük sənət uğurları arzulayırıq.

**Elman Quliyev,**
**filologiya elmləri doktoru, professor**

*"Sözün sehri", №12 (03 dekabr 2014-03 yanvar 2015);*
*"Ədalət" qəzeti, 28 yanvar 2015.*

## Rafiq Yusifoğlu – 65

## ÜRƏKLƏRƏ SEVGİ VƏ XEYİRXAHLIQ TOXUMLARI SƏPİR

Şair və yazıçı bir az əkinçiyə bənzəyir. Əkinçi torpağın sinəsində şırım açır, oraya gələcək məhsulun toxumunu səpir. İnsan əlinin zəhməti, hərarəti nəticəsində torpaq bizi doyuracaq nemətlər yetişdirir. Şair və yazıçı isə kağız üzərində (yaxud kompüter ekranında) sətirlərlə şırım açır, insanları saflığa, düzlüyə, qurub yaratmağa, Vətəni sevməyə, milli-mənəvi dəyərlərimizi qorumağa çağırır. Onların əsərləri oxucuların qəlbində doğma torpağa məhəbbət, əməyə sevgi, xeyirxahlıq hissi oyadır, insanları hər zaman gərəkli işlər görməyə sövq edir.

Şair, yazıçı, publisist, tərcüməçi, alim-pedaqoq Rafiq Yusifoğlu istedadı və zəhməti ilə neçə illərdir ki, bu işıqlı, xeyirxah yolun yolçusudur. Buna görə də onun əsərləri balaca oxucularımız tərəfindən həmişə sevilə-sevilə oxunur, əzbərlənir. Məsələn, şairin "Yer kürəmiz" adlı şeirinin poetik biçimi sadə, məna yozumu, digər əsərləri kimi çox aydındır:

Biz insanıq, dünyanın
Baharıyıq, yazıyıq.
Bircə vətənimiz var,
Yer oğlu, yer qızıyıq.

Öz qoynunda hamıya
Yer verib Yer kürəmiz.
Gülüstana dönər o,
Bir gül əksək hərəmiz.

Sudu, ağacdı, otdu,
Havadı, torpaqdı o.
Anamız kainatda
Bir yaşıl yarpaqdı o.

Əgər istəmiriksə,
Ağac kimi quruyaq,
Gərək göz bəbəyi tək
Təbiəti qoruyaq…

Əməkdar mədəniyyət işçisi, müxtəlif mükafatların laureatı Rafiq Yusifoğlu çoxlu şeir, nəsr, publisistika və tərcümə kitablarının, bir neçə dərsliyin müəllifidir. Rafiq müəllim həm də uzun illərdir ki, "Göyərçin" jurnalının baş redaktorudur. Eyni zamanda o, Sumqayıt Dövlət Universitetinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorudur və müəllim kadrlarının yetişməsində böyük əmək sərf edir.

Gözəl insan, şair, alim və pedaqoq olan Rafiq Yusifoğlu ömrünün 66-cı baharına qədəm qoyur. Bu münasibətlə onu təbrik edir, can sağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.

**Səməd Məlikzadə**

*"Tumurcuq", fevral 2015*

# RAFIQ YUSIFOĞLUNUN SƏNƏT DÜNYASI

Müstəqillik illəri Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan qələm sahiblərindən biri də tanınmış şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, "İlin ən yaxşı kitabı", "Qızıl qələm", "Vətən", "Araz" və s. ədəbi mükafatların laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğludur. Onun poeziya, uşaq ədəbiyyatı və ədəbiyyatşünaslıq sahəsində fəaliyyəti həmişə ədəbi ictimaiyyətin diqqət mərkəzində olmuş, əsərləri dərsliklərə düşmüş, şeirləri, poemaları əsasında televiziya və radio tamaşaları hazırlanmış, müəllifin əsərləri ilə bağlı xeyli sayda məqalələr, hətta monoqrafiyalar yazılıb nəşr edilmişdir. Müasir ədəbiyyat və onun problemləri ilə bağlı yazılan bir neçə dissertasiyada Rafiq Yusifoğlunun da yaradıcılıq nümunələrinin tədqiqata cəlb olunması, eyni zamanda tez-tez elmi əsərlərinə istinad, onlardan ayrı-ayrı məqamlarda sitatlar gətirilməsi nəzərə alınası faktlar sırasındadır.

Gənc şairin ilk yaradıcılıq nümunələri nüfuzlu qələm sahiblərindən Süleyman Rüstəm, Əli Vəliyev, İsmayıl Şıxlı, Hüseyn Abbaszadə, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Qasım Qasımzadə, Qabil, Nəriman Həsənzadə, Məmməd Araz, Tofiq Bayram, Fikrət Sadıq, Hikmət Ziya, Tofiq Mahmud, İlyas Tapdıq, Zahid Xəlil və başqalarının diqqətini cəlb etmiş, onun şeirləri haqqında mətbuatda xoş sözlər söylənilmişdir.

1986-cı ildə Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilən Rafiq Yusifoğlu az sonra Azərbaycan Yazıçılar Birliyi Qəbul komissiyasının üzvü seçilmiş, bir sıra mükafatlara layiq görülmüş, bir neçə Ümumittifaq tədbirlərində respublikamızı təmsil etmişdir. Gənc tənqidçilərin Moskvada keçirilən birinci (1982), ikinci (1985) və üçüncü (1988) Ümumittifaq seminarlarının, Qazaxıstanda keçirilən Beynəlxalq Uşaq ədəbiyyatı günlərinin (1989) iştirakçısı, Moskvada Ali Komsomol Məktəbinin bir aylıq jurnalistika kursunun (1985) müdavimi olması, Azərbaycan və rus ədəbiyyatının görkəmli nümayəndələri ilə şəxsi

tanışlıq, onlarla sistematik ünsiyyət Rafiq Yusifoğlunun yaradıcılığına əhəmiyyətli dərəcədə təsir göstərmiş, əsərləri bir sıra dillərə tərcümə olunmuş, imzası Ümumittifaq mətbuatında görünməyə başlamışdır.

Rafiq Yusifoğlu (Əliyev Rafiq Yusif oğlu) 1950-ci il yanvar ayının 2-də Qubadlı rayonunun Çardaxlı kəndində müəllim ailəsində anadan olmuş, orta məktəbi Qubadlıda bitirəndən sonra indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini, daha sonra AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasını bitirmiş, 1984-cü ildə "Azərbaycan sovet poemasının inkişaf problemləri (1956-1965)" mövzusunda namizədlik, 2006-cı ildə isə "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, əvvəl dosent, sonra professor elmi dərəcəsi almışdır.

Əmək fəaliyyətinə Sumqayıt şəhərində müəllim kimi başlayan Rafiq Yusifoğlu "Göyərçin" jurnalının redaksiyasında şöbə müdiri, məsul katib, Azərbaycan Dövlət Televiziyasının "Xəbərlər" baş redaksiyasında "Elm, mədəniyyət, incəsənət" şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1997-ci ildən "Göyərçin" jurnalının baş redaktorudur. Eyni zamanda 2000-ci ildən Sumqayıt Dövlət Universitetində, 2008-ci ildən isə Azərbaycan Dövlət Pedaqoji Universitetinində müəllimlik fəaliyyəti göstərir, ədəbiyyatşünaslıq elminin nəzəri problemləri, müasir ədəbi proses və uşaq ədəbiyyatı ilə bağlı mühazirələr oxuyur.

Rafiq Yusifoğlu ədəbi fəaliyyətə hələ orta məktəbdə oxuyarkən başlamış, 1966-cı ildən şeirləri, məqalələri ilə mətbuatda çıxış etmişdir. O, ana babası, "Molla Nəsrəddin" jurnalında "İstot" təxəllüsü ilə şeirləri çap olunan Nuşirəvan Kərimovdan ilk sənət dərsi almışdır. Qasım Qasımzadə bu haqda belə yazır: "İstedadlı şair Rafiq Yusifoğlu, necə deyərlər, babasına çəkmişdir. Nuşirəvan müəllimin yandırdığı poeziya ocağının kül altda qalan közünü sönməyə qoymamışdır. Mən də ədəbiyyata,

şeirə ilk həvəs qığılcımını əziz müəllimimin qaladığı həmin ocaqdan götürmüşam.” *(“Ədəbiyyat və incəsənət”, 17 dekabr 1986).*

Rafiq Yusifoğlunun istedadını ilk dəyərləndirən görkəmli şəxsiyyətlərdən biri də İsmayıl Şıxlı olmuşdur. Öz tələbəsinin imzasını maraqla izləyən İsmayıl müəllimin Rafiqə yazdığı məktubdakı bu cümlə gənc şairi daha da həvəsləndirmiş, onu daim oxuyub öyrənməyə, yazıb-yaratmağa səsləmişdir: “Əzizim Rafiq, səndə şairlik istedadı vardır”. Zaman İsmayıl müəllimin bu qənaətində haqlı olduğunu təsdiqlədi. Sənət müəlliminin tövsiyələrini nəzərə alıb yorulmaq bilmədən oxuyan, öyrənən, yazıb-yaradan Rafiq Yusifoğlu tezliklə sayılıb-seçilən gənc qələm sahiblərindən birinə çevrilmişdir.

Rafiq Yusifoğlu ali məktəbdə oxuyarkən Feyzulla Qasımzadə, Əzəl Dəmirçizadə, Əhəd Hüseynov, aspiranturada Məmməd Cəfər, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Əkbər Ağayev, Qasım Qasımzadə, Yəhya Seyidov, Yaşar Qarayev kimi nüfuzlu elm və sənət adamlarından ədəbiyyatın, söz sənətinin sirlərini öyrənmiş, respublika mətbuatında ən çox imzası görünən gənc qələm sahiblərindən biri olmuş, “Yurdum-yuvam”, “Ətirli düymələr”, “Ocaq yeri” kitabları nəşr edilmiş, 1989-cu ildə Azərbaycan Komsomolu Mərkəzi Komitəsinin, Azərbaycan Dövlət Mətbuat Komitəsinin və Azərbaycan Yazıçılar İttifaqının elan etdyi müsabiqədə “Ətirli düymələr” kitabına görə “İlin ən yaxşı kitabı” mükafatına layiq görülmüşdür.

Rafiq Yusifoğlunun yaradıcılığında ən önəmli yeri tutan sahə poeziyadır. Müstəqillik illərində onun “Aylı cığır”, “Qəm karvanı”, “Həsrət köçü”, “Təzə sevdalara doğru”, “Ayrılığın qəm hasarı”, “Həsrət sazağı”, “Sevdalı sabahlar”, “Eşqin qarlı yollarında”, “Dəniz, sən və mən”, “Könül səltənəti”, “Arzular kəhkəşanı” adlı sanballı şeir kitabları nəşr olunmuş, bu kitabların hər biri haqda mətbuatda mütəxəssislər: ədəbiyyatşünas və dilçi alimlər, şair və yazıçılar tərəfindən xoş sözlər söylənilmiş, Rafiq Yusifoğlunun poeziyası müasir Azərbaycan ədəbiyyatının səciyyəvi, istər mövzu və problematikası, istərsə də sənətkarlıq

xüsusiyyətləri ilə diqqəti cəlb edən nümunələri kimi dəyərləndirilmişdir.

Xalqın taleyüklü problemlərinin bədii əksi müstəqillik illəri Azərbaycan poeziyasının, o cümlədən də onun tanınmış, istedadlı nümayəndələrindən biri olan Rafiq Yusifoğlunun yaradıcılığı üçün xüsusi əhəmiyyət kəsb edir. Hələ sovet hakimiyyəti illərində belə müstəqillik, azadlıq ideyası şairi daim düşündürən problemlər olmuşdur. Onun hələ 60-70-ci illərdə yazıb mətbuatda çap etdirə bildiyi "Nə var, nə yoxdur", "Araz haqqında düşüncələr", "Avrora", "Düz-əyri" və s. bu kimi şeirlərinin sətiraltı mənasında etiraz motivləri güclü idi:

Əyrinin kimsəyə axı nə xeyri,
Düzlərə həmişə ehtiyac olur.
Bəs niyə meşədə yaşayır əyri,
Kəsilən həmişə düz ağac olur?

"Mənim imzam" şeiri xalqımızın tarixini, onun mədəniyyətini dananlara şairin etirazı idi. "Mənim imzam məni danan nadanın həkk olunub ocağının daşında", "Məni görmək istəməyən gözlərə mənim imzam bıçaq olub sancılar" deyən şair şeirini nikbin bir sonluqla bitirirdi:

Bir gün tarix yapışacaq yaxamdan,
Kim salacaq bu işləri nizama?
Övladımın damarında axan qan,
Təmizdisə, zaval yoxdu imzama.

Xalqımızın müstəqillik uğrunda apardığı mübarizənin, onun başına gətirilən müsibətlərin bədii əksi onun 20 Yanvar, eləcə də Qarabağ hadisələri ilə bağlı yazdığı "Azadlıq", "Yanvar rübailəri", "Qərənfilə dəyən güllə", "Tərəzinmi xarab olub, Pərvərdigar", "Çağadır hələ", "Yuxular görürmüşük", "Laqeydlik

ulu xalqın belini büküb”, “Qaçqın heykəllər” və onlarca bu kimi şeirlərdə mübarizəyə çağırış, haqsızlığa etiraz motivləri güclüdür.

20 Yanvar hadisələrindən bir neçə gün əvvəl yazılmış “Mənim xalqım” şeirində xalqının taleyindən narahat şairin ürək döyüntüləri eşidilir:

Dili sənə dost deyənin əli gizlicə,
Əsrlərlə ayağının qazıb altını.
Sən bu ağır günlərində məğrursan necə,
Mənim xalqım, uca saxla təmiz adını!

…Azadlığı verməyəcək sənə kimsə pay,
Ayağa dur, öz oduna, közünə güvən.
Mənim xalqım, bir kimsədən gözləmə haray,
Ağır sınaq günlərində özünə güvən!

Hadisələrin canlı iştirakçısı olan, qaçqınlığın, köçkünlüyün nə demək olduğunu gözləriylə görən şairin bu mövzuda yazdığı şeirlər öz emosionallığı, təsir gücü, bədii sənətkarlıq məziyyətləri ilə diqqəti cəlb edir. Onun şeirlərinin cövhərindəki vətən həsrəti, yurd sevgisi, qəbirləri belə ayrı düşən ata-ana nisgili böyük ustalıqla əks olunmuşdur. Bu baxımdan şairin anasının xatirəsinə həsr etdiyi “Əsrin ilk şeirini mən kimə yazım” adlı şeiri öz aktual ideya-məzmunu, poetik mükəmməlliyi ilə diqqəti cəlb edir:

…Hərəmiz bir eşqin şirin barıyıq,
İllər üstümüzə çökür toz kimi.
Məhəbbət daşıyan eşq qatarıyıq,
Zaman çəkir bizi parovoz kimi.

Saçımda bərq vurur illərin qarı,
Sükut qəbristanda xəyala dalıb.
Sərnişini düşən eşq vaqonları
Zaman qatarından açılıb qalıb…

Qəlbini atdılar oda anamın,
Arzuları düşdü hey pərən-pərən.
Qəbri ayrı düşən ata-anamın
Ruhları qovuşa bilibmi görən?!

İllərlə biz həsrət odunda bişdik,
Düşdü tariximə bir qara kölgə.
O əsrin başında didərgin düşdük,
Bu əsrin önündə sevindik bəlkə?!

Şairin hərbi vətənpərvərlik mövzusunda yazdığı silsilə şeirlər əsasında hazırlanan "Bütün Azərbaycan əsgər olmalı" adlı televiziya tamaşasının böyük rəğbətlə qarşılanması da təsadüfi deyildi. Çünki bu tamaşada elindən, obasından, evindən, eşiyindən ayrı düşən, doğmalarını, əzizlərini itirən qaçqın, köçkün soydaşlarımızın ürək göynədən taleyi göz önündə canlanır.

Hələ yaradıcılığının ilk illərindən Rafiq Yusifoğlunun poeziyasında ictimai-siyasi motivlər çox güclü olmuşdur və bu proses indi də davam etməkdədir. Xalqın taleyüklü problemlərinin bədii əksi onun poeziyasının aparıcı mövzularındandır. Bu istedadlı qələm sahibinin poeziya aynasında xalqımızın keçmişi, bu günü öz dolğun bədii əksini tapmışdır. Bu baxımdan şairin "Azərbaycan torpağı", "Arazın cavabı", "Yadında saxla", "Ön cərgə", "Yumruq kimi birləşməsə elimiz", "Azərbaycan yaşayır", "Üşüyən daşlar" və s. kimi şeirləri maraq doğurur. Özü də ən yaxşı cəhət bundan ibarətdir ki, Rafiq Yusifoğlu əks etdirdiyi hər bir məsələyə şair gözü ilə baxıb onu mənalandırmağı bacarır. Məsələn, "Laylay, Qəbələm, laylay" adlı şeirdə "ayağının altında tarix yatır, yavaş gəz" xəbərdarlığından sonra qədim şəhərin qalıqlarının üzə çıxarılmasını təsvir edən şair yazır:

Qəbələ bir yüyrükdür,
Onu zaman tərpədir.
Qaraçay, Qocalançay
Sanki yüyrük ipidir.

Qaraçay, Qocalançay
Həzin-həzin oxuyar.
Bu yüyrüyün içində
Tarix gedib yuxuya…

Yaxşı cəhətdir ki, Rafiq Yusifoğlunun rəngarəng mövzulu şerlərinin hamısında hadisələrə xalqın mənəvi-əxlaqi dəyərləri prizmasından nəzər salınır. Bu baxımdan onun “Vətən uğrunda”, “Qarabağ əlili”, “Bəsdir təriflədik bu boz sərçəni”, “Haqqın yolu”, “Azadlıq labirintində”, “Tıxac”, “Canavarlar” və s. şeirləri diqqəti cəlb edir.

Fikri ümumi sözlərlə yox, bədii detallarla vermək bacarığı Rafiq Yusifoğlunun poetik üslubu üçün səciyyəvidir. Məsələn, “Vətən uğrunda” şeirində Qarabağ döyüşlərində şəhid olan keçmiş şagirdi haqqında şairin yazdığı bu misralar oxucunu düşündürür: “Vətən” şeirini əzbərləyə bilməmişdin, ancaq vətən uğrunda ölməyi bacardın”. Yaxud “Boşalmış kənddə tək qalan köpəyin nəğməsi” adlı şeirdə zəncir evindən qaçarkən iti açıb buraxmağı unutduğu üçün əzab çəkən soydaşımızın həyəcanlarını, eləcə də düşmənlə üz-üzə qalan tənha köpəyin bədii obrazını yaratmaq vasitəsinə çevrilmişdir:

Boş evlər göz dağı oldu,
Dost çevrilib yağı oldu.
Ulartım bu ulu kəndə
Layla oldu, ağı oldu.

Buludam, yağa bilmirəm,
Eyvana baxa bilmirəm.
Zəncirimi dartıb qırdım,
Həyətdən çıxa bilmirəm.

Ev soyuyub, ocaq sönüb,
Durmuşam bir küncə sinib.

Bu həyatə sədaqətim
Boynumda zəncirə dönüb…

Rafiq Yusifoğlu poeziyasının mövzu və problematikası çox zəngindir. Onun Ulu Yaradan, həyat, ölüm, təbiət və cəmiyyət hadisələri ilə bağlı fəlsəfi düşüncələri, vətən təbiətinin gözəlliyinə həsr elədiyi, müqəddəs sevgi duyğularının bədii əksini verən şeirləri öz həyatiliyi, emosionallığı, hadisələri yeni şəkildə mənalandırmaq bacarığı ilə diqqəti cəlb edir. Şeirlərin hamısında həyat hadisələrindən doğan yeni orijinal fikirlər adamı düşündürür, onu həyəcanlandırır. Poetik düşüncə tərzinin bənzərsizliyi Rafiq Yusifoğlu poeziyasının ən aparıcı cəhətlərindəndir.

Xalq şairi Nəriman Həsənzadə "Azərbaycan gəncləri" qəzetinin 10 avqust 1971-ci il tarixli nömrəsində gənc qələm dostu haqqında çap olunan "Uğurlu yol" adlı məqaləsində yazırdı: "Rafiq Yusifoğlunun şeirlərində mənim xoşuma gələn təfəkkür aydınlığıdır. Fikri çılpaq şəkildə yox, poetik ifadələrlə, obrazlı dil ilə, həm də asan başa düşüləcək bir şəkildə oxucuya çatdırmaq onun şeir yaradıcılığının məziyyətləri kimi yadda qalır".

Filologiya elmlər doktoru, professor Məhərrəm Qasımlı isə Rafiq Yusifoğlu poeziyasının digər bir məziyyəti haqqında söhbət açırdı: "Rafiq Yusifoğlunun poetik axtarışlarında əşya və hadisələrin, eləcə də təsvirə cəlb olunmuş mənzərənin üzdə olmayan, ilkin müşahidədən yayına bilən içəri cizgilərini əyanilәşdirməyə meyl güclüdür. Özü də bu səpkili şeirlərdə yığcamlıq və lakoniklik aparıcıdır" *("Ədəbiyyat və incəsənət", 3 noyabr 1989).*

Doğrudan da, şairin poeziyası ilə tanışlıq göstərir ki, Rafiq Yusifoğlu dilin incəliklərinə yaxından bələd olan, sözün üstündə zərgər dəqiqliyi ilə işləməyi bacaran bir qələm sahibidir. Onun şeirlərindəki poetizmlər adamı heyrətləndirir, düşündürür:

Göz yaşım – sevgimin kəpənəkləri,
Uçub çiçəklərlə gedər görüşə.

Qorxuram qəlbimin qəm çiçəkləri
Sevinc xəzanının girinə düşə.

Qorxuram nadanlar mənə güləndə,
Ömrümün payızı qışa çevrilə.
Qorxuram yanına qaçıb gələndə,
Həsrətli qollarım daşa çevrilə.

Bir cüt göz gərəkdi mənə ağlaya,
Bir eşqin közərən qərib qoruyam.
Qorxuram hisslərim qabar bağlaya,
Qorxuram gözümün yaşı quruya…

Ürəyim doğmadır dərdə, ələmə,
Zərrəcə qorxum yox dardan, çətindən.
İlahi, sən məni məhrum eləmə
Hönkürüb ağlamaq səadətindən…

Göründüyü kimi, bu şeirdə "göz yaşının sevgi kəpənəkləri kimi uçub çiçəklərin görüşünə getməsi" ifadəsindən tutmuş "hönkürüb ağlamaq səadəti" birləşməsinə qədər çoxlu poetizmdən istifadə olunmuşdur. Misraların hər biri bədii ifadə baxımından cazibədardır və bütün bunlar lirik qəhrəmanın daxili dünyasını açmaq vasitəsinə çevrilir. Bir-birini tamamlayan orijinal bədii təsvir vasitələri Rafiq Yusifoğlunun digər əsərlərinin də poetik strukturunda mühüm yer tutur. Həm dilin, həm də şeir sənətinin incəliklərini mükəmməl bilməsi onun poetik üslubunun bənzərsizliyini, orijinallığını təmin edir.

Müraciət etdiyi hər bir mövzuda rəngarəng poetik fiqurlardan istifadə etməyi bacaran Rafiq Yusifoğlu gözəl peyzajlar, portretlər yaratmaq ustasıdır. Özünün Azərbaycanın dilbər guşələrindən birində – Qubadlıda dünyaya göz açması, yurdumuzun mənzərəli yerlərini qarış-qarış gəzməsi, əlli ilə yaxın bir müddətdə hər səhər Xəzər dənizinin sahillərinə getməsi onun peyzaj lirikasına həyatilik gətirən amilə çevrilmişdir. Şeirləri

göstərir ki, Rafiqin peyzaj lirikası seyrçi təsvirlərdən çox uzaqdır. Həssas şair müşahidəsi, təbiət cisimlərinə, hadisələrə yeni gözlə baxıb onu dəyərləndirmək bacarığı təkcə bənzərsiz təbiət lövhələri yaratmağa deyil, predmetləri bədii obraz səviyyəsinə qaldırmağa da yardımçı olur. Şair hər fəslin özünəməxsus poetik elementlərini tapa bildiyi üçün yaratdığı lövhələr canlı, sirayətedicidir. Rafiqin hələ ilk şeirlərini oxuyub ona xeyir-dua verən Məmməd Araz yazırdı: "Rafiq Yusifoğlunun "Qış" şeiri maraqlıdır. Müəllif özünəməxsus boyalarla, səmimi yumorla qışın portretini yaratmağa çalışır. Yaşından asılı olaraq hər kəsin qışı necə qəbul etdiyini poetik dillə təsvir edir, əsasən də buna nail olur: Qış da bir qocadır, ancaq nədənsə Onun qocalarla söhbəti tutmur" *("Sovet kəndi" qəzeti, 3 aprel 1969).*

"İndicə yağacaq bahar yağışı, Göylərdə bir qərib bulud kişnədi" misraları ilə başlayan şeirdə "çiçəyi çırtlayan budaqlar", "göylərə baş çəkən dağlar", "çiçəyin gözündən öpən meh" və sair maraqlı peyzaj cizgiləridir.

Bu necə cığırdı, bu necə yoldu,
Yarır toranlığı durnanın döşü.
Qardaş, bir başını yuxarı qaldır,
Ayın danışdığı nağılı eşit.

Yeri gəlmişkən onu da qeyd edək ki, şairin poeziyasında maraqlı yağış, ay, yarpaq, çiçək obrazları yaradılmışdır.

Rafiq Yusifoğlu ənənəyə yaradıcı münasibət bəsləyən şairlərimizdəndir. Onun şeir və poemalarında folklor, klassik və dünya ədəbiyyatı ənənələrinin yaradıcı şəkildə davamı və inkişafını görürürk. Şair əsrlərin sınağından çıxmış bayatı, gəraylı, qoşma janrının yeni maraqlı nümunələrini yaratmış, istər heca, istər əruz vəznindən, istərsə də sərbəst şeirin zəngin poetik imkanlarından məharətlə istifadə etməyi bacarmışdır. Həm folkloru, klassik və dünya ədəbiyyatını, həm də ədəbiyyatın nəzəri əsaslarını mükəmməl bilməsi Rafiq Yusifoğlunun əsərlərinin

mövzu və problematikasına, eləcə də poetik strukturuna əhəmiyyətli dərəcədə öz müsbət təsirini göstərə bilmişdir. Şairin yaradıcılığına təsir edən ən əsas amillərdən biri də onun ədəbiyyata həyatın qaynar burulğanları içərisindən gəlməsi, görüb duyduğu, yaşadığı, qəlbini həyəcanlandıran, mütəəssir edən, daim düşüncəsinə hakim kəsilən hadisələri təsvir etməsi ilə əlaqəlidir.

Uşaq ədəbiyyatı Rafiq Yusifoğlu yaradıcılığının ən aparıcı qollarından biridir. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, onun indiyədək orta məktəb dərsliklərinə düşən əsərlərinin bibloqirafik göstəricisi üç yüzü adlayıb. Şairin uşaq psixologiyasına yaxından bələdliyi, daim uşaqlarla ünsiyyətdə olması, uzun müddət uşaq mətbuatında – "Göyərçin" jurnalında şöbə müdiri, məsul katib, baş redaktor vəzifələrində çalışması, uşaq ədəbiyyatı ilə bağlı bir sıra beynəlxalq tədbirlərdə iştirakı Rafiq Yusifoğlunun bu sahədə daha ardıcıl fəaliyyət göstərməsinə, uğurlar qazanmasına səbəb olmuşdur. Onun uşaq şeirləri təkcə respublikamızda deyil, digər ölkələrdə də çap olunub rəğbətlə qarşılanmışdır. Böyük rus şairi, akademik Sergey Mixalkovun SSRİ-nin süqut elədiyi bir vaxtda Rafiq Yusifoğluya ünvanladığı məktub bu cümlə ilə başlayırdı: "Siz bütün həyatınızı uşaq ədəbiyyatına həsr etdiyiniz üçün qarşınızda baş əyirəm". – Bu cümllər böyük yazıçının təvazökarlığını, eyni zamanda Rafiq Yusifoğlu yaradıcılığına münasibətini öyrənmək baxımından maraq doğurur.

İndiyədək Rafiq Yusifoğlunun uşaqlar üçün "Yurdum-yuvam", "Ətirli düymələr", "Aylı cığır", "Şirin yağış" (rus dilində), "Böyük arzuya gedən yol", "Çiçək yağışı", "Söz çəməni", "Günlərimiz, aylarımız", "Zamanın qatarı", "Yollar", "Daha uşaq deyiləm", "Ana dilim", "Quşlar dünyası", "Qızılı məktublar" adlı şeir, "Bahar qatarı", "Şirin yuva", "Dəniz səviyyəsi", "Elm və Helm", "Tapmacalar ölkəsi" adlı nəsr, "Kitabi Dədə Qorqud" adlı komikslər, "Ulu yurd yerlərimiz", "Qoruq və yasaqlıqlarımız" adlı məqalələr kitabları nəşr olunmuş və bu əsərlərin hər birinin məziyyətləri haqqında mətbuatda xeyli yazılar dərc edilmişdir. Bu

məqalələrdən çıxardığımız ümumi nəticə bundan ibarətdir ki, Rafiq Yusifoğlu bənzərsiz uşaq yazıçısıdır.

Şairin böyüklər üçün şeirlərində olduğu kimi, onun uşaqlar üçün yazdığı əsərlərdə də adicə ot, çiçək, böcək, yarpaq, budaq bədii obraz səviyyəsinə qaldırılır. Bu baxımdan onun "Çəməndən ayrılan çiçək", "Balaca qarışqa və buğda ilə dolu zənbil", "Pəncərədən baxan budaq", "Çiçəyin xahişi", "Meşədə yarış", "Qayğıkeş qonşular" və s. şeirləri diqqəti cəlb edir.

-Kimdir qapını döyən,
Kimdir bu gecə vaxtı?
-Öz yarpaq balasından
Ayrı düşən budaqdı.
-Nə istəyirsən axı?
-Aç qapını, ahəstə
Uçub qonum yazdığın
"Payız" şeirinin üstə…
-Kimdi qapını döyən,
Kimdi bu gecə vaxtı?
-Öz yarpaq balasından
Ayrı düşən budaqdı.
-Nə istəyirsən axı?
-Yuxu getmir gözümə,
Mənim yarpaq balamı
Qaytar mənim özümə…

Bu şeirdə üç obraz var: şair, yarpaq və budaq. Yarpaq valideynindən inciyib evdən gedən uşağın, budaq isə sonsuz məhəbbətlə öz övladını sevən ananın bədii obrazıdır. Uşağın sevgiyə, qayğıya, diqqətə ehtiyacı vardır. Elə buna görə də o, şairin – onu hamıdan yaxşı duyan insanın yanına can atır. Bu şeirdəki şair həm də dolaşıq işləri yoluna qoymağı bacaran həssas, kövrək bir ağsaqqalın surəti kimi diqqəti cəlb edir.

R.Yusifoğlunun uşaq şeirləri yığcamlığı, aydınlığı, məna tutumu, obrazlılığı ilə digər şairlərin əsərlərindən əhəmiyyətli

dərəcədə fərqlənir. Onun əsərlərində uşaq dünyasının rəngarəng lövhələri məharətlə öz əksini tapmışdır. Məsələn, balaca bir şeirə nəzər salaq:

Barmağımı kəsmişəm,
Ağrısına dözmüşəm.
Tez ol sarı, anacan,
Niyə ufuldayırsan?
Mənim yaram ağrıyır,
Sənin haran ağrıyır?

Şair hər hansı təbiət hadisəsini uşaq gözü ilə görüb dəyərləndirməyi bacarması onun poetik üslubu üçün çox səciyyəvi cəhətdir. Məsələn, büllur tək şəffaf suyun şəlaləyə çatanda ağarmasını uşaq belə mənalandırır: "Qayadan atılanda qorxusundan ağarır" ("Qayadan atılan su"). Yay uzunu gün altında qalan, payızda saralan yarpaqlara baxan uşaq sərçəyə deyir ki, ağaca qonma ha, yoxsa közərmiş yarpaqlardan qanadın od alar ("Közərən yarpaqlar"). Uşağın zirvəsi il uzunu qarlı olan dağa "sən başı soyuq dağsan" deməsi, "Canlı ütü" şeirində çayın parçaya, onun üstündə üzən ördəyin ütüyə bənzədilməsi, digər bir şeirində uşağın dilindən "meşənin qapısını döyürdü ağacdələn" söylənilməsi və s. bu kimi fikirlər təbəssüm doğurur. "Ağ bayraq" şeirində dalğaları dənizin əlində ağ bayrağa bənzədən şair yazır:

Dəniz yaman hirslənib,
Nərə çəkir, bəs demir.
Ağ bayraq qaldırsa da,
Təslim olmaq istəmir.

Şairin uşaq şeirlərində də təbiət lövhələri canlıdır, cazibədardır. Məsələn, "Yaşıl işıq" şeirinə nəzər salaq:

Ağaclara baharın
İlıq nəfəsi dəycək,
Budaqlarda yarpaqlar

Yandı yaşıl işıq tək.
Tez ol, tez ol, əzizim,
Bizi səsləyir bahar.
Açılıb meşələrin
Qoynuna gedən yollar.

"Zamanın qatarı" kitabında R.Yusifoğlu maraqlı bir bədii forma ilə uşaqlara fəsillər haqqında söhbət açır. İli qatara, hər fəsli bir vaqona, hər ayı bir kupeyə bənzədən şair fəsillər haqqında rəngarəng, bənzərsiz şeirlərini balaca oxuculara təqdim edir. Bir-birini tamamlayan şeirlər silsiləsi öz əlvanlığı, rəngarəngliyi, poetizmi ilə seçilir, maraq doğurur.

Rafiq Yusifoğlunun uşaqlar, valideynlər və müəllimlər tərəfindən maraqla qarşılanan "Yollar" kitabında yolların nə məqsədlə və necə yaranması, ilk nəqliyyat vasitələrindən – arabalardan, faytonlardan müasir maşınlara qədər keçilən inkişaf yolu, hava və su yollarından istifadə zərurəti haqqında maraqlı, cazibədar bir dillə söhbət açılır. Kitabda yol hərəkəti qaydalarının poetik dillə öyrədilməsi təşəbbüsü də təqdirəlayiqdir.

"Söz çəməni" kitabını biz şeirlə yazılan əyləncəli bir qrammatika da hesab edə bilərik. Çünki burada saitlər, samitlər, nitq hissələri, durğu işarələri, cümlə üzvləri haqqında öyrədici səciyyəli yumoristik, bənzərsiz, bir-birindən gözəl şeirlər toplanmışdır. "Günlərimiz, aylarımız" kitabı da son dərəcə faydalı bir poetik məcmuədir. Burada şairin təqvim şeirləri toplanmışdır. İlin ilk günündən tutmuş son gününədək olan əsas tarixi hadisələrin heç biri şairin diqqətindən yayınmamışdır. Ən yaxşı cəhət ondan ibarətdir ki, bu şeirlərin də hamısı obrazlı, poetik səciyyəli olduğu üçün yorucu təsir bağışlamır.

Əsərlərini küll halında oxuyandan sonra bu qənaətə gəlmək olar ki, Rafiq Yusifoğlunun yaradıcılıq nümunələrinin dərsliklərə salınması da, onun özünün dərslik hazırlanması kimi məsul bir işə cəlb edilməsi də təsadüfi deyildir.

Görkəmli bir şair, nasir, publisist, tərcüməçi kimi tanınan və sevilən Rafiq Yusifoğlu həm də həyatını ədəbiyyatın tədqiqinə, təbliğinə həsr edən zəhmətkeş bir alimdir. Onun "Azərbaycan poeması: axtarışlar, perspektivlər", "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri", "Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri" kitabları sanballı elmi tədqiqat əsərləridir. Ümumiyyətlə, istedadlı şair, ədəbiyyatşünas Rafiq Yusifoğlunun sənət dünyası çoxşaxəli, zəngin və cazibədardır. Onun əsərləri həm ideya-məzmununun yeniliyi, həm də bədii sənətkarlığı ilə diqqəti cəlb edir.

**Məhəmməd Əliyev**
**filologiya elmləri doktoru, professor**

*"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı", 2 cilddə, II cild, Bakı, Elm və təhsil, 2016, s.674-684.*

## SÖZÜN VƏ SƏNƏTİN UCALIĞINDA

*"Özündən qurtulub da bir mürşidi-kamilin könlünə ülfət peyda edən kimsə nə xoşbəxtdir".*

***Cəlaləddin Rumi***

Təxminən bir il bundan əvvəl yazmaq istədiyim, ancaq nədənsə yaza bilmədiyim yazıdır. Bu bir il müddətində dəfələrlə müxtəlif münasibətlərlə kitablarını izləmişəm. Ədəbi mühitin problemləri müstəvisində müqayisələr aparıb qənaətlərimi dəqiqləşdirməyə çalışmışam. Haqqında deyilənlərin bir hissənini təhlil faktı kimi nəzərdən keçirmişəm. Ancaq nədənsə yazmağa tələsməmişəm. Özüm üçün dəqiqləşdirmişəm ki, çağdaş ədəbi-mədəni mühitin fəxr və qürur hissi ilə təhlilə cəlb ediləcək kifayət qədər istedadlı nümayəndələri vardır. Onlardan da biri şair, publisist, alim və uşaqların sevimlisi "Göyərçin" jurnalının baş redaktoru Rafiq Yusifoğludur. Mətbuat səhifələrində müxtəlif

vaxtlarda şeirlərini, elmi-nəzəri səpkili məqalələrini oxumuşdum. Tələbəlik illərindən bu yana imzası həmişə maraq dairəmdə olmuşdu. Həyat elə gətirdi ki, Rafiq müəllimlə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Folklor və qədim ədəbiyyat kafedrasında bir çalışmalı olduq. Onun yaradıcılığında özüm üçün müəyyənləşdirdiyim düşüncəni, təsəvvürləri bir şəxsiyyət olaraq fəaliyyətində, münasibət və davranışlarında da gördüm. Artıq şair, publisist, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu bütün tərəfləri ilə düşüncələrimdə bütövləşdi.

Rus ədəbi tənqidinin görkəmli nümayəndəsi V.Belinski vurğulayırdı ki, "şairin yaradıcılıq fəaliyyətinin mənbəyi onun şəxsiyyətində ifadə olunan poetik ruhundadır, buna görə də onun əsərlərinin ruhunun və xarakterinin izahını birinci növbədə şairin şəxsiyyətində axtarmaq lazımdır. Əgər siz şairin şəxsiyyətini ciddi, qərəzsiz və ədalətlə təqlid edib öyrənmiş və şairi düzgün başa düşmüsünüzsə, o halda siz, küləyin gücünə, öz şıltaq fantaziyanızın göylərində, haraya gəldi, baş alıb getmirsiniz, yerdə ayaqlarınız üzərində möhkəmcə dayanırsınız; siz daha şairdən özünüzün arzu edə biləcəyiniz şeyi tələb etmirsiniz, indi siz onun özünün sizə verdiyini qiymətləndirirsiniz, indi siz onun özünü olduğu kimi, necə varsa, eləcə də görürsünüz, siz daha öz fikir və rəyinizi ona sırımır, onun öz ideya və anlayışlarını götür-qoy edir, onların haqqında düşünürsünüz". Mən də müasir ədəbi prosesə maraqlı olan kimi çağdaş ədəbi-mədəni mühitin tanınmış simalarından Rafiq Yusifoğlunun "ideya və anlayışlarını götür-qoy edib haqqında düşünməyi" bir zərurət olaraq qərarlaşdırdım. Daha doğrusu, zəngin yaradıcılığı, oxuduğum kitabları içimdə buna ehtiyac yaratdı.

Bir məsələni də vurğulayım ki, Rafiq Yusifoğlunun yaradıcılığını yaxın vaxtlara qədər ancaq və ancaq mətbuat səhifələrindən izləmişdim. Səhv etmirəmsə, hansısa bir kitabını görüb oxumamışdım. Uzun illər idi ki, bir yerdə işlədiyimizə baxmayaraq reallıq bu idi. Səbəbini isə heç özüm də müəyyənləşdirə bilmədim. Gəldiyim qənaət bu idi ki, məsələnin mahiyyətində Rafiq

Yusifoğlunun sonsuz təvəzökarlığı ola bilərdi. Günlərin birində Azərbaycan nəşriyyatına getmişdim. Birdən düşündüm ki, Rafiq müəllimin yanına qalxım və "Göyərçin" jurnalının bir neçə nömrəsinə baxım. Redaksiyada görüşdük. Dedim ki, Rafiq müəllim, məndə sizin bir kitabınız da olsun belə yoxdu. Kitablarının böyük bir hissəsini stolun üstünə qoydu və böyük səmimiyyət hissi ilə (elə şair kimi) dedi: bunların hamısını sənə verirəm. Ancaq bilmirəm necə aparacaqsan.

İçimdə bir sevinc, heç özüm də axıra qədər aça bilməyəcəyim bir duyğu baş qaldırdı. Doğrusu, sevindim və düşündüm ki, bu qədər kitab yazmaq, ədəbiyyata, xalqımızın zəngin mədəniyyətinə xidmət etmək özü sözün həqiqi mənasında cəfakarlıq və qəhrəmanlıqdı. Çünki zamanın, mühitin özünün dolaşıqlıqları, ağırlığı və ziyalı çiyinlərinə yüklədiyi yük cəmiyyətin problemlərlə dolu olduğu vaxtda birə beş artır. Xalq şairimiz H.Arif deyirdi ki, "bir xalqa atadır, anadır şair". Doğurdan da, çağdaş ədəbi mühiti izlədikdə, yaradıcı mühitin problemləri ilə tanış olduqda bunu tam aydınlığı ilə görürsən. Və düşünürsən ki, "Füzuli çəkəni, Sabir çəkəni bir yerə yığılıb illər çəkməyib"dir. Məhz R.Yusifoğlunun bütünlükdə yaradıcılığı (poeziyası, nəsri, tədqiqat əsərləri, publisistikası) birmənalı olaraq bunu deyir. Elə müəyyənləşməli olan da onun bu qədər rəngarəngliklə dolu olan ilham qaynağının aydınlaşmasıdır. Təbii bu qaynaq el-oba, vətən, torpaq yurd sevgisindən bütünlükdə dünya sevgisinə qədər böyük bir rəngarəngliyi özündə əhatələyir.

Görkəmli Azərbaycan ədəbiyyatşünası F.Köçərli ədəbiyyat tariximizdə müstəsna xidmətləri olan M.V.Vidadi və M.P.Vaqif haqqında deyirdi: "Hərgah Vaqif və Vidadi kimi məşhur şairlər özgə millətlərin arasında zühur etmiş olsa idilər, bişübhə, indiyə kimi onların asarü əşarı dəfəat ilə çapdan çıxıb əbnayi-millət içində yayılmışdı. Onların qəbirləri üstündə nişangah qoyulmuşdu və vəfatlarının əlli və yüz sənəlik yubileyi – yövmi- alisi artıq cəlal və təntənə ilə yad olunmuşdu. Amma bizim türklərdə bu hissiyyət və qədirşünaslıq yoxdur. Şan və şərafətimizə, vətən və

millətimizin sərəfrazlığına səbəb olan, dilimiz və ədəbiyyatımıza rövnəq verən  əziz və möhtərəm vücudların qədr və mənzilətini bilmirik və onların asari-guzidələri  ilə iftixar etmirik. Əzbəs ki, avamlıq və avamlığımızdan milliyyət hissi bizdə ayılmayıbdır, vətənimimizin, dilimizin, ədəbiyyatımızın qədrini bilmirik".

Təxminən yüz il bundan qabaq deyilmiş bu fikirlər çox az istisnalar nəzərə alınmazsa, indi də belədir. Yüz illik bir zaman keçsə də, elə bir fəxarət ediləcək uğurlarımız olmayıbdı. Bəlkə də mahiyyətinə varsaq təəssübkeşlik, milli mənsubluq baxımından geriləmişik. Rafiq Yusifoğlunun yaradıcılığını izlədikdə belə bir qənaətə gəldim ki, bu gün çağdaş mədəni mühitdə "şan və şərafətimizə, vətən və millətimizin sərəfrazlığına səbəb olan, dilimiz və ədəbiyyatımıza rövnəq verən  əziz və möhtərəm vücudların qədr və mənzilətini bilməli və onların asari-guzidələri  ilə iftixar etməliyik". Ancaq həmin rövnəq vermənin mahiyyətini təəssüf və min təəssüf ki, lazımınca təqdim edə bilmirik. Bir-birini daban-basaraq izləyən bu kitablarda müəllifin istəyi, əzmkarlığı, iç aləmindən daşınanlar xalqa, bəlkə də dünyaya nələri çatdırmaq istəyir məsələsi ən ümdə olan kimi aydınlaşmalı məsələlərdir.

R.Yusifoğlu bir alim kimi ədəbi-nəzəri fikrin lazımı qədər tanınmış nümayəndələrindəndir. Onun "Azərbaycan poeziyasının sənətkarlıq xüsusiyyətləri" (Bakı, ADPU, 2010) adlı monoqrafiyasının üz qabığında (arxa tərəfdə) "mən bütün ömrümü, həyatımı şeirə, sənətə, ədəbiyyata, onun tədqiq və təbliğinə həsr etmişəm. Hərdən mənə elə gəlir ki, ədəbiyyat mənim Leylimdi, mən isə onun Məcnunu...". Rafiq müəllim qalaq-qalaq bir-birindən maraqlı kitablarını mənə təqdim edəndə ilk diqqətimi cəlb edən, gözümə sataşan bu sözlər oldu. Elə kitabları oxumağa başlanğıc kimi buradan başladım və bunun cavabını axtarmaq, mahiyyətini özüm üçün aydınlaşdırmaq düşüncəsi içimdə yarandı. Düzdür, Rafiq müəllimin yaradıcılığını mətbuat orqanları səviyyəsində nəşr olanlar qədərində bilirdim. Ancaq sistemli tanışlığım olmamışdı. "Ədəbiyyat mənim Leylimdi, mən isə onun Məcnunu"yam məsələsi içimdə düşüncələrimi bölüşmək duyğusunu qaldırdı.

Hətta epiqraf kimi düşündüm ki, yazacağım yazıya bu sözləri verim. Doğurdan da, ədəbiyyatın, böyük sənətin Məcnunu olmadan bu qədər işə köklənmək, bu qədər yazını, kitabı ortaya gətirmək mümkünsüzdür. İlahi vurğunluq, ilahi güc sayəsində bunları etmək olar. Söhbət həqiqi ədəbiyyatdan gedir. Ədəbiyyatla yaşayan və təpədən dırnağa qədər ona vurulan yaradıcıdan gedir. Müasir mühitdə qalaq-qalaq, kərpic-kərpic kitab adı ilə kitablar buraxılır. Ancaq içində oxumağa nəsə tapmaq olmur. Belə kitablar kifayət qədərdi, daha çox isə mənsəb, vəzifə sahiblərinin adı ilə çıxanlardı ki, xalqa sırınır. Deyəcəklərim bu cür kitablarla bağlı deyil və onların haqqında vaxt itirmək məqsədində də deyiləm. Söhbət böyük ədəbiyyatdan, ömrünü-gününü ədəbiyyat üçün əridəndən, dünyaya bu missiya ilə gələnlərdən, Rafiq Yusifoğlu olanlardan gedir.

Böyük M.Füzuli XVI əsrdə "sözün əndazəsi o qədər böyükdür ki, müəllimlər sözün məhsulu bildilər duanı, vəhyi, Quranı" deyirdi. R.Yusifoğlunun "Dəniz səviyyəsi", "Həsrət sazağı", "Daha uşaq deyiləm", "Sevdalı sabahlar", "Eşqin qarlı yollarında", "Dəniz, sən və mən", "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri", "Könül səltənəti", "Qızılı məktublar", "Müasir ədəbi proses və ədəbi tənqid", "Arzular kəhkəşanı" və s. kitabları vardır. Bu sadaladıqlarım R.Yusifoğlunun mənə bəxş elədikləridi. Ancaq kitablarının arxasında verilən siyahıda 2014-cü il üçün 63 kitabının nəşr olunması göstərilir. Bu çox böyük göstəricidir və müəllifin bütünlükdə yaradıcı fəaliyyətini izləmək üçün lazımı qədər material verir. Burada R.Yusifoğlu yaradıcılığının istiqamətləri bütün təfərrüatı ilə ortada görünür. Şair R.Yusifoğlu, nasir R.Yusifoğlu, publisist R.Yusifoğlu, alim R.Yusifoğlu və s. Ona görə və sairəni qeyd etdim ki, çağdaş mədəni mühitdə Rafiq Yusifoğlu həm də uşaq ədəbiyyatımızın ən tanınmış simalarındandır. Bu gün ədəbiyyatımızın bu qolunun zənginləşməsində, uşaq mətbuatının inkişafında, Q.Zakirdən, S.Ə.Şirvanidən, A.Bakıxanovdan, S.M.Qənizadədən, A.Səhhət-

dən, M.Ə.Sabirdən, F.Köçərlidən, S.S.Axundovdan, R.Əfəndiyevdən, A.Şaiqdən, M.M.Seyidzadədən, M.Rzaquluzadədən, M.Dilbazidən, Ə.Abbasovdan, E.Ağayevdən və başqalarından gələn ənənənin yaşarlığında və qorunuşunda əvəzsizdir. Çağdaş mühitdə uşaq ədəbiyyatının, uşaq dünyasının bütün məzmununu özündə ehtiva edən "Göyərçin" jurnalının ağırlıqları Rafiq Yusifoğlunun çiyinləri üzərindədir. Böyük maarifçi H.Zərdabi "balalarımızın başa düşə biləcəyi əsərlər yazmaq" çağırışı zaman-zaman ədəbi-mədəni mühitin diqqət mərkəzində olmuşdur. XIX əsrin sonu XX əsrin əvvəllərində də, sovetlər dönəmində də uşaq ədəbiyyatı böyük canlanma, olmazın vüsət və klassik səviyyəli sənət nümunələrinin yaranması ilə səciyyələnir. S.Vurğunun "Balalarımız üçün gözəl əsərlər yaradaq" çağırışı zamanında və ondan sonrakı dövrdə konseptual səciyyəsi, proqram xarakteri ilə bütünlükdə bədii düşüncəyə istiqamət vermişdir. O, xüsusi olaraq vurğulayırdı ki, "uşaq xəyalı səyyardır. O, şıltaq bir ulduz kimi daima süzüb oynar. O, güldən-gülə, çiçəkdən-çiçəyə qonan bir kəpənəyə bənzər. Daim hərəkət uşaq qəlbinin hüsnüdür. Xəyal və romantika bu təbiətin qanadlarıdır. Uşaq xəyalı bəzən ağ buludların içində gəzib seyr edir, ayla batır, günlə doğur, dərin dəryalarda qəvvas kimi üzür, keçilməz ormanlardan, dağlıq və qayalardan öz zərif ayaqları ilə keçir, şirlər və pələnglərlə pəncələşir. Biz bütün bu sonsuz xəyallar dünyasında qəhrəmanlıq, yüksəliş və uca arzular və əməllər görürük".

Bütünlükdə Azərbaycan uşaq ədəbiyyatı, eləcə də R.Yusifoğlunun yaradıcılığında mühüm bir hissəni tutan uşaq ədəbiyyatı nümunələri məhz bu dəyərlərə köklənmişdir. Şairin "Ocaq yeri" (Bakı, Yazıçı, 1989), "Aylı cığır" (Bakı, Gənclik, 1992), "Daha uşaq deyiləm" (Bakı, Şirvannəşr, 2006), "Çiçək yagışı" (Bakı, Çaşıoğlu, 2009), "Qızılı məktublar" (Bakı, ADPU, 2013) və s. kitablarında bütöv bir dünya, onun əlçatmazlıqları, zəngin həyat təsəvvürləri, "həyat badəsini birbaşa içmək cəhdləri", mənimsəmək, öyrənmək sonsuzluğu müşahidə olunur. Bunların isə hamısının mahiyyətində bir ülviyyət, təmizlik dayanır. Elə

poeziyanın enerji qaynağını, onun əlçatmazlığını, sirlə-sehrlə dolu olmasını şərtləndirən də budur. R.Yusifoğlu bütün müstəvilərdə poeziyadan, müqəddəs sözdən boy göstərir. Onun düşüncəsini, hisslər, duyğular aləmini kodlaşdıran və bütünlükdə etnosa təqdim edən də budur.

Rafiq Yusifoğlu böyük ədəbiyyata poeziyadan gəlmişdir. Onun yaradıcılığının (publisistikasının, nəsrinin, jurnalistik fəaliyyətinin, alimliyinin) başlanğıcında şairliyi dayanır. S.Zalıgin vurğulayır ki, "mənə elə gəlir, müğənni öz səsi ilə doğulduğu kimi, şair də özünəməxsus dili ilə doğulur, zil, yaxud pəs səsə malik olmaq müğənnidən asılı deyil və bu səsi yenidən qurmaq qeyri-mümkündür. Onu yalnız təkmilləşdirmək, diapazonunu genişləndirmək olar". Təkrar qeyd edirik, R.Yusifoğlunun da bir yaradıcı kimi bütünlükdə düşüncəsinin mahiyyətində poeziya dayanır. Onun ruhunun mayasında, düşüncəsinin alt və üst qatlarında hər şey bütün olanları ilə poeziyaya hesablanır və bütün dünyaya şair dünyasından boylanır, qiymətləndirmələri də oradan keçir. Şairlik onun üçün bir meyar, düşüncə və insanlıq, ucalıq kredosudur. Kitabları ilə tanışlıqdan və əsərlərinin arxasında verilən siyahıdan da bunu bir qənaət olaraq müəyyənləşdirdim.

V.Belinski deyirdi: "Şair sözü yüksək və müqəddəs sözdür. Bu sözdə ölməyən əbədi bir şöhrət vardır". Çağdaş poeziyanın istedadlı nümayəndəsi Rafiq Yusifoğlunun şeirləri, bir şair kimi zəngin yaradıcılığı bu hikməti, "ölməyən əbədi bir şöhrəti" bütün rəngarəngликləri ilə özündə ehtiva edir. "Ocaq yeri", "Qəm karvanı", "Həsrət köçü", "Təzə sevdalara doğru", "Ayrılığın qəm hasarı", "Həsrət sazağı", "Sevdalı sabahlar" , "Eşqin qarlı yollarında", "Dəniz, sən və mən", "Könül səltənəti", "Arzular kəhkəşanı" və s. kitabları bunun tipik nümunəsidir. Şairin ilk şeirlər kitabı ("Yurdum-yuvam") keçən əsrin səksəninci illərində nəşr olunmuşdur. Hansı səksəninci illər ki, özünün qaynarlığı, yeni mühit düşüncəsi ilə bütünlükdə ədəbi-nəzəri mühitin bu gün də təhlil marağındadır və 60-cı illər ədəbiyyatının davamı kimi vurğulanır. Poeziyada yeni nəfəsin, ruhun, milli yaddaşın oyanış

mərhələsinin ikinci dalğası məhz bu illərlə bağlıdır. Sovet ideoloji maşınının formalaşdırmağa çalışdığı sistemin puçluğunun və gərəksizliyinin dərki və mümkünsüzlüyü bu illərdə bütün formaları ilə aydınlaşdı. Məhz R.Yusifoğlunun ilk kitabının mahiyyətində işarələnən "Yurdum-yuvam" özlüyündə bunun metaforik ifadəsidir. Çünki türkün son iki yüzillik zaman müddətində olan itkilərinin başında rus şovinizmi durmuşdu. Burada İrəvan, Zəngəzur, Borçalı, Göyçə və s. kimi sonuclana bilməyən və bu gün də qorxulu anlar yaşadan faciələr qalmaqdadır. Axıska türklərinin, Kırım tatarların və s. faciələrini də buraya əlavə etdikdə məsələnin mahiyyəti daha da böyüyür. "Ayıl, ey ümməti-mərhumə, ayıl, Ayıl, ey milləti-məzlumə, ayıl" (Abbas Səhhət) çağırışı ortaya çıxır.

Dili sənə dost deyənin əli gizlicə,
Əsrlərlə ayağının qazıb altını.
Sən bu ağır günlərində məğrursan necə,
Mənim xalqım, uca saxla təmiz adını!

Başımızın üstündədir yenə duman, çən,
Yolumuzu seçməliyik biz bəri başdan.
Ümidin var, heç bilmirəm nə gözləyirsən
"Dovşana qaç, tazıya tut" – deyən qardaşdan?

"Mənim xalqım" şeirindən verdiyimiz bu nümunə məhz doxsanıncı illərin ağrılarını, sovetlər imperiyasının mahiyyətini ortaya qoymaq, türkə olan münasibətini aydınlaşdırmaq baxımından tipikdir. Mətn hadisəsi kimi işarələdiyi məzmun bütünlükdə vəziyyəti ifadəyə hesablanmışdır. Burada bir çağırış, türkə qarşı yönəlikli siyasətin mahiyyət və məzmunu özünün faktik ifadəsini tapır. Çünki R.Yusifoğlu bir yaradıcı kimi bunları əvvəlki onilliklərdən taleyində yaşayırdı və bu və ya digər şəkildə onun ifadəsini yazılarında verməkdəydi. "Azərbaycan torpağı", "Arazın cavabı", "Ata evi" və s. şeirlərdə şairin torpaq, yurd sevgisinin

rəngarəng çalarları boy göstərir. “Ata evi” şeirində olan müraciət bir yaradıcı kimi türkün yurd sevgisinin yaşarlığına işarədir.

Əziz bala, bu ocağı yaxından tanı,
Bura gəlcək həyəcandan əsir dil-dodaq.
Ata evi- qartalların uçuş meydanı,
Ata evi- övladların güvəndiyi dağ.

Bu gün varam, sabah yoxam, ömür-gün keçir,
Sən bunları yaxşı başa düşəsən gərək.
Doğmalara, əzizlərə yovuşmaq üçün,
Axşam-səhər bu ocaqda bişəsən gərək.

Əvəzsiz nümunədir, burada doğma yurdun, el-obanın, bütünlükdə türkün, insan olanın həyat təsəvvürləri, başlanğıca yönəlikliyi və onun müqəddəsliyi cəmlənir. Bütün canlılar hər axşam öz yuvasına tələsir və onun qoruyucusu funksiyasını yerinə yetirir, heç nə ilə əvəz olunmazlığı təsəvvürü ilə yaşayır. Bizim xalq mahnılarımızın birində deyilir ki, “hansı dağın maralısan”. R.Yusifoğlu məhz “əziz bala” müraciəti ilə bütünlükdə Azərbaycan övladlarına üz tutur, onların bu düşüncədə, şüurun alt qatında olan (üstdə görünənlərdən əlavə) duyğuları hərəkətə gətirməklə bütün zamanların nümunəsini yaradır. Bu, bir növ mənsubluq, özünüdərk missiyasıdır. İnsanın bir şəxsiyyət, el-obaya, cəmiyyətə lazımlı bir insan kimi formalaşması məhz ailədən, ocaqdan, mühitdən başlanır. Təbiətin özünün harmoniyası var, belə ki, bütün canlılar nə qədər öz yuvasından perikdirilsə belə, yenə ora can atır. Heyvanlar aləmində bu prinsip daha həssaslıqla qorunur.

İnsan öz təbiəti etibarilə qəribə, həm də mürəkkəb məxluqdur. Onun içərisindəki təkəbbür, mənəm-mənəmlik, qurmaq və dağıtmaq (bəlkə də daha çox dağıtmaq) duyğusu min illərdi qana, ölüm-itimlərə hesablanıbdır. Cahangirlərin, şahların, xaqanların təbiətində olan təkəbbür bütünlükdə dünyanı qana çalxayıbdır.

Gələn-gedənin arxasınca danışıb, qüsurlarını, çatışmazlıqlarını, talançılığını, zülmünü və s. cəmiyyətə sırımaqla öz işlərini görübdür. Məmləkətə daha ağır acılar yaşadıbdır. Sonrakı isə onun özünü təhlillə, gördüklərini qılınclamaqla yaşamağa üstünlük veribdir. Beləcə insan ömrü ağrıların içində çırpınmaqla sonuclanıbdır. Bu gün də belədir, eynilə dünya nizamında bu düstur təkrarlanır. Azərbaycanımız, bizim müqəddəs vətənimiz isə bunun daha dəhşətlilərinə şahidlik edibdir. Tarixi torpaqlarımızın itkisi və bugünkü Qarabağın taleyi, məmləkətimizin halı buna tipik nümunədir.

Ağbulağın bəxti qara yazıldı,
Şamsız adı xəritədən pozuldu.
Qəlbimizdə bir əbədi sızıltı –
Gözləmirdik belə fitnə-feli biz.

Nökərimiz üzümüzə ağ oldu,
Dağlarımız gözümüzə dağ oldu.
Sonaları pərən-pərən dağıldı,
Qara geydi bizim Qara gölümüz.

Göründüyü kimi, burada ifadə olunan informasiya, poetik mətnin işarələdiyi məzmun bütünlükdə Azərbaycanın son illərdəki problemlərini, sovetlər imperiyasının dağılmasından sonrakı mənzərənin ağrılarını ümumiləşdirir. İmperiyanın gəlişindən gedişinə qədər Azərbaycan, demək olar, böyük fəlakətlərlə üz-üzə qalıbdır. Daha doğrusu, imperiya Azərbaycana fəlakətlər yaşadıb. Bu gün də, artıq imperiyanın dağılmasından təxminən iyirmi altı illik zaman ötsə də, həmin fəlakətlərin, siyasətin acısını yaşamaqdadır. Yuxarıdakı nümunə də birbaşa baş vermiş olacaqların ifadəsinin bir faktıdır. R.Yusifoğlu bir yaradıcı, istedadlı ədəbiyyat adamı kimi onların poetik təqdimini verir. Bütünlükdə Azərbaycan xalqı, türk dünyası tarixi torpaqların, Qarabağ itkisinin acısını dadır. Bir yaradıcı kimi olanların hamısını öz taleyində yaşayan R.Yusifoğlu da gözəl Qarabağın, göz açdığı torpaqların, yurd

yerlərinin, Qubadlı dağlarının, Həkərinin, Qara gölün acısını yaşayır və onu bədii fakta çevirir.

R.Yusifoğlunun yaradıcılığı, həyat hadisələrinə, mühitə, hər hansı fakta yanaşmaları obrazlılığa, özünəməxsusluğa, yaddaş faktlarına, arxaik düşüncənin zaman-zaman cilalayıb ötürdüyü təsəvvürə hesablanır. Onun hər hansı şeirinin arxasında canlı həyat, yaradıcı qəlbinin pulsları hiss olunur. Mahiyyətinə fikir verdikdə isə ucsuzluğa, son dərəcədə müqəddəs dəyərlərə, mənəviyyat kodlarının qəlibləşmiş sxemlərinə gedib çıxır. Məhz bu səbəbdən də mövcud nümunələr üzərində daha ciddi müşahidələr aparmağa ehtiyac duyulur. Məsələn, bir nümunəyə diqqət yetirək:

Kəndimizə qonaq gələn dost,
Öz bəxtindən küs ki,
Sən adicə bir çiçək görürsən,
mən baba qəbrindən
boylanan nisgil.
Min xatirə uyuyur
o dağın zirvəsində,
bu dərənin qucağında.
Bir həsrət nəğməsi çağlayır
bu bulağın dodağında.
Bir ürək titrəyir
bu ağacın hər yarpağında.
Bir ata həniri var
bu evin suvağında...

Burada sonu, ucu-bucağı görünməyən yaddaş, tarix, insan ömrünün bütün dövrlərini izləyəcək, onunla birgə addımlayacaq hisslər, təsəvvürlər, yaddaş və onun müqayisəsi var. Budur ədəbiyyat, bədii mətnin plafonik xarakterliliyi və buradan da həyat, onun rəngarəng məzmunu aydınlaşır.

Onu da əlavə edək ki, bu tip mətnlərin açımı və yozumu birdən-birə, hansısa təsadüfi münasibətlərlə, şərhlərin birbaşa verilməsi ilə olmur. Zəngin mətn bazası tədrici prosesdə aydınlaşır.

R.Yusifoğlunun poeziyası hisslərin, duyğuların dil açdığı, boy göstərdiyi, cilvələndiyi poeziyadır. Orada hər gülün, çiçəyin öz ətri, rəngi olduğu kimi, hər sözün, misranın, bəndin, bütünlükdə mətnin fenomenliyi, rayihəsi var.

Hələ qurumayıb gözümün yaşı,
Bulağa min şükür, çaya min şükür!
Sevdim güllü yazı, boranlı qışı,
Payıza min şükür, yaya min şükür!..

Demə karvanımın üzü qışadı,
İçimdə payızla bahar qoşadı.
Sevdalı, sevincli ömür yaşadım,
Allahın verdiyi paya min şükür!

Azərbaycan ədəbiyyatının tarixinə, keçib gəldiyi yola fikir verdikdə bütün zamanlarda özünəməxsusluq, ənənənin daşınışı və qoruyuculuğu, vətəndaşlıq missiyasına sədaqət, idealların təqdimi və ona yönləndirmə, nikbin duyğuların, həyat eşqinin aparıcılığı bir tərəf kimi özünü göstərir. Q.Təbrizinin, X.Təbrizinin, Ə.Gəncəvinin, X.Şirvaninin, M.Gəncəvinin, N.Gəncəvinin, Z.Şirvaninin, A.Ərdəbilinin, Ə.Təbrizinin, Ş.Q.Ənvarın, M.Şəbustərinin, Ş.İ.Xətainin, M.Füzulinin, M.Əmaninin, S.Təbrizinin, M.P.Vaqifin, M.V.Vidadinin, Q.Zakirin, S.Ə.Şirvaninin, M.Hadinin, M.Ə.Sabirin, A.Səhhətin, S.Vurğunun, M.Müşfiqin, H.Arifin, M.Arazın, M.Yaqubun və s. sənətkarların yaradıcılığında özünü göstərən ruhun uğurlu davamı, əlavələrlə görünüşüdür. Rafiq Yusifoğlunun yaradıcılığında klassiklərdən gələn sənətkarlıq missiyasının qorunuşu aparıcılıqla müşahidə olunur.

Məhəbbət ocağı hey için-için,
Közərir köksümdə, açılıb dilim.
Dünyaya gəlmişəm yaşamaq üçün,
Dünyaya gəlmişəm sevim, sevilim!

Əyilib su içdik buz bulaqlardan,
Haraya getmədik biz gəzə-gəzə?
Gözəl çəmənlərdən, uca dağlardan,
Gül dərmək yazılıb qismətimizə.

R.Yusifoğlunun poeziyası təkcə mətn bazası, informasiya intelleksiyası ilə seçilmir, burada həm də poetik mətnin fakturasının əlahiddəliyi diqqəti cəlb edir. Bütün olanlar tipikliyə, həyat eşqinin sonsuzluğuna, nümunə olmaya hesablanır. Bədii strukturun hərəkətliliyi (müxtəlifliyi), fonosemantik xarakterliliyi, estetik funksiyası məzmunun fövqəlzamanlılığını şərtləndirir.

Böyük şairimiz S.Vurğun xüsusi olaraq vurğulayırdı ki, “öz üslubunu təyin etmək və ona daim sadiq yaşayıb yaratmaq şair üçün səadətdir”. Rafiq Yusifoğlu bütün mövzularda öz üslubuna sədaqət göstərən, öz ampulasında olan sənətkarlardandır. Nədən yazmasından, mövzu fərqliliyindən asılı olmayaraq bütün vəziyyətlərdə belədir. Bu, doğurdan da, sənətkar xöşbəxtliyidir.

Uşaqlar üçün yazdığı şeirlərdə də, elmi məqalələrində də aparıcı tərəf kimi bu cəhət özünü aydınca göstərir. Azərbayacan ədəbiyyatını, onun maraqlı, həm də gərəkli bir hissəsi olan uşaq ədəbiyyatını məhz bu özünəməxsusluqları ilə bir boy zənginləşdirmişdir. Çağdaş mədəni mühitdə uşaq ədəbiyyatı öz rəngarənglikləri, uşaq dünyasının maraqları və ifadə texnalogiyalarının uşaq fantaziyasına uyğunlaşması ilə maraq doğurur. R.Yusifoğlunun zəngin yaradıcılığında uşaq şeirləri bir istiqamətdir, həm də güclü görünən tərəfdir. Onun ayrı-ayrı kitablarında toplanan “Aydanın yuxusu”, “Bacım deyir”, “Şirin”, “Bağçanın çiçəkləri”, “Güllü don”, “Aynur kimdi”, “Ülkər”, “Çiyələk”, “Təbrizənin günahı”, “Ramizin cavabı” və s. onlarla şeirləri sırf uşaq fantaziyasına, onların təsəvvür və düşüncələrinin ifadəsinə hesablanıbdır.

Yun çırpırdı bir dəfə
Həyətdə Gülsüm nənə.
Durub ona baxırdı

Bizim balaca Nanə.
Nənəsinin işləri
Çaş-baş qoymuşdu onu.
-Nənəcan, yazıq deyil,
Niyə döyürsən yunu?

Bu cür tipik nümunələr, uşaq düşüncəsində olanları yazıya gətirmək bacarığı R.Yusifoğlunun yaradıcılığında kifayət qədərdir. Onun zəngin yaradıcılığında mühüm bir hissəni uşaq ədəbiyyatının, eləcə də bütünlükdə Azərbaycan ədəbiyyatının nəzəri məsələləri təşkil edir. "Uşaq ədəbiyyatı", "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri", "Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri" kitabları məhz hər birisi ədəbi mühitin nəzəri problemlərini təhlil etmək, konseptual yanaşmaları ortaya qoymaq baxımından əhəmiyyətlidir. Bunların hər biri R.Yusifoğlunun yaradıcı şəxsiyyətini, Azərbaycan ədəbiyyatına sevgisini, bütünlükdə Azərbaycan ziyalısının kimliyini aydınlaşdırmaq üçün nümunədir.

Sonda deyəcəyim bir məsələ də vardır. Bu, R.Yusifoğlunun pedaqoji fəaliyyəti ilə bağlıdır. R.Yusifoğlu təkcə poeziyası, elmi araşdırmaları, "Göyərçin" jurnalındakı fəaliyyəti ilə adını xalqımızın tarixinə yazmayıbdır. Onun canlı fəaliyyətinin mühüm bir hissəsi universitet auditoriyası ilə bağlıdır. Tələbələrin sevimlisinə çevrilmişdir, onların hər birinin qəlbində bir Rafiq Yusifoğlu sevgisi vardır. Bunları canlı şahid kimi görür və deyirəm. Rafiq müəllim pedaqoji fəaliyyəti ilə də Azərbaycan balalarına insanlığın, şəxsiyyət olmanın nümunəsidir. Bütün bunlar Rafiq Yusifoğlunun bir yaradıcı kimi zənginliyini səciyyələndirir.

**Mahmud ALLAHMANLI**
**filologiya elmləri doktoru, professor**
*"Ədalət" qəzeti, 30 noyabr 2016- 1 dekabr 2016.*

# İŞIĞA CAN ATAN DURNA QATARI

Uzun illərdən bəri tanıdığım şair Rafiq Yusifoğlunun poeziyasını bircə cümlə ilə belə ifadə etmək olar: Bu şeirlər işıığa can atan durna qatarına bənzəyir... Və bu qatar yarım əsrdən çoxdur ki, poeziya səmasında yorulmadan qanad çalır, sərhəd tanımır, ölkədən-ölkəyə, ürəkdən-ürəyə uçur... Dünyanın çox ölkələrini gəzib dolaşması, çoxlu bədii, elmi-fəlsəfi əsərlər oxuması, tədqiq və tərcümə etməsi həm onun əsərlərinin poetik xəritəsini əhəmiyyətli dərəcədə genişləndirmiş, həm də şeirlərinin fəlsəfi tutumunu, bədii dəyərini artıran vasitəyə çevrilmişdir. Onun şeirlərində təsvir olunan ən adi predmet, əşya belə bədii obraz səviyyəsinə qaldırılır.

"Almır da vecinə çovğunu, çəni,
Vətəndə keçirir o, bütün qışı!" –
Bəsdir tərifədik bu boz sərçəni,
Bəsdir qoyduq onu durnaya qarşı...

…Sönməz bahar eşqi, axsa da qanı,
Onun zəhmətini zay eləməyin.
Döşü buludları yaran durnanı,
Bir yoluq sərçəyə tay eləməyin!

Rafiq Yusifoğlunun əsərlərini oxuyanda bu qənaətimiz bir daha möhkəmlənir ki, həqiqi poeziya təbiətin özü kimidir, daim işıq axtarır, xoşbəxtlikdən söhbət açır, sabahı, gələcəyi tərənnüm edir. O, insanı səciyyələndirəndə poetik fikrin mərkəzində ağil, kamal, intellekt dayanır. Bu zaman daxili zənginliyi, ağılı, harmoniyanı başlıca meyara cevirir. Lakin işığı, harmoniyanı,

xeyirxahlığı daha qabarıq göstərmək üçün poeziya öz əbədi qanunlarından kənara cıxmır. İşıq-qaranlıq, ağıl-nadanlıq, xeyirxahliq-bədxahlıq, harmoniya-xaos qarşılaşmalarından bəhrələnir.

Kainatın böyüklüyü,
Yaradanın böyüklüyü
mütləqdi, qətidi…
Kiçikliyini dərk eləmək
İnsanın böyüklüyünün
ilkin əlamətidi…

Ədəbi təcrübəsinin 50, yaşının 70-ini qeyd edən Rafiq Yusifoğlu da poeziyanın bu dədə-baba qaydasını müqəddəs tutan şairlərdən biridir. O, ədəbiyyatın həqiqi mahiyyətini yaxşi dərk edir. Başa düşür ki, ədəbiyyat insanlığı kamilliyə aparan, həyatın sirlərini obrazlı dilin möcüzələri ilə təlqin edən xüsusi bir sənətdir. O, insana naqislikdən xilas olmağın yollarını göstərir.

Seldən maya tutan cayın
Dibinin daşı bilinməz.
Çox qədimdi, çox uludu
Dünyanın yaşı bilinməz.

Milyard illərin dünyası
Yaşıddı körpə uşaqla.
Milyard illərin dünyası
Yoğrulub nurla, işıqla!

Ruhani həyat axtarışı Şərq şeirinin ənənəsi kimi Rafiq Yusifoğlunun poeziyasının da ana xəttini təşkil edir.

Hər açılan çiçək deyil,
Hər parıltı şimşək deyil,
“Qoca” köhnə demək deyil,
Dünya hər an təzələnir...

İnsan bu həyatın əbədi yolçusudur. Bir nəsli başqası əvəz edir. Bu əvəzetmə prosesi inkişaf qanunlarına tabedir. Buna görə də poeziya ümumi bir ideala doğru irəliləyən insanın inkişafındakı zərrələri, elementləri göstərmək bacarığına nail olanda müasirləşir, həqiqi qiymətini alır.

Ömrümüzdə öz yeri var bəyaz güllərin,
Hər ağ çiçək təbiətin bəyaz sözüdü…
Dümağ saçlar üstümüzdən ötən illərin
Başımızda, üzümüzdə ayaq izidi…

Böyümüşük, dünya bizə dardı elə bil,
Qəlbimizi gizildədən həsrət dağıdı…
Bəyaz saçlar zirvədəki qardı elə bil,
Bəyaz saçlar qocalığın ağ bayrağıdı…

Poeziya şairin dünya ilə söhbətidir. Bu söhbətin əsas mövzusu böyük ideallarııın tərənnümü, fərdi maraqların, cılız xarakterlərin ifşasıdır. Bu prosesdə yaxşını pisdən secmək bacarığı qələm sahibinin istedadının səciyyəvi cəhətidir. Rafiq Yusifoğlunun ictimai-siyasi mövzuda yazılan şeirlərinin əksəriyyətində bir fəlsəfi dərinlik, düşüncə bənzərsizliyi sezilməkdədir. Məsələn, şairin "Füzuli dərd əlindən dağa çıxdı, dedilər bəxtəvər yaylağa çıxdı" deyiminə istinadən qoşma formasında yazdığı şeiri bu misralarla bitir:

Sayrışır gözümdə qəm fişəngləri,
Titrədir ruhumu əcəl zəngləri,
Sozalıb, tükənib ömrün rəngləri,
Qaramız burdadı, ağımız orda.

Elim didərgindi, dağılıb obam,
Dərdimi açmağa çətin dağ tapam,
İndi biz neyləyək, Füzuli babam? –
Dərdimiz burdadı, dağımız orda…

Ümumiyyətlə, Rafiq Yusifoğlunun şeirlərinin mövzu və problematikası zəngindir, düşündürücüdür. Onun Amerikaya, Dubaya, Türkiyəyə və s. ölkələrə çoxsaylı səyahətləri zamanı qələmə aldığı şeirlərdə hər şeydən əvvəl, vətənpərvər bir şairin bədii obrazı göz önündə canlanır.

Mən qürbətdə
vətənin bir parçasıyam,
Vətəndən əsən yellərə qoşulub,
quş kimi qanad açasıyam –
Okeanların,
dənizlərin üstündən
Vətənə uçasıyam!
Qəlbimdə Vətən eşqi
olduğu üçün
ucaların ucasıyam...

Ən qeyd olunası cəhətlərdən biri də budur ki, Rafiq Yusifoğlunun şeirləri dil və ifadə, bədii sənətkarlıq baxımından da mükəmməldir. Sözsüz ki, bütün bunlar onun bir nəzəriyyəçi alim olmasından qaynaqlanır.

Bənövşə arzular boynu bükülü,
Nəfəsin ayrılıq küləyi olub.
O ötən ayların, illərin külü
Arzu közlərimin bələyi olub…

Gözümdə bir eşqin şimşəyi çaxar,
Göylər qəm yağışı tökər dünyaya.
O köz kül altdından sıyrılıb çıxar,
O kül duman olub çökər dünyaya.

Ədəbiyyatın ictimai xarakteri-cəmiyyətə xidmət etmək borcu var. Bir ölkədə yaranan əsər başqa diyarların da sevimlisi ola bilər. Lakin bu o zaman baş verir ki, qələm sahibi bəşəriyyətin

marağında olan mətləblərə toxunsun. Belə əsərlər gec-tez başqa dillərə çevrilir və yeni həyatını yaşayır. Belə əsərlərdən bir çoxunu dilimizə çevirən şair həm poeziyamızı zənginləşdirir, həm də dunyanın mütərəqqi fikirlərinin yayılmasına xidmət edir. Rafiq Yusifoğlu dünya poeziyasından Qarsia Lorka, Bayron, Li Bo, Du Fu (Çin), Çon Çxol (Koreya), alman şeirindən Peter Şyut, Hans-Yurgen Hayze, Ulla Han, Roza Auslender, rus poeziyasından Sergey Yesenin, Konstantin Simonov və s. kimi şairlərin əsərlərini dilimizə uğurla çevirmişdir.

Rafiq Yusifoğlunun yaradıcılığının əsas hissəsini uşaq şeirləri təşkil edir. Bu janrda yazdığı əsərlərin mövzusu çox rəngarəngdir. Lakin Vətən sevgisi onların içərisində xüsusı yer tutur.

Hamı fərəhlə baxır
Yurdumun bayrağına...
Göyqurşağı enibdir
Lələtəpə dağına.
Gördüyüm bu mənzərə
Kədərimi dağıdır.
Dalğalanan zəmilər
Bərəkət bayrağıdır.

Azərbaycan ordusunun Lələtəpədə qazandığı qələbəni şair özünəməxsus şəkildə ifadə edir. Bəzən bu sevgi adi həyati hadisələrdə verilir. Məsələn, harasa uzaqlara getməyə hazırlaşan baba dəniz sahilinə gəlir, sanki Xəzər dənizi ilə sağollaşır. Amma qoca göz yaşını saxlaya bilmir. Bu mənzərə nəvənin gözündən yayınmir:

Bulud kimi dolubdur
Yaşaran gözünə bax,
Təkcə biz yox, dəniz də
Babasız darıxacaq...

Şairin uşaq əsərlərində təbiətin tərənnümü xüsusi yer tutur. Güllərin, cicəklərin ətri, onların bitdiyi fəsil, meyvələrin

səciyyəvi cəhətləri, əhəmiyyəti, ağacların xüsusiyyətləri və s. və s... onun əsərlərinin mövzusuna cevrilir.

Həmərsin kollarinda
Açılıb ağ çiçəklər.
Elə bil budaqlara
Qonub ağ kəpənəklər.
O zərif kəpənəklər
Birdən qanad açdılar
Hərəsi öz yerində
Meyvə qoyub uçdular.

Burada həmərsin kollarının ağ cicəkləri təkcə gözəl olduğuna görə deyil, xeyirxah olduqlarına - ucub gedərkən hərəsi ağacın başında bir meyvə qoyduqlarına görə tərənnüm olunur.

Şübhəsiz ki, uşaq ədəbiyyatının əsas vəzifələrindən biri uşağa obrazlı bir dillə təbiətin sirlərini öyrədə-öyrədə onlarda xeyirxah hisslər oyatmaq, vətənə, ata-anaya, doğma torpağa sevgi duyğularını gücləndirməkdir. Bu baxımdan Rafiq Yusifoğlunun şeirləri çox səciyyəvidir.

Çəmən ana hirsləndi
Boynubükük çiçəyə:
-Niyə könül verirdin
Bir sərsəri küləyə?!

Onun şeirlərində təkcə təbiət cisimlərinin yox, dünyaya, kainata maraqla baxan, onun sirlərini öyrənməyə çalışan uşağın bədii obrazı dayanır:

Baxmaqla doymaq olmaz
Bizim gözəl dünyaya.
Kaş bir nərdivan qoyub,
Qalxa biləydim Aya!

Üzümü söykəyərək
Onun parlaq üzünə,
Qulaq asa biləydim
Söhbətinə, sözünə.

Şirin-şəkər kəlmələr
Növbəyə düzüləydi.
Nağıllar ay nuru tək
Üstümə süzüləydi...

Cəmiyyətin qanunauygun inkişafını dəyişdirməyə haqqımız yoxdur. İnsan təbiətin bir hissəsidir. Hələ görən olmayıb ki, yazdan sonra qış, yaydan sonra yaz gəlsin. Təbiət öz qanunlarını qoruduğu halda, biz niyə onu pozmağa cəhd göstəririk? Körpə uşaqlığını da, gəncliyini də vaxtında keçirməli, elmi bilikləri də vaxtında almalıdır. Bunlar uşaq xoşbəxtliyinin atributlarıdır. Valideynin tələsməsi arzuolunmaz nəticələrə gətirib cıxara bilər. Rafiq Yusifoğlu isə bu mübahisələrə qoşulmadan uşağa həyatın sirlərini öyrətməkdə davam edir. "Meşədə yarış" şeirində olduğu kimi:

Meşədəki bu yarış
Bil ki, deyil havayı.
Ağac tez boy atmasa,
Əldən çıxar nur payı.

Hər biri çalışır ki,
Olsun bir az da uca.
Günəşin işığıdı
Gəl-gəl deyən ağaca…

Rafiq Yusifoğlu təbiəti kitab kimi vərəqləyir. Hər bitkinin, ağacın, cicəyin fərdi cəhətlərini mənalandırmaq üçün priyomlar axtarır. Şabalıd ağacının qoza bənzəyən qozalarını (qoz-qoza alliterasiya yaradır) uşağın gözü qarşısında canlandırmaq üçün kirpiyə bənzədir, tikanlarını isə onun silahı olduğunu deyir.

Beləliklə, cansız qozanı canlı kimi təsvir etməyə nail olur. ”Məhəbbət ağacı” şeirində də bu yolla gedir. Amma burda məhəbbətin möhkəmliyi anlayışını bir növ mücərrədlikdən cixarıb əyaniləşdirir.

Rafiq Yusifoğlu bənzərsiz şəxsiyyət, bənzərsiz qələm sahibidir. Onun yaradıcılığı zəngin və çoxşaxəlidir. Bədii əsərləri səksəndən çox kitabda toplanib. Onun nəsri də, publisistikası da diqqətəlayiqdir. Poeziya isə Rafiq Yusifoğlu yaradıcılığının şah damarıdır. ”Yurdum yuvam”, ”Ətirli düymələr”, ”Ocaq yeri”, ”Aylı cığır”, “Qəm karvanı”, “Həsrət köçü”, “Təzə sevdalara doğru”, “Çiçək yağışı”, “Ayrılığın qəm hasarı”, “Həsrət sazağı”, “Sevdalı sabahlar”, “Eşqin qarlı yollarında”, “Dəniz, sən və mən”, “Arzular kəhkəşanı”, Qızılı məktublar”, “Bulud fayton”, “Sabahın sorağında”, “Üçüncü qərinə”, ”Nağıl qapısı”, “Sevdalı ömür yaşadım”, ”Zamanın qatarı”, ”Könül səltənətı” və sair kitabları geniş oxucu kütləsinə yaxşı tanışdir. Onun uşaq şeirlərində bir böyük müdrikliyi, böyüklər üçün şeirlərində isə bir uşaq səmimiyyəti, saflığı var... “Dəyirmanın nəğməsi” şeirində olduğu kimi:

Mən öpdüm, oxşadım arxı,
Dedim: – Boyun uzun olsun!
Köynəyimdən keçirtdim ki,
Dönüb mənim qızım olsun.

Sevdim, əzizlədim onu,
Heç məni salmadı saya.
Axıb getdi, aşağıda
Qovuşdu anası çaya…

Rafiq Yusifoğlu həm də tanınmış, nüfuzlu alimdir. Filologiya elmlər doktoru, professordur. Bir necə gənc alimin elmi rəhbəri, xeyli dissertasiya işinin opponenti, saysız hesabsız əsərlərin rəyçisi olub. Dissertasiya şurasının üzvü kimi həmişə haqqın, ədalətin tərəfində dayanıb. Şeirlərində bir alim düşüncəsi,

tədqiqatlarında isə şairanəlik özünü aydınca büruzə verir. Onun şairliyi elmi əsərlərinə, alimliyi isə şairliyinə yardımçı olub, yeni çalarlar gətirib. Müəllimliyi, naşirliyi də üstəlik... ”Azərbaycan poeması: axtarışlar, perspektivlər”, “Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri”, ”Ədəbiyyatşünaslığın əsasları”, “Uşaq ədəbiyyatı”, ”Müasir ədəbi proses və ədəbi tənqid”, “Ədəbi-nəzəri fikri inkişaf mərhələləri”, “Bədii söz – məna ocağının közləri” və s. kimi fundamental elmi əsərlərin müəllifidir.

Rafiq Yusifoğlu 70 yaşında da gənclik həvəsi ilə yazıb yaradır. Sosial şəbəkələrdə şeirləri ilə fəal çıxış edir. Hər bir şeirini xüsusi tərtibatla təqdim etməsi göstərir ki, onun gənclik eşqi azalmayıb. 50 illik dostuma və qələm yoldaşıma uzun ömür və yeni-yeni yaradıcıııq uğurları arzulayıram. Ümid eləyirəm ki, onun durna qatarını xatırladan şeirləri işığa doğru uçuşlarını davam etdirəcəkdir...

**Zahid XƏLİL**
*“Ədəbiyyat qəzeti”, 28 dekabr 2019*

## Rafiq Yusifoğlu – 70

# ŞAİRİN MEYARI

Hər bir istedad sahibi özünün daxili aləmində yalnız sonralar, bioloji yetkinlik və kamilləşmə dövründə ilahı qüvvənin, Ulu Yaradanın özünün birər-birər seçdiyi bəşər övladlarının hər birinə müxtəlif yaş mərhələsində fərqli dərəcədə bəxş etdiyi vergi payının dayandığını istər-istəməz içində duymalı olur. İlahi qüvvənin qüdrətindən nazil olan bu vergi payı bəşər övladını tapdanmamış cığırlarla müxtəlif yaradıcılıq istiqamətlərinə yönəldir, hər birinə də öz ampulasında müasirlərindən fərqli olan yeni imkanlar açır və onlar mövcud dünyanı müxtəlif rakurslardan görməyi bacarırlar.

Belə bir vergi payı qəlbi güclü bədii-estetik stimul bəxş edən poeziyanın harmonik obrazlılığı ilə döyünən və bu hisslərlə yaşamağı, poetik fikirlərinin səciyyəvi keyfiyyətlərini məharətlə misralarına mirvarisayağı düzməyi bacaran şairlərdən biri də Rafiq Yusifoğludur. Onun üçün poeziya sferasında keçilməsi mümkün olmayan bir sərhəd yoxdur, yaşından asılı olmayaraq hər bir oxucunun qəlbinə nüfuz etməyi bacarır, ya məsum qəlbli uşaqları, ya iki qəlbin çırpıntısını birgə duyan, məhəbbətin ən uca zirvəsində qanadlanan gəncləri misralarındakı portretli poetik obrazlılığın gücü ilə öz arxasınca aparır, hətta mövcud həyatın isti-soyuğunu həssaslıqla duyan, onu dərindən dərk edən ahıl yaşlı, nurani çöhrəli insanların qəlbinə də nüfuz etmək bacarığına malikdir. Bu keyfiyyətlər şair üçün böyük üstünlükdür, əslində şairin sənətkarlığı da elə bundadır ki, hamının qəlbini oxuyur və onları dərindən düşünməyə vadar etməyi bacarır.

Rafiq Yusifoğlunun bədii yaradıcılığına – ürəkləri fəth edən poetik misralarına tələbəlik illərindən bələdəm. Mən birinci kursda olanda o, artıq sonuncu kursda oxuyurdu. Onu daha yaxşı tanıyan qrup yoldaşı Nizami Xudiyevin dediyinə görə Rafiq olduqca gözəl hafizəyə malik idi. İnstitutun orqanı olan "Gənc müəllim" qəzetində müntəzəm olaraq şeirləri dərc olunurdu. Onun şeirləri hətta tanınmış tənqidçi, gözəl pedaqoq alim Əhəd Hüseynovun da diqqətini cəlb etmişdi və onun tanınmış bir şair olacağına ümid bəsləyirdi. Onun tənqid süzgəcindən keçmək isə o demək idi ki, gələcəkdə sən artıq bir şair kimi üzdə ola biləcəksən. Və ədəbiyyatın bütün incəliklərini həssaslıqla duyan Əhəd müəllim zənnində yanılmamışdı. İllər ötdükcə Rafiq ilahi vergisi ilə ərsəyə gətirdiyi maraq doğuran əsərləri ilə oxucularda yüksək əhval-ruhiyyə oyatmağa qadir olan bir şair kimi formalaşdı, artıq geniş ədəbi ictimaiyyətdə tanınmağa başladı.

Dünyanın gözəl nağılçılarından sayılan, "nağıllar kralı" adı ilə məşhur olan, görkəmli Danimarka yazıçısı Hans Kristian Andersen özünü təkcə uşaq yazıçısı hesab etmirdi. O, sağlığında ona abidə qoyularkən, onun təsvirini uşaq obrazları ilə əhatə

etdiyinə görə hətta heykəltəraş dostu Torvaldsendən incimişdi. Lakin hamıya məlumdur ki, Andersen dünyada uşaq yazıçısı kimi şöhrət qazanmışdı, ən yaxşı uşaq əsərləri üçün təsis edilmiş ali beynəlxalq mükafat da Andersen adına qızıl medaldır.

Təvazökar şair R.Yusifoğlu isə bu gün də uşaq şairi olması ilə fəxr edir, həm də bir nəzəriyyəçi kimi ədəbiyyatın nəzəri əsaslarını dərindən, mükəmməl bildiyindən bir ədəbiyyatşünas kimi bu sahənin əsl ədəbiyyat olduğunu dilə gətirir, yorulmadan, məharətlə onların obrazlarını yaradır. Şairin şeirlərinin bir qismi yumorlu və ya novellavari bir üsulda yazıldığından, portretli, poetik və illüstrativ şəkilli obrazlılıqla zəngin olduğundan oxucularda daha geniş maraq oyadır.

Şair öz bədii yaradıcılığına, uşaqlara və onların ədəbiyyatına obyektiv münasibət bildirərək yazır: "Həmişə ciddi ədəbiyyat haqqında düşünmüşəm. Mənə elə gəlib ki, uşaq ədəbiyyatı uşaq-muşaq ədəbiyyatıdır. Sonra görmüşəm ki, nə böyük, nə kiçik ədəbiyyatı, ədəbiyyat elə ədəbiyyatdı. Görmüşəm ki, uşaqlar böyüklərdən həm təmizdilər, həm də cəsarətli, sözü üzə deyən. Və bundan sonra məndə belə qənaət yaranıb ki, əsl ədəbiyyat elə uşaq ədəbiyyatıdır. Uşaqlar üçün ədəbiyyat yox, uşaq ədəbiyyatı. O uşaq ki, dünyanın altını da, üstünü də bilir. Özüm də böyüdükcə, həyatı dərindən dərk etdikcə duymuşam ki, mənən öz uşaqlığıma daha dərindən bağlıyam. Həsrətini çəkmişəm o günlərin. Öz uşaqlarım dünyaya göz açıblar. Onların söhbəti, davranışı, qəribə hərəkət və mühakimələri məni uşaq ədəbiyyatına bir daha dərindən bağlayıb. Uşaqlarım böyüdükcə böyümüşəm, qocalmışam və mənə elə gəlib ki, yaşlaşdıqca onlara daha yaxın, daha doğma oluram".

Bu, şairin özünün qəlbinin dərinliyindən boylanan səmimi etirafıdır, onun uşaqlara və onların ədəbiyyatına düzgün yanaşmasıdır, çünki onu da çox yaxşı bilir ki, bu sahə olduqca çətin bir sahədir, bu yolu keçmək üçün əzablara qatlaşmaq lazımdır. Dünya

uşaq ədəbiyyatının incilərini dəyərləndirmək, onlardan bəhrələnməklə milli uşaq ədəbiyyatının gələcək inkişafına nail olmaq lazımdır.

R.Yusifoğlu ömrünün ən dəyərli çağlarını uşaqların bədii-estetik tərbiyəsinə həsr etmiş, öz orijinal, ürəyəyatımlı əsərləri ilə onların sevgisini qazanmışdır. Bu illərdə onun "Aylı cığır", "Çiçək yağışı", "Daha uşaq deyiləm", "Qızılı məktublar", "Bulud fayton", "Nağıl qapısı" və sair çoxsaylı kitabları, bu kitablara daxil edilmiş müxtəlif motivli şeirləri, mənzum nağıl və poemaları şairin sənətkarlığından xəbər verir. Şeirlərinin mövzu dairəsi isə olduqca rəngarəngdir. Müqəddəs Vətən torpağının tərənnümünə, əsrarəngiz təbiətinə, otuna, çiçəyinə, doğma dərəsinə, ətirli yaşıl yamaclarına, göllərinə, çaylarına, durnagözlü, büllur çeşmələrinə, yurdumuzun tarixi keçmişinə, sehrli uşaq dünyasına həsr edilmiş şeirləri öz orijinallığı, obrazlılığı, lakonizmi və füsunkar mənzərə obrazlılığı ilə diqqəti cəlb edir. "Vətənim" şeirində başqa qələm sahiblərindən fərqli olaraq üslub orijinallığı ilə diqqət çəkir, poetik fikirlər sistemi ardıcıllıqla bir-birini əvəz edir, portretləşən obrazlılıq baxımından daha təzə-tər görünür:

Mənə dayaq, mənə həyan olanım,
Pərvanə tək qoy başına dolanım!
İşıq olub gözlərimə dolanım,
Çiçək olub ürəyimdə bitənim! –
Vətənim!
Gülüm solsa, yağış olub yağanım,
Kürə dönüb damarımda axınım,
Hara getsəm, yollarıma baxanım,
Dara düşsəm, köməyimə yetənim,
Vətənim!
Dağlarına baxıb gəlir həvəsim,
Xəzərindən əsən külək – nəfəsim.
Bu dünyada söylə varmı əvəzin? –
Qurban sənə ruhum, canım, bədənim,
Vətənim!

Onun dolğun bədii təxəyyülündən doğan lirik poeziyasında bədii üslub novatorluğu, misraların metaforikləşməsi, təsvir etdiyi predmetlərin uşaqların anlam səviyyəsinə olan reallığı daha təbii təsir bağışlayır.

Şair janrından asılı olmayaraq özünün qəlbindən gələn aforizm mahiyyətli poetik misralarında qələm sahiblərinin keçirdiyi hissləri, coşqun şair qəlbindən bədahətən gələn soz və ifadə rəngarəngliyini, sərrast təsvirlərin reallıq və həyatiliyini bu misralarında yığcam şəkildə ifadə etmişdir:

Şairin göz yaşı gözündən deyil,
Şairin göz yaşı qələmdən çıxır.

Və yaxud, diqqətimizi şairin bu misralarının poetik məna yükünə yönəldək:

Oxuyacaq, himə bənddir qəlbinin simi,
Gözlərinin qarşısına gələr dağ, aran,
Şair ki var, təzə eşqə düşənlər kimi
İlham qızın görüşünə can atar hər an.

Ürəyini əsir edən el-obasıdır,
El qeyrəti çəkənlərə şair deyirlər,
Şair qəlbi elə bil ki, quş yuvasıdır,
Pərvazlanar o yuvadan kövrək şeirlər.

Uşaqlarla yaxın ünsiyyətdə olan, onların sirli aləmini dərindən duyan R.Yusifoğlu bu məsum varlıqların hər bir yaş mərhələsinin poetik təsvirini məharətlə yaradır. “Daha uşaq deyiləm” kitabına daxil etdiyi “Qızlar, balaca qızlar”, “Dəcəllər”, “Gülzarın nəğmələri”, “Gündüzün nəğmələri”, “Gurselin nəğmələri” başlığı altında verilmiş şeirləri şirin yumoru ilə diqqəti cəlb edir. “Gülyaz” şeirində bunun bariz nümunəsini görürük:

Təzə-təzə dil açır,
Bir şeirdir hər sözü,
Mənə yazmaq öyrədir,
Yaza da bilmir özü.
Alan kimi qələmi
Sevinir dəcəl Gülyaz
Qaralayıb dəftəri
Deyir: – Sən də belə yaz!

R.Yusifoğlu hər hansı mövzuya müraciət edirsə etsin, onu uşaqlar üçün böyük sənət səviyyəsinə yüksəltmək bacarığına malikdir. Tanınmış uşaq şairi Tofiq Mahmud (1931-1997) onun bədii uşaq yaradıcılığını analitik təhlil edərək "Əlvan və rəngarəng" adlı məqaləsində haqlı olaraq yazırdı: "Adi daş, çiçək, yağış, ağac, bulaq, quş, şəlalə R.Yusifoğlunun poeziyasında sehrli bir dona bürünür, adilikdən çıxıb mənalanır, canlanır, görünür, dil açıb danışır. Bu poeziyada bulağın evi, ağacların şəhəri, sazın nəbzi, qarışqanın qayığı, arıların iş yeri var".

Gözəl ustad səviyyəsində olan təhlilidir və bütün bunlar R.Yusifoğlunun yaradıcılığında sənətkarlıq meyarını üzə çıxarır, onun obyektiv dəyərini verir.

R.Yusifoğlu bu gün də yorulmadan çalışır, həssas müşahidəçilik bacarığı ilə poeziyanın ən dərin qatlarına nüfuz edir, oxucuları öz arxasınca aparır, bu poetik vüsət onlarda bədii-estetik əhval-ruhiyyə yaradır, bir milli şəxsiyyət kimi formalaşdırır.

Əziz şair qardaşım, 70 yaşın mübarək olsun deyirəm və sənə daha böyük yaradıcılıq uğurları arzulayıram! Bir də, bu qədər uğur qazanmış bir şair ömrü üçün yetmiş yaş nədir ki?!

**Füzuli Əsgərli**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
"Kaspi", 28 dekabr 2019-cu il.

## RAFİQ YUSİFOĞLU-70

## BULAQ SAFLIĞINI YAŞAYAN ÖMÜR

Ömrün müəyyən çağında insanın dönüb özünə, keçdiyi həyat yoluna nəzər salmağı var. Bu baxış insanı özünə tanıdır. “Mən kiməm? Həyatda nə etdim, nə itirdim, nə qazandım?” – sualına cavab axtaranda geridə qoyduğu ömür yolu ilə qürur hissi keçirib fəxr edənlər də olur, etməyənlər də. Görkəmli şair – pedaqoq, Əməkdar mədəniyyət işçisi, ”Qızıl kəlmə”, “Vətən”, “Qızıl qələm”, “Araz” və digər ədəbi mükafatlar laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu keçdiyi ömür yolu ilə yalnız onun özü yox, həm də bu nəcib insanı yaxından tanıyanlar, onun həyat və fəaliyyətinə yaxından bələd olanlar da fəxr edə bilərlər. Çünki o, öz ömrünün heç bir anını səmərəsiz keçirməmiş, qələmə aldığı yüzlərlə şeiri, yetişdirdiyi tələbələri ilə ürəklərdə özünə ədəbi bir yuva qurmuşdur.

Həyatda insan üçün bundan böyük xöşbəxtlik və səadət ola bilməz. Bu xöşbəxtliyə Rafiq Yusifoğlu, mən deyərdim ki, insanlara və həyatda bəslədiyi tükənməz sevgi sayəsində nail olmuşdur.

Rafiq müəllimi yaxından tanıyanlar yaxşı bilirlər ki, onun qəlbi daim gənclik eşqi ilə döyünür, yazıb – yaratmaq, universitet auditoriyalarında coşqunluqla dərs demək onun qanından – iliyindən süzülüb gəlir. Şairlik və müəllimlik Rafiq Yusifoğlunun fitrətindədir, o, vurğunu olduğu bu dünyaya şair və müəllim kimi göz açıb. Bu fitrət onu uşaqdan böyüyə kimi xalqın gözündə ucaldıb, hamının sevimlisinə çevirib.

Rafiq Yusifoğlu çoxşaxəli yaradıcılığı ilə sayılıb seçilən ziyalılarımızdandır. O, ədəbi-bədii, elmi-pedaqoji, publisistik, tərcüməçilik və ictimai fəaliyyəti ilə istedadla zəhmətkeşliyin vəhdətini özündə təcəssüm etdirən bir şəxsiyyətdir. “Onun şairlik taleyinin təməlində müəllimlik, müəllimlik taleyinin təməlində şairlik dayanır” – desək yanılmarıq. Elə buna görə də onun poetik

yaradıcılığından söhbət açılanda müəllim Rafiq Yusifoğlu, pedaqoji fəaliyyətindən bəhs edəndə şair Rafiq Yusifoğlu yada düşür.

70 illik ömrünün az qala yarım əsrini gənc nəslin təlim-tərbiyəsi yolunda şam kimi əridən R.Yusifoğlu pedaqoji fəaliyyətə Sumqayıtda tərbiyəçi müəllim kimi başlamış, burada 10, 13, 23, 35 saylı orta məktəblərdə, "İdrak" liseyində dərs demiş, dilimizin zərifliyini, ədəbiyyatımızın zənginliyini sevə-sevə şagirdlərə öyrətmişdir. Dərin biliyi və zəhmətkeşliyi, pedaqoyi ustalığı Rafiq müəllimi gənc yaşlarından tanıdıb ona yüksək nüfuz qazandırmışdır. Bu gün Sumqayıtda elə bir məktəb tapmaq olmaz ki, orada Rafiq müəllimin yetirmələri çalışmasın.

Elmi yaradıcılığı Rafiq Yusifoğlunun pedaqoji fəaliyyətinin ayrılmaz bir hissəsini təşkil edir. O, 1984-cü ildə dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almış, lakin əldə etdiyi uğurlarla kifayətlənməmişdir. Elmin daşlı-kəsəkli yollarında inamla irəliləyən Rafiq müəllim gərgin axtarışlar apararaq filologiya elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. O, 2000-ci ildən Sumqayıt Dövlət Universitetində çalışır. Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının professoru kimi şərəfli bir yükü çiyinlərində daşıyır. Filologiya fakültəsinin formalaşmasında və inkişafında onun böyük əməyi olmuşdur. Təhsilin həm bakalavriat, həm də magistratura səviyyələrində müxtəlif fənləri tədris edən Rafiq Yusifoğlu bir sıra fənn proqramlarının, dərslik və dərs vəsaitlərinin hazırlanmasında səmərəli fəaliyyət göstərmiş və indi də bu sahədə öz fəaliyyətinin davam etdirməkdədir. Onun "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Uşaq ədəbiyyatı", "Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri" dərslikləri tələbə, magistrant və müəllimlərin sıx-sıx istifadə etdikləri gərəkli tədris vəsaitləridir. Bu dərsliklərdən respublikamızın müxtəlif ali məktəblərində geniş istifadə olunur.

Əsərləri orta məktəb dərsliklərini bəzəyən Rafiq Yusifoğlu müasir uşaq ədəbiyyatının, müasir Azərbaycan poeziyasının və müasir ədəbiyyatşünaslıq elminin aparıcı simalarındandır. O, 10 ildən çox bir müddət ərzində özünün ali təhsil aldığı Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində mühazirə və seminar dərsləri aparmış, vaxtilə ona bu ali məktəbdə dərs demiş alim-pedaqoqlarla çiyin-çiyinə çalışmışdır. Müəllim üçün bundan böyük xoşbəxtlik ola bilməz. Rafiq müəllim bu xoşbəxtliyin sevincini ikiqat yaşayan pedaqoqlardandır. Əgər ADPU-da o, öz müəllimləri ilə birlikdə çalışırdısa, bu gün Sumqayıt Dövlət Universitetində Rafiq Yusifoğlunun yetirmələri onunla eyni fakültədə işləyir, onun dəyərli məsləhətlərindən və zəngin təcrübəsindən bəhrələnirlər. Özü də böyük məhəbbət və sevgi ilə. Rafiq müəllimin özünün də əməlləri tükənməz məhəbbətdən, səmimi sevgidən yoğrulub. O, kitablarının birinə yazdığı ön sözdə müəllim-tələbə münasibətlərindən bəhs edərkən qeyd edir: "Tələbələrimə dərs deyəndə çalışıram ki, birinci növbədə onların ürəyində həyata, ədəbiyyata, insanlara qarşı məhəbbət hissi oyadım. Bir var bir işi can dərdi, can harayı öyrənəsən, bir də var məhəbbətlə. Məhəbbət olan yerdə insanı böyük uğurlar, səadət, xoşbəxtlik, mənalı ömür gözləyir. Məhəbbət insan ömrünü adilikdən qurtarır, ona sirli-sehirli bir çalar gətirir. Xoşbəxtəm ki, tələbələrimin böyük məhəbbətini qazanmışam".

Bu gün professor Rafiq Yusifoğlunun yetirmələri arasında dosentlərin, filologiya üzrə fəlsəfə doktorlarının, baş müəllim və müəllimlərin elmi-pedoqoji fəaliyyətlə məşğul olmaları bu təmənnasız və səmimi məhəbbətin parlaq təzahürüdür. Hazırda onun rəhbərliyi altında 1 nəfər doktorant, 2 nəfər dissertant fəlsəfə doktorluğu, 2 nəfər elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işi üzərində tədqiqatlar aparır, öz müəllimlərinin yolunu ləyaqətlə davam etdirirlər. Rafiq Yusifoğlu uzun illər AMEA-nın Nizami Gəcncəvi adına Ədəbiyyat İnstitundakı Dissertasiya şurasının üzvü kimi də səmərəli fəaliyyət

göstərmiş, ölkə miqyasında ədəbiyyatşünas alimlərin hazırlanmasında əlindən gələni əsirgəməmiş, neçə-neçə elmlər doktorunun, fəlsəfə doktorunun rəsmi opponenti olmuşdur.

Özünü dərk edən insanların ruhu heç vaxt qocalmır. Ömrünün müdrik çağlarını yaşayan Rafiq Yusifoğlu da belə insanlardandır. Yenə də qaynar ilhamla yazıb-yaradan, dərs deməkdən, tələbələrlə birlikdə olmaqdan böyük zövq alan Rafiq müəllim ömrünün 70 illik zirvəsində keçdiyi enişli-yoxuşlu həyat yolu ilə öyünməyə haqlıdır. Çünki bu yol öz başlanğıcını zəhmət və istedaddan alıb. Çünki bu yolu Rafiq Yusifoğlu salıb. Şeirlərinin birində dediyi kimi:

Ay bulağa gedən cığır,
Ətə-qana dolacaqsan.
Getdiyin yol gözəldisə,
Böyüyüb yol olacaqsan.

70 illik ömrün bulaq suyu kimi saflığında zirvəyə doğru salınmış o cığır indi bənzərsiz bir yola çevrilmişdir. Bu, yalnız onun özünə məxsus, özünün saldığı yoldur: Rafiq Yusifoğlu yolu!

**Avtandil Ağbaba**
**filologiya elmləri doktoru, professor, əməkdar jurnalist**
*"Azərbaycan müəllimi" qəzeti, 7 fevral 2020*

**Rafiq Yusifoğlu - 70**

# Daha uca zirvələrə, qardaşım!

İndi Bakı Dövlət Universiteti deyilən ali təhsil ocağının geoloji-coğrafiya fakültəsinin 4-cü kursunda oxuyurdum. Hərbi dərs keçdiyimizdən, bizi yay tətili ərəfəsində – 1971-ci ildə Naxçıvanın Qıvraq kəndinə 3 aylıq təlimlərə apardılar. Bizimlə

eyni qrupda Qubadlıdan İxtiyar adlı bir yoldaşımız da vardı. Yataqxanada qonşu otaqda qalırdı. Qıvrağın bal suyundan içib, istisindən kölgələnəcəkdə uzanıb dincəlirdik. Gərək ki, İxtiyar dedi, bizim də yerlimiz şairdi, şeir yazır.

–Adı nədir?

–Rafiq.

Mən əl atıb qoltuq cibimdən bir qəzet parçası çıxartdım və ona göstərdim:

–Budur Rafiq Yusifoğlu?

–Özüdür ki, var.

–Onun bu şeiri, özünü görməmişəm, çox xoşuma gəlib və kəsib cibimə qoymuşam, hərdən oxuyuram.

Rafiq Yusifoğlunu görməzə-bilməzə bəyənmişdim.

Bu söhbətin üstündən on illər keçəndən sonra, dili qurtlamış kimi, bu faktı özünə də etiraf elədim.

Gözləri güldü. O da, maşallah, malavandı ("mal-qara təsərrüfatçısı" deməkdi), qoyun-quzusunu *(şeirlərini – Q.İ.)* doğulduğu gününəcən əzbər bilir.

Başladı məni sorğu-suala çəkməyə:

–Hansı qəzetdə çıxmışdı şeirim?

–Mən bilən "Sovet kəndi"ydi.

–Məncə filan şeirim olacaq.

Ha çək-çevir elədi, onu razı salası bir söz deyə bilmədim. Amma bu xəbərdən qələm dostum bərk həyəcanlandı. Hətta özünün təhsil aldığı Pedaqoji Universitetin böyük zalında tələbələrlə görüşümüz zamanı uca kürsüdən elan elədi ki, bəs Qəşəm İsabəyli mənim şeirimlə ədəbiyyata gəlib, sonra da sözünü malaladı – zarafat eləyirəm.

Söz deyilmişdi. Nə zarafat?! İntiqamını almaq lazım idi. Sonralar yenidən bu söhbətin üstünə qayıtdı:

–Deyirsən, "Sovet kəndi"ndəydi?

–Mənə elə gəlir...

–Heç bir bəndi də yadında qalmayıb şeirimin?

–Yox, qalmayıb.

–Heç misrası da?
–Vallah, heç nöqtə-vergülünü də xatırlamıram.
–Niyə?
Məşhur Türkiyəli satirik yazıçı Əziz Nesinin bir hekayəsinin qəhrəmanı yadıma düşdü. Fikirləşdim, Pedaqoji universitetdə dediyi sözün hayıfını çıxmaq üçün girəvədi:
–Niyə qalmayıb?! – Deyirsən, dedim.
–Hə...
–Yaxşı olsaydı, qalardı ki!
–Yaxşı olmasa niyə illər buyu cibində gəzdirirdin ki?!
Sağ əlini açıb uzatdı qarşıma:
–Vur bura!
–Niyə?
– 1-1.
Vurdum və bu dəfə də mən uzatdım əlimi:
–İndi də sən vur.
–Niyə?
–Hələ bir vur.
Şappp...
–2-1 Baloğlanın xeyrinə! – Dedim.
Gülüşdük...
Rafiq Yusifoğlu istedadlı şairdi. Eyni zamanda məhsuldardı həm də. Artıq 83-cü kitabını da nəşr eləyib. Onun gərək ki, 3-ü dövlətin payına düşür, 80-i özünün. Necə deyərlər, salavat gücə bağlıdı.
Mən isə naşir ola-ola 30-32 kitab-kitabça çıxara bilmişəm. Onun da 6-nı canım Sovet Azərbaycanı nəşr eləyib.
İndi yaş yetirib, iki bayramdı 70-i keçmişəm, Rafiq də məni qaraba-qara izləyir – 2 yanvar 2020-də 70-dən adlayır. Mübarək olsun!
Çevrilib geriyə baxanda bəzi əlamətdar hadisələr diqqətimi çəkir. Rafiq Yusifoğluyla bir sıra yerlərdə yolumuz paralel olub. Birincisi o da uşaq şairidi, mən də. İntəhasi mən həm də naşirəm. O da "Göyərçin" jurnalının baş redaktoru və naşiridir. O, isə həm

də alimdir. İkincisi hər ikimiz böyüklər üçün də yazırıq. O, şair kimi, mən şair və nasir kimi. Özü də üzü-üzümə, gözü-gözümə etiraf eləyir: "Əhsən, səndə nəsr alınır, məndə yox!".

Ürəyimdə etiraz eləyirəm: "Niyə alınır?!".

Üçüncüsü 1989-cu ildə Dövlət səviyyəsində keçirilən "İlin ən yaxşı uşaq kitabı" müsabiqəsində ustad şairimiz Zahid Xəlil, mən – Qəşəm İsabəyli, Rafiq Yusifoğlu qalib olmuşuq.

Dördüncüsü, hər ikimiz mən 2015-ci ildə, Rafiq Yusifoğlu 2019-cu ildə Mədəniyyət və Turizm Nazirliyinin "Qızıl Kəlmə" mükafatına layiq görülmüşük.

Amma mən Beynəlxalq Andersen Şərəf Diplomuna layiq görülmüşəm. Rafiq Yusifoğlu isə Təhsil Nazirliyinin müsabiqəsində birinci yeri tutduğu müsabiqəni mənim diplomumdan üstün sayır.

–Niyə?

–Nə qədər pul veriblər sənə Andersen diplomundan?

–Heç nə!

–Deməli, "şərəf" sözündən başqa heç nə?!

–Elədir ki, var.

–Amma Təhsil Nazirliyi mənə 1500 manat mükafat verib! Bir də, öz aramızdı, ay Qəşəm, sənin aldığın o diplomu qaliblərə vermirlər e, məğlublara verirlər. Təskinlik kimi...

Gülüşürük...

–Daha uca zirvələrə, qardaşım!

**Qəşəm İsabəyli**

*Manevr.az saytı 29.12.2019*
*Sumqayıtfakt.az saytı 29.12.2019*
*Dəlidağ. Az saytı 29.12.2019*

## Ədəbiyyatımıza, bu günümüzə, sabahımıza gərəkli ADAM- Rafiq Yusifoğlunun 70 illiyinə

Şair, yazıçı, tənqidçi, ədəbiyyatşünas alim, Əməkdar mədəniyyət işçisi, “Göyərçin” jurnalının baş redaktoru, filologiya elmləri doktoru, professor, 1986-cı ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü, “Qızıl kəlmə”, “İlin ən yaxşı kitabı”, “Vətən”, “Qızıl qələm”, “Araz” və s. mükafatların laureatı Rafiq Yusifoğlu bu gün şərəfli ömrün 70- ci pilləsini adlayır. Onlarca titul və ad almasına rəğmən, sadəliyi, təvazökarlığı, insanlığı ilə həmişə ucalarda dayanır dəyərli Rafiq Yusifoğlu. Əslində zaman atının yelqanadlı olması fiziki yaşının 70-ə varmasını təsdiqləsə də, ruhunun yaşı çox cavan və həmişə təzə-tərdi. Bunu bir-birindən gözəl şeirləri, şux görünüşü, şövqlü danışığı və həyata inamı, sevgisi də sübut edir. Bu günün özəlliyini nəzərə alıb sevə-sevə və böyük ehtiramla köksümdən qopan alqış ifadələrini ünvanlayıram səbəbkara və deyirəm ki, var olun, Rafiq Yusifoğlu, uşaqları sevindirən könlünüz sevinsin hər zaman. Elmimizə, ədəbiyyatımıza, bu günümüzə, sabahımıza gərəkli ADAM, 70-niz mübarək!

**Sevinc Qərib**

Manevr.az saytı **02-01-2020**
Sumqayıtfakt.az saytı **02-01-2020**
Dəlidağ. Az saytı **02-01-2020**

Sumqayitfakt.Az 70 illik yubileyi münasibətilə Rafiq Yusifoğlunu təbrik edir, ona sağlıqlı uzun ömür, gözəl günlər və yaradıcılıq uğurları arzulayır.

# Oxucu ürəyini sinəsinə sıxıb, saz kimi dilləndirməyi bacaran ŞAİR! - Rafiq Yusifoğlu - 70

**Bu gün - yanvarın 2-də gərək səhər tezdən şair dostumuz, professor Rafiq Yusifoğlunun evini dost mühasirəsinə alaydıq, ucadan onun məhəbbət balladalarını, yurd həsrətli şeirlərini söyləyəydik. Axı, bu gün onun yublileyidir - 70 yaşı tamam olur!**

Rafiq Yusifoglu oxucu ürəyini sinəsinə sıxıb, saz kimi dilləndirməyi bacaran şairdir, Azərbaycan ədəbiyyatının, poeziyasının dərin bilicisi, istedadlı ədəbiyyat tədqiqatçısıdır. Nümunə səviyyəsində olan minlərlə şeirlərlə, elmi-publisitik məqalələrlə yanaşı gözəl poemalar müəllifidir, əsl ziyalı, alim-pedaqoq, sadiq dostdur. Biz Rafiq müəllimi uzun illər məhz bu cür tanımışıq, buna görə əziz tutmuşuq.

Hər zaman gözü-könlü tox olan Rafiq müəllimin bu dünyada tək bir ehtiyacı var ki, onu yalnız həmin ehtiyacını "doyurmaqla" sevindirmək olar - doğma yurd, Qubadlı "aclığını" doyurmaqla! Allah Səni bu "aclığında", ehtiyacında çox saxlamasın, tezliklə doğma elinə-obana, bütün Qarabağa qovuşdursun, QARDAŞ! Sən ədəbiyyatımız, Azərbaycan elmi, təhsili üçün nə lazımdırsa, etmisən, var ol! Qalır bizim Sənə Qubadlı, Qarabağ borcumuz... Allah bizi sənin kimi əziz dostumuzun, gözəl, istedadlı şairimizin yanında üzü qara etməsin, çıxa bilək bu böyük borcdan!

100 yaşa, QARDAŞ, (Qubadlının, Qarabağın əsirlikdə olduğu 25-30 ili çıxmaq şərtilə)!

Qismət olsun, Allahın möcüzəsi ilə Sənin gələnilki Ad gününü Qubadlıda keçirək! Amin! İnşallah!

**Rəhman Orxan**
**Əməkdar jurnalist**

*Sumqayitfakt.Az* ***03-01-2020***

# Rafiq Yusifoğlunun təzə kitabı: “Taleyimdən keçən yollar”

Yaradıcılıq əslində yaradıcı insanın tərcümeyi-halından qaynaqlanır. İnsan ömrü boyu gördüklərini, duyduqlarını sənətin ecazkar dili ilə digər insanlara da göstərməyə çalışır. Başqa sözlə desək, yaradıcılıq ömür yolunun aynası, onun salnaməsidir. Bu baxımdan yanaşdıqda Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, “İlin ən yaxşı kitabı”, “Qızıl kəlmə”, “Qızıl qələm”, “Araz”, “Vətən” və s. mükafatların laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun ömür yolu da, yaradıcılıq bioqrafiyası da çox zəngindir. Doğma Qubadlıdan, Çardaxlıdan, Xocamsaxlıdan başlayan cıgır getdikcə geniş yola çevrilir, şaxələnir və dünyanın bir sıra ölkələrinə uzanır. Bu baxımdan yanaşdıqda Rafiq Yusifoğlu xoşbəxt sənətkar, sözün hər mənasında dünyagörmüş müdrik bir insandır. Onun təkcə şeirlərində deyil, “Xatirə kəcavəsi”, “Bir sevdalı ürəyim var”, “Tanrının ömür payı” adlı sanballı publisistika kitablarında da insan ömrünün pozulmaz izləri öz dolğun əksini tapmışdır. Həmin kitablar silsiləsinə daxıl olan **“Taleyimdən keçən yollar” (Bakı, ADPU, 2019)** adlı sanballı, 520 səhifəlık kitabında da Rafiq Yusifoğlunun keçdiyi ömür yolunun müəyyən məqamları göz önündə canlanır.

“Məqalələr” adlı birinci bölümdə verilən “Dünyanın o üzü və ya möcüzələr diyarı Amerika”, “Okeanın o tayında”, “Səhra mirvarisi”, “Türkiyə və ya mənim dilimdə danışan böyük bir ölkə” adlı məqalələrdə şairin xarici ölkələrə səfər qeydləri öz əksini tapmışdır.

Kitabın ikinci bölümündə müəllifin ayrı-ayrı mətbut orqanlarına verdiyi müsahibələr toplanmışdır. İstər şairin öz yaradıcılığı, istər ayrı-ayrı yaradıcılıq problemləri, həyat hadisələri, istərsə də uzun illərdən bəri baş redaktoru olduğu

“Göyərçin” jurnalı ilə bağlı verilən suallara cavablarında müəllifin intellektual səviyyəsi aydınca sezilir.

Kitabda Rafiq müəllimin kəlamlarından bəzi nümunələr verilmiş, eləcə də mətbuatda onun yaradıcılığı haqqında gedən məqalələrin bir qismi toplanmışdır. Xüsusilə, uzun illərdən bəri müəllimlik eləyən Rafiq Yusifoğluya ünvanlanan məktublar onun şəxsiyyəti ilə bağlı müəyyən məsələlərə aydınlıq gətirir, gözlərimizin qarşısında sonsuz tələbə sevgisi qazanan bir pedaqoqun mükəmməl obrazını canlandırır.

Müəllifin “Ömrün izləri” adlanan bölmədə verilən gündəlik qeydləri yaradıcı adamın qayğılarını, problemlərini dəyərləndirməyə yardımçı olur.

Gözəl, incə ruhlu, həzin və kövrək, bədii sənətkarlıq baxımından həmişə diqqəti çəkən şeirlər müəllifi kimi tanıdığımız Rafiq Yusifoğlu həm də güclü yumor duyumuna malik bir insandır. Onun illərdən bəri toplayib qələmə aldığı, nəşr etdirdiyi lətifələr həmişə maraqla qarşılanıb. Bu kitabına da müəllifin xeyli təzə lətifələri daxıl etmişdir.

İnanırıq ki, əvvəlki kitabları kimi Rafiq Yusifoğlunun “Taleyimdən keçən yollar” kitabını da oxucular maraqla qarşılayacaqlar.

**Manevr.az 27-09-2019, 18:45**

# POEZYA

## DƏNİZ NƏĞMƏLƏRİ –
## MƏHƏBBƏT NƏĞMƏLƏRİ

(“Qəm karvanı” kitabına yazılan ön söz)

İş elə gətirdi ki, bu məqaləni sübh namazından sonra yazmağa başladım. Burada qeyri-adi, daha doğrusu, elə böyük bir sirr olmasa da, bunun mənası və səbəbi var. Və həmin o əsas səbəb də ondan ibarətdir ki, yazmağa başladığım bu məqalənin baş qəhrəmanı, səbəbkarı uzun illərin yol yoldaşı, qələm dostum, şair dostum, ən nəhayət, dəniz dostum Rafiq Yusifoğludur.

Əslində mən “dəniz dostum” kəlmələrini cümlənin əvvəlində işlətməliydim. Çünki gəlib elə bir vaxta çatmışıq ki, qələm, söz, istedad və qabiliyyət ucuzlaşıb, hətta bir az da dəbdən düşüb. İndi dəbdə olan, meydanlarda at çapan, maraq doğuran çox şey var, bircə ağıl və bacarıq, istedad və qabiliyyət, kişilik və mərdlik bu siyahıda yoxdur. Şəxsən mənim üçün və Rafiq üçün həmişə dəbdə olan, solmayan, təzə-tər qalan, heç vaxt köhnəlməyən, dəyişməyən bir sirli-sehrli, cənnətməkan ünvan, əbədi bir mövzu var – Xəzər dənizi!

Biz hər gün səhər tezdən Xəzərin mavi qoynunda görüşür, hər il beş-altı ay onun bir az duzlu, bir az meyxoş suyunda doyunca çimir, köpüklü dalğalarında atılıb-düşür, bərkdən-boşdan çıxır, sonra hərəmiz bir dünya sevinclə ev-eşiyimizə qayıdır, işə yollanırıq. Bu, həyatın, taleyin bizə bəxş etdiyi ən böyük səadət və

mükafatdır. İkimiz də bu taleyə, bu səadətə, bu mükafata görə Allaha minnətdarıq. Çünki həyatda çox mükafatı, var-dövləti, cah-cəlalı, mal-mülkü, taxt-tacı olan adam var, amma onların heç biri-sinin Xəzər kimi ali mükafatı yoxdur. Allah-Təala Azərbaycana, biz azərbaycanlılara çox böyük bir sərvət, var-dövlət, nadir inci, ləl-cəvahirat bağışlayıb. Ancaq əfsuslar olsun ki, çoxumuz nankorluq edir, bu boyda mükafatın, var-dövlətin ya qədir-qiymətini bilmirik, ya da onu layiqincə dəyaərləndirməyi bacar-mırıq.

...Bədii əsərlərdə həmişə bir və ya bir neçə müsbət qəhrə-man olur. Mənim qeydlərimin də iki səbəbkarı, iki qolu, iki müsbət qəhrəmanı var: biri Rafiq Yusifoğlu, o biri Xəzər dənizi...

Əvvəllər dənizə gələn dostlarımız lap çox olub. Tədricən onlar azalıb. Azalanlar, oyundan çıxanlar kimlər olub? Bizimlə yol gedə, ayaqlaşa bilməyənlər – ürəksizlər, məsləksizlər, diləksizlər, acgözlər, mənsəbpərəstlər, buqələmunlar... Dəfələrlə bizə qoşulan, lakin dəstəmizin əsas, aparıcı üzvləri ilə ayaqlaşa bilməyənlərə, yəni mənən bizə yaxın olmayan cılız ürək sahiblərinin şax üzlərinə demişəm: “Xahiş eləyirəm, sabahdan gəlməyin bizim dənizə. Hər cür eyş-işrəti, var-dövləti vermişik sizə, barı qoyun bu dəniz bizə qalsın! Murdarlamayın Xəzərimizi!”

“Bizim dənizimiz” ifadəsini təsadüfi işlətmədim. Doğru-dan da, bu boyda dəniz bizimdir. Bizim deyəndə, yəni mənim kimi yüzlərin, minlərindir Xəzər. Ancaq küləkli günlərdə bizdən savayı bir kimsəni görmək qeyri-mümkündür onun sahillərində...

Xəzərlı bağlı söz-söhbətim bir qədər uzansa da, bu uzun söhbət Rafiqlə, onun yaradıcılığı və yeni şeir kitabı ilə sıx surətdə əlaqəlidir. Məqsədim bu əlaqənin bəzi “düyün” və nüanslarını açmaqdan ibarətdir. Rafiq Qubadlıdan Azərbaycan Dövlət Pedaqoji Universitetinə gəlib oranı bitirsə də, o, bu gün özü də etiraf edib deyəcək ki, şairliyinə, ziyalılığına, üstəlik həyatda və elmdə qazandığı bütün uğurlara görə Xəzərə minnətdardır. Uzağa niyə gedək, “Qəm karvanı” poemasından savayı onun təzə kitabındakı bütün şeirlər ya bilavasitə Xəzərlə bağlıdır, ya da dəniz

məhəbbəti, bu sevginin ona bəxş etdiyi ovqatla köklənən lirik şeirlərdir.

– Xeyir, elə "Qəm karvanı" poemasının yazılmasında da dənizin rolu var, – deyə Rafiq sözümə düzəliş verir. – Sən ki yaxşı bilirsən mənim vəziyyətimi! Əgər Xəzərlə dostluğum olmasaydı, bəlkə elə ağır cərrahiyyə əməliyyatından da sağ-salamat çıxmazdım. Sağ olsun Xəzər ki, onu sevən ürəyim məni bu ağır imtahandan sağ-salamat çıxardı... Yoxsa "Qəm karvanı" yaranardımı?!

Söhbət "Qəm karvanı"ndan düşdüyü üçün bir dost, qələm yoldaşı kimi yox, məhz kitabın redaktoru kimi mən Rafiqi dahi söz ustası, ölməz Füzulinin sevgi dünyasına, onun ümumbəşəri yaradıcılığına məhəbbətini də hər şeydən öncə gördüm. Vaxtilə poemanı qəzetdə oxusam, radioda, televiziyada dinləsəm də, etiraf edim ki, Rafiqin bu cür "Məcnunluğunu" görməmişdim. O, poetik siqlətli misraları ilə ölməz Füzulinin şeir-sənət dünyasına yaxınlaşır, onun zəngin obrazına yeni ştrixlər əlavə edir:

Qəlbimi dünyada kədər yaşatdı,
Mələklər eşqinə göz yaşı tökdüm.
Gözəllər o qədər mənə daş atdı,
Yığıb özüm üçün qəmxanə tikdim...

Əla deyilib! Hətta deyərdim ki, Rafiqin bu tipli misraları onun füzulişünaslığa şair töhfəsidir. Elə bu misralar da həmçinin:

Babam, yetməsən də nazlı yara sən,
Sevən ürəklərə nur ələmisən.
Qoşun çəkməsən də bir diyara sən,
Dünyanı sözünlə fəth eləmisən!

Sözsüz, ədəbiyyatda, sənətdə hərənin öz uğuru, öz cığırı var. Birində bu uğur çox, digərində azdır. Tale elə gətirib ki, ədəbi uğurlarımız da bir-birimizin gözü qarşısında olub. Mən

“Ədəbiyyat və incəsənət”, daha sonra “Bakı”, “Baku” qəzetləri redaksiyasında işləmişəm, o isə “Göyərçin” jurnalı redaksiyasında. O, vaxtaşırı bu qəzetlərdə çıxış edib, mən də “Göyərçin” jurnalında. Sonra yollarımız haçalanıb. Əməkdaşlıq əlaqələrimiz isə qırılmayıb. Mən Sumqayıtda “168 saat” qəzetinin redaktoru işləmişəm. Rafiq redaksiyamızın ştatlı işçisi olmasa da, onun ən fəal əməkdaşı – müxbiri sayılıb. Daha doğrusu, qəzetin hər sayını birlikdə buraxmışıq, birlikdə müzakirə etmişik. Qəzetdə o, təkcə şair kimi yox, publisist, ədəbiyyatşünas alim kimi yox, həm də əl boyda xırda, şirin, duzlu, yumorli hekayələrlə çıxış edib. Ona görə də cəsarətlə deyə bilərəm ki, “168 saat” qəzetinin oxunaqlı çıxmasında, az-çox uğur qazanmasında Rafiqin də rolu, əməyi vardır.

Əlbəttə, Rafiq Yusifoğlu filologiya elmləri namizədi olsa da, doktorluq dissertasiyasını yazıb tamamlasa da, o, hər şeydən öncə şairdir, “Yusifoğlu” təxəllüsünü də məhz şair kimi qazanıb və bu gün ədəbi ictimaiyyət Rafiq Yusifoğlu imzasını daha çox şair imzası kimi tanıyır.

Rafiqin nəşriyyatımıza təqdim etdiyi “Qəm karvanı” kitabının əlyazmaları ilə, necə deyərlər, üz-üzə, göz-gözə dayanıb “168 saat” qəzetini varaqlayıram. Az qala qəzetin hər sayında onun imzası ilə rastlaşıram. “Üç daş” şeiri diqqətimi cəlb edir. Nə üçün “Üç daş”?

Yuxarıda qeyd etdiyim kimi, biz hər gün səhərimizi dənizdə açırıq və hər gün neçə-neçə xırda, alabəzək daş yığırıq. Elə daş ki, hərəsi bir rəssam əsəri, torpağın nadir incisi, möcüzəsi təsiri bağışlayır. Mən nəvələrim, o isə balaları, dərs dediyi tələbələr üçün yığır bu daşları. Hələ neçə dostunu da bu daşlara “qonaq” edir.

Birdən “Üç daş” şeirinin misraları dilə gəlir və mən şairin lirik “mən”inin həzin pıçıltısını, ürək döyüntülərini eşidirəm:

Üç daş bağışladım sənə bu səhər,
Dəniz göndərmişdi onları sənə.
Duyana adi daş gövhərdi, gövhər,
Bəxş etdim duyğulu anları sənə.

Təbəssüm bəzədi nurlu üzünü,
Sevindin, gözündən boylandı yaşlar.
Kim bilir, bəlkə də su pərisinin
Donmuş göz yaşıydı bu xırda daşlar?!

Bu üç daş üç kiçik toxuma bənzər,
Heç biri zərrəcə götürməz ləkə.
Üç daş bağışladım sənə bu səhər,
Dedim: – "Daş ürəyin" yumşaldı bəlkə?!

Sənə aydın olar sözümün ardı,
Fikirləş, üç daşın mənasını tap:
Biri ürəyim tək cadar-cadardı,
Biri sənin əlin, o biri mizrab.

Üç daş bağışladım sənə bu səhər,
Nədən qorxurdumsa, gəldi başıma.
Məhəbbət ocağı köz tutsa əgər,
Onlar dönə bilər ocaq daşına.

Duysan o daşları, gözün dolacaq,
Qaçıb gələcəksən qarşıma bir gün.
Ya onlar ömrünə bəzək olacaq,
Ya da çırpılacaq başıma bir gün…

Oxucu fikirləşər ki, şeir burda bitir. Düzdür, şeir bitir, ancaq şairin bitib-tükənməyən arzu və məhəbbəti yaz bulağı kimi, dağ şəlaləsi kimi aşıb-daşır, çağlayır. O məhəbbət bir sevgi ağacı kimi gənc bir aşiqin ürəyində göyərir, yeni şeirə - "Ürəkdə bitən ağac"a çevrilir.

Səni görən gündən dincliyim itib,
Taleyim belədi, cəfakeşəm mən.
Yazırsan: –Qəlbində bir ağac bitib, –
Toxum cücərtməkdə gecikmişəm mən.

Bəlkə xoş söz çəkdim dodaqlarından,
Bəlkə bu sevdaya ellər gülüşdü?!
Bəlkə o ağacın budaqlarından
Mənim qismətimə üç alma düşdü?!

İçimdə közərir gizli bir ocaq,
Qəlbimdə bir təzə sevda doğulmuş.
Bəlkə o üç alma xatırladacaq:
Bu, sevda deyilmiş, şirin nağılmış?…

Sağalmaz bir yara yoxdu dünyada,
Bilirəm, sevdalı qəlbin kövrəkdi.
Toxum cücərdənlər çoxdu dünyada,
Mənə daş göyərdən ürək gərəkdi…

Şairin məhəbbəti böyük, istəyi isə çox cüzidir:

Sənin ürəyində bitən ağacın
Üstündən bir şair nəfəsi əsdi.
Meyvəsi kiməsə qismət olacaq,
Mənə o ağacın kölgəsi bəsdi…

Adam var ona dünyanı bağışlasan belə, yenə qane olmaz, acgözlük edər, deyər ki, azdır. Adam da var nəfsinin qulu deyil, mənən toxdur, aza da qane olur. Əslində bu da Rafiqin öz qənaətidir, yəni o, heç vaxt ad-san üçün döyüşməyib, özünü oda-közə atmayıb, taleyin ona verdiyi nə varsa, onunla qane olub, kifayətlənib.

Qəzetimizin digər bir sayında Rafiqin “Necə yazacaq?” şeiri dərc olunub. Bu şeirin maraqlı yaranma tarixçəsi var. Onda (oktyabr-noyabr 1995) respublika parlamentinə namizədlər qeydə alınırdı. Ağıl, qabiliyyət, bacarıq yarışından savayı hər cür əyri, naqis yarışlar gedirdi. Rafiq bu biabırçı, iyrənc mənzərəni görüb, susmadı, öz şair səsini ucaltdı:

Bu da bir yarışdı, düşüb bəhsabəhs,
Ey xalqım, sən dostu, düşməni tanı.
Bu gün “Şirvan” verib imza alan kəs,
Sabah sata bilər Azərbaycanı.

Daralır boynuma ilişən halqa,
Gəlir üstümüzə qara bir duman.
Vedrəyə aldanıb səs verən xalqa
Vedrə bağlayacaq tarix bir zaman.

Çaşma hər yetənə uğur diləyib,
Sınaq günlərimiz yaxınlaşır, ha!
Çoxları mandatı qalxan eyləyib,
Qılınc oynatmağa hazırlaşır, ha!

Qoymayın düşməni bizə gülməyə,
Nadanlar millətə qəbir qazacaq.
Adını, soyunu yaza bilməyən
Xalqın taleyini necə yazağaq?!

Deyim ki, o vaxt bu şeir şəhərə əməlli-başlı səs saldı, ciddi söz-söhbətə səbəb oldu. Rafiqin qənaəti düzgün idi. O, gördüyünü, əsl həqiqəti qələmə almışdı. Axı, doğrudan da, xalq, millət seçicilərə vedrə paylayıb səs toplayan elçisindən nə gözləyə bilər? Belə millət vəkilləri kimə və nəyə lazımdıqr?!

Əfsuslar olsun ki, şair harayını eşidən, ona məhəl qoyan tapılmadı. Deputatların böyük əksəriyyəti əvvəlcədən tərtib olunmuş siyahı ilə “seçildi”.

Düzdür, haqqında söz açdığım bu şeir kitaba daxıl edilməyib. Ona görə ki, Rafiqin yeni kitabında ancaq onun dəniz nəğmələri, lirik ovqatlı, gənclik təravətli məhəbbət şeirləri toplanıb. Həm də bu, şairin öz arzu və istəyi ilə olub.

Lakin nəzərə alsaq ki, hər bir qələm sahibi, daha çox şair eyni zamanda dövrün, zamanın salnaməçisidir və o, ən çətin məqamda belə susmamalı, bütün həyat həqiqətlərinə öz münasibətini bildirməlidir. Bu nöqteyi-nəzərdən Rafiqin real həyata publisist münasibətdən yaranan şeirə müraciət etməyi vacib sandım.

Oxucu yəqin hiss etdi ki, mən qeydlərimdə Rafiq Yusifoğlunun kitabında toplanmış şeirlərdən çox dənizdən söz açdım. Bunu mən bilərəkdən etmişəm.

Çünki bu kitabı Rafiqə məhz dəniz yazdırıb, onun dənizə olan sonsuz məhəbbəti, həm də bu dənizi ona sevdirən gözəllər yazdırıb. Görün şair bir şeirində dənizi ona bağışlayan bir gözələ nə deyir:

Yanğımı söndürmək olmaz,
Dalğayla, yağışla, gözəl!
Dəniz elə mənimkidir,
Özünü bağışla, gözəl!

Əgər Rafiq Yusifoğlu dənizi özününküləşdirirsə, onun haqqında geniş danışmağa da dəyər. Bəli, dəniz ilk növbədə onu sevənlərindir, qədir-qiymətini bilənlərindir. Bu siyahıda Rafiq də var, bu sətirlərin müəllifi də.

Şair "Dənizlə söhbət" şeirində özünün dəniz məhəbbətini daha da böyütmək, genişləndirmək istəyir. Bu arzu və istəklə üzünü sevgilisinə tutub deyir:

Gülüm, dəniz səni tanımır hələ,
Deyir ki, qoy o da sənə qoşulsun,
Ya dalğaya dönsün, ya da quş olsun.

Məsəl var deyərlər: “Dost dosta tən gərək, tən olmasa, gen gərək”. Nə qədər Rafiq Yusifoğlunun ayrı biçimli, ayrı ovqatlı şeirlərindən söz açmaq istəsəm də, dənizin məftunedici cazibəsindən çıxa bilmirəm, yenə dəniz nəğməli, dəniz ətirli şeirlər diqqətimi cəlb edir. Görürəm ki, bu “yanlış da bir naxış”dır. Həm də bu, çox təbiidir. İkimiz də dəniz aşiqi, dəniz dəlisi olduğumuzdan söz-söhbətimiz dənizdən yan keçə bilmir. Həm də ki, dəniz sevgisi, dənizə sonsuz məhəbbət kitabdakı şeirlərin canına hopub, qanına işləyib və onların hamısında bir isti nəfəs var: dəniz nəfəsi, dəniz ətri. Özü də bu şeirlər sanki bir himə bənddilər. Əgər onlara bir bəstəkar nəfəsi, musiqiçi, müğənni əli, barmağı toxunsa, misralar, beyt və bəndlər dərhal dilə gələr, şirin, yaddaqalan şərqiyə, nəğməyə dönər...

Siz “Mənim dənizim” şeirindəki bu həzin, kövrək misraların pıçıltısına baxın:

Söz deyirəm ərk ilə,
Arı qonmaz hər gülə.
Ya qucaqla boynumu,
Ya qoynunda qərq elə.

Aşiqlərin ürəyi yuxa, kövrək olur. Biz, əlbəttə, lirik “mən”ə “qoynunda qərq olmaq” arzulamazdıq. Ancaq “qucaqla boynumu” deyərdik.

Rafiq Yusifoğlunun bir neçə şeirinə bəstəkarlar, müğənnilər müraciət etsələr də, hələ bir xeylisi növbə gözləyir. Kitabda öz-özünə oxumaq istəyən, bəstələnmək arzusuyla yaşayan o qədər şeir var ki, yəqin ki, onlara da növbə çatacaq.

Qeyd etdiyim kimi, kitabda şairin dəniz mövzusunda və yaxud dəniz ovqatı ilə yazılan silsilə şeirlərə geniş yer verilmişdir. Çətinlik çəkirəm deyim ki, bu şeirlərin ən yaxşı, yaddaqalanı hansıdır? Ona görə bu sualla şairin özünə müraciət etdim.

–Dəniz haqqında ən yaxşı şeirimi hələ yazmamışam. Ümumiyyətlə dəniz elə bir əbədi, bəşəri mövzudur ki, hələ onu heç kim dənizin özündən yaxşı, sanballı vəsf edə bilməyib. Dəniz mənim ürəyimə, gözlərimə köçüb...

Rafiqin fikri ilə razılaşıram. Eybi yox, qoy öz dediyi kimi olsun, bütün sənətkarlar kimi o da dənizə borclu qalsın...

Redaktor hardasa buğda zəmisində alaq təmizləyənə oxşayır. Bu mənada Rafiqin "poeziya zəmisi" hər cür alaqdan xalidir...

...Özüm bilə-bilə kitabda toplanmış şeirlər barədə geniş söhbət açmıram. Bunu tələbkar oxucuların öhdəsinə verirəm. Qoy onlar diqqətlə oxusunlar, rəy söyləsinlər. Mənim məqsədim dostum haqqında bir-iki xoş söz demək idi. Bilmirəm bu borcumu yerinə yetirə bildimmi?! Oxucu bu qeydlərimi necə qarşılayacaq, oxuyanda ağız büzməyəcək ki, onu deyə bilmərəm. Bircə onu deyə bilərəm ki, "Dəniz nəğmələri –məhəbbət nəğmələri" sərlövhəsinə sadiq qalmağa çalışmışam, şairin sevgi dolu şeir çələnginə məhəbbətlə yanaşmışam. Sən də bu nəğmə çələngini sevə-sevə, məhəbbətlə oxu, əziz oxucu!

**Hacı Ağəddin Mansurzadə**

*1-4 avqust, 1997*

# DİLÇİLİKLƏ DÖYÜNƏN ŞAİR ÜRƏYİ

Şair Rafiq Yusifoğlu poeziyasının özünəməxsusluğu, obraz rəngarəngliyi, mövzu müxtəlifliyi ilə bağlı xeyli yazılar yazılıb, şeirlərindəki ən səciyyəvi cəhətlər müxtəlif bucaqlar altında təhlil süzgəcindən keçirilib. Təqdirəlayiq haldır ki, şairin yaradıcılığı bu gün də ədəbi tənqidin diqqət mərkəzindədir...

Müəllifin "Ana dilim" (2007) və "Könül səltənəti" (2012) adlı kitabını son günlərdə oxumuşam. Açığını desəm, R.Yusifoğlu poeziyası barədə söz deməyimə, yazı yazmağıma səbəb onun zövqlə, həm də zərgər dəqiqliyi ilə yaratdığı "Ana dilim" şeirlər silsiləsi oldu. Bu şeirləri oxuduqca ilk olaraq "Dədə Qorqud kitabı"nda dilçilik elminin prinsiplərinə əməl olunma ilə bağlı müəyyənləşdirdiyim detallar göz önünə gəldi: ikidilli lüğətlər üçün səciyyəvi hesab edilən prinsiplərə əməl olunma ("hərami" sözünün məna yükü "Kitab"da poetik şəkildə ifadə edilir: "Yol kəsdi, adam aldı, böyük hərami oldu". Bu cümlənin semantik yükü "Ərəb və fars sözləri lüğəti"ndə (1985) "hərami" sözü ilə bağlı verilmiş izahla əsasən üst-üstə düşür: haram mala əl uzadan; yolkəsən, soyğunçu… Yaxud "Gah bir hərf süqutilə qılur nadiri nar, Gah bir nöqtə qüsurilə gözü kur eylər" – beytinə görə M.Füzulini həm də böyük bir dilçi statusunda təqdim etdiyimi istər-istəməz xatırlamalı oldum. Maraqlıdır ki, mətnin poetik strukturu və semantikasına istinadən dəqiqləşdirdiyim bu cəhətlər R.Yusifoğlu poeziyasında açıq-aydın şəkildədir. Şairin "Əlifba"m, "Fonetika", "Nitq hissələri", "Cümlə üzvləri" və s. başlıqlar altında verdiyi şeirlərdə dilçiliklə poeziya vəhdətdədir, sanki bu şeirlərin hər birində dilçi R.Yusifoğlu ilə şair R.Yusifoğlu çiyin-çiyinədir, biri digərini bütün parametrlərinə görə tamamlayacaq səviyyədədir.

"Əlifba"m başlığı altında verilmiş bəndlərdə oxumaq və yazmaq vərdişləri ilə bağlı ən mühüm cəhətlər qabardılır:

“Əlifba”m, ay “Əlifba”m,
Bir sehrli açarsan.
Elmin qapılarını
Üzümüzə açarsan…

Qalın və incə saitlərin, eləcə də samitlərin bir sıra səciyyəvi cəhətlərinin poeziyaya gətirilməsi, şeir dili ilə ifadəsi və bu tip şeirlərin “Fonetika” başlığı altında təqdimi ümumtürk ədəbiyyatında nadir hadisələrdəndir. Şair danışıq səsləri ilə bağlı nəzəri məlumatları uşaqların, daha dəqiqi, ibtidai sinif şagirdlərinin başa düşə biləcəyi bir dillə, həm də obrazlı şəkildə canlandırır. İncəliyi ilə öyünən, qalın səsləri lağa qoyan “İ”nin sözlərinə “A” belə cavab verir:

Söylədi:
– “Əlifba”nın
İlkin səsi mənəm, mən
Bil ki, bütün səslərin
Sərkərdəsi mənəm, mən…
Nə olsun ki, incəsən,
Dostum, çəkmə özünü.
İlki mən, sonu mənəm
“Ata”, “Ana” sözünün..
Nə olsun ki, qalınam,
“A”yam, “A”yam, “A”yam mən.
Hər söz bir ulduzdusa,
Şəfəq saçan ayam mən.
Utan kobud sözündən,
Yana-yana qal indi.
“Ana” sözünə qalın
Deyən özü qalında…

Morfologiyanın ən qabarıq cəhətləri “Nitq hissələri” bölməsinə daxil edilmiş şeirlərdə obrazlı şəkildə ifadə edilir. Konkret desək, ən azı hər bir nitq hissəsinin tərifi poetik bir dillə canlandırılır: Hər şey, hər şey isimdi, İsim addı, mən adam… (isim); Sifətəm, hər bir şeyin, Əlaməti mənəm, mən… Qara mənəm, bəyaz mənəm… Hər şeyin rəngi mənəm… (sifət); Həm miqdar, həm sıranı, Bildirirəm, sayam mən… (say); Neçə nitq hissəsini, Əvəz edə bilirəm… Əvəzliyəm, əvəzlik, Mənim əvəzim yoxdu (əvəzlik); Felin sırasındayam, Hərəkətin tərziyəm… (zərf); Feləm, mən də feləm, Əbədi hərəkətəm mən, Xeyirəm, bərəkətəm mən… (fel); Sözlərə qoşularaq, Məna yaradıram mən (qoşma); Cümlələrin, sözlərin, Arasında körpüyəm (bağlayıcı); Sözlərin mənasını, Artıra bilirəm mən… (ədat). Bu misralarda dilçilik elminin nəzəri müddəaları ilə silahlanan, pedaqogikanın sirlərinə yetərincə bələd olan həssas qəlbli şair qələminin özünəməxsusluğu aydın şəkildə görünür.

R.Yusifoğlu “Cümlə üzvləri” bölməsinə daxil etdiyi şeirlərdə baş və ikinci dərəcəli üzvlərin ən qabarıq cəhətlərini ifadə etməyə çalışıb: Xəbərə sirdaşam mən. Mübtədayam, mübtəda, Başlanğıcam, başam mən… (mübtəda); Xəbərəm, xəbərçiyəm, Hər tərəfdən, hər yandan, Xəbər gətirirəm mən… (xəbər); Vasitəliyəm, yönlük, Yerlik, çıxışlıq halda, Təsirlik haldayamsa, Vasitəsizəm demək… (tamamlıq)… Müəllif bəzən cümlə üzvlərini nitq hissələri ilə müqayisəli şəkildə təqdim edir ki, bu da olduqca təbii qarşılanır:

Təyinəm, mən təyinəm
Nitq hissəsi deyiləm,
Mənə yaxşı-yaxşı bax.
Sifətə oxşasam da,
Cümlə üzvüyəm ancaq…

Nöqtə, vergül, defis, sual, nida və s. kimi qrafik işarələrin mətndəki rolunu, işlədilmə qaydalarını, ümumən Azərbaycan yazı mədəniyyətinin incəliklərini poetik təfəkküründən keçirən

R.Yusifoğlu “Durğu işarələri” ilə bağlı olan şeirlərində əsl vətəndaş şair kimi çıxış edir:

Nidaya bax, sualla
O yanaşı duranda,
Daha kəsərli olur
Deyilən söz onda.

M.Kaşğarinin “Divanü lüğat-it-türk” əsərində işlənən süd qardaşı anlamlı “əmikdəş” sözünü, Qazi Bürhanəddinin “Divan”ındakı qıpqırmızı anlamlı “qıpqızıl” sözünü (Qıpqızıl oldı olamı ki, xəcildir totağun), bir də 1723-28-ci illərdə Osmanlı məmurları tərəfindən tərtib edilmiş “Dəftəri-müfəssəli-əyaləti-Tiflis” adlı topludakı Qorqud Mirzə oğlu, Bədirxan Qazan oğlu, Nəbi Dondar oğlu, Bamsı Cayam oğlu kimi şəxs adlarının “Dədə Qorqud kitabı” ilə səsləşməsini təhlil edərkən sevincmin hədd-hüdudu olmamışdı (həmin sözləri 2010-cu ildə çap etdirdiyim “Azərbaycan dilinin tarixi qrammatikası” dərsliyinə ən dəyərli nümunələr kimi daxil etmişəm). Qəribə də olsa, R.Yusifoğlunun “Dilimizin sözləri” silsiləsinə daxil olan şeirlərini oxuyarkən bu sevinci yenidən yaşamalı oldum. Çünki şair müasir ədəbi dilimiz üçün səciyyəvi olmayan sadaq (ox qabı), sapand (yundan toxunan, içərisinə daş qoyulub atılan uzun qollu silah), koğa (qarmaq) kimi sözlərin leksik-semantik tutumunu obrazlı şəkildə ifadə etməklə onların hər birinə yeni nəfəs vermiş, əbədiyaşarlığını təmin etməyə çalışmışdır. Burada cəmi bir nümunəni təqdim etməklə kifayətlənirik:

Tamam boşaldı sadaq.
Məndən xahiş elədi:
Olum sənə sadağa!
Get oxları gətir yığ,
Ox qabına –sadağa…

R.Yusifoğlunun "Könül səltənəti" kitabındakı şeirlər rəngarəngliyi, orijinallığı, təbiiliyi, cəlbediciliyi ilə fərqlənir. Bu şeirlərin hər biri könül səltənətinin zövq oxşayan nadir inciləridir. Heç şübhəsiz ki, bu sırada şairin sevgi duyğusundan, qəlb çırpıntısından yoğurulmuş şeirləri birinci yerdə durur. Həmin şeirləri belə səciyyələndirmək olar: şairin lirik "mən"i hər qaragözlüyə meyil salan deyil, gözündə şeh gülən gülü sevəndir; əbədi ayrılıq şairin lirik "mən"ini didib-parçalayır, onun mürgülü vicdanı "dil açır", gizli duyğuları üsyana qalxır… Bu kontekstdə bir həqiqəti vurğulamaq lazım gəlir: real eşqin tərənnümü şairin "Könül səltənəti"ndən leytmotiv kimi keçir, məsələn, yaratdığı aşiq obrazlarından biri bulaq kimi çağladığından sevgilisini təpədən dırnağa kimi öpüb qoxulamaq, ən əsası isə ruhunu qovuşdurmaq istəyində israrlıdır:

Qəlbində əbədi sevgi,
Saçlarında dən olaram.
Ruhum ruhuna qovuşar,
Başdan-başa sən olaram…

Amma burada onu da qeyd etmək lazımdır ki, şairin lirik "mən"i bəzən cəmiyyətdən uzaqlaşmaq, sevgilisini göylərə aparmaq niyyətindədir:

Miskinə qoşulub batma günaha,
Aldanma ilğıma, uyma səraba.
Sən yerdə sürünə bilməzsən daha,
Götür sevgini də göylərə apar!

R.Yusifoğlunun bu ruhlu şeirləri modernist şair Adil Mirseyidin poeziyası ilə eyni xətdə birləşir. Belə ki, A. Mirseyidin poeziyasında da sevda kədərinin dözülməzliyi, psixoloji sarsıntılar içərisində çapalama motivi üstün mövqedədir:

Əlvida de türk dilinə
Unut Bakı şəhərini
Sən də get qürbətdə yaşa
Bu sevdanın kədərini.

Şairin poeziyasında təbiətin əsrarəngiz gözəlliyinin tərənnümü xüsusi yer tutur: bu şeirlərdə ay, ulduz, günəş, duman, yağış, qar, meşə, çiçək kimi təbiət varlıqlarının hər biri poetik şəkildə canlandırılır; şair gecələr meşənin yuxusunun qaçmasını, çəmənlərin mehdən məst olmasını, güllərin şehdən sırğa taxmasını, ulduzların sayrışmasını, çayların nəğmə oxumasını, yağışın xalça toxumasını, bir də ləpələrin dil açıb danışmasını elə ifadə edir ki, ruhlar dinməyə bilmir:

Ulduzlar mənimçün sayrışır sanki,
Çaylar mənim üçün nəğmə oxuyur.
Ləpələr dil açıb danışır sanki,
Yağış mənim üçün xalça toxuyur.

Yeri gəlmişkən, bu misraların semantik yükü "Yer geydi qəbayi-xizrpuşan, cümlə dilə gəldi ləbxəmuşan", - deyən Şah İsmayıl Xətainin şeirləri ilə səsləşir. Bu da təsadüfi deyil. Çünki R.Yusifoğlu özünəqədərki ədəbiyyatımızı bütövlükdə canına, qanına, ruhuna hopduran sənətkarlarımızdandır.

"Qışı ağ xalatlı həkim" kimi obrazlaşdıran şair metaforik-metonimik bir dillə danışır, ən əsası isə qış obrazının dolğunluğunu semantik dinamikanın başlanğıc və son nöqtələrini məharətlə uyğunlaşdırmaqla təmin edir: qış dağı, daşı zəbt etsə də, nəğməkar suları susdursa da, dağlarda çılğın şəlalələri çarmıxa çəksə də, quldur deyil, əksinə, ağ xalatlı həkimdir; qış xəstəliyin, azarın qarşısını alır, çirklənmiş təbiəti təmizləyir ağ xalatlı həkim kimi öz vəzifəsini yerinə yetirir; qış dünyanı gələn yaza, payıza hazırlayan ən böyük, həm də ən möcüzəli bir varlıqdır:

Xəstəliyə, azara
Qış gözünü ağardır...
Hamımızı çovğuna,
Ayaza hazırlayır.
Dünyanı gələn yaza,
Payıza hazırlayır...

R.Yusifoğlu "Qar yağacaq" şeirində modernist bir şair kimi çıxış edir: sevgililərin qəlbinə vurulan həsrət dağı qar altında qalır; qarın ağlığı onları saflaşdırır; ömürlərinin bəyaz günləri, yəni gözəl, mənalı günləri başlanır, çünki şairin lirik "mən"i yağan qara bənzətdiyi ağ libaslı sevgilisini öz sinəsi üstündə təsəvvür edir (burada istər-istəməz "Dədə Qorqud kitabı"ndakı "Qar üstünə qan dammış tək al yanaqlım!" müraciəti yada düşür):

Məhəbbətin nur saçacaq ay kimi,
Uzaqlardan göz dikəcəm sənə mən.
Qar yağacaq, göydən gələn pay kimi
Ağ libasda enəcəksən sinəmə...

"Qan ağlayır işğal altındakı torpağımızın hər qarışı", - deyən şair dərdli, kədərlidir, çünki canından artıq sevdiyi Qarabağ quduz ermənilərin tapdağı altında inildəyir:

Ürəyimin başında
Yurd həsrəti ağlayır.
Mənim ilham bulağım
Gecə-gündüz çağlayır.

Coşqun təbiətli şair təkcə Azərbaycanımızın Qoşqar, Şahdağ, Savalan kimi dağlarını, Araz və Kür kimi çaylarını, Göygölünü, Xəzər dənizini yox, həm də Bodrumu, Egey dənizini, Türkiyəni sonsuz məhəbbətlə tərənnüm edir. Hətta "Mən Xəzərdən

Egeyə, Bol-bol salam apardım", - deyərək Azərbaycanla Türkiyənin əbədi birliyini, sarsılmaz dostluq və qardaşlığını Xəzər və Egey dənizləri kontekstində canlandırır:

Bir əlim bu dənizdə,
Bir əlim o dənizdə.
Doğmadı bu dəniz də,
Doğmadı o dəniz də.

Türk dünyasına sevgidən yoğurulmuş bu parça (dörd bənddən ibarət "Xəzər-Egey" şeirinin ikinci bəndidir) semantika və poetik struktur baxımından zəngindir. Bəzi detallara diqqət yetirək: türk birliyi vəsf olunan bənddə şair özündən asılı olmayaraq, yalnız türk mənşəli sözlərdən istifadə edib (bir, əl, bu, dəniz, doğma, də). Fikrimcə, bu cür assosiativlik yüksək bilik və intellektə deyil, gen yaddaşına söykənir; mübaliğə və anaforalar silsiləsinin birlikdə təzahürü ilə bəndin ahəngdarlıq və melodiyalılığı təmin olunub, poetik mənası qüvvətləndirilib; qarşılaşdırmalar kontekstində yaradılmış bənddəki birinci və ikinci, eləcə də üçüncü və dördüncü misraları yalnız bu, o işarə əvəzliklərinin işlənmə məqamlarına görə fərqləndirmək mümkündür. Bu isə o deməkdir ki, həmin bənddəki poetik struktur sintaktik mühitə tam uyğunlaşdırılmış vəziyyətdədir.

R.Yusifoğlu poeziyasının dili olduqca səlis, şirin və canlıdır, onun poeziyasında obrazlılığa xidmət etməyən, emosionallıq və ekspressivlik yaratmayan dil vahidi tapmaq çətindir. Bu da səbəbsiz deyil: birincisi, ona görə ki, şair özünəqədərki şifahi və yazılı ədəbiyyatımızın incəliklərini yaxşı mənimsəyib; ikincisi, şairin özünün də dediyi kimi "...Səməd Vurğun, Şəhriyar, Məmməd Araz və başqa bu kimi sənətkarlarımızın əsərlərində Azərbaycan dili dağ şəlaləsi kimi çağlayır". Heç şübhəsiz ki, bu zənginlik şairin poeziyasından da yan ötməyib; üçüncüsü, R.Yusifoğlu filologiya üzrə elmlər doktoru, professordur. Bu da onun dilinin səlisliyinə istər-istəməz müəyyən qədər təsir etmişdir;

dördüncüsü, şairin dilindəki kamillik onun poetik təfəkkürünün zənginliyi ilə bağlıdır.

R.Yusifoğlunun poeziyasını zənginləşdirən dil vahidlərini, obrazlılıq yaradan bədii təsvir və ifadə vasitələrini aşağıdakı kimi ümumiləşdirmək olar:

- bəzən sərbəst şeir formasında, daha çox isə heca vəznində yazıb-yaradan şairin dilində türk mənşəli söz və ifadələr üstün mövqedə görünür. Hətta yaratdığı bir sıra bəndlərdə yalnız türk mənşəli sözlərin işlənməsi müşahidə olunur:

Ötən ilin ağrıları
Göylərin gözündən gəlir.
Dənizin ağ dalğaları
İlin o üzündən gəlir.

Bu bənddə işlənmiş söz və ifadələrin hamısı türk mənşəlidir: ötən, il, ağrı, göy, gözündən gəlmək, dəniz, ağ, dalğa, o, üz, gəlmək;

- müəllifin şeirlərindəki harmoniya, ahəngdarlıq, melodiyalılıq və bu kontekstdə poetik mənanı qüvvətləndirmə daha çox assonans, alliterasiya, anafora, epifora və zəngin qafiyələr vasitəsilə yaradılmışdır. Bəzi nümunələrə diqqət yetirək:

assonans: ovum-ovum ovuldum. Bu gün arzulara ov oldum – o → o → o → o → o (burada assonansla leksik-morfoloji təkrarın sintezi də müşahidə olunur);

alliterasiya:

Yağış yağdı, yanıb solmuş – y → y → y;

anafora:

Uç, uç buludları yar şimşək kimi;

epifora:

Burda tarix uyuyur,
Xoş gəldin, buyur, buyur.

Zəngin qafiyələr:

Çiçəklər ətir qoxuyur,
Dilsiz qayalar oxuyur,

Dünya əyirir, toxuyur –
Cəhrəsi var, həvəsi var.

Bu bənddəki qoxuyur, oxuyur və toxuyur sözləri zəngin qafiyələrdir;

- altun, sadaq, sapand, yağı kimi arxaizmlər, eləcə də kirimək (susmaq, sakit olmaq), öləzimək (zəifləmək, sönmək) kimi dialektizmlər poetiklik yaradan vasitələr kimi çıxış edir;

- dilimizin frazeoloji zənginliyi şairin poeziyasına hoparaq onun poetikliyini qüvvətləndirmişdir. Burada cana doymaq, dağ çəkmək, qan ağlamaq, içini didib-parçalamaq, əl-ayağı yerdən üzülmək, toy tutmaq... kimi frazemlərin intensivliyini xüsusilə qeyd etmək lazım gəlir;

- bir sıra atalar sözləri nisbətən dəyişikliyə uğramış şəkildə işlədilmişdir ki, bu da birbaşa mətndəki poetik mənanı gücləndirməyə xidmət edir: Niyyətimiz harasa, Mənzilimiz oradır; Yalan ayaq tutsa da, yeriyə bilmədi; Bir əlində iki qarpız, Saxlamağa cəhd eləmə!; Ağacı yeyirsə qurd öz içindən, Kimə inanasan bu yer üzündə?...;

- poetikliyin epitet, təşbeh, metafora və mübaliğə kimi bədii təsvir və ifadə vasitələri ilə yaradılması üstün mövqedə çıxış edir. Bəzi nümunələri təqdim edirik: epitetlər: kor duman, quduz şaxta, cəllad hicran, hikkə bulud, mürgülü vicdan...; təşbehlər: solan gözlərin lalə tək üşüməsi, meyvə ağacları kimi meşəyə heyrətlə baxmaq, nifrəti sel kimi kükrəmək...; metaforalar: çaylar nəğmə oxuyur, yağış xalça toxuyur, güllər şehdən sırğa taxır...; mübaliğələr: Daha Xəzərin suyu da çatmaz, İçimdəki boşluğu doldurmağa; Min yalan süzüldü sənin dilindən; Ciyərimdən qopan fəryad, Dərəni, dağı tutacaq... Bu təsvir və ifadə vasitələrinin əksəriyyətini məhz R.Yusifoğlu yaratmışdır ki, bu da onun fərdi yaradıcılıq qabiliyyətinin, kamilliyini şərtləndirən detallardan biri kimi götürülə bilər;

- antiteza (bədii təzad) və ellipsislər mətndəki poetik siqləti qüvvətləndirən ən mühüm vasitələr kimi görünür:

antitezalar: ağlamaq-gülmək; yaxın-uzaq; Dəvəsi ölmüş ərəb - ərəbi ölmüş dəvə; ellipsislər: İmanı olanın pulu yoxdu, pulu olanın imanı; Nə səni ata bilirəm, nə də bağışlaya...;

- obrazlılığı qüvvətləndirən vasitələr sırasında disfemizmdən (vulqar, kobud sözlərin işlədilməsindən ibarət məcaz) istifadəyə də təsadüf olunur: Mənim eşqim it deyil ki, əzizim, Zəncirləyib saxlayasan qapında?!;

- şəxs adları və onların apelyativlərinin birlikdə təzahürü ilə poetikliyin yaradılmasına da rast gəlinir. Məsələn, “Xumar” şəxs adının assosiativliyi ilə “xumar-xumar” zərfi işlədilmişdir:

Sən yatırsan
xumar-xumar,
Əvəzində mənə
cavab verir Xumar...

Rafiq Yusifoğlu poeziyası geniş və sistemli şəkildə tədqiqini gözləyir. Biz isə həssas qəlbli şairə yeni-yeni yaradıcılıq uğurları diləyirik.

**Əzizxan TANRIVERDİ**
***filologiya üzrə elmlər doktoru, professor***

“525-ci qəzet”, aprel 2013.

## DUYĞULARIM...

(*Rafiq Yusifoğlu ilə...)*

Qadir olan, rəhmli olan tək Allah! Qadir olduğun qədər ulu Tanrı! Sənə pənah gətirəni darda qoymursan! Sənin haqqın böyük, sənin haqqın müqəddəs!

Allahım!
Sənin ürəyin,
sənin səbrin böyük...
Bizim ruhumuza od eləmisən.
Qəlbimizi elə yaratmssan ki,
Ləzzət çəkməyə aludəyik,
Bəs onu bizə niyə qadağan eləmisən?

Payızı sarı, narıncı rəngli, qışı ağappaq, yazı yaşıll, təzə-tər, yayı al-əlvan yaratmaqla  gözəl elədin.  Nə qəribə?! Kövrək tumurcuqdan təzə göyərən yarpaqdan da həzz  alırıq, saplağından saralıb üzülən, xəzələ çevrilən yapraq dənizindən də.

Açılan gül gözəl idisə,
Sənin əmrinlə niyə solurdu ki?!
Ləzzətin
Nə demək olduğunu bilməyəni
Elə daş, torpaq yaratsaydın,
Nə olurdu ki?!

Hər könül çiçək kimi açıla, hər ürək bulaq kimi çağlaya... Sənə sevgim böyük,  sənə sevgim tükənməz... Bir “ol” sözünün hikmətində sevgi yatmış, bir eşq damcısından kainatmı yaranmış?..

Bizi ömür boyu izləyir Allah,
Ulu dərgahında gözləyir Allah.

Yeri gül – çiçəklə, göyü ulduzla,
Ürəyi sevgiylə bəzəyir Allah...

Duyan qəlbim eşqə giriftar olmuş. Xəstələndim, mərəzimdən zövq aldım... İndi ömür boyu bir kimsənin qarşısında əyilməyən varlığımın bir sultanı var: – Məhəbbət! Öz arzumla əsir oldum...

Mən sevda dənizində
yelkənsiz gəmiyəm.
Mən eşqin dağında
Hörüklərinlə zəncirlənmiş
Prometey kimiyəm.

Mənəm Məcnun! Əsrimizin Məcnunu! Könlüm dəli, ağlım sərsəm, halım sərxoş, bihuş oldum...

Desələr ki,
ağlım çıxıb başımdan,
inanma, yavrum,
inanma!
Bu sevgini ürəyimə
Tanrı salıbsa,
qınama məni,
qınama!

Dünyamsan, sevgim boyda... Sevgim boyda ağrım, ağrım boyda həsrətim... Uzaq qaçmaq, ya qarsalayan bu sevginin hənirindən kül olmaq?... Bəlkə də vüsal? Arzulanan...

El – aləm danışır mənim sözümü,
İndi ağıll qoyur hər yetən mənə.
Eh, eşqə salmışam özüm – özümü,
Heç düşmən etməzdi etdim mən mənə.

Duydunmu heç? “Nanə yarpağı” tək əsdi könlüm səndən ötrü... Eşit məni, mələk üzlüm... Səni sevən dəli könlüm, səni

deyib sənə sarı yol açılir. Xar çəmənlər, daş – kəsəklər, yalçın qaya... Mən piyada... Son ucda SƏN!

Bir güləm, istəsən dərərsən məni,
Yolub küləklərə verərsən məni.
Sözümün altında gizlənmişəm mən,
Sözümü anlasan, görərsən məni…

Ürəyinə daş bağlama, gözüm nuru. Aşiqini məyus etmə. Bu bir eşq ki, azarına sən də mübtəla ...

Ala gözlərinin yaşına dönüm,
Ömrünün yazına, qışına dönüm.
Sənin ürəyinin başına dönüm,
Sənin ürəyində mənim yerim var.

Bu bir sevgi – dadı əzabından böyük... Bu bir sevgi – vüsalı bölük – bölük...

Üzümə elə baxma.
taleyimin əlçatmaz,
ünyetməz ülkəri.
Nə bilirsən kül altında
köz yoxdu?!
Sənin bəbəklərindəki
təbəssümə bürünmüş kədəri
mənim gözlərimdən başqa görən
göz yoxdu...

Baxışımın ucunda, ünüm yetən, əlim çatan yerdəsən... Göydəsən, sənə qovuşmaq çətin... Sinəmdəki nəfəsim kimi, çiçəkdəki ətir kimi, aldın, qoxdun, geriyə dönüşü yox, həsrətim mənim!...

Həsrətimin gözləri dörd,
Əllərinlə gözümü ört.
Dərmanı olmayan bu dərd,
Bu azar mənim olacaq…

…Sevən qəlbin yox kini də,
Sev ayı da, sev günü də,
Aydan arı sevgini də
Dünya bizə çox görəcək.

Bir şirin yuxu, bir şirin istək səni mənə yaxın edər, səni məndən uzaq edər... Səni arzulamağım ayrılığa aparan yol...

Yoxsa ötən çağlar yadına düşdü?
Gözündə bir eşqin şimşəyi çaxdı.
Üzündən bir kədər buludu keçdi,
Üstümə bir həsrət yağışı yağdı...

İnci səpdin gözlərindən misralarım dilə gəldi. Mən sənin eşqin üstə köklənmiş dəliqanlı havayam. Dilləndir! – Eşq damaram!

Bir cüt göz gərəkdi mənə ağlaya,
Bir eşqin közərən qərib qoruyam.
Qorxuram hisslərim qabar bağlaya,
Qorxuram gözümün yaşı quruya...

İçim doldu eşqin ilə. Könlümə rahatlıq gətirdi təkcə xəyalın sənin. Səni sevdim... Gözlərim gözəlliyə əsir... Gözlərim sənə əsir... Gözlərimin köləsiyəm...

Gözlərim nur aşiqidi,
Gözəlliyin əsiriyəm.
Bəndə mənə neyləyəcək? –
Mən Allahın əsəriyəm!..

Mən bu eşqin dağ çəkən dadından sərməst oldum... Acısından keçmək çətin. Şirinindən doymaq olmur...

Ürəyim hey titrəyir, ərşə çəkilib yuxum,
Qəlbumdə şam yanırsa, qaranlıqdan nə qorxum?!

Füzuli tək aşiq oldum, cünun oldum, öz sevdamdan dəli oldum... Nəsimi tək ruhum laməkan oldu... Bu zamanın qucağında, səsin, sözün ocağında...

Ömür yolunda
ərəsən olmuşuq,
Vaxt bizi ağladır,
Vaxt bizi güldürür.
Bəzən biz
vaxt öldürməyə çalışırıq,
Ancaq unuduruq ki,
Vaxt bizi öldürür...

Min cismim ola qurban verrəm, sənə eşqim ruhumdadı... Ruhumdakı sevdam ölməz...

Mən bu ölümlə
əvvəl – axır barışmalıyam, –
ancaq...
Yaratdığını
niyə öldürürsən? –
Ulu Tanrıdan soruşmalıyam.

Hər səhərin qanadında yeni bir müjdə, hər gecənin dodağında şirin pıçıltı, baharında təravət, hər anında məhəbbət, diləyi eşq, ümidi eşq! Sevdalı sabahların həsrətiylə yeni günə, yeni nəfəsə inamıyla, hər yeni başlanğıc bir azad ilham!...

Qəlbimiz murada yetməyib hələ,
Qarşıdan ağ günlər səsləyir bizi.
Nə yaxşı ömrümüz bitməyib hələ,
Sevdalı sabahlar gözləyir bizi...

**Sevinc Həmzəyeva**

*''Cahan+'' qəzeti, 31 mart 2008-ci il.*

# NARAHAT ÜRƏYİN YANĞISI

## Yaxud, səkiyə sığınmış bir varlığın sevda yalqızlığı

16 dekabr 2009-cu il. Yasamal bazarının qarşısı. İşimlə əlaqədar demək olar ki, hər gün buradan keçməli oluram. Bu gün də həmin ünvandayam. Lal dayanacaqda bir mənəm, bir də küləyin atıb-tutduğu kağız-kuğuzlar. Sağ səmtdəki səkidə bir parça kağız yellənir. Küləyin sanki bu əl boyda kağızı oynatmağa gücü çatmır. Maraqla həmin kağızı götürürəm. Diqqətlə baxdıqdan sonra məlum olur ki, bu kağız, bu əl boyda vərəq istedadlı şair-alim Rafiq Yusifoğlunun "Həsrət sazağı" kitabından qoparılıb. Görəsən bu vərəq həmin kitabdan necə qopub? Kimsə ürəyinin başındamı gəzdirirmiş bu vərəqi və bir avtobusda bir cibgirin əlinə keçib və…

Nə isə… Yazıq baxışlarla vərəqə baxıram. Kitabın 197 və 198-ci səhifəsinə hədəf olan bu vərəqdə 2002 və 2003-cü illərdə yazılmış üç şeir yerləşdirilib. Birinci şeir 1, ikinci şeir 4, üçüncü isə 6 bənddən ibarətdir. Qəfildən içimdən bu yalqız şeirlər barədə fikir demək keçir. Nədənsə ilk olaraq "Mələklərdən söz açsam da…" şeirinə ürək qızdırıram. İlk olaraq bu şeirin sevda yalqızlığına son qoymaq istəyirəm (o biri iki şeirin sevda yanğısına yaxın günlərdə su çiləməyi düşünürəm, sağlıq olsun).

Maraq doğuran hal odur ki, misralarını sığalladığım ilk şeirin də yazılma tarixi məhz 16 dekabra təsadüf edir. Bu təsadüfdür, yoxsa?

### "Mələklərdən söz açsam da…"

İnsanlıq qeyri-adi xassələrində təzahür edir. İnsan özü çoxlu spesifik keyfiyyətlərə malikdir. Bəlkə də bu səbəbdən şəxsiyyətinə və yaradıcılığına dərin rəğbət bəslədiyimiz Rafiq Yusifoğlu insanı sırf sosioloji varlıq kimi qəbul etmir, ümumiyyətlə, insana sosioloji yanaşma prinsiplərinə yad münasibət bəsləyir:

Bulud kimi dolan ürək çətin ki, susa! –
Mənə bəsdi sevən qəlbin bircə “sağ ol”u.
Şahə qalxan əsəbimə necə oldusa,
Sözlərinlə çəkə bildin mələk sığalı.

Canlı materiyada daxili dəyişmələrin spesifik əhəmiyyəti şeirin ilk bəndlərindən özünü göstərir. Canlı aləmlərdə təkamül bir neçə keçidlidir. Buna görə istedadlı şair fitrətən fazil olmağın yolunu əlahiddə xüsusiyyətlərə keçiddə görür. “Mənə bəsdi sevən qəlbin bircə “sağ ol”u”. Belə düşünmək olar ki, təbiət insana heç nəyi diqtə etmir, insan onun qanunları üzərində öz subyektiv fikrini əsaslandırır, mahiyyət etibarilə paradoks yaradır. Əslində təbiətin qeyri-şüuri xassələri, insanla təmasda onun daxili dəyişməsi insanla təbiət arasındakı xarakterlərin nisbətini müəyyən edə bilər. Bu sferada kainatın mahiyyət və mövcudluq məsələləri də aydın xarakterizə olunur. Elə Rafiq müəllimin sevda yalqızlığına da məhz bu prinsip səbəb yaradır. Hələ nə yağdıracağı bəllli olmyan buludla narahat dünyada hansı formada vibrasiya yaradacağı bilinməyən ürəyin oxşarlığı arasında şairin insanlıq qayəsi aşkar izhar olur. “Bulud kimi dolan” ürəyin susmaq prinsipi bir aksioma olaraq hamımıza məlumdur. Lakin insanın şüuru ilə hərəkəti arasında keçid yaradan ürəyin unikal xassələrini Rafiq müəllim kimi az sayda qələm sahibi realizə edə bilər.

Bircə “sağ ol”la həyatın bütün qanunlarına uyğunlaşa bilmək insandan böyük cəsarət tələb edir. Bu mənada gözütoxluq Rafiq Yusifoğlunun bəlkə də həyat kredosudur, yaradıcılığının bədii mündəricəsidir. Bu, onun həyata-kainata qarşı bədii ünsiyyətinin məcmusu kimi də xarakterizə oluna bilər.

Özünəməxsusluğun miqyasını hər şair müəyyən edə bilmir. Rafiq müəllim isə əsəbinə mələk sığalı çəkən fərdin (obyektin) zəka və təxəyyül qüvvəsinin formulunu belə təyin edir. Biz həmin formulu (düsturu) aşağıdakı kimi tərtib edə bilərik: $A=1+1 <a$

Burada A sonsuzluqda qərar tutmuş Yaradanın kainatla təmas xətti, 1+1 iki fərdin (Adəm-Həvva) subyektiv və bəzən də obyektiv reallıqda təzahürü, a isə Başlanğıcın – Allahın əzəli və əbədi mövcudluğudur. Yəni külli-kainatın bir Allahdan asılılığı inkarsızdır. Bu sistem üzrə Rafiq Yusifoğlu iki fərdin 1+1 keçidində məqsəd hasil edir, gen və irsi dəyişkənliyə diqqət çəkir.

Hiss və intellektual dərketmə müəyyən məntiqi ardıcıllığa əsaslananda fikrin bədii mərkəzləşdirilmə prosesi təkcə həyati meyarları deyil, tarixi perspektivləri də özündə geniş ehtiva edir. “Mələklərdən söz açsam da…” şeirinin həyati, ictimai, bəşəri-fəlsəfi məziyyətləri oxucuya tarixi ənənələr aşılayır. Adəm - Həvva, Fərhad - Şirin, Leyli - Məcnun, Əsli - Kərəm, İlham - Fərizə qətiyyətində gerçəkləşmiş sevgi (məhəbbət) faktoru bir növ bu şeirin predmetini müəyyənləşdirir. Şeirin müəllifinin bircə “sağ ol”a zaman və məkan arasındakı əlaqələri ümumiləşdirə bilməsi, sevgidə güclü intuitiv həssaslıq nümayiş etdirməsi, tarixi ənənələri effektiv təkrarlaması yaradıcılığındakı bəşəri momentləri əhatəli panorama sığışdırmasına səbəb yaradır. Şübhəsiz, bu, evristik (yaradıcı) intiusiyadan doğur.

Saçlarının hər telini bir sim elədin,
Mənim qəlbim köks ötürdü, içini çəkdi.
Elə bil ki, baxışınla tilsim elədin,
Həyatımdan biganəlik köçünü çəkdi.

Əbəs yerə demirik ki, Rafiq müəllimin intuisiyası evristik (yaradıcı) intuisiyadır. Gerçəkdən onun fikir müstəvisində standartlaşdırılmış heç nə yoxdur. O, yeni obraz və anlayışlarda belə, müxtəlif ümumiləşdirmələr aparır, məzmun və mahiyyətcə orijinal məqsədlər hasil edir. Elə çılğın bir baxışdan biganəliyin əriməsi orijinal məqsəddir və burada şairin təfəkkürü, bədii hiss və poetik duyğuları qovuşuq şəkildədir. Əsas odur ki, istedadlı şairin bu şeirində biz bir məqsəddən digərinə intellektual sıçrayış

görürük. Bu sıçrayışlar vasitəsi ilə şeirdə bir fikrin digəri üzərinə keçidi mümkün olur.

"Mələklərdən söz açsam da…" şeirinin strukturu maraqlı quruluşdadır və bu şeirdə bəşəri momentlərə meyl çoxdur. V.Hüqonun, T.Drayzerin, Puşkinin, Lermontovun, Nekrasovun, A.Axmatovanın, Yeseninin yaradıcılığında biz bu keçidi aydın görə bilirik. Onlardan fərqli olaraq Rafiq Yusifoğlunun poeziyasında milli xüsusiyyətlər daha qabarıqdır və diqqətli oxucu şairin məkanxarici təsirlərində bunu aydın sezir.

"Mənim qəlbim köks ötürdü, içini çəkdi". Qəlbin köks ötürməsi (içini çəkməsi) bir növ metaforik xüsusiyyətdir. Lakin şair bu xüsusiyyət üzrə ayrı bir məqam izhar edir və ziddiyyətləri praktiki təcrübə əsasında bir-birindən ayırır. Yəni qəlbin köks ötürməsi konteksti ilə odlu bir baxışdan biganəliyin köç edib getməsi məsələsi bədii fikrin reallığıdırsa, şairin qənaətində bu, özünəməxsusluğun poetik ifadəsidir.

Ürəyimə toy tutmuşdu bir qızın toyu,
Hələ sevda göylərində hava nəmişdi.
Mələklərdən söz açsam da həyatım boyu,
Bu günəcən Mələk adlı qız sevməmişdim…

Fikrin məqsədlə nisbəti bərabər olmasa da, hissi qabiliyyətin mahiyyətdə semantik məzmun kəsb etməsi eyni keçiddən qaynaqlanır. Lakin Rafiq müəllimin bu keçiddə ustalıqla fikir oynatması bədii fikrin poetik məqsədlə nisbətini mümkünləşdirir. Diqqət yetirək: "Ürəyimə toy tutmuşdu bir qızın toyu". Deyilişcə eyni sözün ("toy" - omonim) xaraktercə ayrı məzmun daşıması, üstəlik bu sözün fərqli təzad yaratması şairin uğurudur. "Hələ sevda göylərində hava nəmişdi". Zənnimizcə, bu fikir sevda yalqızlığı barədə bu çağacan deyilmiş fikirlərin ən gözəlidir. Bax, bu, yeni hava, müasir ədəbi mühitə yeni keçiddir. Məhz bu fikirlə bu keçidin yolunu müəyyənləşdirmək mümkündür. Ümumiyyətlə, Rafiq müəllimin "Mələklərdən söz açsam da…" şeirində ədəbi

rasionla zidd xarakter daşıyan fikir yoxdur. Şeir boyu misradan misraya, bənddən bəndə ritmik keçid müşahidə edirik.

Şeirdə müşahidə etdiyimiz fərqli cəhətlərdən biri də bədii və elmi yaradıcılığın bir-birində inikasıdır. Şeirdəki poetik fikirlərin çoxu elmi mahiyyət kəsb edir. İki ayrı-ayrı sahənin eyni müstəvidə təzahürü də Rafiq müəllimin uğurudur. Müəllif şeir boyu həm hissi təsəvvürlərini, həm də ədəbi-bədii düşüncələrini ayrı-ayrı məqsəd üzrə mənalandırır, nəticə etibarilə əsl sənət nümunələri yaradır. Məhz tapdanmış yolları təkrar tapdamadığına görə Rafiq Yusifoğluna təşəkkür düşür.

"Mələklərdən söz açsam da…" şeirində son bənd yekun həddir. Bu bənddə şairin mahiyyətinə varmaq istədiyi fikir tamama yetir:

Neçə-neçə yaşıl sevda dönüb xəzələ,
Verdiyini uf demədən fələk alarmış.
Şair qəlbi ürcah olsa təmiz gözələ,
Yer qızı da onun üçün mələk olarmış…

Yekunda şair məqsədinə yetmək istədiyi fikri ədəbi-bədii tədqiqə cəlb edib, misralardakı ritm və səsin mexanizmini ustalıqla qurub, sözlərin fonetik xassələrinə xüsusi diqqət yetirib, ən əsası, bədii ümumiləşdirmələr aparmaqla, şeirə həyati siqlət bəxş edib.

Şeir on üç hecalıdır. Bildiyimiz kimi, on üç hecalılar da çoxhecalı şeir ölçülərindəndir və Rafiq müəllimin ümumi yaradıcılığında bu tip şeirlər çoxdur. Biz o şeirlərdən yalnız biri barədə qısa fikir yürütdük. Şeir 4+4+5 bölgü sistemində, dördlüyün a,b,a,b növündə yazılıb və bu qayda bütün şeir boyu gözlənilib.

Şeirin üçüncü bəndində "nəmişdi", "sevməmişdim" sözlərində nisbi fonetik (akustik) qafiyələrin olduğunu görürük. Şeirin bu bəndi səs çatışmazlığı – m səsinin yoxluğu ilə yaranan qafiyələrdən təşkil olunub. Şeir ümumilikdə çarpaz qafiyələrdən ibarətdir və bu şeirdə r,z,k,d,ğ samit səsləri vasitəsilə alliterativ

xüsusiyyətlər aşkar edirik. Yəni bəndlərdə eyni samit səslər bir neçə dəfə təkrar olunmaqla alliterativ ahəng yaradıb.

Şeirdə həmçinin, assonansa - eyni cinsli saitlərin təkrarına rast gəlirik: “susa”, “sağ ol”, “oldusa”, “sığalı”, “bir sim elədin”, “içini çəkdi”, “tilsim elədin”, “köçünü çəkdi” və s. Bu sözlərdə sait səslərin düzülüş qaydası u-a-o-ı-a,ı-e-ə-i şeir boyu assonans yaradıb.

“Mələklərdən söz açsam da…” şeirində bədii təsvir vasitələri (təşbeh-bənzətmə, metafora, epitet) də xüsusi diqqət çəkir və şair bu məcazlardan məharətlə istifadə edir.

Öz nurlu şeirləri ilə oxucu zövqünün ideyalılığını təmin edən Rafiq müəllimə Tanrıdan möhkəm can sağlığı, yeni yaradıcılıq uğurları arzulayıram.

**Hikmət Məlikzadə**

*“Təzadlar” qəzeti, 16-19.01.2010*

## HƏR KİTABIN ÖZ DÜNYASI

Rafiq Yusifoğlunun “Dəniz, sən və mən”, “Eşqin qarlı yollarında” kitablarına daxil olan şeirlərin mövzusunu yerə, göyə, insanlara olan sevgi etirafları təşkil edir. Yar köksünə baş qoyalı başını itirmişlər üçün etibarlı kompas kimidir hər iki kitaba daxil olan şeirlər. Qaçılmaz bir dünyagörmüşlük, görüb-götürmüşlüklə sevdalar dünyası önündə məsum körpə çaşqınlığı qəribə, eyni zamanda çox təbii şəkildə qaynayıb-qarışıb bu şeirlərdə. Oxuyanda ki:

Sevən sevdiyinə sarı
Ayağı yalınca gedər.
Üzü günəşə qaçanın
Kölgəsi dalınca gedər –

bu dəqiq müşahidənin qos-qoca bir eşq yolçusunun dünyayla həmyaşıd, həmahəng olduğu qənaətinə dirənib qalırsan.

Oxuyanda ki:

Gəzdiyim gözəli tapmışam, indi
Qəlbimi açmağa söz axtarıram –

yenə baxıb görürsən bu qos-qoca eşq yolçusunun hələ bu tezliklə nə dəmir çarığı ayaqlarından, nə də dəmir əsası əlindən düşəsidi…

Yatmış duyğuları oyatmaq üçün heç olmasa bir qaya hellətmək amacı ilə baş-başa yazılıb hər iki kitaba daxil edilən şeirlər. Bu sətirlərin müəllifi gəlimli-gedimli dünyanı köynəyindən keçirən söz adamlarının hansı missiyanın daşıyıcısı olmasına arifdi və yaxşı bilir ki:

Qız alıb, gəlin köçürüb,
Gənclərə buta içirib,
Neçə-neçə ögey dərdi
Öz köynəyindən keçirib,
Oğul eləyib şairlər.

Qənaəti budur ki:

Sözün də kösövü, külü,
Sözün də gözü var imiş.
Gözümün içinə baxır,
Sözün də gözü var imiş…

Rafiq Yusifoğlunun yeni kitablarına cəm olan şeirlərdə elə həzin, kövrək duyğular sərgilənib ki, onların hansından başlayıb, hansına doğru söz açmağın öz çətinliyi var. “Birindən söz açsan, inciyər biri” səksəkəsi candan çəkilmir. Ona görə də “Eşqin qarlı yollarında”, “Dəniz, sən və mən” düşüncəsinə dalmağı münasib bilirik…

**Sərvaz**

*“Ədəbiyyat qəzeti”, 17 iyul 2009-cu il.*

## “EŞQIN QARLI YOLLARINDA”

Rafiq Yusifoğlu imzası Azərbaycan ədəbi cəmiyyətində tanınan, sayqı ilə yanaşılan və özünü təsdiq edən söz sahibinə aiddir.

Yaradıcılığı çoxşaxəli və həm də milli olan Rafiq Yusifoğlu özünün oxucu arenasını qazanmış, oxucu qəlbinə yol tapıb onu öz yanında saxlamağı bacaran şairlərimizdəndir. Bu mənada Əməkdar mədəniyyət işçisi və bir neçə mükafatların laureatı olan Rafiq Yusifoğlunun həm poeziyası, həm də elmi yaradıcılığı özünü heç yerdə dayanıb gözləmir, əksinə, onun sözünün, misrasının işığına yetərincə oxucu yığışa bilir. Sanki o, təkcə yazmır, həm də sözlə rəsm çəkir. Yəni oxucunu həm duyğulandırır, həm düşündürür, həm də tərənnüm etdiyi mövzunu göstərir.

Çiçəklər gülür
Yağış yağanda,
Bir səda qopur
Şimşək çaxanda:
Allahu Əkbər!
Allahu Əkbər!

Quşlar göylərə
Meydan oxuyur,
Yağış çiçəkdən
Xalı toxuyur
Allahu Əkbər!
Allahu Əkbər!

Qarşımda olan “Eşqin qarlı yollarında” kitabı “Allaha sarı gedən yol” bölümünün ilk şeiri bax bu cür başlayır. Kitabın redaktoru filoloq alim Məhərrəm Qasımlı bu kitabın oxucuya təqdim olunmasında nə qədər önəmli iş gördüyünü danmamaq şərti ilə bir həqiqəti də dilə gətirməyi özümüz üçün borc bilirəm. O da şeir müəllifinin peşəkarlığı, sözə sərraf dəqiqliyi ilə yanaşıb

seçməyi, misranın fikir yükünü tarazlamağı bacarmasıdır. Məhz buna görə də şairin hər bir misrasında, hər bir poetik fikrində düşünmək, görmək imkanı qazanmaq mümkündür. Məsələn:

Qara-qara buludlar
Boşalınca, dolunca,
Get çəməndən çiçək dər
Xəyallara dalınca.

Bir baxışla mat oldum,
Ürəyim çat-çat oldu,
Qara qaşlar çatıldı,
Döndü bir cüt qılınca.

Və yaxud:

Üstümüzü alıb bəla,
Xatirələr dönüb bala,
Qocalar gedib xəyala
Ömrü-günü xırdalayır.

Zəmimizdən başaq gəlib,
Gözümüzə işıq gəlib,
Körpəcə bir uşaq gəlib,
Sönən közü qurdalayır.

Bəli, bu nümunələr həm mövzu baxımından, həm də dil və üslub cəhətdən şairin oxucu ilə üzbəüz söhbətidir. Necə deyərlər, bu misraları oxuyanda adama elə gəlir ki, sən təkcə şeir oxumursan, həm də özün-özünlə söhbət edirsən.

Ümumiyyətlə, kitabın adından göründüyü kimi, ADPU nəşriyyatının nəfis şəkildə çap etdiyi bu kitabda şair oxucuya bütün mövzulardan söz çələngi bağlayıb və o çələngin hər çiçəyi də öz ətri, öz gözəlliyi ilə diqqəti çəkir. Məsələn, bu şeirdə olduğu kimi:

Unudub dünyanı, deyil özündə,
Sevdalı şairə bəxti yar olub.

Əllərim əlində, gözüm gözündə,
Dodağım üzündə bəxtiyar olub…

Üşüyən qəlbimin əridi buzu,
Arzular cücərdi yağan yağışla.
Tanrım, yalvarıram, günahımızı
Qəlbimzdə olan eşqə bağışla!

Bu gün oxuculara təqdim etdiyim bu kitab yəqin ki, çoxlarınız tərəfindən artıq oxunub və bu rəngarəng söz dünyasında eşqin qarlı və həm də sevgi dolu, məhəbbət dolu yolçuluq etmisiniz. Ona görə də Rafiq Yusifoğluna da eşq dolu uğurlar diləyirəm.

**Əbülfət Mədətoğlu**

*"Ədalət" qəzeti, 6 noyabr 2010*

## RAFİQ YUSİFOĞLUNUN KÖNÜL SƏLTƏNƏTİ

Məncə, Allah şairlərə təkcə yazmaq yox, həm də təkrar-təkrar doğulmaq istedadı verib... Şair hər yeni kitabı ilə dünyaya təzədən göz açır. Bu məntiqlə Rafiq Yusifoğlunun bir yaşı hələ tamam olmayıb. Çünki onun sonuncu şeir kitabı – "Könül səltənəti" "soba"dan bu il çıxıb. Sobadan deyirəm, ona görə ki, Rafiq müəllimin yaradıcılığında "çiy", "bişməmiş" söz tapmaq müşkül məsələdir. Rafiq müəllim yazıram... çünki əksəriyyətin "Göyərçin" jurnalının baş redaktoru, Əməkdar mədəniyyət işçisi, şair, ədəbiyyatşünas, tərcüməçi, elmlər doktoru, professor kimi tanıdığı Rafiq Yusifoğlu mənim üçün sadəcə Rafiq müəllimdir. Amma nə müəllimi? Sadəcə ədəbiyyatmı?

...Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistratura pilləsinə yeni daxil olduğumuz və qalibiyyət duyğusundan hələ ayılmadığımız vaxt idi. Özümüzü "balaca alim", professorlarla həmkar sandığımız bir dövrdə Rafiq müəllim elə ilk dərsi ilə

yumağa döndərmişdi bizi. Onun ruhu, aurası, biliyi, intellekti sanki hamımızı sehrləmişdi. Özümüzü universitetin yeməkxanasına çatdırıb rəngsiz və dadsız "tələbə çayı"ndan içə-içə müzakirələrə başlamışdıq. Hələ orta məktəbdən bələd olduğumuz mövzuların bu yeni təqdimatını anlaya bilmirdik elə bil. Amma çox keçmədən müəllimimizin sirri açılmışdı. Səbəb şairlik imiş. Rafiq müəllim şairliyini bir an belə unutmayan insandır. Sonralar onunla həmkar, iş yoldaşı da oldum. Və ani salamlaşmadan da, tələsik bir hal-əhvaldan da simasından yağan poeziyanı, gözlərindəki qafiyələri, təbəssümündəki metaforaları açıq-aydın gördüm.

Adama elə gəlir ki, o, "Axı mən şairəm!" düşüncəsiylə çağdaş dünyanın "yaşam qaydaları"nı pozur, özünü bəzi "zövq"lərdən məhrum edir... "İmtahan qabağı umacaqlar"ı yoxdur, vəzifədə olan qohumuna, varlı tələbə yoldaşına ağız açmır, intriqalara qoşulmur, paxıllara fikir vermir. Bəli... Rafiq müəllim şairliyi pak, müqəddəs sənət sayan və bunu hər zaman qorumağa çalışan sənətkardır. Lakin öz dünyasında yaşayan, bir az da göylərdə uçan xəyalpərəst təsiri bağışlayan şair reallıqdan, bu günün dərdlərindən uzaq deyil. Sadəcə onun nə düşündüyünü, nədən incidiyini, doğulduğu Qubadlının işğalına necə yandığını bilmək üçün şeirlərini oxumaq lazımdır.

50-dən çox kitab müəllifinin sonuncu "Könül səltənəti"ni vərəqləyəndə burada yer almış şeirlərin sadəcə İnsan haqqında olduğunu anladım. Müəllif kitab boyu müxtəlif obrazlarda görünür: yurduna həsrət qalmış vətənpərvər, nəvəsinin nazı ilə oynayan baba, gənclərin tərbiyəsindən şikayətli müəllim, sevgisindən incik aşiq, sevdalı qəlbinə məlhəm gəzən şair. Bütün bu obrazları birləşdirən ümumi cəhət isə səmimilikdir. Şeirləri oxuduqca şairlə "525-ci qəzet"dəki "Pərvinin həmsöhbəti" layihəsi çərçivəsində söhbətimizi xatırlayırdım. Azadlıq barədə sualıma Rafiq müəllim "İnsan İNSAN olduğunu dərk edirsə, azad ola bilməz. İnsan özü də təbiətin tərkibidir. Əgər günəş azad deyilsə, istədiyi yerdən batıb, istədiyi yerdən çıxa bilmirsə, dəniz azad deyilsə, qanad açıb dağın başına qalxa bilmirsə... insan necə azad

ola bilər?! Azad ancaq düşüncə ola bilər.” – deyə cavab vermişdi. “Könül səltənəti”ndəki şeirlər də məhz bu mövqedən yazılıb. Şairin düşüncəsi çox azaddır. Lakin o Allahın iradəsi ilə buza dönən Xəzərdən, yaxud taleyin acı hökmü ilə işğalda olan doğma torpağından yüksəkdə qoymur özünü. Öz sərbəst fikirlərini milli-mənəvi dəyərlərimizdən gələn qəliblərə salmaqdan çəkinmir:

Düşüncələrim ağrılarımı
bir az səngitdi,
bir az azaltdı.
Ürəyim də çərçivə içindədi,
Ancaq təpədən dırnağacan azaddı...

Rafiq Yusifoğlu sevməyi öyrədən şairdir. Özü də onun sevgisi birtərəfli deyil... O, körpələri düşünüb uşaq şeirləri yazır, çətin bir vaxtda “Göyərçin” jurnalını qoruyub saxlayır, yeniyetmələri primitiv xatirə dəftərləri səviyyəsində şeirlərdən xilas etmək üçün çağdaş sevgi mövzusunu əsərlərinə gətirir. Rafiq müəllimin yaratdığı Məcnun Füzulinin Məcnunu kimi safdı, pakdı, sevgisinə sadiqdi:

Dəli sevda dolanmırsa başında,
Sevmirsənsə, bu dünyada qəribsən.
Ulu tanrım, baş əyirəm qarşında, –
Mənə sevmək istedadı veribsən!

Lakin bu Məcnun Bodruma dincəlməyə gedir, dənizlə söhbət edir, sms yazır, darıxır, küsür, xəyanət görür, bağışlayır. Buna görə də müasir gəncliyin onun məhəbbət lirikasına meyli, pərəstişi təəccüb doğurmur. Yəqin elə bu səbəbdən Rafiq müəllim gizli kameraların hədəfinə ən çox tuş gələn şairlərdəndir. Dərslərində ağzından bir misra çıxdımı, tələbələrin mobil kameraları özündən xəbərsiz işə düşür... Elə biz özümüz də onu telefonlara çəkən “xəfiyyə”lərdən olmuşuq... Şübhəsiz ki,

gəncliyin sevgisini qazanan şairin əsl insan xarakteri də az rol oynamır. Alicənab və humanist müəllimi kim istəməz ki?! Amma məncə, əsas səbəb onun müasirliyidir. O, Füzulini dərk edən azsaylı adamlardandır, lakin cavanların favoriti Poulo Koeliyonun “Kimyagər”indən, yaxud Ronda Bernin “Sirr”indən də xəbərsiz deyil. Və bütün bu çoxtərəflilik onun poeziyasında özünü göstərir. Sonuncu, “Könül səltənəti” kitabına daxil edilmiş, Çin, Koreya, gürcü, rus şairlərindən tərcümələri də deyilən fikri bir daha təsdiqləyir.

İstər bu, istərsə də əvvəlki kitablarındakı məhəbbət lirikasına baş vurarkən insanda yaranan ilk sual bu olur: dərdlərin ən ağırını, itkilərin ən dözülməzini yaşayan adam bunları necə yaza bilir? Sualımı ürəyimdə saxlamayıb müsahibə zamanı həmsöhbətimə ünvanlamışdım. Sakit və təvazökar şəkildə cavab vermişdi ki, “Şeirlərimlə ətraflı tanış olanlar bunlarda böyük ağrı olduğunu hər zaman vurğulayırlar. Bu da əsasən, torpaqlarımızın itkisindən yaranan ağrıdır... 1993-cü ilin avqust ayının 31-də doğulduğum Qubadlı torpağı düşmən tapdağı altına keçib. Həmin ayın 19-da mən ordaydım. Sonralar bu əzabları içimdə çəkən bir adam kimi fikirləşirdim, daha heç vaxt sevgi şeiri yazmaram. Lakin vaxt keçdikcə anladım ki, həyat davam edir və oxucunun istədiyini yazmaq lazımdır.”

Məhz “içində çəkən”... Elə həmin söhbətimizdən sonra Rafiq müəllimin ictimai lirikasına, vətənpərvərlik, Qarabağ mövzusunda yazılmış şeirlərinə nəzər saldım. Onun bu qəbildən olan əsərləri də özünə bənzəyir. Bunlar kürsüdən qışqırmaq, pafoslu bəyanatlar vermək üçün qələmə alınmayıb. Sanki şair dərdini daxilindəki ürək laboratoriyasında cilalayır, özünə yaraşan səmimi şəkildə, təmkinlə üzə çıxarır:

Durub Araz sahilində
Hey baxıram yana-yana.
Kölgəm məndən qeyrətlidi,
Sərhəddən keçib o yana...

Yaxud "Doğulduğum kənd" şeirində:

Çayam, mənbəyimdən gərək güc alım,
Gec-tez bu həsrətin buzu əriyər.
Mən axıb getdikcə fikrim, xəyalım,
Dönər balıqlara, üzər geriyə...

Rafiq Yusifoğlu poeziyasının orijinallığı, bənzərsiz qafiyə sistemi, ənənəvi mövzulara fərqli yanaşması, bədii təsvir və ifadə vasitələrindən ustalıqla istifadəsi öz tədqiqatını gözləyən ayrıca bir elmdir. Bu mənada onun Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsində dərs deməsi məni xeyli nikbinləşdirir. Əminəm ki, zaman keçdikcə Rafiq müəllimin tələbələri içərisindən onun tənqidçiləri yetişəcəkdir.

Rafiq Yusifoğlu haqqında hər zaman danışılası, əsərləri tədqiq olunası şairdir, alimdir. Onun "Könül səltənəti" kitabı məndən ötrü sadəcə bir bəhanə oldu...

**PƏRVİN**

*525-ci qəzet.- 2012.- 3 noyabr.- S.25.*

## Yazıçı və publisist Pərvinə məktub

Hörmətli Pərvin, qələmindən çıxan yazıları ilk dəfə nə vaxt oxuduğum yadımda olmasa da, iki cəhət yaxşı yadımdadır. Böyük qızımın adını daşımağın və təfəkkürün. "525-ci qəzet"in daimi abunəçisi olduğum üçün yazılarını izləyə bilirəm. Yazılarından hasil etdiyim qənaətlər qədərincədir. Hər şeydən əvvəl, sənin təvazökarlığın, müşahidə qabiliyyətin, dünyagörüşün, ədəbiyyatımız və ədəbiyyatşünaslıq elmimizə bələdliyin, yeni söz demək qabiliyyətin, ən mühümü təfəkkürün məni razı salır.

Qəzetinizin bitgin bir əsərə bənzər sayında (3.XI.12) yer alan "Rafiq Yusifoğlunun könül səltənəti" məqalən istisna təşkil

etmədi. Mən yaşda olan adamlar bütün yazıları başdan ayağa oxumurlar. Buna ömür də çatmaz. Bir də ki, dəniz suyunun duzlu olduğunu bilmək üçün bir damcı kifayət edir. Sənin bu yazını iki dəfə, özü də diqqətlə oxudum və çox da sevindim. Əvvəla, ədəbiyyatımıza dair biliklərinin haradan qaynaqlandığı mənə məlum oldu. Filoloq olduğun, hətta Azərbaycan Dövlət Pedaqoji Universitetində magistratura pilləsini bitirdiyin (şübhəm yoxdur ki, əla qiymətlərlə) məni daha da sevindirdi. Bu əsassız deyildir. Nə yaxşı ki, mətbuatda xalqımıza, ədəbiyyatımıza vicdanla xidmət edən sənin kimi qələm sahiblərimiz vardır. Xalq yazıçısı Elçinin "səviyyəsiz mətbuat, səviyyəsiz də oxucu yetişdirir" kəlamı böyük həqiqətlərdən söz açır. Məlumdur ki, mətbuat azadlığı və ölkədə bərqərar olan demokratiyadan istifadə edərək indi kimin əlinə qələm keçir, qəzet və ya jurnal buraxır.

Qloballaşmanın qlobal təzadları ilə aləmə meydan oxuduğu, ciddi mənəvi aşınmalara gətirib çıxardığı, Xalq şairi Sabir Rüstəmxanlının doğru olaraq qeyd etdiyi kimi, mətbuatda qeyri-peşəkarlığın tüğyan elədiyi, sözün ucuzlaşdığı, özünü və sözünü bilməyənlərin jurnalistlik iddiası ilə ortaya çıxdığı bir zamanda sizin kimi fədakar jurnalistlərə böyük ehtiyacımız vardır.

Pərvin, qızım, "Rafiq Yusifoğlunun könül səltənəti" adlı məqaləni bir şeir kitabına rəy kimi qiymətləndirmək ən azı insafsızlıq olardı. Bu məqalədə söz açılacaq çox mətləblər vardır.

Ədəbiyyatşünas alim, professor, şair Rafiq Yusifoglunun portretini çox ustalıqla yaratmısan. Rafiq müəllim doktorluq dissertasiyasını mənim 1994-cü ildən üzv olduğum Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasında müdafiə etdi. Təsdiqini alan kimi onu şuramıza üzv seçdik. Bu faktın özü onun ədəbiyyatşünaslıq sahəsində həqiqi nüfuza malik olduğundan xəbər verir. Rafiq müəllim səmimi və xeyirxah insan, tanınmış şairdir. Sən haqlısan, doğrudan da, qafiyə sistemi və ənənəvi mövzulara fərqli yanaşma tərzi, bədii təsvir və ifadə vasitələrindən ustalıqla istifadəsi Rafiq Yusifoğlunun poeziyasının orijinallığını təmin edir.

Hörmətli Pərvin, sən öz dəst-xəttinlə yaşıdların arasında seçilən yazıçı və zamanın tələbini duyan jurnalistsən. Hiss olunur ki, daim öz üzərində işləyirsən. Yazılarında heç vaxt özünü təkrar etməməyin mənə bu qənaətə gəlməyə imkan verir.

Yadındadırsa bir dəfə Yazıçılar Birliyində sənin hədəfə düz dəyən dərin mənalı və məzmunlu çıxışından sonra söz alıb bəyan etdim ki, "525-ci qəzet"in ən arzuolunan, ən çox oxunan qəzetlər sırasında olmasında sənin də zəhmətin və halalca payın vardır. Qəzetinizin redaktoru sənin haqqında ürəkaçan sözlər dedi və bizi məmnun etdi. Həmişə belə təriflərə layiq olasan. Heç vaxt insan əskildən şöhrət xəstəliyinə mübtəla olmayasan.

Yaradıcılığına dərin hörmət bəsləyən, sənə yeni-yeni uğurlar diləyən

**Qəzənfər Paşayev, professor**

4.XI.12

*«525-ci qəzet», 9 noyabr 2012*

## "KÖNÜL SƏLTƏNƏTİ"NDƏ İNSAN ZƏRURƏTİ

Ədəbiyyat və milli məfkurə meyarının öyrənilməsi, onun tədqiqinə maraq milli ədəbiyyatımız üçün xüsusi bir dinamizm kəsb etməkdədir. Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor, görkəmli şair, ədəbiyyatşünas Rafiq Yusifoğlunun yaradıcılığını şərtləndirən qiymətli əsərləri son illər sözügedən dinamizmin parlaq təzahürlərindən sayılır. Onun 2012-ci ildə işıq üzü görmüş "Könül səltənəti" kitabını da bu dinamizmin əsas istinad nöqtəsi kimi qəbul edirik.

Zənnimizcə, yaradıcı şəxs pünhan məcraların içində onu sıxan səssizliyə uyğun cavab tapırsa, bu prosesi məntiqi olaraq dərk edir. Şübhəsiz, Rafiq Yusifoğlu "Könül səltənəti" kitabında pünhan məcraları açıq qatlarda distillə edib, həm də bunu məntiqi olaraq qavramaq üçün mahiyyəti əsas meyar seçib. Buna görə

kitabda ictimai-həyati səciyyə oxucuya tam surətdə təqdim olunub; bu proses həm də dəqiq bir neçə nöqteyi-nəzərlə bağlı müəllifin özünün bədii-metodoloji konsepsiyasını müəyyən edib. Bu səbəbə, kitabı müəllifin həyatla və özü ilə dialektik qarşılıqlı əlaqəsi hesab edirik.

"Könül səltənəti" emosiyalı kitabdır. Kitabda şəxsiyyət əsas aparıcı xətdir. Yəni, Rafiq müəllim yeni kitabında rekonstruktiv meyarlı həyati səciyyəni şəxsiyyət fonunda səciyyələndirib. Məhz bu baxımdan, kitabda konstruktiv həyat ampulası insan zehniyyətinin əsas məğzi kimi təqdim edilib.

Kitabda həmçinin tipoloji təsnifat bədii kontekst kimi səciyyələnir. Bu ölçü və meyara ən çox da müəllifin ictimai xarakterli şeirlərində xüsusi rast gəlirik.

Ürəyimi tərk eləmir
Qəfil bir səfər istəyi.
Bu dünyada darıxırıq,
Hamımız səfər üstəyik…

Bu dörd sətirdə idealizm fikri baxımdan mənəvi-əxlaqi problemlərin başlıca məsələ olduğunu geniş xarakterizə edir, ictimai hadisələrin qarışıq fonda sistemləşdiyini bildirir. "Könül səltənəti" bu amil – predmeti bir neçə xətt vasitəsilə özündə birləşdirir. Bu predmetlərdən biri qabarıq (qapalı) fəlsəfi-sosial mahiyyətdə təzahür edən ictimai-sosial münasibətlərdir. Doğrudan da, olumla ölüm arasında qəfil – pünhan bir səfər istəyi baş verir və bu proses dünya düzəni üçün hər zaman təzədir. Şairin "Var" şeiri sanki bu məqsədə imza atır:

Yaxşı ki, duyumlu insanlar çoxdur,
Sözün xiridarı, şeirin acı var.
Ömür yollarında tufan, qasırğa,
Ömür yollarında ağrı-acı var.

Və buna bənzər bir neçə şeirdə şair həyatın ictimai-bədii xüsusiyyətlərini aydın şəkildə xarakterizə edir.

Bir qoca baxır güzgüdən,
Oxuyuram hər cizgidən:
Özüm varamsa, özgədən
Çətin ki, dayaq istəyəm…

Sonrakı bəndin axırında "…Kərəminə şükür, Tanrım, Hələ ki, ayaq üstəyəm" deməklə şair oxucunu çox asanlıqla "Könül səltənəti" kitabının spesifikasına, yəni, ardıcıl ölçülər aləminə çəkə bilir və anlayışlı oxucu bu kitabda çılğın, mübariz bir insanın – bir şairin ürək çırpıntılarını, bu çırpıntıların sistem parametrlərini aydın görür.

"Könül səltənəti"ndə bədii hissin izharı üçün ideal fitri zəmin var. Bildiyimiz kimi, insanın özü və ətrafındakılarla rabitəsi həyatın əsas istiqamətləridir. Kitabda bu əlaqəni bədii söz sistemləşdirir; o söz ki ruhi, mənəvi təkamül üçün rəmzi bir açardır. Müəllifin kövrək (əslində çılğın) qəlbinin pıçıltıları ilahi rəhmət və bərəkətdən qaynaq götürür. Buna görə o, yeni kitabında oxucuya təslimçilik əhvali-ruhiyyəsi aşılamır. Əksinə, onlara zehni düşüncəni islah etməyin, həmçinin, pis əxlaqi fərdlərlə izdivacdan çəkinməyin yolunu göstərir.

Bilirik ki, insanlığın təsnifi məsələləri, tədqiqi, tarixi əsasları, insan-cəmiyyət münasibətləri və s. Azərbaycan şeirində diqqət çəkən əsas amillərdəndir. Etiraf edək ki, istedadlı şair Rafiq Yusifoğlunun da yaradıcılığının, belə deyək, əsas strukturu bu meyarlardır. Onun yeni kitabında həyati məziyyətlər şüurlarda keçid yaradır və kitabın ictimai fitrətindəki mərhəmət hissi mülayim bir önəmdə oxucunu haqlayır.

Kitabda eyhamlı, bir neçə məqamlı və bir neçə qatlı fikirlər də çoxluq təşkil edir. Diqqət yetirək:

Seldən maya tutan çayın
Dibinin daşı bilinməz…
***
Başımızın üstündən
Əskik olmur çaşqınlıq dumanı.
İmanı olanın pulu yoxdu,
Pulu olanın imanı.
***
Təzə sevda ilə
Atlanırsa döşün,
Düşün, düşün…
***
Hər şeyin qaydası var,
Bu işi az qurdala.
Haqqı tapdanan quzu,
Qəzəblənib qurd olar.
***
Adam adama dirənib,
Maşın maşina.
Getmək müşkül məsələdi
küçənin o başına.
Hamımız düşmüşük
harasa getmək həvəsindən…

Bu fikirlərdə həqiqət zamansızlığa keçid edən bir meyar olaraq özünün praqmatik cəhətlərini dinamik tarazlığa istiqamətləndirir, fikrin poetik predmeti semantik mahiyyət kimi özünü aydın göstərir. Bu da qarışıq ziddiyyət üçün bir növ yeni etapın yaranmasına təkan verir. Bu kodeks bədii çevrə kimi kitabda özünü tamlığı ilə qabardır.

Kitabda fərqli bir məkan da görürük və hər iki cəhətdə insanlıq bir az oxşar, bir az da fərqli yanaşmada aşkara çıxır. Həmçinin bu konsepsiya paralel xətlər üzərində öz əlamətlərini büruzə verir. Hansı ki, məsləhət və məşvərətin vacib məsələ olmasını bir çox cəmiyyətlər hələ bilmədiyi halda, Azərbaycan ədəbiyyatında bu konsepsiya öz spesifik xüsusiyyətlərini zaman-

zaman göstərə bilmişdir. Elə Rafiq müəllimin "Könül səltənəti"ndə də məsləhətlə məşvərətin poetik zəmini fikri proseslərin ən üstün tərəfidir.

"Könül səltənəti" dövrün bəzi əzəli həqiqətlərinin bədii inikasını özündə əks etdirir. Müəllif bu kitabda hadisələrin və iztirabların təkamül yolunu zərgər dəqiqliyi ilə izləyib, həyatın, yaşanılmış məşəqqətli anların real təsvirini ustalıqla verib. Onun fikirlərinin ideya-bədii xüsusiyyətləri, obraz və yazı motivləri o qədər canlıdır ki, görkəmli şairin poetik düşüncələrinə, sətiraltı mənalarına, məntiqinin poetik dəqiqliyinə heyran kəsilirik.

Vecinə almırsan dumanı, çəni,
Xəyalın kimisə qucar arabir.
Bəzən yadına da düşmürəm sənin,
Fikrin uzaqlara uçar arabir.

***

Getmə deməyəcəm, əs külək kimi,
Dəyişməz bir quru söz taleyini.
Uç, uç, buludları yar şimşək kimi,
Ağası özün ol öz taleyinin.

Maraqlıdır ki, Rafiq Yusifoğlu ictimai-fəlsəfi məqam üzrə ayrı, güclü bir gediş edib; insanı yeni kitabında dünyanın əyyarı – saflıq dərəcəsi, həm də əyyar olaraq (təbii ki, saf insanları) doğru-dürüst – hiyləgərlikdən, kələkbazlıqdan uzaq bir fərd kimi təqdim edib. Burada əsas diqqət çəkən odur ki, o, insana mərd demir, onu saf təlimlərə mübtəda etməklə mərd insan vəziyyətinə gətirib çıxarır. Qoca Parmenidin bir vaxtlar dediyi "İnsan hər şeyin meyarıdır" fikri də buna əsas verir.

Və zənnimizcə Rafiq Yusifoğlunu əsas etibarilə hadisənin, mövzunun mahiyyəti maraqlandırır. Çünki həyat və yaşam özü də məhz hadisələrin mahiyyət qatında təzahür edir. O, özünə-məxsusluqla fikirlərində oxucu düşüncəsinin poetik tərzini verir. Onun "Könül səltənəti"ndə insanlıq mənəvi baxımdan yaradıcı

həqiqətin izharı üçün zəmin yaradan səbəbdir. Müəllif yeni kitabına yerləşdirdiyi materialların çoxunda yaşadığı maddi dünyanın psixoloji konkretləşmə faktorunu insan-fərd timsalında verməklə, həm də dünyanın-həyatın təkcə zahiri aktuallığını deyil, daha çox milli-bəşəri mahiyyətini qabartmışdır. Bu səbəbə "Könül səltənəti"ndəki hadisə və tendensiyalı sistematika məhdud çərçivədən aşıb keçir.

Hər bir fikrin ekstrapolyasiyası (bir haldan digər hala köçürülmə) o fikrin eyni zamanda genetik kodudur. Gələcəyi mümkün variantda təsvir etmək bir prinsip olaraq yığcam fikir və ifadələrdə çox hallarda ehtimallıqdan çıxır, konkret məna kəsb edir. Lakin Rafiq müəllimin yığcam fikir və ifadələri gələcək haqqında konkret, müfəssəl reseptlər vermək iddiası güdmür, əksinə, real həyatın, tarixi prosesin bədii-fəlsəfi təhlilinə əsaslanır. Məhz bu səbəbdən deyə bilərik ki, onun yaradıcılığı irrasional və uydurma dəyərlərdən uzaqdır, duyğularında müti (konformist) davranış yoxdur. İstedadlı şair oxucunu ekzistensial vakuum boşluğundan çıxarır, həyati dəyərləri ümumi təsinifatda mütləq bir istiqamətə yönəldir, nəhayət, hadisələri mücərrəddən (abstraksiyadan) konkret yüksəlməyə qaldırır.

Tam səmimi deyə bilərik ki, "Könül səltənəti" kitabında müəllifin fikrən yanılması faktlarına rast gəlmirik. Onun fikir müstəvisində predmetik məzmun, diferensial səpki və emprik səviyyə aydın nəzərə çarpır. Bu, onun başqa kitablarında da fikir sisteminin bədii dayanıqlığının güclü olduğuna işarədir.

"Könül səltənəti"nin bədii-estetik mahiyyəti, mövzu aləmi, ideya-məzmun xüsusiyyətləri qabarıq şəkildədir. Bu kitabda, dediyimiz kimi, əsas olaraq milli kolorit, müasir ab-hava, əxlaqi-tərbiyəvi motiv, yığcam süjet daxilində dərin mətləblərə nüfuz, mənəvi aləmə enmə, real həyati canlandırma və s. oxucu diqqətini çəkir. Bu da müəllifin özünəməxsusluğunun xarakterik göstəricisidir.

Qəlbinin, doğrudan da,
mənə ehtiyacı varsa,

çağır gəlim.
Ancaq borcunu
sevgi ilə ödəmək istəməyin
mənə ağır gəlir…

***

Zərrəcə taqətim yoxdu
hər gecə ah eləməyə.
Başqa çarəmiz qalmayıb,
Gedək günah eləməyə.

Ömrün intiharı insanlığın ərimə dərəcəsidir. Bu, bütövlükdə bəşərin faciə düsturudur. Rafiq müəllim əksər şeirlərində bu düsturun isbatını verib. Və bilirik ki, münasibətsizlik də bir növ, elə ictimai aspektdə dünyanı dərketmə zərurətidir. Rafiq müəllimin fikrincə, bu proses özündə həyati-fəlsəfi uyarlıq, çoxçeşidli, bir neçə qatlı zamansızlıq da ehtiva edir. Elə "Könül səltənəti" kitabının da əsas süjet xətti bu dinamizmə yaradıcı yanaşma ilə təzahür edir.

Gerçək reallıqda təzahür edən səbəb və nəticə milyon illərdir insan qövmünün fikirlərini hansı qarışıq formanın təsirindənsə dağıdır. Fikri dağınıq insan gerçək səbəbdə real nəticə görmür. Bu iki əks qütblü sistem barədə çox deyilib, çox yazılıb. Rafiq Yusifoğlunun "Könül səltənəti" bəhs olunan məsələdə daha adekvat məntiq ortaya qoyur. Doğrudan da, kitabda qeyri-məntiqi tələb yoxdur (bilirik ki, qeyri-məntiqi tələblər ixtilaf və narazılıq yaradır). Müəllif bu kontekstdə məqam üzrə fikir sistemləşdirir və xüsusi ideala üz çevirir, həmçinin, iki istiqamətli amillərlə ardıcıl, geniş təmas qurur.

Ya bu intəhasız
giley-güzarını
tərgitməlisən,
ya da məni biryolluq
tərk etməlisən.

***

Mən kimə bel bağladımsa,
Ümidim getdi havayı.
Heç kəsə etibar yoxdu
Ulu Allahdan savayı.

Qarışıq hissiyyatlara modem yanaşma nümunə gətirdiyimiz hər bir parçada aydın təzahür edir. Əslində, Rafiq müəllim demək istəyir ki, yad təsirlərdən başqalaşmış mühitlərdə ciddi təsirlərə məruz qalma halları labüddür. Cəhalət və fanatizmin əsiri olanlar bu süstlükdən sui-istifadə etməklə duyğuları bir-birinə qarşı qoymaq üçün hər an yollar arayırlar. Və sevindiricidir ki, Rafiq müəllimin təsir əhatəsinə çəkdiyi oxucu sülhə baxış sərgiləyən insandır; onu heç bir səbəb çaşqınlığa düçar edə bilmir, o, zamansızlıq girdabına düşərək zavallı mühitə qarşı çıxmır. Və ən əsası, Rafiq müəllimin oxucusu bu mühiti qavrayır.

Kitabdakı bir neçə şeirdə "vaxt" məfhumu da obrazlı şəkildə özünüdərkə yönəldilir… Müəllif çılğın hisslərə aludə olan insanların şəxsində sistematik formanın daşıyıcıları olmayan obrazları bir qədər fərqli şəkildə fərdiləşdirir. Onun üçün qeyri-idraki proses həyati amillər kateqoriyası deyil. Və həyatın psixikasını öyrənmək üçün Rafiq Yusifoğlunun epik-lirik duyğularına köməklik kifayət edər…

Ümumiyyətlə, müasir dövrün təlatümü, mənəvi-əxlaqi tərbiyə, nəcib insani münasibətlər Rafiq müəllimin düşüncələrini konkret meyarlarla əsaslandıran görüntülərdir. Bu görüntülərdə real həyat həqiqətləri, həyat prosesindəki tipiklik və qanunauyğunluq özünü göstərir. Əsas odur ki, o, nəzəri fikirlə ədəbi prosesi eyni ölçüdə saxlamağı bacarır. Bununla da müasir dövrün şairi olduğunu təsdiqləyir.

"Könül səltənəti" kitabında qaldırılan problem (torpaq dərdi, haqsızlıq, özbaşınalıq, xəyanət, xaos və qarşıdurma) mühüm ictimai-siyasi problemdir və bu problem hadisəyə çevrilərək təkcə bir xətt boyunca hərəkət etmir, həm də müəyyən dərəcədə daha

geniş məkan miqyasına çıxır. Müəllif bu timsalda eqoizm, şəxsi mənfəət və ehtikarçılıq meyllərinə qurşanan insanları bir neçə şeirində obrazlı şəkildə verməklə, onları Azərbaycan oxucusuna bir daha tanıdır.

Həmçinin, müəllif öz traktovkası nəticəsində həyati məsələlərə müasirlik verir, öz ləyaqətini və vüqarını hər şeydən uca tutan qəhrəmanlarını (məzlum xalq, işğal olunmuş torpaqlar, zəbt edilmiş ürəklər və s.) çətinliklərə salsa da, sonda onları möhkəm iradə sahibi edir. O, bədii fikrin spesifikasını, həyatdakı mənfi keyfiyyətləri belə bədii tədqiq yolu ilə sıralayır, hadisələrin ictimai kəsərinə daha çox diqqət yetirir.

"Könül səltənəti"nin mövzu dairəsi genişdir. Kitabda füsünkar təbiətin, saf məhəbbətin, təzad dolu dünyanın da orijinal tərənnümünü görürük.

Rafiq Yusifoğlu ədəbiyyatımızın keşiyində dayanan görkəmli bir qələm sahibi kimi son illər ədəbi atmosferdə bir-birindən fərqli müstəvidə bədii-fəlsəfi etap yaradır və bu etapı birinci olaraq məhz özü keçir. Bu xüsusda onun tam bişmiş, yetişmiş kövrək yaradıcılığını, elə "Könül səltənəti"ni də konkret nəticə və məqamlara inkişafa istiqamətlənən yaradıcılıq kimi qəbul edirik.

Rafiq Yusifoğlu o şairlərdəndir ki, şeirin məlum xüsusiyyətlərini deyil, qeyri-məlum təfərrüatlarını, predmet və poetik məna çalarlarını oxucuya göstərir. Elə buna görə də onun "Könül səltənəti" ictimai dəyər və məna siqləti, keyfiyyət yerdəyişməsi ilə diqqəti cəlb edir. Görkəmli şairin yeni kitabında keyfiyyət yerdəyişməsini bütün şeirlərdə görürük. Çox istərdik ki, bu kitabdakı şeirlərin yenilikçi (novator) mahiyyəti obyektiv qiymətləndirilsin. Ən azından, ona görə ki, kitab quru formalizmdən uzaqdır, burada süni pafos və bəsit ahəngdarlıq yox, poetik təfəkkür, yüksək bədii hiss, müasir ənənəvi fikir-düşüncə əsas göstəricidir. Və ən ümdəsi, kitabda müəllifin seçdiyi mövzuya – bədii materiala baxış və metodoloji yanaşma fərqlidir.

"Könül səltənəti" gündəlik həyatımızda çap olunan nəfis tərtibatlı kitablardan biridir və bu kitab müəllifin ədəbi-bədii

düşüncə tərzi barədə ürəklə söz deməyə imkan verir. Onun poetik cəsarətini, hadisələrə obyektiv yanaşmasını, açıq gözlə baxmasını xüsusilə qeyd etmək lazımdır.

Sevindiricidir ki, ədəbiyyatımızda və poeziyamızda bir Rafiq Yusifoğlu yolu da var. Bu yolu biz tanıyırıq, əminəm ki, gələcək nəsillər də tanıyacaq.

"Könül səltənəti"niz mübarək, Rafiq müəllim!

**Hikmət MƏLİKZADƏ**

*"Yeni liqa" qəzeti, 08-15 noyabr 2012-ci il.*

## XOŞBƏXTLİYİNİ ETİRAF EDƏN ŞAİR

"Könül səltənəti" kitabı barəsində düşüncələrim

Öncə ordan başlayım ki, Azərbaycanın tanınmış söz adamları sırasında özünəməxsus yeri olan Rafiq Yusifoğlu poeziya dünyamızda öz imzasını kifayət qədər sevdirə bilib. Yəni bu imza istər elmi araşdırmalarda, istər poeziya axarında, istər nəğmələrdə, istərsə də baş redaktoru olduğu "Göyərçin" jurnalında oxucular tərəfindən gözlənilir, axtarılır, izlənilir.

Uzun illərdən bəri şəxsən tanıdığım və yaradıcılığının böyük bir hissəsi ilə şəxsən ünsiyyət qurduğum, baş-başa qaldığım Rafiq Yusifoğlu bir söz adamı kimi özü həmişə arxa planda dayanır. Bir addım sözündən geridə dayanıb, sözünü oxucuya təqdimatsız təqdim edən Rafiq Yusifoğlu birmənalı olaraq başını aşağı salıb öz dünyası ilə, öz qələmi ilə yol yoldaşlığı edir. Onun dünyasının qapısı da, pəncərəsi də, yolu-yolağası da sözdü, qapı-pəncərəsi də, elə o dünyanın işığı da, sərhədləri də. Mən Rafiq Yusifoğlunu tanıdığım, mütaliə etdiyim gündən bəri özüm üçün müəyyənləşdirmişəm ki, Rafiq Yusifoğlu sözdən uzaqda yaşaya bilmir. Onun nəfəsi də sözdü, qidası da sözdü, bütövlükdə sözdən

yoğrulub Rafiq Yusifoğlu. Görünür, bu qənaətində yanılmadığını sübut etmək üçün Rafiq Yusifoğlu yazıb bu şeiri:

Ağlayıb gülürəmsə,
xoşbəxtəm, Allahım!
Kiminsə xoşuna gəlirəmsə,
xoşbəxtəm, Allahım!
Sənin yaratdıqlarını
sevə bilirəmsə,
xoşbəxtəm, Allahım!

Doğrudan da, belə dərindən düşünəndə, məhz bu şeirin içərisinə girəndə xoşbəxtliyi hər kəsin öz ovcunun içində görməmək, ona sahib çıxmamaq adama bir az qəribə gəlir. Yəni qarşında olan xoşbəxtliyi doğrudanmı görə bilmirsən? Axı xoşbəxtlik üçün çox adi, çox elementar şeylər gərəkdir. Taxt, tac, villa, pul-para, şöhrət, mənsəb yox, məhz Rafiqin dedikləri gərəkdi insana xoşbəxt olsun. Yəni ağlayıb gülə bilsin, sevə bilsin, düşünə bilsin, duya bilsin və bir də kiminsə xoşuna gələ bilsin. Zənnimcə, bu, şairin xoşbəxtlik barəsindəki konkret bir riyazi düsturudur. Mən bu düsturu alqışlayıram.

Rafiq Yusifoğlu məhz o düsturdan çıxış edərək təbiətə də heyranlığını, sevgisini çox rahatlıqla ifadə edib. İstər gül bayramı olsun, istər lalə dənizi, istər Bakının küləkləri, meşələr, ormanlar, fərqi yoxdur. Bunların hamısına şair həmin düsturdan yanaşır və yazır:

Meşəyə heyrətlə baxıram,-
Meyvə ağacları kimi
çiçəkləyib içim də...
Bəbəklərim
bahar buludlarına
bənzəyir, -
Bir leysan uyuyur
içimdə...
Ürəyim səksəkədə,

gözlərimsə
uzaqlara baxır...
Meşəyə bahar,
qəlbimə isə
həsrət yağışları yağır...

Bəli, doğrudan da, dünyaya içindəki sevgidən baxa bilsən, onun sirlərinə də yol tapa bilərsən. Özünə də, hətta sirlərindən agah olduğun, yaşadığın bu dünya səni öz gözəlliyi ilə, öz sehrləri ilə dərddən-qəmdən çəkib qopara bilər. Təəssüf ki, biz bəzən bunun fərqinə varmırıq. Eləcə dərdin, qəmin yaxasından yapışıb ancaq onun izlərini ömrümüzdən silməyə cəhd göstəririk. Belə olan halda isə ömrün qayğılar içərisində necə keçdiyindən bəzən xəbərimiz də olmur. Xəbər tutanda isə... Rafiq Yusifoğlu yazır:

Qoymadı
səpdiklərim bitə,-
ələndi qar şuma...
Ürəyin böyük sevgiyə
hazır deyildisə,
Niyə çıxdın qarşıma?

Doğrudan da, sevgi adlı uzun, ağrılı-acılı, oddan-alovdan keçən yola hazırlıqsız çıxmaq nə deməkdir? Ümumiyyətlə, bu kimə lazımdır? Zənnimcə, sevənlərə gərək deyil. Heç onlar bunun izinə də düşmürlər. Olsa-olsa sevgini əyləncə sayanlara, sevgi ilə oynayanlara gərək ola bilər. Olsun. Bəs son? Sonda dörd divar arasında qalmaq, atılmaq, sınmaq necə bəs? Onu göz önünə alırsınızmı?..

Mən Rafiq Yusifoğlunun üç fəsildən ibarət olan kitabını oxuduqca yuxarıda vurğuladığım sualların cavabları ilə hər misrada qarşılaşdım. Mənə elə gəldi ki, Rafiq təkcə yaşadıqlarını, duyduqlarını yox, həm də özündən bir addım qabaqda olan sözünün diqtəsi ilə tablo çəkir. Bu tabloların hər birində məhz yaşamın,

yaşanacaqların cizgiləri üzümüzə gülümsəyir. Bu təbəssüm həm də bir işıqdı.

Elə bil ki, asılıb
Qəlbim göy qurşağından.
Yol gedirəm gecələr
Sevgimin işığında.
Həsrət nuru bərq vurur
Damlasında yağışın.
İçimi nurlandırır
Onun bircə baxışı...

Və yaxud:

Daha sevinc boylanacaq gözündən,
Əzabların baş götürüb gedəcək.
Mənli dünya səni aldı özündən,
Mənsiz dünya səni xoşbəxt edəcək...

Və yaxud:

Dərdin əlləri var sənin yaxanda
Gözlərin önündən duman, çən keçir.
Tanrı dərgahından yerə baxanda
Səni xoşbəxt görmək könlümdən keçir...

Zənnimcə, son dərəcə səmimi hisslərin, etirafların işığında ancaq sevməyi, sevilməyi düşünmək dünyanı başdan-başa işıqda görmək mümkündür. Çünki şair bütün varlığı ilə öz ürəyini alovlandırır, öz varlığını da o alova bükür və sərgiləyir oxucunun qarşısında. Əslində Rafiq Yusifoğlunun sözü budur, poeziyası budur! Özü də vurğulayır ki, başqasının sevincinə sevinməyən tənhalığa məhkumdur. Rafiq həmin fikri poetik olaraq belə misralayır:

Təkcə özünü düşünən
Cücərə bilməyən

çürük tumdu.
Heç kəsin sevincinə
şərik olmayan
tənhalığa məhkumdu...

Bəli, mən Rafiq Yusifoğlunun poeziyasında böyük etiraflarla da üz-üzə gəldim. Həmin etirafların hər biri də şairin özünün özündən sorğusudu, özünün özünə diqtəsi, özünün özündən cavab umması, özünün özü ilə bir növ haqq-hesab çəkməsidi. Bax, bu şeirdə olduğu kimi:

Mən ki, sənə heç zaman
əziz olmamışam,
indi bu nə umu,
bu nə küsüdü?
Gizli yazışmaların
sənin qəlbinin güzgüsüdü...

“Könül səltənəti”ni oxuduqca Rafiq Yusifoğlu poeziyasının könlümə hakim olduğunu bir daha hiss etdim. Və birmənalı olaraq duydum ki, söz qələmlə ürək arasında körpüdü. Ürəkdən qələmə, qələmdən kağıza, kağızdan isə təkrar oxucu könlünə qayıda bilən söz yaşayan sözdü. R. Yusifoğlu yaşayan sözün sahibidir.

Mən bu kiçik qeydlərimi elə onun öz misraları ilə yekunlaşdırıram. Düşünürəm ki, bu misralar qələm dostum barəsində söylədiyim fikirlərin daha bir sübutu olacaq:

Məni dinc durmağa qoymur ürəyim,
Qaynar ocaqların közü məndədir.
Bu gözəl dünyadan doymur ürəyim,
Elə dünyanın da gözü məndədir...

**Əbülfət MƏDƏTOĞLU**

*“Ədalət” qəzeti, 30 yanvar 2013-cü il*

# Yaşamaq necə də gözəldi

*İlahi, yaşamaq necə gözəldi,*
*İlahi, möhlət ver baxıb kam alaq!*
***Rafiq Yusifoğlu***

Xoş o şəxsin halına ki, Allahın ona bəxş etdiyi ən böyük neməti – yaşamaq səadətini duyur və qiymətləndirir. Yaşamaq səadətinin qədrini insan yəqin ki, onu itirən anında anlayır və çox təəssüf ki, zamanı geriyə qaytarmaq mümkün olmur. Halbuki bu dünyada yaşamağın qiyməti hər bir insan üçün səhrada istidən qovrulan, susuzluqdan dodaqları partlayan, qüvvəsi tamam tükənmiş, həyatla vidalaşma məqamında olan birinin şirin sulu böyük bir gölə rast gəlməsindən daha böyükdür.

Yaşamaq yanmaqdır, hər şeyin sonu məhvə doğru istiqamətlənib və sürətlə irəliləyir, həyat mənasızdır, olacağa çarə yoxdur və sair bu kimi tezisləri əlində bayraq tutanlar dünyanın gözəlliklərini ayaqlayan, eybəcərliklərin qol-budaq atması üçün münbit şərait yaradan, gözəllik duyğusundan məhrum olan insanlardır, Onlar gözəllik duyğusundan məhrum olanları axtarmaq istəsələr, yəqin ki, uzağa getməyə lüzum olmadığını tezliklə anlayarlar. Təkcə güzgüyə baxmaq bundan ötrü yetərlidir.

Gözəlliyi duymayan
gərək bu dünyanı
tərk eləsin!
Allah insanı
ona görə yaradıb ki,
Dünyanın gözəlliyini,
Yaradanın böyüklüyünü
Dərk eləsin!

Bəs nə üçün biz gözəlliklər içində üzəndə bunun səbəbini axtarmırıq?! Belə olmalıymış kimi düşünərək heç nəyin fərqinə varmırıq? Amma elə ki, həyat yolunda bir balaca büdrədik, tez əlimizə bir çıraq götürüb günahkar axtarmağa başlayırıq və nəticədə insanın qocalmasının başlıca vasitəsi olan nifrəti əldə etmiş oluruq. Atalarımız əbəs yerə deməmişlər ki, ağacı qurd içindən yeyər. İnsanın daxilində iki – heyvani və insani hiss hakimdir. Heyvani hiss daima çalışır ki, insani hissi boğa bilsin. Bunun reallaşması bizim iradəmizdən asılıdır.

Taleyə boyun əymək
işin ən asanıdı.
Arzuların çin olsun deyə,
gərək hər şeydən keçəsən.
Dəvəsi ölmüş ərəb
dünyanın ən bədbəxt insanıdı,
Ərəbi ölmüş dəvə,
bəs sən necəsən?!

Axı insan necə məxluq imiş! Təbiətin ona vermədiyinin həsrətini çəkir, ancaq bəxtinin bəxş etdiyi şeyin qədrini bilmir. Unutmayaq ki, dünya əbədi olaraq işıq və qaranlıq, xeyir və şər, ədalət və riya, məhəbbət və nifrət, sevinc və kədər üzərində qurulub.

Bu prinsip qaçılmazdır. İnsanın ağlamağı, gülməyi, sevinməyi, kədəri, əzabı, həzzi, cavanlığı, qocalığı, ucalması, alçalması da xoşbəxtlikdir. Yaşamaq istəyiriksə, bunların hamısını – yaşamın əyilməz qanunlarını qəbul etməliyik. Xoşbəxtik ki, yaşayırıq! Bu mənada şairin “Ağlayb-gülürəmsə, Xoşbəxtəm, Allahım!” qənaəti oxucunu düşündürür.

Həyatda mütləq gözəllik, mütləq eybəcərlik mövcud deyil. Sevən insan mənən saflaşır, həssas olur,

zorakılıq və riyadan uzaq qaçır, mənfi qüvvələr artıq həmin ürəkdə özünə yer tapa bilmir.

Günəş bərq vuranda güllər oyanır,
Sevəndə kainat nura boyanır.
Kimin ki, köksündən sevgi boylanır,
Başında elə bil qızıl tacı var...

Həyatda sevməyi bacarırıqsa, demək yaşamağın dəyərini bilirik. Bir sözlə, "dəli sevda başımızda dolanmırsa", demək bu dünya bizlik deyil və haradansa gəlmə qərib bir insanıq.

Dəli sevda dolanmırsa başında,
Sevmirsənsə, bu dünyada qəribsən.
Ulu Tanrım, baş əyirəm qarşında,
Mənə sevmək istedadı veribsən!

Hər bir insanın həyatının relyefində pik nöqtələr, okean dərinlikləri də yox deyildir. Daimi heç nə mövcud deyil. Səbr etmək hər bir dərdə yüngüllük gətirir. Şair doğru deyir ki, "Təslim olma hər ağrıya, Hər dərdin bir əlacı var". Yetər ki, insanın amalı gözəl olsun.

Düşüncəmiz, arzumuz
Xariqələr yaradır.
Niyyətimiz harasa,
Mənzilimiz oradır.

Mənsub olduğum nəslin adından – gənclərin adından çıxış edərək deyə bilərəm ki, Rafiq Yusifoğlu gənc nəslin də sevib hörmət bəslədiyi bir şairdir. Ümid edirəm ki, səhv etmədim.

Doğrudur, adını çəkdiyimiz şairin imzası uşaqlara və böyüklərə də məlumdur. Amma bunu deməkdə

məqsədim odur ki, heç də hər şair özünü gənc nəslə sevdirə bilmir. Çünki gənclik insanın ən ziddiyyət, təzadlarla dolu olan və ömürlük həyat yolunu müəyyən etdiyi bir zamandır. Bu zamanın gələcək istiqaməti insanı uçuruma da ata, zirvəyə də yüksəldə bilər.

Bizim auditoriyalarda Rafiq Yusifoğlunun sevilməsinin, hörmət bəsləniməsinin səbəbi ilk növbədə onun insanları anlama bacarığının yüksək səviyyədə olmasından irəli gəlirdi. Həmin bu bacarığını Allahın ona bəxş etdiyi yaradıcılıq istedadıyla birləşdirərək gənclərin duyğularına asanlıqla təsir etməyə nail olurdu. Məhz bu səbəbdən də hər bir tələbənin yaxın sirdaşına çevrilməyi bacara bilirdi. Auditoriyada onu daha diqqətlə dinləyənlər çətinliklər içində boğulanlar idi. Həmişə çalışırdı ki, heç kimin qəlbinə dəyməsin və gənc nəsli uçruma doğru getməkdən qorusun. Onun tələbələrə dönə-dönə vurğuladıqlarından mənim gəldiyim nəticələr aşağıda qeyd etdiklərim oldu.

Həyat təbiət kimidir. Zəiflər əzilməyə məhkumdur. İnsan istəsə, həyatını qan çanağına da döndərər, Gülistani-İrəm bağına da. Həyat sənin qarşına çətinlik çıxarıbsa, üzülmə! Məqsəd mükəmməl insan yetişdirməkdir. Məqsədinə çatmaq üçün dayanmadan istə və ona doğru addımla, mütləq alınacaq!

Ürəyindən keçəni
Məhəbbətlə arzula,
Səni öz qanadında
Ucaldacaq arzular!...

**Gülnar ƏKBƏROVA**
**ADPU-nun magistrantı**

*"Bütöv Azərbaycan", 27 fevral – 05 mart 2013-cü il.*

# RAFİQ YUSİFOĞLUNUN PEYZAJ LİRİKASI

Çağdaş ədəbi prosesdə uşaq ədəbiyyatının görkəmli nümayəndəsi kimi tanınan Rafiq Yusifoğlu böyüklər üçün də gözəl və maraqlı şeirlər yazır. Onun zəngin və məhsuldar yaradıcılığında təbiət lirikası özünəməxsus poetik keyfiyyətlərə, məzmun və mündəricə dolğunluğuna malikdir. Xalq şairi Bəxtiyar Vahabzadə "Səhər şəfəqləri" adlı poeziya toplusuna yazdığı ön sözdə o zaman hələ imzaları oxuculara az tanış olan şairlərin şeirlərini qiymətləndirərkən Sumqayıt ədəbi qüvvələrinin də yaradıcılığına münasibət bildirərək göstərirdi ki, "…Rafiq Əliyev (Yusifoğlu) üçün yığcamlıq daha çox xasdır (1, s.4)".

Rafiq Yusifoğlunun yaradıcılığı ilə yaxından tanışlıq B.Vahabzadənin sərrast müşahidəsini dönə-dönə təsdiqləyir. Şairin "Aldanış", "O bağın ağacları", "Çiyin-çiyinəyəm payızla", "Bu dağlar mənim də beşiyim olub", "Quruyan ağac" və başqa şeirlərində təbiətin gözəllikləri onun taleyi üçün iztirab çəkən sənətkarın düşüncələri ilə vəhdətdə tərənnüm olunur. A.Ağbaba Rafiq Yusifoğlunun poeziyasından bəhs edərkən onun şeirlərinin alt qatındakı mifik düşüncənin poetik ifadəsinə xüsusi diqqət yetirir. Alim "Poetik sözün yaddaşı" məqaləsində yazır: "Çağdaş ədəbi tənqidimizdə (elə əvvəllərdə də) müasir şeirimizin poetik xüsusiyyətlrindən söhbət açarkən obrazlılıqdan, şairin sənətkarlıq özəlliklərindən, istedad və zəhmətindən və s. məsələlərdən kifayət qədər bəhs olunur. Sənətkarın qan yaddaşı, sövq-təbii hissi ilə bağlı mifik düşüncənin, ilkin təsəvvürlərin poeziyası bir növ unudulur. Bizcə, şairin bədii düşüncələrini yalnız onun istedadı, poetik axtarışları ilə bağlamaq, fikir məhdudluğuna gətirib çıxarır. İstər folklorumuzda, istər klassik, istərsə də çağdaş poeziyamızda bir sıra obrazlar (dağ, qaya, su və s.) var ki, onları yalnız ənənəvi poetik vasitələr kimi qəbul etmək düzgün deyil. Yuxarıda qeyd etdiyimiz kimi, həmin poetik vasitələrin alt qatındakı mifik qaynağın yaratdığı emosionallıq Rafiq Yusifoğlunun şeirlərinə poetik çalarlar əlavə edir" (2).

Təbiətin sirli möcüzələri şairin qələmində bədiiləşir, vaxtsız quruyan və vaxtsız çiçək açan ağacların taleyi onu təşvişə salır, "ağacın dərdini meşə bilmədiyi kimi, mənim də dərdimi ellər bilməyəcək" – deyən müəllifin iç ağrıları təbii faciənin xarakterik cizgiləri ilə yadda qalır:

Quşlar da keçən il budaqlarında
Qurduğu yuvaya yiyə durmadı (3, s.201).

Məlumdur ki, dünyanın bir sıra xalqlarının, o cümlədən azərbaycanlıların ilkin ibtidai təsəvvürlərində ağac kultu geniş yayılmışdır. Əcdadlarımızın mifik düşüncəsinə görə, ağac hami və qoruyucu, həyatın başlanğıcı, nəsil törədəndir. "Kitabi-Dədə Qorqud"da Beyrəyin ölüm xəbərini eşidən bacısı "kölgəlicə qaba ağacım kəsilibdir" – deyir. Anası "qaba ağacda dal-budağın qurumuşdu, yaşarıb göyərdi axır", – deyə oğlu Səgrəgin hünərini alqışlayır, ona xeyir-dua verir. Ümumiyyətlə, qədim türklərin mifoloji düşüncə sistemində, "dağlar kimi ağac da dünyanın mərkəzi hesab olunur və özü kökləri və budaqları ilə yerlə göyü birləşdirir. Ona görə də təbiətdə və cəmiyyətdə baş verən ən mühüm proseslər ağacla əlaqələndirilir" (4,s.61).

Havaların mülayimləşməsinə aldanıb vaxtsız çiçəkləyən ağac Rafiq Yusifoğlunun şeirlərində canlı bir müsahib kimi təsvir olunur. Şair "bu vədəsiz oyanışa tab gətirib dözərmisən" – deyə ağaca müraciət edir:

Qışın qarlı təbəssümünə aldanıb,
Onu yaz bilən ağac!
Çiçək gözlərini açıb,
Bəxtiyar-bəxtiyar gülən ağac!
Çiçəyinin üstünə qar yağmazmı?
O qar – gözlərinə atılan
Bir ovuc torpağa bənzəməzmi?
Qar saçlı qış bilərmi heç
Nə deməkdi yaz öpüşü?
Güllərini soldurmazmı buz öpüşü?! (5, s.95).

Lirik qəhrəmanın bu monoloqu ana kitabımızda Uruzun asılmağa aparılarkən dərdləşməsini xatırladır. “Aldanış” (1980) adlı bu şeirdə təbii hadisə və predmetlərin təşxisləndirilməsi onun mifoloji layını, ədəbi-estetik cizgilərini nümayiş etdirirsə, şeirin ideya məndəricəsi müəllifin sosial vətəndaşlıq mövqeyini, humanist duyğularını əks etdirir. Yüksək əxlaqi-humanist hisslər, dərin sevgi şairin şeirlərində insanla təbiəti mənəvi tellərlə bir-birinə bağlayır. “Bu şeirlərdə peyzaj – dəniz, çay, zirvə, yamac, söyüd kölgəsi, çəmən şehi, dağ havası insan mənəviyyatı ilə əlaqələnir, ilk eşqin, saf məhəbbətin canlı şahidi kimi mənalanır. Elə buna görə onun təbiətə və gözələ məhəbbət duyğuları nəticə etibarilə İnsana, Vətənə sonsuz sevgi amalı ilə qaynayüb-qarışır, vəhdət təşkil edir” (6).

Qeyd edək ki, Rafiq Yusifoğlunun təbiət lirikası haqqında ədəbiyyatşünas Z.Əsgərlinin bu elmi qənaəti N.Həsənzadə, H.Ziya, T.Mahmud, Z.Xəlil, Ş.Xəlilli, T.Əlişanoğlu kimi şair və alimlərin fikirləri ilə üst-üstə düşür.

Şairin “Arı və çiçək” şeirində də insan mənəviyyatı, ülvi məhəbbətin şirinliyi poetik bir peyzajda sənətkarlıqla təsvir olunmuşdur. Metaforik misraların silsilə düzümü, yığcam epik cizgilər, inversiya və epitetlər şeirdəki emosionallığı, bədii effekti daha da artırır. İki zərif varlığın – çiçəklə arının təbii vəhdəti sevən ürəklərin səmimi duyğularını ifadə etmək üçün effektli bir mənzərə yaradır:

Təzəcə açan çiçəyin
Körpə gözü yol çəkirdi.
Dünyagörmüş arı isə
Başqa güldən bal çəkirdi.

Çiçək özündə deyildi,
Ağlayırdı için-için.
Ürəyi tir-tir əsirdi
Bir sevdalı arı üçün. (5, s.210)

Ulu Tanrının yaratdığı varlıqlar bir-birlərini necə tamamlayır, bir-birlərinin varlığını necə zənn edirsə, qovuşmağa can atan sevən ürəklər də eləcədir. Kiçik bir şeirdən çıxan əxlaqi-fəlsəfi ideya budur!

İnsanla təbiətin mənəvi birliyi onun şeirlərindəki ictimai məzmunun çağdaş dövrümüzdəki ən ağrılı bir istiqamətinin – təbiətə qayğının təzahürü kimi diqqəti çəkir. Başqa sözlə, təbiətə qarşı amansız davrananlar, ona əl qaldıranlar cəmiyyətin də nizamını pozurlar. "Təbiətə qıyan insana da qıymazmı?" – fəlsəfi-poetik sualı elmi-texniki tərəqqi əsrinin övladını düşünməyə vadar edir:

Bu gün bir pərişan söyüdə qıyan
Sabah bir gözələ əl qaldırmazmı? (3, s.213).

Şairin "Doğma dağların hüzurunda", "O bağın ağacları", "Qapımızda bitən tutlar" və digər şeirlərinə də eyni ovqat hakimdir. Müəllifin kənd həsrəti, yurd-yuva nisgili bu ovqatla birləşəndə dərin lirizm sosial çalarlara həzin bir kövrəklik gətirir, bu kövrək məqamda oxucu sanki özünü və təbiəti yenidən dərk edir.

Rafiq Yusifoğlunun təbiət lirikasında Azərbaycanın aranı və dağı, dənizi və çayı, çeşməsi və meşəsi, tikanı və çiçəyi ilə birlikdə təsvir olunur. "Pəncərəsi dənizə baxdığı üçün özü də coşqun olan" lirik qəhrəmanın nəzərində "dənizlə dostluq edənin qəlbi də dəniz olar". Bu baxımdan dəniz obrazı onun şeirlərində yeni bir estetik məzmun, fəlsəfi mahiyyt kəsb edir. "Balıqqulağının insan ayaqlarının altını çimdikləməsi", "küləklərin dənizin telinə sığal çəkməsi" və s. kimi poetik və orijinal deyimlər şairin romantikasının özünəməxsusluğunu göstərir.

Ümumiyyətlə, Rafiq Yusifoğlunun peyzaj lirikasında təbiət milli və bəşəri mahiyyəti, ədəbi-estetik gözəlliyi, fəlsəfi məzmunu ilə insanla vəhdətdə təsvir olunur. Bu vəhdət onun lirik qəhrəmanının humanist duyğularının, vətəndaşlıq mövqeyinin səciyyəvi xüsusiyyətlərini daha qabarıq şəkildə əks etdirir.

**Elmi yeniliyi:** Rafiq Yusifoğlunun təbiət şeirlərinin səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirməklə bağlıdır.

**Tətbiqi əhəmiyyəti:** Peyzaj lirikası, eləcə də vətənpərvərliklə bağlı ədəbi-bədii materialların öyrənilməsində nəzəri mənbə kimi istifadə oluna bilər.

Ədəbiyyat:


1. B.Vahabzadə. Görmək, bilmək, düşünmək / “Səhər şəfəqləri” kitabına ön söz. Bakı: “Gənclik”, 1976
2. A.Ağbaba. Poetik sözün yaddaşı. “Kredo” qəzeti, Bakı, 2007, 10 mart
3. R.Yusifoğlu. Eşqin qarlı yollarında. Bakı: ADPU nəşriyyatı, 2008
4. A.Şükürov. Mifologiya.VI kitab. Bakı, Elm, 1997
5. R.Yusifoğlu. Həsrət sazağı. Bakı, “Şirvannəşr”, 2005.
6. Z.Əsgərli. “Qəm karvanı», “Həsrət sazağı” / “Ədəbiyyat qəzeti”, Bakı, 1998, 2 oktyabr


Sammary


Rafig Yusifoglus landscape lyrics

Nature  poems play a special role in R. Yusifoglus creation. Separate elements of  the nature are described in unity with man in poery. Poetical image of nature beings as mountain, river, sea, tree are rcviewed in the article. Literary-acsthetic ideai of the master who is concerning for the of the nature, is defined. Mythological semantics of nature items, typical figurativeness that was worked in poets poems has been reviewed.



**Vəsilə Arif qızı Əbdülhəsənova**



*SDU, Elmi xəbərlər. Cild 9,№3, 2013. S.29-31.*

# Sevdayla qaynayan qəlbim

Hər birimiz fərqliyik. Öz istək və arzularımız var. Məqsədimiz, amalımız, hədəfimiz var. Bəzilərimizin isə bəlkə də həyatının mənası yoxdur, ya ümidsizliyə qapılıb, ya da bədbin oldugumuz üçün heç nəyi yenidən başlamaq istəmirik. Lakin hamını birləşdirən bir şey var, daim axtarışda olmaq istəyi…

Rafiq Yusifoglu... Daim axtarışda olub məqsədinə nail olmagı bacaran insanlardandır. Bu həyatda qazandıgım ən dəyərli insan... Rafiq Yusifoglu... Bu ad mənim üçün çox şey ifadə edir. Səmimiliyinə, insanlıgına çox inanıb, güvəndiyim müəllimim... Danışdıgı hər sözü, söhbəti mənimçün dəyəri ölçülməyən sərvətdir.

Rafiq Yusifoglu... Çox incə, kövrək qəlblidir... Düşünürəm ki, bu kövrək qəlbi olmasaydı yəqin ki, biz bu sevgi və duygu dolu şeirlərdən məhrum olardıq. Rafiq Yusifoglunun yazdıgı hər şeir onun incə və  sevgi duygulu qəlbini üzə çıxarır.

Mən zülmətin arasından
Süzülən işıq kimiyəm.
Saçlarım bəmbəyaz qardır,
Özümsə uşaq kimiyəm.

Gözlərində dərin məna olan bu insanı bəzən ani bir vaxtda xəyallara daldıgını görürəm. Dərin baxışlarının altından dəryalar qədər xəyallar, arzular keçir. Yəqin yenə sevgi qoxulu şeir toxumu cücərir o zərif könlündə.

Gündüzlər
Günəş nur saçır,
Gecələr
Ulduzlar sayrışır.
Göylər
şimşək qayçısıyla

buludları biçir.
Ürəyimdən quş olub
Göylərə uçmaq
Arzusu keçir...

Rafiq Yusifoglunun şeirləri mənim könlümü, ruhumu oxşayır. Yazdıgı hər sətirdə, bəzən sözlərdə tapıram özümü, ürəyimdə olub amma dilimə gətirmədiyimi deyir bu sətirlər, sanki dil açıb mənimlə danışır.

Rafiq Yusifoglunun "Könül səltənəti" adlı şeirlər kitabı da məhz mənim dediklərimin bariz nümunəsidir. Sevgi haqqında düşüncələrimi yeniləyən, həyata baxışımı daha da fərqli edən bu şeirlər məni öz dünyamdan qoparır, daim irəli, sevməyə, sevilməyə aparır.

Aglayıb - gülürəmsə,
Xoşbəxtəm, Allahım!
Kiminsə xoşuna gəlirəmsə,
Xoşbəxtəm, Allahım!
Sənin yaratdıqlarını
Sevə bilirəmsə,
Xoşbəxtəm, Allahım!

Dünya yaradılandan bəri insanlara sevgi duygusu verilib. Bu duyğu həmişə olub, var və olacaq... Dogularkən sevgiylə tanış oluruq. Anamız bizi ilk dəfə qucagına götürəndə yaydıgı müsbət enerji bizə olan sevgisidir. Bu duygunu ilk olaraq anamızda, atamızda tapırıq, gözəl hisslərlə yaşayırıq. O gözəl duygunu valideynlərimzlə birlikdə dadırıq. Öncə ata-anamıza aid olan bu sevgiyə sonra bacı və qardaşlarımız şərik olurlar. Sonsuza qədər sürəcək tükənməyəcək duygu...

Sevgi duygusu bütün canlılara verilmişdir. Gerçək sevgimizin mütləq qarşılıgı vardır. Hətta təbiət də hər götürdüyü sevginin qarşılıgını verər. Qarşılıgında su torpaqdan, torpaq sudan götürdüyü sevgini içindəki toxumlara verər. Bu sevgini qoruyar. Toxumlar cücərər, böyüyər agaca çevrilər. Quşlar əvvəl uçmagı

sevər, sonra budaqlara qonmagı. Agac budaqlarını sevgiylə açar, sevgiylə qoruyar, qonaq edər bu kiçik qonaqlarını. Aralarındakı sevgi çox qüvvətlidir, həmişə bir-birini istəyərlər və bir-birindən heç qopmazlar. Agac budaqsız, budaq quşsuz, quş yuvaları agacsız olmaz.

Güllərin, çiçəklərin
Rənginə vurulmuşam,
Çayların, şəlalələrin
Ahənginə vurulmuşam...
Gözəlliyi duymayan
Gərək bu dünyanı
tərk eləsin!
Allah insanı ona görə yaradıb ki,
Dünyanın gözəlliyini
Yaradanın böyüklüyünü
Dərk eləsin!...

Sevgilərin ən alisi hər bir insanın yaşamaq istədiyi o özəl sevgidir. O sevgi ki, səhər yuxudan oyanandan gecə gözlərini yumana qədər onu düşünmək, darıxmaq... Yanında olmasa da, o varmış kimi onunla söhbət etmək, dərdləşmək, danışmaq, xəyallara dalmaq.

Fikrimdə,
Xəyalımda sən.
Fikrim də,
Xəyalım da sən...

Sevgi qəlbin ən dərin küncündə gizlənib saxlanılan bir səltənətə bənzəyir. Kimisi üçün bu səltənət həyat, kimisi üçün sınaq, kimisi üçün saxtalıq yuvası, kimisi üçün limanına çatmayan, uzaqdan göyərtəsi görünən gəmiyə bənzəyir.

Sevgi qanadsız quş kimi göylərdən gəlir, kimisi onu tuta bilməyib əlindən buraxar, kimisi yerə düşməyindən hər an qorxaraq ondan yapışar.

Doldur eşq badəsini
Əllərindən mən içim.
Səninlə keçən hər gün
Mükafatdı mənimçün.

Sevgi danışmayan ürəyin səsi, hayqırışıdır. Kimisinə o mahnı oxuyar, kimisinə yas saxlayar. Sevgi bitməyən sonsuzlugun ümmanıdır. Kimisi bu dərddən ölər, kimisi dərdini öldürər.

Sevgi damlalar axıdan gözləri yaşardar, kimisə bu yaşı həyatı boyu anar, kimisi o yaş üçün başqa gözlərdən damar.

Sevgi bir canlıya, bir quşa, bir insana Allah tərəfindən verilən hədiyyədir, kimisi onu yaşar, kimisi onu yaşadar.

Bu sınaqdan çıxmaq üçün
Kömək olsun sevgi bizə
Əgər Tanrı istəyirsə,
Zaval yoxdur sevgimizə.

Sevgi hiss etməyən üçün mənasız, yaşayıb aldanan üçün acımasız, eşidib yaşamayan üçün müqəddəsdir. Sevgi ülvi duygudur, gəlmə tarixi gözlənilmədiyi kimi getmə tarixi də öncədən söylənilməz. Sevgi gəldiyi istiqaməti unudaraq getdiyi istiqaməti həmişə xatırlayar.

Sevgi dogrunun, səmimiyyətin, sadəliyin, möhkəmliyin, iradənin, səbrin dostudursa, yalanın, böhtanın, haqsızlıgın qurbanıdır.

Kimin ki saf sevgidə
sədaqəti, vəfası yoxdu,
ona bu yolda çəkdiyi
havayı zəhmət qalacaq.
Öz təmiz sevgi diyarına
xəyanət toxumu səpənlər,
xoşbəxtlik üzünə
həmişə həsrət qalacaq...

Bu həyatda hər kəs nəsə umur, nəsə gözləyir, nəsə istəyir. Kimiisə arzulayır, ümid edir - elə insan ki, daim onu dəstəkləsin, sevsin, inansın. Elə insan ki, ona heç vaxt xəyanət etməsin, elə insan ki, onu həmişə duysun, anlasın, başa düşsün, elə insan ki, onun qaygısına qalsın, xəstəlikdə də, saglıqda da, elə insan ki, onunla nəfəs alsın, arzulasın, onun yanında özünü xoşbəxt hiss etsin.

Sənin qəlbində
Başqa sevgilərə
Yer olmamalıdı,
Sənin gözlərin
Gözlərimə baxanda
Yorulmamalıdı.
Sən məni bütün qəlbinlə
Sevməlisən!
Sən mənim ömrümə
Dönməlisən.

Sevgi harda varsa, orda həyat var. Sevgi çox gözəl bir enerji verir. Şübhəsiz, yaydıgımız müsbət enerji bir gün özümüzə dönəcək. Dəniz kənarında ucsuz-bucaqsız gözəlliyi sevgi ilə seyr edək. Dəniz bizə dalgaları ilə dönəcək. Dalgalarının səsiylə bizə cavab verəcək. Səmadaki buludlara sevgiylə baxaq. Yagışı ilə qarşılıgını verəcək. Bu yagış buludun xoşbəxtliyinin göz yaşlarıdır. Batan günəşi seyr edək sevgiylə. Səmaya yaydıgı qırmızılıgı ilə cavab verəcək, sonra doguşu ilə dönəcək. Bütün bunlar insanı həyata baglayır və insan özünü xoşbəxt hiss etməyə başlayır. Sanki bütün kainat onunmuş kimi....

Həyatı sev, yaşamagı sev, çox, amma çox sev... Bizə gözəl şeylər təqdim edəcək. Həyatı dolu-dolu yaşayaq, həyatın uzunluguna, qısalıgına əhəmiyyət verməyək. Necə yaşadıgımıza əhəmiyyət verək.

Bir dəfə verilir ömür insana
Çürütmə ömrünü sən ah içində!

Bu dünya gözəldi, gözəldi, gözəl
Hətta yaşasaq da günah içində.

Həyata baxışlarımız çox əhəmiyyətlidir. Həyata necə baxsaq, elə də görəcəyik. Sevgi ilə baxaq şübhəsiz, həyat bizə sevgisini, gözəlliklərini təqdim edəcək. Rafiq Yusifoğlu poeziyası bizə təlqin eləyir ki, daim sevgi ilə bu gözəlliklərə baxaq, baxmaqla kifayətlənməyib görməyi də bacaraq.

**Sərdarova Rübabə**
*ADPU-nun magistrantı. 2013*

## HƏSRƏT ALOVU

Yaradıcı insan daim həyatda zirvəyə dogru irəliləyir. Elə fikirləşir ki, nə vaxtsa o zirvəni fəth edəcək. Əslində o, özü də bilmədən bir zirvə yox, zirvələri fəth edir, amma bunlar artıq zirvə yox, həyatın pillələrinə çevrilir. Deməkki, zirvə məcazi mənada imiş. Bu pillələri o ətrafındakılarla birgə qalxır. Əgər mən sevimli müəllimim Rafiq Yusifoğlunu yaradıcı insan olaraq pillələri qalxan şair kimi görürəmsə, demək o pillələri mən də bu iki ildə onunla birgə qalxmışam.

Mən Rafiq Yusifoğlunun şeirlərini əvvəl-əvvəl oxuyanda bu şeirləri dag yoluna, özünü isə qəm karvanına yol göstərən sarvana bənzədirdim. Necə böyük təzad var. Amma zaman hər şeyi dəyişdi. Mən başa düşdüm ki, əslində bu şeirlər nəfəsi kəsiləcək dərəcədə yuxarı qalxan dag yolu deyilmiş, əksinə mənim illərdi qəlbimdə açdıgım həmin o dag yolunun alıcı quş kimi dag zirvəsindən süzməyi imiş...

Bilirsən heç necə bəxtəvərəm mən?
Köksümə sıxıram dagı-dənizi.
Ay nagıl danışır mənə sübhəcən,
Günəş zirvələrə səsləyir bizi.

Biri çətin keçilən dag yolu, birisə qızmar səhra. Zənnimcə qızmar səhrada karvana yol göstərən sarvanın işi daha çətindi: susuz səhra, bir kölgə yox, gəl ki bu karvan qəm karvanı ola! Sarvanın işi daha çətindi ki!

Mənim yollarıma göz dikib qürub,
Səninsə köksündən səhər boylanır.
Niyə ürəyində qəm bardaş qurub,
Niyə gözlərindən kədər boylanır?

Şairin oxucusuna ünvanlamış oldugu bu sualı mən öz müəllimimə ünvanlamaq istərdim:

Niyə ürəyində qəm bardaş qurub,
Niyə gözlərindən kədər boylanır?

Amma bu cavabı tələb olunmayan sualdı. Çünki şairin bu cür suallara cavabı da əskik deyil. Əslində hər qəmli duruşun arxasında bir sevinc, hər qəhqəhə çəkən ürəyin içində daşınmayacaq bir kədər var. Şair zamanın enişli –yoxuşlu yollarının qəmini az görməyib. Vətən həsrəti yatır onun qəlbində. Nə dərəcədə dogru olar ki, boy atıb böyüdüyü, bəlkə də həmin torpagın dagına, daşına vurulub ilk əlinə qələm aldıgı həmin yerləri ürəyində həsrətlə gəzdirən insandan şadyanaliq gözləmək?

Pəncərədən üstümə
Sanki axır nur çayı.
Bəlkə bu nur yox, şehdi?
Həsrətdən üşüyürəm.
Başımı qaldıranda
Göydə görürəm ayı,
Başımı endirəndə
Vətəni düşünürəm...

Allah sevdiyi bəndələrini sınaga çəkir. Əsası odur ki, bu sınaqdan üzüag çıxacagına inanasan. Ümidin olması  hər çətin imtahanın sonda ürəkaçan nəticə verməsidir.

Gördünmü
İman nuru,
Allah sevgisi
Qəlbimin içindədi?!
Gördünmü
Mənim kövrəkliyim
Qayaları parçalamaq,
Dəmiri əritmək,
Şəbəkəni dondurmaq
Gücündədi?!

Mən gördüm, Rafiq müəllim. Bu iki ildə Sizi yaxından tanıdım. Hər dəfə təsdiq olundu ki,əslində bu şeirlərin arxasında böyük inam, böyük sevinc durur.

İnsan o zaman insan olur ki, həyatı təmənnasız olsun. Qəribədir ki, həyatın mənbəyinə varsaq, çox şey təmənnalıdır. Hətta valideyin belə övladına yaxşı qaygı göstərir ki, qocalanda ümid yeri olsun. İnsan qarşısındakından verdiyinin qədəri qədər umur, gözləyir.  Bundan çoxunu edəndə yaxşı insandı, əsl insandır deyirik. Budur təmənnasızlıq. Şair də əsl insandır. Oxucularına təmənnasız sevinc, təmənnasız xoşbəxtlik bəxş edir. Bir bəndlik şeirindən başlayaraq ”Qəm karvanı”nadək. Füzulini yenidən sevməyə, sevginin dadını yenidən duymaga sövq edib. Dahi Füzuliyə ünvanlamış oldugu

Közərdi qəlbimdə söz için-için
Keçib əsrləri,bizi yandırdı.
Hicranın zülməti sevənlər üçün
Qaranlıq dünyanı işıqlandırdı. –

deməsi Sizi bizə, daha dogrusu, Füzulisevənlərə daha yaxından tanıtdı. Belə bir deyim var. Bir Allah, bir ana, bir də şair yaratmaq gücünə malikdir. Əsrlər bir-birini əvəz edir. Hər dövrün öz məcnunu oldugu kimi, öz Leylası da olur. Məncə, Seir elə bir Leyladir ki, kimisi gizlin , kimisi aşkar o Leylanin Məcnunu olur. Sevgi nəgməkarı olan şairimiz dahi Füzulinin Məcnunu kimi aləmi sevgi nəfəsilə yandıracaq qədər atəşli olan şeirlər yazir. Oxucuları isə o atəşin alovuna yanib yaxılır.

Payız da gözəldi,qış da gözəldi,
Gözündə bərq vuran yaş da gözəldi.
Sevgiylə baxmagı bacara bilsən,
Torpaq da gözəldi,daş da gözəldi.

***Musayeva Nuranə***
*ADPU-nun magistrantı.* ***2013***

## “KÖNÜL SƏLTƏNƏTİ” OXUCU KÖNLÜNƏ HAKİM OLA BİLİRMİ?

**(Rafiq Yusifoğlunun eyni adlı kitabı haqqında düşüncələr)**

Bir oxucu kimi məndə yaranan bu suala cavab verməzdən əvvəl demək istəyirəm ki, bu kitabda məni düşündürən “Qoca dünya” şeirindəki bu misralar oldu:

Hər açılan çiçək deyil,
Hər parıltı şimşək deyil,
Qoca köhnə demək deyil,
Dünya hər an təzələnir.

Yay ötür, payızı gəlir,
Qışı gedir, yazı gəlir,
Qəlbə yeni arzu gəlir,
Dünya hər an təzələnir.

Hərdən səbri dolsa belə,
Çiçəkləri solsa belə,
Adı köhnə olsa belə,
Dünya hər an təzələnir…

Görəsən illər, əsrlər boyu neçə-neçə əzab çəkən, kədərdən sarsılsa da köhnəlməyən, hər an təzələnən bu qoca dünyada əlimə aldığım "Könül səltənəti" oxucu kimi mənə nələr deyəcək? Nəyi öyrədəcək, nəyi izah etməyə çalışacaq? Ümumiyyətlə, son dərəcə istedadlı, bənzərsiz bir şairin "Könül səltənəti"nə daxil ola biləcəyəmmi?

Fikrimdə dolaşan bu suallarla kitabın növbəti səhifələrini vərəqləməyə başladım. Elə təzəcə başlamışdım ki, əl saxlamalı oldum. Bu dəfə məni ötərgi baxmaqdan saxlayan "Düşün" şeiri oldu. "Düşün, düşün" deyən bu kitab görəsən bizi nəyi düşünməyə vadar edir? Və yaxud "Belə getsə" şeiri. Belə getsə, nə olacaq ki?!

Bir iş görməzdən əvvəl
Gərək insan düşünə.
Xatalıdır qarışmaq
Təbiətin işinə…

O bizə üsyan edir,
Coşur, haray qoparır.
Dağda torpaq sürüşür,
Aranı sel aparır.

İllər keçir, insanın
Üzə çıxır paxırı.
Belə getsə, dünyanın
Axırıdır, axırı…

Hə, deyəsən, tapdım, tapdım!!!

Kitab mənimlə danışır. Hər səhifəsi, hər şeiri sanki dil açıb canlı insan kimi mənimlə dialoq yaradır.

Sevindim. Deyəsən, özümə yeni bir dost tapmışam: "Könül səltənəti".

İstərdim yeni tapdığım, bir dost kimi araşdırmağa çalışdığım bu kitabla az da olsa sizi də tanış edim.

Həmsöhbətim "Könül səltənəti" ilk olaraq söhbətə Yaradana şükürlə başladı.

Qəlbi dolu idi. Simaca çox gənc, çox sakit görünsə də, sözlü adama oxşayırdı. Gənc olduğumu görüb dünyagörmüş kimi mənə bir neçə məsləhət verdi. "Ayılmaq vaxtı"dır", - dedi. Sanki bu sözləri hamıya çatdırmağımı istədi. Bir az gileyləndi. Doğma ev kimi dünyanı özünə məskən edən, bir böyük ailə olan qonaqların – insanların bir-birinə yad münasibətindən danışdı. Doğma məskənə insanların biganəliyi onu təəccübləndirdi. Təbiətə vurulan zərbələrin ağrı-acısına, ahına bir gün dözə bilməyəcəyimizi, səhvimizin bizə baha başa gələcəyini söylədi. Təbii fəlakətlərin buna bir xəbərdarlıq nişanəsi olduğunu vurğuladı.

Təbiət qədirbilməz
Adamları pis gördü –
Qəzəbləndi onlara,
Yerdən vulkan püskürdü…

Elə bil ki, yuxudan
Yaralı şir oyandı;
Nərə çəkdi, bağırdı,
Tüstü ərşə dayandı…

Haqsızlıq Yaradanın
Gələrdimi xoşuna?
Təbiət külələdi
Avropanın başına…

Vətənin yaralı qəlbinə məlhəm olmayanları, qanımız bahasına qazandığımız azadlığın lazımınca qədrini bilməyənləri dar ağacına çəkdi. Yenə susmadı. Danışdı. Tanrı dərgahında bərabər olanların öz aralarında sosial təzadlar yaratdıqlarına kədərləndi. Taleyə boyun əyməyi işin ən asanı zənn etdi və haqqı tapdanıb hüquqlarını tələb edə bilməyənlərin "korluğuna, karlığına, lallığına" heyfsiləndi… Bundan istifadə edənlərə isə qəzəbləndi.

Azadlıq gənələri darışdılar
vətənin şirin canına.
"Azadlıqsevərlər"
Azadlığı qəltan elədilər qanına!

**("Azadlıq labirintində")**

Bilmirik kimdən soruşaq
bu olayların niyəsini? –
Qurdun sahibi gəlib çıxdı,
ancaq yenə də
qoyun yerinə qoydular
qoyunun yiyəsini…

**("Canavarlar")**

Kimdi axı qulaq asan
mənim səsimə, avazıma?
Deyə bilmədiyim sözlər də
tıxanıb qalıb boğazıma…

**("Tıxac")**

Gözlərim doldu. Fikirlərim qarışdı. Bayaqdan bəri içimdəki səsdən ayılıb küləyin səsini eşitdim…

Aman Allah, artıq gecədən keçib! Yox, deyəsən mən bu gecə bu ağır, düşündürücü sözlərdən sonra rahat yata bilməyəcəm.

Öz-özümə sual verdim. Axı niyə? Həqiqəti eşitmək bizə belə ağır gəlirmi? Bu sinədəftərin həyata belə açıqgözlü baxışı, acı gülüşü bir anlıq gözüm önündə canlı bir səhnə yaratdı, məni duyğulandırdı, həyəcanlandırdı…

Çox qəribədir. O, qəlbimə indicə sözlərindən hopan dumanı gördü. Bunu hiss etdi. Vaxtı, gəncliyi göz önünə alıb, məndə həyata nifrət yaratmaq istəmədi. Əksinə, "Qaş-qabaqlı havalar Söyləyir: Payız gəlir", - deyərək söhbəti dəyişməyə çalışdı. Fəsillərin gözəlliyindən, payızın şıltaqlığından, tezliklə qışla əvəz olunacağından söz açdı. Məni uşaq tək oxşamağa çalışdı və mənə "Türkiyə nəğmələri" oxudu. Bütün demək istədiklərinin bir günə sığışmadığını anlatmağa çalışdı…

Lakin "Könül səltənəti" artıq mənim ona dikilən gözlərimdən oxumuşdu ki, mən onun səmimiyyətinə bağlanmışam. Və yenə də neçə-neçə açıq etiraflar gözləyirəm. Sanki mən bu sirli xəzinəni tam açmağa, hər zinəti ilə tanış olmağa can atırdım. Lakin bu, həqiqətən də, bir günün işi deyilmiş… Bunu mən də anlayırdım. Və belə olan halda yenidən görüşmək həvəsi ilə müvəqqəti ayrılmalı olduq.

Dostum "Könül səltənəti" haqda dediklərim bu qədər. Bu günlük bu qədər…

**Aygül Əlimərdanova**

*ADPU-nun "Dünya ədəbiyyatı" kafedrasının magistrantı.*

*2014.*

# RAFİQ YUSİFOĞLU YARADICILIĞINDA PEYZAJ LİRİKASI

Bir şair kimi Rafiq Yusifoğlunun orijinallığı onun istəyindən yox, həyata və hadisələrə poetik münasibətindən doğan təbii bir keyfiyyətdir. Ənənəvi mövzuları qələmə alanda onun öz səsi, öz nəfəsi, öz münasibəti dərhal gözə dəyir. O, məlum hadisələri şeir dilinə çevirərkən başqalarının işlətdiyi naxışları təkrar etmir:

Ağaclar,quşlar
məni görəndə
sevinir;
Baltam,silahım
yoxdu axı əlimdə?!
Meşə mənə
“xoşgəldin” eləyir,
sevgi kükrəyir
könlümdə…

Şairin yaradıcılığında Vətənin ikinci adı, simvolik mənası olan peyzaj və ya təbiət lirikası da əzəli yerlərdən birini tutur. Bu baxımdan onun “Ana torpaq”, “Meşədə”, “Yarpaq verir”, “Sanki meşə gözəlləşib” və s. şeirlərini misal göstərmək olar. Müəllifin “Ana torpaq” adlı şeirində oxuyuruq:

Gözlərimdə
şimşəklər çaxdı,
Görəndə gözlərinin
dolduğunu.
Torpağa
analarımızı
tapşırandan sonra
dərk elədik
Torpağın ana
olduğunu!

Misal gətirdiyimiz bu təbiət şeiri təbiətin bir möcüzəsi olan torpaq haqqında gözəl, poetik bir lövhə olmaqla yanaşı, həm də insana qayğını da özündə əks edir.

Şair, dənizin gözəlliyini ön plana çəkərək lirik şeirlərində onun füsunkar gözəlliyindən danışır, ən adi dalğasını belə mənalandırır. Təsvir zamanı elə boyalar, elə çalarlar seçir ki, o misraları oxuduqdan sonra dəniz haqqında yenidən düşünməli olursan, onun hər bir dalğasında, nərəsində bir Vətən sözünün yazıldığını duyursan. Belə şeirlərə misal olaraq "Dənizlə görüş" şeirini göstərmək olar:

Qəlbimin sirdaşı dəniz
Sənsiz yaman darıxmışam.
Elə bil dalğalarının
Üstündə uçan bir quşam.

Rafiq Yusifoğlu bu gün də coşqun poetik ilhamla yazıb-yaradan şairlər içərisində özünəməxsus yer tutur.

**Elşad TALEHOĞLU**

*Posted on March 19, 2014* .**http://edebiyyat-az.com/?p=8492**

## SEVGİ ƏZABI İLƏ İNİLDƏYƏNDƏ

Rafiq Yusifoğlunun yenicə çap olunmuş "Arzular kəhkə-şanı" (Bakı, 2015) şeirlər kitabının annotasiyasında oxuyuruq: "...bu kitabına onun son illərdə yazdığı, təzə və gənclik illərində qələmə alınsa da, indiyə qədər heç bir kitabına düşməyən şeirləri daxil edilmişdir". Bu qısa qeydlərin assosiativliyi gözlərimiz önündə istər-istəməz iki Rafiq Yusifoğlunu canlandırır: gənc, coşqun əhvali-ruhiyyəli Rafiq Yusifoğlu; ömrünün 66-cı baharını yaşayan, poeziyamızda saç ağartmış Rafiq Yusifoğlu. "Arzular kəhkəşanı" kitabı vərəqləndikcə gənc Rafiqin ağsaqqal Rafiqə

təslim olmadığının, əksinə, onların bir-birini tamamladığının şahidi olursan. Bu, özünü kitaba daxil edilmiş şeirlərin təkcə formasında deyil, həm də mövzu və ideyasında qabarıq şəkildə göstərir. Amma bu da var ki, təkmilləşən, zənginləşən, poeziyamızda kifayət qədər tanınan Rafiq Yusifoğlu amilini də unutmaq olmaz. Faktlara müraciət edək: şair 1974-cü ildə yazdığı bir şeirində ("Döyüşən şeirlər") Çilinin ağır günlərini, qan içində boğulmasını, eyni zamanda onun azadlığının heç də uzaqda olmadığını ifadə edir:

Çili yaralıdır,
Çili qan itirib...
Dost-düşmən dar ayaqda bilinir.
Öz qanında boğmaq itəyirlər Çilini.
İgidlərin qanıyla yoğrulmuş torpaq
Ayağa qalxacaq yenidən...

Bu ruh şairin 2014-cü ildə yazdığı "Sən mənim ömrümü uzat, Allahım!" şeirinin hər misrasında çılpaqlığı ilə müşahidə olunur: yurd yeri könül dağlayır, Qarabağ erməni işğalçılarının tapdağı altında inildəyir:

Viranə yurd yeri könül dağlayır,
İgidlər, bağlanan yolları açın!
Həkəri, Bərgüşad mənsiz çağlayır,
Yolumu gözləyir Kəlbəcər, Laçın.

Amma şairin lirik "mən"i nikbindir, gələcəyə ümidlə baxır, üşüyən kəndlərini od-ocaqla deyil, nəfəsi ilə isidəcəyinə, Qubadlıda gül dərəcəyinə, bəlkə də, hamıdan çox inanır:

Tar-kaman gələcək dilə Şuşada,
Qəmli könülləri güldürəcəyəm.
Nə qədər işim var hələ Şuşada,
Hələ Qubadlıdan gül dərəcəyəm.

Qarşılaşdırdığımız şeirlərin hər ikisi dil və üslub baxımından zənginliyi ilə diqqəti cəlb edir: “Döyüşən şeirlər”də anafora (Çili-Çili), frazemlər (qan itirmək, öz qanında boğmaq...), antiteza (dost-düşmən), metonimiya (şeirlər döyüşür) və s.; “Sən mənim ömrümü uzat, Allahım!” şeirində - “g” və “ç” samitlərinin alliterasiyası: **güman, görüm, gözümdə**; “**çağlayan çayların** kefi **çağ** deyil”, zəngin qafiyələr (dağlayır-çağlayır); toponimik vahidin qafiyələnmədə iştirakı (açın – Laçın), frazemlər (yolunu gözləmək, gözündə qalmaq), epitetlər (qəmli könül, doğma bulaqlar), təşbehlər (Zəngilan ilanlar yuvası olub...) ... Heç şübhəsiz ki, təkcə bu cür faktlara söykənməklə “Rafiq Yusifoğlunun şeir dili bənzərsizdir, bulaq suyu kimi təmizdir, dağ çayları kimi qıjıltılıdır, dəniz kimi coşqundur” – qənaətinə gəlmək mümkündür.

R.Yusifoğlunun “Altmış beş ildi ki...” şeiri lirik-psixoloji məqamların, kövrək qəlb çırpıntılarının bədii inikasıdır. Bu günü ərməğan bilən şairin lirik “mən”i bu günündən keçmişinə boylanır, 65 illik bir zaman kəsiyində həyat tarixçəsini vərəqləyir, ömrünün acılı-şirinli xatirələri çözələnir: lirik “mən” təbiətin əsrarəngiz gözəlliyindən zövq ala-ala yaşayıb, çayların şırıltısını, yarpaqların pıçıltısını dinləyib, təbiətin havasını ciyərlərində, suyunu damarlarında, işığını gözündə daşıyıb, - bir sözlə, təbiətin bütün nemətlərindən dadıb. Amma o, bu zövqü dərdini çəkdiyi dünyadan ala bilmir, sevgi əzabı çəkə-çəkə yaşamaq onun taleyinə yazılıb:

Altmış beş ildi ki,
Çayların şırıltısını,
yarpaqların pıçıltısını
dinləyirəm
Altmış beş ildi ki,
sevgi əzabı ilə
inləyirəm...

Şairin lirik "mən"i 65 il sevgi əzabı ilə inildəsə də, pessimist deyil, yüz il yaşamaq istəyini açıq-aşkar şəkildə bəyan edir. Amma bir şərtlə:

İstəyirəm ki, məni sevən
məni heç zaman
öz yanında
yox görməsin.
Allah bu dünyanı mənə,
Məni bu dünyaya
Çox görməsin!

"Altmış beş ildi ki..." şeirinin ümumi semantik tutumu ilə bağlı yuxarıda söylədiklərimizi Rafiq Yusifoğlu son dərəcə obrazlı şəkildə canlandırıb. Şeirdə nəinki artıq söz və ifadəyə, hətta yersiz işlənmiş bir şəkilçi morfeminə belə rast gəlinmir. Poetik siqlətli bu şeirdə "Altmış beş ildi ki..." (mübtəda budaq cümləli tabeli mürəkkəb cümlənin baş cümləsi) cümləsinin epifora kimi işlənməsi ilə (10 dəfə təkrarlanıb) təkcə ahəngdarlıq yaradılmayıb, həm də poetik məna qüvvətləndirilib. Burada bir detalı da xatırlatmaq yerinə düşür: "Altmış beş ildi ki..," cümlə modeli bütün parametrlərinə görə "Dədə Qorqud kitabı"ndakı "On altı yıldır kim, babanın tutsağıyam" tabeli mürəkkəb cümləsinin baş cümləsi ilə səsləşir. Sanki Rafiq Yusifoğlu ulu "Kitab"ımızdakı bu cümləyə də yeni nəfəs verib. "Altmış beş ildi ki..." (2014) şeirindəki kədər motivi birbaşa "Otuz beş yaşım" (1977) şeiri ilə səsləşir. Burada da lirik "mən" şad deyil, atasız keçirdiyi illər onun qayğılarını artırıb, sanki başını xırmana döndərib:

Otuz beş yaşım var mənim,
Nədir ki, iyirmi altı yaş?!
Qayğısız günlərim uzaqda qaldı...
Atasız keçirdiyim illər...
Qınamasın məni ellər.
Qayğılar xırmana döndərib başımı,
Qayğılar artırıb yaşımı...

Sevgi əzabı ilə inildəyən lirik "mən"in ölən, dəfn olunan sevgisi "gəzən baş daşına" dönüb, onu anbaan bir kabus kimi izləyir. Lirik "mən" ağrılı-acılı günlər yaşayır, psixoloji gərginliklər içərisində çapalaya-çapalaya çıxış yolları axtarır. Yalnız bir təsəlli var: Ölən sevgisinin qəbrinə çiçək deyil, şeir düzəcək:

Zaman dərdə məlhəm olur,
Bu ağrılara dözəcəm.
Hər gün çiçək əvəzinə
Qəbrinə şeir düzəcəm... ("Ölən sevgi")

R.Yusifoğlu "Get" şeirində bu əhvali-ruhiyyəni başqa müstəviyə keçirsə də, onun lirik "mən"i yenə də narahatdır, yenə də sevgi əzabı ilə inildəyir, yenə də çıxış yolları axtarır... Onun bu qarmaqarışıq dünyasından, nəhayət ki, "Get" hökmü reallaşır. Amma lirik "mən" həyatından silmək istədiyi sevgisinə "Get" hökmünü elə-belə vermir. Bir tərəfdən, ona sevgisini şahlıq taxtından devirib getmək əmrini verirsə, digər tərəfdən, peşmançılıq zülməti içinə çökmədən getməsini istəyir:

Get,
ülvi bir sevgini
Şahlıq taxtından
devirib get!..
Get heç nəyin
dərdini çəkmədən get!
Get,
içinə
peşmançılıq zülməti
çökmədən get!!!

"Get" şeirinin mövzusu elədir ki, şair dilin məhz konativ funksiyasından (əmrlə danışma) istifadə etməli olub. Maraqlıdır ki, şeirdəki obrazlılıq da daha çox "Get" əmr cümləsinin təkrarı və bu təkrarın sintaktik paralelizmləri də əhatə etməsi ilə (arxa çevirib

get, devirib get, dərdini çəkmədən get...) reallaşdırılıb. Eyni zamanda emosionallıq və ekspressivlik yaradan frazemlər (arxa çevirmək, dərd çəkmək...), epitetlər (həsrətli gözlər...) və təşbehlər (buludlar kimi...) də "Get" cümləsinin semantik tutumuna uyğunlaşdırılıb.

Şairin "Həyat gözəldi" şeirindəki lirik "mən" "Ölən sevgi", "Get" və s. kimi şeirlərdəki lirik "mən"ə bənzəmir, daha doğrusu, bu obrazlar tam əks qütblərdə dayanır. "Həyat gözəldi" şeirindəki lirik "mən" sevgi əzabı ilə inildəmir, yaxud sevgisinə "Get" hökmünü vermir. Əksinə, "odlu busələr içimi isidir" – deyərək, həyatdan zövq almağa çalışır:

Yarpaqlar saralıb, güllər solsa da,
Payızın bəzəyi qızıl xəzəldi.
Nə qədər acısı, dərdi olsa da,
Yaşamaq şirindi, həyat gözəldi...

R.Yusifoğlunun bir sıra şeirləri bütövlükdə təzadlardan yoğrulub. Burada yalnız bir bəndi təqdim etməklə kifayətlənmək olar:

Bu dünyada sevinclə qəm qoşadı,
Qəm öldürür, sevinc səni yaşadır.
Pulun varsa, hamı sənə baş əyir,
Pulun yoxsa, hamı sənə daş atır...

Cəmi bir bənddən ibarət olan bu şeirdə poetik semantika daha çox antitezalar silsiləsi ilə yaradılıb: sevinc – qəm, öldürmək-yaşatmaq, var-yox, baş əymək-daş atmaq. Yeri gəlmişkən, sintaktik paralelizm şəklində verilmiş sonuncu misraların semantikası "Koroğlu" eposundakı bir bəndlə səsləşir:

Varlı, kasıb bu dünyadan köçərlər,
Yaxşını, yamanı görüb seçərlər,
Varın olsa gəlib yeyər, içərlər,
Yoxsul olsan qohum-qardaş yad olu.

Bu bəndin ümumi semantik tutumu, xüsusən də varlı-kasıb, yaxşı-yaman, varın olsa-yoxsul olsan, yeyər, içərlər-yad olu (r) antitezaları ilə R.Yusifoğlunun yaratdığı pullu-pulsuz, baş əyir-daş atır antitezaları eyni semantik şaxədə birləşir. Burada bir detalı da qeyd etmək lazım gəlir: Koroğlu övladı olmadığına görə "Ocaq sönər, daş inildər", - deyirsə, R.Yusifoğlunun lirik "mən"i də sevgi əzabı ilə inildəyir.

Rafiq Yusifoğlunun "Arzular kəhkəşanı" (2015) kitabına daxil edilmiş şeirlər belə qruplaşdırılıb: Dünya gözəldi; Türkiyədə keçən günlər; Havada eşq qoxusu var; Üzü gələcəyə; Ötən günlərdən yadigar nəğmələr. Yuxarıda təqdim etdiyimiz şeir parçaları da bu bölmələrdən götürülüb. İstərdik ki, "Arzular kəhkəşanı" kitabındakı şeirlərin hər biri linqvopoetik baxımdan geniş və sistemli şəkildə araşdırılsın. "Arzular kəhkəşanı" kitabının sonunda Rafiq Yusifoğlunun çap olunmuş kitablarının siyahısı verilib: müxtəlif məzmunlu 65 kitab. Assosiativ olaraq şairin "Altmış beş ildi ki..." şeiri yada düşür. Bu da taleyin işidir: yaşadığın 65 illik bir zaman kəsiyində 65 kitab çap etdirəsən... "Elə bilirəm uşağam",– deyən Rafiq Yusifoğlunun sinəsi sözlə doludur:

Mən tarixin o başından
Süzülüb gələn işığam.
Saçım-saqqalım dümağdı,
Elə bilirəm uşağam...

Rafiq Yusifoğlu! Baharına qış deməyəsən, ölən sevginə görə inildəməyəsən! Yazıb-yaratmaq eşqin tükənməsin! Sirli-sehrli gələcək üzünə gülsün! Yaşayacağın hər ildə bir kitab çap etdirəsən!

**Əzizxan Tanrıverdi**
***filologiya üzrə elmlər doktoru, professor***

*"Ədalət" qəzeti, 12 mart 2015*

# “ARZULAR KƏHKƏŞANI” VƏ YA KÖNÜL DÜNYASININ QIRXINCI QAPISINA DÜŞƏN AÇAR

Bildiyimiz kimi, həyati tipiklik ara-sıra özünü tarixi aspektdə də büruzə verir. Ədəbiyyatda, poeziyada da bu zəmin əsas qayəçi ruh şəklində təzahür edir. Bu zəruri faktı filologiya elmləri doktoru, professor, görkəmli şair Rafiq Yusifoğlunun ADPU nəşriyyatında Zahid Xəlilin redaktorluğu ilə işıq üzü görmüş **“Arzular kəhkəşanı”** (2015) kitabında da dəqiq müşahidə etmək mümkündür. Səmimi deyək ki, özündə əsasən müasir problemləri əks etdirən bu kitabda ənənəçilik ruhu ilə diqqəti çəkən insan-həyat gözəllikləri, haqqı dərk etmə və s. qabarıq şəkildə diqqəti özünə çəkir. Əsas etibarilə müəllif yaddaşının dərin qatlarında çırpınan həyat qayəsini xalq yazı hüsnü ilə tarazlaşdırır, prosesləri ideal aspekt kimi qabardır.

Kitabda müəllifin bu çağa qədər çap olunmayan şeirləri və özündə normativ dəyər əsasları verən əsərləri toplanıb; o şeirlər ki, ədəbi qatında müəllif ictimai-ədəbi əhatəsi  müəllif ictimai baxışı və müəllif sevgisi vəhdət yaradır. Xalq şeiri ruhu ilə süslənmiş kitab ümumilikdə real hadisələrə, konkret məqsədə əsaslanır. Kitabdakı faktoloji zənginlik də diqqəti çəkən əsas amillərdən biridir.

Çiçək işığa can atır,
Böcək işığa can atır.
Köksümüzdə dustaq olan
Ürək işığa can atır…

***

Mən mələk deyiləm, adi bəşərəm,
Günaha batırır həyat adamı.
Nəfsin qulu olsam, adiləşərəm,
Qoruya bilmərəm təmiz adımı.

*(“Bircə günahım var”)*

Bəşəri ovqata ictimai zəmin verən “Arzular kəhkəşanı” kitabının ədəbi motivasiyası zəruri-effektiv səciyyə daşıyır. Burada toplanmış şeirlər oxucu baxışlarına könül açmaqla, həm də cəmiyyət reallığı tələb edir. Elə yuxarıda bir bəndini nümunə kimi verdiyimiz şeirlərdə də müəllif ictimai zərurətlərə uyğun təsnifat verir; həmçinin bu şeirlərdə səmimi-konkret fikirlərin kompozisiya və bədii-ictimai məğzi, psixofizoloji dinamiklik maraqlı status kimi diqqət çəkir. Bəşərin bütünlükdə işığa can atması, nəfsə qul olmaqla adiləşmək məğzi ideoloji proseslərdir və bu kimi aspektləri ədəbi ruha sığışdırmaq Rafiq müəllimin yaradıcılıq uğurudur.

“Arzular kəhkəşanı” kitabının təhlil metodu ən çox ictimai-ədəbi rakursda daha realdır. Bu mənada, kitabda mətnin dərki, mövzunun məntiqdə bitkin forması, istedadlı şairin mətnə qarşılıqlı yanaşma təsirləri, fikri təqdimetmə dürüstlüyü və s. həyata baxışın sivil tərzləri kimi xarakterizə edilir. Lakin fərdi mülahizələrdəki pessimistlik (bunu kitab boyu bir sıra şeirlərdə müşahidə edirik) ovqata bir qədər əks təsir edir. Bu da, şübhəsiz, müəllifin ictimai ampulada modern çək-çevirə məruz qalmasından irəli gəlir. Və açığı, müəllifin xoş ovqat missiyası alqışalayiqdir, onun ictimai məna kəsb edən şeirlərindəki bəşərə eyhamlı ismarıcı heyrət yaradır.

Sənsiz bu kainat deyil gözümdə,
Hava buludludu, hey çisəkləyir.
Sənə zəng gələndə mənim üzümdə
Ağrı qönçə tutur, qəm çiçəkləyir…

*(«Sənə zəng gələndə»)*

***

Mənim sevgi gülzarımdan
Elədilər sürgün səni.
İtirirəm zərrə-zərrə,
Qətrə-qətrə hər gün səni...

Göründüyü kimi, kitabda ictimai zəmin və əlaqələri müzakirə obyekti etməyə gerçək mənada ehtiyac var. Müəllif bəşəri eyhamlara ictimai məna verməklə, həyat və tale dürüstlüyündə yekun məğzə diqqət çəkir. Bəlkə də bu səbəbdən Rafiq müəllim kitab boyu eyhamla təcəlla edən məntiqə xas adiliklərə bu qədər önəm verir. Bu amilə "Mənsiz dünya" şeirində də meydan var:

Keçir ürəyindən günəş şeirimin
Hər titrək misrası bir şüa kimi.
"Mənsiz yaşamağa öyrəş" şeirimi
Hər gün oxuyursan bir dua kimi.

Ədəbi mühitdə kifayət qədər tanınmış Rafiq Yusifoğlunun yeni kitabında həyati və ictimai əhəmiyyət kəsb edən zərurətlər gerçək mənada çoxdur. Əsas odur ki, müəllif bu ədəbi-ictimai məğzi nəticə etibarilə bir kod altında sistemləşdirməyi bacarıb.

Yaxud da şairin əzabın dadına baxmaq şərəfi, dərdi otuz illik həsrətdən sonra doğulan çağa kimi qucaqlayıb oxşamaq marağı və s. kitab boyu fəlsəfi ovqat yaradır. Maraqlıdır ki, bu ədəbi proses onun bütün şeirlərində öz kreativliyini saxlayıb. Bəs müəllifi bu zərurətə sövq edən nədir? Bunu təbii ki, onun şeirlərindəki dünya, həyat və zaman məfhumları özündə geniş ehtiva edir.

Sevgi əridərmiş dumanı, çəni,
Güllərin xətrinə yağış yağarmış.
Bir sözün özümə qaytardı məni, –
Bir sözün içinə dünya sığarmış!

*("Sənin bircə sözün")*

Buludlar,
Bəyaz qar
Ən uca zirvələrin bələyidi.
Əslində ən uca zirvə
Dəlicəsinə sevdiyin,
ancaq fəth edə bilmədiyin
insanın ürəyidi… *("Ən uca zirvə")*

Səmimi desək, müəllifin sevgi şeirləri maraqlı quruluşdadır. Bu şeirlər oxucu dərketməsinə gerçək mənalandırmalar verə bilər. Müəllif müzakirə obyekti etdiyi prosesləri qabarıq verməklə kitab boyu məhəbbət motivli şeirlərində ictimai-ədəbi təsir miqyaslarını böyüyən və artan həddə gətirib. Xarakter etibarilə maraqlı təsir bağışlayan bu şeirlərdə həmçinin ictimai və mistik çək-çevirlər (bir növ müəllif cəhdləri) dövrəyə uyğun təfsirə uğramağı bacarıb. Bu səbəbdən kitabdakı SEVGİ obrazı heyrət doğurur. Müəllif hicranın gen sahillərinə tuşlanmış vahimə dolu anların yaradacağı dəhşətləri bu eyham üzrə vaqeə edir, ardınca da birbaşa, təpəsi oyum-oyum, dağı səngər-səngər, gecə-gündüz oyaq torpağa bir səcdəlik haqqı tapır, bu təcəllada sevgi yağışı yağdırır. Kim bilir, neçə ürəkdə bu sevgi yağışlarından neçə arzu rahatlıq tapıb…

Gözlər öz-özünə dolmur, bilirsən,
Sevgi çiçəkləri solmur, bilirsən.
Hara gedirəmsə, səni görürəm,
Bu qədər təsadüf olmur, bilirsən…

***

Nə qəlbimin rahatlığı,
Nə gözümün yuxusu var.
İçimdə bir nakam sevgi,
Qəfil hicran qorxusu var.

Açığı, adı çəkilən kitabda toplanmış sevgi ruhlu şeirlərin hamısı yaz yağışı kimi düşür. Bu tərz şeirlərdə əvvəlki illərin ənənəvi ovqatları, insan-mühit və tale seyrçiliyi diqqəti xüsusilə çəkir. Təkcə bu cəhət deyil, bu şeirlərdə cəm olan sosial qayə, ictimai həssaslıq və bu zəmində ehtiva edən həyati reallıq da sevgi və cəmiyyət rakursunda uyğun müzakirə obyektidir. Müəllif bu prosesdə fəal tərəf olaraq zamana fərqli gerçəklər əxz edir, əsas etibarilə ruhi istismarı qətiyyətlə pisləyir, etinasızlıq və diqqətsizlik hallarını xeyirxahlıqla, belə deyək, tənqid edir, sonda bəşərin, bütün aləmin məhz sevgidə təzahürünə diqqət çəkir.

Kitabdakı şeirlərin bir neçəsində həyata baxış fərqlidir; müəllif tale yüksəlməsində geriliyə müasir fon verir, oxucu zənnetməsini bir növ labirintə salır, onu gizli fikrin mahiyyətini tapmağa sövq edir. Və sonra da bu kodeksi daha mürəkkəb əhatəyə salır, çiliklənmiş güzgüdəki əksin param-parçalığını həyat vəhşəti kimi xarakterizə edir; amma çıxış yolu üçün də ipucu saxlayır. Bu əks çevrilmədə də oxucu dərin izharlara mübtəla olur, epiik təbəddülatları gerçək mənada dərk etmək şansı qazanır.

"Arzular kəhkəşanı" kitabı ümumilikdə həyatın təzahür tiplərinə meyillidir. Bu proses müəllifin özünün də həyat qayəsinə mümkün ardıcıllıq verir. Ola bilsin ki, o da çoxları kimi doğulandan qəlb rahatlığını axtara-axtara qalıb; hər halda onun axtardığı ədəbi qayədir, düşündüyü ruha təsir edir. Bəlkə də buna görə onun şeirlərinin ümumi hissiyyatı bu amilə istinad yeridir.

Kitab ilk baxışdan dialoq məndəricəlidir; xarakterlər, obrazlar müasir həyatın adamlarıdır. Burada oxucu qarşısına çıxarılmış ictimai-həyati nüanslar konkret ədəbi-ictimai müstəvilidir, bu ədəbi situasiyada müəllif çək-çeviri poeziyanın imkanları çərçivəsində manevrlər edir. Ara-sıra təzə-tər şeirləri ilə oxucu seyretməsinə tuş gələn Rafiq Yusifoğlu bu dəfə də zaman üzrə müəyyənləşdirdiyi poetik imkanlarını qəti şəklə salıb, özünü oxucularına inkişafının yeni fazası ilə təqdim edib. Səmimi deyək, onun şeiriyyətinin yaddaşa təsir gücü ədəbi-poetik komponentlərlə konsentrallaşır. Bu şeiriyyətin real zəminə əsaslanan hissəsi insan və gerçək münasibət meyarlarına köklənib; bir növ həyat-qınaq və taleyə vurğunluq məğzi kəsb edir, ədəbi miqyaslara obrazlı ovqat vermə ilə diqqət çəkir.

"Arzular kəhkəşanı" kitabının dili şirinliyi, fikir oynaqlığı, klassik formaya sirayət etməsi, hətta mistika ənənələrinə müraciəti və s. müəllifin gerçək mənada sadə ürəkli insan, dərin hissiyyatlı qələm sahibi olduğunu təsdiqləyir. Məntiqi təzahürü və ictimai eyhamı ilə diqqəti çəkən bu kitabdakı şeirlərin bəzisində müəllifin mübtəla olduğu həyati məqamlar, onun haqq-ədalət və azadlıq uğrunda mübarizə hayqırtıları özünü əks etdirir. Eləcə də şeirlərdəki

müəllif-vətəndaş qayəsi, sözə bənd olma və sözdən inci tökmə məharətləri də diqqət çəkən vacib cəhətlərdir. Bu şeirlərin başa düşülən dildə yazılması, müəllifin anlaşılan-eyhamlı fikirlər ifadə etməsi, diqqətlərdə mümkün duyğulu anlar yarada bilməsi də hazırkı ədəbi mühitin ideya-bədii xüsusiyyətləridir.

Çiçəyim, yaxanı aç, arıyam mən,
Köksünə can atan ac arıyam mən.
Qırxıncı otağa tələsir ürək
O gizli qapının açarıyam mən…

Əslində Rafiq müəllimin yeni kitabını könül dünyasının qırxıncı qapısına düşən açar hesab etmək olar. Bu kitab, bütövlükdə özünün tale və həyat gedişatı məğzləri ilə müasir tempə uyğun hadisə və proseslərin içərisində axtarır deyə, qələmə aldığı şeirlər nəticə etibarilə məzmun və mənada əhatəli xarakterizə olunur. Və əsas da budur ki, bu şeirlər həyat materialları əsasında səciyyələnib, real zəminlər yaradır və ədəbi qayəcə öz publisistik normasına qalxa bilir. Bu yüksəlmədə təkcə müəllif ictimai dərketməsi alqışlanmır, həm də oxucu yanaşması qaneedici faktor kimi öz miqyasını böyüdür. Nəticədə müəllif-oxucu münasibətləri tənzimlənir və yazının ictimai çəkisi artır.

Quşlar işıq xəttinə düzülüb kəhraba tək,
Od rəngli bir örtüksə düşüb yerin üstünə.
Elə bil ki, quşları məftil şişə çəkərək
Qoyublar köz-köz olan lalələrin üstünə…

Müşahidə, seyretmə nəticəsində ən sadə, ən adi görüntüyə belə poetik manevretmə və s. Rafiq müəllimin yaradıcılıq üslubu üçün səciyyəvidir. Onun yeni kitabındakı şeirlərin çoxu fəlsəfi məna daşıyır. Bu şeirlər elə yuxarıda nümunə kimi verdiyimiz “quşlar və işıq xətti” adlı bir bəndlik şeir bir az da həyat-tale təcəssümüdür. Oxucuların könül dünyasını isti sığallara bükən şair zamanın, həyatın və taleyin ən çətin məqamlarına sirayət edən

acıları belə, bir az duyğudan, bir az zəruri tərzlərdən doğan proses kimi qabardır.

Ümumilikdə təzad yəqinliyində xarakter cızan müəllif hadisələri poetikləşdirmək imkanlarına yiyələnmək üçün ciddi cəhddədir. Söz yox, onun yanaşmasında bəşəri miqyaslar da hiss olunandır, lakin həyat, tale, sosial zəminlər onun daha çox aludə olduğu zəminlərdir deyə nüfuz edə bilmək gücü onun məzmun əhatəsində yenilməzliyə sövq edir. Ümumiyyətlə, insan xarakterinə nüfuz edə bilmək çətin prosesdir; bu mənada Rafiq Yusifoğlunun yaradıcı marağı həyata baxış məsələsidir.

"Arzular kəhkəşanı" bütövlükdə xarakterlər qallereyasıdır. Lakin burada ara-sıra ictimai təcəlla da görürük. Müəllif sanki hicrandan doğan ağrılara işarət vermək məqsədi güdür. Burada baş obraz müəllifin özüdür – həsrət sancılarına tuş olan şairin özü. Və müəllif fikri, istəyi bu obrazı zamanın dərinliklərinə enməyə məcbur edir. Ən çox da sosial zəminin, həyat acısının təcəssüm etdiyi bu kitabda şəxsiyyətin ictimai-ədəbi ruhuna birbaşa keçid var. Kitaba saldığı bir neçə şeirin ziddiyyəti ilə müəllif sanki həyata israrçılıq məğzi güdür. Ola bilsin, o, bununla hansısa qeyri-dəqiq gerçəklikdən doğan acının bitkin nigarançılıq yanğısından doğan yenilməzliyə işarə vurur, hər halda, onun bu tip fikir sövqetməsində eynilə də taleyə isti bir nüfuzetmə var. Müəllifin eşq-tale çək-çevirini bir vüqar əhatəsi kimi xarakterizə etməsi poetik nizamlanma üçün vacib məqamdır.

Rafiq müəllim əsasən səmimi duyğuların, real ehtiramın cəm olduğu həsretmələri nəzmə çəkir. Lakin bu vəsfin özündə də haradasa bir yanğı əhatəsi var: fikirlərin çoxunda duyğusal həyat təsirləri aşkar-izhardır.

Kitabda sivil yanaşma bir tərz olaraq deyil, bir ənənə olaraq da deyil, bir vacib zərurət kimi diqqət çəkir. Bir neçə şeirin sərt reallığında həm də həzin, mülayim bir təsvir var. Müəllif sanki taleyin-həyatın hicran qoxusundan bir qədər uzaqlaşıb, sosial-məişət zəminlərinə mülayim bir baxış sıçradıb. Onun şeirlərinə nəzər salırıq və belə qənaətə gəlirik ki, sanki hansısa bir qeyri-adi

tərpənmə hazırkı ədəbi nəslə bir təlatüm verib. Müəllif öz fikirlərini poetikanın tələblərinə uyğun sıralayıb, onun fikir təqdim etməsi poeziya qaydaları ilə israrlı çək-çevirdədir; açığı, onun qənaətləri də ara-sıra ziddiyyətə səbəb verir – təkcə məzmuna sirayət etmir, həm də ictimai realizədə əks olunur. Ancaq onun şeirlərində elə məqamlar da var ki, sükutdan cingildəyən səda kimi parlaqlıq verir.

Açığı, kitab boyu müəllifin öz obrazları ilə dərdləşməsi yaxşı haldır, lakin həyatla yaşam arasında cərəyan edən ciddi söhbətləri poetikaya uyğun nizamlamaq, məzmuna və mənaya əhatə vermək də şeirin əsas prinsipləridir.

Kitaba salınan şeirləri müasir yenilikdə təzahur edən iti yerişli ruhsallığa uyğun hesab etmək olar. Bu tip şeirlərdə müəllifin maraq əhatəsi duyğusallıqdan çıxır, real, həm də düşündürücü cəbhələrə keçir. Bu şeirlər də özlərinin düşündürən ovqatı ilə bu əhatədə vargəldədir; sanki bu şeirlər poetik bir tablodur, ictimai-qabarıq nüanslara daha çox sirayət edir.

"Arzular kəhkəşanı" kitabında personajların təsviri önəm kəsb edir; müəllif eyhamı ictimai təsirə əks təsir şeirlər barədə müsbət fikir ifadə etməyə əsas verir. Müəllif fikir süzgəcində sözün proyeksiyasını dinamik cızıb, hadisələrin görkəmini mənada cilalayıb, oxucuda müsbət aura doğurub. Kitabdan hansı şeiri nümunə kimi versək, onun mahiyyət qatında həyata baxışı israrçı zəmində görmüş olarıq. Bu da məntiqə yekun olaraq inanca səbəb verir.

Təbii ki, fikir, düşüncə yaradıcı şəxsin həyat qayəsidir. Onun ədəbiyyata baxışı da elə bu tipiklikdə realdır. Rafiq Yusifoğlunun yeni kitabını həyat və tale məsələlərinə sirayətetmə ilə təzahürdə gördük. Uğurlu, bəşəri olsun!

**Hikmət Məlikzadə**

*Sözün sehri, 01-29 fevral 2016, s.5*

## “ÜÇÜNCÜ QƏRİNƏ”

Rafiq Yusifoğlunun yeni kitabı yeni qərinənin müjdəsidir. Adətən mənə təqdim olunan hər bir kitabı böyük həvəslə, sevgiylə qarşılayıram. Bu da səbəbsiz deyil. Birincisi, hər bir kitab mənim üçün həm də yeni sözün doğuluşudu, yeni fikrin təqdimatıdı. Və təbii ki, hər bir yeni kitabın içərisində ən azından barmaqsayı yeni fikrə rast gəlmək mümkündür. İkincisi də təqdim olunan hər bir kitab həm də müəllifin oxucuya münasibətidi, ərkidi, diqqətidi. Üçüncüsü, bu həm də kitabı alanın özünün sözə sayğısıdı. Bax bu mənada mənə təqdim olunan yeni kitabları heç vaxt diqqətsiz qoymuram. Xüsusilə, müəllifin avtoqrafla bağışladığı kitab mənim üçün bir az da əziz, hörmətli olur.

İndi isə sizə barəsində danışmaq istədiyim, daha doğrusu, bir oxucu olaraq fikirlərimi sizlə bölüşməyə çalışdığım kitabın müəllifi şəxsiyyətinə, insanlığına, bunlarla yanaşı özünəməxsus qələminə böyük hörmət bəslədiyim Rafiq Yusifoğludur. Rafiq müəllim həm bir araşdırmaçı, həm bir publisist, həm bir alim, həm bir mətbuat işçisi, nəhayət, pedaqoq və şair kimi özünü söz məkanında çoxdan təsdiq edib. Onun təqdimata ehtiyacı yoxdur. Çünki Rafiq müəllimin bir-birindən maraqlı kitabları ilə yanaşı, oxucu önünə çıxardığı “Göyərçin” jurnalı da öz-özlüyündə hər şeyi deyir. Yeri gəlmişkən, əlimdə olan kitabın son səhifəsindəki bir informasiya diqqətimi çəkir. Oxucu üçün nəzərdə tutulmuş həmin səhifənin başlanğıcında yazılıb: “Rafiq Yusifoğlunun çap olunmuş kitabları”. Mən həmin siyahıya göz yetirirəm. “Üçüncü qərinə” də daxil olmaqla Rafiq müəllim 72 kitabın müəllifidir. Həm şeir və poemalar, nəsr, publisistika, tərcümə kitabları, dərsliklər, monoqrafiyalar… Bu qədər zəngin söz dünyası olan Rafiq Yusifoğlunun yeni kitabı da mənim masamın üstündə yerini tutandan diqqətimi özünə çəkdi. Və mən onun bu kitabdakı şeirlərinin ilk bölməsinin “Üzü sabaha” olmasını təbii qarşıladım. Çünki təkcə biz insanların deyil, həm də bizim sözümüzün də üzü sabahadır. Şair də dünənin,

bu günün sözü ilə yanaşı, sabahın da sözünü oxucu qulağına pıçıldayır və deyir ki:

Ulu Tanrı, qəlbimi çəkirlər yüz sınağa,
Nadanların önündə qoyma məni sınmağa!

Və yaxud:

Ona insan demək çətindir, ürək,
Kimin ki, yaşamaq həvəsi yoxdu.
Neçə ki, fürsət var, sevək, sevilək,
Vallah, bu dünyanın əvəzi yoxdu…

Zənnimcə, bu qədər inamlı, bu qədər yüksək əxlaqi dəyərlərin alt qatından gələn enerjinin misralara hopdurulması çox gözəldir, çox mükəmməldir. Kitabın ilk səhifəsindən oxucunu yaşamaq eşqi ilə silahlandırmaq və sabahı bu gündən daha yaxşı olacağına inandırmaq, bir az da obrazlı desəm, cənnətin elə bu dünyada olduğunu sətiraltı söyləmək, məncə, Rafiq Yusifoğlunun böyük yaradıcılıq potensialının bir işartısıdır. Ona görə də:

İman indi gəldi, din indi gəldi,
Ölmüş ümidlərim dirildi gəldi!
Əsl yaşamalı gün indi gəldi,
Hələ neçə-neçə il qabaqdadı…

Və yaxud:

Heyrətə gəldim yağışa baxıb,
Ələnən leysan dünyanı yuyur.
O qədər yağıb, o qədər yağıb,
Qalmayıb göyün üzünün suyu…

Doğrudan da, bəzən fasiləsiz yağışa pəncərədən baxanda bizə elə gəlir ki, göy üzündə daha yağış qalmayacaq, su qalmayacaq. Və ümumiyyətlə, bu yağış, sonuncudu… Təbii ki, burada nostalji hisslər də var, bir xatirə dəftərinin vərəqlənən sətirləri də var, buna köklənən bir dünən də, sabah da var. Və bütün bunlar da adamı haldan-hala salır, onun əhvalını dəyişir. Gah

ovqatını çovğun doğrayır, gah da ovqatının tumurcuğu çırtlayır. Və o yağış nəfəsini dərib yerlə göyün arasından çəkilib gedəndən sonra adama elə gəlir ki, o da yuyuldu, o da bu dünya kimi təmizə çıxdı. Hələ üstəlik həssas oxucunu xəyallara qərq edən "Qalmayıb göyün üzünün suyu" misrasının sətiraltı mənası… Amma… Təbii ki, bu bir şair düşüncəsi, bir şair yozumudu… Biz də sözün şair dilindəki çalarlarına, rənglərinə, hətta ritmlərinə elə o vaxt köklənirik ki, o bizim içimizi tərpədə bilib. Elə bu şeirdə olduğu kimi:

Axı öyrəşməyib bu sakitliyə,
Neyləsin dalğası perikən dəniz?
Demə mənim üçün təkcə qəm imiş
Hamıdan vəfalı, hamıdan əziz…

İnsan hisslərini, duyğularını təkcə sözə köçürmək yox, həm də onu kiminsə yaddaşına, dilinə köçürməklə o vaxt öyünür ki, həmin o yaddaşa köçən dildə səslənir, təkrarlanır. Bu da təbii ki, rəssamı da, şairi də, heykəltaraşı da, bir sözlə, yaradıcılıqla məşğul olan Allah bəndəsini həm coşdurur, həm də ona bütün mənalarda bir ümid verir. Öz-özünə güvənərək, istinad edərək bu nəticəyə gəlir ki, gördüyü işə elə bu yerdə yazdığı şeir gərəkdi, ona ehtiyacı var.

Mən sizə söylədim ki, bu fikrin arxasında mənalı, düşündürücü, təzə, özünəməxsus sözü tuturam, görürəm. Və dediyim ampulada indiki anda Rafiq Yusifoğlunu da görürəm. Təkcə bu kitabda Rafiq müəllim kifayət qədər yeni fikrə könlünü yuva edib və həmin fikirlər könlündən də qanadlandırılıbdır. Nəticədə "Üçüncü qərinə" şeiri dünyaya gəlib:

Çox şükür!
İki 33 il arxada qaldı –
Üçüncü qərinəyə
qədəm basıram!

Çox şükür!
Həmişə qəlbimin səsinə
qulaq asıram.
Allahım izn versə
uçub qonacağam
zirvəyə,
üzüb gedəcəyəm
dərinə.
Allahın mənə
yeni bəxşişidi
üçüncü qərinə!

Sizə təqdim etdiyim "Üçüncü qərinə" kitabı altı bölmədən ibarətdir və hər bir bölmənin necə deyərlər, öz ovqatı, öz şeirləri var. Sanki hər bölmə oxucunun zövqünə və yaşına hesablanır. Mən tanış olduğum fəsillərdəki şeirlərin damarında bir ilin, ömrün də fəsillərini gördüm. Və bilmirəm, Rafiq müəllim razılaşacaq, yoxsa yox, mənə elə gəldi ki, bu şeirlər yaz və payız arasındadı, yazdan payıza doğru gedir… Qışa isə hələ çox var… Ona görə ki, şair demişkən:

Məni sevmək,
mənə güvənmək
dibini daim sellər-sular yuyan
uçurumun üstündə
ev tikmək kimi bir şeydi…

Bax, mən bu fikrə istinadən deyirəm ki, payıza doğru gedən bu ömrün sevmək, sevilmək imkanı hələ çox olacaq… Və həmin sevgilərin bir damarını da oxucular xeyir-dualarıyla, öz diqqətləriylə həmişə diri saxlayacaqlar. O sevgi digər sevgilərin ağuşunda özünü rahat hiss edəcəkdir. Mən buna inanıram, Rafiq müəllim!

**Əbülfət Mədətoğlu**

*"Ədalət" qəzeti, 12 iyun 2017-ci il.*

## HƏR ŞEY HƏYATININ BİR PARÇASI, MƏQAMIDIR

Çağdaş ədəbiyyatımızın görkəmli nümayəndələrindən biri olan Rafiq Yusifoğlunun yaradıcılığı çoxtərəflidir; şair, ədəbiyyatşünas, publisist kimi zəngin ədəbi yol keçib. 80-ci illərdən bəri ədəbiyyatşünaslıqda yollarımız bərabər yürüyüb, indi də Dissertasiya Şurasında tez-tez görüşürük. Həm də ali məktəbdə çalışır, necə deyərlər, burada çalışdınsa, gərək tələbələri də nəzərə alasan. Bu cəhətdən Rafiq Yusifoğlu tələbələrinə borclu qalmayıb, çoxlu proqram, dərslik və dərs vəsaitləri yazıb. Son on beş ildə onun "Ədəbiyyatşünaslığın əsasları" (2001, 2005, 2009), "Uşaq ədəbiyyatı" (2002, 2006), "Müasir ədəbi proses və ədəbi tənqid" (2004, 2014), "Azərbaycan poeması: axtarışlar, perspektivlər" (1998), "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" (2010), "Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri" (2016) kimi son dərəcə gərəkli dərslik və monoqrafiyaları nəşr olunub.

Doğrusu, onun ədəbiyyatşünaslıq sahəsindəki araşdırmalarının niyə diqqətdən kənarda qaldığını kəsinləşdirə bilmirəm. Hər halda bunu ədəbiyyatşünaslığımızın ayağına yazmaq lazım gəlir. Bu üzdən mən də onun zəngin ədəbiyyatşünaslıq fəaliyyətini və bu sahədə gördüyü işləri qiymətləndirməyi düşünürdüm. Lakin Rafiq Yusifoğlu həm də gözəl, bənzərsiz şairdir, yaradıcılığa poeziya ilə başlayıb və düz əlli ilə yaxındır ki, ona sədaqətini ifadə edir. Və bu əlli ildə onun əlliyə yaxın şeirlər kitabı çıxıb. Bu, demək olar ki, ildə bir kitab edir. Özü də heç bir kitabında təkrar şeirlər çap etdirməyib. Hər zaman oxucuların görüşünə yeni şeirlərlə gəlib. Sonuncu şeirlər kitabı **"Üçüncü qərinə"** (Redaktoru Məhərrəm Qasımlı, Bakı, 2017) bu günlərdə işıq üzü görüb. Elə məni də fikrimdən daşındıran məhz bu kitab oldu; elmi əsərlərini təhlil edəcəyimi düşündüyüm halda, şeirləri özünü qabağa saldı. Bəlkə də belə daha ədalətli olar; axı Rafiq Yusifoğlu yaradıcılığa şeirlə başlayıb və çağdaş poeziyamızı obraz və obrazlılıq, bədii təsvir və ifadə vasitələri, bədii detal, poetik ruh

baxımından əhəmiyyətli dərəcədə zənginləşdirib, yeni üslubi çalarlar gətirib.

“Üçüncü qərinə”də toplanan şeirlər son iki ilin şeirləridir, yaxşıdır ki, şeirlərin altında zaman və məkanı ifadə edən qeydlər də var; bu şeirlərdə nələr yoxdur; insan həyatının bütün böyük, sirli, sevincli, kədərli anları, həyatı, sevgini, başlanğıcı, sonu anlatmaq və s. Bu şeirlər insana dünyanı və kainatı anladır, səni gündəlik qayğılardan uzaqlaşdırır, həm də həyatın özünü göstərir. Şair bu şeirlərində yeknəsəq bir həyat təsvir etmir, yaşadığımız cəmiyyətdə görmədiyimiz nəsnələri göstərir. Onun şeirlərini sən bir mənəvi ehtiyac olaraq oxuyursan və düşünürsən. “Əsl yaşamalı gün indi gəldi”, “Bu gecə sübhəcən”, “Bir yağış yağır ki”, “Xoş gördük, ömrümün təzə payızı”, “Çox şükür, builki qışı da gördük”, “Başımın üstündən uçan durnalar”, “Bir qocaman dağam mən”, “Yaşamaq lazımdı” və sair onlarla şeirlərində yaşantılarını bütün dəyişik yönləri, çalarları ilə verir. Bu yaşantılar şairin təqdimində yenidir; sanki bu yaşda yaşadıqlarını heç zaman qələmə almayıb, yəqin ki, bundan sonra yazdıqları da başqa bir yaşantı olacaq. Bu yaşantılardan biri də doğma torpağı, yurdu, el-obanı içində yaşatmaqdır. Deyim ki, Rafiq Yusifoğlu bir vətəndaş kimi narahatlıqlarını həm də yurd sevgisində büruzə verir. Bu yaşda doğma diyarında özünü qərib hiss edən lirik Mən doğulub boya-başa çatdığı, lakin heç zaman gedə bilmədiyi torpağı yuxusunda görür. Başqa bir şeirində “Biz bütün arzulara yuxuda çatmağı çox sevirik…” fikri də burada yerinə düşür. Yuxuda görmək ona əlinin çatmaması deməkdir, ona qovuşmaq istəyini əks etdirməkdir. Lakin nə yazıq ki, şair (təkcə şairmi!) hələ bu imkandan məhrumdur.

Şimşək oynayırdı bulud içində,
Külək işardırdı kül altda közü.
Dağlar dayanmışdı sükut içində,
Pəyhanın, Qısrağın dolmuşdu gözü…

Kimsə eşitməsin qoy ahlarımı,
Ruhuma şəfəqlər səpirdi Allah.
Ot basan cığırlar ayaqlarımı
Necə qucaqlayıb öpürdü, Allah?!

Rafiq Yusifoğlunun şeirlərinin özəlliyi ondadır ki, strukturu sadə bir detal üzərində qurulur; bu detalda yaşadığı ovqatı, içinə aldığı düşüncəsini söyləyir və mütləq şəkildə onu həyatla, yaşamla bağlayır. Şeirlər duyğu və həyəcanların təsvirindən asılıdır, çox qısa da ola bilir, ya da uzağı beş altı bənddə özünü ifadə edir. Bu şeirlərin hər birinin tarixi var, bu tarix elə şairin duyğularının stenoqramı kimi mənalanır. Hər şeyin bir yaranışı olduğu kimi, duyğuların, yaşantıların da yaranışı vardır. Bu yaşantılardan biri "Yaşamaq lazımdı" şeirində orijinal bir tərzdə ifadə olunub. Oxucu dərhal düşünür: "Kimin, nəyin naminə?" Cəmi altı sətirdən ibarət şeirdə şair yaşam kredosunu və nədən yaşamaq lazım olduğunu belə açıqlayır:

Həyat bizi
mübarizəyə səsləyir
açıq-açığına.
Yaşamaq lazımdı
yaxşı adamların xətrinə,
pis adamların acığına!

Yaxud, ilin dəyişməsi nədənsə insanda fəlsəfi düşüncələr oyadır, xatirələr çözələnir, sən sadəcə köhnə ildən yeni iləmi keçirsən; il dəyişirsə, nələr dəyişir?

Küçə həmin küçədi,
Şəhər həmin şəhərdi,
Mən həmin mənəm –
Təkcə təqvimdə
2015-ci ildi…

Rafiq Yusifoğlunun poetik obrazlarından biri də dənizdir. Onlarla şeiri dənizə həsr edib, lakin bu şeirlərin hər birində yalnız dənizin təkrarsız mənzərələrini yaratmır, həm də onu bir bədii obraz səviyyəsinə qaldırır, dənizlə həmsöhbət olur, onu əzizləyir, sevir, qorumağa çalışır və hamını buna səsləyir. Bu poetik çağırışda şairin vətəndaşlıq missiyası başlıca yer tutur.

"Əlli ildə səbrlə, nəvazişlə" əsəblərinə sığal çəkən dənizin boynunda böyük "haqqı-sayı" olduğunu dilə gətirir. Lakin şairin lirik Məninin dənizi sevənlərdən bir fərqi var: "Siz həmişə onun sahilindəsiniz, mən isə onun qoynunda"… "Tənha qoymayacam", "Dənizdə səhər", "Dəniz duyur", "Dəniz, sahil, ləpədöyən", "Dəniz sevgisi" və s. onlarla şeirində dəniz müxtəlif çalarlarda təsvir edilir. Bu şeirlər insanla dənizin söhbəti kimi yadda qalır. Dəniz də insan kimi bir varlıq olaraq göstərilir; onu tənha qoymaq istəmir. Dünya "istidən od tutub yananda", "suları şaxtadan donanda" belə onun yanında olur. Şairin dənizi də insan kimi duyur, hiss edir, üşüyür… İl boyu dəniz üzərində uçuşan qağayıların dəniz sevgisi son dərəcə poetik şəkildə verilir:

Dayazda üzən balıqlar
Arabir düşürlər
pis günə.
Acgöz quşlar
qəflətən şığıyırlar
onların üstünə…
Dalğaların üzərində
ora-bura uçuşub
yem gəzir qağayılar
İlin bütün fəslində…
Onların da dəniz sevgisi
qarın sevgisidi əslində….

Rafiq Yusifoğlunun "Üçüncü qərinə" kitabında toplanmış şeirlərinin çoxu Azərbaycandan kənarda yazılıb: İstanbul, Los Anceles, Santa Monika, Venis, Dubay və s. Bu şeirlər "Dünyanın

o üzü və qürbət nəğmələri" bölməsi adı altında toplanıb. Doğrusu, indiyədək poeziyamızda bu silsilədən olan şeirlər yazılmışdır. Rafiq Yusifoğlunun şeirləri isə bu mövzuda yazılan ənənəvi şeirlərdən əhəmiyyətli dərəcədə fərqlənir. Onun sanki qürbətdə yazdığı şeirlər qəriblik üzərində qurulmayıb. Bunun da müəyyən səbəbi var. Şair tanımadığı uzaq bir diyarda oğlu və nəvələri tərəfindən qarşılanırsa, ona "qərib diyar" deməyə dili gəlmir.

Qürbətdə tənhalığın
nə demək olduğunu
qərib duyar.
Tanımadığın
qərib bir diyarda
səni oğlun, nəvələrin
qarşılayırsa,
ora necə deyəsən
qərib diyar?!

Başqa bir şeirində isə bu yerləri öz vətəninə oxşadır və qəriblik hiss etmədiyini dilə gətirir. Ümumiyyətlə, onun şeirlərinin qürbət nəğmələri adı altında verilməsinə baxmayaraq, lirik qəhrəmanın əhvali-ruhiyyəsində qürbətçilik demək olar ki, hiss olunmur. Ona görə belədir ki, şair bu yerləri gəzərkən belə heç zaman vətənini, elini unutmur, yaddan çıxarmır:

Adam burda özünü
zərrə qədər də
qərib hiss eləmir,
elə bil öz evində,
öz oylağındasan.
Günün altında duranda özünü
Yazı düzündə sanırsan,
kölgədə olanda elə bil
Salvartı yaylağındasan…

“Mələklər şəhəri”, “Sakit okean nəfəs alır”, “Santa Monika kitab mağazasında”, “Bu şəhər”, “Səfil kitab oxuyur”, “Möcüzələr qitəsi”, “Vətəndən gələn işıq”, “Marina Del Reydə”, “Qərb diyar, qəribə diyar”, “Santa Monika çimərliyində”, “İki okean arasında”, “Göydə elədiyim dualar” və sair şeirlərində Amerika lövhələri yaradılır. Bu şeirlərdə şairin təkcə təsvir məkanı dəyişmir, düşüncələri, obrazları, təsvir və ifadə vasitələri (elə ifadə imkanları da!) də dəyişir, yeniləşir. Şairi təəccübləndirən bir də Amerikanı hələ “otuyla”, “suyuyla”, “insanıyla”, “cəmiyyətiylə” tanımamasıdır. Burada hər şey ona yeni görünür, yeni göründüyü üçün də möcüzələr ölkəsi kimi gəlir:

Burda nə qədər meyvə var,
hələ dadını bilmirəm.
Burda nə qədər gözəl ağac var,
birinin də adını bilmirəm.
Bildiyim odu ki,
bu bərəkətli torpağa
nə əksən bitəsidi…
Doğrudan da, Amerika
möcüzələr qitəsidi…

Şair Amerikanı, onun təbiətini, insanlarını, Sakit okeanı çox təsvir edir, oxucu üçün o qədər də tanış olmayan cazibədar lövhələr yaradır. Bununla da bu qitənin təbiətinə vurğunluğunu gizlətmir, ancaq qürbəti heç vaxt dərdə əlac hesab etmir, vətəni sevdiyi üçün darıxır, darıxdığı üçün “Qollarını sevgiylə aç, gəlirəm, vətən, gəlirəm!” - deyə doğma yurdun laciverd göylərini heç vaxt unutmadığını dilə gətirir, onun budaqda saralıb-solan bir yarpağına belə vurğunluğunu gizlətmir.

Şairin poetik düşüncəsində torpaq elə hər yerdə torpaqdır, daş elə hər yerdə daşdır. Şair özü üçün müəyyənləşdirir ki, vətən heç də torpaqdan, daşdan ibarət deyilmiş. “Vətəni vətən eləyən demə ana dili imiş…” “Bir dəli sevdadır ömrün mənası” başlığı

altında toplanan şeirlərdə müəllif sevgi yaşında olmasa da, oxucuya yepyeni bir sevgi hissləri, bənzərsiz duyğular çələngi təqdim edir. Bu duyğular, əslində, sevgi yaşının və sevginin yaşının olmadığını göstərir. Məsələ heç də şairin bu sevgini zəruriliyində deyil, onu necə təsvir etməsindədir. "Bir dəli sevdadır ömrün mənası", "Közərdi qəlbimin sönən atəşi", "Ürəyim sevgiylə gəlirdi dilə, Dəvət göndərmişdi sanki göy yerə", "Bir payız günündə gəldik üz-üzə, Hara baxırdımsa, duman, çən idi", "Həsrətin ağlatdı dərəni, düzü", "Hicran dumanında ümidlər itdi", "Sevgimin yolları dirəndi dağa", "Çıxmaq istəsəm də eşq dənizindən, Sahilə qoymursan sevda gəmimi", "Ürəkdə ümidlər tumurcuqlayıb, Sevgi böyüdükcə dünya daralıb", "Nəfəsin toxunsa könül tarıma, İçimdə həsrətin puçurlayacaq" və s. orijinal poetik düşüncələri ilə sanki yeni sevgi hekayəti yazır. Onun sevgisi safdır, təmizdir. Əsl sevginin özü kimi səmimiyyət və saflıq bu şeirlərin başlıca əlmətidir.

Rafiq Yusifoğlunun "Üçüncü qərinə" kitabında toplanmış şeirlərin bir hissəsi "Ağrılar çələngi" başlığı altında toplanıb. Bu şeirlərdə dünyanı düşündürən, onun içindən keçən ağrılar qələmə alınır. Şair sanki bu ağrıları gözlə görür, ona əllə toxunur. Bəzən M.Ə.Sabir kimi "Toylar bizə toy tutur", "Bədbəxt varlıların gözü kasıbların cibindədir", "Neynirəm belə əmini, neynirəm belə dayını", "Elə bil ki, haqq-ədalət Bu dünyayla vidalaşıb", - deyə cəmiyyətdə gedən ağrılara poetik-publisistik münasibətini bildirir. Bu şeirlərdə satirik çalarlar üstünlük təşkil edir. Çağdaş dünyada baş verən proseslərə satirik gözlə baxan şair daim haqq-ədalət axtarışındadır, tərəzinin əyilən gözünü düzəltməyə çalışır və oxucunu da buna kökləyir. Bəzən kinayə, bəzən istehza və təmsilvarilik bu şeirlərə yeni rəng qatır, kiçik parçada böyük mənalar ifadə edir. "Nə üzlə", "Nə vermisən", "Maska", "Şəkər", "İnanma", "Bir xəbisə", "Məmurlar adam olsa", "İnsanlıqdan çıxan adamlar", "Sahibsiz itlər", "Kölgə" və sair şeirlərində cəmiyyətdə olan qüsurları lirik-satirik dillə təsvir edir, insanları insanlığa dəvət edir.

Rafiq Yusifoğlunun "Üçüncü qərinə" adlandırdığı şeirlər kitabı ömrünün üçüncü qərinəsində poetik duyğuların, hisslərin məcmusudur. Bunu həm də obrazları, təsvir məkanları ilə birgə şairin ömrünün anlarından ibarət tərcümeyi-halı hesab etmək olar. Hər şeir onun həyatının bir parçası, məqamıdır. Şeirlərin hər birinin altında günü ilə göstərilən tarix duyğularının, məqamların və onu yaşadacaq düşüncələrinin tarixidir.

**Bədirxan Əhmədov**
**filologiya üzrə elmlər doktoru, professor**
*"Kaspi" qəzeti, 1 iyul 2017*

## BU – RAFİQ YUSİFOĞLUDUR

Rafiq Yusifoğlu – ədəbi prosesdə, məşğul olduğu elm sahəsində, mətbuat aləmində kifayət qədər tanınmış, yaradıcılığı ilə çoxdan etiraf olunmuş şair və publisistdir. Yaşının yetmişinə doğru inamla addımlayan, hər günü yazı masasının arxasında keçən bu insanla ilk dəfə 1975-ci ildən tanışam və bu tanışlığımız dostluğa da çevrilib. O dostluq ki, bir-birimizin yaradıcılığına qətiyyən biganə deyilik, aramızdakı münasibət həmişə səmimidir. Mən onun baş redaktoru olduğu "Göyərçin" jurnalını həvəslə vərəqləyir, nəvələrimi yanıma çağırıb o jurnalda dərc edilən yazıları onlara oxuyuram.

Rafiq Yusifoğlu ciddi elm adamıdır, elmlər doktorudur, professordur. Onun Azərbaycan poemasının inkişaf problemlərinə aid tədqiqatı bu mövzuda ən sanballı bir elmi əsərdir. "Ədəbiyyatşünaslığın əsasları", "Uşaq ədəbiyyatı", "Müasir ədəbi proses və ədəbi tənqid", "Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri" dərslik və monoqrafiyaları, mətbuatda dərc edilən onlarla ciddi məqalələri onu bir tənqidçi, ədəbiyyatşünas kimi tanıdıb. Onun pedaqoji fəaliyyətindən də söz açmaq olar, bir müddət Sumqayıtda orta məktəbdə müəllimlik edib, on il ADPU-da ədəbiyyat nəzəriyyəsindən mühazirələr oxuyub, iyirmi ildən artıqdır ki, Sumqayıt

Dövlət Universitetində çalışır, professordur. Orta məktəb dərsliklərinə xeyli əsərləri daxil edilən Rafiq Yusifoğlu özü də ibtidai siniflər üçün bir neçə dərsliyin müəllifidir və müasir uşaq ədəbiyyatının inkişafında da Rafiq müəllimin xidmətlərini unutmaq olmaz.

Rafiq Yusifoğlu haqqında bu bilgiləri ona görə təqdim etdim ki, onun çoxşaxəli yaradıcı fəaliyyətini göz önündə canlandırım. Sözə, ədəbiyyata, elmə bağlı bir insanı daha yaxşı tanıyasınız. Ancaq mən bu təqdimatla kifayətlənib, onu bir şair kimi təqdim etmək istəyirəm. Rafiq Yusifoğlunun "Yurdum-yuvam" adlı şeirlər kitabı 1983-cü ildə nəşr edilib, amma Rafiq ədəbi fəaliyyətə 1966-cı ildə başlayıb. İndiyə kimi iyirmidən çox şeir kitabı işıq üzü görüb. Ancaq onun bütün şeir kitabları haqqında söhbət açmağı qarşıma məqsəd qoymamışam. Yalnız "Üçüncü qərinə" adlı hələlik sonuncu şeirlər kitabından söz açmaq istəyirəm. Əslində bir şeir kitabı da, hətta bir neçə şeir də bir şair haqqında dolğun təsəvvür yarada bilər.

Altmış səkkiz yaşını ötmüş tanınmış bir şair artıq poeziya ömrünün payızını yaşayır. Payız fəsli özündə bütün fəsillərin gözəlliklərini yaşadır – yazın gül-çiçəkli, bahar rahiyəli, sevgi ilə dolu təbiətindən, yayın qızmarından, qışın qarından, bəyaz dünyasından bu fəsildə bir pay görürsən. Amma payızın da özünə görə, heç bir fəslə bənzəməyən əlamətləri var. Küləyi var, ağacların budaqlarında saralmağa başlayan yarpaqları var, məhsul bolluğu var, toyu var – büsatı var. Rafiq Yusifoğlunun payız ömrünə nəzər salanda da, o rəngarəngliyi – müxtəlif poetik cizgiləri görə bilirik. Yaşın altmış səkkizində də baharlı sevgi duyğuları insanı tərk etməz, içəridə – Məcnun eşqi yatan sinədə duyğuları alovlandırar:

Mənə göndərilən bir qom bənövşə
Qəlbimi köklədi yaz havasına.
Dilimdə xoş sözlər qönçə bağlayıb,
Qulaq as könlümün yaz avazına!

Az qalır içimdə sellər oyana,
Sevgidən, heyrətdən gözlərim dolub.
Hər məni görəndə od tutub yanan,
Közərən yanağın dan yerim olub.

Dolub ciyərimə bənövşə ətri,
Dilimin ucunda əsir sözlərim.
Məni sevən, duyan çiçəkdən ötrü
Yağış əsirgəməz bulud gözlərim…

Alım qadasını alın yazımın! –
Könlümün kükrəyən seli sən oldun!
Bəlkə də gecikən sevgi yazımın
Bənövşə qoxulu gülü sən oldun?!

Gözləri dikilib aya, günəşə,
Gör şair nələrə ümid bəsləyir?!
Köksündən boylanan bir cüt bənövşə,
Məni bir əbədi yaza səsləyir!

Bir qom bənövşə ürəkdə əbədi yaza-sevgiyə çağırış deyilmi? Rafiq Yusifoğlu sevgi şeirlərində təbiidir, insanları hissləri ilə şeirə gətirir. Sevginin əzablarından da yazır, onun şirinliyindən də. Onun fikrincə, sevgi göylərinə arxa çevirmək həyatı adiləşdirər, ömrü qayğılar içində itirər, ürəkdə sevgi çiçəkləri saralıb-solar. Sevgi qəfil gələn selə bənzəyir, qarşısına çıxan hər şeyi yuyub aparır. Bəzən bu sevgi bahardan payıza adlayır. "Çırpır qanadını durna tək meşə, Qoşulub yellərə xəzəllər uçur"; "Çölümə xəzəllər qızıl rəng qatıb, İçimi göynədir sevgi nəğməsi"… Rafiq Yusifoğlu sevgi hisslərini ən qısa şeirlərində də obrazlı şəkildə ifadə etməyin gözəl nümunələrini yarada bilir.

Eşq oduna için-için közərdim,
Sevgi azman gücündəymiş sən demə!
Xoşbəxtliyi uzaqlarda gəzirdim,
Gözlərinin içindəymiş sən demə!

Rafiq Yusifoğlu Qubadlının Çardaxlı kəndində dünyaya gəlib. Ta on altı yaşınacan bu kənddə yaşayıb. Amma indi:

Qəlbimə tuşlanan dərd nizə-nizə,
Saralıb yarpağım, solub güllərim.
Nə ata-anama, nə evimizə,
Nə də kəndimizə yetir əllərim.

Bəs qalan ömrümü kimə həsr edim?
Doğma diyarımda qəribəm, qərib.
Bu gecə əriyib sonsuz həsrətim,
Kənddəki evimiz yuxuma girib.

Ömrün payızında belə sərt küləklər əsir. Analı-atalı dünya xatirələrdə yaşayır…

Rafiq Yusifoğlunun bir silsilə Qarabağ şeirləri var. Amma bu şeirləri "dəstədən geridə qalmamaq" üçün yazmır. Qarabağ dərdi onun içindədir.

Qəlbin istəyən yerdə
Gəzmək olmur, bilirsən.
Bu qədər haqsızlığa
Dözmək olmur, bilirsən.
Sən sükuta dalmısan
nədən, haran ağrıyır?
Vətən, haran ağrıyır?

Daha gözlərim görmür
Salvartı yaylağını,
Məkan seçib qarğalar
Tərlanlar oylağını.
Dağı dumanlı görüb,
Düşkün Aran ağrıyır,
Vətən, haran ağrıyır?

Dərman tapa bilmirəm
Dərdinin əlacına.
Niyə gedə bilmirik
Qubadlıya, Laçına?
Neçə kəndlər, şəhərlər
Qalıb viran ağrıyır,
Vətən, haran ağrıyır?

Cıdır düzü göynəyir,
Elə bil gedib huşa.
Yolumuzu gözləyir
Dağlar qoynunda Şuşa.
Düşmən tapdağı altda
Yəqin yaran ağrıyır,
Vətən, haran ağrıyır?

Bağlanıb Füzulinin
Cəbrayılın yolları.
Zəngilanın, Ağdamın
Qandallıdı qolları.
Hasar çəkən görəndə
Sərhəd yaran ağrıyır,
Vətən haran ağrıyır?

Övladın var köksüylə
gülləyə sipər çəkir,
Övladın var dənizə,
meşəyə çəpər çəkir.
Nadanları görəndə
ürək hər an ağrıyır,
Vətən, haran ağrıyır?
Vətən, haran ağrıyır?

Əlbəttə, bu misralardan ağrı-acı süzülür və bu da təbiidir. O zaman ki, Cıdır düzündə "həsrət xalı toxuyur". "Xarıbülbüllər hıçqırır". Amma istərdim ki, onun şeirlərində ümid, qələbəyə

çağırış notları gurlasın. Mən Rafiqin Qarabağ şeirləri içindən bu altı misralıq nümunəni misal gətirirəm ki, o şeirlərdəki fikir hamımızı narahat edir, gecə-gündüz düşündürür:

Ruhsuz könül könül,
Cansız bədən
bədəndimi?
Şuşasız Qarabağ,
Qarabağsız vətən
vətəndimi?

Rafiq Yusifoğlunun poeziyasında yaşadığımız həyatın mənəvi mənzərəsi daha çox diqqəti cəlb edir. Həyatda, gerçəklikdə nə baş verirsə, onun ürəyindən keçir. Şairi qocaların niyə ağlamağı düşündürür və bu qənaətə gəlir ki, onlar nə itirəcəklərini bildikləri üçün ağlayırlar. Həyatın sevinc-qəm təzadları düşündürür onu və bu düşüncələr bənzərsiz poetik misralara hopur. “Sevinc kükrəyib daşır, Qəm isə pıçıltıdı”…

Rafiq Yusifoğlu poeziyamızda orijinal fikir şairi kimi diqqəti cəlb edir. O, hər şeydə məna və mahiyyət axtarır, lakin filosofluq iddiasına düşmür, fəlsəfi fikir şeirin mənasına özü qoşulur, yəni sən o fikri adilikdən çıxarırsan. Amerikada, Los - Anceles şəhərində gənclik haqqında düşünmək, ömrün ötən və itən illərini xatırlamaq olarmış…

Dünya öz işindədi  bir əsr oldu yarı!
Üstümüzə çox çaxıb ayrılıq şimşəkləri.
Əlli il bundan əvvəl gördüyüm insanları
Görüşümə gətirib zamanın küləkləri…

Hanı o şux yerişlər, hanı nur saçan üzlər?
Hanı könüllər yaxan o boy-buxun, o qamət?
Yenə həmin pillələr, yenə həmin dəhlizlər,
Ancaq gəncliyimizdən varmı əsər-əlamət?

Qəlbimizdəki sevgi bir dalğalı dənizdi,
Dünyanı dərk edəndən itirmişik dincliyi…
O şirin xatirələr bizə necə əzizdi? –
Ziyarətə gəlmişik yoxa çıxan gəncliyi…

Bir də geri dönərmi o qaynar sevdalı yaz?
Yamyaşıl tumurcuqlar indi sarı xəzəldi.
Üzlərə qırış düşüb, qara saçlar bəmbəyaz,
Müdriklik zirvəsində dünya yenə  gözəldi…

Qəlbimizə dağ çəkib ayrılıqlar, vidalar,
Zaman sınağa çəkib sevdalı ürəkləri.
Şux qamətlər bükülüb, sual olub nidalar,
Ancaq yenə solmayıb təbəssüm çiçəkləri…

Mən zaman dənizinin sahilində qalmışam,
Fırtınalı qoynunda kimlər batıb, kim gəlib?
Taleyimə min şükür, görüşümə bu axşam,
Qocalıq libasında qaynar gənciyim gəlib…

Rafiq Yusifoğlu təbiəti, onun gözəlliklərini duyan və mənalandırmağı bacaran şairdir. Rafiqin sırf peyzaj şeirləri azdır, amma təbiətlə insan hissləri arasında harmoniya bu şeirlərin məzmununu təyin edir. Bakıda payız yağışını kimsə, hansı şairsə təsvir etsə, təbii ki, bu yağışın "rəsmini" əks etdirəcək, amma Rafiq Yusifoğlu Bakıdakı payız yağışında ayrı çalarlar tapır və göstərir:

Məni haldan-hala saldı
Bakıda payız yağışı…
Qəlbimi yaman kövrəltdi
Təbiətin yır-yığışı…

Qara asfalt gözəlləşib,
Üstündə nə çox yarpaq var!
Elə bil yapışıb yerə
Sarı, qızılı yarpaqlar.

Sanki xatirələr çimir
Gözümün qaynar selində.
Xəzəllər  bir addamacdı
Elə bil yağış gölündə…

Ürəyimin arzusuna
Axı necə qulaq asım?
O  addamacın üstünə
Necə qıyıb ayaq basam?

O  qızın əlində xəzəl
Dönüb payız çiçəyinə.
Təşnə dodaqlarım qonub
Təptəzə gül ləçəyinə.

Payızam, yaz çiçəyini
Mən necə bağrıma basım?
Heç bilmirəm dönəcəkmi
Bir də geri könül yazım?

Sevinir üşüyən çiçək,
Od tutub yanır yanağı.
Elə bil qorxutmur onu
Elin tənəsi, qınağı!

İçimdə yaz havası var,
Yeriyirəm ağır-ağır.
Çölümə də yağış yağır,
İçimə də yağış yağır…

Rafiq Yusifoğlunun əvvəlki kitablarında olduğu kimi yeni toplusunda da bir silsilə "Dəniz nəğmələri" var. Mənim fikrimcə, bu silsilə Rafiqin yeni kitabının ən gözəl nümunələridir. Xüsusilə "Xəzərə yağış yağır" şeiri poetik bir tablodur. Sözlərin Xəzərləşməsi mənzərəsi…

Möcüzədir, sübh çağı
yağış yağır Xəzərə,
Çoxdan idi görmürdüm
belə gözəl mənzərə…

Günəş təzə qalxanda
suların qucağından,
Nəğmələr süzülürdü
buludun dodağından…

Elə bil ki, damcılar
sulara vurur naxış,
İncə barmaqlarıyla
xalı toxuyur yağış…

Dostum narahat idi,
sevinirdim mən isə:
– İslanmaq istəmirsən,
özünü vur dənizə!

Sopsoyuq damlalarından
xilas etsin su səni,
Bir də çətin dadasan
belə dadlı busəni!

Yağış ayna suları
edəndə çimdik-çimdik,
Damlaların altında
doyunca çimdik, çimdik!

Arzular qönçə tutdu,
ömrün qışı yaz oldu!
Xəzərə yağan yağış
taleyimə yazıldı…

Bu yağış boynubükük
arzuları dirçəltdi,
Bu yağış içimdəki
gizli eşqi cücərtdi…

Belə gözəl təbiətdən, sevgi həyəcanlarından söhbət açan bir şairin satirik şeirlər yazması heç də təəccüblü deyil. Gözəllik varsa, antigözəllik də qaçılmazdır. Amma mən bu şeirlərdən heç birini misal gətirməyəcəm. Çünki Rafiqi satirik şair kimi tanımıram, o, gözəllik şairidir.

Rafiq Yusifoğlunun şeir dili, ümumiyyətlə şeir mədəniyyəti artıq tam formalaşmış bir şairin mövcudluğunu təsdiq edir. Şeirlərində sıx-sıx rast gəldiyim təşbehlər, metaforalar əksərən təzədir, orijinaldır. Xüsusilə metaforalar. İnsanla təbiətin vəhdəti, insanın ağac, dəniz, ay, çöl, yağış görkəmində metaforikləşməsi, ya da təbiətin insaniləşməsi o şeirlərin bədii təsir qüvvəsini artırır. Şeirin gözəlliyi də elə buradadır.

Rafiq Yusifoğlunun yeni şeirlər kitabı barədə uzun-uzadı söz açmaq, onun bütün şeirlərini təhlil etmək niyyətim yoxdur. Amma bu qısa qeydlərimi onun bir arzusuyla bitirmək istəyirəm:

Onsuz da
ömür qısadı,
Onsuz da
haqq işidi ölüm.
Allahım, mənə elə
uzun ömür ver ki,
insanlara daha çox
yaxşılıq eləyə bilim.

**Vaqif Yusifli,**
**filologiya üzrə elmlər doktoru, tənqidçi.**

*"Ədalət" qəzeti, 26.04.2018*

# “Üçüncü qərinə”nin otuz beş illik şairi

Şair Rafiq Yusifoğlunun “Üçüncü qərinə” adlı şeirlər kitabı (2017) müəllifin həmin kitabın axırında yer alan çap olunmuş əsərlərinin siyahısında 72-ci sırada və sonuncudur. Lakin buradaca xatırladaq ki, onun adı siyahıya düşməyən 73-cü kitabı - “Bədii söz - məna ocağının közləri” irihəcmli məqalələr toplusu da bu yaxınlarda işıq üzü görüb.

Siyahıdakı ilk kitabın nəşr tarixi 1983-cü il olduğuna görə, cari il filologiya üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi Rafiq Əliyevin “kitab yaradıcılığı”nın 35-ci ildönümüdür (Onun ilk şeirləri mətbuatda hələ orta məktəbdə oxuyarkən 60-cı illərin ortalarında işıq üzü görüb)...

1986-cı ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü olan Rafiq müəllim bu illər ərzində “Qızıl qələm”, “Vətən”, “Araz”, “İlin ən yaxşı kitabı” və s. kimi nüfuzlu mükafatlara layiq görülüb. Siyahıda yer alan kitablardan 30-a yaxını şairin şeir və poemalarının toplandığı əsərlərdir. Bunlardan bir çoxunu - “Qəm karvanı” (1997), “Böyük arzuya gedən yol” (2000), “Çiçək yağışı” (2000), “Ayrılığın qəm hasarı” (2000), “Həsrət sazağı” (2005), “Sevdalı sabahlar” (2007), “Eşqin qarlı yollarında” (2008), “Könül səltənəti” (2012) - mən daha əvvəllər oxumuşdum. Siyahıda göstərilən kitabların bir qismi 20 ildən artıqdır ki, respublikamızın universitetlərində mühazirələr oxuyan görkəmli pedaqoqun ali məktəb tələbələri və orta məktəb şagirdləri üçün yazdığı dərsliklərdir (“Ədəbiyyatşünaslığın əsasları”, “Uşaq ədəbiyyatı”, “Müasir ədəbi proses və ədəbi tənqid”, “Ana dili I - Əlifba, oxu”, “Azərbaycan dili” və s.). Siyahıda tanınmış ədəbiyyatşünas-alimin dəyərli monoqrafiyaları (“Azərbaycan poeması: axtarışlar və perspektivlər”, “Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri”), eləcə də çoxşaxəli elmi-publisistik

məqalələrinin, hekayə və nağıllarının toplandığı 10-dan artıq kitabı da var. Siyahıya peşəkar bədii mütərcim olan Rafiq müəllimin dilimizə qazandırdığı əsərlər də (Federiko Qarsia Lorkanın, Corc Bayronun, Peter Şyuttun, Hans Yurgen Hayzenin, Ulla Hanın, Roza Auslenderin və başqalarının şeirləri, dünya uşaq ədəbiyyatının gözəl nümunələri) daxil edilib. Burada Azərbaycan uşaq ədəbiyyatının dövri mətbuat flaqmanı "Göyərçin" jurnalının baş redaktoru kimi (1997-ci ildən indiyə qədər) onun balalara hədiyyələrinin toplandığı kitablar da yer alıb. Statistik hesabatı tamamlamaq üçün bunu da qeyd edək ki, Rafiq Yusifoğlu çoxlu mahnı mətnlərinin də müəllifidir. Əsərləri əsasında "Qəm karvanı", "Bütün Azərbaycan əsgər olmalı" televiziya tamaşaları çəkilib.

Rafiq müəllimin poeziyası haqqında söz deyib, onun özünü, eləcə də elmi-pedaqoji fəaliyətinə və ədəbi-bədii yaradıcılığına, redaktorluğu və naşirliyinə bələd olanları, xüsusən də humanitar təfəkkürlü şeir xiridarlarını, özünün ifadəsi ilə desək, "zər qədrini bilən zərgərləri" razı salmağın çətinliyi və məsuliyyətini bəri başdan qəbul edirəm. Bu, bir baxıma, ruhu, düşüncəsi, vicdanı və qələmi ilə şair olan adama poeziyanı öyrətmək kimi bir cahilliyə düşməkdir. Burasını da nəzərə alsaq ki, Rafiq müəllim uzun illərdir təcrübəli pedaqoq kimi Sumqayıt Dövlət Universitetinin tələbələrinə özünün bilavasitə elmi-tədqiqat sahəsi olan müasir Azərbaycan poeziyası və poetikasının sirlərini tədris edir, vəziyyətin mürəkkəbliyi daha da aydın olar...

Şair "Üçüncü qərinə"nin ad (söz) semantikası və rəqəm simvolikası ilə öz oxucusuna əsrin 33 illik dövrünü əhatə edən zaman ölçüsü vahidinin üçüncü dilimində, başqa sözlə, ömrünün ən müdrik çağında yaşadığı mesajını ünvanlayır. Kitabdakı şeirlərin mütaliəsi də göstərir ki, şair bu uca zirvədən maddi və mənəvi dünyamızı müdrikliyin həm ağıl, həm də bəsirət gözü ilə seyr eləyir. Məsələn, kitabdakı ilk şeirin ilk bəndindəki poetik yükə diqqət edək:

Bumeranqa döndü bir gün
Qurulan qəribə kələk.
Qərb Şərqdə nə axtarırdı,
Şərq də dönüb Qərbə gələ?!

Qərbə dönüş, adətən, stereotip düşüncə ilə tarixin təkərinin geriyə fırlanması kimi mənalandırılır. Şair isə yüzlərcə yaşı olan bu hadisəni bumeranq effekti ilə rəmzləşdirir. Əlbəttə, vaxtilə inkişaf üçün, yenilik axtarışları prosesində Qərbdən ötrü istinadgah olan Şərqin müasir dövrdə özünün ondan öyrənməyə ehtiyac hiss etməsi məqbuldur. Ancaq şair deyir ki, indiki halda, Şərqi Qərbə yönəldən ehtiyac müasir Qərbin çirkin planlarının (kələyinin), yeni formada "səlib yürüşünün" və məkrli "ayır-buyur", "parçala-idarə et" siyasətinin məntiqi nəticəsidir.

Rafiq müəllimin özünün də müxtəlif elmi-publisistik məqalələrində dəfələrlə qeyd etdiyi kimi, həqiqi şeir insanı düşünməyə, dünyanı dərk etməyə, fəzilətə, ədalətə, qurub-yaratmağa, sevib-sevilməyə, mənəvi kamilliyə və paklığa səsləyir, ilahi nura qovuşdurur. Sənətin digər sahələri ilə müqayisədə poeziyanın insanı millətsevərlik və vətənpərvərlik ruhunda tərbiyə məsələsində, mənəvi-əxlaqi durulaşdırma və saflaşdırma işində xidməti əvəzsizdir. O, haqlı olaraq qeyd edir ki, əsl şairləri xalqın həyatı düşündürmüş və bəşəriyyətin taleyüklü problemləri daim qayğılandırmışdır. Sənətkar şeirə həm də dili qoruyub saxlayan, yaşadan, cilalayan, zənginləşdirən, inkişaf etdirən vasitə olaraq baxır. Bütün bu deyilənlər Rafiq müəllimin insan, şəxsiyyət və alim kimi bütövlüyündən, şair kimi ustadlığından xəbər verir. Onun ədəbiyyatşünas-alim kimi "mayası həqiqətlə yoğrulan, ürəklərdə estetik duyğular oyandıran və bütün dövrlərdə insanın mənəvi ehtiyacını ödəyən" söz sənətinə, o cümlədən, ritmli, ahəngli poeziyaya yüklədiyi missiyanın mahiyyəti şair kimi bədii sözə və şeirin psixoloji təsir gücünə dərin inamından irəli gəlir.

Kitabdakı şeirləri oxuduqca, hiss edirsən ki, şair zaman-zaman səni öz ucalığına qaldırır və sən dünyaya, insanlara o

ucalıqdan baxırsan, öz daxili aləminə sənətkarın gözü ilə boylanırsan. Məsələn, hər kəsin bildiyi və özünə təsəlli kimi səsləndirdiyi dualar qarşımıza tamamən yeni qiyafədə çıxır:

Onsuz da ömür qısadı,
Onsuz da haqq işidi ölüm.
Allahım, mənə elə uzun ömür ver ki,
İnsanlara daha çox yaxşılıq eləyə bilim!

Bəzən şair özünü və özü ilə bərabər səni qərar tutduğun zirvədən dibsiz boşluğa buraxır və adama elə gəlir ki, yerin cazibə qüvvəsi onu da, səni də uçmağa qoymaz... Ancaq sənətkarın fitri istedadı, ucundan bəşəri və ilahi sevgi, xeyirxahlıq və gözəllik damlayan qələminin gücü sənin baxdığın, lakin görmədiyin məqamları, içində yaşadığın, amma nə olduğunu kəsdirə bilmədiyin duyğuları dilə gətirdiyi anda səni elə bir ovqat çulğayır ki, ruhunun səni tərk edib göylərə yüksəldiyini, quşlar kimi səmada uçduğunu hiss edirsən:

Bir yağış yağır ki, könlündən keçir
Ucundan yapışıb göyə çıxasan.
Səyyar buludların qanadlarında
Gedib öz yurduna yiyə çıxasan...

Üç misra səni romantik ovqata kökləyir, ənginliklərə uçurur, sonuncu misra isə səni qəfildən yerə endirir, qaçqınlı-köçkünlü dünyamızın reallığına qaytarır. Əslində, poeziyanın informativ gücü də, poetik yükü də, ecazkarlığı və sirri də burasındadır. Lirik-romantik şeir səni göylərə uçurmağı bacardığı kimi, epik şeir yerə endirməyi, ayaqlarının üzərinə rahatca düşürməyi, sosial mündəricəli fəlsəfi şeir isə səni düşündürməyi bacarmalıdır. Bəşərə məxsus bütün hiss, duyğu və düşüncələrin eyni bir şeir içində verilməsi də mümkündür. Beləcə, xəyalla gerçəklik, subyektiv təxəyyül məhsulu ilə obyektiv maddi-faktoloji material,

poeziyanın romantik estetikası ilə həyatın sərt realizmi arasında sağlam bağlantı qurulur, əlaqə yaradılır, etibarlı rabitə təmin edilir.

Yüzillərin "sənət sənət üçündür" prinsipini mənimsəyənlərin düşüncələrinə hörmətlə yanaşaraq, mən sənət əsərini sənətkarın öz əsərinə yüklədiyi missiyanın ideyası, məzmunu və mündəricəsi, oxucuya ünvanladığı bədii mətnin məramı ilə dəyərləndirməyin tərəfdarıyam. Əlbəttə, bütün bunlar yalnız yüksək sənətkarlıqla yazıldıqda, göz və qulaq oxşayan estetik formada təqdim edildikdə mətn bədii sənət nümunəsinə çevrilir. Cəmiyyətin bir fərdi olan, xalqın adından xalqa söz demək hüququnu özündə görən şairin bitərəf olması, ictimai-siyasi hadisələrə münasibət bildirməkdən çəkinməsi mümkün deyil. Vaxtilə məşhur rus-sovet yazıçısı Mixail Şoloxov özünün Nobel nitqində deyirdi: "Bəşəriyyət özlərini Yerin cazibə qüvvəsinin sərhədlərindən kənara çıxan kosmonavtlar sayağı çəkisizlik vəziyyətində hiss edən təklərə, fərdlərə bölünməyib. Biz Yer üzündə yaşayır, Yerin qanunlarına tabe oluruq... Yer əhalisinin nəhəng təbəqələri eyni məqsədlərlə hərəkət edir, eyni maraqlarla yaşayır və bu məqsədlər, maraqlar onları ayırmaqdan daha çox, yaxınlaşdırmağa xidmət göstərir. Bunlar - hər şeyi öz əllərinin və beyinlərinin əməyi ilə yaradan zəhmətkeş insanlardır. Mən özünün ən yüksək şərəfini qələmi ilə zəhmətkeş xalqa xidmət etmək imkanının heç nə ilə məhdudlaşmayan azadlığında görən yazıçılardanam".

Cəmiyyət içərisində fərd olaraq əqidə və düşüncə etibarilə tək qalmaq, mənən kimsəyə bənzəməmək, özün olmaq və özgələşməmək mümkündür, ancaq içində yaşadığın cəmiyyətdən, onun siyasətindən, ideologiyası və fəlsəfəsindən təcrid edilmiş halda yaşamaq real deyil. Bu həyat həqiqətlərini görməmək, yaxud görüb də qəbul etməmək insana həmişə maddi-mənəvi əzab verir, ona hər fürsətdə xəyal qırıqlığı yaşadır... Bu baxımdan, sənətkarın yuxarıda bəhs etdiyimiz missiyası prizmasından əsl poeziya nümunəsi olan şeir ictimai-siyasi məzmunlu da, publisistik-

didaktik də, fəlsəfi-ideoloji də, tarixi-dramatik də ola bilər. Rafiq müəllimin də dönə-dönə vurğuladığı kimi, sənətin ilkin mahiyyəti insan mənəviyyatını qidalandırmaq, estetik həzz vermək, əyləndirmək, gözəllik və xeyirxahlıq aşılamaqla yanaşı, həm də ona müsbət informasiya və enerji ötürmək, onu maarifləndirmək, öyrətmək, kamilləşdirməkdir. Poeziyanın mövzuları hər şey - təbiət, cəmiyyət, fərd, vətən, bəşər övladına xas bütün məziyyətlər - sevgi, nifrət, qorxu, şücaət, xəyanət və s. və i.a. ola bilər. Sənətkarlıq bütün bunların dilə (qələmə) gətirilməsindəki ustalıqda, istedadın dərəcəsindədir. Söhbət bundan getməlidir ki, bu və ya digər mətləbdən, mövzudan söz açan sənətkar nə demək istəyir, şeirin ünvanı kimdir, bu istək həmin ünvana necə, hansı bədii təfəkkürlə, söz-sənət oyunu ilə, bədii təsvir və ifadə vasitələri ilə çatdırılır. Hazırlıqlı oxucu çeynənmişlə yeni fikri, deklarativ və pafosla bədii mətni, keçilmiş yolla yeni açılan cığırı, nimdaş məhsulla bədii tapıntını, köhnə ilə təzə-tər qafiyəni, hər gün gördüyü insandan fərqli yepyeni obrazı, oxuduğu şeirdə qarşılaşdığı və o ana qədər adını qoymaqda çətinlik çəkdiyi duyğu və düşüncələri ayıra bilir.

Şair Rafiq Yusifoğlu poeziyasının məxsusi məziyyətlərindən biri də epiqraflı şeirlərdir. Yunan sözü olan "epiqraf" qədim yunanlarda abidə üzərində yazıya deyilirmiş. Müasir ədəbiyyatşünaslıqda "epiqraf" dedikdə əsərin və ya onun bölmələrinin başlıqlarından sonra yazılan qanadlı sözlər - zərbiməsəl, hikmətli söz, aforizm, yaxud başqa sənətkardan iqtibas edilən cümlə, beyt, misra və s. nəzərdə tutulur. Əgər Rafiq Yusifoğlunun epiqrafları yuxarıda izahı verilən ənənəvi qəbildən olsaydı, üzərində geniş dayanmağa ehtiyac qalmazdı. Məsələ burasındadır ki, şairin epiqraflarının çoxu məşhurların deyil, ismini-cismini oxucunun bilmədiyi, tanımadığı, adını eşitmədiyi insanların sözləridir. Bu epiqrafların müəllifləri yalnız Rafiq müəllimə məlum olan (bəzən özünün də dəqiq bilmədiyi, yalnız fəhmlə kimliyini təxmin etdiyi) şəxslərdir. Şeirləri diqqətlə oxuduqda, misralar sənə pıçıldayır ki, bu insanlar daha çox gənclərdir, tələbələrdir, bilavasitə şairlə

ünsiyyət quranlar, yaxud da şeirləri vasitəsilə onu tanıyıb sevənlərdir. Hiss olunur ki, bu mesajların müəllifləri daha çox şairə heyranlıq və vurğunluq duyan qızlardır. Bu mesajlardan epiqraf kimi iqtibas edilən cümlələr, eyni zamanda, şairin ilham pərisinə çevrilir, onu şeir yazacaq ovqata kökləyir. Əks təqdirdə, o epiqrafın başlıq altında verilməsinin poetik yükü ortadan qalxar, şeirin mətni ilə mesaj arasındakı rabitə qırılar. Məsələn, bir mesajdan alınmış bu epiqrafa diqqət edək: "Doğan hər günün səhərində içimdə gözlərini görə bilmək eşqi olmasa, inan, heç bir şeyə dəyməzdi yaşamaq". Bu epiqrafın özü başdan-başa şeirdir. Şair də bütün istedadını səfərbər edib, epiqrafa layiq poetik cavab verir:

Ürəyim od alıb həsrət közündən
İnləyər, çırpınar, sızlar içimdə...
Sevdiyin o gözlər düşüb gözümdən,
Səni seçəmməyib qızlar içindən...

Yaxud başqa bir şairanə epiqrafa diqqət yetirək: "Yağışın damlası ilanın dilinə düşüncə zəhər, incinin içinə düşüncə almaz olurmuş. Siz nəyin damlasısınız ki, qəlbimə düşüncə hər şeyim oldunuz? Q.Nübar". Başdan-ayağa poeziya ətri verən bu epiqrafa cavab tapmaq müşkül olsa da, şair tapır, həm də ən əlasını! O, sözügedən damlanın zərrə-insan içində gizlənən vücudi-küll olduğunu, adına da eşq damlası deyildiyini nəzərə çatdırır:

Heç nə, heç nə ola bilməz
O bir damlanın gücündə.
Yer var, göy var, kainat var
O bir damlanın içində.

Məhəbbətin fədakarlıq, özünü qubanvermə olması klassik poeziyamızdan bu günə qədər işlənən temadır. Rafiq müəllimin şeirində bu detal fərqli mənalandırılır, eşq sevdiyini qorumaq şəklində poetikləşdirilir. Epiqraflardan birində oxuyuruq:

“Darıxmışam Sizinçün. Mən bir təhər ayrılığın öhdəsindən gəlirəm. Özünüzə yaxşı baxın. Görüşmək ümidi ilə...” Bu epiqrafın yaratdığı ovqatla yazılan şeirin poetik yükü fədakarlığa hazır olduğunu mesaj sahibinə bildirməkdir:

Bir az da gec gəlsən əgər
Ağac kimi quruyacam.
İndən belə mən özümü
Sənin üçün qoruyacam...

Epiqrafların bir qismi şairdən inciyib küsənlərin, onları görməzlikdən gəldiyi üçün şikayət edənlərin mesajlarından götürülüb. Məsələn, bir mesajda oxuyuruq: “Sənin görüşünə gül dərmək üçün // Sinəmə çəkdiyin dağa çıxmışam”. Şairin onun biganəliyindən sitəmkarlıq edən bu xanıma cavab olaraq yazdığı şeirin elə ilk misralarından tərəf-müqabilini razı salacağına inanırsan:

Duyuram ki,
ayrılıq sənə yamanca güc eləyib.
Ürəyinə çəkdiyim dağın üstündə
sevgi çiçəkləri qönçələyib.
Ömrünə qəm buludu çökəndə
Sevdalı gözlərində
həsrətim gecələyib...

Başqa bir şeirində şair mətləbə dəxli olmayan cızma-qaralarına qiymət yazmadığı üçün “Müəllim gözümdən düşdü” deyə sərsəmləyən bir tələbənin epiqraf-mesajına cavab verir:

Çöküb ciyərinə küdurət hissi,
Sən qara buludsan, mənsə günəşəm.
Seçə də bilmirsən yaxşını, pisi,
Sənin gözün var ki, gözündən düşəm?!

Bütün hallarda, şeirlərə epiqraf olaraq seçilən mesajlar həmin şeirlərin mövzusunu müəyyənləşdirməyə, məzmunun açılmasına imkan verir, şairin o mesajların təsiri ilə yaranan ovqatını ifadə edir. Bu zaman fərdilikdən ümumiliyə doğru gedilir, epiqrafdakı bir nəfərə məxsus hiss və duyğular bəşəriləşir, başqa sözlə bir nəfərin mesajından iqtibas edilən epiqraf-cümlə ümumbəşəri düşüncənin ifadəsinə xidmət edir. Epiqraflı şeirləri oxuyanda təkcə şairin yox, həm də epiqraf müəllifinin (xüsusən də zərif cinsin) hisslərini düşünürsən. Bilirsən ki, epiqraf müəllifinin ağrılı-acılı duyğularıını şair də bütün ruhu ilə yaşayıb, epiqrafdakı səmimiyyəti, ülviliyi və paklığı hiss edib, onlara adekvat misralar tapmaq üçün xeyli yaradıcılıq axtarışı aparıb. Fikrimizcə, epiqraflı şeir həm də bu məqamın - həm tərəf-müqabilin, həm də oxucunun təsəllisidir... Əlbəttə, bəzən ziddiyyətlər burulğanında çırpınırsan, görəsən, epiqrafın müəllifi ona yazılan şeirdən (verilən cavabdan!) razı qalıbmı? Bədii mətnin bir vəzifəsi də bu deyilmi - oxucunu düşündürmək və intizarda qoymaq!

Rafiq Yusifoğlunun bütün şeirlərində, istər birbaşa müraciətlərində, istərsə də sətir aralarında ilahi sevgi var. Lakin Allah sevgisi təkbaşına deyil. Bu inanc bəşəri və ilahi sevgilərin vəhdətindən doğulur, şairin dualı sevgi şeirlərini qoşa qanadlı edir:

Zərif bir çiçəkdən güc almaq üçün
Sən onu duymağı bacarmalısan!
Eşqin zirvəsinə ucalmaq üçün
İlahi sevgidən güc almalısan...

Kitabdakı şeirlərin bəziləri gündəlik yaşadığımız aktual problemlərə, yaxud da müəllifin özünü rəncidə edən məsələlərə şair-ziyalının reaksiyasıdır. Məsələn, şair “Məzənnə” adlı şeirində Baş bankirə üzünü tutub cinaslı-qafiyəli sualla soruşur:

Manatı niyə öldürdün,
Bu xalq ilə məzən nədi?

Bu, üzən məzənnə deyil,
Ürək üzən məzənnədi...

Qarabağ ağırlıqda dərdi olan bir qarabağlının bu dərddən yazmamağa haqqı yoxdur. Şairin yaradıcılığında bu çəkilməz dərd, dözülməz kədər aparıcı xətdir. Bu dərd gah doğma elindən-obasından ayrı düşmüşlüyün, ata yurdundan, ana ocağından qoparılmışlığın acısı-ağrısıdır. Şair qələmində dərd deklarativ çağırışlardan, pafosdan, psevdo vətənpərvərlikdən uzaqdır. Bu dərd-qəm məcburi tərk edilmiş və düşmən işğalı altındakı müqəddəs torpaqların, köçkünlərin, qaçqınların ümumiləşdirilmiş obrazı, şəhidlərimizin ziyarətçi gözləyən qərib məzarları və ruhlarıdır:

Dərman tapa bilmirəm
Dərdimin əlacına.
Niyə gedə bilmirik
Qubadlıya, Laçına?
Neçə kəndlər, şəhərlər
Qalıb viran ağrıyır,
Vətən, haran ağrıyır?

Şübhəsiz ki, bu dərdlərin ən ağırı-acısı və dözülməzi əsir düşmüş anaların, qız-gəlinlərin namus-qeyrət harayı, qisas və intiqam məqamını gözləyən başı əyik ata, ər və qardaşların, boynu bükük ana-bacıların üsyanıdır:

Tapdalanmış ismətiniz
Alovlara atır məni.
Hər baxış bir tikan olub,
Ürəyimə batır mənim.

Hər papaqlı layiq deyil
Kişi adın daşımağa.
Biz almasaq bu qisası,
Haqqımız yox yaşamağa...

Kitabdakı şeirlərin bir bölümü "Qürbət nəğmələr"idir. Şair gəzib dolaşdığı ölkə və şəhərlərə, tarixi-memalıq abidələrinə, ümumiyyətlə, qürbət ellərin gözəlliklərinə heyranlığını gizlətmir, ancaq bütün bu şeirlərdə doğma yurd-yuva nisgili, vətən və vətəndəki əzizlərin həsrəti aydın şəkildə sezilir.

Kitabdakı şeirlər poetik forma və şəkil etibarilə xeyli rəngarəngdir: heca və sərbəst vəznli şeirlər, düz, yaxud cinas qafiyəli bəndlər, dördlüklər, hətta alışıq olmadığımız ikiliklər... Dördlüklər klassik rübai xarakterli, fəlsəfi düşüncələrin yığcam bədii ifadəsi olduğu kimi, ikiliklər də şah beytləri, bərcəstə misralardır.

Yekun olaraq qeyd edək ki, Rafiq Yusifoğlu gündəlik həyatında təbiətən emosional olduğu kimi, ədəbi-bədii yaradıcılığında da duyğusaldır. Şeirlərində gözəlliyə, uğurlu bədii detala, estetik tapıntıya özü heyrətləndiyi kimi, oxucunu da heyrətləndirir, şərə, naqisliyə, yalana, haqsızlığa qarşı etirazını gizlətmir. Bədii sözün qüdrətinə inanır, poetik dilin, polifonik ədəbi-estetik və fəlsəfi təmayüllərin ifadə imkanlarının intəhasızlığını bilir, bədii mətnin strukturu və təqdimatında bütövlüyə çalışır. Rafiq müəllim "Bədii sözün hərarəti" adlı məqaləsində "onu duyan tənqidçilərin, ədəbiyyatşünasların azlığından, bəlkə də yoxluğundan" gileylənir. Mən bu boşluğu qismən doldurmaq istədim, mərhum akademik Azad Mirzəcanzadənin təbirilə soruşsaq, deyə bildimmi?

**Əsgər RƏSULOV**
**filologiya elmləri doktoru, professor**

*"525-ci qəzet", 25 iyun 2018*

# Rafiq Yusifoğlu poeziyasında Füzuli sevgisi

Mən şəxsən çoxdan tanımasam da, Rafiq Yusifoğlu çoxdanın adamıdır, ən azından respublikada çoxdan tanınmış şair və alim-professordur. Düzünü deyim ki, belə sadə, təvazökar və istedadlı bir insanı gec tanıdığıma görə təəssüflənirəm və hər görəndə ürəklə salamlaşır, hal-əhval tutur, bu qənimət adamla tanışlığın zövqünü yaşayıram.

Uzun illər uşaq qəzet və jurnalllarında işlədiyi üçün bəzilərinin yalnız uşaq şairi kimi tanıdığı Rafiq Yusifoğlu əslində böyüklərin də zövqünü oxşayan və yaşından asılı olmayaraq, hamıya mənəvi qida verən gözəl şeirlər müəllifidir.

Rafiq müəllimlə tanışlığımız Füzuli poeziyasından söhbət gedən bir ədəbi məclisdə baş tutdu. Mənim dar bir çevrədə Füzuli haqqında dediyim bəzi sözlər sən demə onun diqqətini çəkibmiş. Məclisin sonunda mənə yaxınlaşıb bir şeir kitabını verdi və internetdə özünün “Qəm karvanı” televiziya tamaşasını tapıb dinləməyi xahiş etdi.

Elə həmin gündən o kitabı hərdən vərəqləsəm də, öncə “Qəm karvanı” televiziya tamaşasına baxmaq istədim. İlk dəfə “Youtube”da tapıb dinləyəndə gözəl və əsrarəngiz bir aləmə düşdüm, sanki Füzuli poziyasının sirli-sehrli möcüzələr dünyasına qərq oldum. Sonra kitabı diqqətlə oxumağa başladım, müəllifi daha yaxından tanımaq istədim, başqa bir şeir kitabını da alıb baxdım. Beləcə, Rafiq Yusifoğlunun poeziya dünyasına sonsuz səyahətim başladı...

Nə gizlədim, Rafiq müəllimin rəngarəng poeziya kəhkəşanında ən çox diqqətimi cəlb edən onun sevgi şeirləri oldu. Bəlkə də elə mənim kimi Füzulini çox sevdiyindən, çox oxuduğundandır ki, öz şeir çələngində sevgi qoxulu çiçəklərə daha çox yer verir, ölməz məhəbbət motivlərinə daha artıq diqqət ayırır. Təkcə onun indiyədək nəşr etdirdiyi kitablarının adları bu barədə çox şey deyir:

“Həsrət köçü”, “Ayrılığın qəm hasarı”, “Könül səltənəti”, “Arzular kəhkəşanı”, “Sevdalı sabahlar”, “Eşqin qarlı yollarında” və s. Hələ hamısının adlarını çəkmədiyim bu kitablarda toplanmış sevgi-məhəbbət motivli şeirlərini oxuduqca Rafiq Yusifoğlunun Füzuli poeziyasından necə ustalıqla yararlandığını, Füzuli günəşinin şəfəqlərindən bol-bol nurlandığını görürük. Yeri gəlmişkən, deyim ki, bu, hər şairə, hər yaradıcı adama qismət olmur. Rafiq müəllim, özünə də şəxsən dediyim kimi, Füzulini, çoxlarından fərqli olaraq, gərəyincə anlayır, başa düşür və çox məharətlə ondan bəhrələnir.

R.Yusifoğlunun istənilən şeirində Füzulinin ölməz qəzəllərindən bir dad-tam vardır, özəlliklə, sevgi şeirlərində Füzuli gözəllərinin süzgün baxışları gülümsəyir, naz-qəmzəli yerişi boy göstərir, ictimai-sosial məzmunlu misralarında isə Füzulinin sadə və təvazökar təbiəti, möhtəşəm şəxsiyyəti və əyilməz ruhu duyulur. Həyatda, özəlliklə, şair təbiətli, həssas ürəkli insanların həyatında sevgi və məhəbbətin rolu haqqında görək şair nə deyir:

Məhəbbət damarlarımda
Axıb gedən qana bənzər.
Sevgisiz, sevdasız ömür
Susuz dəyirmana bənzər...

Sevgisiz ömrün susuz dəyirmana bənzədilməsinə Füzuli poetikasında rast gəlinməsə də, Rafiq Yusifoğlunun özünəməxsus füzuliyanə bir poetik tapıntısı kimi yadda qalır. Lirik bir şeirində özünə “sevmək istedadı verdiyinə” görə yaradana minnətdarlığını bildirən şair “dəli sevda” ilə sevməyənin bu dünyada qərib olduğunu bildirir. “Gözəlliyin önündə diz çökən” şairin həmin misralarını oxuyanda istər-istəməz Füzulinin “Məndə Məcnundan füzun aşiqlik istedadı var” - kimi məşhur nidası yada düşür:

Dəli sevda dolanmırsa başında,
Sevmirsənsə, bu dünyada qəribsən.

Ulu Tanrım, baş əyirəm qarşında,
Mənə sevmək istedadı veribsən.

"Təklik" adlı kiçik bir şeirində isə təkliklə tənhalığı ayırmağın gərəkliyini necə incəliklə göstərir, çoxluqdan, adamlardan qaçmağın bəzən onlara olan sevgidən qaynaqlandığını diqqətə çatdırır:

Adamlardan gen gəzsəm də,
Ürəyim mənə deyir ki;
İnsanları düşünürsən,
Təklik tənhalıq deyil ki?!

Səs-küydə kobudlaşıram,
O qədər kövrək olmuram.
Mən təkliyə can atsam da,
Heç bir zaman tək olmuram.

Bu şeiri ilk dəfə oxuyanda Füzulinin məşhur "Könül, səccadəyə basma ayaq, təsbihə əl urma" misrası ilə başlayan qəzəlindəki aşağıdakı beyti xatırladım.

Cəmaət izdihamı məscidə salmış küdurətlər,
Küdurət üzrə, lütf et, bir küdurət sən həm arturma.

Başqa bir kiçik şeirində Füzulinin bir beytindəki fikri aydın və anlaşıqlı bir dildə oxucuya çatdırır. Burada Füzulinin fikri-düşüncəsi olduğu kimi verildiyi üçün Rafiq müəllim elə şeirin adını da "Füzuli kimi" qoymuşdur.

Həsrət dolu baxışlarım
Çevrilər bir ac arıya.
Gözüm görüb ləzzət çəkər,
Ürəyim düşər ağrıya.

Bilənlər bilir, bilməyənlərin nəzərinə çatdırım ki, bütün dövrlərin dahi şairi Füzuli bir qəzəlinin bir beytində həmin fikri belə ifadə etmişdi:

Cövrü könlümdür çəkən, gözdür görən rüxsarını,
Allah, allah, kam alan kimdir, çəkən kimdir təəb?

Xöş bir təbəssümlə baxıb gülümsəyən bir gözəlin üz-gözündə oynayan sevinc və şuxluq qığılcımlarını, görün, şair ikicə misrada necə açıq-aydın mənalandırıb:

Qəlbində məhəbbət yanıb şam kimi,
Üzünü, gözünü işıqlandırıb.

Bu iki misranı oxuyan kimi, qəlbində məhəbbət şamı yenicə alovlanan gözəl bir qızın sevinclə kədərin qarışmış halda bərq vurduğu təbəssümlü çöhrəsi gözlərimiz önündə canlanır.

Hələ “Şüşə” şeiri... Müəllifin yazdığına görə, bir oxucu məktubundan qaynaqlanan, olduqca maraqlı və incə bir müşahidəyə əsasən “günəş şüası şüşədən pəncərənin qabağındakı taxtaya düşmüşdü. Qəribə idi; şüanı şüşə keçirib taxtaya verdiyi halda, özü soyuq, taxta isə isti idi...” İlk baxışdan adi təbiət hadisəsi kimi görünən, bəlkə də çoxlarımızın görüb müşahidə etdiyi, amma fərqinə varmadığımız bu olay həssas və incə şair ürəyində hansı duyğular oyadır, onu hansı qəribə fəlsəfi düşüncələrə gətirib çıxarır?..

Ürəyim buz deyil, düşmə təşvişə,
Sevda yollarında çox xiffət çəkib.
Sənin qınadığın bu soyuq şüşə,
Şüşə olanacan müsibət çəkib...

Şüşənin timsalında çoxlarına soyuq və laqeyd görünən insanların əslində hansı əzab-əziyyətlər bahasına öz həyat missiyalarını yerinə yetirməyinə, başqalarına kölgə salıb

qızındırmağına və çox vaxt diqqətdən kənarda qalmalarına işarə edən şair sonda yenə üzünü sevdiyinə tutub füzuliyanə bir ifadə işlədir:

Şüşə ürəyimlə oynama, gözəl,
Sınmağı cəhənnəm, əlini kəsər...

Rafiq Yusifoğlunun yuxarıda adını çəkdiyimiz "Qəm karvanı" poemasından ayrıca danışmaq istərdik. İlk adı "Füzuli danışır" olan, yəni dahi şairin şah beytlərinin öz dilindən çağdaş oxucuların başa düşəcəyi təmiz, aydın və anlaşıqlı sözlərlə verildiyi bu əsər əsasında radio və televiziya tamaşaları hazırlanmışdır. Ona vaxtilə şair Məmməd Aslan və Məsud Əlioğlu kimi klassik ədəbiyyatımızın biliciləri müsbət rəy vermişlər. Şeirlər mərhum aktyorumuz İlham Əsgərovun ifasında səsləndirilib. Sonda şairin öz ifasında verilən "Füzuli meydanı" şeiri isə tamaşaya ayrı bir şirinlik, təbiilik və canlılıq gətirir.

Füzulinin məşhur bir tərkibbəndinin ilk misrasının epiqraf seçildiyi, özü də bütünlüklə Füzuli sevgisinə və Füzuli poeziyasına həsr olunmuş bu lirik poema olduqca maraqlı müşahidələr və rəngarəng bədii təsvir vasitələrindən yoğrulmuşdur. Elə klassik sənət inciləri kimi, giriş-müqəddimə xarkterli ilk 7 bənd Rafiq Yusifoğlunun Füzuli sənəti və sevgisi haqqında heyrət və heyranlıq dolu urək sözləridir. Burada o, "neçə əsrdir için-için yanan, amma odu azalmayan şair urəyinin" oduna qızındığını, "bəzən urəyinin odu sönəndə, onun sözünün oduna alışdırdığını" söyləyir. Böyük bir sənət imtahanına girirmiş kimi, öncə "öz ulu eşqiylə Məcnunun eşqinə yuxu gətirən" dahi şairimizdən

Ey böyük Füzuli - sənət tanrısı,
Bizdən əsirgəmə səxavətini, -

deyərək mənəvi yardım istəyir, dərhal da Füzuli sənəti qarşısında öz acizliyini bildirir. Onun kimi şair-sənətkar ola bilməyəcəyini

etiraf edir, eyni zamanda, heç olmasa, onun qədər sevə biləcəyini arzulayır:

Sənin tək sənətkar ola bilmərəm,
Barı sənin kimi sevə biləydim.

Yalnız müəllifin öz dilindən deyilən bu giriş-müqəddimədən sonra meydana dahi sənətkarın özü çıxır, klassik məsnəvilərdəki kimi, öncə ulu yaradana üz tutur və "suçu sevmək olan" Füzulinin bağışlanmasını xahiş edir. Ardınca Füzuli qəzəllərində müxtəlif məqam və biçimlərdə deyilmiş, 500 ilə yaxındır ki, çoxlarının dillər əzbəri olan, bir-birindən gözəl və incə deyim-ifadələr "Qəm karvanı" əsərində bu günkü təmiz ana dilimizdə oxuculara şərbət kimi içirdilir.

Sinəmdə min tənə oxu olmasa,
Ürək tənhalıqdan darıxmazdımı?
***
Məndən ki, cəfanı əsirgəmirsən,
Elə bu özü də vəfa deyilmi?!
***
Bağrımın başında olan yaralar
Cünunluq dağının qönçələridir.
***
Sənin o pərişan saçlarındadır
Könlümün quşunun yuvası, gözəl.

Füzui qəzəllərinin şah beytlərində ərəb-fars tərkibləriylə ağırlaşdırılmış ifadə-aforizmlərin "Qəm karvanı" poemasında bu gün hamının başa düşəcəyi təmiz və aydın bir dildə verilməsi hazırlıqlı oxucunu belə valeh edir, heyrətləndirir.

Sənin tellərini açdıqca şanə,
Mənim can telimə düyünlər düşüb.

***

Eh, eşqə salmışam özüm-özümü,
Heç düşmən etməzdi, etdim mən mənə.

Füzuli poetikasında sıx-sıx qarşılaşdığımız qəriblik və qürbət motivlərinin Rafiq Yusifoğlunun əsərində sevgilinin ayrılığından doğan həsrət və intizar çalarlarıyla necə əlaqələndirildiyinə diqqət edək:

Aşiq göz yaşını necə saxlayar,
Dolaram yadıma, yar, sən düşəndə.
Adətdir, həmişə zar-zar ağlayar,
Qəribin yadına vətən düşəndə.

***

Hər an vüsalına can atıram mən,
Qərib vüsalına can atan kimi.

***

Ağlım söz kəsəndən vətəndir mənə,
Necə tərk eyləyim yarın kuyini?

Füzuli qəzəllərinin əsas məğzini təşkil edən təmənnasız və fədakar aşiq obrazı da "Qəm karvanı"nda çox qabarıqdır. Burada da məşuqunu canından artıq sevən aşiq "odlu göz yaşlarını öz sərvinin ayağı altına sevinclə səpir", ona "qurban olmaq üçün bir canın az olduğunu" deyir, ulu Tanrıdan "min can arzulayır". Bəzən də, eynilə klassik eşq fədailəri kimi, onun zalımlığından gileylənir, hətta bəzən yaradanın belə etinasızlığından şikayət edir:

Bağrım parçalanır sən hər baxanda,
Gündə bir ciyəri, de, hardan alım?

***

Ahımdan ulduzlar alışar göydə,
Muradımın şəmi alışmaz ancaq.

Bəzən Məcnun kimi öz dərdinə əlac edilməsini istəmir, həkim-təbib yardımından imtina edir, bu sevgi xəstəliyinin daha da şiddətlənməsini arzulayır. Həm də çoxlu dava-dərman qəbul etdiyindən artıq "tiryəkzadə" olduğunu, yəni müalicəyə tabe olmadığını dilə gətirir. Sevgili yardan gələn ağrı-acının şirinliyindən, doğmalığından mənəvi zövq duyur:

Dərdim yüz dərmandan artıqdır, təbib,
Cünunluq yolundan məni əyləmə.
Yar vuran yaraya dərman eyləyib,
Məni şirin zövqdən məhrum eyləmə.

Bəzən hətta Məcnundan da irəli getdiyini, aşiqlikdə və fədakarlıqda ondan çox qabaqda olduğunu deyir. Öz sevdiyini hər gördüyündə cisminin ürək qanına bulanmasından danışır.

Məcnunda olsaydı fəğanım əgər,
Yuva qurardımı quşlar başında?
***
Yəqin ki, yaqut tək qiymətim artar,
Bağrımın qanına boyandıqca mən.

Eyni zamanda, öz dərdinin günbəgün artıb çoxalmasını o da hər gələn dərdsiz-qəmsizin, yəni sevgisiz insanların fikir-rəyləriylə hesablaşmasında, onların məsləhətiylə oturub-durmasında görür, elə buna görə də özünü qınayır. Dolayısıyla eşq dərdinin müalicə edilə bilməyəcəyini bir də vurğulayır.

R.Yusifoğlunun "Qəm karvanı" poemasında eynən Füzuli poetikasında olduğu kimi, "göz yaşının" ayrıca yeri və müxtəlif məqamlarda işlənmə funksiyaları vardır: "daima ağlar aşiqin qəlbindən çıxan odlu ahlar olmasaydı, göz yaşları bir anda bütün dünyanı tutardı". "Göz yaşı sevən üçün sevdalı dənizdir". "Tökmə göz yaşını vüsal çağında, hicran günlərində gərəyin olar". "Qaşlarım yelkənsiz qayıqlar kimi, az qalır qərq ola gözüm

yaşına". Bu cür hədsiz-hüdudsuz bir məhəbbətlə sevən aşiqin tək-tənha olmasının da günahkarı bəzən onun elə özünün tökdüyü göz yaşlarıdır:

Dərdimi duyana dərd oldu dünya,
Eşqimə bir nəfər gülən qalmadı.
Gözümün yaşında qərq oldu dünya,
Gözümün yaşını silən qalmadı…

Bu fədakar və böyük ürəkli aşiq sevdiyinin yanına tez-tez getmir ki, nəinki onun özü, hətta itləri də rahatsız olar. Mey içməsə dərddən-qəmdən özü ölür, mey içəndə isə nadan və ürəksiz adamların yersiz öyüd-nəsihətləri onu mənən öldürür. Bu meyin badəsini şair "qəm dənizində qərq olan" aşiqin "dadına çatan qayıq" kimi səciyyələndirir. Başqa bir yerdə vüsal çağında sevincdən ağlayan gözəli bu inci kimi göz yaşlarını qorumağa səsləyir, "hicran günlərində gərəyin olar", - deyir.

Bu dünyada "yarının yanında olmağı" arzulayan lirik qəhrəman bununla yetərlənib "cənnətə belə həvəs göstərməyəcəyini" bildirir, "pəncərəsi önündə durduğu yerə cənnət quşunun min il uçsa belə yetişə bilməyəcəyini" qeyd edir. Hətta "cənnətin onun ayaq torpağı kimi pak olmadığına" inanır. Eyni zamanda, əsərdə bir "kölgə" də görürük. Öləndə qəbri üstündə baş daşı istəmir, "yarımın kölgəsi baş daşım olsun", - deyir. Bir az sonra bu obraza yenə qayıdır, sən demə sevgili gözəlin heç kölgəsi də yoxmuş. Niyə? - çünki, büllur kimi saf və şəffaf bir bədəni vardır ki, torpağa kölgəsi də düşmür.

Ah çəkdin, ürəyim yarpağa döndü,
Demə bu xəzəlin yiyəsi yoxmuş.
Kölgənin xətrinə torpağa döndüm,
Büllur qamətinin kölgəsi yoxmuş…

Heç olmasa, torpaq olub istəklisinə qovuşmaq istəyən aşiq bu vüsaldan da məhrum olur, yenə muradına yetişmir.

Bir yerdə Füzulinin poetik dünyagörüşünə tam uyğun olaraq,

Məndə can qoymayıb bu şeyda könül,
Verim bir gözələ, qurtarsın canım, -

deyən şair başqa bir yerdə

Məndəki nəfəs də özümün deyil,
Bir gözəl pərinin əmanətidir, -

qərarını verir. Fikrimizcə, bu söz yerinə düşmür və Füzuli poetikasına yaddır. Füzulidə nəfəs Allahın verdiyi əmanət olaraq cilvələnir, özü də nə zamansa geri alınacaq. Necə ki, can cananın əmanəti, saxlancıdır.

Bir yerdə də "Gözəllərin atdığı daşları yığıb özü üçün qəmxanə tikdiyini" bildirir. Bu da Füzulinin yaradıcılıq psixologiyasına uyğun gəlmir. Füzulidə nadan, yaramaz və bədxah adamların sevən və anlayan aşiqə atdığı tənə daşlarından söhbət gedir. Gözəllər daş atmaz, naz-qəmzə edər, işvəli baxış-göz atarlar...Nə deyim, bəlkə "yanlış da bir naxışdır". Bəlkə bunlar da şair R.Yusifoğlunun Füzulinin klassik obraz və deyimlərinə gətirmək istədiyi özünəməxsus yenilik, müasirlik çalarlarıdır... Bu arzü və istəklə, "suçu yalnız sevmək olan" bir aşiq ömrü yaşayaraq qocalan lirik qəhrəman elə bu yanğıyla da dünyadan köçəcəyinə təəssüflənmir, bunu təbii və zərurət kimi başa düşür, - eynən Məcnun kimi, Füzuli kimi.

Dünya qapısından çıxırıq deyə,
Fələk qəddimizi əyibdir bizim...

Poemanın sonunda sonluq-epiloq təsiri bağışlayan 6 bəndlik şeirdə müəllif üzünü yenə "qəlb şairinə" - Füzuliyə tutur, "damar kimi hər misrasında ürəyinin qanı axan", "şeirləriylə Bağdad xurmasına şirinlik verən", "bir diyara qoşun çəkməsə də,

sözüylə dünyanı fəth eləyən" Füzuliyə. Və ustadından bir çox dərslər alan şair iki şeyi ayrıca qeyd edir; sonsuz sevgi və bitib-tükənməz dərd-qəm fəlsəfəsi. Füzuli poeziyasının mayasını təşkil edən iki başlıca nəsnə-iki əsas motiv. Bu sonsuz sevgidən doğan dərd-qəmə gəldikdə,

Qəm çəkmək işində bizə yar oldun,
Nə qədər dərd olsa, inləmərik biz,

deyən müəllif bu sevginin qaynağı, ilham mənbəyi olan gözəllər və gözəlliklər haqqındakı bu sözlərlə fikrini bitirir:

Sağ ol, bəxtiyaram şeirin, sözünlə,
Hər misran qəlbimi nura bələdi.
Tale gözəlləri sənin gözünlə
Görməyi mənə də qismət elədi...

Füzuli qəzəlləri kimi özündə bir çoxmənalılıq yükü daşıyan son beyt Füzuli dünyasından xəbərsiz oxucuda istər-istəməz bəzi suallar doğurur; axı Füzuli gözəllərə necə baxıb, hansı gözlə görüb onları? Göz, gözəl və gözəllik məfhumlarında hansı assosiativ mənalar, çalarlar axtarıb-arayıb?..

Sonda oxucunu bu cür çarpaşıq suallarla baş-başa buraxan Rafiq Yusifoğlu dolayısıyla özünün də bir sevgi şairi olduğunu bir daha təsdiqləyir, - eynən ustadı Füzuli kimi. Sonda bir şeyi də demək istərdim. Üstünə-başına Füzuli közü-şöləsi düşən, özündə, sözündə Füzulidən bir işıq dilimi, bir nur parçası gəzdirən hər bir yaradıcı adam, mənim fikrimcə, özünü şair saya bilər. Rafuq Yusifoğlu da belələrindəndir.

**Zəkulla Bayramlı**
**f.f.d. dosent**

"Ədalət" qəzeti, 21 noyabr 2018; 22 noyabr 2018

# SƏLƏFİN KƏDƏRİ XƏLƏFİN POEZİYA TABLOSUNDA

## (Füzuli qəmi R.Yusifoğlunun sənət güzgüsündə)

Rafiq Yusifoğlu çağdaş poeziyamızın tanınmış ədəbi simalarından biridir. Şair öz zərif şeirinin xəfif, məzmunlu və səmimi ruzgarı ilə təkcə böyüklərin deyil, həm də kiçiklərin qəlbini oxşayır. Yəni o, həm böyüklər, həm də uşaqlar üçün dəyərli əsərlər yazan bir istedad sahibi kimi tanınır. Böyüklər üçün qələmə aldığı bədii nümunələrdə nə qədər uğur qazanıbsa, kiçiklərdən ötrü ərsəyə gətirdiyi söz sərvəti örnəklərində də bir o qədər cazibədar görünür. Elə buna görə də çağdaş uşaq ədəbiyyatının sayılıb-seçilən, öz səsi və nəfəsi olan nümayəndələrindən biri kimi tanınır. Onun uzun illər "Göyərçin" kimi uşaq jurnalına baş redaktor olması da kiçik nəsil ilə mənəvi yaxınlıq və təmasının bariz faktıdır. Məcmuənin son onilliklərdə də keyfiyyət baxımından öz nüfuzunu, ləyaqət və ampulasını qorumasında, hifz etməsində Rafiq müəllimin əməyi danılmazdır. Biz qətiyyən mübaliğəyə yol vermədən cəsarətlə deyə bilərik ki, R.Yusifoğlu Azərbaycan uşaq ədəbiyyatının ən cəfakeş və istedadlı qələm münəvvərlərindən biridir. Onun bir sıra şeirləri indi də bizim orta məktəb dərsliklərimizin bəzəyidir...

Əlbəttə, R.Yusifoğlunun sənət qalereyası mövzu, məzmun, ideya, dil-üslub, sənətkarlıq, obrazlar aləmi və s. baxımından zəngin, çoxçalarlı, çoxrənglidir. Bir yazıda onların hamısını əhatə etmək imkan xaricindədir. Oxuculara təqdim olunan bu yazıda bizim əsas məqsədimiz onun dahi şairimiz M.Füzuli haqqında yazdığı "Qəm karvanı" poeması ilə bağlı təəssüratımızı ifadə etməkdir. "Qəm karvanı" (R.Yusifoğlu. Sevdalı sabahlar. Bakı, Şirvannəşr, 2007, s.220-232) həcmcə çox böyük olmasa da, şair bu poemanı ərsəyə gətirməyə ömrünün nə az, nə çox, düz 22 ilini sərf etmişdir. Cəmi bir neçə səhifəlik poemaya 22 il ömür sərf etmək ilk baxışda qəribə və paradoksal görünür. Üst-üstə götürdükdə

poema 13 səhifədən ibarətdir. Belə çıxır ki, müəllif bir ilə heç bir səhifə də yazmamışdır. Həcmi illərə bölsək, hər ilə yarım səhifədən azca çox pay düşür. Bəs bunun səbəbi nədir? Müəllifi uzun illər (22 il!) Füzuli sehrinin "əsarətində", cazibəsində saxlayan, ona öz fikrini, mətləbini ifadə və bəyan etməkdə mane olan məziyyət nədir? Əsl məsələ bax buradadır!

Təbii ki, xələf – R.Yusifoğlu haqqında əsər meydana gətirmək istədiyi sələfi –filosof şair M.Füzuli ilə üz-üzə dayananda onun ölçüyəgəlməz əzəməti ilə üzləşir. Bu əzəmətin çalarları, rəngləri, məziyyətləri, əlamətləri o qədər çox, həm də tutumludur ki, onu bir günə, bir həftəyə, bir aya, bir ilə anlamaq, duymaq qeyri-mümkündür. Başqa sözlə, Füzulinin əzəmətini az-çox dərk etməkdən ötrü illər gərəkdir. Bəzən buna heç bir ömür də bəs etmir. Rafiq müəllim öz sələfinə üz tutanda, sözün yaxşı mənasında ona "əl uzadanda" bu vacib hikməti, həm də məsuliyyəti yetərincə duya bilmişdir. Əlbəttə, bu, xələfin şair həssaslığından, qələm məsuliyyətindən, ortalığa çıxarmaq istədiyi bədii libası yüz ölçüb bir biçmək niyyətindən xəbər verir. Belə bir həssaslıq, məsuliyyət və niyyət bacarığın miqyasını böyütmüş, nəticədə çağdaş şair klassikimiz haqqında dəyərli bir ədəbi abidə ortalığa qoya bilmişdir. Yəni "Qəm karvanı" poeması həm ədəbiyyatımız və həm də bədii-fəlsəfi fikir tariximizdə Füzuliyə həsr olunmuş mükəmməl əsərlərdən biridir. "Mükəmməllik" anlayışını biz istər forma, istərsə də məna-məzmun siqlətinə aid edirik.

"Qəm karvanı" lirik poemadır. Çarpaz qafiyəli dördlüklər şəklində qələmə alınmışdır. Hər dördlük sanki mövzu obyektinin bir elementi, çaları və rəngi barədə duyumun, baxışın, təəssüratın, münasibətin, yorumun ifadəsidir. Bəri başdan onu da əlavə edək ki, Rafiq müəllimin Füzuliyə və Füzuli yaradıcılığına münasibəti ayıq, obyektiv və dürüst bədii-fəlsəfi duyumdan, idraki qənaətdən qaynaqlanır. Elə buna görə də poetik şərhlər məntiqli, inandırıcı və şəffaf səciyyə daşıyır. Başqa sözlə, xələf şairimiz dahi Füzuli ilə oxucu arasında etibarlı bir körpü, müdrik bir şərhçi, öz sələfinin yaradıcılıq sirlərinə, fəlsəfi baxışlarına, hikmət və mərifət

dünyasına kifayət qədər aşina olan bir bələdçi rolunu oynayır. Elə buna görə də oxucunu filosof sənətkarımızın sənət dünyasına, bədii-fəlsəfi məkanına, hikmət və baxışlar aləminə apara bilir.

Poemanın əvvəlində M.Füzulinin " Mənəm ki, qafiləsalari-karivani-qəməm..." misrasının epiqraf kimi verilməsi təsadüfi deyil. Çünki qəm filosof şairimizin bütün ruhunun, mənəviyyatının və yaradıcılığının mayasını təşkil edir. Əvvəldən sona qədər onun yaradıcılığından bir cazibədar xətt kimi keçir. Füzulinin bütün əsərləri qəm hikmətinin, kədər fəlsəfəsinin, dərd fəzilətinin üzərində qərarlaşır. R.Yusifoğlu öz ustadının sənət dünyası ilə üzləşmədə deyilən bu həqiqəti ustalıqla, ayıq bir təfəkkürlə fəhm edir. Belə bir ayıqlıq və ustalıq Füzuli dünyasına səyahətdə müasirimiz olan qələm dostumuza müdrik bələdçi olur.

Tədqiqatlarda, nəzəri-fəlsəfi şərhlərdə dəfələrlə təkrar olunduğu kimi Füzulinin qəmi tək bir fərdin qəmi deyil. Bu kədər bütövlükdə bəşərin, insanlığın kədəridir. Füzuli tək özü üçün ağlayıb göz yaşı tökmür. O, bütünlükdə insanlığın dərdi üçün ağlayır, bəşər övladının faciələri, fəlakətləri, müsibətləri üçün fəryad edir. Əslində Azərbaycan şairinin daşıdığı "qəm yükü" bütün bəşəriyyətin "qəm yükü"dür. Elə buna görə də sənətkar "möhnət sarayının cəfakeşi" kimi bəyan edir ki: "Qanda bir qəm itsə, məndən istəsinlər, mən zəman". Füzuli yer üzündəki bütün insanların qəminin zəmanətçisi və pasibanıdır. R.Yusifoğlu da XVI əsr sənətkarımızın yaradıcılıq irsinə, hikmət dünyasına məhz bu prizmadan baxmış, şairin kədərinə, qüssəsinə bu meyarlarla nəzər salmışdır.

M.Füzulinin "Qəm karvanı" əslində öz ilkin start məkanını, başlanğıcını ilk bəşər övladları Adəm və Həvvanın yanlış addımından, hərəkət və əməlindən götürür. Nəfsə uyub cinayət işlədən Həvva və Adəm şər əmələ görə cənnəti – xoşbəxtlik və səadət səltənətini itirdilər. Yer üzünə – zillət və rəzalət məkanına qovulub bəşər övladını əbədi zülmə, məşəqqətə və kədərə düçar etdilər. Rafiq müəllim "Tanrım ilə üz-üzə" silsiləsinə daxil edilən

yığcam, lakin məzmunlu bir şeirində bu həqiqəti yarı zarafat, yarı gerçək şəkildə belə ifadə edir:

Allahım,
Çaya axma desən,
axarmı?
Şimşəyə çaxma desən,
çaxarmı?
Gözlərə baxma desən,
Baxarmı?
Həvva nənəmizin bir günahından ötrü
Adəm babamıza
bu zülmləri vermisən.
Kişi də arvad sözünə baxarmı?

Bəli, doğrudan da, zarafatla deyilmiş "arvad sözünə baxmaq" həqiqətinin arxasında, yəni nəfsə uyub şər əmələ, cinayətə yol vermək hərəkətinin arxasında insanlığın faciələrinin, yəni "qəm yükü"nün və əzablarının səbəbi gizlənmişdir. Füzulinin "qəm karvanı" da o gündən başlayıb insanlığın bütün tarixi boyunca yol gəlir. Və təəssüf ki, bu yol qiyamət gününə qədər davam edəcək.

Varis şairin – R.Yusifoğlunun öz dahi babasına vurğunluğu və sevgisi heyranlıqdan başlayır. Zamanın küləkləri əsir, hər şeyi köhnəldir, soldurub-saraldır, bəzilərini tarixin qaranlığında gizlədir, bəzilərini unutdurur, bəzilərini təravətdən salır, bəzilərini zövq vermək səadətindən məhrum edir. Ancaq Füzuli zamanca bizdən uzaqlaşdıqca məna və mahiyyətcə bizə daha da yaxınlaşır, təzə görünür, sənətinin bəxş etdiyi zövqü səfa daha da artır. Bu əsrarlı xəzinənin dəyəri getdikcə çoxalır. Rafiq müəllim bir şair və oxucu zəkası ilə bu böyük həqiqəti yaxşı dərk edir:

Özüm də bilmirəm, axı nə sirdir,
İncə kəlamının dadı azalmır.

Bir şair ürəyi neçə əsrdir
Yanır için-için, odu azalmır.

Nəvə sənətkar onu da aydın şəkildə anlayır ki, sələfinin poeziyasında sönməyən, daim yandırıb-yaxan bir atəş vardır. Bu, Füzulinin qəlbindən, fitrətindən, varlığından, idrakından qopub poeziyalaşan, sözə çevrilən, obrazlı deyimlə bəyan olunan sevgi atəşidir. Bəşər tarixində nə heç kəs Füzuli qədər sevə bilməyib, qəlbində sevgi yükü daşımayıb, nə də eşqi, məhəbbəti, sevgini bu qədər əzəmətli, dolğun, mükəmməl və obrazlı şəkildə sözə, sənətin ecazkar dilinə çevirməyi bacarmayıb. Müasir şairimizin öz ustadına vurğunluğu və heyranlığı da buradan başlayır:

Mən sənə biganə qala bilmərəm,
Hər sözün önündə başımı əydim.
Sənin tək sənətkar ola bilmərəm,
Barı sənin kimi sevə biləydim.

Xələf sənətkar dahi babasının ədəbi-fəlsəfi mirası ilə üzləşmədə ilk növbədə onun böyük qəmi və böyük sevgisi ilə üzləşir. Bu üzləşmə Füzuli sənətinə üz tutan hər bir oxucuya müyəssər olur və adi haldır. Ancaq adi olmayan, mürəkkəb, həm də düşündürücü siqlət kəsb edən başqa bir məsələdir: Füzulinin qəminin və sevgisinin mahiyyətini, əzəmətini, hikmətini və nəhayət, səbəbini duyub dərk etmək. Bu zəruri məqam olmadan nə filosof şairimizi sevmək, nə də onun böyüklüyünə inanmaq olar. R.Yusifoğlunun idrakı və fəhmi bu məqamda vicdanla onun harayına gəlir. Sələfinin qəminin də, eşqinin də Tanrı hikmətindən qaynaqlandığını, ilahi təbiətə malik olduğunu, qəlbə nur da, zülmət də, sevgi də, nifrət də, bəxş edənin Haqqın özü olduğunu anlayır. Başqa sözlə, Füzulini dərk etməyin yolu ilahi varlığı düzgün dərk etmək amalına, amacına bağlıdır. Xələfin tutduğu yol da bu sağlam həqiqətə söykənir:

– Yarəb, bir ilahi məhəbbət ilə
Səni dərk etməyə çalışıram mən.
Ürəyim eşq ilə gəlsə də dilə,
Sənin rizan ilə danışıram mən.

İzn ver qanımda haqq nuru axsın,
Dözərəm, olsa da yarım hikkəli.
Qoy sevgi ruhumu odlara yaxsın,
Sənin dərgahına təmiz, pak gəlim...

Qəlbi, ruhu olmayanlar nə Füzulinin sənət aləminə, nə də Haqqın dərgahına üzü ağ qədəm qoya bilməzlər. R.Yusifoğlunun poemada təlqin etdiyi bu həqiqət nə qədər uca, nə qədər ali görünür.

"Qəm karvanı"nda poetik-fəlsəfi təmas və şərhin hədəfində dayanan əsas məsələlərdən biri də XVI əsr mütəfəkkirinin "aşiqlik işi"dir. Rafiq müəllimin müvəffəqiyyəti orasındadır ki, bu mühüm məsələdə fərdi düşüncədən doğan yorumlara, illüziyalı poetik təfsirlərə yol vermir. Problemin şərhində dahi sənətkarın yaradıcılığının təbii məntiqindən, onun baxış və deyimlərindən çıxış edir. "Aşiqlik işi"ni xələfin kifayət qədər incə şəkildə duyub tutması onun lazımi keyfiyyət və xarakterini filosof-şair fəhmi ilə anlaması təbiidir. Çünki Rafiq müəllimin məhəbbət mövzusunda çoxlu sayda şeirləri vardır. Bu şeirlər həssas, açıqgözlü, zərif bir şair qəlbinin çırpıntıları və poetik pıçıltılarıdır. Həm də müəllifin bu işə yetərincə bələd olmasının bədii-fəlsəfi sübutlarıdır.

Eşq eşqdir, istər ilahi olsun, istərsə də dünyəvi! Füzulinin eşqi isə, əsasən, ilahi keyfiyyətdədir. Onun poeziyası bütünlüklə Haqqı və onun yaratdıqlarını sevməyə çağırışın, səsləyişin bədii-fəlsəfi təzahürüdür. Bu elə dərddir ki, dərmanı bulunmaz. Bu elə xəstəlik və cününluqdur ki, çarəsi tapılmaz. Əslində o, Yarın, yəni Tanrının bəndəyə – səbatlı aşiqə bəxş etdiyi lütfdür, ərməğandır, ilahi nemətdir, dərmandır, şirin zövq mənbəyidir. R.Yusifoğlu öz ustadının yaradıcılığındakı bu məziyyətə dəqiq ölçülərlə, şair-

həkim baxışıyla yanaşa bilmişdir. Aşağıdakı misralar bu fikri bir daha təsdiq edir:

Dərdim yüz dərmandan artıqdır, təbib,
Cünunluq yolundan məni əyləmə.
Yar vuran yaraya dərman eyləyib,
Məni şirin zövqdən məhrum eyləmə.

Çağdaş şairimiz sələfinin eşq meydanına və hikmətinə yaxşı bələd olduğundan, onun Aşiq - Məşuq obrazlarının kimliyini, səciyyəsini, ilahi və dünyəvi keyfiyyətlərini də düzgün, dürüst, dəqiq meyarlarla dəyərləndirə bilir.

Yəni Füzulinin Aşiq obrazının vəhdət aləmindən ayrılmış bir zərrə, hicran zavalına uğramış cüzv olduğunu dərk edir. Əlbəttə, Füzuli aşiqini dərk etmək elə şairin özünü anlamaqdır və ya da əksinə, şairi anlamaq onun Aşiq obrazını duymaqdır.

Rafiq müəllim filosof sənətkarımızın baxışında və yaradıcılığında o laya da enə bilir ki, Füzulinin aşiqi canı üçün yox, Cananı üçün yaşayır. Çünki can Canana (Yaradana) məxsusdur. Bu gözəl ya Haqqın özü, ya da Xaliqin xəlq etdiyi, onun zərrəsi kimi təcəlli edən gözəl məxluqdur. Ona görə də mülk aləminə gəlib hicran zavalına uğramış irfan qəhrəmanı bütün varlığı, istəyi ilə yenidən canını (maddi vücudunu) tərk edib Canana qovuşmaq, şəhadət aləminin qəm və rəzalətlərindən xilas olmaq istəyir. Daha dəqiqi, gəldiyi məkana, vücudi-mütləqə qovuşmaq intizarı, həsrəti ilə çırpınır. Rafiq Yusifoğlu bu dəruni mətləbi oxucuya belə bir lakonik poeziya dili ilə çatdırır:

Sözümü pas tutmaz, ötsə də min il,
İlahi, nə qədər odlanım, yanım?
Məndə can qoymayıb bu şeyda könül
Verim bir gözələ, qurtarsın canım.

Poemada Rafiq müəllim Füzulinin rəmzi istilahlarına da həssaslıqla münasibət göstərə bilmişdir. Bunlardan **qaş, göz, xətt, xal, dodaq, göz yaşı, sərv, mey, badə** və s. obrazları göstərə bilərik. Əslində bunlar təsəvvüflə bağlı rəmzi-fəlsəfi terminlər olub, ilahi eşqin tərənnümçüləri olan irfan şairlərinin yaradıcılığında sıx-sıx işlədilir. Diqqətəlayiq cəhət burasındadır ki, xələf sənətkarımız öz poemasında bunların daşıdığı rəmzi-fəlsəfi yükü və mənanı düzgün, yerli-yerində dəyərləndirə bilmişdir.

Çağdaş şairimiz sələfini kifayət qədər dürüst mənimsəyib anladığından, bəzən onun bir neçə şeirinin irfani məzmun, mətləb və ideyasını cəmi bir neçə misraya sığışdıra bilir. Məsələn, aşağıdakı bənddə XVI əsr sənətkarımızın "Qəd ənarəl...", "Məni candan usandırdı..." və s. kimi qəzəllərinin ideyası və ifadə çaları məharətlə dörd misraya sığışdırılmışdır:

Eşqsiz o səda olmazdı neydə,
Gör necə yandırır? – Bir dəm tut qulaq!
Ahımdan ulduzlar alışar göydə,
Muradımın şəmi alışar ancaq.

"Qəm karvanı" sənətkarlıq baxımından da səviyyəli təsir bağışlayır. Müəllif əsərdə uğurlu məcazlardan, oxucu zövqünü oxşayan bəlağət vasitələrindən də istifadə edir. Bu cəhət poemaya bədii mükəmməllik və obrazlılıq siqləti aşılayır. İmkan məhdud olduğundan biz şairin obrazlı deyimlərindən yalnız bir bəndi nəzərə çatdırmaqla kifayətlənirik:

Dərdimi duyana dərd oldu dünya,
Eşqimə bir nəfər gülən qalmadı.
Gözümün yaşında qərq oldu dünya,
Gözümün yaşını silən qalmadı.

"Qəm karvanı", doğrudan da, gözəl şairimiz Rafiq Yusifoğlunun uğurlu qələm məhsullarından biridir. Dahi Füzuliyə

layiq bir söz abidəsidir. Poemanın sonunda çıxarılan bu poetik qənaət sanki təkcə Rafiq müəllimin sözü deyil. Bütün Füzulisevərlərin sözüdür, mütəfəkkir sənətkarımız barəsində hamımızın qənaətidir.

Babam. yetməsən də nazlı yara sən,
Sevən ürəklərə nur ələmisən.
Qoşun çəkməsən də bir diyara sən,
Dünyanı sözünlə fəth eləmisən.

**Yaqub Babayev**
**filologiya üzrə elmlər doktoru, professor**

*“525-ci qəzet”, 1 may 2019-cu il.*

## BAŞIMA BƏLA RAFİQ YUSİFOĞLU…

Şair haqqında çox yazıblar… Çox deyiblər… Çox eşitmişik… Mənsə gördüklərimi, eşitdiklərimi və duyduqlarımı yazacam.

Bu şairlə mən orta məktəbdə, hələ ibtidai sinifdə oxuyarkən tanış oldum. Dərsliklərimizdə onun xeyli şeirləri var idi. Hamımız sevə-oxuyur, əzbərləyirdik.

Fərdə adlı bir parta yoldaşım var idi. Bir az utancaq olsa da, bir az da “oxuyanlar kralı” idi. Bir gün, mən bu qıza dedim ki, bəs ay Fəridə, mənim səndən xoşum gəlir… Dedi: “Ay Elşad, incimə eeee… mən Rafiq Yusifoğlunu sevirəm”.

Doğrusu, pərt oldum. Şeirlərini sevə-sevə oxuduğumuz bu kişiyə qarşı ürəyimdə bir paxıllıq hissi baş qaldırdı... Eyni zamanda onun yazılarını oxumağa bir ehtiyac hiss elədim. Əlimə keçən kitablarını vərəqlədim. Bəzi misraları elə o vaxtdan yaddaşıma ilişib qaldı.

Deyirəm ki, utanma,
Keç içəri, ay budaq.
Evdə tək darıxıram,
Gəl birlikdə oynayaq

***

Bilirəm, ürəyin qana dönübdür,
Cavab gözləyirsən məndən, eləmi?!
Sirrim bir sehrli don geyinibdir
Kərəmin sevimli Əslisi kimi.

Gecələr qor dolur sənin yerinə,
Bir giley görürəm nəmli gözündə.
Toxunma sirrimin düymələrinə,
Yandırıb kül edər ikimizi də…

***

Məhəbbətdi imanımda, dinimdə,
Ay nuru var sevgilimin üzündə.
Diz çökürəm gözəlliyin önündə,
Şeh öpürəm çiçəklərin gözündə...

Bununla da ürəyim soyumadı. Elə o gün, bu gün mən o Rafiq Yusifoğlunu axtarırdım… Nəsə həyat elə gətirdi ki, mən Sumqayıt Dövlət Universitetinin filologiya fakültəsində oxuyası oldum, Vallah bu şair burda da məndən əl çəkmədi. Hansı qıza yaxınlaşırdım, əlində Rafiq Yusifoğlunun kitabı… “Ayrılığın qəm hasarı”, “Həsrət sazağı”, “Sevdalı cabahlar”, “Eşqin qarlı yollarında” və s… Birdi, ikidi ki, saymaqla qurtarasan… Elə bil bu şairin ürəyində şeir anbarı var… Şeir mağazası var… Hansı tip insan desən, onun xarekterinə uyğun, sevə biləcəyi şeir var burda... Eh, bu hələ harasıdı! Hələ bu toya getməlidir eee… Getdim orta məktəblərə təcrübəyə, qardaş, orda da məndən əl çəkmədi o şair… Hansı sinfə girdim dərs keçəm, “Eşqin qarlı yollarında” kitabından bir şeir bilməyən şagird yox idi.

Çiçəklər gülür
Yağış yağanda,
Bir səda qopur
Şimşək çaxanda:
Allahu Əkbər!
Allahu Əkbər!

Quşlar göylərə
Meydan oxuyur,
Yağış çiçəkdən
Xalı toxuyur
Allahu Əkbər!
Allahu Əkbər!

***

Və yaxud digər şeirində:

Unudub dünyanı, deyil özündə,
Sevdalı şairə bəxti yar olub.
Əllərim əlində, gözüm gözündə,
Dodağım üzündə bəxtiyar olub…

Beləcə, IV kursda Rafiq Yusifoğlu mənə ədəbiyyatşünaslıqdan dərs deyəsi oldu… Bir də ayıldım ki, qardaş, özüm də aşiq olmuşam eee bu şairə. İndi magistrəm yenə də ondan əl çəkə bilmirəm... Çünki indi balaca Fəridəni anlamağa başlamışam... Demək olar ki, bütün günümü aşağıdakı səhifədə keçirməli oluram...**https://www.facebook.com.**

Beləcə, Rafiq Yusifoğlu mənim və Azərbaycanımızın həyatında elə bir iz buraxdı ki, onu belə adlandırmaq olar:

AZƏRBAYCAN XALQININ ŞAİRİ…

**Elşad Əliyev**
*4 Noyabr, saat 16:53*

## “RAFIQ YUSIFOĞLU POEZIYASINDA SƏNƏTKARLIQ AXTARIŞLARI”

Gənc alim Günel Almazın mənə təqdim etdiyi və nəfis şəkildə işıq üzü görmüş kitabının redaktoru filologiya üzrə elmlər doktoru, professor Zahid Xəlil, rəyçiləri isə filologiya üzrə elmlər doktoru, professor Ramazan Qafarlı və filologiya üzrə fəlsəfə doktoru, dosent Füzuli Əsgərlidir.

AMEA Folklor İnstitutunun doktorantı olan Günel Almaz özünün bu monoqrafiyasını Rafiq Yusifoğlunun yaradıcılığına həsr edib. Bu kitab şairin poeziyasının bütün çalarlarını açmağa, onun yaradıcılığının bütün mərhələlərini zamanınına və üslubuna görə, həmçinin ifadə tərzinə, mövzu çevrəsinə görə geniş təhlil olunmuş bitkin bir elmi əsərdir. Əgər hər hansı söz adamını yaxından tanımaq, onun yaradıcılığına köklü şəkildə bələd olmaq istəyi ortaya qoyulursa, təbii ki, bu da böyük axtarışlar, böyük zəhmət tələb edir. Maraqlıdır ki, gənc alim qarşısına belə bir məqsəd qoymuş və Azərbaycanın dəyərli şairlərindən biri olan Rafiq Yusifoğlunun yaradıcılığını bütün aspektlərdə açmağa çalışmışdır.

İstər sovet dövrünün, istər müstəqillik illərimizin ədəbi prosesində, xüsusilə poeziya karvanımızda özünü təsdiqləmiş, sözünün möhürünü vurmuş Rafiq Yusifoğlu haqqında belə bir samballı elmi əsəri yazmaqla Günel Almaz həm də bugünkü həmkarlarına bir növ mesaj vermişdir. Yəni gənc alim üstüörtülü olsa da, çağdaş ədəbiyyatımızın yaradıcılarına diqqət yetirməyi, şair sözü ilə desək, onlara sağlığında qiymət və dəyər verməyi diqqətə çatdırmışdır. Çoxlu sayda ədəbiyyatlardan istifadə edilən, giriş, dörd fəsil və nəticədən ibarət olan bu monoqrafiya ədəbiyyatımızı araşdıranlar üçün və nəhayət, ədəbiyyatımızı görmək, öyrənmək istəyənlər üçün maraqlı bir tədqiqat işidir. Düşünürəm ki, G.Almaz qarşısına qoyduğu istəyə nail olmuşdur.

**Əbülfət Mədətoğlu**

*“Ədalət” qəzeti, 6 noyabr 2013-cü il.*

# DƏYƏRLİ TƏDQİQAT ƏSƏRİ

Hər bir tanınmış yazıçının, sənət adamının, alimin həyat və yaradıcılığı haqqında yaradılan tədqiqat əsəri həm elmi, həm də pedaqoji baxımdan mühüm əhəmiyyət kəsb edir. Həmin prizmadan yanaşsaq, AMEA Folklor İnstitutunun doktorantı, "Xan qızı Natəvan" mükafatı laureatı Günel Almazın "Rafiq Yusifoğlu poeziyasında sənətkarlıq axtarışları" monoqrafiyası da müəllim və tələbələr, gənc tədqiqatçılar üçün faydalı bir vəsaitdir.

Bu yaxınlarda ADPU nəşriyyatında işıq üzü görən 450 səhifəlik həmin kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Zahid Xəlil, rəyçiləri isə filologiya elmləri doktoru, professor Ramazan Qafarlı və filologiya üzrə fəlsəfə doktoru, dosent Füzuli Əsgərlidir.

Monoqrafiyada görkəmli şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, "Qızıl qələm", "Vətən", "Araz", "İlin ən yaxşı kitabı" və s. mükafatların laureatı, filologiya elmlər doktoru, professor Rafiq Yusifoğlunun bənzərsiz poeziyası tədqiqat obyekti seçilmişdir. Bu da təsadüfi deyildir. Bundan əvvəl "Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri" rubrikası altında Mədəniyyət və Turizm Nazirliyi və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının hazırlayıb nəşr etdirdiyi "Rafiq Yusifoğlu (1966-1911)" biblioqrafik göstəricilər kitabının tərtibçisi olan Günel Almaz bu yolda axtarışlarını davam etdirmiş, tanınmış şair, alim, pedaqoq haqqında daha sanballı bir əsər yarada bilmişdir.

Monoqrafiya Rafiq Yusifoğlunun yaradıcılıq yolu haqqında oxucuda dolğun təsəvvür yaradır. Gənc alim Rafiq Yusifoğlunun poeziyasını tədqiq edərkən görkəmli yazıçı və ədəbiyyatşünaslardan Süleyman Rüstəmin, Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin, Anarın, Qasım Qasımzadənin, Nəriman Həsənzadənin, Tofiq Mahmudun, Hikmət Ziyanın, Məmməd Aslanın, Zahid Xəlilin, Ağa Laçınlının, Yaşar Qarayevin, Nizami Cəfərovun, Himalay Qasımovun, Zaman Əsgərlinin, Vaqif

Yusiflinin, Tehran Əlişanoğlunun, Adil Cəmilin, Flora Xəlilzadənin və başqalarının fikirlərinə istinad etmiş, bununla da əsərinin elmi dəyərini xeyli dərəcədə artıra bilmişdir. Mətbuatda Rafiq Yusifoğlu haqqında dərc edilən bir məqaləni də nəzərdən qaçırmayan Günel Almaz şairin şeirlərini özünəməxsus bir tərzdə təhlil etməyi bacarmışdır.

Monoqrafiya "Rəngarəng mövzular, problemlər poeziya aynasında", "Yaradıcılıq problemləri", "Ənənəyə söykənən novator poeziya", "Rafiq Yusifoğlu poeziyasının bədii strukturu" adlı dörd fəsildən ibarətdir. "Ulu yaradana məhəbbət motivləri", "Həyat və ölüm haqqında fəlsəfi düşüncələr", "Sevgi lirikası", "Uşaq qəlbinin sehrli memarı", "Bədii həqiqət axtarışları", "Sətiraltı məna", "Peyzaj", "Bədii portret", "Dil və üslub məsələləri", "Nağıldan həyata açılan qapı", "Klassik ədəbi irsə məhəbbət motivləri", "Dünya ədəbiyyatı ənənələri", "Ədəbi janrlar", "Vəznlər", "Qafiyə sistemi" adlı bölmələr həm tədqiqatın istiqaməti, həm də gənc alimin elmi-nəzəri səviyyəsi, onun zəhmətsevərliyi, Rafiq Yusifoğlu yaradıcılığınıa, eləcə də Azərbaycan poeziyasına yaxından bələdliyi haqqında dolğun elmi təsəvvür yaradır.

Ümid edirik ki, Günel Almazın "Rafiq Yusifoğlu poeziyasında sənətkarlıq axtarışları" adlı monoqrafiyasını oxucular və ədəbii ictimaiyyət maraqla qarşılayacaqdır.

**Arzu ƏLIYEVA**

*"Respublika" qəzeti, 9 yanvar 2014-cü il.*

## SÖHBƏT YARADICILIQ AXTARIŞLARINDAN GEDİR

“Rafiq Yusifoğlu əks etdirdiyi həyat və təbiət hadisələrinin, hətta ən adi predmetin – otun, çiçəyin mahiyyətini belə dərindən dərk etməyə çalışır və gəldiyi qənaətləri oxucu ilə bölüşməkdən xüsusi zövq alır. Sözü mənalandırmaq bacarığı onun poetik düşüncələrinin kamilliyini şərtləndirən ən başlıca amillər sırasındadır…”

Gənc tədqiqatçı Günel Almaz “Rafiq Yusifoğlu poeziyasında sənətkarlıq axtarışları” adlı kitabında şairin çoxşaxəli yaradıcılıq aləminə bu prizmadan yanaşır.

Filologiya üzrə elmlər doktoru, professor Zahid Xəlilin redaktorluğu, ədəbiyyatşünas alimlərdən Ramazan Qafarlı və Füzuli Əsgərlinin rəyləri ilə işıq üzü görən kitab gərgin elmi axtarışların nəticəsi kimi maraq doğurur.

**S.Aranlı**

*“Ədəbiyyat qəzet”i, 19 sentyabr 2014-cü il.*

## “ÖMÜR AĞACINDAN DÜŞƏN YARPAQLAR”

Bu günlərdə professor Məhərrəm Qasımlının redaktorluğu ilə nəfis tərtibatla çap edilən “Ömür ağacından düşən yarpaqlar” (Bakı, ADPU nəşriyyatı, 2019, 300 səhifə) kitabına görkəmli şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun ilk qələm təcrübələri, eləcə də indiyəcən heç bir toplusuna daxil edilməyən yaradıcılıq nümunələri toplanmışdır. Necə deyərlər, kitab yeni olsa da, oradakı şeirlər yeni deyil, çoxdan qələmə alınıb...Kitabın maraqlı, yıgcam ön sözündə müəllif yazır:

“Övladı şikəst doğulduğuna görə atmaq böyük günah olduğu kimi, zəif şeirlərdən də imtina etmək mənə qəbahət göründü ovqatımın bu məqamında, yaşımın bu çağında… Bu şeirlər nə qədər zəif olsa belə, onu yazanın daxili dünyasında gedən prosesi izləmək baxımından maraq doğurur…

Bu şeirlərin heç biri o vaxt çap olunmayıb… Neçə-neçə kitabım işıq üzü görsə də, zəif sandığım üçün onların heç birini bu vaxta qədər nəşr edilən toplularıma daxil eləməmişəm. Tərəddüd içində qalmışam. Onları nə cırıb atmağa əlim gəlib, nə də oxucu mühakiməsinə verməyə… Eləcə ayrı-ayrı dəftərlərimdə illər boyu uyuyub qalıblar… Ancaq ömrün bu çağında həmin yazıları oxuyanda mənə aydın oldu ki, yelə verdiyim ömürdən mənə qalan yalnız və yalnız bunlar və onların doğurduğu yaşantılardı… Bu misralar özünü təsdiqə çalışan, lakin arzusuna çatmayan bir yeni-yetmənin daxili dünyasını, arzu və düşüncələrini, yaşantılarını, sevinc və kədərini xəyalımda canlandırmaq üçün mənim yeganə yardımçımdı… İndi o günlərin xiffətini elə çəkirəm ki…

…Bu, mənim öz yaşantılarımdı, onun kimsəyə aidiyyəti yoxdu… Bir də elə bil ki, bu yazılar mənim ədəbiyyat diyarına uçan söz qatarımdan ayrılıb qalan yaralı, uçmağa taqəti olmayan durnalardı...

İndi bu şeirləri ona görə çap elətdirmirəm ki, oxucuların mühakiməsinə verim, ona görə çap etdirirəm ki, ömrümün ötən günlərinin yaşantılarına bu gün bir insan kimi ehtiyacım var… Onların oxucusu yalnız özüm olsam belə…”

Kitabı oxuduqda isə əsərləri 16 yaşından çap olunmağa başlayan Rafiq Yusifoğlunun ilk qələm təcrübələrinin belə bitkinliyi, obrazlılığı, məna aydınlığı, müəllifin yeni fikir axtarışları, yeni deyim tərzi diqqəti cəlb edir. Şeirlərin mövzu və problematikası bu gün də öz aktuallığını saxladığı kimi, onların bədii xüsusiyyətləri də diqqəti cəlb edir. “İlk addımlar”, “İrəvanda keçən günlər”, “İllər gəlib keçdi ömürdən illər”, “Təmsillər və satirik şeirlər” və “Baməzə xatirələr” adlı bölmələrdə şairin gənclik illərində yazdığı əsərlər toplanmışdır.

Rafiq Yusifoğlunun ömür ağacından düşən yarpaqlar adlandırdığı şeirlər əslində indi də təzə-tərdi, təravətlidi... Bu şeirlər həm də şairin yaradıcılıq yolunu izləmək baxımından xüsusi əhəmiyyət kəsb edir.

**Manevr.az. 19 mart 2019**

# “ÖMÜR AĞACINDAN DÜŞƏN YARPAQLAR”

*Dəyərli şair qardaşım, qələm dostum Rafiq Yusifoğluna*

Bəri başdan deyim ki, Rafiq Yusifoğlu uzun illərin Söz dostu, Qələm qardaşıdı. Dağlarımız da birdi, çaylarımlz da, bulaqlarımız da, elə ürəyimizdəki dağlar da eynidi. Görünür, bu oxşarlıq, bu bir-birində özünü tapma heç də təsadüf deyilmiş. Və bir də görünür ki, Tanrı qələminin kimliyimizə yazdığı yazılar da eyni qələmin, eyni mürəkkəbin məhsuludu. Ona görə də dağlarımız eyni ucalıqda olduğu kimi, yaşadığımız, çəkməyə məhkum olduğumuz dağlar da ürəyimiz tutumdadı, amma ağırlığı dözülməzdi, ağrısı bitib-tükənməyəndi...

Mən Rafiq müəllimin hər yazısını, hər kitabını əlimə alanda, sonra həmin o yazıyla, kitabla baş-başa qalanda bir anlıq xəyala dalıram. Gözümün qarşısına kəndimdən, yəni Tuğdan Qubadlıya gedən yol - bir meşə cığırı gəlir. O cığırla təbiətin bizim indi işğal altında olan bölgəmizə bəxş etdiyi giləmeyvələrdən dadmaqla doymamaq şərti və sevgisiylə gedirəm. Və elə bilirəm ki, bu cığırın sağında, solunda və ümumiyyətlə, bu meşəlikdə boy verən bütün nə varsa hamısı təkcə mənim üçündü, mənim kimi düşünənlər üçündü. Və bir də bu torpağı mənim kimi sevənlər üçündü. Təbii ki, bu dediklərim həm də Rafiq Yusifoğluna aiddir. Xüsusilə ona görə ki, Rafiq Yusifoğlunun söz dünyası həmin o təbii ormanı, meşəni, çəməni xatırladır mənə. Əlini hansı sözə uzadırsansa, özünəməxsus dadı, tamı, özünəməxsus gözəlliyi, zərifliyi var. Bax, bu dad, tam, bu gözəllik, zəriflik ruhuma hopur, könlümü oxşayır. Ona görə də qələm dostumun şeir çələngindən doymuram, ayrılmaq istəmirəm...

Bax, elə bu günlərdə işıq üzü görmüş və dəyərli professorumuzun, folklorşünas alimimiz Məhərrəm Qasımlının redaktorluğu ilə nəşr edilmiş “Ömür ağacından düşən yarpaqlar” kitabı da məni həmin o dediyim ovqata qaytardı. Mən kitabın ilk

səhifəsindən Rafiq Yusifoğlunun ilk imzasını gördüyüm illərə qayıtdım. Kitab elə tərtib olunub ki, bir şair qələminin ilk nümunəsindən kitabın çapına qədər olan yol naxışlanıb. Oxucu, yəni mən 1966-cı ilin Qubadlısına qayıdır... Şairin ilk addımlarının səsini eşidir... ürəyinin döyüntüsünü dinləyir. Hiss edir ki, ədəbiyyata, söz dünyamıza yeni bir imza gəlir, yeni bir nəfəs qarışır və bu səsin, bu nəfəsin sahibi yuxusuz gecələrin yaşantılarını özü üçün birmənalı şəkildə qəbul edir. Və...

Və beləcə, başlayır barəsində fikirlərimi bölüşdüyüm kitabın şeir düzümü. Tam səmimi deyim ki, mən kitabı vərəqləyib şeir dünyasında özümün duyğularımı cilalamağa başladığım anda hardansa ağlıma bir fikir gəldi. İstədim ki, Rafiq müəllimin xanımına, qızına, oğluna, Vətənə, Qarabağa ünvanladığı şeirlərin fonunda kitab barəsində içimdən keçənləri sizinlə bölüşüm. Bilmirəm, bu cür yanaşma Rafiq Yusifoğlunu qane edəcək, yoxsa yox, amma ürəyim belə istədi. Bax, bu istəyin ilk misraları belədi:

Qəlbə daş atanın insafına bax, -
Bu yerin ən parlaq ulduzu söndü.
Getdi, yasa batdı bütün Qarabağ,
Tehran gəlişiylə Cənnətə döndü...

... Qürbətdə vətəni düşünüb hər gün,
Yaşarmı budaqdan ayrılan yarpaq?
Tehran cənnətə də dönsə onunçün,
Yadından çıxmayıb doğma Qarabağ.

Bu şeir Ağabəyim ağaya ithaf olunub. Onun nisgilli taleyindən danışır bu şeir. Özü də bir şair vurğunluğuyla. Və oxuduqca gözünün önünə xarıbülbül də gəlir... Zənnimcə, oxucuya işarəylə, sətiraltı deyimlə öz istəyini çatdırmaq, öz fikrini həzm etdirmək yaradıcı insanın qayəsi və uğurudur. Bunu da Rafiq Yusifoğlu ustalıqla bacarıbdı. O hələ 1974-cü ildə yazıb ki:

Qapımız, bacamız qalıb başına,
Könlüm sızıldayır yaralı kimi.
Üzümü sürtürəm qəbir daşına,
Dağların bir ürkək maralı kimi.

Sinəmdə illərin həyəcanı var,
Ürək doğmaları yada salıbdır.
Bizim kəndimizdə bizdən yadigar,
Təkcə babamızın qəbri qalıbdır...

Mən bu şeiri oxuyanda tam səmimi şəkildə qərar verdim ki, Rafiq Yusifoğlu yurd itirəcəyimizi, yurda həsrət qalacağımızı öncədən duyub, fəhm edibmiş. Ona görə də həmin o hissləri qələmə alıbmış...

Günahım nədir ki,
Günahsız bir gözəl
Sevir məni.
Günahım var isə,
Balanın başına
Çevir məni...

Bu, şair etirafıdı, özü də ömür-gün yoldaşına. Və yaxud:

Qəlbimin arzusu qəlbinə hopub,
Təzə bir qönçəsən güllər içində.
Ay oğul, sən mənim qəlbimdən qopub,
Gəzən ürəyimsən ellər içində...

Və yaxud:

Darıxıram ay qızım,
De, necə rahat yatar,
Öz doğma övladından
Ayrı düşən bir ata.

Təqdim etdiyim bu nümunələrin hər birində bir atanın, bir ailə başçısının, bir sevən insanın bütün duyğularının səmimiliyini, həssaslığını, ən vacibi isə özü olmasını görmək mümkündür. Burada Rafiq Yusifoğlu həm də özü-özünü oxucusuna təqdim edir. Bağlılıq tellərinin incəliyini qabardır. Təbii ki, bu, dənizin qabarmasıdı, sevginin qabarmasıdı. Və o da təbiidir ki, bu qabarmalar oxucunu özünə çəkir, oxucunu qolları arasına alır.

Mən Rafiq Yusifoğlunun "Ömür ağacından düşən yarpaqlar"ını yığmağa çalışdım. Amma o yarpaqlar o qədər kövrək idi ki, toxunmağa qorxdum. Lakin içimdə yaşayan inam mənə söylədi ki, o yarpaqlar solmayan yarpaqlardı, onlar xəzəl olmayacaq. Çünki o yarpaqlara Rafiqin ürəyi, varlığı hopubdur. Allah o ürəyi, o varlığı qorusun!

**Əbülfət MƏDƏTOĞLU**
*"Ədalət" qəzeti, 19 aprel 2019*

## "MƏN PAYIZ AXTARIRAM"

## deyən Rafiq Yusifoğluna 2019-un son məktubu

Təbii ki, yazının başlığında diqqətimizi çəkən Rafiq Yusifoğlu imzası hər birimizə tanışdı. Bu imzanın sahibi həm ədəbiyyatşünas alim, həm publisist, həm ali məktəb müəllimi, professor, həm gözəl bir dərginin baş redaktoru və həm də sözə, şeirə ömür həsr edən, sözdə, şeirdə yeri olan dəyərli bir şairimizdir. Və hər dəfə də mən Rafiq müəllimlə qarşılaşanda bütün bu dediklərimi xəyalımdan keçirməklə bahəm onu həm özümün dərd, həsrət sirdaşım kimi də görürəm. Çünki o da vətəndə vətənsiz şairlərimizdəndi, o da Qubadlı həsrətilə göynəyən, ürəyi çat verən bir söz adamı, bir vətəndaşdı!..

Bax, bütün bunların sonunda Rafiq Yusifoğlu mənim üçün həm də kitabları vasitəsilə həmsöhbət olduğum insandı. Belə ki, uzun illərdən bəri şəxsən tanıdığım, sözünə, özünə böyük saygı

bəslədiyim Rafiq müəllimlə daha çox onun şeirləri vasitəsilə "söhbətləşirəm". Və deməli, onu hər gün görürəm və hər gün də birlikdə oluruq. Etiraf edim ki, bu görüşümüz, bu söhbətlərimiz mənə mənəvi dəstək olmaqla yanaşı, həm də onu oxuyub, onu dinləyib bir az da zənginləşmək imkanı qazanıram. Bu mənada şair dostumun hər yeni kitabını təkcə oxucu sevinciylə yox, həm də dost sevinciylə qarşılayıram. Həm də bilirəm ki, ömrünün yubiley yaşına çatmış Rafiq müəllim təmtəraqlı ad günü keçirməyəcək. Bunun ən başlıca səbədi də Qubadlıdan uzaq düşməsidi. Amma şükürlər olsun ki, o, böyük sözün içərisindədi. Zənnimcə, elə bunun özü də şair üçün ən yaxşı ad günü tədbiridi. Mən də o tədbirə əliboş getmək istəmədiyimdən Rafiq müəllimə bu kiçik məktubu ünvanlayıram.

Yaxın günlərdə Rafiq Yusifoğlunun "Sevdalı ömür yaşadım" adlı şeirlər kitabını onun aftoqrafıyla əldə etdim. Məni də həmin aftoqrafda sevdalı bir ömrü yaşayanlar sırasında görən ustadın son illərdə yazdığı şeirləri oxuduqca həm dünyanı gəzib dolaşdım, həm də ruhən işğal altında qalan yerlərimizə baş çəkdim. Bu səfərdə əlimdən tutan, mənə yol-yoldaşlığı edən şairin özü idi. Əllərini göy üzünə açan şair yazır:

Ulu Allah, bizə rəhm et
Bir İlahi təmas ilə!
Ucalt bizi dərgahına,
Xəcalətdən xilas elə!
Torpağımız qan ağlayır
Kafirlərin tapdağında.
Hava tək, su tək gərəkdi
Xilas yurda, xilas elə!

Mən düşünürəm ki, bu duanı bütün oxucular da "Amin!" deyərək qarşılayacaq. Çünki şair hamımızın yaşantısını duaya çeviribdi. Onunla birlikdə təkrar-təkrar Tanrıya və təbii ki, bir də özümüzə üz tutaraq, inşallah səsimizi Ulu Allaha çatdıracaqdır.

Ona görə də mən Rafiq Yusifoğluna qoşulub bir anlıq da olsa onun dediyini təkrar etmək istəyirəm.

Başımızda şimşək çaxıb,
Gözümüzdən sellər axıb,
Dağlardan əlimiz çıxıb,
Qəlbimizdə dağ yaşayır...

Ürəyi, sinəsi dağlı olan hər kəsin, xüsusilə söz adamının bircə təsəllisi var. O da içində yaşatdığı ümiddi! O ümidi də öl-məyə, solmağa qoymayan böyük sözdü, şairin könül verdiyi böyük poeziyadı. Şəxsən mən Rafiq Yusifoğlunun böyük poeziyadakı ürək çırpıntılarını rahatlıqla dinləyib ona qoşula bilirəm. İstər dərdimizlə bağlı, istər sevgimizlə, istərsə də dünyamızla bağlı onun bütün misraları, fikirləri ruhuma hopur. Axı mən də sevdalı bir ömür yaşayıram. Və deməli, bu yerdə mütləq vurğulamalıyam.

Qəlbindən baş qaldırıb,
Mənim olmaq istəyi...
Hönkürmə, qulağına
Söykəyərək dəstəyi...

Siz bu anı təsəvvür edə bildiniz? Əgər etdinizsə, onda mütləq yenə Rafiq Yusifoğluna üz tutacaqsınız.

Apara bildinmi gətirdiyini? –
Qəlbin eşq odunda bişəcək sənin.
Dərk etsən nələri itirdiyini,
Bu dünya gözündən düşəcək sənin.

Bəli, bax, gerçək budu. Elə bir gerçək ki, onu görmək üçün mütləq sevdalı olmalısan. Üstəlik, həm də öz-özünə deməlisən ki:

Gözlərim dikilibdir
Üzü vətənə sarı.

Ondan doğma kimim var,
Şair, Vətənə sarıl!

Bu da Vətən sevdalı şairin sözüdü. Deməli, bu sevdalar bizi yaşadır. Ona görə də onu qorumaq, onun uğrunda vuruşmaq mütləqdir. Qoruduqca, onu öz can köynəyindən keçirdikcə o sənin yaddaşına da, xatirənə də öz cizgilərini hopdurur. Ona görə də mən Rafiq Yusifoğlu ilə razılaşıram. O deyir ki:

Həsrətlə doludur bəbək, -
Sözü közərir ürkək-ürkək...
Gəlin bir şəkil çəkdirək,
Qalsa bu şəkil qalacaq...

Hə, Rafiq müəllim, sevdalı bir ömrün şairinə məktub yazmaq çətin olsa da, mən buna cəhd etdim və bu cəhdimdən də çox məmnunam. Ona görə ki, o ömürdən nələrisə gördüm, götürdüm, öyrəndim. Və anladım ki, siz də, mən də payız axtarırıq. Və üstəlik, bu payızın harda olduğunu da sizin dilinizdən eşitdim:

... Burda yarpaqlar hamısı,
Bir boyda, bir biçimdədi...
Mən payızı axtarıram,
Payız mənim içimdədi...

Ünvanı göstərdiniz, çox sağ olun! Doğrudan da, Qarabağın, işğal olunmuş torpaqların da payızı fərqli idi paytaxtın payızından... Bütövlükdə bizim yaşadığımız və yaşamağa məhkum olduğumuz payızdan. Sevdalı ömrünüz mübarək! Payızımızın gözəlliyi o ömürdən yan keçməsin!

**Əbülfət Mədətoğlu**
*"Ədalət" qəzetı, 25 dekabr 2019*
*Yeni səs.az. 25 dekabr 2019*

## ƏDƏBİYYATIMIZIN MƏCNUNU VƏ ONUN YENİ ŞEİRLƏR KİTABI : "SEVDALI ÖMÜR YAŞADIM"

Gözəl şair, nüfuzlu alim, ölkənin sayılıb-seçilən ziyalılarından biri, filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, "Qızıl kəlmə", "Qızıl qələm", "İlin ən yaxşı kitabı", "Vətən", "Araz" və sair mükafatların laureatı Rafiq Yusifoğlunun təzə kitabını vərəqləyəndə nədənsə yadımıza onunu neçə il bundan əvvəl müsahibə verərkən söylədiyi bu sözlər düşdü: "Mən bütün ömrümü, həyatımı şeirə, sənətə, ədəbiyyata, onun tədqiqinə və təbliğinə həsr etmişəm. Hərdən mənə elə gəlir ki, ədəbiyyat mənim Leylimdi, mən onun Məcnunu"...

Doğrudan da, Rafiq Yusifoğlu "Sevdalı ömür yaşadım" deməyə tam haqqı olan bir insandır. Bunu onun keçdiyi şərəfli ömür yolu və yazdığı müxtəlif janrlı əsərlər təsdiqləyə bilər. Onu yaxından tanıyan, yaradıcılığından xəbərdar olan bütün insanlar təsdiqləyə bilər ki, Rafiq Yusifoğlu ömrü boyu sevilən insan, ziyalı, pedaqoq, şair, alim olmuşdur.

Mən sevdalar diyarında
Olub ulu şah yaşadım!
Bir kimsəyə əyilmədim,
Ömrüm boyu şax yaşadım!

Az dodaqdan söz çəkmədim,
Az ocaqdan köz çəkmədim,
Gözəllərdən göz çəkmədim,
Edib yüz günah yaşadım.

Yarı yalan, yarı doğru,
Hey can atdım yara doğru.
Ürəyimdə nisgil, ağrı,
Dodağımda ah yaşadım.

Danışanda sözüm güldü,
Nəfəsinlə közüm güldü,
Həmişə bir gözüm güldü, –
Gah ağladım, gah yaşadım...

Qonaq çağır yar, odana!
Alovlanım yar oduna!
Ömrüm boyu Yaradana
Aparıb pənah yaşadım...

Bu misralarda şair öz daxili dünyasını əks etdirə, keçdiyi ömür yolunun səciyyəvi cizgilərini bədii sözlə əks etdirə bilmişdir.

Rafiq Yusifoğlunun "Sevdalı ömür yaşadım" kitabına onun ömrünün ixtiyar çağında, son iki ildə yazdığı şeirlər toplanmışdır. Bu şeirlərdə müdrik insanın həyat və cəmiyyət, vətən, təbiət, sevgi haqqında bənzərsiz düşüncələri öz əksini tapmışdır.

Kitabdakı şeirlər mövzularına uyğun şəkildə "Hikmət xəzinəsi", "İşaran həsrət közləri", "Düşüncələr", "İstanbullu sətirlər", "Amerika dəftərindən", "Bodrumda düşüncələr", "Sevgi qəfil gələn selə bənzəyir", "Təmsillər və tikanlı misralar", "Rus və alman dilinə tərcümə edilmiş şeirlər" bölmələri altında toplanmışdır. Şeirlərin hamısı fikir, məna yüklüdür. Deyim tərzinin gözəlliyi, mükəmməl bədii sənətkarlıq bu əsərlərin təsir gücünü qat-qat artırır.

Ümid edirik ki, Rafiq Yusifoğlunun əvvəlki əsərləri kimi "Sevdalı ömür yaşadım" kitabını da ədəbi ictimaiyyət və oxucular maraqla qarşılayacaqlar. Ömrünün 70-ci baharını qarşılamaq ərəfəsində olan qüdrətli şairimizə, "ədəbiyyatımızın Məcnunu"na möhkəm can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

***Manevr.az. 14.10.2019***
***Sumqayıtfakt.az14.10.2019***
***Dəlidağ.az. 14.10.2019***

# UŞAQ ƏDƏBİYYATI

## SÖZ AĞACININ MEYVƏLƏRİ

Ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə 2009-cu il Uşaq ili elan edilmişdir. Uşaqlara diqqətin daha da artırılması, onların maddi və mənəvi cəhətdən kamilləşməsi yolunda müəyyən işlərin həyata keçirilməsi müntəzəm davam etməkdədir. Təbii ki, uşaqlara göstərilən qayğının içində təhsil və dərslik, ədəbiyyat məsələləri də öz əksini tapmaqdadır.

Mütəxəssislər bəzən haqlı olaraq bir fikri çox vurğulayırlar ki, əvvəlki dövrlərdən fərqli olaraq, son vaxtlar uşaq ədəbiyyatında bir zəiflik hiss olunur. Belə ki, ötən zamanlarda olduğu kimi, uşaqlar üçün mükəmməl hekayələr, nağıllar, şeirlər yazılmır. Yazılanlar da ya bədii sənətkarlıq cəhətdən zəif olur, ya da uşaq psixologiyasına, yaşına uyğun gəlmir. Xüsusilə də orta məktəb dərsliklərində elə şeirlərə, mətnlərə rast gəlinir ki, nəinki şagirdlər, elə böyüklər üçün də anlaşılmaz olur.

Təsadüf elə gətirdi ki, orta məktəbin Əlifba, Ana dili kitablarını vərəqləyərkən orada bir şairin imzası diqqətimi cəlb etdi. Bu, **Rafiq Yusifoğlu** idi. Həqiqətən də, müəllifin şeirləri maraqlı və yaddaqalandır. Bu səbəbdən də imzası oxuculara yaxşı tanış olan, onlarla kitabın müəllifi Rafiq Yusifoğlunun uşaqlarla bağlı qələmə aldığı bir sıra kitabları, topluları nəzərdən keçirdik. Fərəhləndirici bir faktın şahidi olduq ki, bu müəllifin Azərbaycan poeziyasında özünəməxsus yeri və dəsti-xətti var. Təkcə balalar üçün deyil, bütövlükdə hər kəs üçün mükəmməl və gözəl şeirlər yazmaqdadır.

Belə bir aforizm var: **"Şair söz ağacıdır".** (Bu fikir mənə məxsusdur –R.Y.) Sizə haqqında danışacağımız bu "söz ağacı"nın çox yaddaqalan, unudulmayan töhfələri var. Sadəlik, təbiilik, uşaq psixologiyasına dərindən bələdlik Rafiq Yusifoğlu şeirlərinin başlıca məziyyətlərindəndir. Əsərlərində dərin məzmun, ideya və fikir var.

Əlinə qələm alan gündən ömrünü söz uğrunda girov qoyan Rafiq Yusifoğlu respublikanın Əməkdar mədəniyyət işçisidir. Onu bəzən təqdim edəndə çətinlik çəkirsən. Ədəbiyyatşünas-alim, tərcüməçi, nasir, şair, pedaqoq, jurnalist və nəhayət, uşaqlar üçün çap edilən "Göyərçin" jurnalının baş redaktoru olan Rafiq Yusifoğlu bəlkə də hər gün gördüyümüz, səmimiyyətlə salamlaşdığımız, amma böyük poetik dünyasından ətraflı məlumatımız olmayan istedadlı söz sahibidir.

Bioqrafiyasına nəzər salarkən maraqlı faktların şahidi olursan. 1985-ci ildən "Göyərçin" jurnalında müxtəlif vəzifələrdə çalışan Rafiq Yusifoğlu həm Sumqayıt Dövlət Universitetinin, həm də Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorudur. Bir alim kimi tədqiqat obyekti məhz Azərbaycan poeziyası olub. Poema janrının inkişaf problemlərinə, sənətkarlıq xüsusiyyətlərinə aid elmi araşdırmalar aparıb. Bu sahənin tədqiqatı ilə əlaqədar həm namizədlik, həm də doktorluq dissertasiyaları müdafiə edib. Neçə-neçə şeir kitabının, monoqrafiyanın, dərsliyin, publisistik topluların, tərcümələrin müəllifidir. Əsərləri bir sıra dillərə tərcümə olunub, şeirlərinə mahnılar bəstələnib. Azərbaycan Dövlət Televiziyasının Qızıl Fondunda saxlanılan "Qəm karvanı" və "Bütün Azərbaycan əsgər olmalı" adlı televiziya tamaşalarının müəllifidir.

Onun ömür karvanının yükü poeziya inciləridir. Həqiqətən də, Rafiq Yusifoğlunun qələmindən çıxan hər bir şeir nümunədir, dərin poetik məzmuna, sənətkarlıq xüsusiyyətlərinə malikdir. Amma biz bu yazımızda Rafiq Yusifoğlunun məhz uşaqlar üçün qələmə aldığı şeirlərdən söz açacağıq. Nədir diqqətimizi cəlb edən? "Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı

cığır”, “Qəm karvanı”, “Həsrət köçü”, “Təzə sevdalara doğru”, “Ayrılığın qəm hasarı”, “Həsrət sazağı”, “Sevdalı sabahlar”, “Eşqin qarlı yollarında”, “Dəniz, sən və mən”, “Şirin yağış” və sair kitabları ilə ədəbi ictimaiyyətin rəğbətini qazanan Rafiq Yusifoğlu həm də “Çiçək yağışı” adlı bir kitabın müəllifidir. Şairin bu kitabında əsasən uşaq şeirləri toplanıb. Duzlu-məzəli, tez yadda qalmaq qüdrətinə malik olan bu şeirlərdə əsl uşaq dünyası var.

Təqdirəlayiq haldır ki, Rafiq Yusifoğlu “Göyərçin”in kitabxanası” seriyasından uşaqlar üçün rəngli, nəfis tərtib olunmuş toplular çap etdirir. Hər bir toplunun öz mövzusu var. Müəllif çalışıb ki, bu toplularda işıq üzü görən yazılar uşaqların bilik və məlumatlarını daha da zənginləşdirsin, onların duyğu və düşüncələrinə təsir etsin, maraq dünyasına uyğun gəlsin və yadda qalsın. Demək olar ki, müəllif bu istəyinə nail olmuşdur. Bu toplular adi poetik nümunələrin bir araya gəldiyi nəşrlər deyil və təkcə uşaqlar üçün yox, böyüklər üçün də maraq kəsb edir. Məsələn, “Ulu yurd yerlərimiz” adlı topluda vətənimizin qədim yaşayış yerlərindən söhbət açılır. Bu kitab tariximiz haqqında uşaqlara konkret məlumat verir. Qobustandan başlamış Qəbələyə kimi qədim yaşayış məskənlərindən danışılır. Diqqətçəkən bir məsələ də var ki, adı yalnız tarixdə qalan, bəzən də unudulmuş şəhərlər haqqında da uşaqlara maraqlı məlumatlar verilir. Məsələn, Şabran, Astabad, Şortəpə, Çardaxlı yaşayış yerləri haqqında da uşaqlara maraqlı bilgilər çatdırılır. Bu yazıların təsirini artıran vasitələrdən biri hər mətnə uyğun rəsmlərin çəkilməsidir.

**“Günlərimiz, aylarımız”** adlanan topluda isə ilin əlamətdar günlərinə həsr edilmiş şeirlər verilib. Məsələn, “Orucluq bayramı”, “Qurban bayramı”, “Təzə il”, “8 Mart”, “Novruz bayramı” kimi mərasimlərlə bağlı şeirlərlə yanaşı, tariximizdə işıqlı və qara səhifələri əks etdirən günlər haqqında da poetik nümunələr diqqət çəkir. Uşaqlar bu şeirləri əzbərləməklə həm həmin günləri yadda saxlayır, həm də gözəl bir şeirin məzmunu ilə tanış olurlar. Ramazan bayramı ilə bağlı yazılan şeirin son bəndinə fikir verək:

İnsana yaraşarmı
Tamahına qul olsun? –
Qəlbi saf olanların
Orucu qəbul olsun!

**“Ana dilim”** adlı toplu daha maraqlıdır. Burada ana dilimizin özündən tutmuş Əlifba kitabına, fonetikaya, hətta nitq hissələrinə, cümlə üzvlərinə, durğu işarələrinə, eləcə də arxaikləşmiş sözlərə aid şeirlər var. Bu şeirlərin hər biri öyrədici mahiyyət daşıyır. “İsim” adlı şeirə diqqət yetirin:

Bu dünyada nə varsa:
Ağac, torpaq, daş, adam…
Hər şey, hər şey isimdi,
İsim addı, mən adam.
Budaq mənəm, bar mənəm,
Alma, heyva, nar mənəm.
Həm tikan, həm güləm mən,
Qarışqayam, filəm mən.
Həm quzuyam, həm otam,
Həm suyam, həm də odam.
Maşın mənəm, at mənəm,
Quş mənəm, qanad mənəm.
Günəş mənəm, ay mənəm,
Bulaq mənəm, çay mənəm.
Səmayam, ulduzam mən,
Oğlanam mən, qızam mən.
Ocaq mənəm, köz mənəm,
Çörək mənəm, duz mənəm.
Anayam, atayam mən,
Dənizəm, adayam mən.
Canam, ruham, bədənəm,
Həm xalqam, həm vətənəm.
Nəfəs mənəm, can mənəm,
Damar mənəm, qan mənəm.
Elan elə eşq mənə!
Ürək mənəm, eşq mənəm.

Göz də, qaş da isimdi,
Gözdə yaş da isimdi.
Dil mənəm, dodaq mənəm,
Büzməyin dodaq mənə.
Ürəklərin oduyam,
Mən hər şeyin adıyam.
Bildinizmi kiməm mən?
Mizrabam mən, siməm mən…
Əşyaların adıyam,
İsiməm, isiməm mən…

Bu topluda, həmçinin, cinaslı şeirlər də verilib. Uşaq təfəkkürünü, nitqini inkişaf etdirmək baxımından bu nümunələrin əhəmiyyəti böyükdür. Həm uşağın dili inkişaf edir, həm də eyni sözlərin ayrı-ayrı məna daşıdığını da anlaya bilir. Məsələn:

Nə soruşsan, Qara dinməz,
Adı qalıb qaradinməz.
***
Evimdədi Gülgəzim,
Niyə çöldə gül gəzim?
***
Tutmaq üçün bu qurdu,
O tələni bu qurdu.

Ayrı-ayrı əşyalar haqqında yazılan şeirlər də çox mənalı və lakonikdir.

Rafiq Yusifoğlunun **“Zamanın qatarı”** adlı toplusunda isə fəsillər haqqında şeirləri toplanıb. Zamanı qatara bənzədən müəllif hər fəsli bu qatarın bir vaqonu adlandırıb. Hər vaqonun isə üç kupesi var. Hər ay bir kupedir. Hər kupedə 28, 29, 30, ya 31 gün əyləşir. Günlərin içində saatlar, saatların içində dəqiqələr, dəqiqələrin içində saniyələr yol gedir…

Bax beləcə, zamanın qatarı şeirlərə çevrilir. Bahar, yay, payız, qış öz rənginə uyğun libas geyərək balaca oxucuların

yaddaşında dərin iz salır. Hər bir şeirin özünün mənası, məzmunu var. Məsələn, “Payız” şeiri:

Çən yığılıb indi uca dağlara,
Gəldi payız bağçalara, bağlara.
Çöldə çiçəklər saralıb soldular,
Bağda xəzəllər nə qədər boldular!
Yarpağını tökdü ağaclar yerə,
Sapsarı paltar geyinib dağ-dərə…

Gözlərimiz önündə qızıl payızın mənzərələri açılır.

Rafiq Yusifoğlunun növbəti toplusu **“Yollar”** adlanır. Bu da təsadüfi deyil. Həqiqətən də, insan həyatını yolsuz təsəvvür etmək qeyri-mümkündür. Yol insanı harasa aparır. Yol həm də mədəniyyətin əsas göstəricilərindən biridir. Yolla bağlı müxtəlif müdrik fikirlər, aforizmlər də var. Elə ifadələr var ki, onların mənası daha dərindir. Məsələn, yola salmaq, yoluna qoymaq, yoldan çıxarmaq, yola vermək, yola gətirmək. İçində “yol'” sözünün olmasına baxmayaraq, bu ifadələrin hərəsinin məhz öz mənası var. Cığırların böyük yollara birləşməyi, şose yolları, dəmir yolları, hava yolu, dəniz yolu – bütün bunlar haqqında yaddaqalan şeirlər diqqəti cəlb edir. Xüsusilə də yol göstəriciləri və işıqfor haqqında yazılan şeirlər daha maraqlıdır.

Toplunun sonluğu çox təsirlidir: “Dünyada yollar çoxdur. Ancaq təəssüf ki, ulu yurd yerlərimizə gedən yollar üzümüzə bağlanıb. Düşmən tapdağı altında qalan torpaqlarımızın gözü igid oğulların, qızların yoluna dikilib…” Bu fikirdən sonra isə müəllifin '”Yol” adlı şeiri əsil çağırışdır, vətən harayıdır:

Dağlara uzanır yol,
Sən səfərə hazır ol!
Dörd yan quldur-qaçaqdı,
Kim qorxmursa, qoçaqdı.
Yeri, qabağa yeri,
Yada vermə bu yeri!

Bu dağ-dərə sənindi,
Ayağa dur sən indi!
Yoxsa güləcək yağı,
Yer alacaq ayağı.
El yolunda ocaq ol,
Yad gözünə bıçaq ol.
Mat-mat baxma yollara,
Yeri, təzə yol ara.
Qəlbində varsa təpər,
Alnından günəş öpər.
Halsızı hala gətir,
Yolsuzu yola gətir.
Öndə qar var, dolu var,
Hər işin öz yolu var…

Növbəti toplu isə **"Qızıl balıq"** adlanır. Burada dünya xalqlarının nağılları toplanıb. Rafiq Yusifoğlu ingilis, monqol, Braziliya, island, Norveç, hind, Koreya və digər xalqların folklorundan etdiyi tərcümələri uşaqlara təqdim edir. Bu da kiçik oxucuların dünya ədəbiyyatından xəbər tutmasına kömək edir.

Uşaq ədəbiyyatı ilə bağlı Rafiq Yusifoğlunun gördüyü işlər çoxdur. Həqiqətən də, qələm dostumuz bu sahədə özünəməxsus cəfakeşlik göstərir. Onun yaradıcılığı ilə bağlı fikir söyləyən mütəxəssislər bildirirlər ki, Rafiq Yusifoğlu həm uşaq mətbuatının naşiri kimi səmərəli iş aparır, baş redaktoru olduğu "Göyərçin" jurnalında uşaq ədəbiyyatının nümunələrini dərc edir, həm də dünya folklorunu balaca oxuculara çatdırır. Digər tərəfdən də alim-publisist kimi səmərəli fəaliyyət göstərir. İnsan mənəviyyatı haqqında, təbiət, vətən mövzusunda biri-birindən gözəl poetik əsərlər yaradır.

**Flora Xəlilzadə**

*"Azərbaycan" qəzeti, 23 avqust 2009-cu il.*

# SEHRLİ GÜZGÜ KİMİ

Odur ən çətin halda
Köməyimizə yetən.
Ana dili yoxdursa,
Nə ana var, nə vətən… -

Dərs keçir, öyrədir “Göyərçin” jurnalının kitabxanası seriyasından yenicə nəşr edilmiş “Ana dilim” adlı şəkilli şeirlər və nağıllar toplusu. Bu topluda dünyanın yaraşığı olan balaların sevimli “Əlifba” dərsliklərinə olan münasibəti şirin bir dillə qələmə alınıb:

“Əlifbam”, ay “Əlifbam”,
Ömrümə yaraşıqsan.
Gözlərimdə təbəssüm,
Ürəyimdə işıqsan…

Bu oxunaqlı misraların, yaddaqalan nağılların müəllifi Rafiq Yusifoğlu uşaq dünyasını yetərincə bildiyindən, onun qələmə aldıqları fidan balalarla tez ünsiyyətə girir, oxunur və tərbiyə edir. Kitabda nitq hissələri – isim, sifət, say, fel, əvəzlik, zərf, qoşma, bağlayıcı, ədat, cümlə üzvləri, durğu işarələri uşaqların həmsöhbətinə dönür, öz fərdi əlamətlərindən maraqla söhbət açırlar. Hələ bir nöqtəli vergülün dediklərinə fikir verin:

Mən də qoşa nöqtə tək
Bir cüt gözəm, bəri dur.
Alt gözümdən yaş axır,
Üst gözüm qupqurudur.

Bu misralarda sözlərin, səslərin oynaqlığı, bir-birini izləməsi, sinonimlik oxucunu yormur, fikri öz arxasınca çəkib aparır:

Çox dadlıdır soyutma,
Ye, ay bala, soyutma…

Və yaxud:

Şəkər də qatsan bala,
Ondan şirindir bala.

Göründüyü kimi, şair aydın, səlis və obrazlı bir dillə balaca oxucuların həmsöhbətinə çevrilir, onlarla şeirin şirin diliylə danışır:

Kim haqq verib küləyə
Çiçək qıra, gül əyə?

Bu cür misraların sayını artırmaq da olar. Ancaq ilkin təəssüratın oxucu diqqətini bütövlükdə çəkəcəyi qənaətimiz son nöqtəni yada saldı. Nöqtə qoymaq öz yerində, ancaq yada salmağın özü də az iş deyil…

**S.Aranlı**

*"Ədəbiyyat qəzeti", 1 fevral 2008-ci il.*

## RAFİQ YUSIFOĞLUNUN UŞAQ ŞEİRLƏRİNDƏ FƏLSƏFİ YOZUM

Dünyanın bərqərar olduğu məkan bəlli olsa da, zamanı tam şəkildə açıqlanmayıb. Sadəcə olaraq alimlər milyon illərin vərəqini çevirib geriyə öz təxəyyülləri  ilə baxırlar.

Milyon il çox böyük zaman yüküdür. Həmin zamanı görmək üçün nəinki insan ömrü yetmir, hətta insan düşüncəsi, xəyalı da qaranlıq məkanların qaranlıq labirintilərində saşıb qalır. Ancaq yaranmışların ən kamili, ən mükəmməli olan insan hər çətinliyin öhdəsindən gəlməyə qadir məxluqdir. Milyon il öncəni öz təxəyyül süzgəcindən keçirir, onu özününküləşdirir. Əlbəttə ki, bu işdə insanın özünün yaratdığı elmlər - riyaziyyat, astronomiya, tarix, ədəbiyyat, fizika… və nəhayət, fəlsəfə köməyinə çatır. Bu elmlər sirli-sehrli dünyanın astarını çevirib iç üzünü öyrənməkdə yardımçı olub. Bu elmlərin hansının öncə yarandığı haqda da fikirlər var. Amma ən qədimi, ən dərini olan fəlsəfədir ki, elə bütün elmlər də bir növ ondan nəşət edib, böyüyüb, mükəmməlləşib. Bütün elmlərdə bir fəlsəfə yükü gizlənib, bir fəlsəfə dəstəyi haçalanıb ki, həmin elmi saxlayıb, yıxılmağa qoymayıb.

Böyük Azərbaycan filosofu Nəsirəddin Tusi ölüm yatağında demişdir. “İnsan dərk etməlidir ki, varlıq və yoxluq nədir, həyat və ölüm nədir, dünya və axirət nədir. Bunları dərk etməyən insan “nadanlıq” torunda çabalayır. Və ağlayan oğluna belə deyir: Oğul, ağlama, müdrük ol, həyatı dərk et”.

Həyati hamı dərk etməlidir, böyük filosofun dediyi kimi, həyat və ölüm, axirət və dünya, varlıq və yoxluq qəbul edilməlidir. Bu fəlsəfə hər kəsdə var, özü də körpəlikdən yaranıb, doğulub bizimlə. Sadəcə olaraq, dərk etməliyik, anlamalıyıq bu fəlsəfə közərtisini, inkişaf etdirməliyik. Maraqlıdır, uşaqların dünyasına boylananda bunları sezə bilirikmi?

Bu fəlsəfə işığında görə bilirikmi? Onun inkişafına rəvac verən nəsə edə bilirkmi?

Bu yaxınlarda şair, publisist, ədəbiyyatşünas alim, “Göyərçin” jurnalının bas redaktoru Rafiq Yusifoğlunun uşaqlar üçün yazdığı bir şeir kitabını vərəqlədim. Daha doğrusu, yenidən oxudum. Bəzi şeirlərin məna tutumu məni silkələdi. Neçə il bundan öncə görə bilmədiyim məqamları anladım və bunları sizinlə də bölüşmək istəyi qəlbimə doldu. Gəlin, uşaq ədəbiyyatının layiqli davamçısı Rafiq Yusifoğlunun bəzi şeirlərinin qonağı olaq. Onları birlikdə oxuyaq:

-Atacan, göydən
Səpilən yağış,
Yerdə qalacaq?-
Soruşdu Baxış.
-Yox, buxarlanıb,
Göyə qalxacaq.
-Top-top oynayır
Buludla torpaq?

Son iki misrada vurğulanmış uşaq dünyası, uşaq fəlsəfəsi nə qədər maraqlı deyimlə açıqlanıb. Uşaqların qəlbində cavab axtaran neçə-neçə sualdan biridir bu. Və çox güman ki, təkcə sual

yox, həm də uşaq düşüncəsinin, məntiqinin, gəldiyi qənaətin şirin dillə ifadəsidir.

Oğul yağan yağışın yerdə qalacağı marağındadır. Bu sual həm də arxasında çox mətləblər gizlədib. Bir neçə anlamda qavranıla bilər. Məsələn, uşaq sadəcə olaraq fikirləşir ki, yağış göydən yerə yağır və yağdığı yerdə qalacaq. İkinci versiya budur ki, əgər yerdə qalsa, uşağın işi çətinləşəcək. Həyətə düşüb oynamağına bu yağış mane olacaq. Üçüncüsü, budur ki, yağışın məkansızlığı onu narahat edir. Uşaq yağışın evi haqqında düşünür. Ancaq alınan cavab onu təəssüfləndirir. Bu təəssufdə bir hirs var. Yağış üçün narahat olan uşaq yağışın yenidən göyə qayıtmasına heyrət edir. Əgər yağış göydən gəlibsə, niyə təkrar göyə qayıdır? Bu suala cavab istəmədən isə uşaq yekun sözünü söyləyir. Buludla torpağı günahkar bilir, onların yağışı bir top kimi atıb-tutduqlarını elan edir. Bu, yağış,  bulud torpaqla uşağın ilk olmasa da, elmi cəhətdən ilk tanışlığıdı. Bu şeirdə gizlənmiş uşaq fəlsəfəsinin ilk qığılcımları göz qamaşdırır. Oxucu, istər yaşlı, istərsə də azyaşlı şeirin təsirindən xeyli ayrıla bilmir. Böyüklər heyrət edir şair tapıntısına. Kiçiklər isə ürəklərində gizlənmiş sualın cavablandığına. Nəticə birdir. Həm böyüklər, həm də kiçiklər şeirindən razı qalıblar. Uşaq qəlbini narahat edən neçə-neçə sualın cavabı həkk olmuş kitabla üz-üzə qalmaq məni məmnun edib. Kitabdan neçə şeiri  seçib təkrar-təkrar oxuyuram. Sanki işığı tutub analiz edirəm. Hansı fikirlərin gizləndiyini bilmək istəyirəm. Yeni bir şeirə keçid ərəfəsindəyəm. “Qlobus” şeirinə:

-Atacan, bu qarpızdır?
-Yox, qızım, qlobusdur.
Bir bax, dənizlər, çaylar…
Qlobusun üstündə
Dünyamızın şəkli var.
-Şəkli varsa dünyanın.
Bizim evimiz hanı?
Bəs toplan,
Bəs məstan?

Yox, atacan söylə ki,
Mən küsdüm qlobusdan…

Şeirin axıcılığı, şirin dili haqqında danışmaq istəmirəm. Çünki məqsədim şeirin forma və dil xüsüsiyyətləri haqqında təhlil vermək deyil. Ancaq yenə də qeydiyyatsız ötüşmədim, çünki yazılış manerası məni məcbur etdi ki, bu ştrixi vurum.

Uşağın hələ beyninin çox qırışları ağ, təmiz, ləkəsiz vərəqlərlə doludur və burada qlobus haqqında hələ bir bilgi, məlumat yoxdur. Amma uşaq marağı yeni məlumatı tutmaq, anlamaq istəyir. O, qobusun nə olduğu barədə atasından öyrənmək istəyir. Eyni zamanda beynində əks olunmuş keçmiş biliklərə istinad edir, özünün "bu nədir?" sualı verib, tamam bilgisiz olduğundan ehtiyat da etmir. Və qlobusu yumru gördüyü hər hansı bir şeyə bənzədir.Və bu, onun dünyasında yumru əşyalar içində daha çox qarpıza bənzəyir. Çünki üzərində qarpızın rəngləri kimi qarışıq rəngləri var. Bu, uşağın seçimidir, uşağın ideyasıdır. Hələ ki, şair münasibəti yoxdur.Və burada ata obrazı deyəsən, şairin özüdür. Çünki, şair atanrn adından bu əhvalatın şahidi kimi danışır:

-Yox, qızım, qlobusdur, -deyir. Dünyanın şəklinin əksi olan qlobusla qızını tanış etmək istəyir. Amma maraqlı bir qarşıdurma yaranır. Qız qlobusa da, atasına da kəskin etiraz edir. Uşağın barışmadığı məqam nədir? Onu qlobusdan küsdürən hansı fikirdir? Və burada fəlsəfi düşüncənin meydanı başlayır. "Meydan" sözü oxucunu çaşdıra bilər. Çünki on bir misralıq uşaq şeirində izah olunan fikirdə "meydan"a yer yoxdur. Amma unutmayaq ki, bu, uşaq ədəbiyyatı nümunəsidir və uşaqlar da az danışıb, çox mülahizə yürytmək qabiliyyətinə malikdir. Bəzən bir cümlədə gizlənmiş məna böyükləri günlərlə, aylarla, hətta illərlə düşündürüb əyləndirir, zövq verir.

Uşaq atadan eşidəndə ki, qlobus dünyanın əksidir, bu zaman onun beynində evləri canlanır. Bax, burada şairin toxunduğu məqam güclüdür. Bizə isə onu anlamaq qalır. Axı uşağın dünyası

hələ evləridir. Uşağın dünyası ailəsi, hətta toplan, məstandır. Necə ola bilər ki, bu dünya qlobusda yoxdur?

O zaman uşaq etiraz edir. Qlobusdan küsdüyünü bildirir:

-Şəkli varsa dünyanın,
Bizim evimiz hanı?
Bəs toplan,
Bəs məstan?
Yox, atacan, söylə ki,
Mən küsdüm qlobusdan…

Şirin dilli şıltaq, ərköyün qızın əksi gözümüz önündə canlanır bu misraların işığında. Hətta sanki onun dodağını necə büzdüyünü, qaş-qabağını tökdüyünü görürük.

Uşaq fəlsəfəsini uşaq dili ilə əks etdirən şairə təşəkkür etmək qalır içimdə.Çünki o misraların müəllifi bu qiymətə layiqdir.

Yeni bir şeirin misralarına işıq tutmaq istəyirəm.Yeni bir rəng, yeni bir çalar. Yenə də fəlsəfi fikrin açıqlanmış nüansları.

Yatmaq istəməyən Çiçəyin nağılıdır bu. Adətən, uşaqları həmişə narahat edən, razı salmayan məqamlardan biri də onların böyüklər tərəfindən günorta və axşam (əlbəttə ki, tez zaman kəsiyində) öz iradələrindən kənar çərçivədə yatızdırmalarıdır. Bu, uşaqların heç barışmaq istədikləri hal deyil. Çox uşaq bağçaya məhz "yuxu vaxtına" görə getmək istəmir. Yuxuları müəyyən vaxtda gəlsə də, bu şeytanlar yenə də yatmaq istəmirlər və üsyankar şəkildə etirazlarını bildirir, çox vaxt da yuxularının gəlmədiyini iddia edirlər:

Yatmaq istəmir
Yenə bu şeytan.
Necə bəhanə
Tapıb bayaqdan.
-Eh, yuxum qaçdı,-
Əsnəyir Çiçək.

Deməli,balaca şeytanın yuxusu gəlir, amma yenə də yatmaq istəmir. Niyə? Bax bu sualın, arxasındakı fikirləri anlamaq

isə oxucunun ixtiyarına verilib. Səbəb çoxdur. Çiçək yenə də oynamaq istəyir, oyundan doymayıb, Çiçək böyüklərlə eyni zamanda yatmaq istəyir…

Səbəblər çoxdur. Nəticə isə birdir. O, yatmaq istəmir. Ana isə israrla: "Gözlərini yum, Yuxun gələcək" – deyir.

Ana qızını dilə tutur, onu yola gətirməyə çalışır. Yəqin ki, başqa vaxt məqamında uşağına anladıb da balacalar niyə tez yatmalıdırlar. Çiçəyin cavabı belədir:

-Gözümü yumsam,
Anacan, axı
Bəs hardan girər
Gözümə yuxu?!

Maraqlı tapıntıdır: həm uşağın tapıntısı, həm də şairin seçimi. Yəqin ki, şair hansı balacadansa (bəlkə Çiçəyin özündən) eşitdiyi bu fikri yaddaşının bir küncündə qoruyub saxlayıb və məqamı çatanda misralarda düzümləyib. Və fəlsəfi seçimini edib. Uşağın yuxu haqqında anlayışı maraqlıdır. O, yuxunu bir saniyə, konkret məhfuma bənzədir. Hesab edir ki, yuxu onu gəlib tapır və gözlərindən daxilinə süzülür.

Dunyanın çox sirləri var və bu sirlərin bəziləri hələ də açılmamış qalıb. Bəzən insanı düşüncələr aparır ki, niyə insan günün bir hissəsini yatmalıdır? (Və yatmasa mümkün də deyil.). Niyə canlılar belə yaradılıb? Olmazdı ki, insan bütün gününü iş, əyləncə, hərəkətdə keçirəydi. Doğrusu, uşaq dünyamda bu suallar həmişə beynimi məşğul etmişdir. Bu gün bu şeiri oxuyanda həmin düşüncələr yadıma düşdü. Şairin vermək istədiyi nüansları anladım. Deməli, hamının həyat fəlsəfi bir-birinə bənzəyir. Qalır təkcə bu fəlsəfəni dərk etmək.

Burada yazıma son qoymaq istəyirdim, amma Rafiq müəllimin kitabının doqquzuncu səhifəsindən bir şeir də diqqətimi cəlb etdi və mən ondan yan keçə bilmədim.

"Qlobus" şeirində olduğu kimi, sual-cavab şəklində qurulmuş şeir "torpaq çoxdur, yoxsa su?" - fəlsəfəsini əks etdirir.

Və bu an torpağın yaranması haqqında qədim miflərdən biri yadıma düşdü. Qədim insanların dünyanın yaranması haqqında ilk mülahizələrində torpağın suyun dibindəki lildən yarandığı irəli sürülür. Suya Tanrının əmri ilə Qaraxan adlı varlıq ağzına doldurduğu lili suyun üstünə səpir və torpaq yaranır. Amma şeirimizdə torpağın yaranmasından söhbət açılmır, balaca qızcığazın suyun, yoxsa torpağın çox olması haqqındakı düşüncəsi ön plana çəkilir. Amma mifdə sürülmüş ideyaya əsaslanacayıq və bu, şeirin son misraları ilə üst-üstə düşəcək:

Belə bir sual verdi
Bir gün balaca Arzu:
-Atacan, söylə görüm.
Torpaq çoxdu, yoxsa su?
Ata dedi: - Su çoxdu…

Şeirin ilk misraları girişdir və əsl fikir sonrakı misralarda düzümlənib. Burada uşaq təxəyyülü götür-qoy edilir. Suyun çox olmasını qəbul etmək istəmir. Axu suyun altındakı qat uşağın nəzərini cəlb edib. O, suların nəyin üstündə durmasını fikirləşir və atanın cavabı onu təəccübləndirir.

Qız düşündü bir qədər:
-Nəyin üstündə durur,
Atacan, bəs dənizlər?
-Suların da altında
Gözəl bala, torpaq var.

Uşağın qəlbində belə bir düşüncə yaranır ki, əlbəttə, torpaq çoxdur, çünki torpağın üstündə sular dayanıb və dünya elə torpaqdan ibarətdir. Və təhlilimin bu yerində yenidən mifə müraciət edirəm. Deməli, qədim insanların təxəllüyündə (bu dövrü alimlər insanın uşaqlıq illəri dövrü hesab edirlər) də suların torpaq üstündə durması fikri olub. Yoxsa onlar suyun dibindəki lildən torpaq yaratmazdılar.

Və bizim qəhrəman da torpağın suların məkanı olması inamındadır. Ancaq bu dəfə qız yeni bir sual atır ortaya. Əlbəttə ki, şair bu sualı cavabsız qoyur. Bu, bir şair manerasıdır. Qız bu dəfə soruşur ki, sular torpağa necə sığışır, necə dayanıb onun üstündə?

Bu şeirlərlə tanışlıqdan sonra belə bir sual çıxdı ortaya: "Fəlsəfə nə vaxt yaranıb?". Cavabı da özüm verməli oldum: "İnsan yaranan gündən".

Bəli, hər bir kəsin aləmində bir fəlsəfə var. Onu oxumaq, görmək, öz-özlüyündə dərk etmək lazımdır. Rafiq Yusifoğlu bunu bacarıb. Və yeni bir məqalədə yeni görüşlərə qədər.

**Ruhəngiz Əşrəfqızı (Nəcəfova)**
*"Müasir Azərbaycan müəllimi" qəzeti,*
*09-15 aprel 2009-cu il.*

# "Uşaq şeiri məsələsi" məqaləsindən:

Yəhya Kərimov klassiklərimizlə bərabər İlyasTapdığın, Məstan Günərin, Rafiq Yusifoğlunun bədii nümunələrinə əl atır, daha nə etməlidir?

Və biz ümidliyik klassik səviyyəli şeirləri uşaqlarımız dərsliklərdə oxuyacaqlar. Rafiq Yusifoğlunun vətənpərvərliyə hayqıran şeiri kimi:

Kim xəyanət eləyibsə Ağdama,
Onun nankor gözlərinə ağ dama!
…Hər tərəfi duman çiskin alıbdır,
Dağlarımın gözü yolda qalıbdır.
Düşmənlərin od-ocağı sönəcək,
Qarabağım yenə geri dönəcək…

**Allahverdi Eminov,**
**Aytəkin Əliyeva**
*"Kredo" qəzeti,15 may 2010*

## RAFIQ YUSIFOĞLUNUN UŞAQ ŞEİRLƏRİ HAQQINDA

Azərbaycan ədəbiyyatında uşaq poeziyası xüsusi yer tutur. Bu, ilk növbədə klassiklərdən gəlir. Xaqanidən, Nizamidən, Füzulidən üzü bəri bu ənənə davam etdirilmişdir. Hərçənd, klassik şairlərimiz uşaqlar üçün ayrıca əsərlər yazmamışlar, lakin onların tərbiyəsinə müsbət təsir göstərən bədii nümunələr yox deyildir. Etiraf edək ki, XX əsrdə, maarifçilik dövründə mətbuatın yaranması, məktəblərin açılması və dərsliklərin, oxu kitablarının yazılması uşaq ədəbiyyatının yaranmasına təkan verdi. Biz M.Ə.Sabirin "Uşaq və buz", A.Şaiqin "Keçi", A.Səhhətin "Yay səhəri", R.Əfəndiyevin "Durna" şeirlərini xatırlayırıq. Bu gün məktəblilərimiz həmin bədii nümunələrdən zövq alır, əxlaqi nəticə çıxarır, zehni imkanlarını səfərbərliyə alırlar. Maraqlıdır ki, XX əsrin sovet dönəmində S.Vurğun, S.Rüstəm, R.Rza, M.Seyidzadə, M.Dilbazi, O.Sarıvəlli, X.Əlibəyli kimi görkəmli şairlərimiz uşaqlar üçün maraqlı şeirlər yazmışlar. XXI əsrə gəldikdə isə orta nəsil (T.Mütəllibov, T.Mahmud, Ə.Kürçaylı, X.R.Ulutürk, X.Əlibəyli, R.Yusifoğlu və s.) uşaq poeziyasına töhfələr verdi.

Rafiq Yusifoğlu və Zahid Xəlil bu ədəbi missiyanı uğurla davam etdirirlər. Əlbəttə, bu şairlərin hər birinin yaradıcılığı haqqında geniş təhlillər aparmaq mümkündür. Lakin biz istedadlı şair Rafiq Yusifoğlunun şeirlərinin təhlili üzərində dayanacağıq.

Rafiq Yusifoğlu ilk poetik aləmə uşaq şairi kimi (nisbi mənada) gəlməmişdir. Böyüklər üçün (şərti işlədirik) qələmə aldığı şeirlər diqqəti cəlb etmiş, dövri mətbuatda barəsində maraqlı fikirlər deyilmişdir. Qasım Qasımzadə, Nəriman Həsənzadə, Şamil Salmanov, Zahid Xəlil, Allahverdi Eminov, Ruhəngiz Əşrəfqızı və başqaları müxtəlif aspektlərdən onun yaradıcılığı haqqında söhbət açmışlar. Xüsusilə, son illərdə ədəbiyyatşünas və pedaqoq A.Eminov, yazıçı və müəllim R.Əşrəfqızı R.Yusifoğlunun uşaqlar üçün yazdığı şeirləri və poemaları geniş təhlil etmişlər. Məlumat üçün

deyim ki, biz hər iki məqalədən yararlanmışıq. Xüsusilə A.Eminov məsələyə daha geniş toxunmuş, paralellər aparmışdır.

Rafiq Yusifoğlunu biz eyni zamanda bir ədəbiyyatşünas kimi də tanıyırıq. Onun ədəbiyatşünaslıqla bağlı monoqrafiyasını, bir sıra tənqidi məqalələrini nəzərdən keçirdik. Artıq Rafiq Yusifoğlu ədəbiyyatımızda özünün ədəbi portretini yaratmış şəxsiyyətdir. O, uzun müddətdir ki, "Göyərçin" jurnalının naşiridir (baş redaktorudur), balalara müxtəlif mövzularda şeirlər təqdim edir.

Rafiq Yusifoğlunun uşaq şeirlərini bütöv halda gözdən keçirdikdə belə bir nəticəyə gəlirsən ki, şair daxili zərurətdən yazır, uşaq psixologiyasını dərindən bildiyindən qələmə alır. Kiçiklərin xarakter – davranışına, rəftarına münasibəti, valideynlərinə saysız sualları bu şeirlərin əsas mövzusudur. Xüsusilə təbiətin gözəlliyi, ağacların pıçıltısı, çiçəklərin ətri, quşların nəğməsi şairin diqqətindən yayınmır. Məhz poetik səbəbdən biz Rafiq Yusifoğlunun təbiət şeirlərinin təhlili üzərində duracağıq.

Rafiq Yusifoğlu təbiət şeirlərində bir pedaqoq peşəkarlığı ilə gələcəyi fikri ilin fəsilləri fonunda ifadə edir. Maraqlıdır, təbiətin inkişafı ardıcıllığı ilə tərənnüm olunur. Qar-su; tumurcuq-yarpaq; meşə-bənövşə…Bunlar oyanışdır, ruhun təzələnməsidir. Güllərin solması, yarpaqların torpağa düşməsi, şaxtadan suyun donması, yağışın qara dönməsi və qışın gəlişi. Təbiətin elmi inkişaf strukturu belədir və özünün spesifik xüsusiyyətləri vardır. Təbiətşünasın işidir bunu şərh etmək. Şairin gücü, qüdrəti isə bunu bədii sözün köməyi ilə poetik möcüzəyə çevirməsindədir:

A daşdı, daşdı, daşdı,
Qar əridi, su daşdı.
Tumurcuqlandı meşə,
Baş qaldırdı bənövşə.

Bu tərənnümdə bir soyuqluq, qar havası duyulur. Təbiət qışda özünü təmizləyir və həm də uşaqlara bəllidir ki, qarda bir

təmizlik rəmzi var. Müəllif təsadüfi demir ki, üzün ağ olsun, üzümü ağartdın:

A yandı, yandı, yandı,
Çöllər nura boyandı.
Az qalır ki, od yağa,
Gərək köçək yaylağa.

Bu təsvirlərdə təmizlən, dirçəlişdən sonra yayın istisi, çöl-bayırın nura boyanması ovqatı canlanır. Günəşin hərarətinin qida yetişdirən bitkilərdə rolunu uşaqlar anlaya bilirlər. Yalnız günəş bu ecazkar qüvvəyə malikdir:

A düşdü, düşdü, düşdü,
Yarpaqlar yerə düşdü.
Soldu çöllər, yamaclar,
Çılpaqlandı ağaclar.

Bu lövhədə yaşamadan sonrakı boşalma, ömrün sonuna çatma, saralma, payızlaşma dinamikası aydın görünür poeziya diliylə.

Uşaqlara elmi mühakimə ilə fəslin mahiyyətini aydınlaşdırmağa ehtiyac qalmır və yenə fəsillərin əzəli. İndi qalır fəsillərin rəngi. Təbiət bu fəsilləri fiziki qanunlarla belə rənglərə ayırmamışdır. Lakin təbiətlərinə, doğurduğu hadisələrə və canlılar aləminin mövcud rəngini dəyişdirdiyinə görə şair elmi mühakiməni poetik dillə mənalandırmışdır:

Yol üstündə dörd qardaş,
Tapdılar dörd karandaş.
Qırmızını yay seçdi,
Yaşıl rəngi yaz aldı.
Ağ rəngi qış götürdü,
Sarı payıza qaldı.

Fəsillərin gözü olmur, amma fəsillərin gözü var, bu da şərtidir, hər kəsin öz anlama və xarakterik zövqü mövcuddur. Əgər fəsillərin gözü yoxsa, onlar təbiətin predmetlərini necə seçər və öz

xasiyyətlərinin əks-sədasını necə görər? Suallarını vermək və cavabını almaq bəsit zehni tərbiyə üsuludur və bu, artıq arxaik metodikadır. Amma yenə ağırlıq şairin üzərində qalır.

Rafiq Yusifoğlu daha dərsliklərə ümid yeri kimi baxmır və haqlıdır:

Yazın gözü dumanlıdı,
Yayın gözündən od çıxır.

Yaz ilk çağlarında təbiətə, əlbəttə, insanlara duman-çən gözüylə baxır, çiskin, şeh dənələri, duman günəş şəfəqlərində jaləyə, şehə dönür. Yay isə od-alov püskürür və yandırır:

Payızın gözü nəmlidi,
Qışın gözləri ağarıb.

Bahar rəmzi olaraq birinci vaqondur. Ondan sonrakılar ardıcıl gəlir. Uşaqlar üçün bahar həm elmi, həm də təbiətin bir görümü kimi aydınlaşır. Bütün detallar elmin illər hənirtisiylə, istiliyi, rəngi, qoxusuyla cilvələnir. Sonda isə uşaqlar baharın gəlişi meyarını axtarırlar, çox sevdikləri quzunun timsalında. Axı bu heyvanın özü zərifdi, dərisi qıvrımdı, dərisi saçaqlıdı:

Hələ qar əriməyib,
Quzum tapsın ot harda?
Kövşənlərdə ot azdı,
Yağış yağa, ot arta!
- Bu da hahar, quzunu
Apar çöldə otar da!

"Payız", üçüncü vaqon öz kupeləri – ayları ilə. Bu fəslin öz anlayışları, adları olur.

**C.B.RƏCƏBOV**
**AMİ-nin Salyan filialı**
*"Humanitar elmlərin aktual problemləri",*
*2/2011, s.98-103.*

## “EŞQİN QARLI YOLLARINDA ÜZÜ DƏNİZƏ”

*Açar sözlər: R.Yusifoğlu, yaradıcılıq, uşaq ədəbiyyatı, şeirlər.*

Dünyanın görkəmli, fateh, dahi insanları mədəniyyətə, incəsənətə həmişə önəm vermişlər. Bu sahədə çalışmaları qiymətləndirmişlər, dəyərləndirmişlər. Bu baxımdan Azərbaycanın ədəbiyyat, mədəniyyət və incəsənət sahəsindəki uğurları Ulu Öndər Heydər Əliyevin də diqqətindən yayınmamışdır. Bunları xalqımızın sərvəti və intellektual mülkiyyəti adlandırmışdır: “Bizim mənəvi potensialımız – ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir… Bunu yaradanlar bizim xalqın dahi insanlarıdır” (1).

“…Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda Azərbaycanın ədəbiyyatıdır, mədəniyyətidir….” (1) kimi fikirlər bu sahədə çalışanlara, sanki stimul vermişdir. Daha da çalışmağa həvəsləndirmişdir.

Ömrünü-gününü balalara həsr edən müəllimlərin, həkimlərin, şairlərin haqqı qarşısında həmişə özümüzü borclu hesab edirik. Əgər əlinə qələm tutmaqda, həyatda addımlarını möhkəmlətməkdə, dünyanın eniş-yoxuşu ilə irəliləməkdə və s. müəllimin, sağlam olmaqda, sağlam bədəndə sağlam ruh yaşayır prinsipinə əsaslanaraq balalarımızın keşiyini çəkən həkimin qarşısında nə qədər borcluyuqsa, o qədər də şairin, yazıçının qarşısında borcluyuq. Çünki balalarımızın – gələcəyimizin mənən mətinləşməsində əvəzsiz rolu olmuş bu şəxsiyyətlərin zaman-zaman tanınması bizlərin borcudur.

Uşaqlar üçün yazılan əsərlərdə ictimai mühiti, inkişafı, idrakı, zövqü, nitqi, bilik dairəsini nəzərə almaqla bərabər, uşaqların yaş xüsusiyyətləri də unudulmamalıdır. Yalnız uşaq aləminə dərindən bələd olan sənətkar, poetik duyumu güclü, həssas müşahidəsi, maraq dairəsi çox geniş, daha çevik, praktik düşünmə qabiliyyəti olan uşaqlara zövq verən, incə hisslər oyadan, zəngin təbiətimizə, durnagözlü bulaqlarımıza, dərələrimizə, başı qarlı

dağlarımıza, qəhrəmanlıqla dolu həyat yolu keçmiş baba və nənələrimizə və s. hadisələrə qarşı maraq oyadan əsərlər yarada bilər.

Rafiq Yusifoğlunun təbirincə desək, "özlərindən hündür gülü dərməyə can atan", böyüklər üçün olan ədəbiyyatı belə oxumaqdan çəkinməyən uşaqların tələbatı daha maraqlı və dərindir. Təqdirəlayiq bir işdir ki, uşaq ədəbiyyatına maraq var və güclüdür. Çünki Azərbaycan uşaq ədəbiyyatında bədii ifadə forması sadə və aydın, ideya məzmunu qabaqcıl, cəsarətli fikir yürütmə qabiliyyəti olan sənətkarlar var ki, onlardan biri də Rafiq Yusifoğludur.

Rafiq Yusifoğlu hələ sovet vaxtı deyirdi ki, "On bir Xreptovı küçəsi varsa, Bircə Qaçaq Nəbi küçəsi yoxdu…" (9, s.398).

"Milli yazıçı əxlaqi və milli bədii obrazların yaradılması bir-birini tamamlayan qanunauyğun hadisədir" deyimini əsas tutsaq, müşahidə edərik ki, Rafiq Yusifoğlu da belə şairlərdəndir. R.Yusifoğlu dilində "Allahü əkbər", "Ey göyün-yerin sahibi"nə üz tutaraq, "Tanrı dərgahına gedən yol"la irəliləyir, "Tanrı payı" istəyir. Öz humanist, mərd, alicənab xarakterinə uyğun "Tanrım, şükür kərəminə", "Biz öz taleyimizin ağası deyilik ha" söyləyir. Həyat gerçəkliyini necə söyləmək lazımdır, onun dəyəri, ölçüsü nədir?! Əlbəttə, mənəvi dəyərlərə dayanan sağlam məna, sağlam fikir! Mənə elə gəlir ki, bütün bunları Rafiq Yusifoğlu yaradıcılığında görməmək mümkün deyil.

Henrix Böll qeyd edir ki, yazıçılar uşağı öz adı ilə çağırmalıdırlar. Uşaq ədəbiyyatını, bildiyimiz kimi, böyüklərin ədəbiyyatından ayırmamaqla öyrənirik. Çünki uşaqlarda ətraf aləmə daha maraqla baxmaq, hadisələrə öz ağıl dünyalarının baxışları ilə yanaşmaq, hər kiçik sevincin atəşində daha güclü yanmaq, kəpənəyin al-əlvanlığı, quşların civiltisi, küləyin səsi, ayın parıltısı, yağışın şırıltısı, ulduzların göz vurması, damlaların ləçəkləri üşütməsi və s. uşaqların ecazkarlığında xoşhallanmaq duyğuları heç də az deyil. Bu baxımdan Rafiq Yusifoğlu yaradıcılığı da şeh düşəndə çiçəklərin parıldamasına, yarpaqların pıçıltısına, çayların mahnı oxumasına, buludların ağlamasına, kəpənəyin

üşüməsinə, ulduzların göz vurmasına aid uşaq şeirləri ilə zəngindir.

Ay kəpənək, kəpənək,
Söylə, nə düşünürsən?
Qar kimi ağ güllərin
Üstündə üşümürsən?

Kaktusu kirpiyə bənzətməyi, antenanı maraqlı bir üsulla tilova oxşatmağı, dağdan qayıdan gələn əks-sədanı uşaq şıltaqlığı ilə bərabərləşdirməsi, babanın dili ilə nəvəni kal meyvələrə tay tutması maraqlı tərzdə öz əksini tapmışdır. Və ya tənbəlliyin pis bir vərdiş olmasını inandırıcı bir ustalıqla qələmə alması sənətkar yaradıcılığının sağlam fikir, sağlam məna kriteriyalarına uyğunluğunu sübut edir. Rafiq Yusifoğlu uşaq ədəbiyyatı sahəsində də sevilib-seçilən, əsərləri dərsliklərə düşən, digər dillərə də tərcümə olunan sənətkarlarımızdandır. Azərbaycan torpağının gözəlliklərini: dağını-daşını, otunu-çiçəyini, ağacını-meyvəsini, gölünü-çayını, ətirli yamaclarını, boz təpələrini, tarixi keçmişini – gələcəyini, kənd həyatını, şəhər ab-havasını istedadlı sənətkarın qələmindən tökülən inci sözlərin köməyi ilə daha sevildiyini maraqla izləyirik.

Ona mehriban olsan,
Mütləq açacaq çiçək.
Tikanlar arasından
Burnunu göstərəcək.
(“Kaktus”)

Saç-saqqalı ağdı bu,
Dağdan ağır dağdı bu.
Adama söz qaytarır,
Elə bil uşaqdı bu.
(“Əks-səda”)

Dəymişi seçə bilmirsən,
Sən özün də hələ kalsan.
(“Kal”)

Rafiq Yusifoğlu yaradıcılığında uşaqlar Qobustana, Qəbələyə, Qubadlıya, Gəmiqayaya, Örənqalaya, Şuşaya, Xocamsaxlıya poeziyanın dili ilə yaratdığı poetik Azərbaycan xəritəsi ilə səyahətə aparılır. Bu bölgələrin tərənnümü, vəsfi şairin ruhlandığı, həvəsləndiyi doğma torpaqlarımızın sehrli aləmindən irəli gəlir. Uşaqlığı, gəncliyi Qubadlının ən gözəl bölgələrindən olan, bir tərəfi qalın meşələri, soyuq bulaqları, yamyaşıl, laləli düzləri ilə hamıda heyranlıq doğuran Əyin kəndi ilə, bir tərəfi Bərgüşadla, digər tərəfi gözəl, ılıq ab-havalı Tarovlu kəndi ilə əhatəyə alınmış Çardaxlı kəndində keçməsi, tərbiyə aldığı ailənin saf qəlbli, təmiz kişi ləyaqətli el-obanın da sənətkarın istedadının daha da mükəmməlləşməsində istisna xidməti vardır. Onun "Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı cığır", "Qəm karvanı", "Həsrət köçü", "Şirin yağış", "Çiçək yağışı", "Daha uşaq deyiləm", "Bahar qatarı", "Şirin yuva", "Dəniz səviyyəsi", "Təzə sevdalara doğru", "Azərbaycan poeması, axtarışlar, perspektivlər", "Xatirə kəcavəsi", "Böyük arzuya gedən yol", "Ayrılığın qəm hasarı", "Həsərt sazağı", "Eşqin qarlı yollarında", "Sevdalı sabahlar" və s. kitablarına toplanmış şeirlər lirik obrazların düşüncə və fikirlərini daha konkret detallarla bədii portret yaratmaq, həyat gerçəkliyini söyləmək, düşünülmüş mənəvi münasibətlər oyatmaq, milli taleyin tarixiliyini sübut etmək, etnik-mədəni sistemin inkişafı ilə bağlı fikirləri araşdırmaq və s. mənəvi maneralara toxunulmuş poetik duyğuların məhsuludur. Onun şeir kitablarında hər şeirin – hər çiçəyin (Elə onun hər bir şeirini çiçəyə bənzətmək olar. Onlar da çiçək kimi ətirlidir. Bu şeirlərin ətri onun mənasındadır" (9, s.389) mənası dərindir. "Çəmənin yaxasına düzülmüş düymələrdir" uşaqları, oxucuları düşündürən nəsihətdir, məsələlər. "Göz ürəyin aynasıdır" fikri "Pəncərə" şeirində belə ifadə olunmuşdur:

Pəncərəsiz yaşamaq
Bil ki, əfsanə sözdü,
Ürəyin pəncərəsi
Bir cüt işıqlı gözdü…

Və ya "İnsanın əzəli də, axırı da torpaqdır" ifadəsi "Adam balaca olanda" adlı şeirdə belə poetikləşmişdir:

Həyatın sərt üzünü
Görüb çaşır adamlar.
Böyüdükcə torpağa
Yaxınlaşır adamlar.

"Boyuna qamış ölçüm" ifadəsi bataqlığı, pisliyi, yamanlığı, bədbinliyi sevməyən şairin təsvirində yeni, yumoristik məna kəsb edir:

Gölməçə gözəlliyi
Alıbdır öz qoynuna.
Təbiət qamış ölçüb
Bataqlığın boyuna.

Mənə elə gəlir ki, Qubadlı həsrətini heç zaman unutmayan şair hər yerdə bu nisgilə toxunmuşdur, hətta bu, həcmcə kiçik, mənaca dərin "Mənə göy üzü verin" şeirində də:

Mənə göy üzü verin,
Göy – Vətən əvəzidi.
Quşu quşa döndərən
Yaşamaq həvəsidir! –

deyərək, göy üzünün Qubadlıya düşən payıyla təsəlli tapmağa, həvəs stimulu qazanmağa çalışır.

***S.N.QAFAROVA***

**filologiya elmləri namizədi, Bakı Slavyan Universiteti**

*Humanitar elmlərin öyrənilməsinin aktual problemləri.-2011.-№4, s.127-130.*

# UŞAQ SEVİNCİNİN POEZİYASI

Çoxəsrlik tarixə malik olan Azərbaycan ədəbiyyatının ayrılmaz hissəsi kimi uşaq ədəbiyyatı, böyüməkdə olan nəsli zəmanəsinin ən humanist insanı kimi tərbiyə etməkdədir. Oxuduqları hər bir əsər onların qəlbində milli və bəşəri ideyalara, vətənpərvərlik, humanizim, əməksevərlik, dostluq, yoldaşlıq, düzlük, özünə qarşı tələbkarlıq kimi mənəvi keyfiyyətlər aşılamalıdır.

Müasir Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı şair, ədəbiyyatşünas, publisist Rafiq Yusifoğlu keçən əsrin 70-ci illərindən başlayaraq, ədəbi prosesdə yaxından iştirak edir. Ötən illər ərzində şairin "Yurdum-yuvam," "Ətirli düymələr," "Ocaq yeri," "Aylı cığır," "Qəm karvanı," "Həsrət köçü," "Şirin yağış," "Bahar qatarı," "Xatirə kəcavəsi," "Böyük arzuya gedən yol," "Təzə sevdalara doğru," "Ayrılığın qəm hasarı" və s. kitabları nəşr olunmuşdur. Müəllifin "Çiçək yağışı" adlandırdığı kitabına onun müxtəlif illərdə yazdığı bir- birindən maraqlı, yeni poetik biçimli, duzlu-məzəli uşaq şeirləri daxil edilmişdir.

Rafiq Yusifoğlu bir şair kimi hər zaman söylədiyi fikri sadə şəkildə ifadə etmək, yeni formalar tapmaq, uşaqların qəlbinə təsir edə biləcək əsərlər yazmaq haqda düşünür. Uşaq dünyasına yaxşı bələd olan şairin mövzu dairəsi olduqca genişdir: təbiətin rəngarəng lövhələri, bitkilər və heyvanlar aləmi, balaların məktəbdə və evdəki qayğıları, dostluq və yoldaşlıqda uşaqların xasiyyət və rəftarı, xeyirxah, nəcib işləri və s. onun şeirlərində öz əksini tapır. Məsələn, şeirlərinin birində adi təbiət hadisəsi olan qarın yağmasını böyük coşqu ilə qarşılayan kiçik yaşlı uşağın keçirdiyi sevinc hisslərini şair böyük ustalıqla təsvir etmişdir. Belə ki, kiçik yaşlı uşaqların böyük marağına səbəb olan bu cür şeirləri onlar çox asanlıqla əzbərləyə bilirlər. Nümunəyə diqqət yetirək:

Allanıbdır yanaqları,
Yetişibdir alma, ata.
Əlimdəki bu daşları,

Sən əlimdən alma, ata.
Mən ağaca daş atıram,
Ağac mənə alma ata.

R.Yusifoğlunun şeirlərində təbiət mövzusu xüsusi yer tutur. Şairin şeirlərini oxuyarkən görürük ki, onun balaca qəhrəmanı sanki təbiətlə üz-üzə oturub onunla söhbət edir. Çünki bu qəhrəman gözəllik və həyat vurğunudur. "Bahar" şeirində oxuyuruq:

Sən gəlirsən, nəfəsinlə
Yatanları oyadırsan.
Böyüyürsən yarpaq- yarpaq,
Çiçək-çiçək boy atırsan.

Vətənimizin göz oxşayan təbiət mənzərələrinin uşaq poeziyasında təsviri onların qəlbində doğma yurda olan sevgini bir az da artırır. Belə ki, illər keçdikcə bu istək onların qəlbində qərar tutaraq, vətənə məhəbbət kimi formalaşır.

Qeyd edək ki, bir şair kimi Rafiq Yusifoğlu qələmə aldığı əsərləri ilə Azərbaycan uşaq ədəbiyyatı fondunu zənginləşdirir. Onun yaradıcılığında böyüməkdə olan uşaqlara qayğı və məhəbbət, doğma vətənə sədaqət motivləri olduqca qüvvətlidir. Şair kiçik uşaqlara doğma yurdumuz Azərbaycanın könül açan təbiət mənzərələrini sevdirməklə, onların qəlbində vətən sevgisi haqqında ilk təsəvvür yaradır. Bütün varlığı ilə vətəninə və xalqına bağlı olan şair yaxşı bilir ki, insana qüvvət və cəsarət verən vətən eşqidir. Məhz bu səbəbdəndir ki, müəllif yaradıcılığı boyu bu məziyyəti ön plana çəkir. Belə ki, böyüməkdə olan uşaqların mətin və mübariz olmasını arzu edən şair "Balaca əsgər" şeirində yazır:

Necə papaq alsan,
Gəlməz xoşuna,
Əsgər papağını
Qoyar başına.
Danışmağı sevməz,
Çox vaxt susar o,
Çiynindən oyuncaq,

Tüfəng asar o.
Hələ arzuların,
Beşiyindədi,
Hələ xəyalında,
Çatır ocaq o.
Hələ gül- çiçəyin
Keşiyindədi,
Böyüyüb vətəni
Qoruyacaq o...

Rafiq Yusifoğlu poeziyasının böyük bir qisminin məzmunu ana və övlad məhəbbəti təşkil edir.

Nənəsinin yanında
İki ay qalıb gəlib.
Gedəndə balacaydı,
Bir igid olub gəlib.

Bu oğlanın anası,
Bağçamızda həkimdir.
İşdən qayıdıb deyir:
-Görən bu oğlan kimdir?

Ayaqları uzanıb,
İriləşib addımı.
Gursel gülür:- Ay ana,
Unutmusan adımı?

Mənə oğlan deyirsən,
Oğlunu tanımadın?
Ana gülür:-Yadımdan
Çıxarmı sənin adın?

Tətil günlərini qoca nənəsinin yanında keçirən Gursel valideynlərinin yanına dönərkən anası onu təəccüblə qarşılayır. Məhəbbət dolu baxışlarıyla oğlunu süzən ana, kövrək qəlbində keçirdiyi hiss və həyəcanlarını gizlədə bilmir. "Gedəndə balacaydı, bir igid olub gəlib"- deyə onu mehribanlıqla oxşayır. Öz övladını görmək üçün darıxmış kövrək ana qəlbinin sonsuz məhəbbətini şair böyük məharətlə oxucusuna çatdıra bilmişdir. Təbii ki, uşaqların maraq dünyası geniş olduğu üçün onlar gözləri önündə baş verən təbiət hadisələrini müşahidə etdikcə, həmin hadisələrin başvermə səbəbləri ilə də dərindən maraqlanırlar. Bir sözlə, ana vətənin gözəl təbiətini uşaqlara sevdirmək şairin şeirlərində başlıca yer tutur. O çalışır ki, uşaqlar təbiəti duyub sevsinlər, ondan zövq alsınlar və ona xidmət etməyi öyrənsinlər. "Yaz qarı" şeirində oxuyuruq:

Gözəlləşib badamlar,
Gözəlləşib alçalar.
Baxıram sevinc ilə,
Bağçamıza yağıb qar.

Ağ don geyən budaqlar,
Bir-birindən göyçəkdi.
Onların əynindəki,
Qar deyil ha, çiçəkdi...

Qeyd edək ki, bir şair kimi Rafiq Yusifoğlu kiçik yaşlı uşaqlar üçün yazdığı təbiət şeirlərində təsvir etdiyi fəslin rəngini sözün qüdrətilə canlandıra bilir. O, qış fəsli haqqında yazırsa, qarın bəyazlığını, bahar fəsli haqqında yazırsa, yaşıl otların, əlvan çiçəklərin, payız fəsli haqqında yazırsa, təbiətin qızılı rənginin bütün çalarlarının poetik bədii təsvirini ustalıqla verməyi bacarır. Bir sözlə, şair təbiətdə müşahidə etdiyi hadisələri sadəcə vəsf etmir, onları sadələşdirib uşaqların ruhuna uyğun qələmə alır, uşaqlarla təbiət hadisələri arasında bir yaxınlıq yaradır. Bu yaxınlıq və mehriban münasibət ana təbiəti uşaqların sevimlisinə çevirir.

Birdən göylər hönkürdü,
Yağdı bahar yağışı.
Çəməndə çiçək oldu,
Buludların göz yaşı.

Yaxud

Ha yandan yağır
Bu od, bu atəş
Yaman istidi,
Yandıq, ay nənə.

Şair bu şeirində isə payız fəslinin gözəlliyini olduqca həyati və inandırıcı bir şəkildə təsvir etmişdir. Nümunəyə diqqət yetirək:

Bu ağacın üstündən,
Yay götürcək əlini,
Payız sarı boyayıb,
Onun yaşıl telini.

Bu zaman oxucu özünü kitab qarşısında deyil, təbiət qoynunda olduğu kimi hiss edir. Məhz bu keyfiyyəti ilə şair öz kiçik oxucularında təbiətə maraq, qayğıkeşlik hissi aşılaya bilir.

Rafiq Yusifoğlu uşaqlar üçün yazdığı təbiət şeirlərində canlılar aləmini də yaddan çıxarmamışdır. Onun "Kirpi," "Kəpənəklər oxuyur,"Arının cavabı," Dovşanın gileyi," "Leylək və Bülbül" və s. şeirləri uşaqların heyvan və quşlara məhəbbətini artırır. İstedadlı bir şair kimi nədən yazırsa yazsın, onun şeir dili sadə, aydın, təbii və canlıdır. Məhz bu səbəbdən də, Rafiq Yusifoğlu kiçik yaşlı oxucularının qəlbinə asanlıqla yol tapmağı bacarır.

**Balakişi İsgəndərov**
**Sumqayıt Dövlət Universitetinin müəllimi**

Filologiyanın aktual problemləri: Axtarışlar və perspektivlər.
Respublika elmi konfransının materialları. – Sumqayıt. - 2012.-
S.136-139.

## “QUŞLAR DÜNYASI”

Tanınmış şair, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun yaradıcılığının ən aparıcı qollarından biri uşaq ədəbiyyatıdır. Onun uşaqlar üçün yazdığı əsərlər həmişə sevilə-sevilə oxunur. Rafiq müəllim bir sıra dərs vəsaitlərinin, o cümlədən birinci siniflər üçün “Ana dili” dərsliyinin müəllifidir. Onun şeirləri, hekayələri, nağılları orta məktəb dərsliklərinin, müntəxabat, əlavə oxu kitablarının bəzəyidir, - desək yanılmarıq. Ona görə ki, uşaq psixologiyasını gözəl bilən R.Yusifoğlu onların maraq dairəsini yaxşı bilir. Onun “Göyərçin”in kitabxanası seriyasından ayrı-ayrı vaxtlarda nəşr olunan “Söz çəməni”, “Zamanın qatarı”, “Yollar”, “Günlərimiz, aylarımız”, “Ana dilim” və s. şeir kitabları həm balaca oxucular, həm də mütəxəssislər, müəllimlər və tərbiyəçilər tərəfindən böyük maraqla qarşılanıb. Müəllimlər etiraf edirlər ki, məktəbdə tədbirlərin hazırlanmasında bu kitablar həmişə onların köməyinə gəlir.

Bu günlərdə Rafiq Yusifoğlunun həmin silsiləyə aid olan yeni bir kitabı da işıq üzü görüb. Həmin kitab “Quşlar dünyası” (Bakı, 2012) adlanır. Kitabın annotasiyasında oxuyuruq: “Əziz balalar, müəllimlərin, tərbiyəçilərin xahişi ilə jurnalımızın ayrı-ayrı saylarında verdiyimiz şeirləri bir yerə topladıq. İstədik ki, həm quşlar haqqında yazılan şeirləri oxumaqla, həm də onlarIn şəkillərinə baxmaqla qanadlı dostlarımızı yaxından tanıya, onları bir-birindən fərqləndirə biləsiniz”.

Doğrudan da, quşları balalarımıza tanıtmaq olduqca vacib məsələlərdən biridir. Rafiq Yusifoğlunun şeirlərində hər quşun istər zahiri görünüşü, istərsə də onların “xasiyyəti” haqqında verdiyi poetik cizgilər çox maraqlı və düşündürücüdür. Məsələn, “Qaranquş” şeirində oxuyuruq:

Yenə aydın səmada
Qaranquşum süzəcək.

Elə bil ki, qayçıdır
Onun haça quyruğu,
Buludları kəsəcək…

Bu tipli bənzətmələr şairi quşlar haqqında ümumi söz söyləməkdən uzaqlaşdırır. "Bülbül" şeirində şair bülbülü müğənniyə, qızılgılı isə mikrafona bənzədir. "Kəklik çıxıb daşlığa, qayalar çiçəkləyib" ifadəsi də maraqlıdır, balaca oxucuda kəkliyin gözəlliyi haqqında müəyyən təsəvvür yaradır. "Zığ-zığ" haqqındakı bu misralar da həmin quş haqqında müəyyən fikir formalaşdırır:

Niyə hay-küy salırsan,
Elə bil ki, dardasan.
Gizlənsən də, çığırtın
Xəbər verir hardasan.

Kitabda yetmişə yaxın quş haqqında poetik məlumat verilir. Hər quşun özünəməxsus cizgilərinin tapılıb ön plana gətirilməsi şeirlərin bədii dəyərini, onların təsir gücünü xeyli dərəcədə artırır. Hər şeirin yanında quşların rəngli şəkillərinin verilməsi bədii mətnlə fotonun müqayisəsi imkanını yaradır ki, bu da pedaqoji baxımdan çox əhəmiyyətlidir. Kitabın tərtibatında rəssamlardan İlqar Mehdiyev və Fidan Axundovanın rəsmlərindən də istifadə olunub. Ümid edirik ki, Rafiq Yusifoğlunun digər kitabları kimi "Quşlar dünyası" adlı kitabı da balaca oxucularımızın xoşuna gələcək, müəllim və tərbiyəçilərin yaxın köməkçisinə çevriləcəkdir.

**Günel ALMAZ**
**"Göyərçin" jurnalının baş ədəbi işçisi,**
**"Xan qızı Natəvan" mukafatının laureatı**

*"Azərbaycan müəllimi" qəzeti, 1 iyun 2012-ci il.*

## “GÖYƏRÇİN”İN HƏDİYYƏSİ

Uşaqlar böyüklərdən fərqli istək və arzularla yaşayırlar. Belə demək mümkündürsə, onlar daha azad, müstəqil olmağa can atırlar, baxmayaraq ki, bəzən sərbəstliyin həddi aşanda törətdiklərini hələ dərk etmirlər. Balacalar eyni zamanda, sülhpərvər olurlar. Ona görə də onları daha çox sülhün rəmzi sayılan göyərçinə bənzədirlər.

Yaşlı nəslin də uşaqlıq illərinin sevimli jurnalı olan “Göyərçin”in hər “qanad”ında gətirdiyi xoş duyğulu soraqlar balalarımızda ruh yüksəkliyi yaratmaqla yanaşı, onların vətənpərvər tərbiyə olunmalarında ailədə valideynlərin, bağçada tərbiyəçilərin, məktəbdə isə müəllimlərin köməkçi vasitəsinə çevrilir. Beləliklə, uşaqlar “Göyərçin”in hər sayını səbirsizliklə gözləyirlər. “Göyərçin”ə yeni ruh, qol-qanad verən müəllliflər də sanki uşaq təbiətlidirlər: onların istək və arzularını hamıdan daha yaxşı bilirlər. Bu müəlliflərdən biri də Rafiq Yusifoğludur ki, baş redaktoru olduğu “Göyərçin”in kitabxanasından davamlı olaraq kitabçalar nəşr etdirir və balaca oxucularını çox da intizarda saxlamır.

Bu dəfəki buraxılış “Quşlar dünyası” adlanır. Kitabçanın müəllifi, şair Rafiq Yusifoğlu elə ilk səhifədən oxucularına bələdçilik edərək yazır: “Əziz balalar, müəllimlərin, tərbiyəçilərin xahişi ilə jurnalımızın ayrı-ayrı saylarında verdiyimiz şeirləri bir yerə topladıq. İstədik ki, həm quşlar haqqında yazılan şeirləri oxumaqla, həm də onlarIn şəkillərinə baxmaqla qanadlı dostlarımızı yaxından tanıya, onları bir-birindən fərqləndirə biləsiniz”.

Kitabın bədii tərtibatında rəssam Fidanla İlqarın quşlara məhəbbəti özünü göstərir. Quşların vəsfinə həsr olunmuş şeirlər də uşaqların zövqünə köklənib. Göyərçin deyir:

Həmişə insanların
Mənə baxanda gözü,

Ürəklərindən keçir
Sülh kəlməsi, sülh sözü…

Təqdirəlayiq haldır ki, uşaq ədəbiyyatına laqeydliyin hökm sürdüyü bir vaxtda "Göyərçin" jurnalının əməkdaşları həm balacaların bu sevimli dərgisini müntəzəm olaraq nəşr etdirərək onlara çatdırır, həm də belə maraqlı kitabçalar hazırlayırlar.

**Məhəmməd Sadıqzadə**
*"Azərbaycan" qəzeti, 14 iyul 2012*

## ŞAİRİN "QIZILI MƏKTUBLAR"I

Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu öz balaca oxucularının görüşünə "Qızılı məktublar" kitabı ilə gəlib. Adamı maraq bürüyür. Görəsən qızılı məktub nədir? Kitabdakı eyni adlı şeiri oxuyanda isə hər şey aydın olur:

Bu çayın sularında
Gör nə qədər yarpaq var!
Elə bil məktublardı
Bu qızılı yarpaqlar.

Baxan kimi bilirsən:
Bu çay meşədən gəlir.
Gözəl ağaclar bitən
Dilbər guşədən gəlir.

Bu çayın sularını
Qızıl xəzəl bəzəyir.
Bu çay dağlardan gələn
Poçtalyona bənzəyir.

Daşlara çırpılanda
Köksünü ötürür o.
Meşənin məktubunu
Dənizə gətirir o…

Əvvəlki kitablarında olduğu kimi Rafiq Yusifoğlunun bu kitabında da vətən təbiətinin gözəlliklərinə həsr edilən şeirlər çoxluq təşkil edir. Naxçıvanın, Batabat yaylağının, Tovuzun, Qubanın, Qusarın, Ləzənin, Nabranın poetik mənzərələri göz oxşayır. Şeirləri oxuduqca adam elə bil ki, şairlə birlikdə vətən torpağının əsrarəngiz gözəlliklərinin seyrinə çıxır.

Rafiq Yusifoğlunun poetik sözlə yaratdığı peyzajlar könül oxşayır. Şair təbiət mənzərələri təsvir edərkən ümumi sözdən qaçır, şeiri səciyyəvi detallar üstündə qurmağa çalışır və çox zaman buna nail olur. Məsələn, "Üzən adalar" şeirinə fikir verək:

Batabatın qoynunda
İki üzən ada var.
Səhər ayrılır, axşam
Birləşir bu adalar.

Qaranlıqdan çəkinib.
Dəcəlliyi atırlar.
Gecələr bir-biriylə
Qucaqlaşıb yatırlar.

Marıqlı cəhət budur ki, şair təbiət hadisəsi haqqında təkcə informasiya verməklə kifayətlənmir, həm də onu uşaq təfəkkürünə uyğun şəkildə mənalandırır. Fəsillərə bənzərsiz, orijinal şeirlər həsr edən şairin "Baharın gəlişi" şeiri çox maraqlıdır:

Sevinərək yaz gəlib
Deyirdi ağacdələn.
Meşənin qapısını
Döyürdü ağacdələn.

“Azərbaycan dağları”, “Bənövşə gölü”, “Nabrana gəl”, “Mənzərə”, “Üzü dağlara sarı”, “Zor bulaq”, “Zirvədən baxanda”, “Gözəllik vadisi”, “Zəyəm çayının nəğməsi”, “Qaşqa dağ”, “Bu yol Ləzəyə gedir” və s. bu kimi şeirlərdə şairin peyzaj yaratmaq ustalığı aydınca görünür. Bu canlı lövhələrdə həm də lirik qəhrəmanın təbiət gözəlliklərini heyranlıqla seyr edib mənalandırmaq ustalığı diqqəti cəlb edir.

Doğma Bakıya, İçərişəhərə həsr olunan şeirlər də öz axıcılığı, yığcamlığı, obrazlılığı ilə yadda qalır. Kitabın “Sara, Fateh, Fatimə” və “Yurdumun övladları” adlı bölməsində uşaqlara, onların qəribə hərəkət və davranışlarına, qeyri adi sözlərinə həsr olunan şeirlər çoxluq təşkil edir.

Ümid edirik ki, Rafiq Yusifoğlunun “Qızılı məktublar”ını Azərbaycan uşaqları zaman-zaman sevə-sevə oxuyacaqlar.

**Günel ALMAZ**
AMEA Folklor İnstitutunun doktorantı
*“Savalan” qəzeti, 14-16 yanvar 2014-cu il.*

## UŞAQ ƏDƏBIYYATIMIZA YENİ TÖHFƏ

Altmışdan çox kitabın müəllifi, tanınmış şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu oxucuların görüşünə “Qızılı məktublar” adlı yeni kitabı ilə gəlmişdir. Uşaqlar üçün nəzərdə tutulan bu kitabda şairin son illərdə yazdığı yığcam, mənalı, yüksək bədii sənətkarlıq xüsusiyyətləri ilə diqqəti cəlb edən şeirləri toplanmışdır.

Uşaq ədəbiyyatı Rafiq Yusifoğlu yaradıcılığının ən aparıcı qollarından biridir. Bu da təsadüfi deyildir. Rafiq müəllim uzun illərdir ki, balalarımızın sevimli jurnalı “Göyərçin” jurnalının baş redaktoru vəzifəsində çalışır. Orta məktəb dərsliklərinə xeyli şeiri, hekayəsi, nağılı daxiil edilən Rafiq Yusifoğlu özü də bir neçə

dərsliyin müəllifidir. Ümid edirik ki, uşaq psixologiyasını gözəl bilən şairin "Qızılı məktublar" kitabındakı şeirlərinin də bir qismi yeni dərsliklərə daxil ediləcək.

Rafiq Yusifoğlu yurdumuzun təbiətini vurğunluqla tərənnüm edən, onun gözəlliklərini yüksək bədii ustalıqla oxuculara çatdırmağı bacaran şairlərimizdəndir. Onun yeni kitabında da bu mövzuda yazılan şeirlər çoxluq təşkil edir. Ən maraqlı cəhət odur ki, müəllif hadisələrə uşaq gözü ilə baxıb mənalandırmağı bacarır. Məsələn, onun "Anası yoxdu" şeirinin balaca qəhrəmanı çox xoşbəxtdir. Ona görə ki, anası yanındadır və uşağa elə gəlir ki, uca dağlar belə ona qibtə ilə baxırlar:

Mən anamla qonaq getdim
Güllü-çiçəkli dağlara.
Zümrüd donlu meşələrə,
Sərin sulu bulaqlara.

Durubdur dinməz-söyləməz,
Bu dağ elə bil naxoşdu.
Anamın əlindən tutub,
Dağlara baxmaq nə xoşdu!

Anasız bu gözəlliyin,
Həyatın mənası yoxdu.
Mənə qibtəylə baxırlar,
Dağların anası yoxdu…

"Azərbaycan dağları", "Bənövşə gölü", "Nabrana gəl", "Mənzərə", "Üzü dağlara sarı", "Zor bulaq", "Zirvədən baxanda", "Gözəllik vadisi", "Zəyəm çayının nəğməsi", "Qaşqa dağ", "Bu yol Ləzəyə gedir" və s. bu kimi şeirləri oxuyanda yurdumuzun gözəllikləri göz önündə canlanır. Oxucu qiyabi olaraq Kəpəzi, Qoşqarı, Murovu, Şahdağı, Batabat yaylağını, Qusarı, Nabranı, Tovuzu, Xızını, Xəzər sahillərini səyahət edir. Gözəl mənzərələrin gözəl təqdimatı adama zövq verir, onu həyəcanlandırır. Oxucu da şeirlərin lirik qəhrəmanları kimi gəzmək, görmək həvəsinə düşür:

Yoxdur bizim vətənin
Bu dünyada əvəzi.
Qəlbimi tərk eləmir
Gəzmək, görmək həvəsi.

Zəminin ortasında
Közə dönüb lalələr.
Zirvədən enə-enə
Saz çalır şəlalələr.

Yamaclarda, düzlərdə
Günəş xalı toxuyur.
Gözəlliyi görəndə
Qəlbim nəğmə oxuyur…

Şair təbiət hadisələrini özünəməxsus bir dillə mənalandırmağı bacarır. Məsələn, “Ağacdələn” şeirində meşə həkiminin ağacları dimdikləməsini şair belə mənalandırıb:

Sevinərək “Yaz gəlib!” –
Deyirdi ağacdələn.
Meşənin qapısını
Döyürdü ağacdələn.

Ümumiyyətlə hadisələri, hər hansı otu, böcəyi, gülü, çiçəyi mənalandırmaq ustalığı R.Yusifoğlu poeziyasına xas olan səciyyəvi cəhətlər kimi yadda qalır.

Nəinki şeirlərin, kitabdakı bölmələrin də adı maraqlıdır. “Möcüzələr diyarı”, “Heç belə də iş olar”, “Sara, Fateh, Fatimə”, “Yurdumun övladları”, “Gül açıb yurdumun düzləri, Baxıram, sevinir gözlərim”, “İşi işə bənd elə, Görən desin: bax belə!”, “İşığın özü – uşağın gözü”, “Dil açanda balalar, Kəlmələri bal olar”, “Bənövşə, bəndə düşə”…

Bölmələrin adları kimi orada toplanan şeirlərin də mövzusu rəngarəngdir. Rafiq Yusifoğlu poeziyasının balaca qəhrəmanları hər bir hadisəyə, təbiət lövhələrinə özlərinəməxsus bir tərzdə yanaşmağı bacaran, dünyanı dərk etməyə çalışan insanlardır.

Bizə elə gəlir ki, "Qızılı yarpaqlar" son illərdə yaranan ən dəyərli uşaq kitablarından biridir. İndi ölkəmizdə bu cür kitablara çox böyük ehtiyac var. Ümid edirik ki, Rafiq Yusifoğlu və onun qələm dostları yeni-yeni əsərləri ilə uşaq ədəbiyyatımızı daha da zənginləşdirəcəklər.

**Günel ALMAZ**
**AMEA Folklor İnstitutunun doktorantı**
*"Respublika" qəzeti, 31 yanvar 2014-cü il.*

## "QIZILI MƏKTUBLAR"
## Onlar uşaqlarımıza yazılıb

Mənə elə gəlir ki, Rafiq Yusifoğlunu oxuculara geniş təqdim etməyə ehtiyac yoxdu. Çünki ədəbiyyatşünas, əməkdar mədəniyyət işçisi və çoxlu sayda mükafatların laureatı olan şair Rafiq Yusifoğlunun adı uzun illərdi ki, böyük söz dünyasında iftixarla çəkilir. O, həm də bizim sabahımız olan, övladlarımızın özəl dünyasının ifadəçisi kimi tanınan "Göyərçin" jurnalının baş redaktoru kimi tanınır və sevilir.

Yarandığı gündən bu jurnal körpələrimizin, eləcə də onların sevincinə sevinc qatmağa tələsənlərin sevimli dərgisi olub. Bu illüstrasiyalı, bər-bəzəkli jurnaldakı hər bir yazı balaca oxucuya həm göstərib, həm də təbliğ edib, həm də sevdirmək nümunəsini ortaya qoyub.Yəni jurnalın oxucuları Azərbaycan təbiətinin rəngarəngliyini, flora və faunasını məhz körpələrimizin düşüncəsinə, yaşına və dərk etmək qabiliyyətinə uyğun bir şəkildə təqdim edilən materialların böyük çeşidi içərisində həmişə yeniliklərin şahidi olubdu.

Təbii ki, təkcə baş redaktor kimi deyil, həm də şair-pedaqoq kimi jurnala və onun oxucularına öz sevgisini çatdıran Rafiq Yusifoğlu bu jurnal vasitəsilə uşaqlarımızın dünyasını özünün bir-birindən gözəl uşaq şeirləri ilə də çatdırıbdı. Yəni Rafiq müəllimin uşaqlarımız üçün yazdığı hər bir misra, hər bir beyt

onların təkcə sevincinə səbəb olmayıb, həm də onları düşündürüb, onlara həyatı tanıdıb. Bax, indi sizə təqdim etdiyim "Qızılı məktublar" kitabı da məhz körpələrimiz üçündü. Kitabın nəfis tərtibatı, üzqabığının son səhifəsində körpələri bağrına basan müəllifin fotosu əslində onun ürəyinin qızıl kəlmələrinin bu körpələrə aid olduğunu ifadə edir.

Şeirləri oxuduqca istər-istəməz özümüzü uşaqlıq illərində hiss edir, o illərə qayıdırıq. Mənə elə gəlir ki, bu misralar elə mənim üçün də yazılıb.

Bir qəşəng qızdı Ayla,
Böyüyür günlə, ayla.
Babası hey sevinir
Tanrı verdiyi payla.

O güləndə qəlbimin
Qaranlığı əriyir.
O güləndə ömrümü
Bəxtəvərlik bürüyür.

Ana çalsa da layla,
Yuxuya getmir Ayla.
Göylərə baxır Ayla,
Söhbət eləyir ayla.

Və yaxud:

Qəşəng bir qız olarsan
Saçlarını darasan.
Ay Şəkər, qənd ağ olur,
Bəs sən niyə qarasan?

Göründüyü kimi, sadə, ancaq balaca yaddaşına rahatlıqla köçən bu misralar Rafiq müəllimin həm peşəkarlığının, həm də uşaq dünyasına dərindən bələd olmasının nəticəsidir. Şair seçdiyi sözləri bir-birinə muncuq kimi elə düzür ki, balaca oxucu onu əzbərləyəndə çaşmır, əksinə, sözlərin həmahəngliyi onun nitqini bir az da rəvanlaşdırır. Bu mənada təkcə ayrı-ayrı uşağa, qıza və

oğlana deyil, eləcə də təbiətin bir parçası olan ağaca, heyvana, ümumiyyətlə digər canlı aləmə ünvanlanan şeirlər də həmin peşəkarlığın bariz nümunəsidir. Şair yazır:

Qonur çiçəyə, gülə,
Bal yığır gilə-gilə.
Sancsa da adamları
İstəyirlər xətrini.
Zəhməti bal eləyir
Çiçəklərin ətrini.

Və yaxud:

Onun kəsdiyi, ağacın
Xəstə, quru budağıdı.
Qayçı bağbanın əlində
Sanki cərrah bıçağıdı.

Və yaxud:

Telefona bax,
Neçə gözü var.
Zınqıldayırsa
Demək sözü var.

Qulaqları var
Yekə, ipiri.
Biri danışır,
Dinləyir biri…

Rafiq Yusifoğlunun körpələrimiz üçün yazdığı və bir kitabda topladığı bu gül çələngi özünün mövzu genişliyi ilə yanaşı, həm də uşaqlar üçün maraqlı ola biləcək hər bir detalın diqqətlə alınması, yəni təqdir edilməsi ilə də diqqətçəkəndir. Məsələn, onun rəqəmlər haqqında yazdığı şeirlərdə demək olar ki, bütün rəqəmlərin uşağın başa düşəcəyi bir səviyyədə yozumu şərh olunur. Məsələn:

Beşəm, beşəm, beşəm mən,
Balaca günəşəm mən.

Hər əlin, hər ayağın
Üstündə var beş barmaq.
Gündəlikdə gün kimi
Şəfəq saçan “5”-ə bax!
Mən xəbər gətirirəm
Ən fərəhli işlərdən.
Hamının xoşu gəlir
Qıpqırmızı “5”-lərdən.

Bu kitabda təqdim olunan bapbalaca şeirlər, bəndlər, dördlüklər və digərləri də maraqla oxunur.

Məsələn:

Əvvəl
ba, ba söylədi,
Sonra
baba söylədi.

Və yaxud:

Salam, atam,
Şükür, hələ
salamatam.

Balacalar üçün yaxşı bir hədiyyə olan bu kitab müəyyən mənada orta məktəbin ibtidai sinif müəllimləri üçün bir sinifdənxaric oxu nümunəsi ola bilər. Belə ki, bu kitabdan istifadə edən hər bir körpə həm nitqini, həm yaddaşını inkişaf etdirmək üçün kifayət qədər böyük söz dünyasına daxil olub ondan yararlanmaq haqqını əldə etməklə həm özünün, həm də yaşıdlarının həmsöhbəti olan bu kitabı sevə bilər. Bu sevgi həm də şairin Azərbaycanımıza, Bakımıza, dogma şəhərimizə, ümumiyyətlə doğulduğumuz bu coğrafi məkana ünvanlanan şirin ifadələr və məntiqi söz çələngi ilə tamamlanmış olur. Yəni uşaqlarımız öz şəhərlərimizi, Bakımızı, Azərbaycanımızı yaxından tanımaq üçün bu şeirləri oxuduqca ondan həm öyrənəcək, həm də bu şeirlər o sevgini bir az da alovlandıracaq.

Məsələn:

Doğma vətənim,
Necə əzizsən!
Biz ləpələrik,
Sənsə dənizsən!
Hər an sən mənim
Ürəyimdəsən.
Bircə yol mənə
Ürəyim desən,
Göyə ucalar
Şərəfim, şanım.
Sən mənim qanım,
Sən mənim canım,
Azərbaycanım!
Azərbaycanım!

Və yaxud:

Şəfəq saçır işıqların,
Bəxtəvərdi uşaqların.
Sən şəhərlər şəhərisən,
Ömrümüzün səhərisən.

Sizə təqdim etdiyim Rafiq Yusifoğlunun ötən il işıq üzü görmüş "Qızılı məktublar" kitabı körpələrimizə ünvanlanıb. Düşünürəm ki, uşaqlarımızı sevən hər kəs onlara bu qızılı məktubları böyük məmnunluqla hədiyyə edəcək və körpələrimiz də onun qızılı işıqlar dünyası qoynunda daha kamil, daha düşüncəli və daha böyük dünyagörüşə malik olan nur parçaları kimi böyüyəcəklər.

**Əbülfət Mədətoğlu**

*"Ədalət" qəzeti, 13 mart 2014-cü il.*

## “Uşaq folkloru: problemlər, mülahizələr” məqaləsindən:

Rafiq Yusifoğlunun uşaq oyununun süjet xətti üzərində düzüb-qoşduğu “Bənövşə, bəndə düşə” şeirində folklor materialından bəhrələnmə müəllifin aydın və ahəngli üslubu ilə birləşərək maraqlı bir şəkildə ortaya çıxmışdır:

“-Bənövşə!
-Bəndə düşə!
-Bizdən sizə kim düşə? –
Gülə-gülə söylədi
Dəstəbaşımız Rövşən:
-Adı gözəl, özü gözəl
Bənövşə.
Yaman şeymiş bu şeytan,
Bəndə düşmək bir yana,
Bəndi qırdı, qopardı.
Üstəlik Nərgizi də
Dəstəmizdən apardı…”

Müəllifin:

“Gözləyirəm yolunu,
Günüm, çıx, ay günüm, çıx!
Görüm sənsiz olmasın
Mənim bircə günüm, çıx!
Üstümüzə nur ələ,
Ömrümüzü nur elə.
Hava kimi gərəkdir
Nur obaya, nur elə!”

– şeiri də xalq yaradıcılığından yararlanma ilə yazılmışdır. Folklordan gəlmə motiv və təhkiyyənin müşahidə olunduğu bu şeirdə ölçü və ahəng elə qurulmuşdur ki, kiçik yaşlı uşaqlar onu çox rahatlıqla qavraya və yadda saxlaya bilirlər.

**Aynur Xəlilova**

*“Azərbaycan” jurnalı,2015, №8, s.179-180.*

## POETİK SÖZÜN GÜCÜ

Rafiq Yusifoğlu yaradıcılığı haqqında düşünərkən istər-istəməz yada ilk növbədə poetik söz düşür. Ona görə ki, çağdaş poeziyamızın bu görkəmli nümayəndəsinin yaradıcılığı poetik sözsüz təsəvvürə gəlmir. Mövzuya özünəməxsus tərzdə yanaşma, onu bədii sənətkarlıqla əks etdirmə və mənalandırma ustalığı Rafiq Yusifoğlunun bədii üslubunun ən aparıcı cəhəti hesab oluna bilər. Özü də bu cəhəti təkcə onun böyüklər üçün yazdığı əsərlərə yox, həm də uşaq şeirlərinə də aid edə bilərik.

Elə bu günlərdə şairin işıq üzü görən **"Bulud fayton"** *(Bakı, ADPU nəşriyyatı, 2017)* kitabının adı belə poetikdir. O dəqiqə düşünürsən ki, nədir görəsən bu bulud fayton? Cəmi ikicə bənddən ibarət bu şeiri oxuyan kimi adama hər şey aydın olur:

İldırım şaqqıldayır,
Tez eləyək yır-yığış!
Minib bulud faytona
Kəndə tələsir yağış…

Çöllər, çəmənlər düşüb
İslanmaq həvəsinə,
Gurultular bənzəyir
Təkərlərin səsinə…

Göründüyü kimi, burada təbiət hadisəsi maraqlı bir tərzdə obrazlaşdırılmışdır. Gözəl bir yamacda əyləşib ətrafı seyr edən uşağın gözü birdən uzaqdan kəndə sarı yaxınlaşan bir topa buluda sataşır. Küləyin axını ilə dəyişən bulud uşağa fayton kimi görünür və ona elə gəlir ki, yağış bulud faytona minib kəndə tələsir. Göy gurultusunun təkərlərin səsinə bənzədilməsi də maraqlı detaldır.

Rafiq Yusifoğlunun nəinki şeirləri, hətta onların adları belə poetik səciyyəlidir. "Mavi yorğan", "Şəhərə köçən çəmən", "Şirin torpaq", "Yazın bayrağı", "Rəssam külək", "Dərzi payız", "Təpədə əyləşən qış", "Ballı maşın" və s. bu kimi adlar adamda

şeiri oxumaq həvəsi oyadır. Sən demə mavi yorğan deyəndə dəniz nəzərdə tutulurmuş. Balıqlar bu yorğanı üstlərinə çəkib rahatca mürgüləyirlər. Kənd yamaclarından, çəmənlərindən kəsilərək şəhərə gətirilən çimin yan-yana düzülərək parklarımızı, xiyabanlarımızı bəzəməsi hamıya məlumdur. Bu hadisənin "çəmənin şəhərə köçməsi" kimi səciyyələndirilməsi maraqlıdır. Sən demə şirin meyvələr yetişdirdiyinə görə torpaq şirin hesab edilirmiş.

Böüyrtkən kollarıyla
Doludur yamac, dərə…
Biz söhbət eləyirdik
Böyürtkən dərə-dərə.

Böyürtkənlər qapqara,
Böyürtkənlər şipşirin.
Birdən belə söylədi
Bizim balaca Şirin:

– Yəqin ki, şipşirindi
Bu yerlərin torpağı.
Yoxsa bu böyürtkənlər
Dadlı olmazdı axı?!

Göründüyü kimi, bu şeirin lirik qəhrəmanı olan uşağın məntiqinin, düşüncə tərzinin özündə belə bir şirinlik vardır.

Sən demə "yazın bayrağı" deyəndə tüstü nəzərdə tutulurmuş. Qarlı, çovğunlu bir havanın bədii sözlə təsvirindən sonra şair diqqəti kənd evlərinin bacalarından çıxan tüstüyə yönəldir.

Nə qara, nə də çovğuna
Təslim olmur adamlar.
Hərəsinin ürəyində
İlk baharın odu var…

Onlar ocaq qalayanda
Qışı tutar sancılar.

Tüstü yazın bayrağı tək
Bacalara sancılar…

Bu, marqlı bir qış mənzərəsidir. Dənizi sehrli fırçasıyla hərəkətə gətirən, dalğa yaradan küləyin rəssama, təbiəti, meşələri, bağları al-əlvan yarpaqlarla bəzəyən payızın dərziyə bənzədilməsi də oxucuda xoş ovqat oyadır. Özü də ən yaxşı cəhət bundan ibarətdir ki, bu fikirlər söylənilməmişdən əvvəl təsvirlər vasitəsilə onlara bir növ poetik zəmin hazırlanır.

Rafiq Yusifoğlu demək olar ki, şeirlərinin əksəriyyətində həyat həqiqətlərini çox böyük ustalıqla bədii həqiqətə çevirməyi bacarır. Məsələn, təzə qar yağanda təpələrin başının ağarmasını təsvir edən şair onu belə mənalandırır: “Qış təpədə əyləşib düzənləri seyr edir”…

Rafiq Yusifoğlunun yaratdığı poetik biçimli təbiət mənzərələri, peyzajlar öz cazibədarlığı ilə diqqəti cəlb edir. Özü də bu mənzərələr neytral fon təsiri bağışlamır, balacaların daxili dünyasını açmağa yardımçı olur. Məsələn, “Qış gəlib ad günümə” şeirində balaca Saranın ad günündə aramsız yağan qarın yolları bağlamasından və buna görə də nənəsi ilə babasının onu təbrik eləməyə gələ bilməməsindən söhbət açılır. Öz-özünə deyinən qızın dediyi sözlər həm oxucunun üzündə təbəssüm yaradır, həm də uşağın daxili dünyasını açmaq vasitəsinə çevrilir:

Gələn kimi göstərdi
Kiçik çillə özünü.
Adam qardan, çovğundan
Aça bilmir gözünü.

Yollar tamam bağlanıb,
Bir bax mənim günümə.
Nənəm-babam gəlməyib,
Qış gəlib ad günümə…

Ümumiyyətlə, Rafiq Yusifoğlunun poeziyasında son dərəcə maraqlı, yadda qalan uşaq obrazları yaradılmış, onların daxili dünyası orijinal bədii detallarla açılmışdır. Bu baxımdan şairin “Kaş”, “Bitdilicə”, “Səni çox istəyirəm”, “Əriyən şokolad”, “Məktəbsiz adam”, “Dondurma”, “Savadlı xoruz”, “Dilim çox balacadı”, “Xırnik”, “Mətbəxçi”, “Babamın ovcu”, “Alma və armud” və s. şeirləri maraq doğurur.

Müəllifin bütün təbiət hadisələrinə uşaq gözü ilə baxıb onları mənalandırmağı bacarması həm onun təbiəti, həm də uşaq psixologiyasını gözəl bilməsi ilə birbaşa əlaqəlidir. Şairin müşahidə qabiliyyəti çox güclüdür. Əsərlərini oxuyanda aydınca görünür ki, şeirlərinin hamısı məhz bu müşahidə nəticəsində araya-ərsəyə gəlmişdir.

Folkloru – xalq yaradıcılığını, Azərbaycan dilinin incəliklərini, sözün məna çalarlarını gözəl bilməsi Rafiq Yusifoğlunun uşaq şeirlərinin koloritini qat-qat artıran bir vasitəyə çevrilir.

Ancaq bir məsələni də xüsusi vurğulamaq lazımdır ki, XXI əsrin uşaq şeiri təkcə milli zəmində qapanıb qalmamalı, dünya ədəbiyyatının ədəbi təcrübələrini də nəzərə almalıdır. Bu baxımdan yanaşdıqda da Rafiq Yusifoğlu uşaq ədəbiyyatımızı yeni mövzularla zənginləşdirən sənətkarlarımızdandır. Bir tərəfdən baxanda bunun özü də bir növ tale, tərcümeyi-hal məsələsidir. Övladları dünyanın ən qüdrətli bir ölkəsində – Amerika Birləşmiş Ştatlarında yaşayan, təhsil alan Rafiq müəllimin tez-tez dogmalarını ziyarət etməsi, nəvələrinin təhsil aldıqları məktəblərə, oradakı uşaq kitabxanalarına getməsi, Amerikanın təhsil sistemi, ədəbiyyatı ilə maraqlanması istər-istəməz onun yaradıcılığının da yeni mövzularla zənginləşməsinə zəmin yaratmışdır.

Kitabın “Gəzdim düzü-dünyanı, Yurdumdan gözəl hanı” adlı bölməsində şairin Amerikada qələmə aldığı uşaq şeirləri toplanmışdır. Ən yaxşı, aparıcı cəhət ondan ibarətdir ki, şair dünyanın bu gözəl ölkəsinin təbiətinə, adət-ənənələrinə Azərbaycan uşağının gözü ilə baxmağı bacarır. Bu baxımdan “Sakit okean, dinc dur”, “Sakit okean”, “Sular səltənəti”, “Venis”, “Okeandan

əsən meh", "Qır muzeyində", "Hollivud bulvarında", "Botanika bağında" və s. bu kimi şeirlər səciyyəvidir. Lakin ən əsas məsələ bu yad ölkədə yaşayan uşaqların Azərbaycana olan sevgisinin təsviri ilə birbaşa əlaqəlidir. "Fatehlə söhbət" şeirində skaypla babası ilə danışan uşağın daxili dünyasının bədii əksi ön planda dayanır. Babasına Amerika haqqında söhbət açan, onu bu ölkəyə dəvət edən nəvə deyir ki, baba, bura nağıllar dünyasıdı, sən də nağıl sevənsən. Gəl burdakı nağılları yığ apar. Baba ilə nəvənin söhbəti bu misralarla bitir:

– Adiləşən ömrümü,
Fateh, gülzara döndər.
Orda nağıl çoxdusa,
Bir az yaz mənə göndər!

– Vətəni düşünəndə
Qəribliyimiz itir.
Pəncərəmin önündə
Hər gecə nağıl bitir.

Ay baba, gəl, nə olar,
Gəl bizi gör gözünlə!
Burdakı nağılları
Yığıb apar özünlə…

"Nə yaxşı ki, skayp var", "Fatehin gülüşü", "Fatimə qar istəyir", "Kitab oxuyan nəvəm", "Kitabdan tikilən ev", "Ay baba, xoş gəlmisiz", "Fatehin hədiyyəsi", "Ən yaxşı oxucu", "Ura, dərslər başladı" şeirlərinin balaca qəhrəmanları olan Fatehlə Fatimə bir gün də olsun Azərbaycanı unutmur, daim vətən haqqında düşünürlər. Bu şeirlərdə oxumaq, öyrənmək, gör-götür dünyasından maksimum dərəcədə bəhrələnmək, vətənin adına layiq oğullar və qızlar kimi böyümək ideyası ön plandadır.

"Ən yaxşı oxucu" şeirinin balaca qəhrəmanı Fatimə real insandır. Venis kitabxanasının təsis etdiyi "ən yaxşı oxucu"

müsabiqəsinin qalibi olan bu azərbaycanlı qıza bahalı oyuncaq hədiyyə edilir. Uşaq çox sevinir, qürurlanır. Onun keçirdiyi hisslər şeirdə öz gözəl bədii əksini tapmışdır:

Xeyli kitab oxudum,
Yarışma çox uzandı.
Şükür, “yaxşı oxucu”
Adını mən qazandım!

Belə gözəl hədiyyə
Ala bilmir hər uşaq! –
Kitabxanada mənə
Verdilər bir oyuncaq.

Qəflətən söz verdilər,
Bilmədim heç nə deyəm.
Oxuduğum kitabdır
Mənim əsas hədiyyəm!

Rafiq Yusifoğlunun “Bulud fayton” kitabındakı mövzular çox rəngarəngdir. Ən əsas, diqqət çəkən bir məqam ondan ibarətdir ki, burada vətənpərvərlik mövzusunda əsərlər üstünlük təşkil edir. “Vətənim” şeiri, fikrimizcə, bu mövzuda yazılan ən gözəl əsərlərdən biridir.

Mənə dayaq, mənə həyan olanım,
Pərvanə tək qoy başına dolanım!
İşıq olub gözlərimə dolanım,
Çiçək olub ürəyimdə bitənim! –
Vətənim!

Gülüm solsa, yağış olub yağanım,
Kürə dönüb damarımda axanım,
Hara getsəm, yollarıma baxanım,
Dara düşsəm, köməyimə yetənim,
Vətənim!

Dağlarına baxıb gəlir həvəsim,
Xəzərindən əsən külək – nəfəsim.
Bu dünyada  söylə varmı əvəzin? –
Qurban sənə ruhüm, canım, bədənim,
Vətənim!

Ən önəmli cəhətlərdən biri şeirin uşaqların anlaq səviyyəsinə uyğunluğu, sadəliyi, obrazlılığı və lakonizmi ilə əlaqəlidir.

"Lələtəpə" şeiri təkcə mövzusunun aktuallığı ilə deyil, həm də oradakı bədii sözün təsir gücü ilə birbaşa bağlıdır. Şeirdə aprel döyüşlərinin iştirakçılarının qəhrəmanlığı vəsf olunur. Müasir uşaq ədəbiyyatımızda bu tipli şeirlərə tələbat çox böyükdür.

Kitabda bölmələrin adı belə poetikdir və bu başlıqlar altında toplanan şeirlərin ideya-məzmunu haqqında ilkin məlumat verir: "İşıq, su, torpaq, hava, Bütün dərdlərə dəva", "Ömrün baharı, yayı, Tanrının sevgi payı", "Payıza bax, qışa bax, Qara bax, yağışa bax", "Gəzdim düzü-dünyanı, Yurdumdan gözəl hanı", "Xoşbəxtdi, bəxtəvərdi, Dünya deyil özündə, O, ayrı bir aləmdi uşaqların gözündə", "Çəmən çiçəyi ilə, insan əməyi ilə", "Ağacın kökü torpaqda, insanın kökü eldədi" və s.

Kitabdakı hər bir kiçik parça haqqında belə söz açmaq, onun məziyyətlərini, sənətkarlıq xüsusiyyətlərin şərh etmək olar. Ona görə ki, yüksək ideya-məzmunlu, poetik tutumlu bu şeirlər bədii təhlilə zəngin material verir. Lakin bir məqalədə bunların hamısından söhbət açmaq mümkün deyildir. Fikrimizcə, "Bulud fayton" kitabı təkcə Rafiq Yusifoğlunun deyil, müasir Azərbaycan uşaq ədəbiyyatının uğuru, nailiyyətidir. Ümid edirik ki, bu şeirlərin böyük bir qismi dərsliklərə salınacaq, balalarımızın dilinin əzbərinə çevriləcək, onların poetik zövqünün formalaşmasında mühüm rol oynayacaqdır.

**Məmməd ƏLIYEV**
**filologiya elmləri doktoru, professor**

*"Bütöv Azərbaycan", 23 fevral 2017*

## PROFESSORUN “BULUD FAYTON”U

**Dalğalan, dəniz adam!**
**Uşaq tək təmiz adam!**
**Elimin hər evində**
**Nəğməsi əziz adam...**

Bir vaxtlar onun söz dünyasının, şeir sarayının qapısını döyən ilklərdən oldum. O saraya daxil olub nə gözəlliklər, nə ağrılar, nə duyğular ilə rastlaşdımsa, kitab şəklində paylaşmağa fürsət və qismətim oldu. Onun sayca 71-ci (!) kitabı olan yeni “Bulud fayton” kitabı haqqında da söz demək şərəfinə nail olduğum üçün ikinci kərə xoşbəxtəm...

Hər şair bir dünyadır, ayrı bir planetdir sanki. Söz Günəşinin ətrafında dövr edən səyyarə - şairlər. Onun planeti isə başdan - başa möcüzələr aləmidir. Bu planetin sakinləri hər yaşda olsalar da, ətrafa yalnız sevgi ilə baxırlar, həyat eşqi sərgiləyirlər, xoşbəxtdirlər hər halları ilə...

Bu sakinlərin çoxu uşaqlardır: Saralar, Aydanlar, Bitdilicələr, Fatehlər, Fatimələr... Onlar xilaskardırlar əslində. Bilirsinizmi nəyi xilas edirlər ? - İnsan mənəviyyatını! Bu şeirləri oxuyan insan bitib-tükənməyən ehtiyaclarının dalınca qaçarkən ayaq saxlayır, özünə, keçmişinə, indisinə dönür, dayanıb başını qaldırıb Günəşə, Aya,ulduzlara bir də gülümsəyərək tamaşa edir, hər gün keçdiyi küçənin, yanından ötdüyü çiçəklərin, ağacların, uçuşan quşların, hətta cansız əşyaların da canlı olduğunu düşünməyə başlayır. Bu xilaskar uşaqlar bizi inandırırlar ki, torpaq ağacın ayaqqabılarıdır, traktor döşlük taxır, küçələr gecə işıqlı olanda yatıb dincələ bilmir, saat yatmır, yağış istirahət günü dincəlmir, qar her yeri bəyənmir, qarışqa çərpələngdə uçur, kələmin bəyaz çuxası var, kök hirsindən saralır, hovuzun suyu şappıltısı ilə sanki əl calır və neçə-neçə reallıqların heyrətli qavrayışı... Bu möcüzəli planetin adı isə hər bir azərbaycanlının

öyrəndiyi ilk beş şeirdən birinin müəllifi olan Rafiq Yusifoglunun adı ilə bağlıdır.

Üzümü söykəyərək
Onun parlaq üzünə,
Qulaq asa biləydim
Söhbətinə, sözünə.

Şirin-şəkər kəlmələr
Növbəyə düzüləydi.
Nağıllar ay nuru tək
Üstümə süzüləydi.

Ulduzlar bənzəyirlər
Şəfəq saçan noğula.
Kaş mənim həyatım da
Bənzəyəydi nağıla!

Baxmaqla doymaq olmaz
Bizim gözəl dünyaya.
Kaş bir nərdivan qoyub,
Qalxa biləydim Aya!

"Zirvədə olanlar müzakirə olunmazlar" reallığına əsasən, bizə də bu kitabdan aldığımız mütaliə həzzini paylaşmaq qalır.

Şərti olaraq 8 hissədən ibarət olan kitabda yer alan şeirlərin əslində hər biri yaşı fərq etmədən oxucunu özünə, vəzifəsinə, ailə üzvlərinə hörmətlə yanaşmağı, təbiətə, elə nəticədə Vətənə bağlılıq aşılayır, vətəndaşlıq borcunu yada salır.

"Bulud fayton" dakı "şeir sərnişinləri" təxminən aşağıdakı xüsusiyyətlərə görə qruplaşdırmaq da olar:

1. Maarifləndirici şeirlər
2. Elmi biliklər ehtiva edən şeirlər
3. Təbiət lirikası
4. Məzəli şeirlər

Şərti olaraq ayırdığımız ilk qrupdakı şeirlərin qəhramanları ətrafda gördükləri naqisliklərə, cəmiyyətdəki qüsurlara laqeyd qalmır, öz münasibətlərini bildirilər.

“Parthapart aşiqləri”, “Piyada keçidi”, “Amandı, qoyma gəldi”, “Tum çırtlayan qız” kimi şeirlər bu qəbildəndir. Onlarda ətrafdakı insanları hərəkətləri ilə narahat etməkdən çəkinməyən, öz mənafelərini xalqın maariflənməsindən üstün tutan vəzifə sahibləri, ictimai - ekoloji etikanı pozanlar tənqid hədəfidir. Bu tənqidin nəticəsində oxucu da maariflənmiş olur.

Sehrli bir körpüdür
Bu piyada keçidi.
Kim keçiddən keçmirsə,
Adam deyil, keçidi...

Və ya

Külək çatıb şəhərə,
Dönüm onun gözünə!
Yerə zibil atanın
Zibil çırpır üzünə...

Digər bir qismdəki şeirlər isə oxucuya elmi məlumatların bədii dildə ifadəsi şəklində təqdim olunmuşdur. Dahi Nizami Gəncəvidə sevdiyim bu cəhətə həmin şeirlərdə də rast gəlmək olar. Fikrimizcə, auditoriyası xüsusən uşaq və yeniyetmə olacaq bütün bədii əsərlər poetik zövqü, mənəvi-milli dəyərlərimizi formalaşdırmaqla yanaşı, yeni elmi informasiya da təqdim edirsə, məqsədəuyğun olar.

“Saksaul”, “Hava” , “Xəzri, əs”, “Rəssam külək”, “Çoban külək”, “Qır muzeyi”, “Dərzi payız” , “Bulud ələklər” kimi şeirlərdə oxucular bitkilər, otlar, hava, təbiət ilə bağlı yeni biliklər əldə edirlər.

Hava çatışmayan yerdə
Ocaq da qalamaq olmaz.
Hava, su olan bağçada
Heç zaman gül-çiçək solmaz.

Özüylə həyat gətirir
Elə ki sərin meh əsdi.
Hava saçımızda sığal,
Ciyərimizdə nəfəsdi…

Və ya “Nə üçün Xəzri soyuq, Gilavar isti olur?” sualına uşaq belə cavab verir:

– Yel əsəndə elə bil
Həyat gəlir, can gəlir.
Gilavar isti yerdən,
Xəzri Şimaldan gəlir!

Bu misralarda isə şüşənin işıq keçirə bilməsi obrazlı dildə verilir:

Yaxsi ki, insaflıdı,
Qəlbi kövrəkdi şüşə.
Çiçəkləri öpəndə
Mane olmur günəşə.

Bu kimi digər şeirlərdə palıd, vələs, göyrüş- vən, yemişan və s. bitkilər barədə, dilimizdəki - xırnava, çim, çaşır, xırnik, qoç, toğlu, şişək, otuxmaq, xıxlamaq və s. cözlərin leksik - semantik tərəfi ilə tanış olur.

“Gəzdim düzü - dünyanı, Yurdumdan gözəl hanı” bašlıqlı hissənin şeirləri bizi dünya səyahətinə çixarır: oxucu Sakit okeanın üzərindən kecib Venis cimərliyinə enir, Dineprdən keçib Ukrayna ilə, Sokirno ilə tanış olur, Böyük Səhradan isti qumun hərarətini duyaraq Dubay mənzərələrini seyr edir.

Narın qumlar üst-üstə
Qalaqlanıb, tığlanıb.
Elə bil, bu səhrada
Milyon dəvə xıxlanıb...

Amerikadakı həmvətənlərimizin vətən sevgisini, həsrətini hiss edib, bədii ustalıqla əks etdirəndən sonra Bərgüşada, Bəsitçaya tərəf qayıdır yenə...

Təbiət lirikası nümunələrində isə Azərbaycan təbiətini seyrə çıxırıq sanki. Bu şeirlərin qəhramanı hiss və düşuncələrini elə təbii anladır ki, özünü onun yerində hiss edirsən.

“Dənizə yağış yağır” şeirindəki bu misralara fikir verin:

Bumbuz damlalar sanki
Hey məni çimdiklədi.
Elə bil, bir dəstə quş
Belimi dimdiklədi.

Yağış yağdı sahilə,
Yağış yağdı Xəzərə.
Qəlbimi ovsunladı
Bu qəribə mənzərə…

Güc alıb  mənə baxan
Təbəssümlü baxışdan,
Qaçıb girdim dənizə
Qorunmaqçın yağışdan…

Məzəli şeirlər  isə üzümüzdə təbəssüm yaradır: "Dilim çox balacadı" , "Babaya demə", "Savadlı xoruz", "Yarpağın yolu" , "Dibcəkdə bitən əllər", "Ağ saçın yolu", "Araba", "İşığın yolu", "Ay oğlan, adın nədir?"  və i.a.

Sara deyir:
–Ay baba,
Batma kədərə, qəmə,
Səni çox istəyirəm,
Bunu heç kimə demə!

Qollarını geniş aç,
Qaçıb gəlim qucuna.
Ancaq nənədən xəlvət
Konfet qoy ha ovcuma!

Bənzətmə, orijinal qafiyə, bədii söz ustası Rafiq Yusifoğlunun  yenə də təxəyyül zənginliyi ilə qarşılaşırıq. Məsələn, günəş gah əbədi sönməz ocağa, gah sarı çiçəyə, gah karuselə, gah acgöz xoruza, gah da ətrafında planet – pərvanələr uçuşan işığa, sabun cirki təmizləyən pozana bənzədilir...

Buludlar - göyün qaşları, küləyin əlində qar, yağış ələyi, fayton kimi, ulduzlar noğul tək, səmadakı aypara isə qayıq kimi görünür onun qəhrəmanlarının gözünə.

Cinaslı qafiyələr, novellavari sonluqlarla seçilən Rafiq Yusifoğlu şeirinin özünəməxsusluğunu "Bulud fayton"da da müşahidə edirik. Onun şeirlərinin dadı var elə bil…

Fateh alma gəmirir,
Gözləri armuddadı. –
Almanın alma dadı,
Armudun armud dadı!

Bu "Bulud fayton"un hər bir sərnişin şeirləri barədə elə "bir fayton kitab yazmaq olar" - desəm, yanılmaram. Çünki bu qənaəti şeirlərin bədii dili, qafiyə sistemindən əlavə, müasir azərbaycanlı uşağının psixologiyası, öz dünyasından cəmiyyətə baxışı prizmasından yaranan çoxspektrli ideyaları yaradır.

Uşaq ədəbiyyatı sahəsində hər zaman yeni, təravətli nümunələrə ehtiyac var, çũnki dünyaya qədəm qoyan hər körpənin ilk dəfə ona oxunacaq gözəl, aydın, sevimli bir dildə dinləyəcəyi nəğməyə ehtiyacı var. Hər uşaq özü bir şeirdir, nəğmədir, heyrətdir, şükürdür, sevgidir. Bu kitabla Rafiq Yusifoğlu Azərbaycan ədəbiyyatına elə bir fayton şeir, heyrət, şükür, sevgi bəxş etmiş oldu. Bütün analar, atalar, nəvələr adından Rafiq babaya, zər kimi söz qədrini bilən zərgər oxucular və ədəbiyyatsevərlər adından şair, professor Rafiq Yusifoğluya dərin təşəkkürümü bildirirəm! Onun özünün dediyi kimi:

Xoşbəxtdi, bəxtəvərdi
Dünya deyil özündə.
O, ayrı bir aləmdi
Uşaqların gözündə…

**Aygun Cəfərova**

*"Sözün sehri", 1-28 fevral 2017*

# UŞAQ ƏDƏBİYYATIMIZIN YENİ UĞURU

Azərbaycan uşaq ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan qələm sahiblərindən biri də tanınmış şair, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğludur. Bütün həyatını yeni tipli uşaq ədəbiyyatının yaranmasına, tədqiqinə, təbliğinə həsr edən Rafiq müəllimin yaradıcılığı çoxşaxəlidir. Onun poeziya, ədəbiyyatşünaslıq, tərcüməçilik sahəsində uğurları böyükdür. Yeni tipli dərsliklərin yaranmasında da Rafiq Yusifoğlunun xidmətləri danılmazdır. Onun ali məktəb tələbələri üçün yazdığı "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Uşaq ədəbiyyatı", "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri", "Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri" adlı sanballı dərslik və tədris vəsaitləri mütəxəssislər tərəfindən yüksək dəyərləndirilmişdir. Rafiq Yusifoğlu eyni zamanda yeni təhsil sisteminin tələbləri əsasında yaradılan ilk "Ana dili" dərsliklərindən birinin də əsas müəliflərindəndir *("Ana dili – 1", Bakı, 2008).*

Rafiq Yusifoğlunun uşaq ədəbiyyatı sahəsində uğurları daha böyükdür. Qırx beş ildən yuxarı pedaqoji staja malik Rafiq müəllim uşaq psixologiyasını yaxşı bildiyi üçün onun yaratdığı şeirləri və hekayələri uşaqlar maraqla oxuyurlar. Uzun illərdən bəridir ki, orta məktəb dərsliklərində Rafiq müəllimin bir-birindən maraqlı şeirləri özünə möhkəm yer tutmuşdur. İndi ölkəmizdə Rafiq Yusifoğlunun "Üçrəngli bayraq" şeirini əzbər bilməyən uşaq yoxdur.

Rafiq Yusifoğlunun bu il nəşr olunmuş **"Bulud fayton"** *(ADPU, 2017)* kitabına müəllifin son illərdə yazdığı bir-birindən maraqlı, vətənpərvərlik ruhu ilə yoğrulan əsərləri toplanıb. Bu şeirlərdə vətənimiz, onun son illlərdə çiçəklənməsi, qazandığı uğurlar, təbiətimizin gözəlliyi məhəbbətlə tərənnüm olunur. Uşaqların qəlbində doğulduğu torpağa məhəbbət yaratmaq baxımından həmin şeirlər xüsusi əhəmiyyət kəsb edir.

Mənə dayaq, mənə həyan olanım,
Pərvanə tək qoy başına dolanım!
İşıq olub gözlərimə dolanım,
Çiçək olub ürəyimdə bitənim! –
Vətənim!

Kitabdakı bir-birindən maraqlı, düşündürücü və öyrədici səciyyəli şeirlər ayrı-ayrı bölmələrdə toplanıb. "İşıq, su, torpaq, hava, Bütün dərdlərə dəva" adlı bölmədəki şeirlərdə vətənpərvərlik motivləri güclüdür. Şair balaca oxucularını vətəni sevməyə, onun təbiətini qorumağa səsləyir.

"Lələtəpə" şeirində torpaqlarımızın azad edilməsi uğrunda qəhrəmanlıqla döyüşən igid oğullarımızın şücaətindən söhbət açılır:

Bu təpə bəxtəvərdi,
Bayraq boyu ucalıb.
İgid oğullarımız
Bu bayraqdan güc alıb.

Gendən baxan yağını
Yandır indi, yax indi.
Bu təpədən baxanda
Qələbə çox yaxındı…

Kitabın "Küləyin nəğmələri", "Bahara bax, qışa bax, qara bax, yağışa bax" bölmələrində şairin poetik tutumlu təbiət şeirləri toplanıb. Ən yaxşı cəhət bundan ibarətdir ki, burada da öyrədici səciyyəli əsərlər üstünlük təşkil edir. Uşaq ədəbiyyatının məqsəd və vəzifələrini gözəl bilən müəllif təbiət hadisələri haqqında uşaqlara bədii şəkildə məlumat verir. Bu şeirlərdəki külək də, ot da, çiçək də, ağac da, bulud da bədii obraz səviyyəsinə qaldırılır.

"Gəzdim düzü, dünyanı, yurdumdan gözəl hanı" bölməsində şairin səyahət şeirləri toplanıb. Rafiq Yusifoğlu oxucuları dünyanın maraqlı ölkələrinə – Amerikaya, Dubaya, Ukraynaya səyahətə aparır. Bu şeirlərin balaca qəhrəmanları isə müvəqqəti xaricdə yaşayan, vətən üçün darıxan Azərbaycan övladlarıdır.

Balaca qəhrəmanlardan birinin babasına yazdığı məktub çox mənalıdır:

– Vətəni düşünəndə
Qəribliyimiz itir.
Pəncərəmin önündə
Hər gecə nağıl bitir.

Ay baba, gəl, nə olar,
Gəl bizi gör gözünlə!
Burdakı nağılları
Yığıb apar özünlə…

“Ömrün baharı, yayı, Tanrının sevgi payı” adlanan bölmədəki şeirlərdə maraqlı uşaq obrazları yaradılıb. Bu bölmədə toplanan şeirlərdə uşaqlar məzəli, qeyri adi hərəkətləri ilə diqqəti cəlb edirlər.

“Xoşbəxtdi, bəxtəvərdi,
Dünya deyil özündə.
O ayrı bir aləmdi
Uşaqların gözündə”…

adlı bölmədə şairin dünyaya uşaq gözü ilə nəzər salıb onu mənalandırması maraqlıdır.

“Çəmən çiçəyi ilə, insan əməyi ilə” adlı bölmədəki şeirlərin əsas ideyası isə uşaqları zəhmətə məhəbbət ruhunda tərbiyə etməkdən ibarətdir. “Bizim dağlar”, “Yaşıl körpü”, “Yarpağın yolu”, “Ot biçini” və s. şeirlər bu baxımdan səciyyəvidir.

Sonuncu bölmə “Ağacın kökü torpaqda, insanın kökü eldədi” adlanır. Buradakı şeirlərdə uşağa təkcə vətənin təbiətini deyil, xalqımızın adət-ənənələrini, onun dilini də sevdirmək missiyası qarşıya qoyulur. Mövzusundan asılı olmayaraq bütün şeirlərin uşaq təfəkkürünə uyğunluğu və bədiiliyi onların təsir gücünü qat-qat artıran vasitəyə çevrilir. Üzünü kiçik qəhrəmanlarına tutan müəllif yazır:

Unutma ki, heç zaman
Bu torpağa bağlısan.
Azərbaycan qızısan,
Azərbaycan oğlusan!

Bir-birindən maraqlı, istər mövzu və problematika, istərsə də bədii sənətkarlıq baxımından diqqəti cəlb edən, nəfis tərtibatlı bu kitabdan təkcə uşaqlar deyil, müəllimlər, tərbiyəçilər, valideynlər də faydalana bilərlər. “Bulud fayton” müasir uşaq ədəbiyyatımıza müəllifin gözəl töhfəsidir.

**Günel Hüseynova**
**AMEA Folklor İnstitutunun doktorantı**
*“Azərbaycan müəllimi”, 18 mart 2017-ci il.*

## “BULUD FAYTON”

Bu gün söz məkanında, ədəbi camiyədə çözülən, danışılan mövzulardan biri də uşaq ədəbiyyatı ilə bağlıdır. Səsləndirilən fikirlər arasında daha çox qabardılan uşaqlarla bağlı, ümumiyyətlə böyüyən nəsillə əlaqəsi olan və onlara birbaşa nüfuz edə biləcək kitabların, nəşr nümunələrinin azlığı, hətta bəzən olmamasıdır. Təbii ki, səsləndirilən fikirlərdə hər kəsin öz arqumenti var. Amma bir məqam da var ki, onu görmək, onu arayıb-axtarmaq lazımdır. Təəssüf ki, bu gün Ayərbaycan ədəbiyyatşünasları, tənqidçiləri, eləcə də ədəbiyyatla bağlı olan bir zümrə nədənsə ya özünü kənara çəkir, ya da əziyyətə qatlaşmaq istəmir. Əgər onlar həqiqətən uşaq ədəbiyyatının durumu ilə ciddi şəkildə məşğul olsaydılar və yaxud bu sahəyə qan-tərə batmaqla müdaxilə etsəydilər, onda görərdilər ki, uşaq ədəbiyyatımız var və yaranmaqda da davam edir. Elə təkcə professor, ədəbiyyatşünas, şair Rafiq Yusifoğlunun yaradıcılığına üz tutsaq, onda görərəik ki, Rafiq müəllim həm redaktoru olduğu “Göyərçin” jurnalında, həm də özünün fərdi yaradıcılığında

uşaqlara xüsusi yer ayırır. Onun demək olar ki, yaradıcılığının böyük hissəsini uşaqlara yazdığı şeirlər, poemalar təşkil edir.

Bu günlərdə Rafiq Yusifoğlu öz ənənəsinə sadiq qalaraq övladlarımız, nəvələrimiz üçün özünün "Bulud faytonu"nu çap etdirib. Çox nəfis bir şəkildə tərtib edilmiş və mövzuların bölmələrinə uyğun rəngli şəkillərlə oxucu qarşısına çıxarılmış bu kitab həqiqətən də həm oxumalı, həm də hədiyyə etməli kitabdı. Mən kitabı vərəqlədikcə Rafiq Yusifoğlunun uşaq dünyasına nə qədər yaxından bələd olduğunu gördüm və anladım. Birmənalı şəkildə duydum ki, Rafiq Yusifoğlunun uşaqlarla bağlı dünyası çox rəngarəng və zəngindir. Onun şeirlərinə diqqət yetirəndə lokonik, yığcam, hətta uşaqların özlərinin danışdığı dildə ifadə etdiyi mənalara heyran qalmamaq mümkün deyil.

Məsələn:

Unutma ki, heç zaman
Bu torpağa bağlısan.
Azərbaycan qızısan,
Azərbaycan oğlusan!

Və yaxud:

Hər güldən çox sevirəm
Mən bu sarı çiçəyi...
O, günəşdi, şəfəqlər
Sarı-sarı ləçəyi...

Bu iki nümunəni istənilən uşağa oxumaq və onların çöhrələrindən, yozumundan mətləbi necə anladıqlarını aydınca görmək olar. Çünki günəşin rəngi də, Vətənin övladı olmaq da məlum bir həqiqət və sadə bir şəkildə ifadə edilmiş gerçəklikdir.

Rafiq Yusifoğlunun şeirlərindəki uşaq fantaziyası həm maraqlıdı, həm də təbiidi. Onun "Gün və ay" şeirində bir məqama diqqət yetirək.

Gecə gündüz hey axır,
Sanma bulaq, çay yatır.
Ay çıxanda Gün batır,
Gün çıxanda Ay batır...

Düşünürəm ki, burdakı söz oyunu yaxşı mənada uşaqların yaddaşına həkk olunmağı, necə deyərlər, reallaşdırır. Yəni uşaq bu misraları bir-iki dəfə təkrarlayandan sonra yaddaşına köçürə bilər. Eləcə də "Vələs" şeirində olduğu kimi:

Vələsə bax vələsə
İstəyir ki, yel əsə,
Küləyin sinəsində
Sehrli saza dönə...

Və yaxud:

Bir həftədi hey yağır,
Göydən leysan ələnir.
Bəs yağış bazar günü
İstirahət eləmir?

Bu şeir nümunələrinə diqqət yetirəndə, həqiqətən, uşaqların maraq dünyasının ustalıqla ifadə edildiyini görməmək mümkün deyil. Təbii ki, bu, bir məntiqin nəticəsidi. Axı böyüyən övladlarımız yaşlıların istirahət günləriylə bağlı səsləndirdikləri fikirləri müxtəlif məqamlarda eşidir, duyurlar və burdan da yağışın istirahət edib-etməməsi sualı ortaya çıxır. Onu da şair öyünəməxsus şəkildə poeziyaya gətirir.

Bu gün hər bir valideynin düşündüyü bir sual da var. O da cizgi filmləriylə, kompüterlə, televizorla uşaqların təmasıdı, onlardan gələn əks təsirlərdi. Bax, bu mövzunun özünü də şeirə gətirən, onun müsbət və mənfi tərəflərini şeir diliylə uşaqlara çatdıran Rafiq Yusifoğlu təkcə valideyn, şair kimi yox, həm də pedaqoq kimi də məsələyə yanaşır. Məsələn:

Güzgünün qabağında
Durur bizim Fatimə.
Özünə bəzək-düzək
Vurur bizim Fatimə.

Tellərini darıyıb,
Saçlarına bant taxır.
Qızın hay-həşirinə
Nənə maraqla baxır.

- Hara hazırlaşırsan
Mənim balam, de mənə?!
İndicə cizgi filmi
Başlanacaq, ay nənə!

Mən baxacam paltarı
Şəfəq saçan Qar qıza.
Qoy onlar görsünlər ki
Mən də təmizkar qızam!

Ümumiyyətlə, Rafiq Yusifoğlunun bu kitabındakı fəsillərin, bölmələrin adları da elə şeirlərin mahiyyətini uşaqlara çatdırmaq gücündədi. Məsələn: “İşıq, su, torpaq, hava, Bütün dərdlərə dəva”, “Küləyin nəğmələri”, “Ömrün baharı, yayı, Tanrının sevgi payı”, “Payıza bax, qışa bax, Qara bax, yağışa bax...” və digər başlıqlar təqdim olunmuş fotolarla birlikdə oxucunu artıq mövzuya hazırlayır, ona təqdimat edir, ipucu verir. Ona görə də istənilən bölümü açıb həmin ifadə olunan şəraitə, məkana, mövzuya daxil olmaq mümkündü. Məsələn, “Ağacın kökü torpaqda, İnsanın kökü eldədi...” bölümündə:

Dayanmıram yerimdə,
Hey axıram, axıram.
Ağacın kökləriylə
Budaqlara qalxıram.

Torpağın sinəsinə
Axıram hopa-hopa.
Ayağım dəyən yerdən
Gül qalxır topa-topa.

Və yaxud:

Çiçək
yığırdı çiçək,
Deyirdi
özü-özünə
Gül güldü,
çiçək çiçək.
Çiçəyin
bu sözünə
Gül güldü,
gözlərindən
Şeh axdı
çiçək çiçək...

Bəli, məhz bu cür şeirlərin ovqatında uşaqlarımızı böyütsək, onların uşaq dünyasını bəzəsək, inanıram ki, sabahımızdan arxayın ola bilərik! Və sonda Rafiq Yusifoğlunun bu kitabına uğur olsun deyirəm! Və hər birinizi "Bulud fayton"nu uşaqlarınız üçün əldə etməyə səsləyirəm.

**Əbülfət Mədətoğlu**

*"Ədalət" qəzeti, 17 fevral 2017*

## Rafiq Yusifoglunun "Nağıl qapısı" adlı şeirlər kitabı işıq üzü görüb

"Nağıl qapısı" adlı yeni uşaq şeirləri kitabının müəllifi professor, şair, yazıçı Rafiq Yusifoğludur.

Kitabdakı rəngarəng mövzulu şeirlər "Uşaq dünyası, işıq dünyası", "Tariximdən gələn səslər. Mənə dogma olan kəslər", "Şuşa nəğmələri", "Havam, suyum, torpağım. Otum, gülüm, yarpağım", "Fəsillər və nəsillər", "Sizdən hərəkət, bizdən

bərəkət”, “Qazaxstan nəğmələri”, “Sehrli aləm” bölmələri adı altında toplanıb.

Poemalar - nağıllar bölməsində “Qırxıncı qapı”, “Ağıl döyüşü”, “Gül və bulbul əfsanəsi”və s. əsərləri verilib. “Zaman qatarı” adlanan hissə isə əslində “kitab içində kitabdır”. Çünki onun ön və son sözü, dörd fəsli var. Zamanın sehrli qatarına qoşulan hər vaqon bir fəsli təmsil edir.

Qeyd edək ki, adı çəkilən kitab Azərbaycan Dövlət Pedoqoji Universitetinin nəşriyyatında çap olunub. Kitabın redaktoru Zahid Xəlildir.

**http://edebiyyatqazeti.az** 18.07.2018

## Tanınmış şair Rafiq Yusifoğlunun “NAĞIL QAPISI” adlı yeni kitabı çap olunub

Görkəmli şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu çoxşaxəli yaradıcılıga malik nüfuzlu bir qələm sahibidir. Onun poeziya, ədəbiyyatşünaslıq, publisistika, bədii tərcümə sahəsində uğurları danılmazdır və həmişə ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmış, əsərləri haqqında mətbuatda yetərincə xoş sözlər söylənilmişdir.

Rafiq Yusifoğlu yaradıcılıgının ən aparıcı qollarından biri də uşaq ədəbiyyatıdır. Onun uşaqlar üçün yazıb çap etdirdiyi “Yurdum-yuvam”, “Ətirli düymələr”, “Aylı cığır”, “Çiçək yağışı”, “Daha uşaq deyiləm”, “Qızılı məktublar”, “Sabahın sorağında”, “Bulud fayton”, “Böyük arzuya gedən yol”, “Günlərimiz, aylarımız”, “Söz çəməni”, “Ana dilim”, “Quşlar dünyası”, “Zamanın qatarı”, “Yollar” və sair adlı şeir, “Dəniz səviyyəsi”, “Bahar qatarı”, “Şirin yuva”, “Elm və Helm”, “Tapmacalar ölkəsi”, “Bitdilicə” və s. nəsr kitabları həm oxucular, həm də ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Müəllifin əsərləri uzun illərdən bəridir ki, dərsliklərimizi bəzəyir, Azərbaycan uşaqlarının dilinin əzbəridir. Onun yaradıcılıq nümunələri bir çox dillərə tərcümə edilmiş, şeirlərinə xeyli sayda mahnılar bəstələnmişdir.

Rafiq Yusifoğlunun yenicə çapdan çıxan "Nağıl qapısı" kitabı onun uşaq ədəbiyyatı cahəsində yeni uğuru kimi dəyərləndirilməlidir.

**Manevr.az** xəbər verir ki, müəllifin sayca 78-ci kitabı olan "Nağıl qapısı" ADPU nəşriyyarında çap olunub. Redaktoru Zahid Xəlildir. Kitabdakı rəngarəng mövzulu şeirlər "Uşaq dünyası - işıq dünyası", "Tariximdən gələn səslər, Mənə doğma olan kəslər", "Şuşa nəğmələri", "Havam, suyum, torpağım, Otum, gülüm, yarpağım", "Fəsillər və nəsillər", "Sizdən hərəkət, Bizdən bərəkət", "Qazaxıstan nəğmələri", "Sehrli aləm" bölmələri adı altında toplanıb. "Poemalar – nağıllar" bölməsində "Qırxıncı qapı", "Ağıl döyüşü", "Gül və bülbül əfsanəsi" və "Bacadan yağan qızıl" əsərləri verilib. "Zamanın qatarı" adlanan hissə isə əslində "kitab içində kitab"dır. Çünki onun ön və son sözü, dörd fəsli var. Zamanın sehrli qatarına qoşulan hər vaqon bir fəsli təmsil edir. Birinci vaqonda yaz, ikincidə yay, üçüncüdə payız, dördüncüdə qış nəğmələri səslənir.

Kitabdakı bütün şeirlər və poemalar öz bədii sənətkarlıq səviyyəsi, obrazlılığı, ifadələrin əlvanlığı və məzmun yeniliyi ilə diqqəti cəlb edir.

Müəllifi bir daha təbrik edir, ona yeni yaradıcılıq uğurları diləyirik...

**Manevr.az** 19-07-2018 09:29

# RAFİQ YUSİFOĞLUNUN UŞAQ POEZİYASI

(Bir fraqment)

Mən Rafiq Yusifoğlunu, onun şəxsiyyətini öncə, qırx il olar tanıyıram. Və ilk dostluğumuzun səbəbkarı mərhum dostum, uzun illər "Azərbaycan müəllimi" qəzetində çalışdığım folklorçu alim, jurnalist Şamxəlil Məmmədov idi və o demişdi: "Allahverdi müəllim, Rafiq müəllimlə mən tələbə yoldaşı olmuşuq, bu gün də münasibətimiz davam edir". Beləliklə, bir şair, pedaqoq, alim, həmkarlarım sırasına o vaxtlar lap cavan olan bir yaradıcı şəxs də daxil oldu. Şeirlərini oxuyurdum, bəzən hətta düşünürdüm ki, Rafiq bəy də poeziya dünyasının girovuna çevriləcək, imzası gündəmdə qalmaq üçün misraların dalınca gedəcəkdir, çünki həyatım boyu şeir yazmasam da, poeziyanın qədrini bilirəm.

İllər keçdi, poeziya aləminə gəldilər və getdilər, oxucularla görüşdülər və ayrıldılar. Lakin Rafiq Yusifoğlu gəldi və qayıtmadı. Şeir dünyasına bir pəncərə saymadı ki, baxsın, baxsın və arxada qalan illərdə yazdığı bəzi şeirlərini nastalji hissi ilə xatirlasın, daha yaza bilmədiyinin heyfini küskünlüklə yad etsin. Əksinə, gördüm Rafiq bəyin istedadının tükənmədiyini, Allahdan gəlmə bir ruhi dəyər olduğuna oxucularını inandırdı. Mən də istisna olmadım və müxtəlif illərdə şair və alim - filoloq, professor Rafiq Yusifoğlunun poeziyası və ədəbiyyatşünaslıq dünyagörüşü haqqında bir neçə analitik məqalələr yazıb çap etdirdim və özümə də təsəlli verdim, daha doğrusu, özümü inandırdım ki, zövqümdə yanılmamışam. Rafiq bəyin yaradıcılıq psixologiyasında bəzi nüansları ötəri də olsa qeyd edərdim, o poeziyanın iki qolunu (əlbəttə şərtidir): həm ciddi, həm də uşaq şeirlərini paralel aparır. Xüsusi "uşaq şeiri" anlayışı yoxdur, böyük ədəbiyyatın predmetidir. Həm də Rafiq müəllim ədəbiyyatın nəzəri məsələləri ilə məşğul olur. "Ədəbiyyatşünaslığın əsasları" (dərslik), "Uşaq ədəbiyyatı" (dərslik), "Müasir ədəbi proses və ədəbi tənqid", "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" (monoqrafiya), "Ədəbi

nəzəri fikrin inkişaf mərhələləri" (monoqrafiya) və s. kitabların müəllifidir. Yaradıcılıq psixologiyasında (mən uzun müddətdir ki, bu problemlə məşğulam) qəribəliklər çoxdur, xüsusilə də müəllifin şairmi, tənqidçimi olmasından irəli gələn təsirinə düşmək məsələsidir. Şair, yazıçı var, bədii yaradıcılığında publisistikasının üslubu özünü göstərir, yaxud poeziyasında nəzəri mühakimələr yaranır. Rafiq Yusifoğlunun yaradıcılıq psixologiyasında bu sıraya "üçüncü qolu" da əlavə edərdim: ciddi şeirlər öz lirizmini, poetik və mövzu əlvanlığını qorumaqla uşaq dünyasına baş vurmaq, bu möcüzəli sehrli məxluqlarla dil tapmaq, onların suallarını cavablandırmaq. Ədəbi nəzəri problemlərə gəldikdə Rafiq bəy olur ədəbiyyatşünas, tədqiqatçı, ali məktəb müəllimi.

Xeyli ekskursiya etdim, hər halda oxucunu yormadım, ona görə ki, bizim tənqidçilərimiz, poeziyaşünaslarımız var, sanki müəllifləri çeşidləyir, hər bir şeirin üzərində dayanır (tənqidçilərin də məxsusi zövqü olur), lakin ümumi bir xatırlamaqdan sanki qaçır. Elə deyil, yazılan bir məqalə də gələcək üçün qalır ki, yeni nəsil oxucusunda təsəvvür yaratsın. Bu baxımdan belə bir ekskursa əl atdım, lakin məqsədim şairin uşaq poeziyasına dərin yanaşmasından: Sabirli, Səhhətli, Şaiqli ənənələri davam etdirməsində bəzi ştrixlərə toxunmaqdır.

Bu gün uşaqlara "dünənin" ovqatı ilə yanaşmaq bir məsələyə çevrilib, şairlər üçün səbəbsiz deyil: canlı aləmin, varlığın mahiyyətindəki intellektuallığın daha qabarıq nəzərə çarpmasıdır, yəni bir, yaxud yaşıl yarpağın niyə belə ikili rəng alması, dənizə qağayıların vurulması, torpağın ana olmasının sirri - hansıki şair bu dəyərləri uşaqlara anlatmaq üçün emosionallığa üstünlük verir və bu, vətən məhəbbətinin bir atributuna çevrilir. İki nümunə verəcəyəm, fikirlərimin təsdiqi üçün: "Tanrı yandıran ocaq" səkkiz misradır:

Elə yanan yoxdur ki,
Sonu külə dönməsin.
Elə ocaq yoxdur ki,
Yanıb, yanıb sönməsin.

Günəş min, milyon ildir,
Yanıb sönməyib ancaq.
Möcüzədir, mözücə,
Tanrı yandıran ocaq…

Nə aşılanır? Və necə yaddaşa ötürülür? Sadə, amma intellektuallıqla, emosionallıqla vəhdətdə. Uşaqlarda o təsəvvür yarana bilər ki, fizikanın, yaxud biologiyanın qanunları heç də mütləq deyil. Kainat özbaşına hərəkət qüvvəsinə malik deyil. Kosmosun atributları, o cümlədən Günəş də "Tanrı- Allah" tərəfindən nizama salınır. Bəli, uşaqlarda tanrıçılıq tərbiyəsi. Yaxud bir bəndlik şeir:

Çəmən ana hirsləndi
Böynübükük çiçəyə:
Niyə könül verirdin
Bir sərsəri küləyə?

Adi müşahidə təəssüratıdır. Olsun, amma dərin düşüncəyə yol açır, assosiativ fikirlərə yozulur.

Predmetlər bir yana, insan həqiqətənmi hər təsirə özü getməlidir, onun iradəsinə tabe olmalıdır. Zahirən güclü və şirnikdirici görünən bir şeyə uymağa dəyərmi, bəs sonra necə olacaq, deyək ki, külək özündə dağıdıcılığı, sərsəriliyi ehtiva edirsə, hətta sakit zərif çiçəyin aqibəti belə olur. O, əyildikcə fiziki görkəmin də, qəlbin də əyiləcək - həyatın diktəsidir.

Rafiq Yusifoğlu bu sərsəri küləyi özbaşına buraxmayır, ümumiyyətlə, küləkdə, qnesioloji bir dəyər axtarır, daha doğrusu, təbiətin daha bir atributuna uşaqları yaxşı mənada inandırır. Və küləyin nəğmələri silsiləsindən maraqlı şeirlərini qələmə alır. Sən demə, küləkdə çobanlıq, rəssamlıq, istiqanlılıq və s.keyfiyyətlər də varmış, küləyin xəzri, gilavar övladları da. Bu övladların xasiyyəti isə bir birinə tərs mütənasibliyidir.

Məktəbli uşaqlar dərsliklərində küləyin elmi xassələrini öyrənirlər - bu, öz yerində lazımdır. Şairin öz şərhi poeziyanın dili ilə çatdırılır xəzri və gilavarda.

-Xəzri, gilavar nədir,
Söylə görüm, ay Mələk?
-Xəzri soyuq küləkdir,
Gilavar isti külək.

-İndisə sualıma
Sən cavab ver, ay Bəsti.
Nə üçün xəzri soyuq,
Gilavar olur isti?

-Yel əsəndə elə bil,
Həyat gəlir, can gəlir.
Gilavar isti yerdən,
Xəzri şimaldan gəlir.

Suallar intellektual, cavablar emosional. Bu iki yanaşmanın yerini dəyişmək də olar - şeirin orijinallığı burdadır. Uşaq şeiri hadisələrin mühakiməsi ilə şərtlənmir, bir deyim tərzi ilə gərək mövzunu yaralamayasan. Uşaqların əvvəlcə gərək diqqətini ora yönəldəsən. Sonra təbii fantaziyalarına imkan yaradasan. Şair Rafiq Yusifoğlunun poetik hünəri də hər iki faktora etina etməsi, görünəni poeziyanın sehrli gözü ilə təqdimidir:

Külək əsir, yellənən
Dəniz necə gözəldir.
Külək memardır sanki,
Sudan dalğa düzəldir.

Uşağa daha nə lazımdır? Fantaziya ilə dənizin memarlığı və bir də dənizin dalğalarının küləyin cənginə verməməsi. Axı dəniz anadır!

Dalğalar hey çırpınır,
Qayalara hirs ilə.
Külək yatıb,
Dənizin xəbəri
Yoxdur hələ...

Uşaqlar o halda azad, sərbəst, özünə arxayın olurlar ki, nənələri, babaları yanlarındadır, isti qayğılar ilə üz-üzədirlər, neçə-neçə suallar verib, cavablar alacaqlar. Xüsusilə, bu gün uşaqları soyuq elmi - texniki vəsaitlərdən müəyyən həcmdə ayırmaq, böyüklərin nəfəsinə yaxınlaşdırmaq, şirin-şəkər bala statusunu qazandırmaq vacib amildir. Əks halda, balalarımız əlimizdən çıxar, qəlbləri soyuqlaşar, fikirləri kompüterləşər, hətta az sonra qəddarlaşarlar. Bu həqiqəti sosioloqlar saxta çıxışlarına büksə də, cəmiyyət öz yerindədir pedaqoqları və qələm sahibləri ilə.

Şair R.Yusifoğlunun öncə həyata emosional münasibətindən, sonra müəllimliyindən irəli gəlib bu boşluğu doldurmaq ideyası. Poeziyanın misilsiz təsir müstəvisində hər şey gözəl görünür. Təsadüfi deyil ki, şair bu niyyətini "ömrün baharı yayı - Tanrının sevgi payı" adlandırmışdır. Nənələrə nəvələrin sevgi payı onların etirafıdır:

- Ay nənə, nə yaxşı ki,
Nənələr, babalar var.
Yoxsa balacaların
Qayğısına kim qalar?!

Təbii ki, babalar və nəvələr barədə istənilən sayda şeirlər yazılmışdır. Onların üstündən xətt çəkmək haqsızlıq olardı. Yaxşı misralar az deyil. Rafiq Yusifoğlunun şeirlərində bir üstünlüyü verilən sualların və alınan cavabların intellektuallığında və bu fikirlərin emosional hisslə çatdırılmasındadır.

Yekə-yekə danışır,
Sən bizim Saraya bax.
Deməzsən ki uşaqdır,

Həmişə qucağında
Olmasaydı oyuncaq –

uşağın əqli nəticə çıxarmasıdır.

Məktəb üzü görməyəndən,
Çətin ki, adam ola!
Mənə məktəbli deyirlər,
Məktəbsiz adam olar? –

uşağın oxumağa, təhsilə münasibəti, müasirliyidir.

İnanmışıq yalana,
Dirənmişik dalana.
Elə bil maşınların
Əli-qolu bağlıdır.
Nəvəm gülür, ay baba,
Yolun yolu bağlıdır. –

uşağın qrammatik təfəkkürü - beynin sözdən düzgün nəticəyə gəlməsidir. Belə ağıllı və hazarcavab uşaqlara – "Səni çox istəyirəm", "Saç və saqqal", "Dondurma", "Kran", "Gözmuncuğu", "Əriyən şokolad" və s. şeirlərində rast gəlirik. Onların bir üstün keyfiyəti ana dilində danışmalarıdır, dil də təfəkkürün məhsuludur.

Uşaq poeziyasının ədəbi və sehrli mövzusu ilin fəsilləridir. Bu poetik ənənə Sabirdən, Səhhətdən, R.Əfəndiyevdən, Şaiqdən üzü bizə sarı yaşamaqdadır. Bu şairləri bu yaşımızda oxumağımız da keçmişimizə qayıdışdır.Çünki o əsrlərdə biz uşaq imişik, bu misraları yaddaşımızda mövcud əsrimizə gətirmişik.

Nostalji ovqatın varislik yozumuna şair R.Yusifoğlu uşaq ədəbiyyatımızın araşdırıcısı olaraq həmin mövzuya sadiqliklə yanaşır, yeni ruh və təsvir əlvanlığı yaradır. Məhz Rafiq bəyin orijinallığının bir səbəbini də bu prinsipdə axtarmalıyıq. Payız, qış, bahar, yay fəsillərinin uşaqların həm ağıllarına, həm əhvallarına,

həm də davranışlarına göstərdiyi təsirin emosionallığı, eyni zamanda uşaq təxəyyülünün inkişafı. “Bulud fayton”da:

İldırım şaqqıldayır,
Tez elədik yır-yığış.
Minib bulud faytona
Kənədə tələsir yağış.

Çöllər-çəmənlər düşüb
İslanmaq həvəsinə.
Gurultular bənzəyir
Təkərlərin səsinə…

“Dərzi payız” şeiri səkkiz misradır, amma dərziliyi poeziyamızda ilk dəfədir səslənir, özü də uşaqların özünün də sevdiyi kirpinin timsalında. Hərçənd, kirpi uşaq şeirinin ən maraqlı mövzusu olmuşdur dünya ədəbiyyatında da. Rafiq bəyin başqa şeirlərində kirpi özgə qiyafədə təsvir olunmuşdur. Bu şeirində isə

Kirpiyə bax, kirpiyə
Necə qəşəng görünür.
Xəzəllikdə ağnayıb,
Sarı kürkə bürünüb.

Canı yanmış özünə
Necə gözəl don seçib?! -
Dərzi payız əyninə
Bir qızılı don biçib…

Payızın işi-gücü yaşıllığa əl qatmaqdır, silib-süpürüb torpağa qatmaqdır. Bu, təbii “davranış”dır fəsil üçün: hər şey canlılar başda olmaqla dəyişməlidir, yeniləşməlidir, elə uşaqların özü də başqa davranışda dəyişir, böyüyür, yetkinləşir və ahıllaşır.

Bu dəfə şairin poetik yozumunda – “Həkim payız” şeirində öz işini sahmanlayıb. Hələlik yaxşı görünür.

Sanki sehrli bir əl
Ağacları bəzəyir.
Sarı-sarı yarpaqlar
Qızıl dişə bənzəyir.

Payızda əsən külək
Yaxşı bilir işini.
Sanki həkimdir, çəkir
Ağacların dişini.

Meşə küsüb payızdan,
Ürəyi qırıq qalıb.
Sarı yarpaqlar düşən
Budaqlar mırıq qalıb...

Şeiri təsadüfən bütövlüyü ilə yazıya almadım: bunlar bir predmetin kontekstində obrazlı təfəkkürün təcrübədən əvvəlki yanaşması yoxdur, xalis məntiqsizlik - alogizm də yoxdur. Şairin yaxşı mənada sehrbazlığıdır. Bir ağacı başdan-ayağa təsəvvürümüzə gətiririk və onun yarpağını dişə bənzədirik. Bu dəfə o ağacın sarı yarpaqları qızıl diş kimi görünür, dəli külək - naşı həkim bir-bir çıxarır, nə görünür? Kədərli bir görüntü, o gözəl yaşıl yarpaqlı ağacların budaqları mırıq qalır. Bu, meşənin faciəsidirmi, fiziki görünüşdən bəlli. Amma təhtəlşüur baxımından yox.

Rafiq Yusifoğlunun qış və qar obrazları da fəslin mahiyyətindən doğur: ilk qar, yollar - rizlər tutulur, qartopu oyunu və s. əyləncələrə rəvac verən bir dönüm. Uşaqlar da razıdır, elə bunları qışdan umurlar.

Hər yan bəmbəyaz - dümağ,
Qışdan artıq nə umaq?
O bizdən şaxtasını
Qarını əsirgəmir.
Səxavətlə xərcləyir
Varını əsirgəmir.

Uşaqlar təbiətdə predmetlərin "danışmasını" daha çox xoşlayırlar. Əlbəttə, onların söyləmək gücü yoxdur, amma çox istərdilər meşə, orman dəniz, çay, şəlalə və i.a. gözəllik nümunələrini dinləsinlər, onlar öz sirlərini açsınlar. Bu mövhumi missiyanı şairlər öhdələrinə götürür bir şərtlə, onlarda fikri assosasiya doğursun, müqayisələr bir-birini tamamlasın. Bir şeirinə diqqət yetirək şairin:

Bəyaz kövrək qar idim,
Üstümdə çox gəzdilər.
Qolumu, qabırğamı
Sındırdılar, əzdilər.

İməkləyir üstümdə
Avtobuslar, maşınlar.
Buza döndüm ki, qorxub
Məni tapdamasınlar.

Belə ruhlu şeirlər yaşlı nəslin marağına səbəb olur.

R.Yusifoğlu xeyli ölkələrdə olmuş, gəzib dolaşmış, qərib bir məkanın coğrafiyasını dadmış, uşaqlarının həyatını müşahidə etmiş, bu həyatı poeziyaya gətirmişdir."Gəzdim düzü dünyanı, yurdumdan gözəl hanı?" silsiləsində poetik qınaətlərini oxucularına çatdırmışdır. Bu şeirlərin kökündə vətənpərvərlik hisslərini aşılanması dayanır. Şairin təsvirlərində Sakit okean obrazlaşır, adı Sakit olsa da, şair üçün sakitlik yaratmır, ilhamını oyadır.

Adın Sakit olsa da,
Sakitlik sənə yaddır.
Daim kükrəyib daşmaq
Sənin üçün həyatdır.
Yepyekə gəmilərə
Açıq olur qucağın
O qədər nəhəngsən ki,
Yoxdur ucun-bucağın. –

bu şairin lirik təəssüratıdır. Nəhəngliyi şairlər daha çox sevirlər - bir də uşaq təəssüratı var axı. Bəs onların tələbi nədir?

Bu qabarma nədəndir? –
Nə tufan var, nə külək.
Sakit okean, dinc dur,
Qoy bir az rahat çimək.

Rafiq Yusifoğlunun uşaq dünyası onun poeziya aləminin sadəcə bir planetidir ki, orada həyat var, yaşayış axarındadır.

Bir də uşaqlar öz uşaqlıqlarını yaşayırlar. Elə şair bu gün, bu yaşında yaşaya bilmirsə, o şairdən, o şəxsdən mən heç nə ummuram - poeziya üçün. Unutmayaq ki, klassiklərimizdən - ikinci mərhələni nəzərdə tututram N.Xəzri, B.Vahabzadə, M.Araz, T.Mahmud, H.Ziya, M.Seyidzadə, M.Günər, T.Elçin, üçüncü mərhələdə Z.Xəlil, R.Yusifoğlu, A.Əlizadə və b. uşaq poeziyamızda bir çox işlərin müəllifidirlər. Bunlar və adlarını unutduqlarım ciddi şeirlər yazmışlar. Onlardan dünyalarını dəyişənləri xatirlatmaq borcumuzdur və fikrimə qayıdıram. Hind şairi R.Taqorun fikrini xatırladıram: "Yenicə yazmağa başlayan sənətkar öz imkanları xaricinə çıxmasın" - həqiqəti ilə ifadə olunmuşdur.Çox təəssüf ki, uşaq psixologiyasını unutmuş şairlər hələ də yazırlar.

Mən istedadlı şair, alim (bu ayrı mövzudur), Rafiq Yusifoğlunun uşaq dünyasına baş vurdum. Bir səhər ovqatında (9 radələrində) bir şehli havada, desəm ki, uşaqlığım yadıma düşdü, yanılmaram.

Biz nəsil Sabiri, Səhhəti, Şaiqi oxumuşuq, qidalanmışıq, "Uşaq və buz"la məktəbə getmişik, "Yaz səhəri" ilə oyanıb gen-bol hava udmuşuq, qoyun sürüsünü çaş-baş salan keçini intizama çağırmışıq... Bu günün uşaqları Z.Xəlili, R.Yusifoğlunu, T.Mahmudu oxumağa borcludurlar.

**Allahverdi Eminov**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent**
*"Ədalət" qəzeti, 8 avqust 2018*

## RAFİQ YUSİFOĞLUNUN PETİK MÖCÜZƏSİ

### Esse

Görkəmli alimlərdən biri demişdir ki, bəşəri ixtiralar (kəşflər) oyun nəzəriyyəsindən başlayır, həqiqətdir. Bir də ona görə ki, anadan doğulan uşaqlar iməkləyən gündən oyuncaqlara sevgi bəsləyirlər. Bu maraqlı oyuncaqlara o qədər aludə olurlar - ana südünü əmməyə də gecikirlər. Məhz "oyun" sözündən "oyuncaq" anlayışı yaranmışdır. Bu bəşəri hissi bir analar daha həssas duyurlar, bir də şairlər. Maraqlı instiktivdir. Çağdaş şairlərimizdən Zahid Xəlil, Mir Sabir, Aləmzar Əlizadə - peşəkarlar; qeyri peşəkarlardan - arabir yazanlar və nəhayət, Rafiq Yusifoğlu yaradıcılığında oyuncaq fenomeni özünə lazımi yer tutur. Mən istedadlı şair Rafiq Yusifoğlunun poeziyası haqqında xeyli sayda məqalələr yazmışam və hər bir yazımda şairin uşaq dünyasına akkazion-fərdi yanaşmasını önə çəkmişəm; görünür, Rafiq Yusifoğlu uşaqlığından hələ (nə yaxşı) ayrılmamışdır, yuxusunda (bu adda "Yuxu" şeiri də yazıbdır) o kövrək, əlçatmaz, həzin hisslərinə qayıtmaq istəmişdir. Qayıtmışmı? Bu sualı şair dostuma heç vaxt verməк istəməmişəm, nə üçün? Bu suala cavabı da özümdən almamışam. Elə nəsnələr var ki, sirr olaraq qalsa qızıla dönər. Amma bu dəfə pozası olacağam - gümanımda kaş yanılmayaydım.

Rafiq Yusifoğlunun uşaqlar üçün yazdığı şeirləri *("Göyərçin" dərgisinin 2019-cu ilk sayında)* qışın soyuqluğunu etiraf eləməyən bir günündə oxudum, yenə də öz üslubuna sadiqlik, cocuqların şıltaq həyatını duyan, kövrələn qələmilə yazan bir şairin sönməyən ilhamının şahidi oldum. İlk yaşadığım hisslər uşaq duyğularının həzinliyi, hətta yaşın səngiyən çağını nəzərə almayan şair "insafsızlığı"nı! Axı şair bu psixoloji "davranışı" niyə nəzərə almamışdır? Bəlkə özü o uzaq üfüqlərdən boylanan o cocuqluğun xatirələrindən hələ də ayrılmamışdır. Ayrılsa o, uşaq dünyasını yaşaya bilməz, şedevr şeirləri yaddaşından süzülüb

itərdi. Axı bu missiya poeziya aləmi üçün bir “poetik davranış”dır. Yoxsa “Ovcumda qar üşüyür”, “Şarımı niyə deşdim”, “Qərib külək” və “Mənim oyuncaqlarım” şeirləri yaranmazdı. Bu nümunələrdə obraz öz gələcəyini “görən”, “proqnozlaşdıran” və həzinləşən uşaqdır. Bu, necə cocuqdur - onun üçün qar, külək və oyuncaq bir canlı obrazdır (böyük hərflə də yaza bilərdim), Özünü onlarda axtarır, çünki ağıllıdır, düşünməyi bacarır, böyüklər kimi darıxır, həzinləşir, desəm ki, həyatın qəribəliklərini təsəvvürünə gətirə bilir - oxucular məni hissiyyata qapılmış iradəsində başa düşməsinlər. Mənimçün bu uşaq Mirzə Ələkbər Sabirin buzla “məzələnən” və ona tutarlı elmi cavab verən uşağın nəslindəndir. Amma dünyagörüşləri fərqlidir, yaşca ulu babasından kiçikdir. Təbiətə münasibətində də başqa bir duyum vardır: qışın soyuğunu, yağan qarın “xasiyyəti”ni anlayır və tələsmir, çünki məktəbə getmir. Şair konkretliyə yox, təsvirin epikliyinə yer ayırır, hərəkətdə təsvir edir:

Çapıb gəlir uzaqdan,
Olubdur ağ atlı qış.
Bir gecənin içində
Hər yeri ağartdı qış.

Və bu qara ilk izini həkk edən də uşağın özüdür.

Bir bax, qarlı həyətdə
Düşən ilk iz mənimdir.
Şaxtanın öpüşündən
Qızaran üz mənimdir...

Bu uşaq ağıllı olmaqla bərabər, hissiyyatı güclüdür, qışın xasiyyətini dəqiqləşdirməyi bacarır və yenə daxilinə qayıdır. Qış-soyuqluq insana nə bəxş edər: bədənin hərarətini alar, titrədər, bunlar bir yana - zahirən də dəyişdirər. Deməli, soyuq hava insanı baharlığından çıxarar; bu isə “qılınc kəsərliyi” deməkdir; uşaq obrazlı fikirləşir:

Qar ələnib saçıma,
Üstüm-başım bəmbəyaz...
Üşüyürəm yamanca,
Qılınc tək kəsir ayaz…

Və bu uşaq narahatlıq keçirir, bəlkə də ilk dəfədir belə bir mənzərəylə qarşılaşır, lazım gəlir bu mövcud halını babası ilə bölüşdürsün.

Bəlkə də belə bir möcüzənin sonu üçün çox narahatdır, axı onun saçı qapqaradır, üst-başı tərtəmizdir və üşüməmişdir. İndi ayazın qüdrətinə bax ki! Babasını inandırmağa çalışır və əyani özünü göstərir ki!

Ay baba, sənin nəvən
Elə bir qar qız olub.
Lap qardan da soyuqdu,
Əllərim bumbuz olub.

Və bu dəfə də şairin uşaq obrazı obrazlı danışır, deməli o, metaforik təfəkkürlüdür, qarlı qışın davranışına səssiz etirazını bildirir:

Qarlı qış at oynadır,
Çöldə nə var üşüyür...
Əlim elə soyuqdu -
Ovcumda qar üşüyür...

Yadımıza salaq ki, Sabirin uşağı ayağa qalxandan, üst-başını çırpandan sonra buza demişdi ki, yaz gələr, əriyib suya dönərsən, axıb çaya gedərsən. Amma qəmlənəcəksən, a buz. Rafiqin uşağı isə öz hərarətini nikbinliklə ifadə edir ki, soyuq qarın özü ovcumda üşüyür, adamı üşüdən uşaq ovcunda üşüyür.

Və ulu babasından az məlumatlı olmadığını da gizlətmir. "Yasamal" adını eşidib, bəlkə də bu yerdə yaşayırlar, amma adın etimologiyası ilə maraqlanır və babasından soruşur:

-Yasamal nə deməkdir,
Baba, başa sal bizə!
-"Yasamal" söyləyirlər
Dağ üstə olan düzə…

Bu uşaqda mənim yozumumda hisslər "qabaqlayıcı"dır - psixologiya elmi də bu cəhəti qeyd edir: bir hadisə (əhvalat) assosiasiyalar doğurur və mövcud vəziyyəti proqnozlaşdırır, təbii ki, bu hiss böyüklərə məxsusdur. Uşaqlarda isə belə yönüm oyun zamanı yaranır, oyuncaqlarda nəyisə fikirləşib nəticə çıxarmaq istəyir.

Rafiq Yusifoğlu bir şair təxəyyülü ilə mövzunu ("Şarımı niyə deşdim") tapmışdır, qalır bu predmetin qəhrəmanını necə təqdim etsin: sadəcə seyrçimi, başını qatanmı, yoxsa içində hissiyyatını oyadan fakta münasibət kimi? Üçüncünü seçir uşaq, çünki şarda onun nəfəsi var, ruhunu orada qoyubdur. Uşaq bilir ki, nəfəs onun azadlığıdır, yaşamasıdır. Bir də onun nəfəsi cansız əşyanı - şarı hərəkətə gətirib və havaya qaldırıb. Axı deyirlər ruh - nəfəs kainata uçur və oranı özünə məskən seçir; hələlik bu müəmmalı yozumdan uşağın xəbəri yoxdur.

Mən piləyib havayla
Öz şarımı doldurdum.
Ağzına sap bağlayıb
Onu göyə qaldırdım.
Hey əyləndim, oynadım,
Birdən itdi həvəsim.
Şar içində dustaqdı
Axı mənim nəfəsim.

Uşaq öz əyləncəsindən qəfil ayılır, nəfəsi içindən çıxıb, başqa bir predmetə qoşulubdur, fəlsəfədə deyildiyi kimi: maddə heç vaxt itmir, başqa nəyəsə çevrilir. Uşaq bu formuladan xəbərsizdir, amma üç yaşından cocuqların daxilində, beynində gələcəyin bəzi prosesləri yaranır və zamanını gözləyir. Şairin bu

uşaq obrazını belə təsəvvürümə gətirdim, bəlkə hissiyyata qapılmışam, balalarımızın heç də qərb uşaqlarından az intellektə malik olmadığına inamından irəli gəlir? İsrarımda qalıram!

Nəfəs öz məkanına - bədəninə qayıtmalıdır. Məkansız qala bilməz, o, ruhdur. Amma uşaq daha hikmətlə qərarını verir:

Sanki qəlbim sıxıldı,
Əməllicə darıxdım.
Şarı deşib, havanı
Azadlığa buraxdım.

Belə xarakterli uşaqlar kövrək, canıyanan, qəribliyi qiymətləndirən olurlar. Belədir ki, o, küləyin biməkanlığına heyifslənir, gücü çatsaydı, bu "halına" imkan verməzdi, təəssüfü ilə kifayətlənir.

Hey uçur eldən-elə,
O, çox yerlər görübdü.
Küləyin yurdu yoxdu,
O, hər yerdə qəribdi…

Belə xarakterli uşaqlar humanist, artıq hərəkətlərindən peşimançılıq çəkən olurlar. Budur:

Bir kimsənin xətrinə
Gərək dəyməyim daha.
Topu təpiklə vurdum,
Küsüb qaçdı uzağa…

Belə uşaqlar "hikmətlə" düşünürlər, nə gizlədim, sanki yaşa dolublar vaxtsız və cocuq illərinə qayıdıblar.

Etiraf edəcəyəm: "Mənim oyuncaqlarım" şeirini oxuyandan sonra əllərimin titrədiyini hiss elədim, nə yazacağımı belə vərəqdə dondurdum.

Rafiq Yusifoğlunun "oyuncağı" bir obraz idi, yaşa dolmuş insanların qəlbini sızlatmaq üçünmü qələmə almışdı? Bilirsiz,

böyüklər üçün belə şeirlərlə kövrəlmək də, ötənlərə qayıtmaq da mümkündür və elə də hünər deyil. Amma uşaqlar üçün yazdığın şeirlə isə... Bu uşaq artıq oyuncaqları ilə vidalaşıb, oyuncaqlar da ki, indi atılıblar bir yana, ömürdən qırılan günlər kimi. Bu uşaqlar hey baxır, düşünür, onların taleyini yaşamaq istəyirlər.

Bir vaxt canlı idilər,
İndi şam tək sönüblər.
Mənim oyuncaqlarım
Oyuncağa dönublər…

Nə qəribə, nə obrazlı düşüncə və daxildə peşimanlama. Bu uşaq "Mənim oyuncaqlarım" deyir, məgər indi onunku deyil? Haqlıdırmı, belədirsə, nə üçün? Şair bu sualları uşağın dilindən söyləmir, ancaq hisslərinin diliylə pıçıldayır, axı bu uşaq nankor deyil, kövrək qəlblidir.

Hiss eləmirlər qəti
Sığal çəkən əlimi.
Böyümüşəm, ta onlar
Anlamırlar dilimi.

- demək bir vaxt uşaq da, oyuncaqlar da bir-birlərini necə də anlamışlar. Bir-birlərini kəşf etmişlər.

Biz dedik axı, dünyanın ən böyük kəşfləri oyuncaqlardan başlayır. Bu oyuncaqlar ki, daha uşağın dilini anlamırlar - onun xasiyyətini kəşf etmişdilər. Amma bu uşaq hələ ümidini, əlini oyuncaqlarından üzməmişdir - inama və optimizmə bax! Amma bu uşaq tərəddüd də edir, "oyuncağa dönən oyuncaqlar"ın onunla barışacaqlarına gümanı azdır. Verəcəyi suala ən etibarlı cavabı anasından olacaqdır.

Niyə adiləşibdir
Oyuncaqlarım, ana?!
Ötən günlər qayıtsa,
Onlar gələrdi cana! -

Sual vermir anasına, ona görə ki, hələ uşaqlığından ayrılmamışdır. Sual versəydi hər şey sona çatardı və bu uşaq adiləşərdi. Bir vaxt əyləndiyi oyuncaqlar üçün darıxmışdı, həvəslə oynayırdı, ağılına gətirmirdi, uşaqlığından addım-addım uzaqlaşdıqca o oyuncaqlar xatirələşirlər, əbədiləşirlər və bütləşirlər. Amma bu uşaqda qəlb kövrəkliyinə bax ki, o həvəsin, o istəyin qayıdacağına inamına şübhəylə yanaşır və bu dəfə anasına sualla üz tutur:

Geriyə dönəcəkmi
Əvvəlki həvəs görən?
Mənim uşaqlığımmış
Onlara nəfəs verən! –

Fəlsəfi nəticə.

Bəs mənim nəticəm?

Şair Rafiq Yusifoğlunun bu şeirləri son dərəcə şedevr (bu termini yerində işlətməliyik) bədii məhsullardır, böyük bir istedaddan doğan ovqatın payıdır. Bəlkə də özündən bixəbər diqtə olunmuşdur. Təbii hissdir. Bu şeirlərdəki obrazlılıq düşündürə biləcək qədər uşaq psixologiyasına məxsusdur, hadisəni məxsusi detallaşdırır. Bu şeirlər böyükləri belə "uşaqlaşdırmaq" qüdrətinə malikdir. Mən bu hissi yaşadım. Mən yaşamışamsa. Mən möcüzəyə inanmışam.

**Allahverdi Eminov**
**pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent**
*"Ədalət" qəzeti, 16 fevral 2019-cu il*

# Rafiq Yusifoğlunun uşaq şeirlərinin özünəməxsus cəhətləri

(Rafik Yusifoğlu Çocuk Şiirlerinin Bireysel Etkileri)

Uşaq ədəbiyyatı həmişə geniş təhlillərə, münasibətlərə imkan yaratmışdır. Bir xalqın uşaq ədəbiyyatı hər zaman inkişaf edib təkmilləşirsə, o xalqın ümumi ədəbiyyatı da seviləcək, oxunacaq və xalqı dünyada tanıdacaq. Azərbaycan uşaq ədəbiyyatı illərin sınağından keçib. İstər poeziya, istərsə də nəsrdə yaranan uşaq ədəbiyyatı bu gün də öz novatorluğunu itirməyib.

Azərbaycan ədəbiyyatında yadda qalan uşaq yazarları olub. A.Şaiq, M.Ə.Sabir, A.Səhhət, M.Dilbazı, T.Mahmud, X.Əlibəyli və hazırda uşaq ədəbiyyatının gözəl nümunələrini yaradan digər yazarlarımız uşaq ədəbiyyatımızın incilərini yaratmış və yaratmaqdadırlar. Bu günkü günümüzdə - yəni yaşadığımız Qarabağ savaşı, ölkəmizdə neçə min köçkünün, qaçqının yerləşdiyi bu zamanda yazarlarımızın qarşısında çox çətin vəzifələr durur ki, bunlardan ən başlıcası uşaqlarımızın düzgün tərbiyə məsələsidir. Uşaqlarımızda keçmişimizə, folklorumuza maraq yaratmaq, zəhmətə, əməyə sevgi oyatmaq bu gün uşaq yazarlarımızın öhdəsinə düşür. Uşaqlar üçün yazılan şeir müasir dövrün nəbzin tutmalı, bu əsərlərdə coşqun və qaynar həyatımız, öz bədii əksin tapmalıdır. Eyni zamanda yazılan əsərlərin yalnız formasına deyil, həm də məzmun və ideya saflığına önəm verilməlidir. Aparılan tədqiqatlar göstərir ki, bu günkü uşaq poeziyası bu baxımdan bir çox yeniliklər edib.

Günümüzlə ayaqlaşaraq uşaqlarımızı düşündürən, onların marağına səbəb olan yazılar yazan şairlərimizdən biri də Rafiq Yusifoğludur. Rafiq Yusifoğlu 1950- ci ildə yanvar ayının 2-də Qubadlı rayonunu Çardaxlı kəndində müəllim ailəsində dünyaya gəlmişdir. 1966- cı ildə orta məktəbi bitirmiş, Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə daxil olmuşdur. 1970-ci ildə ali məktəbi bitirərək fəaliyyətə başlasa da, sonralar

Azərbaycan Elmlər Akademyasının aspiranturiyaya daxil olmuş, namizədlik işi müdafiə etmiş və beləliklə elm aləminə daxil olaraq bədii yaradıcılığı da kənarda qoymamışdır. Rafiq Yusifoğlu 1985-1992-ci ilədək Azərbaycanda ən nüfuzlu uşaq jurnalı olan “Göyərçin “ jurnalında əvvəl şöbə müdiri, 1997-ci ildən bu günədək həmən jurnalın baş redaktorudur. İllərdən bəri “Göyərçinin” yüksək səviyyədə çap olması üçün səylə çalışır. Onun uşaq şeirlərinin bu qədər canlı və səmimi olması, uşaqlar tərəfindən sevgi ilə qarşılanmasının bir çox səbəbləri var. Rafiq Yusifoğlu illərdir uşaq jurnalının yaradıcısı, müəllifi, redaktorudur. Hər gün uşaqlarla ünsiyyətdə olur, onlarla dialoq qurur. Hər an uşaq yazarları ilə görüşür, onların məsləhətini dinləyir, məsləhətlər verir. Rafiq Yusifoğlu 80-ə dək kitab müəllifidir. Bu kitabların hər birində onun səmimiliyinin, sadəliyinin, gözəl ürəyə malik olduğunu görürük. O nəyi yazırsa yazsın, qələmində bir şirinlik oxucunu tutur, valeh edir. Bu baxımdan onun” Bizim dağlar” şeiirinə baxaq:

Zirvələri ağappaq,
Yamacları çiçəkli,
Dumanları tül kimi,
Buludları şimşəkdi.
Bənövşəsi utancaq,
Laləsi “əliqanlı”
Çeşmələri nəğməli,
Çayları dəliqanlı.
Qoynu qartalı yuvalı,
Meşələri fıstıqlı.
Üstü günəş yorğanlı,
Başı bulud yorğanlı.

Belə şirin bir təsvir, təbii ki, uşaqlarda təbiətə, vətənə sevgi aşılayır. Təsvirlər gözəl və təbiidir. Bunun da bir səbəbi şairin ürək yanğısından irəli gəlir. Qarabağ bölgəsində doğulub, boya-başa çatan Rafiq Yusifoğlu Azərbaycanın əzəmətli dağlarını qarış-qarış gəzmiş və tərənnüm etmişdir. Təbiət mövzusunda yazdığı uşaq şeirlərində quşlar, böcəklər, çiçəklər elə sevgiylə təsvir edilir ki,

yaş fərqi olmadan oxucu söhbət açılan mənzərəni, quşu, çiçəyi sevir və valeh olur. Bu şeiirlərdə yalnız sevgi aşılamır, sevdiyin varlığı qorumaq, uğrunda mübarizə aparmaq məsələsini də kiçik yaşlı balalara tövsiyyə edir. Bunu açıq şəkildə bəyan etmir. Sadəcə olaraq bizim olduğunu, qiymətini, dəyərini , gözəlliyini əks eləyir. Uşaqlar da bir həqiqəti duyurlar - sənin olanı qorumalısan, sahib çıxmalısan.

"Gələn bahara kimi" şeirində müəllif yazır:

Dimdiyində çöp tutub,
Havada uçurdu quş.
Bu yarpaqsız ağaca
Qonub yuva qurdu quş.
Ağac yaman kövrəldi,
Qüvvət duydu dizində.
Yaş tumurcuq-tumurcuq
Gilələndi gözündə.
Sevindi, sevincindən
Ürəyi dağa döndü.
Açıldı tumurcuqlar
Yaşıl yarpağa döndü.

Rafiq Yusifoğlunun uşaq kitabları çoxdur və çoxunda da yurd- yuva məsələsini qaldırır. Onun" Yurdum-yuvam", "Böyük arzuya gedən yol", "Çiçək yağışı", "Ətirli düymələr", "Aylı cığır", "Şirin yağış", " Zamanın qatarı", " Yollar", " Söz çəməni", "Tapmacalar ölkəsi", " Şirin yuva", " Daha uşaq deyiləm", " Ana dilim", "Qızıl məktublar", "Bulud fayton" vəs. kitabları nəşr olunmuşdur. Eyni zamanda Rafiq Yusifoğlunun bir çox uşaq əsərləri orta məktəb dərsliklərinə salınmışdır ki, bu əsərlər məktəbli uşaqlarımızın təlim və tərbiyəsində mükəmməl əhəmiyyət kəsb edir. "Bənövşə, bəndə düşə ", "Üçrəngdi bayraq", "Əlifbam"," Su", "Ağac boş qaytarmadı", "Ən gözəl yer", "Müəllim", "Böyürtkən kolu", "Ananın iş otağı", "dünyamızı bəzəyək", "Atam", "Dörd qardaş", " Əl", "Fəsillər" kimi şeirləri bu baxımdan yazılan poeziya nümunələrini Azərbaycan uşaq

ədəbiyyatının inciləri kimi böyük fəxr hissi ilə dəyərləndirə bilərik.

Bəzi şeirlərində lakonikliyə üstünlük verən şair az sözlə gözəl təsvir yaradır. Məsələn , "Əks-səda " şeirindəki kimi.

Saç-saqqalı ağdı bu,
Dağdan ağır dağdibi.
Adama söz qaytarır,
Elə bil uşaqdı bu.

Bir səbəb də uşaqlarla uşaq olmasındadır. Onlara olan hədsiz sevgisi bir çox şeirlərində də qabarıq şəkildə əksini tapır. Digər səbəblərdən biri də şairin Azərbaycanın ən səfalı bölgəsində dünyaya gəlməsindədir. Yurdumuzun ən gözəl guşəsində - Qubadlıda doğulub boya-başa çatması, kəndin, torpağın saflığından yoğrulması onun uşaqlarla münasibətində gözəl iz buraxıb və bu da onun şeirlərinə hopub. Şeirlərinin dili ona görə də xalq dilindən su içir. Onun şeirləri keçmişi unutmamaqla, yeniliyi yarada bilmək gücündədir. Məsələn bəzi şeirlərində uşaqların yenilik axtarışında olmalarını da nəzərə alır. "Paraşut" şeirində maraqlı təsvirlər diqqət çəkir.

Təyyarənin gözündən
Qopdu bir damla yaş tək
Aşağıya endikcə,
Onu şişirtdi külək.
Mavi göydə balaca
Adadı bu paraşüt.
Uçuşun sonundakı
Nidadı bu paraşüt..

Şair uşaqlara "hələ qanmayan, başa düşməyən" uşaq kimi yox, sabahımızın igidləri, qəhrəmanları kimi baxır. Onların iç dünyasına girən, onların dillərində danışan şair özü də uşaqlaşır, uşaq dünyasının sevincinə qərq olur. Əslində uşaqlarla dil tapmayan, onların sirrini bilməyən, dərdlərinə şərik olmağı bacarmayanlar onlar üçün şeir yaza bilməz, müəllif şeirlərinin

birində uşaq şairlərinin incə qəlbli olduğlarından şirin – şirin söhbət açır.

Uşağın psixologiyasını bilmək, onun düşüncə tərzinə vararaq, ona maraqlı gələn hadisələri seçərək şeirləşdirən müəllif ancaq uşaqla uşaq olmalı, onun səsini eşidə bilməlidir. Sanki güllərin-çiçəklərin dilin bilirmiş kimi. Yalnız uşağa sevgidən doğan şeirlər sevilir, yadda qalır və fərqlənir.

Barmağımı kəsmişəm,
Ağrısına dözmüşəm.
Tez ol sarı anacan,
Niyə ufuldayırsan?
Mənim yaram ağrıyır,
Sənin haran ağrıyır?

Bir az yumorla, uşaq düşüncəsi ilə yazılan misralar elə əslində ağıllı uşaqların hazırcavablığını, özlərinəməxsus düşüncələrini səmimi bir dildə, poetik biçimdə oxucusuna verir. Əsərlərində uşaqların gözəl məntiqə malik olması da poetik misralarla diqqətə çatdırılır.

Budağa bax, budağa,
Hey ucalır, qalxır o.
Boylanıb pəncərədən
Evimizə baxır o.
Deyirəm ki, utanma,
Keç içəri ay, ay budaq.
Evdə tək darıxıram,
Gəl birlikdə oynayaq.
Yalvarıram nə qədər,
Bəs niyə baxmır sözə?
Yəqin anası ağac
Onu buraxmır bizə.

Şairin dialoq əkilində yazdığı şeirlərdə də gözəl, dəyərli mühakimələr var. Bu tipli şeirlər uşaqların məntiqi bilik və bacarıqlarına gözəl təsir edərək, onlarda düşünmə bacarığı yaradır.

Şeirdə düşündürücü fkirlər bugünkü yeniyetmələrimizi də maraqlandırır. Sanki bir tapmaca xarakteri daşıyaraq, onu açmaq hissləri oyadır.

-Ot kimindi?
-Biçənin.
-Süd kimindi?
-İçənin.
- Ad kimindi?
-Dinənin.
-At kimindi?
-Minənin.
- Köz kimindi?
-Yananın.
-Söz kimindi?
-Qananın.

Sadə, lakin məntiqli bir poetik şeir görürük və bu şeirlər uşaq ağlını kamilləşdirməyə güclü təsir göstərir.

Şairin bu tipli şeirləri yüzlərcədi. Məhz buna görədir ki, Rafiq Yusifoğlu uşaq ədəbiyyatı üzrə bir sıra mükafatların laureatıdır. O, 1989- cu ildə "Ətirli düymələr" kitabına görə Azərbaycan Komsamolu Mərkəzi Komitəsi, Azərbaycan Dövlət Mətbuat komitəsi və Azərbaycan Yazıçılar İttifaqının" İlin ənyaxşı kitabı" mükafatına, 2000-ci ildə "Bahar qatarı" kitabına görə Azərbaycan Yazıçılar Birliyinin mükafatına, 2016-cı ildə isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin ən yaxşı uşaq ədəbiyyatı üzrə elan etdiyi müsabiqədə poeziya üzrə birinci mükafata laiq görülmüşdür.

Şairin istər böyüklər üçün, istərsə də kiçiklər üçün yazdığı kitablar heç zaman görkəmli ədəbiyyatşünas alimlərin diqqətindən qaçmamışdır. Tədqiqatçı alim, professor Məmməd Əliyev yazır: "Rafiq Yusifoğlu az sözlə dərin məna ifadə edə bilən şairlərdəndir, Lakonizim Rafiq Yusifoğlunun yaradıcılığı üçün səciyyəvi cəhətlərdəndir."

Akademik Nizami Cəfərov onun yaradıcılığını, alimlik və pedaqoji fəaliyyətini yüksək qiymətləndirərək yazır:" Azərbaycan

Respublikasının əməkdar mədəniyyət işçisi, "Göyərçin jurnalının baş redaktoru, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu ədəbi, eləcə də pedaqoji ictimaiyyətimizdə özünəməxsus nifuzu, çəkisi olan qələm dostumuzu qarşıda hələ yeni-yeni axtarışlar, yeni ədəbi uğurlar gözləyir".

Dəyərli Rafiq Yusifoğlunun uşaq əsərləri Azərbaycan uşaq poeziyasının daha da mükəmməl şəkildə formalaşmasına təsir edir və uşaq ədəbiyyatı inciləri kimi dəyərləndirməyə əsas verir.

**Lamiyə Xanlarova**
**filologiya üzrə fəlsəgə doktoru, AMEA**

*"V. Uluslararası Çocuk ve Gençlik Edebiyatı Sempozyumu"nun materialları. İstanbul, 2018, s. 323-326*

## RAFİQ YUSİFOĞLUNUN YARADICILIĞINDA ÇOCUK ŞEİRLƏRİ

### ("Nağıl qapısı" kitabı və "Kötük" şeiri əsasında)

**Özət.** Makale, şair, edebiyat eleştirmeni, profesör, Azerbaycan Cumhuriyeti Şerefli Sanat İşçisi, "Güvercin" dergisinin genel yayın yönetmeni Rafik Yusifoğlu'nun çocuk edebiyatına yönelik "Masallar Kapısı" adlı kitabında yer alan bazı şiirler ve "Kütük şiiri" incelenmiştir.

**Açar sözler:** şair, sanat İşçisi, edebiyat eleştirmeni, "Güvercin" dergisi

**Summary.** In the article is studied some poems and the poem "Stub" included in the book "The Door of the Tale" dedicated to children's literature, by Honored Art Worker of the Republic of Azerbaijan, editor-in-chief of the journal "Pigeon", poet, literary critic, professor Rafig Yusifoglu.

**Keywords:** poet, art worker, literary critic, "Pigeon" magazine

XX əsr Azərbaycan uşaq şeri bir tərəfdən şifahi ədəbiyyat xəzinəsindən, digər tərəfdən ölməz sənətkarların hikmətlə dolu nəsihətamiz əsərlərindən bəhrələnmiş, nəhayət, əsrin demokratik

məzmunlu ədəbi irsi zəminindən yeni inkisaf mərhələsinə daxil olmusdur.

Azərbaycan uşaq ədəbiyyatının ilk kamil nümunələrini M.Ə.Sabir, A.Səhhət və A.Şaiq kimi görkəmli sənətkarlar yaratmışlar.

Əsrin əvvəllərindən başlayaraq A.Şaiq uşaq ədəbiyyatı ilə ardıcıl məşğul olmuş, uşaq ədəbiyyatının təməlini qoymuşdur. Onun yeni mündəricəli poetik yaradıcılığında gənc nəslin nəcib mənəvi keyfiyyətləri, ana vətənə sədaqət, əməyin qüdrəti bədii əksini tapmışdır.

Gənc müasir şairlər uşaq ədəbiyyatı nümunələri yaradarkən A.Şaiqin açdığı cığırla irəliləyirlər. M.Müşfiq, S.Rüstəm, S.Vurğun, R.Rza, M.Seyidzadə, H.Əlizadə, M.Dilbazi, O.Sarıvəlli, N.Rəfibəyli, M.Rzaquluzadə,Ə.Abbasov, Ə.Cəmil kimi şairlərin yeni uşaq şerinin yaranmasında misilsiz xidmətləri olmuşdur.[1]

M.Dilbazinin uşaqlar üçün yazdığı bir şeiri xüsusi qeyd etmək istərdik:

*...Laylasında anam mənə*
*Belə demiş dönə-dönə;*
*– Bir anan mən, biri Vətən,*
*Yadda saxla bunları sən.*[2]

Şairə uşaqlara ana və Vətənin önəmliliyini, eyni mahiyyət daşıdığını sevgi dolu həssaslıqla şeirinə gətirmişdir.

Doğma vətəni uşaqlara sevdirmək hissi özünü M.Rzaquluzadə, Ə.Abbasov, Z.Cabbarzadə, B.Azəroğlu, B.Vahabzadə, İ.Səfərli, N.Xəzri, H.Hüseynzadə, H.Abbaszadə, A.Babayev, M.Gülgün, Ə.Kərim və b. şairlərin şeir və poemalarında da öz əksini tapıb.

Bədii ədəbiyyatın üzvi tərkib hissəsi olan uşaq ədəbiyyatını

---

[1] Azərbaycan uşaq ədəbiyyatı antologiyası, 3 cilddə, II cild. Bakı, "Öndər" nəşriyyatı, 2004, s.4.
[2] Yenə orada, s.5.

dövrlər üzrə araşdırsaq, bu ədəbiyyatın, əsasən zamanın, ictimai-siyasi durumun çağırışına bağlılığının da şahidi olarıq. Bu anlamda 60-cı illər uşaq poeziyası, 50-ci illərin eyniadlı ədəbiyyatından fərqlənir. Belə ki, ənənəvi mövzular, qəhrəmanlıq – şücaətlə bağlı mövzularla yanaşı, qlobal hadisələr, zamanın yeni hadisə və tələbləri, kosmosun fəthi, ümumdünya hadisələri də uşaq təfəkkürünə, yaşına uyğun tərzdə ədəbiyyata sirayət edir. Beləliklə də, XXI əsr öz tələbləri, öz mövzuları çərçivəsində yeni uşaq şair və yazarlarını yetişdirir. Yetişən bu nəsil içərisində uşaq ədəbiyyatına qəlbən bağlılığı ilə seçilən Rafiq Yusifoğlunu xüsusi qeyd etmək istərdim.

Şair, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, "Göyərçin" jurnalının baş redaktoru Rafiq Yusifoğlu müasir Azərbaycan uşaq ədəbiyyatının ən görkəmli nümayəndələrindən biridir. O, "Qızıl kəlmə", "İlin ən yaxşı kitabı", "Vətən", "Qızıl qələm", "Araz" və s. ədəbi mükafatların laureatıdır. 2016-cı ildə Təhsil Nazirliyinin uşaq ədəbiyyatı üzrə elan etdiyi müsabiqədə poeziya üzrə birinci mükafata layiq görülmüşdür. Rafiq Yusifoğlunun indiyədək orta məktəb dərsliklərinə düşən əsərlərinin biblioqrafik göstəricisi dörd yüzə yaxındır. Onun əsərləri bir sıra dillərə tərcümə olunmuş, şeirlərinə xeyli sayda mahnılar bəstələnmişdir. Şairin "Yurdum-yuvam", "Ətirli düymələr", "Aylı cığır", "Çiçək yağışı", "Böyük arzuya gedən yol", "Söz çəməni", "Yollar", "Daha uşaq deyiləm", "Quşlar dünyası", "Zamanın qatarı", "Sabahın sorağında", "Qızılı məktublar","Bulud fayton", "Yaddaş kitabı" və sair kitablarında toplanan şeirlər, poemalarAzərbaycan uşaq ədəbiyyatının ən gözəl nümunələri sırasındadır. Bu il şairin "Nağıl qapısı" kitabı "Qızıl kəlmə" mükafatına layiq görülüb.

Zahid Xəlilin təklifi ilə uşaq ədəbiyyatı ilə məşğul olan şairin uşaq şeirləri haqqında ilk sözü isə Tofiq Mahmud yazmışdır. O, "Niyyəti saf, arzuları təmiz" adlı məqaləsində yazır: "Gənc şair Rafiq Yusifoğlunun şeirlərini oxuduqda duydum ki, uşaq

ədəbiyyatına maraqlı və istedadlı bir şair gəlir... Rafiq Yusifoğlu ədəbiyyata həvəslə, məhəbbətlə, xeyirxahlıqla gəlmişdir... Kimin ki, məqsədi aydındır, ədəbiyyata gözəl arzularla gəlir, onun yolu uğurlu və mənalı olacaqdır”.[3]

Uşaq ədəbiyyatı sahəsində Rafiq Yusifoğlunun əməyinə verilən qiymət, söylənilən xoş fikir və yazılan təəssüratlar çoxdur. Bu, ayrı bir tədqiqat mövzusudur. Biz, müəllifin şeir, poema, nağıl və həmçinin “Aylı cığır” və “Zamanın qatarı” kitablarındakı əsərləri özündə cəmləşdirmiş “Nağıl qapısı” kitabı və “Kötük” şeiri haqqında söz açmaq istərdik.

“Uşaq dünyası – işıq dünyası” yarımbaşlığı ilə başlayan bu kitabın ilk şeiri “Bərəkət bayrağı” adlanır. Dövlətimizin rəmzi əlaməti olan bayrağımızla qürur duyan şair göyqurşağının belə Lələtəpə dağına endiyini qeyd edir və bunu sual üstündə qurmaqla Vətənimizin bayrağının möhtəşəmliyinə nəzər-diqqəti artırır. Kitabın məhz bayraqla bağlı şeirlə başlaması uşaq təfəkküründə, yaddaşında Vətən torpağına olan sevgini gücləndirmək məqsədi daşıyır:

*Hamı fərəhlə baxır*
*Yurdumun bayrağına...*
*Göyqurşağı enibdir*
*Lələtəpə dağına?*[4]

Torpağımızın bərəkətli, ruzili olduğunu şeirində /**Sevindi torpaq ana, Taxıl çıxdı qurşağa, Sarı-sarı sünbüllər Döndü nura, işığa**/..., – yazan şair dalğalanan zəmilər və eyni zamanda dalğalanan bayraq arasında paralel aparır. Bərəkətli vətən torpağı ilə onun rəmzi olan bayraq arasında vəhdət yaradaraq Vətənimizi tərənnüm edir.

Kitabın növbəti şeirlərindən biri, Vətən mövzusunun ayrılmaz tərkib hissəsi olan analara həsr olunmuş “Ana şəkli” şeiridir.

---

[3] Niyyəti saf, arzuları təmiz. “Pioner” jurnalı, 1978.
[4] Rafiq Yusifoğlu. Nağıl qapısı. Bakı, 2018, s.3.

Düşünürəm ki, hər kəsin uşaq vaxtı rəngli qələm və ya təbaşirlə çəkdiyi ana şəkli yadındadır. Hələ uşaq və ata-ananın əl-ələ tutduğu şəkli demirəm... Təbaşirlə anasının şəklini çəkən və həmin şəklə sığınan bir uşağın xəyalına həsr olunmuş bu şeir bizim də hər zaman ehtiyacda olduğumuz ana-övlad sevgisinin tərənnümünə həsr olunub:

*Mən asfaltın üstündə*
*Bir qadın şəkli çəkdim.*
*Eynən mənim anamdı,*
*Görün necə qəşəngdi?!*[5]

Uşağın dili ilə şəkli danışdıran şair anaları hər kəsdən fərqləndirən şirin-şəkər layladan söz açır. Bəlkə elə o an Rafiq Yusifoğlunun qulağında anasının oxuduğu layla səslənir, bəlkə də o, həmin laylanı sakit səslə zümzümə edərək aşağıdakı bəndini yazır:

*Şirin layla səslənir*
*Elə bil dodağında...*
*Ta mənə zaval yoxdu*
*Anamın qucağında...*[6]

Bu fəsildə təbiətə, heyvanat aləminə sevgiyə də önəmli yer verilir. Uşaqlar heyvana qayğı göstərməklə qayğıkeş olmağı öyrənirlər. "Küçük" adlı şeir bu anlamda marağımıza səbəb oldu. Ağlayan uşağa yaxınlaşan itə uşaq bir parça çörək verir. Heyvanların ən sadiqi olan küçük ona belə deyir:

*...Bir tapşırıq ver mənə*
*Sənin üçün işləyim.*
*Kim döyibsə xətrinə*
*Gedib onu dişləyim.*[7]

---

[5] Rafiq Yusifoğlu. Nağıl qapısı. Bakı, 2018, s.9.
[6] Yenə orada, s.10.
[7]Yenə orada, s.28.

Bu kitabın maraqlı tərəflərindən biri də ondan ibarətdir ki, yarımbaşlıqlar – 1. Uşaq dünyası – işıq dünyası. 2. Tariximdən gələn səslər, mənə doğma olan kəslər.3. Şuşa nəğmələri. 4. Havam, suyum, torpağım, otum, gülüm, yarpağım. 5. Fəsillər və nəsillər. 6. Sizdən hərəkət, bizdən bərəkət. 7. Qazaxıstan nəğmələri. 8. Sehrli aləm. 9. Poemalar-nağıllar. 10. Gül və bülbül. 11. Bacadan yağan qızıl. 12. Zamanın qatarı və s. bu sayaq şeirlər üstündə yazılaraq, mərhələ-mərhələ uşaq zəkasına aşılanır.

Növbəti şeir ana-övlad sevgisinin tərənnümünə, isti ana nəvazişinə həsr olunub. "Anamın sözü" adlanan bu dərin mənalı, lakin sadədilli şeir əvvəl qeyd etdiyimiz mövzuların mabədi kimi çıxış edir və ana-övlad sevgisinin mənzərəsinə tamlıq gətirir:

*Nə var anaya*
*Övladdan əziz?*
*Körpə balama*
*Sevgim bir dəniz.*[8]

Ümumiyyətlə, Rafiq Yusifoğlunun uşaqlara həsr etdiyi şeirlərin ana axarında Vətən, ana sevgisi önəmli yer tutur.

Həyatımızın ən ağrılı-acılı səhifəsi – Şuşanın işğalı, doğma torpaqlarımızın yadların ayağı altında qalmasıdır. Qarabağ – Azərbaycandır! Buna heç bir şübhə ola bilməz... Tarixin yaddaşına qanlı hərflərlə həkk olunan baş vermiş bütün hadisələr, uşaqlara da, onlara xas bir dildə, aşılanmalıdır. Haqq, ədalət, ərazi bütövlüyü, Vətənə sevgi, uşaqların yaşları nəzərə alınmaqla, ədəbiyyatda hər zaman öz əksini tapmalıdır:

*...Deyirəm, təbiət necə*
*Əlvan çələng toxuyurmuş?!*
*Şuşada bitən çiçək də*
*Bülbül olub oxuyurmuş.*[9]

Və ya

---

[8]Rafiq Yusifoğlu. Nağıl qapısı. Bakı, 2018, s.10.
[9] Yenə orada, s.61.

*Əlçatmaz zirvə olub*
*Cıdır düzü yadlar üçün.*
*Ancaq bu gün qəribsəyib,*
*Şahə qalxan atlar üçün.*[10]

"Zamanın qatarı" başlığı altında şair təbiəti, dörd fəsli özünəməxsus və eyni zamanda doğal şəkildə təsvir edir. Sanki şair hər misraya öz uşaqlıq illərinin xatirəsini də əlavə edir. Onun "Təbiətin dörd keşikçisi" adlı şeiri bu cəhətdən çox maraqlıdır:

*...Ay qış, hara gedirsən? –*
*Soruşub köks ötürdüm.*
*Gedirəm bahar gəlsin,*
*Mən növbəmi bitirdim...*
*Bahar, Yay, Payız və Qış –*
*Biz dörd qardaş, dörd fəsil,*
*Keşiyini çəkirik*
*Təbiətin müddəsil.*[11]

Uşaqlarla yanaşı, gənc nəslin tərbiyəsi də ədəbiyyatın əsas mövzularındandır. Bu baxımdan hər bir tarixi dönəmdə, o cümlədən klassik ədəbiyyatda gəncliyin sağlam ruhda yetişməsinə böyük yer verilib.

Qayəsi nəsihət-ibrət və tövsiyələrin məcmusu kimi çıxış edən bu mövzulara Sədi Şirazinin "Oğul tərbiyəsi", Nizami Gəncəvinin "Oğlum Məhəmmədə nəsihət" və b. klassiklərin yaradıcılığında da rast gəlirik. Şairlər öz yaşadığı mühitdən narazılıqlarını oğullarına müraciətən yazsalar da, əslində öz notlarını cəmiyyətin bütün gənclərinə illətirlər.

Gəncliyin əməli-saleh böyüməsində Rafiq Yusifoğlunun "Kötük" şeiri bir neçə yöndən nəzər-diqqətimizi cəlb etdi. Şeirə nəzər salsaq, ilk öncə bu şeir cocuqlar üçün təbiətin – ağacın təsviri, baba və nənələrə mütəşabeh tutulan simvolik rəmzdirsə,

[10] Rafiq Yusifoğlu. Nağıl qapısı. Bakı, 2018, s.62.
[11]Yenə orada, s.62.

digər tərəfdən gəncliyə aşılanan ailə bütövlüyü, ailə şəcərəsinin tərənnümüdür. Cəmiyyətin əsasını məhz sağlam ailə təşkil edir:

*Elə düşünmə ki, qocadır kötük,*
*İstəsən, sən ondan dəyanət istə.*
*Alçaq boyuyla da ucadır kötük,*
*Neçə şiv doğranar bir kötük üstə.*

*Ömrünün o ötən, itən çağını*
*Necə ki, lazımdır, yaşayıbdır o.*
*Bir ağac ömrünün ağırlığını*
*Bir zaman çiynində daşıyıbdır o.*

*Kiçik zoğlar çıxıb hər tərəfindən,*
*Bürüyüb ətrafı yaşıl bir örtük.*
*Elə bil babadır, nəvələrini*
*Toplayıb başına qocaman kötük...*

Haqqa doğru gedən karvanın yolçusu olmaq üçün kamillik zirvəsinə ucalmaq lazımdır. Əməli-salehliyin ilk təməli isə cocuqluq dövründə qoyular.

Bu anlamda Rafiq Yusifoğlunun cocuq şeirləri qayəsi baxımından düşünürəm ki, ədəbiyyatımıza qiymətli bir töhfədir.

**M.H.Quliyeva**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Erkən yeni dövr Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri, filologiya elmləri doktoru**
**"VI. Uluslararası Çocuk ve Gençlik Edebiyatı Sempozyumu"nun materialları,** İstanbul, 2019, **s-293-296**

# BAĞIMSIZLIK DEVRİ ÇOÇUK ŞİİRİNDE VATANSEVERLİK KONUSU

Azerbaycan çocuk edebiyatı yıllarca sınavdan geçti. Klasik çocuk şiirimizin unutulmaz pek çok temsilcisi var, yani Azerbaycan'ın bağımsızlık dönemindeki çocuk şiiri bu muhteşem kaynaklar üzerinde gelişmekte ve şekillenmektedir.

Azerbaycan edebiyatında birçok çocuk edebiyyatı yazarı var. Abdulla Shaig, Mirza Alakbar Sabir, Abbas Sahhat, Mirvarid Dilbazi, Tofig Mahmud, Khaniman Alibeyli, Zahid Halil, Rafig Yusifoğlu, Sevinj Nurigizi ve çocuk edebiyatına iyi örnekler yaratan diğer yazarlar, özellikle Azerbaycan'da vatansallıkta çocuk felsefesi yaratıyor. 90'lı yılların şiir örnekleri Azerbaycanlı çocuk edebiyatında daha da belirgindi. Bugün ülkemizin binlerce mülteci ve mülteciye ev sahipliği yaptığı günümüz Karabağ savaşında, yazarlarımız çok zor işlerle karşı karşıya kalıyor, en önemlisi çocuklarımızın sevgisini artırmak ve vatan nedir? Çocukların uygun inokülasyon sorunu sorudur. Çocuklar için yazılmış şiir, modern çağın nabzını tutmalıdır. Aynı zamanda, sadece yazılan eserlerin biçimine değil, içeriğin ve fikirlerin saflığına da vurgulanmalıdır. Araştırmalar, günümüz çocuk şiirinin bu konuda birçok gelişme kaydettiğini gösteriyor: Özellikle, Azerbaycan'ın şiirinde, Zahid Halil, Rafig Yusifoğlu, Sevinj Nourouqizi, Alemdar Guluzade gibi vatanseverliğin tanıtılması yaratıcı eserinde. Makalemde, bu yazarların Azerbaycan'ın bağımsızlık dönemi şiirindeki yaratıcılığındaki vatanseverlik derecesinden bahsedeceğim ve vatanseverlik şiirlerinin bir analizini vereceğim.

Bağımsızlık dönemi, çocuk edebiyatında her alanda olduğu gibi derin izler bıraktı. 1998'de Azerbaycan Yazarlar 10. Kongresinde çocuk edebiyatının sorunları, başarıları tartışıldı ve tartışma çok önemliydi. Azerbaycan'da bağımsızlıktan bu yana çocuk edebiyatının toplanmasında, yayınlanmasında, araştırılmasında pek çok şey yapıldı ve başarıldı. Çocuk edebiyatı kitapları

(Bakü 2006, kara çocuk kitabı "Azerbaycan Çocuk Edebiyatı" (Bakü 2007) ve on çocuk edebiyatı, bilimsel makaleler, adaylık ve doktora tezi hakkında kitaplar Karabağ savaşının bağımsızlığı sırasında çocuk edebiyatı konularına değindi. Nargiz Jabbarli'nin kitabında, Azerbaycan Bağımsızlık Edebiyatı (Cilt 2) adlı kitabında zihniyeti ve psikolojisi nedeniyle derinden yaralandı: "İlk bağımsızlık yıllarından Karabağ savaşı. Çocuk refahı, büyümeye saygı, sadakat, dostluk, doğanın ve vahşi yaşamın güzelliği hakkında küçük bir okur kitlesinin gelişimi, çocuk edebiyatında Hocalı'nın trajedisi ile ilgili 20 Ocak ve sonrasında sürekli bir tema olmuştur.

Bağımsızlık döneminde yüzlerce çocuk şiiri örneği bu yıllarda çocuk şiirinin etkinliğini göstermektedir.

Rafiq Yusifoğlu, çocuklarımızı onlar hakkında düşündüren yazılarımızı yazan şairlerden biriydi. 1966'da liseden mezun oldu ve Azerbaycan Devlet Pedagoji Üniversitesi'nin filoloji fakültesine girdi. 1970 yılında liseden mezun olduktan sonra Azerbaycan Bilimler Akademisi'nde lisansüstü dersine girdi ve tezini savundu ve böylece sanatsal alanın dışına çıkmadı. Rafiq Yusifoglu, 1985-1992 yılları arasında Azerbaycan'ın en etkili çocuk dergisi olan "Göyərçin" dergisinin başkanıdır. Yıllardır, "Goyerçin" yüksek kalitede baskı almak için çok çalışıyor. Çocuklarının şiirlerinin bu kadar canlı ve içten olmasının ve çocuklar tarafından memnuniyetle karşılanmasının birçok nedeni var. Rafiq Yusifoglu, uzun yıllar çocuk dergisinin yaratıcısı, yazarı ve editörüdür. Her gün çocuklarla iletişim kurar, onlarla iletişim kurar. İstediğiniz zaman çocuk yazarlarla tanışın, tavsiyelerini dinleyin ve tavsiyelerde bulunun Rafig Yusifoglu, 83 kitabın yazarıdır. Bu kitapların her birinde, samimiyetini, sadeliğini ve kalbini buluyoruz. Her ne yazarsa yazsın, tatlı bir okuyucuyu yakalar ve bulmacalar. "Dağlarımız" şiiri dağların büyüklüğünü yansıtır. Bu şiir çocuklarımızı ülkelerini sevmeye ve güzelliklerini korumaya teşvik eder.

Zirvələri ağappaq,
Yamacları çiçəkli,
Dumanları tül kimi,
Buludları şimşəkdi.
Bənövşəsi utancaq,
Laləsi "əliqanlı".
Çeşmələri nəğməli,
Çayları dəliqanlı.
Qoynu qartalı yuvalı,
Meşələri fıstıqlı,
Üstü günəş yorğanlı,
Başı bulud yorğanlı....

Elbette ki böyle tatlı bir resim, çocukların doğayı ve vatanı sevdiğidir. Görüntüler güzel ve doğal. Bunun nedeni de şairin yürek kırmasından kaynaklanıyor. Karabağ bölgesinde doğup büyüyen Rafiq Yusifoğlu, görkemli Azerbaycan dağları boyunca şarkı söyledi ve şarkı söyledi. Bu şiirlerde sadece aşk değil, aynı zamanda küçük çocuklara varlıklarını korumalarını ve bunun için mücadele etmelerini tavsiye eder. Bunu açıkça ifade etmiyor. Bu sadece varlığımızı, değerimizi, güzelliğimizi yansıtır. Çocuklar ayrıca gerçeği de biliyor - sahip olduklarınızı korumanız, bununla çıkmanız gerekiyor.

Rafiq Yusifoğlu'nun birçok çocuk kitabı var ve çoğu zaman memleket konusunu gündeme getiriyor. "Yurdu", "Büyük Rüya", "Çiçek Yağmuru", "Parfüm", "Ay İşığı", "Tatlı Yağmur", "Zaman Treni", "Yollar", "Kelimeler», "Bulmacalar ülkesi", "Tatlı yuva" "Ben bir çocuk bile değilim", "Altın mektuplar", "Bulut filosu", "Masal kapısı" kitaplar yayınlandı. Aynı zamanda, Rafiq Yusifoğlu'nun birçok eseri, okul çocuklarımızın eğitimi ve yetiştirilmesinde büyük rol oynayan orta öğretim okullarının kitaplarına dahil edilmiştir. "Menekşe, Düşme", "Üç Bayrak", "Alfabe", "Su", "Ağaç pes etmedi", "En Güzel Yer", "Öğretmen", "Böğürtlen El", "Anneler Odası", "Dünyamızı Dekore Et" "Şiirler", "Babam", "Dört Kardeş", "El", "Bölümler" Azerbaycan çocuk edebiyatının incileri olarak bu konuda yazılmış şiir örnekleri

olarak kabul edilebilir. Şairin şiirleri bir miktar ateş içerir. Karabağ'ın en güzel yerinde doğmuş ve boyanmış - Kubadli'nin doğuşu, köyün yıkılması ve toprağın saflığı, çocuklarla ilişkilerinde güzel bir iz bıraktı ve bu onun şiirlerine yol açtı.

Rafiq Yusifoglu, çocuk edebiyatının bir ödülü. 1989 Sık Kullanılanlar Düğmeleri Kitabı, Azerbaycan Komsomol Merkez Komitesi, Azerbaycan Devlet Basın Komitesi ve Yazarlar Sendikası 'Yılın Kitabı' ödülünü ve 2000 Bahar Kitabı için Yazarlar Sendikası Tofig Mahmud'u aldı. 2016 yılında Azerbaycan Cumhuriyeti Eğitim Bakanlığı, en iyi çocuk edebiyatı yarışmasında şiirde ilk sırayı aldı.

Rafiq Yusifoğlu'nun değerli eserleri, Azerbaycan'ın çocuk şiirinin daha mükemmel oluşumuna katkıda bulunur ve çocuk edebiyatının takdirine temel oluşturur.

Çocuklarımızın şiirlerinde yurtseverlik üzerine yüzlerce şiir vardır ve bunlar modern şiirimizin temelini oluşturur.

**Dr. Leyla Allahverdiyeva**
**Sumqayit Devlet Universitesi**

*"VI. Uluslararası Çocuk ve Gençlik Edebiyatı Sempozyumu"nun materialları, İstanbul, 2019, s-259-263*

## "NAĞIL QAPISI"

*Rafiq Yusifoğlunun yeni kitabı barəsində oxucu sözü*

Ötən ayın son günləri idi. Həmişə bir-birimizi arayıb-axtardığımızdan, Rafiq müəllimin iş otağıma gəlməsi məni təəc-cübləndirmədi. Üstəlik, o hər gəlişində məni ya yeni kitabı ilə, ya təzə bir yazısıyla, ya da dostlar barəsində gətirdiyi xoş xəbərlərlə sevindirməyi bir növü mənim tərəfimdən adətə çevrilmişdi. Onunla qarşılaşanda mütləq xoş duyğular yaşayacağıma artıq daxilən əmin idim. Elə bu gəlişində də Rafiq müəllim məni sevindirdi. Özü də bu dəfə ikiqat. Ona görə ikiqat deyirəm ki, Rafiq müəllim mənə "Nağıl qapısı"nı gətirmişdi. Uşaq dünyasının cizgilərini nağıla çevirib öz səhifəsinə hopdurmuş bu kitabla

yanaşı Rafiq müəllim bildirdi ki, uzaq bir səfərə yola düşür - Amerikaya, nəvələrini görməyə gedir.

Təbii ki, sevinc sevincə qarışdı - həm kitaba görə, həm də nəvələrlə görüş xəbərinə görə. Şəxsən mən dünyada nəvə təbəssümündən, nəvə şıltaqlığından şirin, gözəl heç nə görmürəm. Ona görə də elə o ovqatla da "Nağıl qapısı"nı oxumağa başladım. Öncədən deyim ki, kitab tanınmış uşaq şairi, dəyərli pedaqoq Zahid Xəlilin redaktorluğu ilə işıq üzü görüb. Kitab 10 fəsildən ibarətdir və bu fəsillərdə şairin şeirləri, poemaları, nağılları toplanıb. Həmin nağılların, şeirlərin, poemaların toplandığı səhifələri vərəqlədikcə tam səmimi deyim ki, öncə diqqətimi "Şuşa nəğmələri" çəkdi. Və mən bir yurd həsrətli söz adamı olaraq əvvəl-əvvəl diqqətimi "Şuşa nəğmələri"nə yönəltdim. Və gördüm ki, qələm dostum, dəyərli Rafiq Yusifoğlu "Vurulmuşam Şuşaya" şeirində yazır:

Dindirsən, oxuyacaq,
Qalalar himə bənddi.
Vurulmuşam Şuşaya,
Həm şəhərdi, həm kənddi.
...Gözəl günü öndədi,
Hələ qönçədi Şuşa.
Dağların əllərində,
Sanki xonçadı Şuşa.

Bu şeir 1986-cı ildə yazılıb. Və onda Rafiq Yusifoğlu, elə mən də Şuşanı nələr gözlədiyindən xəbərsiz idik. Bilmirdik ki, bizi qarşıda şuşasızlıq gözləyir. Təbii ki, Şuşa ilə bağlı yazılan nəğmələrin bu ovqatı məni sevindirdiyi kimi, həm də kövrəltdi.

Və "Natəvan bağında" adlı şeirdə mən uşaqlığımın bir məqamını göz önünə gətirməyə çalışdım. Axı uşaq dünyası maraqlarla zənginləşir.

Biz Natəvan nənənin
Əyləşmişik bağında.
Kimidən utanır, onun
Yaşmaq var dodağında?
Gülləri, çiçəkləri,

Pay göndərib yamaclar.
Yaşıl fəvvarələrdi,
Elə bil ki, ağaclar.
Büllur atlığanların
Saçları var upuzun.
Onlar nəğmə oxuyur,
İçində çarhovuzun.
Birdən sular kəsildi,
Gözəl nəğmə yox oldu.
Orxan dedi: - Fəvvarə
Çarhovuza yıxıldı…

Bəli, kitabın bütün fəsillərində uşaq dünyası Rafiq müəlllimin üslubunda elə həssaslıqla, elə səmimi təqdim olunur ki, şeirləri oxuduqca həmin mənzərə göz önündə canlanır. Və tam səmimiyyətlə inanırsan ki, balacalar onları vəsf edən bu şeirlərin həyat diktəsi olduğuna inanacaqlar. Mən həmin şeirlərin ayrı-ayrı nümunələrini sizə təqdim etmək istəyirəm. Düşünürəm ki, bu nümunələr sizləri söylədiklərimə inandıracaqdı.

Kənardakı bulağa
Ağac gör necə baxır?!
O, su həsrətindədi,
Su elə-belə axır.
Ağacı bulaq üstə
Necə aparım axı?
Arx çəkib kölgəsinə,
Gətirərəm bulağı...

Və yaxıd:

- Niyə çılpaq qoyursan,
Bu uca budaqları?
Ay payız, sən nə üçün
Tökürsən yarpaqları?
- Ağaca xeyir gəlməz,
Bu saralmış xəzəldən, -
Qışa hazırlayıram,
Mən onları əzəldən.

Və yaxud:

- Niyə Ay para olub,
Gün bütövdü həmişə?
- Xırdalanmaq, kiçilmək
Yaraşmır ha Günəşə…

Düşünürəm ki, dəyərli qələm dostumun sayca 78-ci kitabı olan "Nağıl qapısı" təkcə balacaların deyil, onlara nağıl danışan, layla çalan valideynlərinin də, uşaq ədəbiyyatını araşdıranların da böyük marağına səbəb olacaq. Çünki şair, ədəbiyyatşünas, Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusiflinin digər kitablarında olduğu kimi, uşaqlar üçün yazdığı bu kitabda da öyrənməli çox şeylər var.

**Əbülfət MƏDƏTOĞLU**
*"Ədalət" qəzeti, 14.08.2018*

## RAFİQ YUSİFOĞLU VƏ ONUN "NAĞIL QAPISI"

Hər bir kitab haqqında oxucu sözü təbii ki, təkcə təbliğ deyil, həm də bu kitaba oxucu münasibətidir, oxucu diqqətidir. Yəni nəyinsə barəsində danışırsansa, deməli, ən azından onun barəsində bilgin var, məlumatlısan. Məlumatlı olmaq isə həm özünün zənginliyindir, həm də oxuduğun kitabdan mənimsədiyinin səndə yaratdığı əlavə bilgi deməkdir. Bax, bir az fikir qarışıqlığı kimi görünsə də, amma tam bir aydınlıq yaratmaq və o aydınlığın içərisindəki bütün çalarları, bütün cizgiləri görmək naminə bir az özünə əziyyət vermək, bir az sözün qatlarına işıq salmaq gərək olur. Onu bacaranda təbii ki, oxuduğunun mahiyyəti də ortaya çıxır və anlayırsan ki, sərf etdiyin zaman kəsiyi səni mükafatlandırıb, səni sevindirib...

Adətən hər bir kitabını maraqla qarşıladığım və bir az da yaş, ədəbi nəsil baxımından özümə doğma bildiyim professor, ədəbiyyatşünas alim, həm də kifayət qədər oturuşmuş şair Rafiq Yusifoğlu mənim üçün sözün bütün məziyyətlərini oxucuya

çatdırmaq, oxucuya sevdirmək qüdrətində olan bir söz yaradıcısıdır. Yəni həqiqi mənada Rafiq Yusifoğlu sözü yaradır, onun bütün modelini, bütün cismini əzaları ilə birlikdə elə ifadə edir ki, oxucu həm sözü görür, həm sözə toxunur, həm də sözlə həmsöhbət olur. Bu da zənnimcə Rafiq Yusifoğlunun sözə təkcə sevgisindən yox, həm də sözə özünü həsr etməsindən irəli gəlir.

Şair dostumun sonuncu kitabının adı "Nağıl qapısı"dır. Bu kitabda onun uşaqlar üçün yazdığı yeni şeirləri toplanıbdır. Bir neçə fəsildən ibarət olan bu kitabda bir uşaq dünyası özünü ifadə edə bilib. İstər kiçik şeirlərdə, istər poema-nağıllarda Rafiq Yusifoğlu obrazlı desəm, özü də "uşaqlaşıb, məsumlaşıb".

Onların dünyasının təkcə şahidinə yox, həm də dünyanı ifadə edən hazırcavab, necə deyərlər, dilli-dilavər uşağa çevrilib. Ona görə də şeirləri, poema-nağılları oxuyanda sənə elə gəlir ki, bunları əvvəldə vurğuladığım kimi ağıllı, düşüncəli, dərrakəli və həm də hazırcavab bir uşaq sənə söyləyir. Bax, şairin də ustalığı, söz yaratmaq qüdrəti burdan qaynaqlanır. O, uşaqların iç dünyasını görür. Üstəlik, o iç dünyaya özünün uşaqlara olan arzusunu da, sevgisini də naxışlayır. Məsələn:

Dənizə bax, dənizə,
Nəğmə yatır dilində.
Dalğalar elə bil ki,
Ağ bayraqdı əlində.
Dəniz yaman hirslənib,
Nərə çəkir, bəs demir.
Ağ bayraq qaldırsa da,
Təslim olmaq istəmir.

Bu şeirdəki dəniz mənzərəsini gözünüzün önünə gətirə bildinizmi? Dalğaların şahə qalxdığını gördünüzmü? Təbii ki, bunlar həqiqətən göz önünə gəlir və görünür. Bax, elə qələmin peşəkarlığı, qələmin qüdrəti burda ortaya çıxır. Və yaxud:

- Ağacların budağını
Bəzəyibdi yenə bahar.
Əncir niyə çiçəkləmir,
Heç çiçəksiz barmı olar?
- Niyə olmur, meyvəyə bax,
Gözə dəyir orda-burda.
Budaqlara yarpaqla bir
Bəhər qonub yaşıl, xırda.
- Çiçəksiz bar olmaz axı,
Yaxşı-yaxşı düşün barı.
- Öz içində çiçəkləyir,
Yəqin əncir ağacları.

Bax, bu şeirin özü uşaqların maraq dünyasının obrazlı ifadəsidi. Çünki əncir ağacının çiçəyini görmək mənə elə gəlir ki, kiməsə müyəssər olmayıb. Olmayan bir şey haqqında uşaqda təsəvvür yaratmaq və onu da o qədər sadə bir formada ifadə etmək nəhayət, dediyinə uşağı inandırmaq... Təbii ki, bütün bunlar hər bir qələm adamına nəsib olmur. Bunu etmək üçün qələm adamının özünün də bilgisi, məlumatı, təbiətlə təması yetərincə olmalıdır. Özü bilməlidir ki, başqasına da öyrədə bilsin. O anlamda Rafiq Yusifoğlunun müraciət etdiyi, daha doğrusu, uşaqların qarşısına çıxardığı bütün mövzularda bilgi və səmimiyyət əsas yeri tutur. Yəni şeirlər uşaqların dərk edə biləcəyi bir səmimiyyətlə təqdim olunur, ikincisi, həmin mövzuların hamısı reallığa, bilgiyə söykənir.

Şairin kitabda toplanmış şeirlərini oxuduqca bəzən adam hissə qapılır. Özünün də xəbəri olmadan həmin o uşaq dünyasının bir üzvünə çevrilir. Və uşaqlığın xatirələri, uşaqlığın bir-birindən gözəl anları səni də elə bir not üzərində kökləyir ki, sən də həmin uşaqlar kimi meşənin ağacların şəhəri olduğuna inanırsan.

Hər ağacın qarşısında
Ehtiramla ayaq saxla.
Burda nə qədər ağac var,
Qurtararmı sanamaqla?!

Qəlbimizə fərəh dolur,
Uzandıqca meşə yolu.
Şəhərin adamı çoxdu,
Meşənin ağacı, kolu.
Biz meşəyə gedən zaman
Bir günəşli səhər idi.
Oğlum dedi:
- Yəqin meşə
Ağacların şəhəridi...

Həqiqətən də, hərdən ucu-bucağı görünməyən və qollarını açıb qucaqlamaq istədiyin, barmağını uzadıb saymağa çalışdığın ağacların sayı-hesabı səni həm çaşdırır, həm təəccübləndirir, həm də meşənin şəhər olduğuna (axı şəhərdə də evləri saymaq uşaqların gücündə deyil və onları heyrətləndirir - Ə.M.) inanırsan.

Rafiq Yusifoğlunun uşaqlar üçün yazdığı bütün şeirlərində mövzu bolluğu var. Yəni o, uşaqlara daşı da, ağacı da, heyvanat aləmini də, çayı da, dənizi də, çeşməni də, hətta buludu da, yağışı da və bütövlükdə təbiəti və coğrafiyanı da o qədər ustalıqla təqdim edir ki, uşaqlar canlı təbiətlə təmas qura bilirlər.

Və onlar təbiətin bu qədər zənginliyi qarşısında həm təəccüblənirlər, həm də bu təəccübün içərisində bir sevinc də yaşayırlar.

Anqut yaman sevinir,
Salamat çıxıb qışdan.
Yuva qurub özünə,
Su otundan, qamışdan.
O yuvanı tap görüm
Tələsmə, düşün bir az.
Anqut kolda, ağacda,
Torpaqda yuva qurmaz.
Axtarıram, gəzirəm
Mən onu bir həftədir.
Yuvası bu gün burda,
Sabah o tərəfdədi.

Gəzəyəndi bu yuva
Qoşulur əsən yelə.
Üzür belədən elə,
Üzür elədən belə...

Və yaxud:

Bizi qonaq çağırıb
Evinə Beken dayı.
Ürəyi ovsunlayır
Dost sovqatı, dost payı.
Sevincindən uçur o
Yer də tapmır özünə.
Qəlbi tək süfrəsi də
Açıqdı dost üzünə.
Xəmir yayılır, sonra
Doğranır yarpaq-yarpaq.
Üstünə ət döşənib,
Ətrinə, dadına bax?!
Hey buğlanır ortada
Süfrə şahı - beşbarmaq.
Çəngələ nə ehtiyac,
Əgər varsa beş barmaq?
Deyib gülür dostumuz,
Di durmayın, tələsin!
Boşqablarda tığlanır
Bir anda ət təpəsi.
Gülür:
- Bizdə məsəl var
Qulaq asın diqqətlə:
"Qazaxla canavarı
Doydurmaq olmaz ətlə".
Zarafat-zarafata
Qoşulur, üzlər gülür.
Yan otaqdan tanburun
Qəlb açan səsi gəlir...

Bu şeirdə söhbət dost, qardaş bir xalqın adət-ənənəsindən, onların süfrə mədəniyyətindən gedir. Və deməli, şeir diliylə şair öz oxucusunu Qazax xalqının məişəti ilə də tanış edir. Sadə, amma

uşağı inandıra biləcək misralar göz önünə ev sahibini də, onun açdığı süfrəni də, həmin musiqi alətini də gətirmək imkanı verir. Bax elə əvvəldə vurğuladığım kimi, bütün bunlar Rafiq Yusifoğlunun sözlə işləmək bacarığını, uşaq dünyasının tələblərini, istəklərini ifadə etmək məharətini göstərir.

Mən dostumun "Nağıl qapısı" kitabını təkcə özüm üçün yox, həm də nəvələrim üçün oxuyanda onların gözlərini necə heyrətlə açdıqlarını, mənə necə maraqla qulaq asdıqlarını diqqətdən yayındırmadım. Hiss etdim ki, bu uşaqlar şairin nağıl dilinə artıq hardasa aludə olublar. Və elə hesab edirlər ki, onlara kitabdan oxuduqlarımı mən özüm danışıram, onlarla mən həmsöhbətəm. Deməli, bu da onu göstərir ki, Rafiq Yusifoğlu istəyinə çatıb, oxucusunu inandırmağı bacarıbdı. Bax, bütün bunlara görə, mən həm bir oxucu, həm də bir dost kimi sevinir və Rafiq Yusifoğlunu təbrik etməyi ürəyimdən keçirirəm. Ümumiyyətlə, kitabdakı bütün şeir və poemalar öz rəngarəngliyilə, xüsusən də uşaqların maraqla seyr etdikləri cizgi filmlərindəki kimi ovqat yaratmaq üslubuyla çox təqdirəlayiqdir, çox uğurludur. Məsələn:

Gör nə tapıb gətirib
Evimizə Gülüzə:
Quşu uçmuş yuvadı
Gilizə bax, gilizə.
İçindəki qurğuşun
Hara gedib?- Uy, uy, uy!
Görəsən hansı quşun
Sinəsində uyuyur?
"Bu yuvadan uçan quş"
Axı kimə gərəkdi?
O gilizin içində
Balaca bir gül əkdim.
Giliz güldana döndü
Güllə gül olub bitdi.
Uşaqların üzündən
Kədər buludu itdi.

Zənnimcə, bu şeirdəki bütün mənzərəni şərh etməyə ehtiyac yoxdur. Yalnız gilizin ölüm daşıyıcısından güldana çevrilməsini izah etmək, özü də bu səviyyədə çatdırmaq artıq şair uğurudur. Ona görə də uğurlar bol olsun, Rafiq Yusifoğlu! - deyirəm.

**Əbülfət MƏDƏTOĞLU**

*"Ədalət" qəzeti, 16.10.2018*

# Rafiq Yusifoğlunun "Nağıl qapısı"

Şair, ədəbiyyatşünas, professor Rafiq Yusifoğlunu yazılarından xeyli sonra tanımışam. Elə bu tanışlığa səbəb də yenə onun yazıları, xüsusilə uşaqlar üçün yazdığı "Üçrəngli bayraq" şeiri olub. İstərdim, "Üçrəngli bayraq" şeirini ilk dəfə oxuyanda necə hisslər keçirdiyimi, sevindiyimi paylaşım.

Bir gün dost evinə qonaq getmişdik. Onda mənim övladlarım məktəbə getmirdilər. Burada uşaqların dərs kitablarına baxırdım. İkinci sinifin "Azərbaycan dili" kitabını vərəqləməyə başladım və ilk səhifələrdə "Bayraq" şeiri qarşıma çıxdı. Oxudum. Elə xoşuma gəldi ki, bir də oxudum və bir də, dönə-dönə... Və hələ də ürəyimdə, bəzən də uşaqlar üçün həmin o sevimli "Üçrəngli bayraq" şeirini söyləyirəm. Baxmayaraq ki, uşaqlar onu çoxdan əzbər bilirlər.... İstedadla yazılmış hər hansı əsər bax belə, oxucunu özünə çəkir və bir daha onu tərk eləmir. Yoxsa Vətən, Bayraq, Qarabağ adına yüzlərlə şeir yazılmayıbmı?

Rafiq Yusifoğlunun uşaq şeirləri maraqlı, cəlbedici və yaddaqalandır. Çünki o, sözü elə sərrast, yerində və səmimiyyətlə deyir ki, oxucu onu asanlıqla qəbul edir. Artıq suala, izaha ehtiyac qalmır... Onun şeirləri sanki bulaq suyu tək dupdurudu, işıqlı və ürəkoxşayandı. "Uşaqlar üçün yazmaq o qədər də asan deyil". Bu cümləni çox işlədirik. Bu baxımdan Rafiq müəllimin şeirləri bizim üçün bir məktəbdi...

Müəllifin bu il ADPU-nin nəşriyyatında çapdan çıxmış "Nağıl qapısı" adlı kitabı uşaqlarımız, müəllimlərimiz, ümumiyyətlə, hamımız üçün çox dəyərlidi. Çünki bu kitabda illərin, bəlkə bir ömrün zəhməti var. "Nağıl qapısı" içindəki şeirlər, poema, poema - nağıllarla zəngin bir şeir toplusudur. Kitabın redaktoru tanınmış uşaq yazıçısı Zahid Xəlildir. Kitabda şeirlər xüsusi bir başlıqla oxucuya təqdim olunur. İlk başlıq "Uşaq dünyası - işıq dünyası" adlanır və "Bərəkət bayrağı" şeirilə başlayır:

Hamı fərəhlə baxır
Yurdumun bayrağına...
Göyqurşağı enibdir
Lələtəpə dağına?
Bu təpədən baxanda
Adamın gülür üzü...
Elə bil ki, sevinir
Yurdumun dağı, düzü...
Torpaqdan ayrı düşüb
Nə qədər zillət çəkdik.
Minaların yerində
Axır ki, zəmi əkdik.

Reallıqda olduğu kimi, şeirdə də düşməni torpağımızdan qovub çıxarır və minaların yerində zəmi əkir şair... R.Yusifoğlu şeirlərinin diliylə uşaqlara Vətənimizi, tariximizi, mənəvi dəyərlərimizi elə gözəl anladır ki, cild-cild romanlar belə bunu bacarmaz. Axı təməl uşaqlıqdan qurulur və o vaxtdan inkişaf edir. Məsələn:

Nəvəm sevir muğamı,
Dinir tar, dinir kaman.
Xanəndə coşub yaman:
- Aman,
aman,
ay aman!

Bu misraları oxuyanda oxucunun üzünə təbəssüm qonur və bir daha muğama aşiq olursan. Mən böyük oxucuları nəzərdə

tuturam. Balacalar isə muğamın nə demək olduğunu anlamağa başlayır...Sonra "Tariximdən gələn səslər, Mənə doğma olan kəslər" başlığı altında şeirlər təqdim olunur.

Yana-yana yaşayar
Abşeronda Yanardağ.
Dərdi böyük olanda,
Yanar torpaq, yanar dağ.

Və yaxud:

Çingiz çaldı "Qaval daş"ı,
Qobustana düşdü haray.
Daş üstündə mürgüləyən
Neçə şəkil vurdu halay.
Burlaxatun oda düşdü,
Salur Qazan yada düşdü.
Qaval daş dindi, elə bil
Əsrlərə səda düşdü...

Görün bu şeirlərdən uşaqlar tariximizlə bağlı nə qədər məlumat öyrənə bilərlər... Uşaqlıqda əzbərlədiyimiz şeirlər bizim yadımızdan çıxırmı heç? Rafiq müəllimin yazdığı şeirlər də unudulmaz olur və qəlbimizdə təkrar olunur...

"Şuşa nəğmələri" adlı növbəti başlıq altında verilmiş şeirlərə baxaq.

Dindirsən oxuyacaq,
Qalalar himə bənddi.
Vurulmuşam Şuşaya,
Həm şəhərdi, həm kənddi.
... Binalar addımlayır,
Gedir üzü sabaha.
Qala divarlarına
Bu şəhər sığmır daha.
Gözəl günü öndədi,
Hələ qönçədi Şuşa.
Dağların əllərində
Sanki xonçadı Şuşa.

1986-cı ildə yazılmış bu gözəl şeir həm də ürəyimizi ağrıdır. Heç dağların əllərində xonça kimi yaraşıqlı, əziz, əsrarəngiz, "Azərbaycanın kanservatoriyası" olan belə möhtəşəm bir şəhəri yağı əlində qoymaq olarmı? Bu şeirdə bir cəngi havası var və o, mübarizəyə, qələbəyə səsləyir bizi...

Təbiət yaddaşında
Neçə şux səs yaşadır.
Qarabağ torpağının
Zənguləsi Şuşadır.

... Gözəldi, çox gözəldi və həqiqətdi bu...

Oynamaq istəmirdim,
Utanırdım düzü mən.
Bir də gördüm meydanda
Qol götürüb süzürəm.
Bu nə iş idi düşdüm,
Yanaqlarım yanırdı.
Rəqs qurtaranda, Şuşa
Başıma fırlanırdı...

İndi də oynayırıq "Tərəkəmə", "Heyvagülü", "Süleymani" rəqslərinə, hələ Qarabağ adına yazılmış mahnılara da. Amma bu o oynamaq deyil, həm də hönkür-hönkür ağlamaqdı... Və biz acı göz yaşlarını silib bu dağı qəlbimizdən siləcəyimiz günlər üçün yaşayırıq....

"Havam, suyum, torpağım, Otum, gülüm, yarpağım" bölümündəki şeirləri də nəzərdən keçirək.

Bulağın səxavəti
Kaş ki, hamıda ola.
Qapısına gələni
Əliboş salmaz yola.
İç, nə qədər içirsən,
Qablarını da doldur.
Qəlbi açıq olanın
Varı-dövləti boldur.

Təbiətin diliylə həm də bizi tərbiyələndirir müəllif. İnsan paylaşdıqca, başqalarına yararlı olduqca özü də xöşbəxt olur, deyilmi?

Budağa bax, budağa,
Hey ucalır, qalxır o.
Boylanıb pəncərədən
Evimizə baxır o.
Deyirəm ki, utanma,
Keç içəri, ay budaq.
Evdə tək darıxıram,
Gəl birlikdə oynayaq.
Yalvarıram nə qədər,
Bəs niyə baxmır sözə?
Yəqin anası ağac
Onu buraxmır bizə.

Bu şeiri kitabdan əvvəl mətbuatda oxumuşdum və çox xoşuma gəlmişdi. Demə, ağacın da anası varmış və o da öz balasını qoruyur beləcə... Rafiq müəllimin şeirləri bax belə insanın ruhunu oxşayır...

Gör nə tapıb gətirib
Evimizə Gülüzə:
Quşu uçmuş yuvadı,
Gilizə bax, gilizə.
İçindəki qurğuşun
Hara gedib? - Uy, uy, uy!
Görəsən, hansı quşun
Sinəsində uyuyur?
Bu yuvadan "uçan quş"
Axı kimə gərəkdi?
O gilizin içində
Balaca bir gül əkdim.
Giliz güldana döndü,
Güllə gül olub bitdi.
Uşaqların üzündən
Kədər buludu itdi.

Bu şeir içindəki məna yükü ilə oxucunu təsirləndirir. Müəllif bu kiçik şeirlə o adamlara, (Ona görə adam deyirəm ki, insan müharibə eləməz) demək istəyir ki, müharibə insan adına yaraşmır, uşaqlara, quşlara güllə atan insan ola bilməz əsla... Gül güllədən gözəldi axı, quşlar, uşaqlar dünyanın cövhəridi axı!

**Mina RƏŞİD**

*"525-ci qəzet", 07.11.2018*

## Məqalələrdən sətirlər

***

...Bəs bu vəziyyətdə necə həll yolu düşünməliyik? Bunun bir neçə yolu var, əlbəttə. İlk növbədə, mütəxəssislərdən, peşəkar uşaq yazarlarından ibarət Elmi Şura yaratmalıyıq. Uşaqlar üçün oxunması vacib, faydalı kitablar xüsusi haloqramlarla kitabxanalara, satış məkanlarına təqdim olunmalıdır. Bir də hər şəxsin məsul olduğu işdə uşaq maraqlarına xidmət, onun sabahına yönələn doğru əmələ imza atmaqla. Məsələn, buna bir nümunə olaraq, "Göyərçin" jurnalını göstərmək olar.

Rafiq Yusifoğlunun redaktoru olduğu "Göyərçin" jurnalının elə tək son bir ildə çıxan bütün saylarına istinadən qətiyyətlə deyə bilərəm ki, hələ də liderliyi qoruyub saxlayan, güclü ənənəsi olan, yaddaşla bu günə körpü salmağı bacaran bir nümunədir. Bununla belə, jurnalda müxtəlif ölkə xalqlarının uşaq ədəbiyyatından seçmələrin verilməsi, folklor, nağıl, hekayə və şeirlərin uşaqların yaş senzinə, düşüncələrinə müvafiq təqdim olunması redaktorun işə təəssübkeş münasibətini sərgiləyir. Görünür, bu təəssübkeşlik həm də ondan doğur ki, Rafiq Yusifoğlu özü də uşaq yazarıdır və uşaqlarımızın gələcəyinə cavabdehlik hissi daşıyan insanlarımızdan biridir.

***Elnarə Akimova.** Çağdaş uşaq ədəbiyyatının problemləri - zamandan gələn notlar. "Ədəbiyyat qəzeti", 14 dekabr 2019*

***

...Qeyd etdiyimiz kimi, fikrin təbiət obrazları vasitəsilə çatdırılması uşaq ədəbiyyatının əsas xüsusiyyətidir. Hər şair bu rəngarəng lövhədən bir naxış götürüb canlandırmağa çalışır və poetik təsvirlərlə uşaqda təbiət hadisələrinə, obrazlarına yeni münasibət formalaşdırmağa xidmət edir. Bu kontekstdən başqa bir nümunəyə baxaq. Rafiq Yusifoğlu "Pəncərədən baxan budaq" şeirində ətrafını, gördüyü hər şeyi öyrənməyə ciddi maraq göstərən uşaq dünyasını şəkilləndirir:

Budağa bax, budağa,
Hey ucalır, qalxır o.
Boylanıb pəncərədən
Evimizə baxır o.

Deyirəm ki, utanma,
Keç içəri, ay budaq.
Evdə tək darıxıram,
Gəl birlikdə oynayaq.

Yalvarıram nə qədər,
Bəs niyə baxmır sözə?
Yəqin, anası ağac
Onu buraxmır bizə.

Ağacın boy atıb uşağın olduğu otağın pəncərəsindən boy verməsi onun ağacla rəftarının, təxəyyül gücünün yeni çalarlarını açır. Şeirdə bütöv daxili sistem yaranır - qafiyə, intonasiya müəyyən fikir daşıyıcısına çevrilir, daxili komponentlər arasında bədii məntiqi keçidlər baş tutur.

**Elnarə Akimova.** *"Uşaq ədəbiyyatının praktik imkanları: mətn və onun bədii təsir gücü" məqaləsindən. "Ədəbiyyat qəzeti", 21 dekabr 2019.*

***

Çağdaş uşaq ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan qələm sahiblərindən biri də tanınmış şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, ədəbi mükafatlar laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğludur. O, 1997-ci ildən bəri uşaqların bir şəxsiyyət kimi formalaşmasında, onların milli vətənpərlik ruhunda böyüməsində xüsusi rolu olan "Göyərçin" jurnalının baş redaktoru kimi fəaliyyət göstərir. Bundan başqa, yazıçı tez-tez uşaq şeirləri ilə mətbuatda çıxış edir, bir-birindən gözəl əsərlər yaradaraq onların bədii təxəyyülünün, estetik zövqünün inkişafında mühüm mövqe tutur. Uşaq psixologiyasına yaxından bələd olan, daim onlarla ünsiyyətdə olan şairin bu vaxta kimi uşaqlara həsr etdiyi onlarla şeir kitabı dərc olunmuşdur. Bunlardan "Yurdum-yuvam", "Ətirli düymələr", "Aylı cığır", "Şirin yağış" (rus dilində), "Böyük arzuya gedən yol", "Çiçək yağışı", "Söz çəməni", "Günlərimiz, aylarımız", "Zamanın qatarı", "Yollar", "Daha uşaq deyiləm", "Ana dilim", "Quşlar dünyası", "Qızılı məktublar" kitablarının adını çəkə bilərik. Rafiq Yusifoğlunun 2018-ci ildə nəşr olunmuş "Nağıl qapısı" kitabında dərc olunan "Qaya kölgəsində göl", "Dəniz darıxacaq", "Qayalar", "Suyu quruyan çay", "Kəpənək", "Buxarlanan qış" əsərləri belələrindəndir. "Arı və mən" [4,89] şeirində uşaq və arının canlı təmasını təsvir edən müəllif onların dostluğunu çizməklə uşaqlarda heyvanlara qarşı maraq, sevgi hissinin yaranmasına çalışır.

**Gülnar RAMİZ**."ÇAĞDAŞ ÇOCUK ŞİİRİ: KONU VE FİKİR ARAMA" məqaləsindən

**"VI. Uluslararası Çocuk ve Gençlik Edebiyatı Sempozyumu",** İstanbul, 2019, **s-329**

# ƏDƏBİYYATŞÜNASLIQ

## ƏDƏBİYYATŞÜNASLIĞA YENİ BAXIŞ

Ədəbiyyat sənətdir və əsrlər boyu bu söz kompleksi araşdırılmamış, stixi formada yazılmış, inkişaf etmişdir. Daha dəqiqi, nəzəri baxımdan onun predmeti, tədqiqat obyekti bir elm kimi formalaşdırılmamışdır. Yalnız antik filosof Aristotel "Poetika", fransız yazıçısı Bualo "Poeziya sənəti" adlı yığcam, lakin fundamental əsərləri ilə açıq qalmış problemə aydınlıq gətirmişlər. Cismən yox, ruhu bizimlə olan bu ədəbiyyatçılar gələcək ədəbiyyatşünaslığın əsasını qoymaqla öz qiymətlərini almışlar.

Konkret Azərbaycan ədəbiyyatşünaslığına gəldikdə, klassik, orta və yeni (bölgü şərtidir) nəsil ədəbiyyatının nəzəri məsələləri ilə məşğul olanlar həm orta, həm də ali məktəblər üçün dərsliklər yazmışlar. Bu sırada mərhum professorlar Cəfər Xəndan və Mikayıl Rəfili ədəbiyyat nəzəriyyəsi tədqiqinin patriarxlarıdır. Bu simalar professional təhsil işçiləri olaraq tələbələrə proqram əsasında "Ədəbiyyat nəzəriyyəsi" (1958), "Ədəbiyyat nəzəriyyəsinə giriş" (1958) kitablarını istifadəyə verdilər.

60-70-ci illərdən etibarən həmin tematika yenidən, yeni ədəbi-tənqidi zövqlə işlənildi. Mir Cəlal, Pənah xəlilov, Abbas Hacıyev, Rafiq Yusifoğlu (Əliyev) və başqaları orijinal dərsliklər nəşr etdirdilər.

Biz bu xatırlatmaya ona görə yer ayırdıq ki, ədəbiyyatşünaslığın əsasları geniş sahəni özündə birləşdirir və müəllifləri "çətin" vəziyyətdə qoyur. Birincisi odur ki, mövzunun standart qəlibləri mövcuddur, Aristoteldən üzü bəri bunlarsız ötüşülməmiş, bəlkə də qeyri-mümkün olmuşdur və həmin "divarlar" sökülməmiş, əksinə, ona "bəzək-düzək" vurulmuşdur. İkincisi odur ki, milli ədəbiyyat, onun tarixi, ədəbi tənqidi və hardasa bu kontekstdə spesifik xüsusiyyətləri vardır, bunlar müəlliflər tərəfindən nəzərə alınmışdır. Belə bir məntiq əsas verir ki, "Ədəbiyyatşünaslığın əsasları"na yeni nöqteyi-nəzərdən, yeni formalaşan bədii ədəbiyyat materiallarının, nəhayət, müəllif-filoloqun ədəbi-nəzəri və estetik dünyagörüşündən yanaşılsın.

Professor Rafiq Yusifoğlu dərsliyi iki dəfə çap etdirsə də, oxucu (tələbə) tələbatını və özünün problemə yeni münasibətini nəzərə almışdır. Dərslik üçüncü dəfə müəllifin problemə yeni baxışında (təfsirində) işıq üzü (2009) görmüşdür. Bu "yeni" sözünü yenilik naminə işlətmək istəməmişik və bəzi nüansları qeyd etmək istərdik. Rafiq Yusifoğlu özünəqədərki filoloq-alimlərdən fərqli olaraq (Mir Cəlal istisnadır) bədii söz sahibidir, şairdir, publisistdir, nasirdir, ədəbi prosesin professional tədqiqatçısıdır - onun içindədir. Bədii ədəbiyyatın praktik incəliklərini çiynində daşıyan istedadlı şair və məhsuldar alimdir. Bu "triada" məncə, fikrimə aydınlıq gətirər müəyyən həcmdə.

"Ədəbiyyatşünaslığın əsasları" dərsliyində müəllif hardasa standart çərçivəni kənara qoyub başqalarının özündə bir kütləvilik - asan dillə qavranmaq mexanizminə üstünlük vermişdir. Maraqlıdır ki, akademizmdən qaçmışdır. Ona görə bu yolu tutmuşdur ki, müasir mənbələr nə qədər yüksək (nəsillərin müqayisəsi baxımından) intellektə malik olsalar da, xeyli hövsələsizdirlər, mürəkkəbliyi savadları ucbatından qəbul etmək istəmirlər. Onlar artıq tənqidi təfəkkürdə bədii idrak metoduna adlamışlar. Yeni təhsil islahatı da bunu tələb edir. Rafiq Yusifoğlu çox düzgün şəkildə bu cəhəti nəzərə almışdır. O, ardıcıl, stajlı ali məktəb müəllimidir, fasiləsiz dərs deyir. Bəzi alimlər kimi

“dünəndən”, “xatirələrdən” çıxış etmir, auditoriyada tələbə gənclərin istəyini görür, hətta onların tutduqları iradı da səmimi qarşılayır.

Baxaq dərsliyin struktur düzümünə: “Ümumi nəzəri-estetik prinsiplər”, “Bədii əsərdə obrazlar sistemi”, “Şeir sənəti və onun qanunauyğunluqları”, “Bədii əksetdirmənin prinsipləri” və s. bunlar iri başlıqlardır, “xırdalayanda” isə “Bədii ədəbiyyatın idraki və tərbiyəvi əhəmiyyəti”, “Sətiraltı məna”, “Bədii portret”, “Daxili münaqişə”, “Bədii detal”, “Ədəbi növ və janr anlayışları”, “Bədii ədəbiyyatda gülüş”, “Sərbəst şeir”, “Ədəbi metod və ədəbi üslub” və ilaxır.

Mən bir məsələyə toxunmaq istərdim. Əsərin (janr fərqi yoxdur) başlığı (sərlövhəsi) müəllifin “ağrılı” yeridir, istəyir ki, əsəri zəifdirsə belə, başlıqla oxucunu “aldatsın”. İndi mütaliə ən ağrılı problemdir. Elmi əsərlərdə yazıçı-şair imkanı məhduddur, lakin mümkünsüz şey yoxdur. Şair Rafiq Yusifoğlu poeziyada bunun mahir ustadıdır, oxuyuruq. Professor Rafiq Yusifoğlu isə xırda başlıqları ilə mətnin məzmununu saxlamaqla yanaşı, oxucuya ilk baxışda elmi fikri bələdləşdirir. Bəli, belə bir ədəbi “fəndgirlik” alqışlanmalıdır.

Rafiq Yusifoğlu ədəbi-nəzəri anlayışların şərhində “ümumilik prinsipini” gözləmişdir, yəni klassik yanaşma və tərifləri elmi mətndən çıxarmamış, qəbul olunmuş müddəaları dərslikdə vermişdir. Məsələn, ədəbiyyatşünaslığın sahələrinin, bədii pafos və onun təzahür formalarının məzmun və formanın, janr prinsiplərinin və s. izahında belə bir metodoloji yanaşmanı görürük. Nəzəri fikirlər yerinə düşən, artıq olmayan iqtibasla möhkəmləndirilir.

Gizli deyil ki, son illərdə elmdə bir sitatçılıq azarı peyda olmuşdur. Gətirilən mənbədən, onun müəllifindən məlumatı olmadığı təqdirdə, səliqəli “xoruz səsi eşitməyən” iqtibaslar mətndə geniş yer alır. Rafiq Yusifoğlu bir alim kimi bir yana, dərsliyə verilən tələbi gözləmiş, artıq, lüzumsuz sitatlardan uzaqlaşmışdır. Rafiq müəllimi tanıyanlar çox gözəl bilir ki, o,

müsahibi ilə söhbətlərində nə deyirsə, nəyi əsaslandırırsa, öz sözünü ortaya qoyur və tərəfmüqabilini yormur. Barəsində danışdığımız kitabın bir müsbət məziyyəti də buradadır.

“Ədəbiyyatşünaslığın əsasları” dərsliyində müəllif ədəbi anlayışların mahiyyətini şərh edəndə nəzəri fikri təhrif etmədən özünün elmi yozumunu da izah edir. Məsələn, bədii portret anlayışına standart yanaşmaq heç də qəbahət sayılmır və ümumi model mövcuddur. Rafiq Yusifoğlu yenə dərsliyin tələblərindən çıxmamaqla B.Qalanova, D.Allakova üz tutur. Lakin milli, yəni özümüzün alimlərini də unutmur, professor İsmayıl Vəliyevdən maraqlı iqtibas verir, əsas diqqəti ona yönəldir. Bədii portreti şərh edərkən öz ədəbi qəhrəmanlarımıza, Hüseyn Cavidə, Səməd Vurğuna, Rəsul Rzaya, Əliağa Kürçaylıya və başqalarına istinad edir. Özü bir şair olaraq bədii portreti daha həyati, canlı və elmi verir. Gənc filoloqlarda milli ədəbiyyatla daha yaxından maraqlanmaq ehtiyacı yaradır. Yaxud, “kompozisiya və süjet” anlayışlarında özünəqədərki dəyərli fikirlərə hörmətlə yanaşır. Mir Cəlal, Əziz Mirəhmədov, E.Timofeyevin əsərlərindən lazımi fikirləri xatırladır. Lakin müəllif olaraq özünün nəzəri sözünü deyir.

Maraqlı bir detal verilmişdir dərslikdə. Adətən, süjet nəsr əsərlərində, epik şeir və poemalarda, dramlarda axtarılır. Rafiq Yusifoğlu ilk dəfə Aşıq Ələsgərin “Düşdü” rədifli qoşmasında süjetin bütün ünsürlərini görmüşdür, nümunə gətirmişdir. Yazır: “Düşdü” rədifli qoşmanın maraqlı cəhətlərindən biri də bitkin bir süjetə malik olmasıdır. Lirik qəhrəmanın bulaq başına gəlməsi hərəkət üçün hazırlıq mərhələsi təşkil edir (ekspozisiya). Onun gözlərinin bir alagöz xanıma düşməsi isə rəbtdir. Yəni burada gələcək hadisə üçün rabitə yaranır. Gözəlin müjgan oxu atması ilə hərəkət başlayır. Onun başını bulayıb gözündən gülməsi, aşığı həyəcana salması kulminasiya, lirik qəhrəmanın bütün ümidlərinin puç olması, qol-qanadının sınıb yanına düşməsi isə açılış-qətdir”.

Ədəbiyyatşünaslıq məsələlərindən yazanlar adətən uşaq ədəbiyyatı anlayışından ötəri bəhs edir və məlum ədəbi faktlarla

kifayətlənirlər. Professor Rafiq Yusifoğlu dərslikdə uşaq ədəbiyyatını nəzəri prizmadan təhlil etmiş, oxucunun təsəvvüründə aydın mənzərə yaratmışdır. Onun bu mənada üstünlüyünə səbəb bir amil də özünü gözəl uşaq şeirləri yazması, orijinal üsluba malik olmasıdır. Burada nəzəriyyə ilə praktika birləşib, bütövləşmişdir.

Müəllifin şairliyi dərsliyin ədəbi üslubuna əhəmiyyətli dərəcədə bir şirinlik gətirmişdir. Bədii sözün şərhi öz orijinallığı ilə diqqəti cəlb edir. Müəllifin ənənəvi mövzulara yeni yanaşma tərzi çox maraqlıdır. Elə mövzular da vardır ki, ədəbiyyatşünaslıq elmimizdə ilk dəfədir ki, öz şərhini tapır. "Sətiraltı məna", "Bədii detal" və s. bölmələr dediklərimizə əyani sübutdur.

"Ədəbiyyatşünaslığın əsasları" dərsliyində digər ədəbi-nəzəri anlayışlar, mövzular da təhlilə cəlb olunmuşdur: bir mühüm tələb gözlənilməklə – dərslik özünün və proqramın tələblərinə birmənalı cavab vermişdir. Müəllif öz baxışlarına sadiq qalmaqla artıq, əlavə təfərrüata imkan verməmiş, klassik təhlil kontekstində məsələlərə aydınlıq gətirilmişdir.

Kitabın müsbət məziyyətlərindən çox danışmaq olardı, lakin oxucunu yormaq istəməzdim, ən orijinal vasitə əsəri oxumaq və qənaətə gəlməkdir. Şübhəsiz, bu iş profesional alimlərin üzərindədir və onlar sözlərini deməyə borcludurlar.

Professor, filologiya elmləri doktoru, şair Rafiq Yusifoğlunun "Ədəbiyyatşünaslığın əsasları" dərsliyi (Bakı, 2009) qiymətli vəsaitdir və tələbələrimiz üçün dəyərlidir.

**Allahverdi Eminov**
**pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent**

*"Müasir Azərbaycan müəllimi" qəzeti,*
*17-19 dekabr 2009-cu il.*

# DƏYƏRLİ DƏRS VƏSAİTİ

"Mən bütün ömrümü, həyatımı şeirə, sənətə, ədəbiyyata, onun tədqiqinə və təbliğinə həsr etmişəm. Hərdən mənə elə gəlir ki, ədəbiyyat mənim Leylimdi, mən isə onun Məcnunu". - Bu sözlər görkəmli Azərbaycan şairi, tanınmış ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğluya məxsusdur və onun yenicə çapdan çıxan **"Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri"** *(ADPU nəşriyyatı, 2010)* kitabının üzqabığında verilməsinin özü də simvolik xarakter daşıyır. Əllidən artıq kitabın müəllifi olan, əsərləri orta məktəb dərsliklərinə düşən Rafiq müəllim ömrünün qırx ildən çoxunu balalarımızın təlim-tərbiyəsinə həsr etmişdir. O, ümumtəhsil məktəblərinin birinci sinifləri üçün yazılmış "Ana dili" dərsliyinin aparıcı müəlliflərindən biridir. Uzun illərdən bəri Sumqayıt Dövlət Universitetində, eyni zamanda Azərbaycan Dövlət Pedaqoji Universitetində mühazirələr oxuyan Rafiq Yusifoğlu ali məktəb tələbələri üçün də bir neçə dəyərli dərslik və dərs vəsaiti yazıb nəşr etdirmiş, həmin fənlərdən əhatəli tədris proqramları da hazırlamışdır. Uzun illərdir ki, ali məktəb tələbələri onun qələminin məhsulu olan "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Uşaq ədəbiyyatı" kitablarından faydalı, dəyərli vəsait kimi bəhrələnirlər.

Bu yaxınlarda Rafiq Yusifoğlunun uzunmüddətli tədqiqatının bəhrəsi olan "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" adlı sanballı elmi monoqrafiyası çap olunmuşdur. Bu monoqrafiya Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası "Azərbaycan dili və ədəbiyyat" bölməsinin qərarı və Azərbaycan Respublikası Təhsil Nazirinin 4 iyun 2010-cu il tarixli 730 nömrəli əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.

Kitabın elmi redaktoru Akademik Bəkir Nəbiyev, rəyçiləri isə AMEA-nın müxbir üzvü, professor Teymur Kərimli, filologiya elmləri doktorları professor Məhərrəm Qasımlı, professor Vaqif Arzumanlı və professor Ramazan Məmmədovdur.

486 səhifəlik bu monoqrafiyada XX əsrdə yazılmış Azərbaycan poemalarının məziyyət və nöqsanlarından elmi şəkildə söhbət açılır. Müəllif ədəbi nümunələrə, nəzəri ədəbiyyata və ədəbi tənqid materiallarına istinadən öz fikir və mülahizələrini söyləyir. Tədqiqatın yeni mili metodologiyanın prinsiplərinə uyğun şəkildə aparılması onun elmi dəyərini daha da artırır, sovet dövrü ədəbiyyatını yeni dövrün tələblərinə uyğun şəkildə, obyektiv meyarlarla qiymətləndirməyə imkan yaradır.

Monoqrafiyanın nəzəri səviyyəsi çox yüksəkdir. Burada poemanın inkişaf meyllərindən, janr xüsusiyyətlərindən, struktur və tipologiyasından söhbət açılır. İkinci fəsildə zaman və qəhrəman, üçüncü fəsildə isə konflikt və xarakter problemi tədqiqat predmeti seçilir. Bu fəsillərin müvafiq bölmələrində ədəbi prosesdə ənənə və novatorluqdan, müəllif və zaman fenomenindən, daxili münaqişədən, yeni xarakter axtarışlarından bəhs edilir. Üçüncü fəsil mühüm sənətkarlıq komponentlərindən bədii portretə, peyzaja, bədii detala, bədii təsvir və ifadə vasitələrinə həsr olunub. Müəllif poemalardan seçdiyi zəngin poetik faktlara istinadən öz fikir və mülahizələrini əsaslandırmağa çalışır və buna müvəffəq olur. Dördüncü fəsildə isə poemaların vəzn və qafiyə sistemi tədqiqat obyekti seçilir.

Ümumiyyətlə götürsək, Rafiq Yusifoğlunun "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" adlı monoqrafiyası çox dəyərli, elmi arqumentləri inandırıcı, bədii faktlarla zəngin bir dərs vəsaitidir. Ümid edirik ki, bu monoqrafiyadan müəllim və tələbələr yetərincə bəhrələnə biləcəklər.

**Günel ALMAZ**

*"Azərbaycan müəllimi" qəzeti, 20 may 2011, s.22.*

# AZƏRBAYCAN POEMASI HAQQINDA UĞURLU KİTAB

XX əsrdə, xüsusən sovet dövründə Azərbaycan şeirinin inkişafı, dövrləri, ayrı-ayrı poetik janrları, onların xüsusiyyətləri haqqında tədqiqat və monoqrafiyalar çox yazılmışdır. Bu əsərlər Azərbaycan poeziyasının keçdiyi tarixi yol, epik və lirik şeir, poetik janrın özəllikləri haqqında kifayət qədər dolğun təsəvvür yaradır.

Dəyərli haldır ki, müstəqillik dövründə poeziyamızla bağlı elmi, ədəbi-tarixi və s. axtarışlar davam edir və daim genişlənir. Tanınmış şair, alim və pedaqoq Rafiq Yusifoğlunun "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" adlı sanballı monoqrafiyası bu baxımdan xüsusi diqqət və rəğbət doğurur. Monoqrafiyada konkret bir problem – Azərbaycan poemasının sənətkarlıq baxımından təkamülü səriştə ilə izlənilmiş, böyük həcmdə material təhlil obyektinə çevrilmişdir.

Mühüm elmi dəyər və araşdırma xarakteri daşıyan bu əsər dərs vəsaiti kimi təsdiq edilmiş, Azərbaycan Təhsil Nazirliyinin Elmi-Metodiki Şurası tərəfindən nəşri məsləhət görülmüşdür. Əslində bu, Rafiq müəllimin yeganə işi deyildir: o bu mövzuda fundamental doktorluq dissertasiyası yazmış, bir neçə monoqrafiya, dərslik, çoxlu sayda məqalə, məlumat, tədqiqat tipli yazılar çap etdirmişdir. Bu kitab xüsusən XX əsrdə Azərbaycan poemasının bir çox nəzəri və sənətkarlıq xüsusiyyətləri haqqında ətraflı təsəvvür yaradır, janrın tədqiq tarixini, tipologiyasını və ənənələrlə bağlılığını mövzu, süjet və problematika əlvanlığını, zaman və qəhrəman problemini, konflikt və xarakter məsələsinin qoyuluşunu, bədii sənətkarlıq komponentləri işığında bədii portret, peyzaj, detal və bədii təsvir, ifadə vasitələrini, eləcə də poemanın vəzn və qafiyə sistemini əhatələyir.

Göründüyü kimi, monoqrafiya nəzəri aspektdə işlənərək, janrın poetik və sənətkarlıq məsələlərinin, Azərbaycan poeziyasının bu güclü qanadının nəzəri cəhətdən çözülməsinə yönəlib.

Professor Rafiq Yusifoğlunun kitabının aktuallığı və əhəmiyyəti də mövzuya konkret şəkildə, nəzəri meyarların və prinsiplərin işığında diqqət yetirilməsindədir. Başqa bir dəyərli cəhət poema janrının həm tədqiqi planda, həm də ədəbi-tarixi baxımdan post-sovet məkanında izlənilməsidir.

Kitab müəllifi poemanın tədqiq tarixini də diqqətlə araşdırmış, vaxtilə bu barədə müxtəlif çaplı nüfuzlu tədbirlərdə və mətbuatda qiymətli məqalə və məruzələrlə çıxış etmiş Məmməd Arif, Məmməd Cəfər, Mir Cəlal, Yaşar Qarayev, Qasım Qasımzadə, Məsud Əlioğlu, Xəlil Rza Ulutürk, Arif Abdullazadə, Şamil Salmanov və qeyrilərinin poema janrı, onun ideya-bədii xüsusiyyətləri, axtarış və nailiyyətləri haqqında sanballı elmi-ədəbi mülahizələrindən də yan keçməmiş, onları vaxtilə düşünülmüş nəzəri-poetik qənaətləri diqqət mərkəzinə çıxartmış, dəyərli fikirləri ilə inkişaf etdirmiş, vaxtilə getmiş ədəbi mübahisələrin (xüsusilə poemanın janr təbiəti, tipologiyası, quruluşu və poetikası ilə bağlı tədbirlərin) nəticələrinə istinad etməklə faydalı və əhəmiyyətli tədqiqat işi aparmışdır.

Müəllif XX əsr poemasının tipologiya təsnifatını vermiş, demək olar ki, poemanın bütün tipləri nəzərdən keçirilmiş, konkret nümunələr göstərilmişdir. Poema müraciət və poema - monoloq, poema - dialoq, nəğmələr poeması, səyahətlər poeması, fraqmentlər poeması, poema-xatirə, poema-məktub, poema-gündəlik, poema-reportaj, ballada, poema-peyzaj, alleqorik poema, düşüncələr poeması, poema-əfsanə, poema-rəvayət, publisistik poema – XX əsr Azərbaycan poemasının tədqiqatçı tərəfindən aşkar edilmiş, tipoloji mənzərəsi bundan ibarətdir. Burada epik (alleqorik poema, poema-əfsanə və s.), (poema-müraciət, nəğmələr poeması, düşüncələr poeması və s.), lirik-dramatik poemaların növləri (poema-monoloq, poema-dialoq və s.) bərabər şəkildə iştirak edir. Maraqlı cəhət burasıdır ki, alim buraya əsasən orta əsr poemasına xas olan alleqorik poemanı, daha artıq publisistik xarakter daşıyan poema-reportaj və publisistik poema kimi nümunələri də daxil etmişdir.

Kitabda istər XX əsrin əvvəllərində yazıb-yaratmış şairlərin, istərsə də sovet dövrü ədiblərinin yaratdığı poemalar nəzərdən keçirilmiş, təsnif edilmiş, mövzu, məzmun və janr xüsusiyyətləri yığcam səciyyələndirilmişdir. Bu məqamda S.Vurğun, R.Rza, M.Müşfiq, M.Rahim, S.Rüstəm, O.Sarıvəlli, Ə.Cəmil, Z.Xəlil kimi sənətkarların əsərləri öz qiymətini aldığı kimi, növbəti və sonrakı nəsillərə mənsub B.Vahabzadə, N.Xəzri, Qabil, İ.Səfərli, M.Seyidzadə, Q.Qasımzadə, Ə.Kürçaylı, A.Babayev, Hüseyn Hüseynzadə (Arif), X.Rza Ulutürk, N.Həsənzadə, F.Mehdi, Ə.Kərim, F.Qoca, İ.Kəbirli, D.Ordubadlı, C.Novruz, İ.İsmayılzadə və b. şairlərin poemalarının sənətkarlıq məziyyətləri də monoqrafiya müəllifinin diqqətindən kənarda qalmamış, həmin müəlliflərin əsərlərinə kifayət qədər təhlil və tədqiq yükü ayrılmış, bir sıra əsərlərin poema janrının inkişafında yeri müəyyən edilmişdir. Bununla yanaşı kitab müəllifinin B.Azəroğlu, Ə.Tudə, M.Gülgün, S.Tahir, H.Bülluri kimi sənətkarların Cənub mövzusunda əsərlərinin əhəmiyyəti haqqında mülahizələri də təqdir edilməlidir.

Rafiq Yusifoğlunun monoqrafiyasında fəsillərdən biri "Zaman və qəhrəman problem" adlanır. Bu fəsildə ədəbiyyatımızın əsas mövzularından biri tədqiqat mövzusu olur, müəllif qayəsinin, onun bədii niyyətinin əsas daşıyıcısı olan qəhrəman haqqında geniş söz açılır. Ümumiyyətlə, ədəbiyyatımızın "zəngin xarakterlər qalereyası" olduğu, ədəbiyyatımıza daxil olan poemalarda, xüsusilə H.Cavidin, A.Şaiqin, S.Vurğunun, R.Rzanın, M.Müşfiqin, S.Rüstəmin, B.Vahabzadənin, N.Xəzrinin, Qabilin, N.Həsənzadənin, Əli Kərimin məşhur qəhrəmanlarının ən ülvi və mənəvi-əxlaqi sifətləri, cəmiyyətə örnək xüsusiyyətləri ilə seçildiyi ön plana çəkilir. Müəllif bu məqamda haqlı olaraq qeyd edir ki, "Hər dövr epoxa və qəhrəmanı ilə, onun xarakteri, psixologiyası, daxili dünyasının səciyyəsi ilə seçilir. Hər bir tarixi dövrün, zamanın öz qəhrəmanı, hər qəhrəmanın öz dövrü, epoxası vardır".

Monoqrafiya müəllifi bu problemi yaxşı ki, ənənə və novatorluqdan, müəllif və zaman problemlərindən ayırmır. Həqiqətən hər dövrün öz istedadlı sənətkarları, görkəmli ədəbi şəxsiyyətləri var və onlar qırılmaz tellərlə əvvəlki ədəbi nəsillərə, ədəbiyyatımızın əvvəlki təcrübəsinə bağlıdırlar.

Professor Rafiq Yusifoğlunun XX əsrin poemasının ənənələrindən söz açarkən çoxəsrlik folklor və klassik ədəbiyyat, qabaqcıl dünya ədəbiyyatı ənənələri və s. amillərin xüsusi rolunu vurğulayır. Diqqətəlayiq cəhətdir ki, müəllif XX əsr klassiklərinin yetişməsində əvvəlki ədəbi xadimlərin əməyini təməl xarakterli ənənələr kimi qeyd edir. Doğrudan da, Sabir yaradıcılığında Seyid Əzimin, S.Vurğun yaradıcılığında Nizaminin, R.Rzanın yaradıcılığında Füzulinin əhəmiyyətli təsiri vardır. Monoqrafiya müəllifi XX əsr poemalarının inkişafında iki nəfərin, xüsusilə Səməd Vurğunun və Rəsul Rzanın ənənəvi təsirini göstərir. Bu fakt qismən mübahisəli olsa da, onun cövhərində faydalı fikir toxumu vardır. Belə ki, hər iki böyük sənətkarın ədəbi məktəb yaratdığı, öz ardıcıllarını yetişdirdiyi şübhəsizdir.

Çoxəsrlik ədəbiyyat tariximizdə, poeziyamızın tarixi inkişafında poema həmişə aparıcı janr olmuşdur. Bu ədəbi-tarixi həqiqəti təsdiq etməklə bərabər monoqrafiya müəllifi XX əsrdə yeni tipli poemaların yarandığını, yeni poemaların yeni qəhrəmanlar, yeni xarakterlərlə fərqləndiyini, yeni təhkiyə və təsvir üsullarından istifadə edildiyini tamamilə düzgün qeyd edir, yeni poemaların bədii forma, süjet və struktur baxımından orijinallıqlarla zəngin olduğunu diqqətə çatdırır, hətta sərbəst formada yaranan əsərlərdə belə ən yaxşı tarixi ənənələrin təzahür etdiyini göstərir.

Tədqiqatında həm də müəllif konflikt və xarakter probleminin üzərində dayanır. O, həmin problemi poemanın sənətkarlıq komponentlərindən biri kimi həyat hadisələrindən doğan və bədii əsərlərin də mərkəzinə keçən ziddiyyətlərin nəticəsi kimi təqdim edir. 1920-1930-cu illərdə yaranan poemaların konfliktini sinfi mübarizə ilə, Böyük Vətən müharibəsi dövründə

qarşıdurmanın zəminini faşizmə qarşı mübarizə ilə Sov.İKP-nin XX qurultayından (1956) sonra isə yumşalmanı, şəxsiyyətə pərəstişə, Stalin represiyalarına yeni münasibətlə izah edən, müasir mövzularda yazılmış əsərlərdə isə yenilik ilə köhnəliyin əsas mübarizə obyekti olduğunu təsdiqləyən Rafiq Yusifoğlu cəmiyyətdə dəyişikliklərin bu konfliktlərin əsas mənbəyi olduğunu xatırladır. Bu məqamda R.Rzanın "Qızılgül olmayaydı", Ə.Kürçaylının "Nargindən əsən külək" poemaları diqqətəlayiq əsərlər kimi qeyd edilir, tarixi hadisələrə münasibətdə meyarların dəqiqləşdiyi, ictimai konfliktlərin yeni məna və əhəmiyyət kəsb etdiyi, insan və zaman probleminin yeni traktovkada verildiyi vurğulanır.

Bədii konflikt anlayışının və bu anlayışla bağlı nəzəri-estetik məzmunun şərhində monoqrafiya müəllifi ilk növbədə rus ədəbiyyat tənqidçilərinin və nəzəriyyəçilərinin görüşlərinə istinad edir. Bu məqamda Hegel, F.Engels kimi filosoflarla yanaşı Y.Mann, E.Qorbunova, D.İvanov, V.Kojinov, İ.Maseyev və b. tənqidçi və ədəbiyyatşünasların mülahizələri müəllif üçün tutalqa olur. Eyni zamanda o, S.Vurğun, M.Hüseyn, Ə.Ağayev, Ç.Hüseynov və başqa azərbaycanlı yazıçı və tənqidçilərin poetik əsərlərdə münaqişənin xarakteri haqqında dedikləri qiymətli fikirlərdən də istifadə etmişdir.

Sovet dövrü Azərbaycan ədəbiyyatının zaman baxımından çox geniş və zəngin dövrdür. Bu dövrdə çoxlu şeir, hekayə, povest, roman, pyes, satirik, yumoristik və publisistik əsər yaradılmış, həmçinin çoxlu dəyərli poemalar yazılmışdır. Etiraf etmək lazımdır ki, bu əsərlərin müəyyən qismi heç də istehsalat mövzusunda deyildir. Həmin əsərlər arasında vaxtilə mübahisələrə səbəb olmuş "Aygün", "Şəbi-Hicran", "Qızılgül olmayaydı", "Sınaq" və s. dəyərli poemalar da var idi.

Müstəqillik dövründə, xüsusən son vaxtlar sovet dövrü ədəbiyyatının bizə və ümumən gələcək nəsillərə nə dərəcə gərək olub-olmaması barəsində mübahisələr getmişdir və gedir. Bu qəbilli mübahisə və müzakirələrdə mərhum ədəbiyyatşünaslar

Yaşar Qarayev, Şamil Salmanov, Əziz Mirəhmədov və b. iştirak etmişlər. Xalq yazıçısı və tənqidçi Elçinin "Sosrealizm bizə nə verdi" mövzusunda aktual araşdırması elmi ictimaiyyət tərəfindən həvəslə müzakirə olunmuşdur və olunur.

Fikrimizcə, Rafiq Yusifoğlunun monoqrafiyasında sovet dövründə meydana çıxmış epik, lirik və s. mövzularda olan poemalar obyektiv təhlil edilmiş, bu əsərlərin sosialist realizminin tələblərinə nə dərəcədə cavab verib-vermədiyi göstərilmişdir. Bu məqamda ayrı-ayrı tarixi şəxsiyyətlər haqqında yazılmış poemalar ("Nəsimi", "Füzuli", "Ələsgər", "Natəvan", "Sabir", "Nəriman" və s.) xüsusilə təqdir edilir, tarixi mövzunun, folklor motivlərinin poema janrında reallaşması milli özünüdərkin artması, özünəqayıtma kimi ədəbi-idraki problemlərin fonunda təqdim və təhlil olunur.

Rafiq Yusifoğlu sovet dövründə Azərbaycan şairlərinin yaratdığı poemaları ətrafl təhlil edir, onların əsasən sosializm prinsipləri əsasında qələmə alındığını göstərir, partiyalı ədəbiyyat tələbinin həmin əsərlərdə ciddi-cəhdlə nəzərə alındığını xatırladır. Bu baxımdan sinfi antoqonizmi əks etdirən "Azər" (Hüseyn Cavid), "Partizan Əli", "Qolsuz qəhrəman" (S.Rüstəm), "Komsomol poeması", "26-lar" (S.Vurğun), "Azadlıq dastanı", "Sındırılan saz" (M.Müşfiq), "Qatır Məmməd" (Z.Xəlil) və s. əsərlərdə konfliktlərin bədii həlli zamanı bu problem və vəzifələrin maksimum dərəcədə nəzərə alındığını söyləyir. Hətta beynəlxalq mövzularda R.Rzanın, S.Vurğunun, O.Sarıvəllinin, M.Dilbazinin, T.Elçinin və başqalarının poemalarında qəhrəmanların sosializm tərəfdarları olduğu qeyd edilir.

Ədəbiyyat nəzəriyyəsində, bədii praktikada bədii sənətkarlığın komponentləri, bədii fiqur və təsvir vasitələri çoxdur. Bədii poetik sənətin rəngarəngliyini və zənginliyini həmin komponentlər və vasitələr olmadan təsəvvür etmək çətindir. Monoqrafiya müəllifi bu sırada bədii portret, peyzaj, bədii detal, bədii təsvir və ifadə vasitələrinin Azərbaycan poemasının yaradıcılığında rolunu xüsusi vurğulayır. Tədqiqatçı alim hələ keçən əsrin 80-ci illərindən

həmin mövzularda elmi və ədəbi-tənqidi yazılar işləmiş, poemalarda bu mühüm komponentlərin yerinə və çəkisinə layiqincə əhəmiyyət vermişdir.

Əsərdə haqlı qeyd olunur ki, bu komponent və vasitələr bədii obrazın tamlığına və tipikləşməsinə, insan xarakterlərinin daha dərindən açılmasına xidmət edir. Müəllifin haqlı qeyd etdiyi kimi, "əsas məsələ zahiri görkəmin təsviri vasitəsi ilə qəhrəmanların daxili aləmini, onların xarakterini açmaqdadır". Azərbaycan poemasının tədqiqatçısı yeri gəldikcə S.Vurğunun poemalarında qadın obrazının əsas cizgilərinə, S.Rüstəmin və M.Müşfiqin yaratdığı kişi və qadın portretlərinə diqqəti çəkir. Rafiq Yusifoğlunun fikrincə, üslub fərdiyyətindən asılı olaraq hər bir sənətkarın poetik təcrübəsi də müxtəlif olur. Bu məqamda o, R.Rzanın "Füzuli", "Leyli və Məcnun", "Qızılgül olmayaydı", "Bir gün də insan ömrüdür", "Xalq həkimi" və s. poemalarında bir-birinə bənzəməyən, milli koloriti ilə seçilən zəngin portretlər qalereyasını müşahidə edir.

Poeziyamızda təbiət təsvirləri həmişə güclü, təbii və inandırıcı olmuşdur. Monoqrafiya müəllifi poema müəlliflərinin təbiətə göstərdiyi marağı, peyzaj yaradıcılığını da diqqətlə araşdırmış, S.Vurğun, S.Rüstəm, B.Vahabzadə, Ə.Kürçaylı, N.Xəzri, H.Arif, N.Həsənzadə, M.Araz, Ə.Kərim, X.Ulutürk və başqa şairlərin yaradıcılığında canlı təbiət lövhələrinin mövcudluğuna haqq qazandırmış, xarakterin açılmasında psixoloji zəmin olan peyzajın özünəməxsusluğunu təhlil predmetinə çevirmişdir.

Monoqrafiyada poemanı zənginləşdirən bədii təsvir və ifadə vasitələrinə də layiqli yer ayrılmışdır. Müəllif öz əsərində həm bədii təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, metafora, metonimiya, təkrir, anafora, təzad və s.) nəzəri baxımdan anlaşılmasına aydınlıq gətirir, həm də ayrı-ayrı şairlərimizin yaradıcılığında, daha doğrusu, bu vasitələrin işlənmə və istifadə məqamlarında yetərincə diqqət edilir. Əsərlərin bədii strukturunda onların rolu və funksiyası konkret nümunələrdə nəzərdən keçirilir.

Monoqrafiyanın sonuncu fəsli XX əsr Azərbaycan poemalarının vəzn və qafiyə sisteminə həsr olunmuşdur. Doğrudur, tədqiqatçıların heç də hamısı vəzn və qafiyə sistemini sənətkarlıq aspektində öyrənməyin tərəfdarı deyil. Bəziləri düşünür ki, bu məsələ daha çox poetika məsələsidir. Necə olursa-olsun Azərbaycan ədəbiyyatşünaslarının əksəriyyəti öz ədəbiyyat dərsliklərində vəzn və qafiyə sisteminə layiqli yer vermişlər.

Rafiq Yusifoğlu bu məsələdə İ.Hikmət, Ə.Nazim, Ə.Ağayev, M.Cəfər, C.Abdullayev və başqa tədqiqatçıların vəzn və qafiyə sistemi haqqında nəzəri görüşlərinə istinad edir və bunu sənətkarlıq problemlərinin tərkib hissəsi sayır. Sonuncu fəslə daxil olan bölmələrdə ("Azərbaycan poemasında heca vəzni", "Əruz vəzni", "Qafiyə") XX əsr Azərbaycan şairlərinin öz poemalarında istifadə etdikləri vəzn və qafiyə sistemi haqqında yığcam məlumatlar verilmişdir. Sovet dövrü ədəbiyyatının yaradıcıları ilə yanaşı, sonrakı dövrlərin ədəbi nəsilləri öz poemalarını yazarkən heca və əruz vəznindən, eləcə də sərbəst şeirdən istifadə etmişlər. Müəllif haqlı olaraq qeyd edir ki, sərbəst formada yazılmış poemalarımızda da rəngarəng qafiyələrdən istifadə edilmişdir.

"Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" adlı monoqrafiya XX əsrin ən dəyərli poetik janrlarından olan poemanın ayrı-ayrı təzahürlərini, poetik baxımdan özəlliklərini, təsvir və ifadə üsullarını, konflikt və xarakterlərin təcəssümünü, bədii sənətkarlığın komponentlərini özündə birləşdirən sanballı tədqiqat əsəridir. Belə tədqiqat əsərləri elmi əhəmiyyət daşıması ilə yanaşı, tədris vəsaiti kimi də misilsizdir.

**Tərlan Novruzov**
filologiya elmləri doktoru, professor

*"Ulduz" jurnalı, 2011, №9.*

# AZƏRBAYCAN POEMASININ SƏNƏTKARLIQ PROBLEMİ

Bütün şüurlu həyatını poeziyamızın boy artımına, elmə, səmərəli pedaqoji fəaliyyətə həsr etməklə şöhrətlənən Rafiq Yusifoğlunun çoxşaxəli və zəngin elmi araşdırmaları, mənəvi keyfiyyətləri barədə daha geniş söhbət açmaq olar. Bu dəyərli alimin poeziya, dramaturgiya, ədəbiyyatşünaslığımızın tarixi, uşaq ədəbiyyatı və publisistika məsələlərinə dair sanballı kitablarının və məqalələrinin əhəmiyyətini əsla azaltmadan deyə bilərik ki, o, məhz Azərbaycan poemalarının, daha doğrusu, janrın sənətkarlıq xüsusiyyətləri baxımından problemin mahir tədqiqatçısı kimi tanınır və təqdir olunur.

Rafiq Yusifoğlunun giriş, beş fəsil, on səkkiz yarımfəsli özündə ehtiva edən **"Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" (Bakı, 2010)** adlı fundamental monoqrafiyası bunun bariz nümunəsidir. Araşdırmanın mahiyyətinə vardıqda onun necə böyük zəhmət və gərgin yaradıcılıq axtarışları bahasına başa gəldiyini, elmi dövriyədə özəl yerini aydın dərk edir və fərəhlənirsən. Mövzunun şərhi prosesinə 424 elmi və bədii ədəbiyyatın cəlb edilməsi də özlüyündə çox mətləblərdən soraq verir.

Maraq doğuran cəhətlərdən biri monoqrafiyanın girişində mahiyyət açıqlamaları ilə "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" mövzusunun rakurs zənginliyi və kontekst genişliyi haqda ilkin təsəvvürün sərgilənməsidir. Digər tərəfdən, mövzunun çeşidli qövslər müstəvisində incələnməsi araşdırmaçının bədii-tarixi, nəzəri-estetik düşüncə çevrəsinin genişliyindən qaynaqlanmışdır.

"Poemanın strukturu və bədii formanın tipologiyası" fəslinin ilk sırada yer alması təsadüfi deyil. Mövzunun tədqiqi məntiqindən qaynaqlanan bu fəsil, əlbəttə ki, tarixi zaman müstəvisində poemanın janr strukturuna varmaq və iç dünyasında baş verən keyfiyyət dəyişikliyi haqda konseptual düşüncə

sərgiləməyə hesablanmışdır. Mahiyyətdən qaynaqlandığına görə bu kontekst seçimi müəllifə poemanın intəhasız poetik dünyasında ümumini (mövzu-struktur) müxtəliflikdə axtarmaq imkanı vermişdir.

Poemanın strukturunu bədii forma tipologiyası ilə bir araya gətirib daxildən ilgiləmək istəyi tədqiqatı “Janrın inkişaf meylləri”, “Poema və ədəbi tənqid”, “Poemanın tipləri”, “Süjet və onun təkamülü” və digər yarımfəsillər dairəsində irəlilətməyə münbit zəmin yaratmışdır. Problemi xronoloji baxımdan deyil, struktur əsasda öyrənməyə üstünlük verən müəllifin süjeti poetik konsepsiya məqamında dəyərləndirməsi fəslin ideyasına adekvat cavabdan qaynaqlanmışdır. Mövzunun tipoloji tədqiqi oxucuya məhz klassik irsdən və folklor qaynaqlarından qədərincə bəhrələnmək imkanı vermişdir.

Poemanı pafosuna və tarixi arealına görə “janrlar janrı” deyə səciyyələndirən Rafiq Yusifoğlu haqlı olaraq bu qənaətə gəlir ki, janrda “qorunub saxlanılanla” yanaşı, axtarışların bəhrəsi olan dəyişiklik də gərəklidir.

Monoqrafiyanın Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətlərinin təkamül müstəvisində incələnməsinə hesablanan “Zaman və qəhrəman” adlı ikinci fəsli müvafiq olaraq üç yarımfəsli özündə ehtiva edir. Fəslin tədqiqat materialı tarixi zamanın ideologiyası üstündə köklənən ədəbi-nəzəri konsepsiya ilə bədii örnəklərin ilgisinin müstəviyə çıxarılmasına zəmin yaratmışdır. Çünki sosialist realizmi dönəminin tələblərinə dayaqlanan Azərbaycan şairlərinin poema örnəklərinin, əlbəttə ki, yeni ədəbiyyatşünaslıq düşüncəsi müstəvisində dəyərləndirilməsinə böyük ehtiyac duyulurdu. Bunu da məhz mahir tədqiqatçı araşdırmasının strukturunda ustalıqla səciyyələndirə bilmişdir. Fəslin “Qəhrəman həyatda və ədəbiyyatda” adlı yarımfəsli özünün konseptuallığı ilə fərqlənir və açıqlamaların çevrəsini genişləndirməyə təkan vermək baxımından mühüm maraq kəsb edir.

“Konflikt və xarakterlər” adlanan üçüncü fəslin ideyasının predmetləşdirilməsinə hesablanan “Bədii konflikt”, “Daxili

münaqişə", "Yeni xarakter axtarışları" kimi yarımfəsillər mövzu-problematika, tarixlə təmas, şair-vətəndaş missiyası ilə bağlı konseptual mülahizələr yürütmək baxımından səciyyəvi olmaqla, tədqiqatçının elmi-nəzəri baxışlarının konkret təyinatlı bölmələrdə gerçəkləşməsinə münbit zəmin yaratması ilə xarakterizə olunur. Tədqiqatçının sözügedən çağın poetik örnəklərinə dəyər verərkən tarixiliyə dayaqlanaraq müasirliyin pafosu haqda qənaətlər sərgiləməsi erudik imkanlarının genişliyindən soraq verir. Məsələn, monoqrafiyanın "Yeni xarakter axtarışları" yarımfəsli "Bədii sənətkarlıq komponentləri" adlı dördüncü fəslə keçidin mühüm struktur məqamı kimi müstəviyə çıxarılmasını zəruri etmişdir. Yarımfəsillərdəki mahiyyətə yönəlmiş təhlillər bir daha isbat edir ki, Azərbaycan poemasının forma və məzmununda tarixləşmiş mühüm səciyyəvi cəhətlərin çağdaş elmi ədəbiyyatşünaslıq düşüncəsi əsasında aşkarlanıb ümumiləşdirilməsi günün tələbidir və arzuolunanlar monoqrafiya müəllifinin inandırıcı elmi qənaətləri əsasında öz təsdiqini tapır. Bunu deyərkən biz eyni zamanda araşdırmaçının əsərində "Bədii portret", "Bədii detal", "Bədii təsvir və ifadə vasitələri" kimi lokal komponentlərin "Bədii sənətkarlıq" kimi qlobal bir çevrənin predmetinə məharətlə çevrildiyini də nəzərdə tuturuq. Burada, əlbəttə ki, tədqiqatçının klassik poeziyanın yaşarlı ənənələrini və folklor qaynaqlarını özündə ehtiva etməsi, poemanı mümkün bədii arsenalı ilə səciyyələndirmək bacarığı da öz rolunu oynamışdır. Bu kontekstdə açıqlamalardan o da məlum olur ki, Azərbaycan cəmiyyətində cərəyan edən ictimai-siyasi proseslərdən asılı olmayaraq poema janr biçimlərinin yaşarlı komponentlərini iç qatda nəinki yetərincə qoruyub saxlamış, eyni zamanda sənətkarlıq axtarışları kontekstində həm də onları qədərincə inkişaf etdirmişdir. Bunu "vəzn və qafiyə sistemi" adlı beşinci fəslin bədii sənətkarlıq konsepsiyasını mahiyyət çərçivəsində səciyyələndirən komponentlər də bir daha təsdiq edir.

Tədqiqatçı XX əsrin böyük söz ustaları olan Hüseyn Cavidin, Mikayıl Müşfiqin, Səməd Vurğunun, Rəsul Rzanın,

Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin, Qabilin, Məmməd Arazın, Nəriman Həsənzadənin və başqalarının poemalarının konkret təhlillərindən haqlı olaraq belə qənaətə gəlir ki, rüzgarın rəngindən və ahəngindən asılı olmayaraq janrda bədii sənətkarlıq axtarışları davamlı olduğu qədər də səmərəli olmuşdur. Bu sırada vəzn və qafiyənin poemaların poetik strukturunda mühüm komponent, başqa sözlə, önəmli kompozisiya elementləri olaraq bədii sənətkarlıq kontekstində mənalandırılması müəllifin incəliklərə varmaqla konsepsiya formalaşdırmaq istəyini isbat edir.

H.Cavidin “Azər”, S.Rüstəmin “Yaxşı yoldaş”, S.Vurğunun “Hörmüz və Əhrimən” poemalarının, o cümlədən B.Vahabzadənin və Qabilin əsərlərinin vəzni haqda əsaslandırılmış mülahizələr göstərir ki, müəllif “Sovet dövrü” Azərbaycan poema ustalarının klassik poeziya ənənələrindən bəhrələnmə meyllərini sənətkarlıq axtarışları kontekstində ilgiləmək istəyində tam haqlıdır.

“Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri” kimi fərqli və qlobal bir mövzunu bütün mümkün rakursları ilə müasir ədəbiyyatşünaslıq elmi müstəvisində reallaşdıran bu araşdırmanın sanbalından doğan məziyyətləri, əlbəttə ki, qədərincədir. Əslində bu tədqiqat işinin nəzəri, tarixi, poetik açıqlamalarına ayrı-ayrılıqda münasibət göstərmək, təhlil verib fikir söyləmək yığcam bir məqalə üçün mümkünsüzdür.

Düşüncəmdə qərarlaşan budur ki, çeşidli konseptual mülahizələri, elmi-məntiqi ümumiləşdirmələri, tarixi-poetik incələmələri özündə qabarıq şəkildə ehtiva edən “Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri” adlı monoqrafiya, sözün əsl mənasında, geniş erudisiyalı tədqiqatçının böyük zəhmətinin, gərgin, aramsız axtarışlarının və dərin düşüncələrinin səmərəli məhsuludur və ədəbiyyatşünaslığımıza layiqli töhfədir.

Bu araşdırma professor Rafiq Yusifoğlunun həm də incə bədii zövq və duyğuya, mükəmməl tarixi-sosial biliyə, fəlsəfi-analitik təfəkkürə malik olduğunu bir daha təsdiq etmiş oldu. Azərbaycan xalqının tarixinə, ədəbiyyatına həssas və təəssübkeş

münasibəti konseptual açıqlamalar üçün həlledici rol oynadığı da şəksizdir. Əməl və qayə adamı kimi tanınan professor Rafiq Yusifoğlunun uğurları, əlbəttə ki, mənəvi dəyərlərə sadiqliyi ilə birbaşa bağlıdır.

**Himalay Qasımov**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor**
*"Respublika" qəzeti, 2 mart 2012-ci il.*

## AZƏRBAYCAN POEMALARINDA SƏNƏTKARLIQ AXTARIŞLARI

Azərbaycan, eləcə də dünya ədəbi-nəzəri fikir tarixində tarixi və müasir janr olan poemanın nəzəri-metodoloji aspektlərinin dolğun təhlili, elmi təfsiri və bədii formanın tipoloji təsnifatının verilməsi tədqiqat obyekti seçilən, geniş araşdırılan problem mövzulardan biridir. Yaşar Qarayev müasir ədəbiyyatşünaslığın, tənqidin yeni janr və forma axtarışlarına həyat və sənətin tələbləri baxımından mövqeyini bildirəndə poemanın həcmcə geniş olduğunu, mürəkkəbliyi ilə başqa lirik janrlardan fərqləndiyini, məsuliyyət və ciddi yaradıcılıq axtarışları nəticəsində yarandığını göstərir və "Poeziya öz iri addımlarını poema ilə atmışdır" fikrini əsaslandırır. Ümumi ədəbi-nəzəri fikir bunun əsasında qurulur ki, lirik düşüncə, hadisəçilik, nəqletmə, təsvir və tərənnüm, dramatik hərəkət və hadisələrin vəhdəti, sintezi poemanın səciyyəvi xüsusiyyətlərdəndir. Buna görə də Yustinas Martsinkyaviçyusun poemanı "janrlar janrı" adlandıraraq hansı əlamətləri ilə fərqləndiyini nəzəri təfəkkür süzgəcindən keçirir: "Xarakter yaradanda poema nəsrin təcrübəsindən, dramın daim hərəkətdə olan başlanğıcından istifadə edə bilər".

Tədqiqat işləri sırasında elmi vüsət və əhatəliliyinə, sanbalına, dərin təhlil və zəngin faktlara söykəndiyinə görə fərqlə-

nən, tədqiqatçı diapozonunun genişliyindən ərsəyə gələn monoqrafiyalardan biri də tanınmış şair və pedaqoq, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" (Bakı, 2010) əsəridir. Monoqrafiyanı oxuduqca gözümüz önündə yüksək nəzəri təfəkkürə, geniş dünyagörüşünə, zəngin mənəvi dünyasına, elmi təhlil və tənqid üslubuna görə seçilən tədqiqatçı canlanır. Elmi qənaətlərini sübut etmək, ədəbi prosesi dərindən öyrənmək və mənəviyyatımızı zənginləşdirmək istəyindən yaranan bu dərs vəsaitində XX əsr Azərbaycan poemalarının tipologiyası, janr və sənətkarlıq xüsusiyyətləri, mövzu və problematikasından danışılır, elmi-ədəbi təhlil aparılır. Nəzəri-mifoloji axtarışlar, fəlsəfi-estetik ümumiləşdirmələr, tarixilik və müasirliyin vəhdəti mövqeyindən poemaların təhlilinə yanaşılması monoqrafiyanın elmi məziyyətlərindəndir.

Rafiq müəllimin XX əsrə vahid mədəniyyət və ədəbiyyatşünaslığa ədəbi-bədii sərvətlərimiz haqqında biliklərə sistemi kimi yanaşılması, bu konsepsiyanı poemaların nəzəri-metodoloji əsaslarını hazırlamaqda əsas götürməsi, ədəbiyyatşünaslıqda yeni yanaşma mövqeyi, tədqiqat istiqaməti kimi dəyərlidir. Sovet ideologiyasının təzyiqi altında yazılmış poemalara obyektiv qiymət verilməsinin səbəblərinin araşdırılması, elmi təhlilin müasir tələblər səviyyəsində aparılması monoqrafiyanın elmi və təcrübi əhəmiyyətinin yüksək olduğunu sübut edir.

Tədqiqatın obyektinin XX əsrdə, daha dəqiq desək, əsrin başlanğıcı və 1920-ci ildən sonra təşəkkül və inkişaf edən sovet ədəbiyyatı mərhələsində yazılmış Azərbaycan poemalarının seçilməsi, epoxanı əhatə edən bu əsərlərin tədqiqat süzgəcindən keçirilməsi, müxtəlif çeşidli mövzu və problemlər üzrə bədii formanın tipologiyasının təsnifatının aparılması Rafiq müəllimin səmərəli yaradıcılıq fəaliyyətinin göstəricisidir. Dərin tədqiqatçı səriştəsi, iti qələmi, sadə, anlaşıqlı bir tərzdə mübahisəli məsələlərə aydınlıq gətirməsi onun ədəbiyyat tarixi, ədəbiyyatşünaslıq və ədəbi tənqidin istedadlı alimləri arasında mövqeyinin daha güclü

olduğunu göstərir. Müəllif geniş yaradıcılıq diapozonuna, fərqli dəst-xəttinə, üslubuna, fikirlərinə görə seçilir.

Rafiq Yusifoğlu təhlil obyekti seçdiyi poemaları sadəcə təhlil etməklə kifayətlənmir, ayrı-ayrı sənətkarların ürək döyüntülərini, hiss və duyğularını, istək və arzularını olduğu kimi verməyi bacarır, alim təfəkkürünün işığında qaranlıq məqamlara aydınlıq gətirir. Onda təsvir edilən hadisələri, süjet və kompozisiyanı, konflikt və xarakter problemini, sənətkarlıq məsələlərini və s. bütün detallarına, incəliklərinə qədər əhatəli, dəqiq, dərindən araşdırmaq, psixoloji vəziyyətlərin yaranma səbəbələrini açmaq bacarığı, alim intuisiyası, tədqiqatçı düşüncəsi güclüdür.

Monoqrafiyada XX əsrin görkəmli şairlərindən Hüseyn Cavid, Səməd Vurğun, Süleyman Rüstəm, Mikayıl Müşfiq, Rəsul Rza, Məmməd Rahim, Osman Sarıvəlli, Mirvarid Dilbazi, Zeynal Xəlil, Adil Babayev, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Hüseyn Arif, Qasım Qasımzadə, Əliağa Kürçaylı, Məmməd Araz, Novruz Gəncəli, Qabil, Balaş Azəroğlu, Əli Tudə, Fikrət Qoca, Nəriman Həsənzadə, Fikrət Sadıq, Ramiz Rövşən, Eldar Baxış, Vaqif İbrahim və başqa şairlərin poemaları təhlil edilir, zəngin mənbələrə istinad olunaraq diskusiya yaradan məsələlərə tutarlı faktlarla, elmi dəlillərlə cavab verilir.

Beş fəsildən ibarət monoqrafiyanın birinci fəsli “Poemanın strukturu və bədii formanın tipologiyası” adlanır. Müəllif “Janrın inkişaf meylləri”, “Poema və ədəbi tənqid”, “Poemanın tipləri”, “Süjet və onun təkamülü: folklor, sosial münasibətləri əks etdirən və ailə-məişət süjetləri”, “Ricətlər və epizodlar” başlıqları adı altında ədəbiyyatşünaslıqda tədqiq olunmamış problemləri araşdırır və sənət düşüncələrini Azərbaycan alimləri ilə yanaşı, L.V.Şepilova, L.I.Timofeyev, N.A.Qulyayev, Q.N.Pospelov, Q.L.Abramoviç və başqalarının fikirlərinə istinad edərək əsaslandırır, poemaları şərti olaraq üç şəkildə – lirik poemalar, epik poemalar, dramatik poemalar kimi qruplaşdırmağı və təhlil etməyi vacib sayır. Bu poemaların məzmununda və quruluşunda fərqli xüsusiyyətlər müşahidə olunduğuna görə müəllifin təsnifatı daha

inandırıcı və elmi səslənir. Müəllif poemaların poema-müraciət, poema-monoloq, poema-dialoq, səyahətlər poeması, nəğmələr poeması, fraqmentlər poeması, poema-gündəlik, poema-reportaj, poema-ballada, poema-peyzaj, alleqorik poema, düşüncələr poeması, poema-əfsanə, poema-rəvayət, publisistik poema, kino-poema, fantastik poema adı altında təhlil süzgəcindən keçirməsi, ümumiləşdirilib nəticə və təkliflər verməsi gərgin zəhmətin, ciddi axtarışların nəticəsində yaranır.

"Zaman və qəhrəman problem" adlanan ikinci fəsildə "Ədəbi prosesdə ənənə və novatorluq, müəllif və zaman fenomeni", "Qələmə vurulmuş qandal və yaxud keçmişin ibrət dərsləri", "Qəhrəman həyatda və ədəbiyyatda" problemlərinə dövrün ədəbi düşüncəsi, müasir yazıçı mövqeyi, sənət və həyat konsepsiyası tələblərindən yanaşılır, arqumentlər gətirilir, ənənə və novatorluq, obraz və xarakterlə bağlı oxşar, fərqli xüsusiyyətlər əsasən tarixi poemalar fonunda tədqiqata cəlb edilir. Müəllif dövrün, epoxanın tələbəlrindən doğan əsərlərə obyektiv qiymət verib, XX əsr poemasının folklor və klassik ədəbiyyat ənənələrinin varisi və davamçısı olması qənaətinə gəlməsi ideyası onun elmi axtarışlarının mühüm nəticələrindən biridir.

Üçüncü fəsildə daha mürəkkəb problemlər araşdırılır, təhlil olunur. Konflikt və xarakter haqqında nəzəri mülahizələri dəqiqləşdirmək üçün bədii konflikt, daxili münaqişə, yeni xarakter axtarışları elmi istiqamətində tədqiqat aparılır. Tədqiqatçı haqlı olaraq belə bir nəticəyə gəlir ki, əsrin əvvəlində yaranan poemalarda xarakter antoqonist sinfi mübarizə, sonrakı illərdə müharibə, daha sonra quruculuq işləri zəminində açılırdı.

Bədii sənətkarlıq komponentləri dördüncü fəsildə elmi izahını tapır. Problemin həlli bədii portret, peyzaj, bədii detal, bədii təsvir və ifadə vasitələrini araşdırmaqla yerinə yetirilir. Əsas diqqət forma və məzmun axtarışlarına, bədii portret yaratmaq təcrübəsinin öyrənilməsinə yönəldilir.

Beşinci fəsildə vəzn və qafiyə sisteminin nəzəri və təcrübi əsasları tədqiqata cəlb edilir. Bu məsələdə Azərbaycan poemasında

heca vəzni, əruz vəzni, qafiyə sisteminin poetikasının mahiyyəti açılır, nəzəri məsələlərin şərhi verilir.

Əlbəttə, monoqrafiyanın elmi məziyyətləri çoxdur. Biz bu məqamların bəzilərini oxucuların nəzərinə çatdırdıq. Səmimi etiraf edək ki, görkəmli ədəbiyyatşünas Yaşar Qarayevin yetirməsi olan Rafiq müəllimdən bu nəticəni gözləmək bizdə də qürur hissi oyadır. Mübaliğəsiz demək olar ki, monoqrafiya ədəbiyyatşünaslıq və ədəbi tənqiddə özünə layiq yer tutan sanballı əsər, yeni elmi istiqamətlərin aparılmasında nəzəri mənbədir.

**Yusif Aslanov**
**Sumqayıt Dövlət Universitetinin kafedra müdiri, dosent.**
*"Kredo" qəzeti, 3 aprel 2015-ci il.*

## HƏR SÖZ BİR DÜNYADI: "MÜASİR ƏDƏBİ PROSES VƏ ƏDƏBİ TƏNQİD"

Bu günlərdə şair-publisist, professor Rafiq Yusifoğlunun "Müasir ədəbi proses və ədəbi tənqid" kitabı işıq üzü görüb. Kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Şamil Salmanov, rəyçiləri filologiya elmləri doktorları, professorlar Akif Hüseynov və Məhərrəm Qasımlıdır. ADPU-nun nəşriyyatında işıq üzü görmüş 344 səhifəlik bu kitab əslində dövrümüzün ədəbi proseslərinə Rafiq Yusifoğlunun özünəməxsus baxışıdı.

Ayrı-ayrı araşdırma məqalələrdən ibarət olan bu kitabın demək olar ki, hər bir mövzusu bu günümüzlə, zamanımızla səsləşir. İstər dünya ədəbiyyatının, istər klassik və sovet, həmçinin müstəqil Azərbaycan məmləkətinin bu gün yaranan ədəbi nümunələri araşdırmaçı alimin diqqətindən yayınmayıb. O, apardığı paralellər və təhlillər nəticəsində hər bir dövrün xüsusiyyətlərini, tərəflərini və dövrə uyğun da ədəbi mühiti diqqətə çatdırmağa çalışıb. Özü də bu işi təkcə təxəyyülün, məntiqin bəhrəsi kimi

deyil, həm də istifadə etdiyi çoxsaylı mənbələrin, ədəbiyyatların hesabına ortaya qoyubdur.

Rafiq Yusifoğlunun adı çəkilən kitabında Xaqanidən, Nizamidən, Füzulidən, Səməd Vurğundan, Rəsul Rzadan, Məmməd Arazdan, Nəbi Xəzridən, Süleyman Rüstəmdən tutmuş, yazıçılarımızdan İlyas Əfəndiyev, Süleyman Rəhimov və digərlərinin əsərlərinə istinadən öz fikirlərini şərh edərkən o, dünyanın, eləcə də yaxın qonşumuz olan Rusiyanın ədəbi həyatını da diqqətdən kənarda saxlamamışdır. Yəni şair, ədəbiyyatşünas alim bütün mənzərələri bir məxrəcə gətirərək ədəbi prosesə bir tənqidçi yanaşması sərgiləmişdir. Onun ədəbi tənqid barəsindəki fikirləri də elə bu şərhlərin özündə kifayət qədər diqqət çəkən, həm də düşündürən bir məqamın yaranmasına səbəb olmuşdur. Konkret ifadə etsəm, müəllifin təqdim etdiyi nümunələr öz-özlüyündə onun fikirlərinin bir növ açarına çevrilmiş, qapıları oxucu üzünə açmışdır.

Ümumiyyətlə, bu kitabda, daha doğrusu, məqalələr toplusunda Rafiq Yusifoğlu təkcə ədəbi prosesin görünən tərəfini yox, həm də köklərini, folklora bağlılığını, ədəbi əlaqələri, inkişaf dinamikasını, tərcümə işini, uşaq ədəbiyyatının ümumi mənzərəsini və sairəni də bir elm adamı kimi, bir ədəbiyyatşünas kimi təhlil etmiş və fikirlərini toplum şəkildə ortaya qoymuşdur. Düşünürəm ki, Rafiq Yusifoğlunun bu araşdırmalar toplusu – məqalələr kitabı müəllifin ədəbiyyatımıza layiqli bir töhfəsidir.

**Əbülfət Mədətoğlu**

*"Ədalət" qəzeti, 16 may 2014-cü il.*

## AÇIQ MƏKTUB

*“Müasir ədəbi proses və ədəbi tənqid” kitabının müəllifi Rafiq Yusifoğluna ünvanlanıb*

Hörmətli Rafiq müəllim! Kitabınızı oxudum. Elmi-tənqidi üslubda yazdığınız əsərlər Sizin tənqidçi alim, ədəbiyyat nəzəriyyəsi səpkililər isə nəzəriyyəçi filoloq olduğunuzu göstərir. Şairliyinizə də ki, söz yoxdur. Bu sözləri mən tam səmimiyyətlə, inamla deyirəm.

Ədəbi proses ali təhsil sistemində tədris olunan xüsusi kursdur və fənn müəllimləri bu kitabı görüb çox sevindilər, az keçmədən mənim vasitəmlə onu əldə elədilər. Kitabınızla yaxından tanışlıqdan belə bir faktı özüm üçün bir daha yəqin etdim ki, doğrudan da, ədəbi proses “predmetsiz” sahədir və onu konkret mövzu əsasında şərh etmək mümkün deyil. Bu məsələnin şərhinə zaman, məkan, insan, onun atributları və bir də bütün ümumi və xüsusi kateqoriyalar daxildir. Ədəbi prosesdə mövzu, predmet, obyekt metodoloji aspektlər əsasında şərh olunub. Azərbaycan mühitindən dünya ədəbi prosesinə baxış formalaşdırmaq və qəti mülahizələr söyləmək müəllifdən dərin mütaliə və ümumiləşdirmələr aparmaq istedadı tələb edir ki, bu da Sizdə vardır.

Bizim diqqətimizi çəkən məqamlardan biri də o oldu ki, Siz Azərbaycan yazıçılarını dünya yazıçıları ilə birlikdə təhlil edir və müxtəlif ideoloji səmtlərdən qiymətləndirirsiniz.

Burada aparıcı ideyalardan söhbət açarkən demək istəyirsiniz ki, ideyalar seli ədəbi prosesə, o cümlədən fərdi yaradıcılıq prosesinə projektor kimi gur işıq salmasa, bu gur işıq selində həqiqi əsərlər yaranmayacaq. Düzdür. Ancaq Sizdən öyrənmək istədiyimiz bu idi: bu gün ədəbi prosesin nüvəsində hansı ideya qammaları var ki, öz motivləşdirici funksiyasını yerinə yetirmiş olsun? Bəlkə ölümsüzlük ideyası? Bəlkə qardaşlıq ideyası? Bəlkə sosial bərabərlik və ya azad insan, onun humanist maraqları? Fikrimizcə, bunların heç biri humanist enerji kimi yazarları öz

yaradıcılıq aləminə baş vurmağa həvəsləndirə bilməz. Bəs nə etməli? Məlum motivasiya – bizi fəaliyyətə təhrik edən qüvvə istedadın verdiklərindən yox, güzəran psixologiyasının tələblərinə uyğunlaşmaq məcburiyyətindən ibarət olacaq.

Siz əsəri maarifləndirici məqsəd baxımından yazıb tələbələrə ədəbi proses fənninin nəzəriyyəsi haqqında biliklər verir və onlarda ədəbi dünyagörüşü formalaşdırmaq məqsədini güdürsünüz. Ədəbi prosesin sistemli təhlilinə dair tədqiqata çevrilən dünya ədəbiyyatı içərisində Azərbaycan ədəbiyyatında baş vermiş proseslər öz layiqli təhlilini tapır. Bu xəritənin bütün Şərq, Qərb, Şimal, Cənub dünyasının nəhənglərinə istinadən göstərilir ki, ədəbi prosesdə söz seçmək üzərində yanıb-yaxılmadan, əsər oxucunu yandırıb-yaxmır, onu insani gözəlliklərin fövqünə ucaltmır. Firdovsi, Nizami, Xaqani, Nəsimi, Füzuli əsərlərinin vaxtilə bir qızıla yazılması şairdən qiymətli söz gözlənildiyini göstərirdi. Dabanından soyulmaqdan qorxmayan Nəsimi "Ağrımaz" qəzəlini yazmışdı…

Ədəbi prosesin nüfuzunu yüksəltmək dünyanı yetkin filosof kimi dərk etmək və insanı, onun qəlbindən keçənləri, könül dünyasını duymaq lazım imiş. Füzuli insanın ürək tellərinin ehtizazını vermək üçün neydən, cəngdən, dütardan… söhbət açır, insana təsir etməyin yolunu lirikada görür…

Rafiq müəllim, Sizin burada tələbələrə çatdırmağa çalışdığınız bir çox məsələlər haqqında Bəkir Çobanzadə, Əli Soltanlı, Mikayıl Rəfili, Məmməd Arif, Yaşar Qarayev, Bəkir Nəbiyev, Qasım Qasımzadə və başqaları problem qaldırmaq, ideya, mövzu, söz seçmək və digər qiymətli məqamlar haqqında nəzəriyyəçi-tənqidçi kimi danışmışlar. Siz isə yaradıcılıq prosesini şair, yazıçı, tənqidçi, nəzəriyyəçi kimi şərh edir və fikrinizi yerinə düşən nəzm parçaları ilə bəzəyirsiniz ki, bu da öyrədicilik manerasıdır və tələbələrə də elə bu lazımdır.

Tənqidçilər məni qınamasınlar, bu barədə onlar kimi ənənəvi yaza bilməzdim. Sadəcə ədəbi proseslə bağlı məsələləri

vaxtilə "Poetika", "Kateqoriyalar", "Estetika", "Etika", "Ritorika"dan öyrəndiyim üçün belə qeyri-standart yazdım və arzum da bu oldu ki, Sizin bu yeni elmi-tənqidi kitabınızı böyük uğur kimi ürəkdən təbrik edim və deyim ki, Siz ədəbi mühitimizi həm elmi-nəzəri təhlilləriniz, ümumiləşdirmələriniz və həm də istedadlı yaradıcılığınızla gözəl edirsiniz. Alimliyiniz ədəbiyyatımıza dərinlik, poeziyanız gənc qəlblərə, ürəklərə sərinlik gətirir. Universitet, institut, kollec tələbələri Sizin bu kitabı dərslik kimi oxuyurlar. Mən də təbliğ edirəm alimliyinizi, şairliyinizi, elmi ədəbiyyat yaratmaq səriştənizi isə xüsusilə.

Əvvəla, ədəbi tənqiddən kitablar oxumuş hər bir kəs bu əsərin adına tamamilə uyğun olan əhatəli məzmunu barədə dərindən düşünməyə bilməz. Müasir ədəbi prosesə mühit, sənətkar şəxsiyyəti, yaradıcılıq psixologiyası, mənbələr, qaynaqlar, novatorluq, ədəbi prosesə tənqidin təsiri, bədii dil və s. kimi məsələlərin şərhini verirsiniz ki, bu da dünya miqyaslı ədəbiyyatşünasların fikrini açmaq və onlara münasibət bildirmək püxtələşmiş filosof-tənqidçi qələminin məhsuluna nümunə ola bilər. Vaxtilə mən Asif Əfəndiyevin "Müdriklik səlahiyyəti"ni oxuyanda heç bu qədər sitatlara, iqtibaslara rast gəlməmişdim. Ola bilsin ki, bu da XX1 əsr yaradıcılıq prosesinə münasibətin yeni-yeni tələblər qazanması ilə əlaqədardır.

Ədəbi proses şair və yazıçının yaradıcı düşüncəsini sənət əsərinə çevirmə meydanıdır. Bu meydanda sənətkarın təfəkküründən çox təxəyyülü qalib çıxmalıdır. Ondan isə bu mənzərələrdən gördüklərini ağ vərəqlər üzərinə köçürmək, ürəyinin hərarəti ilə alovlandırmaq istedadı tələb olunur. Qaldı ki, ideyanı tarixi təcrübədən - həyatdan alıb, məqsəd baxımından aktuallaşdırandan sonra yazı stolu arxasına keçib yaradıcılıq prosesinə başlayarlar. Məhz bu cür yaradıcı proseslərin ümumi adına ədəbi proses deyilir ki, o da öz mürəkkəb məzmun-struktur səhnəsi ilə təsəvvür edilir. Ona görə də hər cür ideya ədəbi prosesi məşğul edə bilməz. Ən qlobal ideyadan, hətta humanitarlıqdan da çox planetarlıq gözləmək daha tam olur.

Hörmətli Rafiq müəllim, səmimiyyətlə deyirəm ki, 344 səhifəlik bu kitabda 150-yə qədər Azərbaycan, türk, rus dilində olan mənbədən istifadə edilməsi çox düzgün və yerindədir. Siz iqtibaslar, sitatlardan ibarət etüdlər etməyə çalışsaydınız, onda öz sözünüzə az yer qalardı. Mənim əqidəmə görə tələbələr, magistrlər, alimlər üçün nəzərdə tutulan bu kitab ədəbi prosesə obyektiv qiymət verilməsində öz tarixi rolunu oynayacaqdır. Mən buna əminliklə inanıram. Bu kitabda qeyd etdiyiniz məqamda "fəlsəfəçi"yə verdiyiniz cavabın kamilliyinə, yeni, təravətli deyim bolluğu ilə dolu olan poetizminizə inandığımız kimi…

P.S. Bununla belə, Sizə bir arzumu da bildirirəm. Bu da ondan ibarətdir ki, ədəbi prosesi şərh edəndə gözünüzün qabağına Xaqani, Nizami və Füzulini gətirin və müasirlərdən də şairlikdə Xaqanilik, Nizamilik və Füzulilik eşqi ilə yaratmağı tələb edin. Deyin ki, indiki yaradıcı nəsil babaların yolu ilə getsin və "mən şairəm", "mən alimən", "mən yazıçıyam" deməsin. Füzulinin "Ənüsül-qəlb"ini oxuyub əzbərləsinlər. Gənc, istedadlı yazıçılara deyin ki, özlərindən əvvəlkilərə qiymət verəndə Füzuli yoluna sadiq qalsınlar və Azərbaycan ədəbiyyatını yaradanların həyatının, mühitinin ədəbi prosesə necə təsir etdiyini nəzərə alsınlar…

Hörmət və məhəbbətlə,

**Vaqif Qurbanov**
**pedaqoji elmlər doktoru , professor**

*"Ədalət" qəzeti, 31 may 2014-cü il.*

# MÜASİR ƏDƏBİ PROSES VƏ ƏDƏBİ TƏNQİD

Görkəmli şair, tanınmış ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu çox zəhmətkeş qələm sahiblərimizdəndir. Onun bu yaxınlarda işıq üzü görmüş "Müasir ədəbi proses və ədəbi tənqid" monoqrafiyası ədəbi prosesin mahiyyətini, onun nəzəri əsaslarını öyrənib dəyərləndirmək baxımından çox faydalı vəsaitdir. Müəllif Azərbaycan və rus dillərində yazılan nəzəri ədəbiyyata və ədəbi prosesin ən önəmli faktlarına istinadən problemin elmi şərhini verməyə çalışmış, nəicədə son dərəcə faydalı bir monoqrafiya meydana gəlmişdir.

Kitabda mühit və ədəbi prosesin, həyat həqiqəti ilə bədii həqiqətin qarşılıqlı dialektikası nəzərdən keçirilir, yaradıcılıq psixologiyasının, yaradıcılıq prosesinin mahiyyəti, onun mərhələləri elmi təhlil predmetinə çevrilir. Ədəbi prosesdə sənətkar şəxsiyyətinin rolu məsələsi də müəllifin diqqətindən yayınmır. O, Q.Markes, V.Teytelboum, Jül Vern, Q.Flober, U.Folkner, Xuan Rulfo, Jül Renar, T.Edison, R.Akutavə və başqa bu kimi dünya, eləcə də S.Rəhimov, İ.Əfəndiyev, N.Xəzri, Q.Qasımzadə kimi Azərbaycan yazıçılarının əsərlərinə, fikir və mülahizələrinə istinadən problemin mahiyyətini inandırıcı şəkildə aça bilir.

Ədəbi prosesdə varislik prinsipinə xüsusi önəm verən Rafiq Yusifoğlu ədəbi prosesdə folklor, klassik və dünya ədəbiyyatından bəhrələnmə yollarını göstərir, fikirlərini əsaslandırmaq üçün ədəbi faktlara müraciət edir. Daha sonra o, ənənə və novatorluğun mahiyyətin izah edir, doğru nəticəyə gəlir ki, məzmun və forma kimi ənənə və novatorluq da ayrılmazdır, bir-biri ilə qarşılıqla dialektik vəhdətdədir. Ənənə novatorluğun bünövrəsi, postamenti, istinad nöqtəsidir. Ənənəyə söykənməyən novatorluq heç bir ədəbi uğurun təminatçısına çevrilə bilməz.

Ədəbiyyat nəzəriyyəsi və ədəbi prosesin, ədəbi proseslə ədəbi tənqidin qarşılıqlı dialektikasının şərhinə həsr olunan bölmələr də maraqla oxunur. Burada da müəllif ümumi fikir və mülahizələrdən qaçır, konkret faktlara istinadən elmi şərhə üstünlük verir, daha sonra icmal şəklində ədəbi tənqidin inkişaf yoluna nəzər salır.

Ədəbi prosesdə oxucu probleminin şərhi də Azərbaycan ədəbiyyatşünaslığında yenidir. Bu məsələ ilə bağlı müəllifin fikir və mülahizəlri maraq doğurur. Müəllif yazır ki, ədəbi prosesdə nəzərə alınası üç mühüm tərəf var: yazıçı, tənqidçi, oxucu. Bu üç tərəfin bir-biri ilə qarşılıqlı əlaqəsi ədəbi prosesin dəyərini müəyyənləşdirən amillərdəndir.

Kitabda həmçinin bədii dil, ədəbi metod, fərdi yaradıcılıq üslubu, ədəbi prosesin formalaşmasında mətbuatın rolu, müasir poeziyada, nəsrdə və dramaturgiyada sənətkarlıq axtarışları və s. bu kimi məsələlərdən də elmi şəkildə, inandırıcı arqumentlərlə söhbət açılır. Müasir publisistikanın, uşaq ədəbiyyatının mövzu və problematikası da diqqətdən qaçırılmır. Ədəbiyyatşünaslıq elmimizin müasir durumu, inkişaf perspektivləri haqqında fikir və mülahizələr də maraqlıdır.

Kitabda həmçinin son illərdə keçirilən yaradıcılıq müşavirələrindən də söhbət açılır, ayrı-ayrı məruzələrin xülasəsi ədəbi prosesin ümumi mənzərəsini canlandırmaq missiyasını yerinə yetirir.

Bizə elə gəlir ki, tələbələr, magistrant və doktorantlar, eləcə də digər oxucular, ədəbiyyat həvəskarları Rafiq Yusifoğlunun "Müasir ədəbi proses və ədəbi tənqid" kitabından faydalana biləcəklər.

**Günel Almaz**
**AMEA Folklor İnstitutunun doktorantı**

*"Respublika" qəzeti, 6 mart 2015, s.7.*

# ƏDƏBİ-NƏZƏRİ FİKİR TARİXİ HAQQINDA SANBALLI TƏDQİQİQAT ƏSƏRİ

Tanınmış şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmlər doktoru, professor Rafiq Yusifoğlunu tələbəlik illərindən - 60-cı illərin sonlarından tanıyıram, indi də bir kafedrada işləyirik; belə demək mümkünsə, cavanlığımız və ahıllığımız bir yerdə keçir... Onun insanlığı, təvazökarlığı, həqiqətin, haqqın yanında olması, səmimiyyəti və obyektivliyi bir qələm və ürək dostu kimi həmişə məni qane edibdir. Hələ gənclik illərindən istedadlı bir qələm sahibi kimi tanımışam, uzun illər mətbuatda imzasını maraqla izləmişəm, haqqında yazmışam, fikir və münasibətimi bildirmişəm, istər şeirlərini, istərsə də elmi-publisistik məqalələrini, kitablarını məmnunluq hissi ilə oxumuşam...

Aləmdə, yəni yaradıcılıq mühitində tanınan kəslərdən biridir. Şair kimi, xüsusən, uşaq dünyasına hakim olan şair kimi məşhurdur. Bir sözlə, müasir dövrümüzün maraqlı həyat və yaradıcılıq yolu keçən tanınan ziyalı şəxsiyyətlərindən biridir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində təhsil alıb, bir müddət Sumqayıt şəhərində müəllim işləyən şair AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuş, “Azərbaycan Sovet poemasının inkişaf problemləri” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1984). Ümumiyyətlə Azərbaycan poema janrının problemləri onun tədqiqatının başlıca stixiyasını təşkil edir. Təsadüfi deyildir ki, Rafiq Yusifoğlu 2006-ci ildə “XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri” mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri doktoru adını almışdır.

Ümumiyyətlə onun ədəbi-ictimai fəaliyəti olduqca maraqlı və səmərəli olmuşdur və bu sayaq da davam etməkdədir. 1985-ci ildən 1992-ci ilədək “Göyərçin” jurnalında söbə müdiri, 1992-ci ildən 1996-cı ilədək məsul katib, 1996-1997-ci illərdə Azərbaycan

Dövlət Televiziyasının "Xəbərlər" baş redaksiyasında "Elm, mədəniyyət, incəsənət" şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1997-ci ildən "Göyərçin" jurnalının baş redaktorudur. Şairin uşaq ədəbiyyatı sahəsində xüsusi fəaliyyəti vardır.

Hazırda Sumqayıt Dövlət Universitetinin və Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorudur.

O, gənc tənqidçilərin Moskvada keçirilən birinci (1982), ikinci (1985) və üçüncü (1988) Ümumittifaq seminarlarının, Qazaxıstanda keçirilən Beynəlxalq Uşaq ədəbiyyatı günlərinin (1989) iştirakçısı olmuşdur.

Ədəbi fəaliyyətə hələ orta məktəbdə oxuyarkən başlamış, 1966-cı ildən şeirləri, məqalələri ilə mətbuatda çıxış etməyə başlamışdır. Son illər bədii tərcümə ilə ciddi məşğul olur. Əsərləri bir sıra dillərə tərcümə edilib, dərsliklərə düşüb. Çoxlu mahnı mətnlərinin, elmi-publisistik məqalələrin müəllifidir. Əsərləri əsasında "Qəm karvanı", "Bütün Azərbaycan əsgər olmalı" televiziya tamaşaları çəkilib, dəfələrlə nümayiş etdirilmişdir. Bütün ömrünü, həyatını ədəbiyyata, onun tədqiqi və təbliğinə həsr edən Rafiq Yusifoğlu çoxşaxəli yaradıcılıq yolu keçən istedadlı qələm sahiblərindəndir. Onun istər poeziya, istər uşaq ədəbiyyatı, istər bədii tərcümə, istər jurnalistika, istərsə də ədəbiyyatşünaslıq sahəsindəki uğurları göz qabağındadır.

Rafiqin əllidən artıq şeir kitabı, elmi monoqrafiyası, dərslikləri vardır. İyirmi ilə yaxındır ki, respublikanın ali məktəblərində mühazirələr oxuyur və biz bu gün qarşımızda onun son ədəbiyyatşünaslıq-tədqiqat işi - "Ədəbi nəzəri fikrin inkişaf mərhələləri" (Bakı, Elm və təhsil, 2016, - 368 s.) kitabını əlimizdə dəstəvuz edərək Rafiq Yusifoğlunun həm bu tədqiqatından, həm də ümumiyyətlə ədəbi-nəzəri fikir dünyasından danışmaq, oxucularımıza elmi fəaliyyəti barəsində məlumat vermək istərdik...

Bəri başdan deyim ki, son vaxtlar belə samballı, yüksək nəzəri səviyyəli kitab oxumamışdım. Əsəri böyük zövqlə, azalmayan bir maraqla mütailə etdim... Monoqrafiya mənim içimdə məmnunluq hissi oyatdı. Tədqiqatın monumentallığı və əhatəliliyi

onu da göstərir ki, Rafiq bu işi qısa müddətdə deyil, uzun illər boyu ciddi araşdırmalar və axtarışlar sayəsində hasilə gətirmişdir. Tədqiqat boyu elmi-nəzəri materialın əhatəliliyi, konkret nəzəri problemlər üzrə qruplaşdırılıb araşdırılması məqbul və xoşagələndir. Obyektiv və ayıq elmi münasibət, irəli sürülən mülahizələr, tezislər inandırır, dolğunluğu və aktuallığı ilə diqqəti çəkir.

Göründüyü kimi, Rafiq Yusifoğlunun bu monaqrafiyası da, aktual problemə həsr edilibdir. Müəllif araşdırmalarını düzgün metedoloji əsasda qurduğundan, ədəbi-nəzəri fikrin inkişaf mərhələlərini dəqiq müəyyənləşdirdiyindən və hər mərhələni doğru qiymətləndirərək ətraflı izlədiyindən mövzu və problematika haqqında dolğun təsəvvür yarada bilmişdir. Beləliklə, biz o qənaətdəyik ki, prof. Rafiq Yusifoğlunun "Ədəbi nəzəri fikrin inkişaf mərhələləri" tədqiqat əsəri bu istiqamətdə boşluğu doldurmağa, ehtiyacı ödəməyə xidmət edir...

Yeri gəlmişkən, onu da qeyd edim ki, prof. Rafiq Yusifoğlunun bu istiqamətdə 15-ə qədər dəyərli tədiqat işləri də məlumdur.

Bu qədər faydalı əsərləri araya-ərsəyə gətirmək Rafiqin istedadından, tükənməz yaradıcılıq enerjisindən, zəhmətsevərliyindən xəbər verən danılmaz faktlardır. O, bu zəhməti və istedadı müqabilində "Qızıl qələm", "İlin ən yaxşı kitabı", "Araz", "Vətən" və s. ali ədəbi mükafatlarının laureatı kimi də mükafatlandırılmışdır.

Rafiq Yusifoğlu rəsmən elm aləminə 1979-cu ildə daxil olub və dediyim kimi, bu işə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasından başlayıb, görkəmli ədəbiyyatşünaslarla ünsiyyətdə olub. Ustadlarını, xeyirxahlarını unutmayan, qədirbilənliklə onları yad edən Rafiq yazır: "İndi dünyalarını dəyişmiş çox hörmətli ədəbiyyatşünaslarla - Mirzağa Quluzadə, Məmməd Cəfər, Əziz Mirəhmədov, Kamal Talıbzadə, Yəhya Seyidov, Qasım Qasımzadə, Əkbər Ağayev, Yaşar Qarayev, Şamil Salmanov, Arif Hacıyev, Kamran Məmmədov və başqaları ilə ünsiyyətdə olmağım ədəbiyyatşünaslıq elmi haqqında

təsəvvürlərimi xeyli genişləndirdi. Aspiranturaya girməyimdə də, müdafiə edib elmi dərəcələr almağımda da, bu adamların bu və ya digər dərəcədə rolu olub. İndi onların hamısının ruhu qarşısında baş əyirəm."

Təsadüfi deyildir ki, bu adlarını çəkə bildiyi və çəkmədiyi müəllimləri, həmkarları, qələm dostları, tələbələri belə, onun şəxsiyyəti və yaradıcılığı barəsində qiymətli fikirlər və mülahizələr söyləmişlər...

Fikrimizə sübut kimi, bir sıra tanınmış ədəbiyyatşünaslarımızın, lap elə, adi oxucularının onun tədqiqatları barəsində yazdıqları, söylədikləri fikirlərindən bəzi nümunələri oxucularımızın nəzərinə çatdırmaq istərdik.

Tələbəsi Çobanzadə Aynur: "Hörmətli Rafiq müəllim, əvvala Sizə öz adımdan dərin minnətdarlığımı bildirirəm ki, Rusiyada doğulub-böyümüş bir insana öz doğma ədəbiyyatımızı sevdirdiniz. Siz "Ədəbiyyatşünaslığın əsasları" kimi gözəl bir dərslik işləyib hazırlamısınız. Nəzəriyyənin bütün incəliklərini öz kitabınızda əks etdirmisiniz. İnanın ki, bu, biz tələbələr üçün çox dəyərli bir kitabdır. Yəni ömürlük Sizdən bizə, bizdən də gələcək nəsilə bir xoş xatirə kimi qalacaq."

Müəllif-müəllim üçün tələbə və oxucu məktubundan da qiymətli qeyri bir şey tanımıram...

Elmi rəhbəri, filologiya elmlər doktoru, şair Qasım Qasımzadə: "...Poemalarda xarakter məsələsinə estetik yanaşmada müəllifin millilik kateqoriyasını ön plana çəkib problemi realizm baxımından qimətləndirməsi, eləcə də obrazların nə dərəcədə koloritli verildiyini aydınlaşdırması baxımından maraqlıdır və yenidir. ...Onun olduqca zəhmətsevər və zəkalı olduğu qənatinə gəlmişəm."

Filologiya elmlər doktoru, prof. Əkbər Ağayev: "Deyim ki, Rafiq bişmiş və ərsəyə gəlmiş, elmi tədqiqatın nə demək olduğunu dərk etmiş hazırlıqlı kadrlardandır."

AMEA-nın müxbir üzvü, filologiya elmlər doktoru, professor Yaşar Qarayev: "Əzizim Rafiq! Monoqrafiyanı zövqlə,

azalmayan bir maraqla oxudum. Xüsusən yaxın keçmişin böyük epik ənənəsinə verilən təhlil və qiymət metedoloji cəhətdən tarixi-elmi əhəmiyyət kəsb edir.”

Tanınmış ədəbiyyatşünas, filologiya elmlər namizədi, dosent Yaqub İsmayılov: “Mən Rafiq Yusifoğlunu 30 ilə yaxındır ki, tanıyıram. Rafiq müəllim yüksək insani keyfiyyətlərə malik bir ziyalıdır, zəhmətkeş alimdir, istedadlı şairdir. Onun “Azərbaycan poeması: axtarışlar və perspektivlər” monoqrafiyası, ali məktəblər üçün yazdığı “Ədəbiyyatşünaslığın əsasları”, “Müasir ədəbi proses və ədəbi tənqid”, “Uşaq ədəbiyyatı” dərslikləri çox faydalı və praktik əhəmiyyəti olan əsərlərdir.”

Filologiya elmlər doktoru, professor Cəlal Abdullayev: “Mən Rafiqin bir cəhətini daha çox sevirəm. O da nədir? Rafiq kimi özündən əvvəlkiləri ehtiramla yad edən, hər kəsin öz qiymətini verən ikinci bir adam tanımıram.”

Bu misalların sayını çoxaltmaq olar - Təhsin Mütəllimov, Vaqif Arzumanlı, Nazif Qəhrəmanlı, Kamran Əliyev, Qurban Bayramov, Vəli Osmanlı, Şamil Vəliyev, Alxan Məmmədov, Vaqif Yusifli, Allahverdi Eminov və onlarla başqaları, ən müxtəlif nəsilləri əhatə edən tənqidçi və ədəbiyyatşünaslar Rafiq Yusifoğlunun elmi yaradıcılığını yüksək qiymətləndirmişlər...

Mən bəndeyi-fəqir də, vaxtilə onun poema janrının sənətkarlıq xüsusiyyətlərinə həsr etdiyi elmi əsəri belə qiymətləndirmişəm: “Bu, Rafiq müəllimin yeganə işi deyildir: o bu mövzuda fundamental doktorluq işi yazmış, bir neçə monoqrafiya, dərslik, çoxlu sayda məqalə, məlumat, tədqiqat tipli yazılar çap etdirmişdir. Bu kitab, xüsusən XX əsrdə Azərbaycan poemasının bir çox nəzəri və sənətkarlıq xüsusiyyətləri haqqında ətraflı təsəvvür yaradır”.

Bunları niyə misal gətirdim? Əvvala bu fikirlər Rafiqin bir alim kimi şəxsiyyəti, elmi yaradıcılığı, tarixə baxışı, ədəbi fikir siferasında tutduğu yeri dürüst müəyyənləşdirməklə yanaşı, ona müasir ədəbi-elmi mühitin münasibətini bildirir. Bu fikirləri bir cəhət xüsusən birləşdirir - Rafiq Yusifoğlunun istedadını, daima

axtarışa meyilliliyini, mühüm və çətin problemlərin həllinə səriştəli və cəsarətli münasibətini, sadəliyini, təvazökarlığını və s. alim-ziyalıya məxsus yaxşı nə varsa onu ehtiva edir...

Sonra da, Rafiq Yusifoğlunun qarşımızdakı kitabının sonuncu, “Əlavə” adlandırdığı hissədə onun barəsində qələm dostlarının fikirlərini verməsi həm qədirşünaslıqdır, həm də maraqlı bir formadır ki, biz də həmin hissədən istifadə edərək öz münasibətimizi bildirdik...

Ümumiyyətlə, müəllifin “Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri” monoqrafiyasının mündəracatı zəngindir və müəyyən elmi-nəzəri, tarixi-xronoloji sistemlə tərtib edilmişdir. Rafiqin bu kitabı-tədqiqatı da monumentallığı ilə seçilir. Ən qədim dövrdən bu günümüzə qədər ədəbi-nəzəri fikrin inkişafını mərhələlər üzrə izləmək, ümumiləşdirmək, qiymətləndirmək xüsusi hazırlıq və səriştə tələb eləyir.

Burada böyük və keşməkeşli, müxtəlif sosial-tarixi mərhələlərdən keçən, böyük tarixi dövrün məhsulu olan, müxtəlif nəzəri istiqamətləri əhatə edən, fərqli ədəbi-nəzəri üslublarda yazılan əsərlər, elmi-nəzəri baxışlar tədqiqata cəlb edilir, dünya nəzəri fikir kontekstində Azərbaycan ədəbi-nəzəri fikrinin təkamül yolu canlandırılır...

Tam aşkar görsənir ki, müəllif Şərq və Qərb ədəbi-nəzəri fikrinin başlıca, əsas istiqamətlərini dərindən öyrənmiş, izləmiş, mövcud nəzəri ədəbiyyatdan sərf-nəzər etməmişdir. Fikrimizcə, müəllif qədim və orta əsrlərdən üzü bəri Şərq-Qərb ədəbiyyatşünaslığının, estetikasının, elmi-fəlsəfi təmayüllərin mühüm mənbələrinə istinadən, əslində, dünya ədəbi-nəzəri fikir tarixini yaradıbdır.

Monoqrafiya “Ön söz əvəzi” ilə başlayır və “Nəzəri fikrin təşəkkülü”, “Orta əsrlərdə nəzəri fikir”, “XIX əsrdə ədəbi-nəzəri fikir”, “XX əsrdə ədəbi-nəzəri fikir”, “Sovet dövründə ədəbi-nəzəri fikir”, “Müstəqillik illərində ədəbi-nəzəri fikir”, “Müsir dünyada nəzəri-estetik fikir” ümumi başlıqları altında yarımfəsillərdə öz əsas məzmununu tapır, “Son söz əvəzi”, “Ədəbiyyat

siyahısı" və mündərəcata düşməyən, lakin olduqca vacib olan "Əlavə"dən ibarətdir.

Məlumdur ki, ədəbi prosesin formalaşmasında mühit, sənətkar şəxsiyyəti, yaradıcılıq psixologiyası, varislik prinsipi mühüm əhəmiyyət kəsb edir. Görkəmli sənətkarların bədii söz və onun qanunauyğunluqları haqqında fikir və mülahizələri də böyük maraq doğurur və ümumən ədəbi-nəzəri fikrin formalaşmasında iştirak edir, ona stimul verir. Müəllif tədqiqatı boyu bu məsələləri nəzərdə saxlamış, müasir gənc filoloqlara dərslik səviyyəsində istiqamətverici bir əsər yazmış, ədəbi nəzəri fikir nədir, necə formalaşır, nə cürə inkişaf edir və hansı mərhələlərdən keçmişdir kimi problematik sualları cavablandırır.

O da məlumdur ki, ədəbi-nəzəri fikir ümumilikdə bədii əsərin ideyası, məzmun və forması, onun struktru, sujet və kompozisiyası, obrazlar sistemi, rəngarəng sənətkarlıq komponentləri, bədii təsvir və ifadə vasitələri, dil, eləcə də həyatı nə şəkildə əks etdirmənin prinsipləri haqqında düşüncələr sistemidir. Rafiq Yusifoğlu səriştə göstərərək bütün bu sistemin elmi şərhini ortaya qoymuş, onun təkamülünü izləmiş və ümumiləşdirmişdir...

Zəhmətkeş tədqiqatçı eramızdan əvvəl Şərqdə Zərdüştün (e.ə. VII-VI əsrlər), Buddanın (e.ə.VI əsr), Lao Tszının (e.ə. VI əsr), Konfutsinin (e.ə..VI əsr), Yan Çyunun (e.ə.440-360), Çjuan Tszinin (e.ə. 369-286) və başqalarının, Avropa dünyasında - Yunanıstan və Romada Falesin (e.ə.625-547), Anaksaqorun (e.ə.500-423), Heraklitin (e.ə.540-480), Pifaqorun (e.ə.580-500), Zenonun ( e.ə. VI əsr), Empedoklın (e.ə.485-425), Sokratın (e.ə. 469-399), Demokritin (e.ə.460-350), Platonun (e.ə.428-347), Diogen Sinoplunun (e.ə.404-323), Fukudidin (e.ə.460-400), Aristotelin (e.ə.384-322), Epukurun (e.ə.342-271), Siseronun (e.ə.106-43), Lukretsi Karın (e.ə. 99-55), Senekanın (4-65), Epiketin (50-138), Mark Avrelinin (121-180) və başqalarının fikirlərini bir daha, yenidən izləmiş, antik dövrün fikir adamları ilə müasir gənc oxucusunu, tələbələrini tanış etmiş və düzgün olaraq

o qənaətə gəlmişdir ki, bu nəhəng insanların fikirləri həm insanların dünyanı dərkinə, yaşam tərzlərinə, həm də onların yaradıcı təxəyyüllərinin yeni istiqamətdə inkişafına təkan vermişdir...

Xüsusən, Rafiq Yusifoğlu bu konsepsiyanı izləyərkən, həmişə Avropa ədəbiyyatşünaslarının daha çox üstünlük verdikləri "avrosentrizm"dən uzaqlaşmış, həqiqiəti ortaya qoyaraq ta qədimdən dünya ədəbi-nəzəri fikrinin formalaşmasında obyektiv ilkinliyi, başlanğıcı Şərqdən götürmüş; Avestaşünaslığa, Şumerşünaslığa, Qədim Çin təfəkkürünə, Buddizmə, prototürk dastançılıq ənənələrinə diqqəti cəlb etmiş, inandırıcı arqumentlərlə, zəngin misallarla, mənbələrə əsaslanaraq konsepsiyasını ortaya qoymuşdur...

Belə ki, monoqrafiyada Şərq poetikasının türk, ərəb, farsdilli ədəbiyyatın minillik ədəbi təcrübəsinə istinadən yaradılan mükəmməl bir nəzəri sistem izlənilir, bu sistemin yaradıcılarından olan Sibaveyh, İbn Quteybə, Qudamə ibn Cəfər, Əbdülqahir Curcani, Eynülqüzzat Həmədani, Şeyx İşraq, Əl-Fərabi, Nəsrəddin Tusi, Kami Qəzvini, bəlağət elminin banisi sayılan Cahiz və başqaları haqqında verilən məlumatlar, onların fikir və mülahizələrindən gətirilən sitatlar həm Şərq poetikasının görkəmli nümayəndələri, həm də bu poetikanın nəzəri-estetik prinsipləri, kateqoriyaları haqqında dolğun təsəvvür yaradır.

Burada bir cəhəti də, qiymətləndirmək gərəkdir ki, Rafiq Yusifoğlu fikirlərini sübuta yetirməkdən ötrü Qərb və Şərq mənbəşünaslığı ilə yanaşı və bəlkə də, bir az da, üstünlüklə Azərbaycan mənbəşünaslığından istifadə etmiş və bununla da ədəbi-nəzəri fikrin təkamülündə Azərbaycan ədəbiyyatşünaslığının nəticələrini önə çəkərək qiymətləndirmişdir...

Rafiq Yusifoğlunun bu əsərinin ən maraqlı konseptual xətlərindən biri də, ədəbi-nəzəri fikrin formalaşmasında təkcə nəzəri fikir adamlarının deyil, klassik, görkəmli sənətkarların rolunu əhəmiyyətli bir dərəcədə izləməsidir. Bu hissədə Xətib Təbrizinin, Nizami Gəncəvinin, Məhəmməd Füzulinin poetik və bədii əsərlərinə, divanlarına yazdıqları dibaçələrə əsaslanaraq

onların ədəbi-nəzəri görüşlərinin məğzi konseptual şəkildə açıqlanır, İntibah (resenans) dövrünün, Sufizm - təsəvvüf və hurifizmin bu yöndən mahiyyəti açıqlanır, orta əsrlər nəzəri fikrinin mühüm abidələrindən olan Bualonun “Poeziya sənəti” əsəri qiymətləndirilir.

Rafiq Yusifoğlu xronoloji ardıcıllıqla XIX və XX əsrlərdə təkamül edərək formalaşan dünya ədəbi-nəzəri fikrinin nəhəng-lərindən olan V.Q.Belinskinin, Jül Renarın, M.F.Axundzadənin, sonrakı əsrdə A.Səhhətin, M.Ə.Sabirin, Y.V.Çəmənzəminlinin ədəbi-nəzəri görüşlərinin səciyyəvi cəhətlərindən söhbət açır.

Monoqrafiynın ən maraqlı hissələrindən biri də, “Sovet dövründə ədəbi-nəzəri fikir” başlığı altında verilən oçerklərdir. Bura qədər olan fikir və mülahizələrdə ədəbi-nəzəri fikrin inkişafı dünya miqyasında klassik tarixi müstəvidə izlənilirdisə, bu fəsildə lokal bir tarixi-siyasi mərhələ - sovet dövründəki ədəbi-nəzəri fikirin Azərbaycan ədəbi mühitindəki mahiyyəti şərh edilir. Mühüm məsələ odur ki, bu mərhələ ilk dəfədir ki, belə bir proble-matika istiqamətində öyrənilir.

Müəllif bu mərhələni izləmək üçün Azərbaycan ədəbiy-yatşünaslığının elmi istiqamətlər üzrə əldə etdiyi nəticələrə ümumi baxış edir, sovet dövrü ədəbiyyatşünaslıq elmimizin ümumi mənzərəsini canlandırır, əldə edilən nailiyyətləri ədəbi faktlar əsasında xatırladır və bunların ədəbi-nəzəri fikrin mühüm qaynaqları sayır. Və sonrakı yarım fəsillərdə bu nailiyyətlərdən bacarıqla istifadə edə bilir.

Rafiq Yusifoğlu burada Firidun bəy Köçərlinin “Azər-baycan ədəbiyyatı” kitabını təhlilə cəlb eləyir və olduqca əhatəli şəkildə görkəmli maarifpərvər ziyalımız, ədəbiyyat tarixçimiz Firidun bəy Köçərlinin bu sahədəki xidmətlərini faktların dili ilə şərh eləyir, nəzəri fikir tariximizdə ilk dəfə bu nəhəng şəxsiyyətin ədəbiyyatımızın elmi təsnifatını verməsini müəyyənləşdirərək yazır: “Həm ədəbiyyat, həm mənəviyyat, həm də ədəbi-nəzəri fikir tariximizin formalaşmasında F.Köçərlinin müstəsna xidmətləri olmuşdur. İlk dəfə olaraq o, xalqın diqqətini öz mənəviyyat,

ədəbiyyat tarixinin üstünə yönəltmiş, millətin özünü özünə tanıtmaq cəhdi göstərmişdir. ...Bu əsərlə F.Köçərli ilk sistemli ədəbiyyat tariximizi yaratmış, ədəbiyyatşünaslıq elmimizin bünövrəsini qoymuş, onun nəzəri-estetik prinsiplərini formalaşdırmış, humanitar elmin inkişaf perspektivlərini müəyyənləşdirmişdir.”

R. Yusifoğlu bu yarımfəsildən sonra “Azərbaycan sovet yazıçılarının ədəbiyyat və sənət haqqında fikir və mülahizələri” yarımfəslini təqdim etmişdir. Burada, tədqiqatçı düzgün olaraq, belə bir mülahizə irəli sürür ki, “ədəbi-nəzəri fikrin formalaşmasında görkəmli ədəbiyyatşünas alimlərlə yanaşı şair və yazıçıların xidmətləri az olmamışdır” və bu mülahizə prizmasından ümumiləşmiş elmi baxışla yanaşı, H.Cavidin, M.Müşfiqin, xüsusən C.Cabbarlının nəzəri görüşlərinə bir yerdə diqqət yetirir, sonra isə ayrı-ayrılıqda Səməd Vurğunun, Süleyman Rəhimovun, Mehdi Hüseynin, Mirzə İbrahimovun, Rəsul Rzanın, Mir Cəlalın ədəbi-nəzəri görüşlərini təhlil süzgəcindən keçirir, sovet dövründə yaranan nəzəriyyə dərsliklərinin elmi mahiyyətindən, dəyərlərindən, perspektivlərindən söhbət açır.

Rafiq Yusifoğlunun bu tədqiqatının ən maraqlı, daha çox orjinal təsir bağışlayan “Müasir dünyada nəzəri-estetik fikir” fəslidir. Burada zəhmətkeş və daima axtarışlarda olan tədqiqatçı “Modernizm və onun nəzəri-estetik prinsipləri”, “Semiotika nəzəriyyəsi”, “Postmodernizm və onun nəzəri-estetik prinsipləri” müasir, konseptiual, olduqca aktual, müasir nəzəri fikrin maraq dairəsində intensiv şəkildə olan problemləri izah və şərh etmiş, özünün münasibətini bildirmişdir.

Monoqrafiyanın elmi aparaturasının zənginliyi və mövcud mənbələrə müstəqil yanaşma üsulu bunu tam şəkildə sübuta yetirir. Mövzunun əhatə miqyası tarixin dərinliklərindən bu günümüzə gəlir və bunları əhatə etmək elə də asan məsələ deyildir. Bu dövrün ədəbi-nəzəri fikir materialı müəllifin elmi labaratoriyasında təhlil-təşrih əməliyyatından keçərək dürüst qiymətini tapmışdır...

Ümumilikdə, kitabın-monoqrafiyanın elmi planı, struktru və elmi-nəzəri materialın əhatəsi qənaətbəxşdir. Elmi araşdırma aydın, məntiqli və məqsədlidir. Monoqrafiyada ədəbi-nəzəri fikrin inkişaf mərhələləri ayrı-ayrı fikir adamlarının nəzəri fikir müstəvisində ən maraqlı detallarına qədər bütün sənətkarlıq komponentləri diqqət mərkəzinə çəkilmişdir. Klassik üslubda yazılmış, müasir və qabaqcıl ədəbiyyatşünaslıq ənənələrimizi davam və inkişaf etdirən bu əsər öz əhatəliliyi, monumentallığı, informasiya zənginliyi, elmi səviyyəsi ilə diqqəti cəlb edir.

Professor Rafiq Yusifoğlu ədəbiyyatımızda öz sözü, öz imici olan nüfuzlu qələm sahiblərimizdəndir. Onun "Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri" kitabı müasir elmi-nəzəri fikrin bütün tələblərinə və parametrlərinə cavab verməklə yanaşı, ümumiyyətlə dünya ədəbi fikrinin təkamülü barəsində dürüst, obyektiv, aydın təsəvvür yaradan monumental tədqiqatdır...

Əsəri oxuduqca aşkar şəkildə görünür ki, müəllif ədəbi-nəzəri fikir tarixini mükəmməl şəkildə mənimsəmiş, həmçinin, hər dövrə məxsus fikir axınını, cərəyanları, bunların tarixi mənzərəsini yaxşı bilir. Elə buna görə də, müəllifin elmi-nəzəri arqumentləri, izah və şərhləri inandırıcıdır və hər bir müddəanın arxasında fakt dayanır, material dayanır, müəlliflərin fikirlərindən gətirilən misallar dayanır...

Əsəri oxuyarkən dünya ədəbi-nəzəri fikrinin inkişaf yolu, onun təkamülü, əldə olunan, sivlizasiya xidmət edən nəticələri barəsində tam təsəvvür yaranır və elə buna görə də, Rafiq Yusifoğlunun bu yeni tədqiqatını müasir ədəbiyyatşünaslığımızın nəaliyyətləri səviyyəsində qəbul etmək olar. Çünki Rafiq bu əsərini də, müasir milli metodologiya və mütərəqqi dünya ədəbiyyatşünaslığının zəngin təcrübəsi və nəzəri prinsipləri əsasında araşdırdığından dəyərli və orjinal, bu günümüzə - filoloji nəzəri fikrimizə, tədrisimizə, təhsilimizə lazımlı, boşluğu dolduran bir monoqrafiya yarada bilmışdır...

Filologiya elmlər doktoru, professor, şair, tərcüməçi, publisist, ədəbiyyatşünas, pedaqoq Rafiq Yusifoğlu olduqca

məhsuldar ziyalılarımızdandır. Hələ beş il bundan əvvəl nəşr edilmiş biblioqrafik göstəricidə onun yaradıcılığı barəsində 3592 addan ibarət məlumat getmişdi. Bu adi fakt deyildir, mühüm göstəricidir, qürur və fərəhverici göstəricidir və bu faktlar sübut edir ki, Rafiq Yusifoğlu bu günümüzün ən nüfuzlu qələm sahiblərindən biridir. Bir qələm dostu və həmkarı kimi ona, bu yolda yeni-yeni uğurlar arzulayırıq...

**Tərlan Novruzov**
**filologiya üzrə elmlər doktoru, professor.**
09. 03. 2016

Ədalət, 31 mart 2016, 1 aprel 2016, s.4.
Sözün sehri, 01 – 30 aprel 2016, s.6 -7.
Gənc müəllim, aprel 2016, s.5 -6.

## ƏDƏBİ-NƏZƏRİ FİKRİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

Rafiq Yusifoğlu görkəmli şair olmaqla bərabər, həm də ədəbi əsərləri özünəməxsus bir tərzdə təhlil edən, onların məziyyət və nöqsanlarını, sənətkarlıq xüsusiyyətlərini ustalıqla, peşəkarlıqla dəyərləndirən, ədəbi prosesi daim izləyən, elmi-nəzəri məqalələri ilə tez-tez mətbuatda çıxış edən bənzərsiz bir ədəbiyyatşünasdır. Bu bənzərsizliyi, bədii əsərə özünəməxsus tərzdə yanaşma və onu orijinal tərzdə dəyərləndirmə ustalığını təmin edən isə sözsüz ki, Rafiq Yusifoğlunun şairliyidir. Bir tərəfdən şeir qayda-qanunlarını mükəmməl bilməsi, bədii mətnə zərgər dəqiqliyi ilə dəyər vermə ustalığı, digər tərəfdən poetik duyumu onun elmi araşdırmalarına da xüsusi bir ahəng, çalar vermişdir.

Rafiq Yusifoğlunun ayrı-ayrı vaxtlarda nəşr olunub mütəxəssislərin, müəllim və tələbələin istifadəsinə verilən "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Uşaq ədəbiyyatı" dərslikləri, "Azərbaycan poeması: axtarışlar və perspektivlər", "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" monoqrafiyaları onu deməyə əsas verir ki, Rafiq müəllim

təkcə uşaqların və böyüklərin sevimli şairi deyil, eyni zamanda, ədəbi-elmi, pedaqoji ictimaiyyətin nüfuzunu qazanan zəhmətkeş, istedalı bir alim, pedaqoqdir. Məhz buna görədir ki, Rafiq Yusifoğlu xeyli vaxtdır ölkəmizdəki mötəbər bir dissertasiya şurasının üzvüdür, gənc ədəbiyyatşünaslara elmi rəhbərlik, opponentlik missiyasını da ləyaqətlə yerinə yetirir, elmi-pedaqoji kadrların hazırlanmasında yaxından iştirak edir.

Uzun illərdən bəri universitetlərdə mühazirlər oxuyan Rafiq Yusifoğlu tələbələrin və magistrantların nəyə ehtiyacı olduğunu yaxşı bilir. Mühazirlər oxumaqla bərabər, bu sahədə olan boşluğu imkanı daxilində doldurmağa çalışır və onun bu cəhdi həmişə razılıqla qarşılanır. Akademik Rəfael Hüseynovun redaktorluğu altında yenicə çapdan çıxan **"Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri"** *(Bakı, Elm və təhsil, 2016)* adlı monoqrafiya Rafiq Yusifoğlunun gərgin axtarışlarının bəhrəsi olan sanballı bir əsərdir. Monoqrafiya unviversitetlərin magistr hazırlığı kurslarında tədris olunan eyni adlı fənnin proqramına əsasən yazılsa da, ondan təkcə magistrantlar deyil, ali məktəb tələbələri, müəllimlər, doktorantlar, gənc tədqiqatçılar, ümumiyyətlə, bütün ədəbiyyat həvəskarları dəyərli bir elmi mənbə kimi istifadə edə bilərlər.

Zəngin elmi informasiyalarla dolu bu monoqrafiyanı oxuyanda ədəbi-nəzəri fikrin ayrı-ayrı zamanlarda, müxtəlif ölkələrdə formalaşması, onun inkişaf yolunun ümumi mənzərəsi göz önündə canlanır. Kitabın aşağıdakı bölmələrdən ibarət olması onun əhatə dairəsinin nə dərəcədə genişliyinin göstəricisidir: "Ədəbi-nəzəri fikrin təşəkkülü", "Orta əsrlərdə ədəbi-nəzəri fikir", "XIX əsrdə ədəbi-nəzəri fikir", "XX əsrdə ədəbi-nəzəri fikir", "Sovet dövründə ədəbi-nəzəri fikir", "Müstəqillik illərində ədəbi-nəzəri fikir", "Müasir dünyada nəzəri-estetik fikir".

Əlbəttə, bütün bölmələr eyni səviyyədə yazılmamışdır. Xüsusən "Müstəqillik illərində ədəbi-nəzəri fikir" adlanan hissə əhatəli deyil, müəllif nədənsə nəzəri mənbələrə istinadən geniş şərhlər vermək ağırlığını öz çiyinlərinə götürmək istəməmişdir.

Monoqrafiyada poetikanın mahiyyəti açılır, Şərq poetikası ilə Qərb poetikası maraqlı tərzdə müqayisə edilir, elmi qənaətlər çıxarılır. Müəllifin ədəbi faktları özünəməxsus bir şəkildə şərh etməsi maraq doğurur.

Əsərin 26 və 27-ci səhifəsində oxuyuruq: "Bu danılmaz, təkzibolunmaz bir faktdır ki, Günəş həmişə Şərqdən doğulduğu kimi, poeziyanın ilkin beşiyi də Şərq olmuşdur. Şərq poetikası çox qədim bir tarixə, mükəmməl bədii inikas qanunauyğunluqlarına malikdir. Lakin təəssüf ki, bir tərəfdən bizim özümüz babalarımızın yaratdıqlarına laqeyd münasibət bəsləmişik, digər tərəfdən isə tarixi-fəlsəfi, ədəbi-nəzəri abidələrimizin gözəlliyindən heyrətə gələnlər onları məhv etməklə özlərinin güclü, qüdrətli rəqiblərini aradan çıxarmağa çalışmışlar. Ədəbi zövqümüzün yüksəkliyinə belə qısqanclıqla yanaşmanın nəticəsidir ki, "Avesta" yandırlmış, adını bildiyimiz, bilmədiyimiz digər abidələr məhv edilmiş, digərləri isə plagiatlıq yolu ilə "özəlləşdirilmişdir". Şərq isə yüksək əxlaqi nümunə göstərərək "Avesta"nı yandıranların, digər abidələri məhv edənlərin yaradıcılıq nümunələrini, o cümlədən "Poetika"nı itib-batmaqdan xilas etmiş, yenidən bəşəriyyətin istifadəsinə qaytarmışdır. "Avesta"nı Makedoniyalı İsgəndər yandırtmış, onun müəllimi Aristotelin "Poetika"sına isə Əbdül-Bəşər Mətta, İbn-Rüşt, İshaq ibn Hüseyn, İbn-Sina kimi tərəqqipərvər Şərq mütəfəkkirləri yeni həyat bəxş etmişlər".

Rafiq Yusifoğlunun "öz yaratdıqlarımıza laqeyd, təvazökar münasibəti yüksək səviyyəli əsərlərin Şərq ölkələrində çoxluğu" ilə əlaqələndirməsi də maraqlı qənaətdir.

Monoqrafiya boyu Aristotelin, Bualonun, Xətib Təbrizinin, V.Belinskinin, Jül Renarın, E.Zolyanın, V.Belinskinin və b. fikir və mülahizələrinə istinadən müəllif nəzəriyyənin, ədəbi-estetik fikrin mahiyyətini açmağa çalışır və əsasən öz məqsədinə nail olur. Ədəbi-nəzəri fakta yeni prizmadan baxmaq, onu özünəməxsus bir tərzdə mənalandırmaq cəhdi monoqrafiyanın elmi və fəlsəfi dəyərini, oxunaqlığını şərtləndirən amilə çevrilir. Sözü gedən problemlə bağlı informasiya bolluğu, qaynaqlara istinad əsərin

elmi aparaturasını əhəmiyyətli dərəcədə zənginləşdirir və oxuculara daha dərin biliklərə yiyələnmək üçün bir növ istiqamət göstərilir.

Məlumdur ki, ədəbi-nəzəri fikrin formalaşmasında filosoflarla, ədəbiyyat nəzəriyyəçiləri ilə yanaşı görkəmli şairlərin, yazıçıların da çox böyük rolu olmuşdur. Müəllif monoqrafiya boyu bu məsələni xüsusi diqqət hədəfində saxlayır. Ədəbiyyat tariximizin ayrı-ayrı dövrlərində yaşayıb yaradan, ədəbiyyat, söz sənəti haqqında maraqlı fikir və mülahizələr irəli sürən Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundov, Abbas Səhhət, M.Ə.Sabir, Y.V.Çəmənzəminli, Cəfər Cabbarlı, Səməd Vurğun, Mehdi Hüseyn, Süleyman Rəhimov, Mirzə İbrahimov, Rəsul Rza kimi tanınmış sənətkarların ədəbi-nəzəri görüşləri təhlil predmetinə çevrilir. Müəllif eyni zamanda fikirlərini əsaslandırarkən görkəmli Azərbaycan ədəbiyyatşünaslarının fikir və mülahizələrinə də münasibət bildirir. Ədəbiyyat tariximizin yaradılmasında, ayrı-ayrı tarixi mərhələdə yaranan əsərlərin araşdırılmasında, tədqiqində xüsusi xidmətləri olan F.Köçərli, H.Araslı, M.Arif, F.Qasımzadə, M.Quluzadə, M.Cəlal, M.Cəfər, Ə.Mirəhmədov, R.Əliyev, M.Təhmasib, M.Seyidov, Ə.Ağayev, Y.Qarayev və başqa bu kimi görkəmli alimlərin xidmətlərinə dəyər verilir, ədəbiyyatşünaslıq elmimizin yaranmasında və yeni istiqamətdə inkişafında bu görkəmli ədəbiyyatşünasların ədəbi-nəzəri irsinin əhəmiyyətindən danışılır.

Azərbaycanda yaranan ilk nəzəriyyə dərsliklərinə həsr olunan hissədə həmin əsərlərin strukturu, məziyyət və nöqsanları haqqında söhbət açılır. Nəzəri fikrin istiqamətinin müəyyənləşməsində Cəfər Xəndan, Mikayıl Rəfili, Mir Cəlal, Pənah Xəlilov və başqalarının xidmətləri ehtiramla xatırlanır, onların əsərləri təhlil predmetinə çevrilir.

Kitabın "Semiotika nəzəriyyəsi" və "Postmodernizm" haqqında yazılan bölmələrinin informasiya tutumu qənaətbəxşdir. İstər nəzəri, istərsə də ədəbi əsərlərə istinadən müəllifin öz fikir və mülahizələrini sadə və anlaşıqlı dildə söyləməsi, fikirlərini məntiqi

şəkildə əsaslandırmağı bacarması razılıq hissi doğurur. Müəllif dünyanın müxtəlif ölkələrində postmodernizm haqqında söylənilən fikirlərin icmalını verəndən sonra öz münasibətini bildirir, fikrini əsaslandırmaq üçün təkcə nəzəri fikrə yox, həm də ədəbi materiallara istinad edir.

Postmodernizmin yaradıcılıq prinsiplərinə uyğun Azərbaycan ədəbiyyatından, xüsusən Mirzə Cəlilin əsərlərindən nümunələr gətirməsi son dərəcə maraqlı təsir bağışlayır. Rafiq Yusifoğlu U.Ekonun postmodirnizmdə kinayə oyunu ilə bağlı fikirlərini sitat gətirəndən sonra yazır ki, bizdə kinayə oyununu Sabir kimi, Cəlil Məmmədquluzadə kimi ustadları var. Onlar xortdanlar, xoxanlar, avamlar, ölülər, dəlilər mühitinə qəhqəhə çəkərək gülməyi bacarıblar postmodernistlərdən qat-qat əvvəl…

Müəllif fikrini davam etdirərək yazır ki, "Umberto Eko dünyaya gələndə dünyadan köçən bizim ustad, "postmodernist" Mirzə Cəlil məhz Ekonun dediyi həmin üsuldan çox-çox əvvəl, özü də dönə-dönə istifadə edib. O, birbaşa deyilməsi mümkün olmayanı görün nə şəkildə, necə ustalıqla təqdim edib: "Ay Dəmdəməki, sən lap dəlisən: kişi, necə qorxmadın o sözləri mənə yazdın? Məgər sən canından əl çəkibsən? Bəlkə mən o sözləri götürüb məcmuəyə yazaydım, onda canını hara qoyardın?

Yəqin bil ki, bakılılar məni daş-qalaq edib mənim də məcmuəmə bilmərrə müştəri olmazdılar. Kişi, mən yaza billəm ki, Bakı qiraətxanalarında bayquşlar ulayır?! Mən yaza billəm ki, Bakı cəmiyyəti-xeyriyyəsinin fikrinə düşən yox, üzvləri çox cahil və iş görmək istəməyən?! Mən yaza billəm ki, Bakının küçələri dilənçilik edən müsəlman övrətləri və uşaqları ilə doludur?!

Ay Dəmdəməki, mən yaza billəm ki, aprelin doqquzunda iki məşhur müsəlman qlasnısı bir-birinə altıaçılan çəkib, olmayan sözləri bir-birinə dedilər?! Və mən buna inana billəm ki…

Ay Dəmdəməki, məcmuədə yaza billəm ki, səfər ayının iyirmi səkkizində qubalılar ilə bakılılar Bibi-Heybətdə elə şiddətli baş yardılar ki, bir neçə nəfərin başının qanı hələ yenə axır?!

Ay Dəmdəməki, sən dəlisən-nəsən?

Ay kişi, mən yaza billəm ki, dekabr ayında bakılılar qərib oğruları eşşəyə mindirib şəhəri gəzdirdilər, amma öz oğrularını tutduqda buraxırlar, çünki bu oğrular qlasnıların qohumudurlar?

Ay Dəmdəmәki, bir fikir elə gör mən bu sözlərə məcmuəmdə yer verə billəm ki, sən məndən xahiş edirsən? Bəlkə mən bu sözləri yazaydım, canını hara qoyacaq idin?"

Böyük ədəbin 1906-cı ildə "Molla Nəsrəddin" 3-cü nömrəsində çap olunan "Ay Dəmdəməki" müraciəti ilə başlayan felyetonunu bütünlükdə nümunə verən Rafiq Yusifoğlu həmin mətnə belə şərh verir: "Bu yazını oxuyanda adam heyrətə gəlir. Ay aman, Cəlil Məmmədquluzadə postmedernist üslubun yaradıcısı imiş ki?! Hələ bu bir yana, insafla deyin, 1906-cı ildə gündəmə gətirilən bu problem bu gün də öz aktuallığını saxlayır, ya yox?! Onu da xatırladım ki, Umberto Ekonun "Postmodernizm, kinayə, həzz" məqaləsi 1983-cü ildə qələmə alınıb. Postmodernist görünmək xətrinə görkəmli yazıçılarımızı, alimlərimizi, o cümlədən Cəlil Məmmədquluzadəni kinayə, rişxənd obyektinə çevirmək istəyən bəzi "postmodernist"lərimiz bunu unutmasınlar və öyrənmək istəyirlərsə, Mirzə Cəlilin əsərlərinə müraciət etsinlər".

Rafiq Yusifoğlunun əslində dərslik kimi nəzərdə tutulan "Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri" monoqrafiyasının ən yaxşı cəhəti ondan ibarətdir ki, ədəbi-nəzəri fikrin təşəkkülü, ayrı-ayrı mərhələlərdə, dövrlərdə, ayrı-ayrı ölkələrdə ictimai mühitin təsiri ilə onun inkişafının ümumi mənzərəsini yaratmağa cəhd göstərilir və müəllif əsasən öz məqsədinə nail olur. Əsər boyu nəzəri fikrin görkəmli nümayəndələrinin düşüncə və mülahizələri diqqət mərkəzinə çəkilir. Kitabın informasiya tutumu yetərincə əhatəlidir və ümid edirik ki, tələbələr, magistrantlar, gənc alimlər bu tədqiqat əsərindən çox şey öyrənə, ondan bəhrələnə biləcəklər. Kitabın müəllifinə, zəhmətkeş qələm dostumuza yeni-yeni uğurlar diləyirik.

**Məmməd Əliyev,**
**filologiya elmləri doktoru, professor.**
*"525-ci qəzet", 5 aprel 2016-cı il.*

## “BƏDİİ SÖZ –
## MƏNA OCAĞININ KÖZLƏRİ”

Şair, publisist, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun imzası Azərbaycan oxucularına çox yaxşı tanışdır. Rafiq müəllim təkcə elmi-ədəbi fəaliyyətlə deyil, həm də naşirliklə məşğul olduğundan, onun redaktorluğu ilə çıxan “Göyərçin” jurnalının oxucuları tərəfindən də sevilən ziyalılarımızdandır. Bax, bu mənada hər bir yeni kitabı, yeni şeir çələngi ilə oxucularını sevindirən Rafiq Yusifoğlu özünün publisist, eləcə də elmi məqalələri ilə də kifayət qədər oxucu auditoriyası toplaya bilibdir. Bu gün bir çox dillərə çevrilmiş kitabların, bədii əsərlərin, elmi məqalələrin müəllifi olan Rafiq Yusifoğlu 2018-ci ildə özünün iri həcmli, yəni 528 səhifəlik kitabı ilə oxucuların qapısını döyüb.

Elmi redaktoru akademik Nizami Cəfərov, rəyçiləri filologiya elmləri doktorları, professorlar Məmməd Əliyev, Məhərrəm Qasımlı və Şahin Xəlilli olan “Bədii söz – məna ocağının közləri” məqalələr toplusu ADPU nəşriyyatında işıq üzü görübdür. Kitabın annotasiyasında oxuculara bildirilir ki, şair, ədəbiyyatşünas, əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu 20 ilə yaxındır ki, ali məktəblərdə, tələbə auditoriyalarında mühazirələr oxuyur. Onun “Ədəbiyyatşünaslığın əsasları”, “Müasir ədəbi proses və ədəbi tənqid”, “Uşaq ədəbiyyatı” kitabları ali məktəblərdə dərs vəsaiti kimi istifadə olunur. Çoxlu sayda elmi monoqrafiyaların müəllifi olan Rafiq Yusifoğlu yenicə işıq üzü görən kitabında da kifayət qədər sanballı mövzuları işıqlandırmışdır.

Bu kitabın birinci bölümü “Poetik söz və onun məna çalarları” adlanır. Həmin bölümdə müəllif bədii sözə, poeziyaya, folklor nümunələrinə, xalq mahnılarına, aşıq yaradıcılığına, ümumiyyətlə Cəfər Cabbarlı, M.Müşfiq, R.Rza və digərlərinin poetik düşüncələrinə işıq salmış, onlar barəsində özünün əsaslandırılmış elmi fikirlərini oxuculara təqdim etmişdir.

Kitabın ikinci bölümü "Tariximiz, bu günümüz" adlanır. Həmin bölmədə də söhbət daha çox ədəbiyyat və bütövlükdə söz sənəti tariximizin aydınlarından olan Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli və digərləri barəsində fikir söyləməklə bu bölümün əhatə etdiyi söz sahiblərinin bu günümüz üçün də nə qədər önəmli olduğunu işıqlandırıbdır.

Bütövlükdə 7 bölümdən ibarət olan topluda Rafiq Yusifoğlu özünün müxtəlif kitablara yazdığı ön sözlərini, uşaq ədəbiyyatı barəsində fikirlərini, gəlimli-gedimli dünyaya poetik baxışlarını və nəhayət, dünya ədəbiyyatına özəl münasibətlərini qələmə almışdır.

Bir oxucu kimi qeyd etmək istəyirəm ki, topluda yer almış məqalələrin müəyyən hissəsi "Ədalət"in oxucularına da məlumdur. Ona görə də dəyərli Rafiq müəllimin "Bədii söz – məna ocağının közləri" kitabı barəsində fikirlərimi həm də onun daimi izləyicisi, oxucusu kimi ifadə etməklə müəllifə yeni yaradıcılıq uğurları arzu edirəm. Düşünürəm ki, onun bizlərə etdiyi bu söz hədiyyəsi qısa zamanda öz oxucularını tapacaqdır.

**Əbülfət Mədətoğlu**

*"Ədalət" qəzeti,16 may 2018-ci il.*

# "Bədii söz – məna ocağının közləri"–

## Rafiq Yusifoğlunun yeni kitabı nəşr edilib

Görkəmli şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu çoxşaxəli yaradıcılığa malik bir qələm sahibidir. O, bənzərsiz şair olduğu kimi, bənzərsiz də bir ədəbiyyatşünasdır. Bu zəhmətkeş və istedadlı alimin bədii mətni təhlil və dəyərləndirmə üslubu əhəmiyyətli dərəcədə seçilir. Bütün bunlar Rafiq müəllimin həm nəzəri hazırlığı, həm şairliyi, həm də pedaqoqluğu ilə birbaşa əlaqəlidir. Elə Rafiq Yusifoğlunun

yenicə çapdan çıxan kitabı da dediyimizi əyani şəkildə sübut eləyir. Bu sanballı, 528 səhifəlik məqalələr kitabının adı belə poetikdir: "Bədii söz – məna ocağının közləri" *(Baki, ADPU, 2018).*

**Manevr.az** xəbər verir ki, kitabın "Poetık söz və onun məna çalarları" adlı birinci bölməsində sənətkarlıq məsələləri ilə bağlı məqalələr toplanmışdır. "Şeirin kasad bazarı və ya zər qədrini zərgər bilər", "Bədii sözün hərarəti", "Situasiya insanın daxili dünyasını açmaq vasitəsi kimi", "Azərbaycan xalq mahnılarında obrazlar sistemi", "Xalq bayatılarında peyzaj", "Aşıq Ələsgər yaradıcılığında peyzaj və portret cizgiləri", "Mirzə Fətəli Axundovun "Şərq poeması"nın janr xüsusiyyətləri", "Cəfər Cabbarlı və lirika", "Mikayıl Müşfiq yaradıcılığı və folklor", "Heydərbabaya salam" poeması haqqına bir neçə söz" və sair bu kimi məqalələr bədii təhlil orijinallığı ilə seçilir. "Tariximiz və bu günümüz" adlı bölmədə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli kimi görkəmli ziyalılarımızın yaradıcılıgı, cəmiyyət haqda fikir və mülahizələri bu günün rallığı və problərin oxşarlığı prizmasından tədqiqata cəlb edilir.

Kitabda müəllifin ədəbiyyatşünaslıq elminin, folklorun, uşaq ədəbiyyatının yaradıcılıq problemləri ilə bağlı məqalələri ilə yanaşı, ayrı-ayrı tanınmş şair və yazıçıların əsərləri də bədii təhlilə cəlb olunur. Rəsul Rza, İsmayıl Şıxlı, Bayram Bayramov, Hüseyn Abbaszadə, Bəxtiyar Vahabzadə, Qasım Qasımzadə, Teymur Elçin, Mirmehdi Seyidzadə və sair bu kimi qələm sahiblərinin yaradıcılığı araşdırma obyektinə çevrilir. Müəllifin görkəmli ədəbiyyatşünas alimlərdən Yaşar Qarayev, Bəkir Nəbiyev və Əhəd Hüseynov haqqında məqalələri də maraqlıdır.

Rafiq Yusifoğlunun kitabının dünya ədəbiyyatına həsr olunan bölməsində toplanan məqalələrdə Ernest Heminquey, Teador Drayzer, Çingiz Aytmatov, Orxan Pamuk, Pulo Koelyo, Pamela Trevers, İvan Draç və başqalarının yaradcılıgindakı ən önəmli cəhətlər bədii təhlil süzgəcindən keçirilir. Müəllifin

qədim yunan və roma ədəbiyyatı, eləcə də, Britaniya uşaq ədəbiyyatı ilə bağlı maqalələri də maraqlıdır, elmi informasiya ilə zəngindir.

"Gəlimli-gedimli" dünya adlı bölmədə müəllifin R.Rza, X.Əlibəyli, V.İbrahim, H.Kürdoğlu, M.Fərrux, A.Mansurzadə haqqında yazdığı məqalələr toplanmışdır. Məqalələr məcmuəsində həmçinin Hikmət Ziya, Tofiq Mahmud və Xasay Cahangirovun seçilmiş əsərlərinə yazılmış ön sözlərin daxil edilməsi də təqdirəlayiqlir.

İnanırıq ki, Rafiq Yusifoğlunu sənətkarlıq problərinə həsr olunan "Bədii söz – məna ocağının közləri" adlı sanballı məqalələr kitabından müəllimlər, doktorantlar, magistrantlar, tələbələr, qələm adamları, eləcə də bütün ədəbiyyat həvəskarları bəhrələnəcəklər. Necə deyərlər, məna ocağının közlərinin neçə-neçə üşüyən qəlbi isidəcəyinə inanır, yorulmaq bilmədən yazıb yaradan görkəmli şairimizə, alimimizə can cağlıgı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Manevr.az**

*07-04-2018 20:44*

# DƏRSLİK VƏ MONOQRAFİYALARDA GEDƏN YAZILAR

## “Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı” kitabından sətirlər

“Ədəbiyyat nəzəriyyəsi sahəsində Məmməd Əliyevin, Tahirə Məmmədin, Rəhim Əliyevin, Rəhilə Qeybullayevanın, Rafiq Yusifoğlunun, Cavanşir Yusiflinin, Hüseyn Həşimlinin yeni kitabları ədəbiyyatşünaslıq elminin bu sahəsində mühüm addımlardır”. *(Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, I cild, (**İsa Həbibbəyli**) s.32)*

***

“… Bəxtiyar Vahabzadənin “Ümidə heykəl qoyun” (1993), Məmməd Arazın “Dünya düzəlmir” (1992), “Daş harayı” (1993), “Qayalara yazılan səs” (1994), Nəbi Xəzrinin “Əsrin qanlı laləsi” (1998), “Zaman çıxsa məcrasından” (1998), Mirvarid Dilbazinin “Bənövşələr üstə göz yaşları” (1994), Nəriman Həsənzadənin “Taleyin töhfəsi” (1993), Sabir Rüstəmxanlının “Zaman məndən keçir” (1995), Vahid Əzizin “Dözmək olmur” (1996), …Rafiq Yusifoğlunun “Qəm karvanı” (1997), “Həsrət köçü” (1998), … Rüstəm Behrudinin “Mələkdən iblis gözəldir” (1997)… və s. kimi kitabları çağın narahat ruhunu, milli insanın düşüncə və yaşamalarını, poeziyamızın mövzu – predmet əhatəsini ehtiva və təcəssüm etdirir”. *(Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, I cild, (**Tehran Əlişanoğlu**) s.449-450)*

***

"Bu üsluba (ənənəvi milli-realist üsluba –R.Y.) sahib çıxan böyük sənətkarların və bu üslub sferasında sınaqdan çıxmış, imzaları tanınmış qələm sahiblərinin – Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Balaş Azəroğlu, Qabil, Nəriman Nəsənzadə, Əli Tudə, Söhrab Tahir, Musa Yaqub, Məmməd İsmayıl, Hidayət, Sabir Rüstəmxanlı, … Rafiq Yusifoğlu, Vaqif Bəhmənli… və onlarla başqalarının biri digərinə bənzəməyən, hərənin öz nəfəs ampulasında olan, fərqlənən və fərqlənməyən səhətləri ilə, sənətkarlıq baxımından yaxşı, ortabab və nöqsanlı tərəflərdən özünü göstərən xeyli qələm məhsulları mətbuatda dərc edilmişdir"
*(Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, II cild, (**Qurban Bayramov**) s.551-552)*

***

"Sovet dönəmində mövcud ənənələrdən bəhrələnərək uşaqlar üçün yeni sənət nümunələri yaradan Mikayıl Rzaquluzadə, Mirmehdi Seyidzadə, Xanımana Əlibəyli, Teymur Elçin, Emin Mahmudov, Namiq Abdullayev, Tofiq Mahmud, Tofiq Mütəllibov, İlyas Tapdıq, Hikmət Ziya, Məstan Günər, Zahid Xəlil, Rafiq Yusifoğlu, Ələmdar Quluzadə, Qəşəm İsabəyli kimi şair və yazıçılarımız bu ədəbiyyatın layiqli davamçılarına çevrilmişlər" *(Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, II cild, (**Aygün Bağırlı, Günay Qarayeva**) s.818);*

***

"Müstəqillik illərində uşaq ədəbiyyatı nümunələrinin toplanması, nəşr olunması, tədqiqi və nəzəri problemlərinin öyrənilməsi yönümündə də ciddi addımlar atılmışdır. …Rafiq Yusifoğlunun "Uşaq ədəbiyyatı" (Bakı, 2006), Qara Namazovun "Azərbaycan uşaq ədəbiyyatı" (Bakı, 2007), Zahid Xəlil və Füzuli Əsgərlinin "Uşaq ədəbiyyatı" (Bakı, 2011)… kitabları çap olunmuşdur.

***

Zahid Xəlil və Füzuli Əsgərlinin birgə müəllifləri olduğu "Uşaq ədəbiyyatı" dərsliyində milli uşaq ədəbiyyatımızın təkamülü izlənilir, çağdah dövrdə bu ədəbiyyatı təmsil edən Qəşəm İsabəyli, Rafiq Yusifoğlu, Ələmdar Quluzadə, Sevinc Nuruqızı, Reyhan Yusifqızı və başqa şair və yazıçıların yaradıcılığı təqdim olunur"… *(Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, II cild, (**Aygün Bağırlı, Günay Qarayeva**) s.822);*

***

"Müstəqillik dövrü uşaq ədəbiyyatının ayrı-ayrı növləri və janrları inkişaf tendensiyaları ilə seçilməkdədir. Uşaq nəsrinin uğurları xüsusilə qeyd olunmalıdır. Bu sahədə maraqlı nağıl, hekayə, povestləri ilə tanınan Zahid Xəlil, İlyas Tapdıq, Rafiq Yusifoğlu, Qəşəm İsabəyli, Ələmdar Quluzadə kimi tanınmış uşaq yazıçıları ilə yanaşı orta nəsil nümayəndələrindən Sevinc Nuruqızı, Reyhan Yusifqızı, Aygün Bünyadzadə, Günel Almaz və başqa müəlliflərin əsərləri də nəşr olunmuşdur" *(Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, II cild, (**Aygün Bağırlı, Günay Qarayeva**) s.824);*

***

"Zahid Xəlilin "Dünyanın ən balaca nağılları", Ələmdar Quluzadənin "Alay komandiri", Rafiq Yusifoğlunun "Ulu yurd yerlərimiz", "Dəniz səviyyəsi", "Elm və Helm", "Qoruq və yasaqlıqlarımız", "Tapmacalar ölkəsi", Əjdər Ağayevin "Ceyran nənəm", Qəşəm İsabəylinin "Üüü", "Elnur, Əkil və onların başına gələnlər" və s. kitablarının adlarını çəkmək olar". *(Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, II cild, (**Aygün Bağırlı, Günay Qarayeva**) s.825);*

***

"Müstəqillik dövrü uşaq poeziyasının ümumi panoramını təsəvvür etmək üçün bu illərdə çap olunan şeir kitablarına nəzər salmaq kifayətdir. Mobil Quluzadənin "Mənim gül balam" (1991), Rafiq Yusifoğlunun "Aylı cığır"(1992), "Şirin yağış" (1998), "Çiçək yağışı" (2000), "Böyük arzuya gedən yol" (2000), "Söz

çəməni” (2002), “Günlərimiz, aylarımız” (2003), “Zamanın qatarı” (2005), “Daha uşaq deyiləm” (2006), “Yollar” (2006), “Ana dilim” (2007), “Quşlar dünyası” (2012), “Qızılı məktublar” (2013), Xanımana Əlibəylinin “Seçilmiş əsərləri” (2 cilddə)… bu sahədə uğurların yalnız bir qismini təşkil edir.*” (Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, II cild, (**Aygün Bağırlı, Günay Qarayeva**) s.829);*

***

“İlyas Tapdığın şeirlərindəki ritmik ahəng, səs çalarları, qısa, dolğun cümlələr, söz oyunları, Zahid Xəlilin təbiəti predmetli, obrazlı şəkildə ifadə etmək, iti müşahidə qabiliyyəti, uşaqlarda ətraf mühit haqqında geniş təsəvvür oyatmaq qabiliyyəti, Rafiq Yusifoğlunun görüntü və təsvirlərlə məhdudlaşmayıb bədii mətndə müəyyən əxlaqi fikir formalaşdırmaq, eyni zamanda uşağı düşündürmək, maraqlandırmaq, diqqətini gerçəkliyin müxtəlif tərəflərinə yönəltmək ustalığı baxımından təcrübəli şairlərin şeirlərinin böyük tərbiyəvi əhəmiyyəti vardır.” *(Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, II cild, (**Aygün Bağırlı, Günay Qarayeva**) s.830);*

***

“Rafiq Yusifoğlu redaktoru olduğu “Göyərçin” jurnalının demək olar ki, hər sayında balacalara rəngarəng mövzularda yazdığı şeirlərini təqdim etmişdir. Şairin müxtəlif mövzularda yazdığı şeirlər maraqlı sonluqları ilə seçilir. Rafiq Yusifoğlunun kiçik qəhrəmanları hazırcavablıqlarıyla, şən, şıltaq obrazlarıyla fərqlənirlər. “Savadlı xoruz”, “Kran”, “Günəş Xəzərdə çimir”, “Saç və saqqal”, “İlk qar”, “Oğru külək”, “Çoban külək”, “Bulud fayton” və adlarını çəkmədiyimiz xeyli sayda şeirləri şairin bu illərdə uşaqlara təqdim etdiyi maraqlı bədii nümunələrdir. Müəllif “Dərzi payız” şeirində maraqlı bədii lövhə yaratmışdır. Payızın sarı xəzəlləri arasında oynayan kirpinin tikanlarına keçmiş sarı yarpaqlar onu gözəl qızılı libas kimi bəzəyib. Bu mənzərəni görənlər ayaq saxlayıb “yeriyən bir topa xəzələ” tamaşa edirlər. “Bu qar niyə ərimir” şeirində babanın ağarmış saqqalını çöldəki

qara bənzədən nəvə təəccüblənir ki, niyə gün çıxanda həyətdəki qar əriyir, babanın üzündəki "qar" isə yox? "Fatehlə söhbət" şeirində vətəndən uzaqlarda – Amerikada yaşayan nəvə babanı öz yanlarına aparmaq üçün şirin dilinə salır. Babanın nağıl həvəskarı olduğunu bilən nəvə "Amerikada hər daşın altında nağıl var, gəl yığ özünlə apar" - deyərək bu yolla onu öz yanına çağırır. Şairin "Savadlı xoruz" şeiri balacalara yumorla, şirin dillə təqdim olunan bədii nümunədir:

Xoruza dedilər ki,
Get məktəbə, təhsil al.
Əlifbanı öyrənib,
Kitab oxu, ləzzət al!

Xoruz eşdi torpağı,
Nə söyləsin bəs indi?
–Neynirəm əlifbanı,
Üç səs bildim, bəsimdi…

Mənə lazım olan hərf
Bir "Q", bir "L", bir "U"du.
Oxuyacağım sözlər
Təkcə "quq-qulu-qu"du…

*(Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, II cild, (**Aygün Bağırlı, Günay Qarayeva**) s.830);*

***

"Rafiq Yusifoğlunun "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" (2010) monoqrafiyasında poema janrının tarixi ənənələrini üzə çıxarmaq, eləcə də forma-məzmun, dil və üslub problemlərinin elmi-nəzəri şərhini vermək meylini… sezə bilirik" *(Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, II cild, (**Elnarə Akimova**) s.888);*

***

“Rafiq Yusifoğlunun üç şeir, dörd nəsr, ali məktəblər üçün iki dərslik və yeddi tərcümə kitabı, uşaq ədəbiyyatı ilə bağlı bir neçə problematik məqalələri… çap olunmuşdur.” (Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, II cild, (**Elnarə Akimova**) s.893-894)”.

***

“Tənqid ədəbiyyatın “gizlinlərini” açanda, əlbəttə, müəyyən məqsədlərinə çatır. Rafiq Yusifoğlunun “Sətiraltı məna” (“Azərbaycan” jurnalı, 2007, №10, s.176-180) məqaləsində ədəbiyyatda az toxunulan bir mövzuya müraciət edərək, “aysberq-ədəbiyyat”ın dərin qatlarına enir, onun ayrı-ayrı nümunələrində bu qatlarda gizlənmiş mənaları açmağa, özü də sirr gözəlliyinə xələl gətirmədən açmağa çalışır. “Aysberq-ədəbiyyat”ının polisemantikası – çoxmənalılığı onun elmi, tənqidi səviyyələrdə dürlü yozumuna da meydan açır. Qeyd edim ki, xarici ədəbiyyatşünaslıq və tənqiddə bu səpkili araşdırmalara maraq və diqqət olduqca böyükdür” *(Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, II cild, (**Rahid Ulusel**) s.840-941)”.*

***

“2001-ci ildə Rafiq Yusifoğlunun Sumqayıt Dövlət Universitetinin filologiya fakültəsində oxuduğu mühazirələr əsasında hazırlamış olduğu “Ədəbiyyatşünaslığın əsasları” (“Sabah”, 2001, 228 s.) dərs vəsaiti çap olunur. Tədris proqramını müvafiq olaraq dərs vəsaitində ədəbiyyatın nəzəri problemləri haqqında sistemli şəkildə məlumat verilir. Bu dərs vəsaiti də müvafiq olaraq 2005 və 2009-cu illərdə təkrar nəşr olunur. Rafiq Yusifoğlunun dərs vəsaiti də, ənənəvi dərslik blokuna daxil olur. Bədii əsərin məzmun və forması, süjet və kompozisiyası, obrazlar sistemi, növ və janr təsnifatı, metod, cərəyan, üslub, ədəbi məktəb və s. başlıqlar altında yığcam və konkret informasiya verir.

Müəllifin problemə yanaşma tərzində sərgilədiyi mövqedə yenilik hiss olunur. Təqdim olunan nəzəri problemlər anlaşıqlı, sadə, bəzi məqamlarda, xüsusən bədii sözün mahiyyətinin izahı zamanı, bir qədər poetik üslubda verilir ki, bu da materialın mənimsənilməsini tələbə üçün asanlaşdırmış olur." *(Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, II cild, (**Maral Yaqubova**) s.996-997).*

## "ŞAİRDİSƏ, BABASINA ÇƏKİB..."

1986-cı ilin noyabr ayı idi. İşimlə bağlı "Molla Nəsrəddin" jurnalını vərəqləyirdim. 1930-cu ilə aid nömrələrdən birində "Zəlili bulaq" adlı şeirə rast gəldim. Çox hissəsini anamdan eşidib əzbər bildiyim bu şeirin müəllifi məni çox maraqlandırdı. Sonda "İstot" imzası vardı. Şeiri köçürüb anama göstərdim. Bildirdi ki, bu şeiri mənim orta məktəb müəllimim Nuşirəvan Kərimov yazmışdı.

Bu imza ilə dərc olunmuş bütün şeirləri köçürdüm. Eyni üslubda, lakin özgə imzalarla verilmiş əsərlər də var idi. Mənə məlum oldu ki, Nuşirəvan Kərimov şair Qasım Qasımzadənin də ilk müəllimlərindən olub. Ona görə, şeirləri onun yanına apardım. "İstot" kimin imzasıdır" adlı kiçik məqalə də yazmışdım. Qasım müəllim şeirləri oxuyub, çox sevindi. Əlavə etdi ki, Nuşirəvan müəllim haqqında yazmaq lazımdır. Bir həftə sonra mənə zəng edərsən.

Vədələşdiyimiz vaxt onunla telefonla danışdım. Dedi ki, "Ədəbiyyat və incəsənət" qəzetinin növbəti nömrəsində sənin məqalənlə birgə mənim də xatirəm dərc olunacaq. Şeirləri Nuşirəvan müəllimin nəvəsi, "Göyərçin" jurnalında şöbə müdiri işləyən Rafiq Yusifoğluna vermişəm, onunla əlaqə saxla...

Doğrudan da, bir həftə sonra qəzetin 1986-cı il, 12 dekabr tarixli nömrəsində mənim məqaləmlə birlikdə Qasım müəllimin də maraqlı bir xatirəsi dərc olundu. Qasım Qasımzadə yazırdı: "Rəşid müəllimin Nuşirəvan Kərimovu yada salıb, onun indiki ədəbi-pedaqoji ictimaiyyətə məlum olmayan fəaliyyətinə dair faktlar üzə

çıxarıb, mənim istəkli müəllimim barəsində söhbət açması qəlbimi riqqətə gətirdi. Xəyalım ömrümün uşaqlıq günlərinə qayıtdı...” Sonra isə qeyd edirdi: “İstedadlı şair, Rafiq Yusifoğlu, necə deyərlər, babasına çəkmişdir...”

Elə o çağdan Rafiq müəllimlə dostlaşdıq. Hər dəfə redaksiyalara gedəndə mütləq onunla görüşər, şeirdən, sənətdən, elmdən söhbət açardıq. Poetik duyumu düşüncəmlə, elmi təfəkkürü idrakımla uyardır. Deməyəsən başqa bir səbəb də bizi doğmalaşdırıb. Bir gün söhbət zamanı dedı ki, ata babam Seyidəli də Qafan torpağının Oxdar bölgəsindəndir. Daşnaklar Dorfnu kəndini dağıdandan sonra Qubadlının Çardaxlı kəndinə köçüblər...

Onu da deyim ki, mənim “Göyərçin” jurnalında şeirlərimin və kiçik hekayələrimin dərc edilməsində Rafiq Yusifoğlunun ayrıca qayğısı olub. Yaradıcılığı ilə tanışam, xoşum gələn, özünəməxsus cəhətləri çoxdur. Lakin məqsədim onun əsərlərini təhlil etmək, yaxud elmi fəaliyyəti barədə fikir yürütmək deyil. Məqsədim odur ki, tərtib etdiyim kitabda Qafan bölgəsindən olan tanınmış adamlar arasında onun da adı çəkilsin...

...Qeyd etməyi vacib sayıram ki, Rafiq Yusifoğlu ictimai işlərdə də həmişə fəallıq göstərib. 1995-ci ildə 41 saylı dördüncü seçki dairəsindən Milli Məclisə deputatlığa namizəd göstərilməsi buna canlı misaldır. Seçkidə qələbə qazana bilməsə də, dövri mətbuat səhifələrində haqqında bir sıra tanınmış adamların yazıları dərc olunub. Onlardan bəzi məqamları yazıya əlavə edirəm:

Nizami Xudiyev (professor) – “Rafiq Yusifoğlu ali məktəbimizin ən çox çap olunan tələbə şairi idi. Yazıçı İsmayıl Şıxlı, tənqidçi Əhəd Hüseynov, şairlərdən Xəlil Rza, Zahid Xəlil onun şeirlərini bəyənir, istedadlı qələm sahibi kimi yetişəcəyinə böyük ümid bəsləyirdilər...” *(“168 saat” qəzeti);*

Tofiq Mahmud (şair) – “Onun ən yaxşı şeir kitablarından biri də “Ocaq yeri” adlanır. Kökə, torpağa, həyata bağlılığı, təbiətin gözəlliyi, adət-ənənəmizə məhəbbət bu kitabın əsas aparıcı motivləridir. Son illərdə çap olunan “Aylı cığır” kitabı uşaqlar

üçün nəzərdə tutulsa da, hamı üçün maraqlıdır...” *(“Həyat” qəzeti);*

Şamxəlil Məmmədov (jurnalist”) – “Uşaq psixologiyasına dərindən bələdlik, bədii-estetk fikir tutumu Rafiq Yusifoğlunun şeirlərinin başqa məziyyətlərindəndir. O, ciddi sosial-ictimai mövzularda qələm məhsulları ilə böyük oxucu marağı qazanmışdır...” *(“Azərbaycan müəllimi” qəzeti).*

Rafiq Yusifoğlu isə “Qaranquş seyid quşudur” şeirinin epiqrafında yazır: “Qaranquşa seyid quşu deyirlər. Nə üçün? Bəlkə elə onun üçün ki, köçəridi? Ulu seyidlər, imam övladları – Seyidibrahim, Seyidəli, bəlkə elə Siz də qaranquş döşündə baharı gətirdiyi kimi insanlara, ulu Tanrının övladlarına sevinc gətirmək arzusu ilə Ərdəbildən Ecanan dərəsinə, Oxdara, Dorfnuya, Ecanan dərəsindən Çardaxlıya, Çardaxlıdan Qubadlıya, Qubadlıdan Bakıya, Sumqayıta gəlib çıxmısınız? Nəvələriniz, nəticələriniz Sizin pak adınızı qoruyub saxlayırsa, narahat olmağa dəyərmi? Nəsil öz mənəvi saflığını zamanın çirkablar burulğanından xilas eləyə bilibsə, deməli, bəşərin yolu cənnət yoludu. Allah özü sevə-sevə yaratdığını özü məhv etməz axı?! “

Bu epiqrafdan sonra gələn bu şeir adamı düşündürür, duyğulandırır:

Ay babalar, ruhumuza
Nur çiləyən fikirsiniz.
Qəbrinizlə yurdumuzun
Keşiyini çəkirsiniz.

Tale bizim nəslimizi
Döndəribsə qaranquşa,
Özü də əncam çəkəcək
Öz hökmüylə yaranmışa.

Günəş üçün nə fərqi var,
Ya tülu, ya da ki, qürub?!
Baba, qərib evimizdə
Qaranquşlar yuva qurub…

Rafiq müəllim bu şeirinin də salındığı və 1998-ci ildə nəşr olunan "Həsrət köçü" kitabını belə bir epiqrafla mənə bağışlamışdı: "Əziz Rəşid müəllim, gün o gün olsun ki, həsrət qaldığımız dogma torpaqlarımızda görüşə bilək! 22.X.1999"

Gözəl arzudur…

**Rəşid Təhməzoğlu. Ucalıq yurdu.**
**Bakı, Qismət, 2004, s.355-358.**

## RAFIQ YUSIFOĞLU (1950)

Müstəqillik illəri Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan qələm sahiblərindən biri də tanınmış şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, "İlin ən yaxşı kitabı", "Qızıl kəlmə", "Qızıl qələm", "Vətən", "Araz" və s. ədəbi mükafatların laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğludur. Onun poeziya, uşaq ədəbiyyatı və ədəbiyyatşünaslıq sahəsində fəaliyyəti həmişə ədəbi ictimaiyyətin diqqət mərkəzində olmuş, əsərləri dərsliklərə düşmüş, şeirləri, poemaları əsasında televiziya tamaşaları hazırlanmış, müəllifin əsərləri ilə bağlı xeyli sayda məqalələr, hətta monoqrafiyalar yazılıb nəşr edilmişdir.

Rafiq Yusifoğlu (Əliyev Rafiq Yusif oğlu) 1950-ci il yanvar ayının 2-də Qubadlı rayonunun Çardaxlı kəndində müəllim ailəsində anadan olmuş, orta məktəbi Qubadlıda bitirəndən sonra indiki ADPU-nun filologiya fakültəsini, daha sonra AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasını bitirmiş, 1984-cü ildə "Azərbaycan sovet poemasının inkişaf problemləri (1956-1965)" mövzusunda namizədlik, 2006-cı ildə isə "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Əmək fəaliyyətinə Sumqayıt şəhərində müəllim kimi başlayan Rafiq Yusifoğlu 1985-ci ildən "Göyərçin" jurnalının redaksiyasında şöbə müdiri, məsul katib, 1996-1997-ci illərdə

Azərbaycan Dövlət Televiziyasının “Xəbərlər” baş redaksiyasında “Elm, mədəniyyət, incəsənət” şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1997-ci ildən “Göyərçin” jurnalının baş redaktorudur. Eyni zamanda 2000-ci ildən SDU-da pedaqoji fəaliyyətini davam etdirir, “Azərbaycan və xarici ölkələr ədəbiyyatı” kafedrasının professorudur.

Ədəbiyyata XX əsrin yetmişinci illərdə gələn Rafiq Yusifoğlunun yaradıcılığı görkəmli qələm sahiblərinin diqqətini cəlb etmiş, S.Rüstəm, R.Rza, Ə.Vəliyev, H.Abbaszadə, B.Vahabzadə, N.Xəzri, M.Araz, F.Sadıq, H.Ziya, T.Mahmud, İ.Tapdıq, A.Laçınlı və başqaları onun yaradıcılığı haqqında müsbət fikirlər söyləmişlər. Sənət müəllimi İsmayıl Şıxlının 1967-cı ildə yazdığı məktubdakı “Rafiq, səndə şairlik istedadı vardır” cümləsi gənc şairin yolunda yandırılan “yaşıl işığa” dönmüş, onu sənət yollarında daha həvəslə addımlamağa ruhlandırmışdır. 1986-cı ildə Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilən Rafiq Yusifoğlu bir neçə Ümumittifaq tədbirlərində respublikamızı təmsil etmişdir. Gənc tənqidçilərin Moskvada keçirilən birinci (1982), ikinci (1985) və üçüncü (1988) Ümumittifaq seminarlarının, Qazaxıstanda keçirilən Beynəlxalq Uşaq ədəbiyyatı günlərinin (1989) iştirakçısı, Moskvada Ali Komsomol Məktəbinin bir aylıq jurnalistika kursunun (1985) müdavimi olması, Azərbaycan və rus ədəbiyyatının görkəmli nümayəndələri ilə şəxsi tanışlıq Rafiq Yusifoğlunun yaradıcılığına əhəmiyyətli dərəcədə təsir göstərmiş, əsərləri bir sıra dillərə tərcümə olunmuş, imzası Ümumittifaq mətbuatında görünməyə başlamışdır.

Rafiq Yusifoğlu ana babası, “Molla Nəsrəddin” jurnalında “İstot” təxəllüsü ilə şeirləri çap olunan Nuşirəvan Kərimovdan ilk sənət dərsi almışdır. Qasım Qasımzadə bu haqda belə yazır: “İstedadlı şair Rafiq Yusifoğlu, necə deyərlər, babasına çəkmişdir. Nuşirəvan müəllimin yandırdığı poeziya ocağının kül altda qalan közünü sönməyə qoymamışdır. Mən də ədəbiyyata, şeirə ilk həvəs

qığılcımını əziz müəllimimin qaladığı həmin ocaqdan götürmüşəm”.[12]

Rafiq Yusifoğlu çoxşaxəli yaradıcılıq diapazonuna malik bir qələm sahibidir. Müstəqillik illərində yaradıcılığının kamillik dövrünə qədəm qoyan bu istedadlı və zəhmətkeş söz ustası həm poeziya, həm uşaq ədəbiyyatı, həm ədəbiyyatşünaslıq, həm bədii tərcümə, həm də publisistika sahəsində çox səmərəli fəaliyyət göstərmiş, onun bir sıra kitabları, monoqrafiyaları, dərslikləri nəşr olunmuşdur.

İndiyədək Rafiq Yusifoğlunun “Ocaq yeri”, “Qəm karvanı”, “Həsrət köçü”, “Təzə sevdalara doğru”, “Ayrılığın qəm hasarı”, “Həsrət sazağı”, “Sevdalı sabahlar”, “Eşqin qarlı yollarında”, “Dəniz, sən və mən”, “Könül səltənəti”, “Arzular kəhkəşanı”, “Üçüncü qərinə”, “Sevdalı sabahlar” adlı sanballı şeir kitabları nəşr olunmuş, bu kitabların hər biri haqda mətbuatda mütəxəssislər: ədəbiyyatşünas və dilçi alimlər, şair və yazıçılar tərəfindən xoş sözlər söylənilmiş, onun poeziyası müasir Azərbaycan ədəbiyyatının səciyyəvi, istər mövzu və problematikası, istərsə də sənətkarlıq xüsusiyyətləri ilə diqqəti cəlb edən nümunələri kimi dəyərləndirilmişdir.

Rafiq Yusifoğlu demək olar ki, poeziyanın əksər janrlarında öz qələmini sınamışdır. Şairin yetərincə yüksək bədii siqlətli bayatıları da, rübailəri də, qoşmaları da, gəraylıları da vardır. Onun şeirlərində az sözlə dərin məna ifadə etmək, fikrin orijinal tərzdə təqdimatı diqqəti cəlb edir.

-Qaldır kirpiyini, səbrim yox daha,
Görüm gözlərini bir yol yaxından.
-Mənim kirpiklərim qalxa bilmir ha
Sənin baxışının ağırlığından.

---

[12] “Ədəbiyyat və incəsənət”, 17 декабр 1986.

Rafiq Yusifoğlunun bütün yaradıcılıq nümunələrində mövzuya yeni yanaşma tərzi, ənənənədən yaradıcı şəkildə bəhrələnmə meyli özünü göstərməkdədir. Şairin dil və ifadə baxımından qüsursuz olan şeirlərində obrazlı deyim tərzi, təzə qafiyələrdən istifadə ənənəvi formaya yeni bir gözəllik gətirir.

Rafiq Yusifoğlunun poemaları sayca o qədər çox olmasa da, yüksək bədii siqləti ilə diqqəti cəlb edir. Məsələn, böyük Füzuliyə həsr olunan "Qəm karvanı" poeması şairin yaradıcılığında mühüm hadisə kimi dəyərləndirilmiş, bu əsər əsasında eyniadlı televiziya tamaşası hazırlanıb dəfələrlə nümayiş etdirilmişdir. Böyük şairin şeirlərindəki maraqlı fikirlərin yeni, orijinal şəkildə təqdimatı poemanın bədii dəyərini artıran vasitəyə çevrilir.

Uşaqlar üçün yazılan "Qırxıncı qapı", "Ağıl döyüşü", "Bacadan yağan qızıl" və s. nağıl-poemaları şairin folklordan yaradıcı şəkildə bəhrələnməsini göstərən nümunələrdir.

Rafiq Yusifoğlu ənənəvi poetik janrların əksəriyyətində uğurlu şeirlər yazsa da, onun yaradıcılığı üçün aşırma qafiyəli, hecanın müxtəlif ölçülərində yazılan şeirlər daha səciyyəvidir. Bu tipli şeirlərin mövzu və problematikası da çox zəngindir. Burada xalqın taleyüklü problemlərinin yüksək sənətkarlıqla əks etdirən şeirlər də var, həyat, ölüm, dünya, kainat, zaman haqqında fəlsəfi düşüncələr də. Şairin peyzaj lirikası da, tərənnüm səciyyəli poetik əsərləri də, lirik qəhrəmanın hiss və həyəcanlarını əks etdirən sevgi şeirləri də öz orijinallığı, emosionallığı, bədii təsvir və ifadə vasitələrinin zənginliyi ilə diqqəti cəlb edir.

Rafiq Yusifoğlunun yaradıcılığında vətənpərvərlik mövzulu əsərlər çoxluq təşkil edir. Bu şeirlərin əsas qayəsi ulu yurdumuzu, onun təbiətini, taixini, qəhrəman oğul və qızlarını sevdirməkdən ibarətdir. "Vətənim", "Vətəni də sevirsən", "Azərbaycan torpağı", "Laylay, Qəbələm, laylay" və s. şeirlər bu qəbildəndir. "Mənim xalqım", "Azadlıq", "Qərənfilə dəyən güllə", "Qaçqın heykəllər", "Xocalı şəhidlərinə", "Əsrin ilk şeirini mən kimə yazım", "Ön cərgə", "Yadında saxla", "Saman çöpü",

“Üşüyən daşlar”, “Vətən, haran ağrıyır” və onlarca bu kimi şeirlərdə mübarizəyə çağırış, haqsızlığa etiraz motivləri güclüdür. Yeni nəslin təlim-tərbiyəsində şairin əsərlərinin təsir gücü böyükdür.

Bir gün tarix yapışacaq yaxamdan,
Kim salacaq bu işləri nizama?
Övladımın damarında axan qan,
Təmizdisə, zaval yoxdu imzama.

R.Yusifoğlunun hərbi vətənpərlik mövzusunda yazdığı şeirlər əsasında “Bütün Azərbaycan əsgər olmalı” televiziya tamaşasının hazırlanması da təsadüfi deyildir. Özü də bu şeirlərin hamısında ritorika yox, sözün bədii gücü ön plandadır. Döyüşə gedən Azərbaycan əsgərinin sevgilisinə söylədiyi bu sözlər çox mənalıdır:

Sil gözündən o yaşları, nədir qüssə, qəm,
Niyə mənim ürəyimi oda salırsa?
Mən vətəni qorumaqçün əsgər gedirəm,
Sən eşqmi qorumaqçün əsgər qalırsan…

Azərbaycan uşaq ədəbiyyatının yeni istiqamətdə inkişafında Rafiq Yusifoğlunun xidmətləri böyükdür. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, onun indiyədək orta məktəb dərsliklərinə düşən əsərlərinin bibloqirafik göstəricisi üç yüzü ötüb. Şairin uşaq psixologiyasına yaxından bələdliyi, daim uşaqlarla ünsiyyətdə olması, uzun müddət “Göyərçin” jurnalında şöbə müdiri, məsul katib, baş redaktor vəzifələrində çalışması, uşaq ədəbiyyatı ilə bağlı bir sıra beynəlxalq tədbirlərdə iştirakı Rafiq Yusifoğlunun bu sahədə daha ardıcıl fəaliyyət göstərməsinə, uğurlar qazanmasına səbəb olmuşdur. Onun uşaq şeirləri təkcə respublikamızda deyil, digər ölkələrdə də çap olunub rəğbətlə qarşılanmışdır. Böyük rus şairi, akademik Sergey Mixalkovun SSRİ-nin süqut elədiyi bir vaxtda Rafiq Yusifoğluya ünvanladığı məktub bu cümlə ilə başlayırdı: “Siz bütün həyatınızı uşaq ədəbiyyatına həsr etdiyiniz

üçün qarşınızda baş əyirəm”. – Bu cümlələr böyük yazıçının təvazökarlığını, eyni zamanda Rafiq Yusifoğlu yaradıcılığına münasibətini öyrənmək baxımından maraq doğurur.

Rafiq Yusifoğlunun uşaqlar üçün “Yurdum-yuvam”, “Ətirli düymələr”, “Aylı cığır”, “Şirin yağış” (rus dilində), “Böyük arzuya gedən yol”, “Çiçək yağışı”, “Söz çəməni”, “Günlərimiz, aylarımız”, “Zamanın qatarı”, “Yollar”, “Daha uşaq deyiləm”, “Ana dilim”, “Quşlar dünyası”, “Qızılı məktublar”, “Sabahın sorağında”, “Bulud fayton”, “Nağıl qapısı” adlı şeir, “Bahar qatarı”, “Şirin yuva”, “Dəniz səviyyəsi”, “Elm və Helm”, “Tapmacalar ölkəsi”, “Bitdilicə” adlı nəsr, “Kitabi Dədə Qorqud” adlı komikslər, bir neçə məqalə və tərcümə kitabları nəşr olunmuşdur. Onun orta məktəb dərsliklərinə salınan “Bənövşə, bəndə düşə”, “Üçrəngdi bayraq”, “Əlifbam”, “Su”, “Ağac boş qaytarmadı”, “Ən gözəl yer”, “Müəllim”, “Böyürtkən kolu”, “Ananın iş otağı”, “Atam”, “Dünyamızı bəzəyək”, “Yer kürəmiz”, “Fəsillər”, “Dörd qardaş”, “Əl” və sair şeirlərini indi də balalarımız sevə-sevə əzbərləyirlər.

Rafiq Yusifoğlu uşaq ədəbiyyatı üzrə bir sıra ədəbi mükafatların laureatıdır. O, 1989-cu ildə “Ətirli düymələr” kitabına görə Azərbaycan Komsomolu Mərkəzi Komitəsi, Azərbaycan Dövlət Mətbuat Komitəsi və Azərbaycan Yazıçılar İttifaqının “İlin ən yaxşı kitabı” mükafatına, 2000-ci ildə “Bahar qatarı” kitabına görə Azərbaycan Yazıçılar Birliyinin “Tofiq Mahmud” mükafatına, 2016-cı ildə isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin ən yaxşı uşaq ədəbiyyatı üzrə elan etdiyi müsabiqədə poeziya üzrə birinci mükafata layiq görülüb. 2019-cu ildə isə “Nağıl qapısı” kitabına görə “Qızıl kəlmə” mükafatına layiq görülüb.

Şairin böyüklər üçün şeirlərində olduğu kimi, onun uşaqlar üçün yazdığı əsərlərdə də adicə ot, çiçək, böcək, yarpaq, budaq bədii obraz səviyyəsinə qaldırılır. Bu baxımdan onun “Kimdir qapını döyən”, “Çəməndən ayrılan çiçək”, “Pəncərədən baxan

budaq", "Çiçəyin xahişi", "Meşədə yarış", "Qayğıkeş qonşular" və s. şeirləri diqqəti cəlb edir.

Rafiq Yusifoğlunun uşaq şeirləri yığcamlığı, aydınlığı, məna tutumu, obrazlılığı ilə digər şairlərin əsərlərindən əhəmiyyətli dərəcədə fərqlənir. Onun əsərlərində uşaq dünyasının rəngarəng lövhələri məharətlə öz əksini tapmışdır.

Barmağımı kəsmişəm,
Ağrısına dözmüşəm.
Tez ol sarı, anacan,
Niyə ufuldayırsan?
Mənim yaram ağrıyır,
Sənin haran ağrıyır?

Şair hər hansı təbiət hadisəsini uşaq gözü ilə görüb dəyərləndirməyi bacarması onun poetik üslubu üçün çox səciyyəvi cəhətdir. Məsələn, büllur tək şəffaf suyun şəlaləyə çatanda ağarmasını uşaq belə mənalandırır: "Qayadan atılanda qorxusundan ağarır" ("Qayadan atılan su"). Yay uzunu gün altında qalan, payızda saralan yarpaqlara baxan uşaq sərçəyə deyir ki, ağaca qonma ha, yoxsa közərmiş yarpaqlardan qanadın od alar ("Közərən yarpaqlar"). Uşağın zirvəsi il uzunu qarlı olan dağa "sən başı soyuq dağsan" deməsi, "Canlı ütü" şeirində çayın parçaya, onun üstündə üzən ördəyin ütüyə bənzədilməsi, digər bir şeirində uşağın dilindən "meşənin qapısını döyürdü ağacdələn" söylənilməsi və s. bu kimi fikirlər təbəssüm doğurur. "Ağ bayraq" şeirində dalğaları dənizin əlində ağ bayrağa bənzədən şair yazır:

Dəniz yaman hirslənib,
nərə çəkir, bəs demir.
Ağ bayraq qaldırsa da,
təslim olmaq istəmir.

Şairin şeirlərində də təbiət lövhələri canlıdır, cazibədardır. "Zamanın qatarı" kitabında R.Yusifoğlu maraqlı bir bədii forma ilə

uşaqlara fəsillər haqqında söhbət açır. İli qatara, hər fəsli bir vaqona, hər ayı bir kupeyə bənzədən şair fəsillər haqqında rəngarəng, bənzərsiz şeirlərini balaca oxuculara təqdim edir. Bir-birini tamamlayan şeirlər silsiləsi öz əlvanlığı, rəngarəngliyi, poetizmi ilə seçilir, maraq doğurur.

Rafiq Yusifoğlunun uşaqlar, valideynlər və müəllimlər tərəfindən maraqla qarşılanan "Yollar" kitabında yolların nə məqsədlə və necə yaranması, ilk nəqliyyat vasitələrindən – arabalardan, faytonlardan müasir maşınlara qədər keçilən inkişaf yolu, hava və su yollarından istifadə zərurəti haqqında maraqlı, cazibədar bir dillə söhbət açılır. Kitabda yol hərəkəti qaydalarının poetik dillə öyrədilməsi təşəbbüsü də təqdirəlayiqdir.

"Söz çəməni" kitabını biz şeirlə yazılan əyləncəli bir qrammatika da hesab edə bilərik. Çünki burada saitlər, samitlər, nitq hissələri, durğu işarələri, cümlə üzvləri haqqında öyrədici səciyyəli yumoristik, bənzərsiz, bir-birindən gözəl şeirlər toplanmışdır. Kitabdakı şeirlərin sətiraltı mənası oxucunu düşündürür. Məsələn, "Tabesiz mürəkkəb cümlənin birinci tərəfi ilə ikinci tərəfinin söhbəti" adlı şeirdəki bu misralar kimi:

Qərq eləsin xoş ətrinə hər gül bizi,
Qoy soyuqluq duyulmasın aramızda.
İki yerə bölə bilməz vergül bizi,
Təki nöqtə qoyulmasın aramızda…

"Günlərimiz, aylarımız" kitabı da son dərəcə faydalı bir poetik məcmuədir. Burada şairin təqvim şeirləri toplanmışdır. İlin ilk günündən tutmuş son gününədək olan əsas tarixi hadisələrin heç biri şairin diqqətindən yayınmamışdır. Ən yaxşı cəhət ondan ibarətdir ki, bu şeirlərin də hamısı obrazlı, poetik səciyyəli olduğu üçün yorucu təsir bağışlamır.

Şairin "Aylı cığır", "Çiçək yağışı", "Daha uşaq deyiləm", "Qızılı məktublar", "Sabahın sorağında", "Bulud fayton", "Nağıl qapısı" kitablarında mövzu və problematikaısı bu günümüzlə

səsləşən uşaq şeirləri toplanmışdır. Bu şeirlər həm də yüksək bədii sənətkarlıq məziyyətləri ilə də diqqəti cəlb edir.

"Bulud fayton" şeirində təbiət hadisəsi maraqlı bir tərzdə obrazlaşdırılmışdır. Gözəl bir yamacda əyləşib təbiəti seyr edən uşağın gözü birdən uzaqdan kəndə sarı yaxınlaşan bir topa buluda sataşır. Küləyin axını ilə dəyişən bulud uşağa fayton kimi görünür və ona elə gəlir ki, yağış bulud faytona minib kəndə tələsir. Göy gurultusunun təkərlərin səsinə bənzədilməsi də maraqlı detaldır.

"Lələtəpə" şeiri təkcə mövzusunun aktuallığı ilə deyil, həm də oradakı bədii sözün təsir gücü ilə birbaşa bağlıdır. Şeirdə aprel döyüşlərinin iştirakçılarının qəhrəmanlığı vəsf olunur. Müasir uşaq ədəbiyyatımızda bu tipli şeirlərə tələbat çox böyükdür.

Rafiq Yusifoğlu şeirlərinin əksəriyyətində həyat həqiqətlərini çox böyük ustalıqla bədii həqiqətə çevirməyi bacarır. Onun şeirləri seyrçi təsvirlərdən çox uzaqdır. Həssas şair müşahidəsi, təbiət cisimlərinə, hadisələrə yeni gözlə baxıb onu dəyərləndirmək bacarığı təkcə bənzərsiz lövhələr yaratmağa deyil, eyni zamanda predmetləri bədii obraz səviyyəsinə qaldırmağa da yardımçı olur. Şairin hər fəslin özünəməxsus poetik elementlərini tapa bildiyi üçün yaratdığı lövhələr canlı, sirayətedicidir. Gənc qələm dostunun hələ ilk şeirlərini oxuyub ona xeyir-dua verən Məmməd Araz yazırdı: "Rafiq Yusifoğlunun "Qış" şeiri maraqlıdır. Müəllif özünəməxsus boyalarla, səmimi yumorla qışın portretini yaratmağa çalışır. Yaşından asılı olaraq hər kəsin qışı necə qəbul etdiyini poetik dillə təsvir edir, əsasən də buna nail olur: "Qış da bir qocadır, ancaq nədənsə Onun qocalarla söhbəti tutmur».[13]

Doğrudan da, R.Yusifoğlunun yaratdığı poetik biçimli peyzajlar öz cazibədarlığı ilə diqqəti cəlb edir. Özü də bu mənzərələr neytral fon təsiri bağışlamır, qəhrəmanların daxili dünyasını açmağa yardımçı olur. Məsələn, "Qış gəlib ad günümə" şeirində balaca Saranın ad günündə aramsız yağan qarın yolları bağlamasından və buna görə də nənəsi ilə babasının onu təbrik eləməyə

---

[13] "Sovet kəndi" qəzeti, 3 aprel 1969.

gələ bilməməsindən söhbət açılır. Öz-özünə deyinən qızın dediyi sözlər həm oxucunun üzündə təbəssüm yaradır, həm də uşağın daxili dünyasını açmaq vasitəsinə çevrilir:

Yollar tamam bağlanıb, bir bax mənim günümə. –
Nənəm-babam gəlməyib, Qış gəlib ad günümə…

Müəllifin bütün təbiət hadisələrinə uşaq gözü ilə baxıb onları mənalandırmağı bacarması həm onun təbiəti, həm də uşaq psixologiyasını gözəl bilməsi ilə birbaşa əlaqəlidir. Şairin müşahidə qabiliyyəti çox güclüdür və şeirlərinin hamısı məhz bu müşahidə və poetik mənalandırma nəticəsində araya-ərsəyə gəlmişdir.

Rafiq Yusifoğlu ənənədən yaradıcı şəkildə bəhrələnməyi bacaran şairdir. Folkloru, klassik ədəbiyyatı, dilimizin incəliklərini, sözün məna çalarlarını gözəl bilməsi onun şeirlərinin koloritini, bədii dəyərini qat-qat artıran bir vasitəyə çevrilir. F.Lorka, C.Bayron, S.Yesenin, K.Simonov, Çon Çxol, Li Bo, Du Fu, Peter Şyutt, Hans Yurgen Hayze, Ulla Han, Roza Auslender və başqa bu kimi görkəmli dünya şairlərinin şeirlərini ustalıqla dilimizə tərcümə eləməsi onun fərdi yaradıcılığına da təsirsiz qalmamışdır. Elə buna görə də R.Yusifoğlunun əsərləri istər formasına, istər ideya-məzmununa, istərsə də sənətkarlıq xüsusiyyətlərinə, dil və ifadə zənginliyinə görə əhəmiyyətli dərəcədə seçilir və müxtəlifyönümlü bədii təhlilə zəngin material verir.

Rafiq Yusifoğlu yaradıcılığı haqqında düşünərkən istər-istəməz yada ilk növbədə poetik söz düşür. Ona görə ki, çağdaş poeziyamızın bu görkəmli nümayəndəsinin yaradıcılığı poetik sözsüz təsəvvürə gəlmir. Mövzuya özünəməxsus tərzdə yanaşma, onu bədii sənətkarlıqla əks etdirmə və mənalandırma ustalığı onun bədii üslubunun ən aparıcı cəhəti hesab oluna bilər. Xalq şairi Nəriman Həsənzadə yazır: “Rafiq Yusifoğlunun şeirlərində mənim xoşuma gələn təfəkkür aydınlığıdır. Fikri çılpaq şəkildə yox, poetik ifadələrlə, obrazlı dil ilə, həm də asan başa düşüləcək

bir şəkildə oxucuya çatdırmaq onun şeir yaradıcılığının məziyyətləri kimi yadda qalır".[14]

Şairin rəngarəng bədii strukturlu şeirlərinin mövzu və problematikası çox zəngindir. Fikri ümumi sözlərlə yox, bədii detallarla vermək bacarığı Rafiq Yusifoğlunun poetik üslubu üçün səciyyəvidir. Məsələn, "Vətən uğrunda" şeirində Qarabağ döyüşlərində şəhid olan keçmiş şagirdi haqqında şairin yazdığı bu misralara fikir verək: "Vətən" şeirini əzbərləyə bilməmişdin, ancaq vətən uğrunda ölməyi bacardın".

Ümumiyyətlə, bu istedadlı qələm sahibinin əsərlərinin hamısında həyat hadisələrindən doğan yeni orijinal fikirlər adamı düşündürür, onu həyəcanlandırır. Poetik düşüncə tərzinin bənzərsizliyi R.Yusifoğlu poeziyasının ən aparıcı cəhətlərindəndir. Təsvir etdiyi bütün hadisələrə mənsub olduğu xalqın milli-mənəvi dəyərləri prizmasından nəzər salması, mövzuya orijinal yanaşma tərzi, dilimizin incəliklərini mükəmməl bilməsi onun şeirlərinin bədii dəyərini qat-qat artıran vasitəyə çevrilir.

Rafiq Yusifoğlu bənzərsiz bir şair, nasir, tərcüməçi və publisistdir. "Xatirə kəcavəsi", "Bir sevdalı ürəyim var", "Tanrının ömür payı" və "Taleyimdən keçən yollar" adlı sanballı kitablarda toplanan elmi-publisistik məqalələr Rafiq Yusifoğlu yaradıcılığının əhatə dairəsinin, mövzu və problematikasının genişliyindən xəbər verir. O, həm də ədəbi əsərləri özünəməxsus tərzdə dəyərləndirməyi bacaran bir ədəbiyyatşünasdır. "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Uşaq ədəbiyyatı", birinci siniflər üçün "Ana dili" (şərikli) dərslikləri, "Azərbaycan poeması: axtarışlar və perspektivlər", "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri", "Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri" monoqrafiyaları onu deməyə əsas verir ki, Rafiq Yusifoğlu təkcə uşaqların və böyüklərin sevimli şairi deyil,

[14] Nəriman Həsənzadə. Tariximiz, taleyimiz. Bakı, Elm və həyat, 2002, s.212-213.

eyni zamanda, ədəbi-elmi, pedaqoji ictimaiyyətin nüfuzunu qazanan zəhmətkeş, istedalı bir alim, pedaqoqdir.

Ümumiyyətlə, hadisələri yeni şəkildə mənalandırmaq bacarığı ilə diqqəti cəlb edən istedadlı şair, ədəbiyyatşünas, nasir, tərcüməçi, publisist Rafiq Yusifoğlunun sənət dünyası çoxşaxəli, zəngin və cazibədardır. Onun əsərləri həm ideya-məzmununun yeniliyi, həm də bədii sənətkarlığı ilə diqqəti cəlb edir.

**Məmməd ƏLIYEV**
filologiya elmləri doktoru, professor.

Böyük yolun davamı (məqalələr məcmuəsi),
Bakı, Elm və təhsil, 2019, s.287-298.

## RAFİQ YUSİFOĞLU
(1950)

Rafiq Yusifoğlu 1950-ci ildə Qubadlıda anadan olmuşdur. O, orta təhsilini Qubadlıda aldıqdan sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmişdir. Bir müddət Sumqayıtın orta məktəblərində öz ixtisası üzrə müəllimlik etmişdir. Bu illərdə R.Yusifoğlu Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında oxumuş, "Azərbaycan poemalarının inkişaf problemləri" mövzusunda dissertasiya yazıb müdafiə etmişdir. "Göyərçin" jurnalında əvvəl əməkdaş, məsul katib, sonra baş redaktor vəzifəsində çalışmışdır.

Rafiq Yusifoğlu "Yurdum-yuvam", "Ətirli düymələr", "Aylı cığır", "Ocaq yeri", "Qəm karvanı", "Həsrət köçü", "Böyük arzuya gedən yol", "Söz çəməni", "Təzə sevdalara doğru", "Çiçək yağışı", "Şirin yağış" və sair kitabların müəllifidir.

Rafiq Yusifoğlu "İlin ən yaxşı kitabı", "Vətən", "Araz", "Qızıl qələm" və s. ədəbi mükafatlarına layiq görülmüşdür. Onun

tərbiyəvi-əxlaqi məna kəsb edən şeirləri Azərbaycan məktəblilərinin dərsliklərində özünə xüsusi yer tutmuşdur. Şairin şeirləri xarici dillərə də tərcümə olunmuşdur.

Onun əsərləri gənc oxucuları doğma torpağımızın zəngin gözəlliyi ilə tanış edir. Şair oxucusuna gah xalqımızın tarixi keçmişi haqqında məlumatlar verir, gah da oxucuları canlı təbiətlə tanış edir. Bütün bu mövzuların təsvirində canlı peyzaj yaradarkən oxucuların yaş xüsusiyyətləri və bilik səviyyələri nəzərə alınmışdır. Ona görə Rafiqin təsvir etdiyi mənzərələrə istinadən söylədiyi fikirlər oxuculara asanlıqla çatır və onları razı salır.

Rafiq Yusifoğlunun vətənpərvərlik duyğuları şeirləri vasitəsilə oxuculara sirayət edir. Ümumiyyətlə, Rafiqin şeirlərinin böyük bir qismi Azərbaycan torpağının bədii təsvirinə həsr edilmişdir. Müəllif uşaqlar üçün yazdığı şeirlərin quruluşuna xüsusi diqqət verir. Şairin uşaq şeirlərinin əksəriyyəti 4, 5, 6, 7 hecadan ibarət olur. Çünki şeirdə hecaların sayı çox olanda uşaqlara çətin gəlir. Ona görə də uşaqlar üçün çoxhecalı şeirlər təqdim etmək məsləhət görülmür.

Problemin həllinə bu prizmadan yanaşsaq görərik ki, Rafiq Yusifoğlu əlinə qələm alanda uşaqların bu keyfiyyətini nəzərə alır. Bu baxımdan, "Adam balaca olanda" şeiri səciyyəvidir. Müəllif təsvir edir ki, adam balaca olanda onun arzuları böyük olur:

Adam balaca olanda
Çiçəyin dilini bilir.
Kəpənəyin, qarışqanın,
Böcəyin dilini bilir.

Ağacı, otu, sünbülü,
Dağı, daşı danışdırır.
Yerdə çəpişi, quzunu,
Göydə quşu danışdırır.

Adam balaca olanda
Uçmağa qanadı olur.

Adam böyüdükcə, həyat
Gözlərində adi olur.

Uşaq aləminin, uşaq psixologiyasının təsviri Rafiqi maraqlandıran əsas məsələlərdən biridir. Şair uşaqların yeni il arzularını belə təsvir edir:

Təzə il, ay təzə il,
Gəlməyəsən gözə, il.
Uğurlu qədəminlə
Ömrümüzü bəzə, il.

Kaman gətir, saz gətir,
Şirin bir avaz gətir.
Dön zəfərlər ilinə,
Ürəklərə yaz gətir.

Tez gəl, bizi sevindir,
Yolu, izi sevindir.
Doğmaları gözləyən
Dağı, düzü sevindir.

Üzlərə işıq gətir,
Gözlərə işıq gətir.
Kül altında uyuyan
Közlərə işıq gətir.

Sevincdən əsir dilim,
Xoş gördük, təzə ilim!
Gəlişinlə yurdumdan
Dərd itsin ilim-ilim.

Yaxamı külək açsın,
Qədəmin ürək açsın.
Sevənlərin qəlbində
Arzular çiçək açsın…

Müəllif bu şeirdə balaların bayram ovqatını bədii sözün qüdrəti ilə oxuculara çatdırır.

Xalqımızın illərdən bəri müstəqillik uğrunda mübarizədə şəhid olmuş mərd oğulları şairin diqqətindən yayınmır. Müqəddəs and yeri olan şəhidlər xiyabanına həsr etdiyi şeirdə Rafiq Yusifoğlu balaca oxucularına elə gözəl duyğular aşılayır ki, oxucuların nifrət dolu qəzəbini söndürmək olmur. "Şəhidlər xiyabanı" şeirində yazır:

Şəhidlər xiyabanı –
Müqəddəs and yerimiz.
Mərmər daşlara hopub
Bayatımız, şeirimiz.

Bizə güllə dəyəndə
Bu torpaq yaralanıb.
Onun sinəsi üstdə
Məzarlar sıralanıb.

Mərdləri qorxutmayıb
Namərdlərin gülləsi.
Hər qəbir – azadlığa
Gedən yolun pilləsi…

Əlimizdə qərənfil,
Dilimizdə haqq sözü.
Bu günahsız millətə
Kömək olsun haqq özü!

Hər baş daşı çevrilib,
Şərəf, qeyrət büstünə.
Bir güllə qoyulubdur
Hər məzarın üstünə.

İgid oğullarımız
Cərgə ilə keçirlər.

Məzarların önündə
Diz çöküb, and içirlər.

Gülləbəri götürüb,
Döyüşlərə gedirlər.
Günahsız qurbanların
Ruhunu şad edirlər.

Şəhid məzarlarından
Gedən odlu güllələr,
Düşmənlərin başına
Alov saçar, kül ələr.

Geri dönər Xocalı,
Geri qayıdar Şuşa.
Şəhid ruhu şad olar,
Dönər bir qızıl quşa.

Qarabağ torpağının
Üstündə uçar, uçar.
Hamımızın qəlbində
Arzular çiçək açar…

Yaxın keçmişimizdə baş verən Xocalı soyqırımı hadisəsinə şairin həsr etdiyi "Xocalı şəhidlərinə" şeirini həyəcansız oxumaq mümkün deyil. Uşaq və gəncləri vətənpərvərlik ruhunda tərbiyələndirmək, düşmənə qarşı amansız nifrət hissi oyatmaq üçün bu əsərin böyük əhəmiyyəti vardır:

Qan ağlayan nəmli gözlər
Nə qədər yerə baxacaq?
Allah, mənim ürəyimdən
Bu tikan nə vaxt çıxacaq?

Qələm titrəyir əlimdə,
Göynəyir bağrımın başı.
Qaldırmağa oğul gərək
Kirpikdən asılan daşı.

Hər papaqlı layiq deyil
Kişi adı daşımağa!
Biz almasaq bu qisası,
Haqqımız yox yaşamağa!...

Şeirin ümumi ideyasından məlum olur ki, erməni faşistləri Xankəndində yerləşən sovet qoşunlarının köməyi ilə azərbaycanlıların yaşayış məskəni olan böyük bir rayonun – Xocalının əhalisini qırıb, rayonun adını xəritədən silməyə çalışmışlar. Ermənilərin XX yüzilliyin sonunda törətdikləri bu faciə tarixə "Xocalı faciəsi" kimi daxil olmuşdur. Azərbaycan xalqı bu faciəni unutmayacaqdır.

Rafiq Yusifoğlu uşaq və gənclərimizin qan yaddaşına öz şeiri ilə həkk etdiyi "Xocalı faciəsi"nə gələcək nəslimiz illər ötdükcə dönə-dönə müraciət edəcək, beləliklə, erməni millətçilərinə nifrət heç zaman azalmayacaqdır.

Şairin mövzu dairəsi tükənməzdir. Onun "Ana dili" adlı şeiri Azərbaycan dilinin saflığı, şirinliyi, müqəddəsliyi uğrunda aparılan mübarizəyə həsr olunubdur. Balalarımız bu şeir vasitəsilə Azərbaycan dilinin Şərq aləmində ən potensional, enerjili dillərdən biri olduğunu öyrənirlər.

Ananın özü kimi
Ana dili müqəddəs.
Damarımızda qandı,
Ciyərimizdə nəfəs.

Şirin layla eşidib,
Körpə dinclik tapıbdır.

O dil ana südüylə
Ruhumuza hopubdur.

Bəxtəvər ömrümüzün
Mənasına dönübdür.
Müqəddəs ruhumuzun
Aynasına dönübdür.

Ana dili qürbətdə
Vətənə dönə bilər.
Düşmənlərin başında
Mərmi tək dinə bilər.

Odur ən çətin anda
Köməyimizə yetən.
Ana dili yoxdusa,
Nə ana var, nə vətən…

Şair Rafiq Yusifoğlu ədəbi irsinin böyük bir qismi uşaq və gənclərə ünvanlanmışdır. Bu baxımdan "Söz çəməni" kitabı böyük əhəmiyyət kəsb edir. Bu kitabda uşaqlara ana dilinin qrammatikası öyrədilir. Nitq hissələrinin, cümlə üzvlərinin, durğu işarələrinin hərəsinə ayrı-ayrılıqda şeir həsr olunmuşdur. Məsələn, əvəzlik haqqında belə yazılır:

Çətinə düşənlərin
Köməyinə gəlirəm.
Neçə nitq hissəsini
Əvəz edə bilirəm.
Mən isimin, sifətin,
Sayın, zərfin dostuyam.
Neçə-neçə növüm var,
Öz işimdə ustayam.
Nə əmr etsən, hazıram,
Demə həvəsim yoxdu.

Əvəzliyəm, əvəzlik,
Mənim əvəzim yoxdu…

Rafiq Yusifoğlu şeirləri vasitəsi ilə dilimizdə az işlənən bir çox sözlər, eləcə də kənd təsərrüfatı və məişətdə işlənən alətlər ilə uşaqları tanış edir. Məsələn, herik şumu, sadaq, dəryaz, qəzil, sicim, örüş, dabbaq, çaşır, səllimi, sapand, teşi və s. Azərbaycan dilində az işlənən sözlərin izahını bilmək hər bir uşağa çox vacibdir. Etiraf etməliyik ki, dilimizdə işlənən bu sözləri nəinki uşaqlar, hətta müəllimlərin çoxu bilmir.

– Toyuğun ayağında
Üzüyə bax, üzüyə.
–Heç belə də şey olar? –
Hamı güldü Həziyə.
–Üzük deyil, bəs nədir?
–Bax, əskidi, badışdı.
Çəpərdən aşıb gedir,
Çil toyuq çox nadincdi.
Biz bu əskini onun
Ayağına tikmişik,
Qonşunun toyuğuyla
Düşməsin tay-dəyişik.

Şeirin məğzi uşaqlara öyrədir ki, toyuqlar dəyişik düşməsin deyə ayaqlarına tikilən rəngli parçaya badış deyilir.

**Aydın Hacıyev**
**pedaqoji elmlər doktoru, professor**
*Azərbaycan uşaq ədəbiyyatı tarixi, Bakı, Təhsil nəşriyyatı, 2004, s. 221-226.*

# RAFİQ YUSİFOĞLU

(1950)

Ömrünün çox hissəsini uşaqların bədii-estetik tərbiyəsinə həsr etmiş, öz orijinal əsərləri ilə kiçikyaşlı uşaqların rəğbətini qazanmış şairlərimizdən biri də Rafiq Yusifoğludur.

**Həyatı.** Qubadlının Çardaxlı kəndində müəllim ailəsində dünyaya göz açmışdır. Doğulduğu kənddə səkizillik məktəbi bitirmiş, Qubadlıda isə orta təhsilini başa vurmuşdur. 1966-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxıl olmuş, 1970-ci ildə oranı bitirmişdir. Bir müddət Sumqayıtda müəllim işləmiş, eyni vaxtda Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil almış, 1984-cü ildə "Azərbaycan poemasının inkişaf problemləri (1956-1965)", 2006-cı ildə isə "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Tənqidçilərin Moskvada keçirilən ümumittifaq müşavirələrinin iştirakçısı olmuş, 1985-ci ildən 1996-cı ilə kimi "Göyərçin" jurnalında şöbə müdiri, məsul katib işləmiş, 1996-1997-ci illərdə Azərbaycan Dövlət Televiziyasında "Elm, mədəniyyət, incəsənət" şöbəsinin müdiri vəzifəsində əmək fəaliyyətini davam etdirmiş, 1997-ci ildən bu günə kimi "Göyərçin" jurnalının baş redaktoru vəzifəsində çalışır.

Rafiq Yusifoğlu "Yurdum-yuvam", "Ətirli düymələr", "Aylı cığır", "Ocaq yeri", "Qəm karvanı", "Həsrət köçü","Böyük arzuya gedən yol", "Söz çəməni", "Təzə sevdalara doğru", "Çiçək yağışı", "Şirin yağış", "Daha uşaq deyiləm" və sair kitabların müəllifidir. Rafiq Yusifoğlu həmçinin uşaqlar üçün nəsr əsərləri də qələmə almışdır. Onun "Bahar qatarı", "Şirin yuva", "Dəniz səviyyəsi" adlı kitablarını qeyd etmək olar.

**Uşaq şeirləri.** Rafiq Yusifoğlunun şeirlərinin mövzu dairəsi rəngarəngdir. Onun vətən torpağının tərənnümünə, otuna, çiçəyinə, dərin dərələrinə, uca dağlarına, ətirli yamaclarına, göllərinə,

çaylarına, çeşmələrinə, yurdumuzun tarixi keçmişinə, sehrli uşaq dünyasına həsr edilmiş şeirləri öz orijinallığı, obrazlılığı, lakonizmi ilə diqqəti cəlb edir.

Rafiq Yusifoğlu öz yaradıcılığına, uşaqlara və uşaq ədəbiyyatına münasibət bildirərək yazır: "Həmişə ciddi ədəbiyyat haqqında düşünmüşəm. Mənə elə gəlib ki, uşaq ədəbiyyatı uşaq-muşaq ədəbiyyatıdı. Sonra görmüşəm ki, nə böyük, nə kiçik ədəbiyyatı, ədəbiyyat elə ədəbiyyatdır. Uşaqlar üçün ədəbiyyat yox, uşaq ədəbiyyatı. O uşaq ki, dünyanın altını da, üstünü də bilir. Özü də böyüdükcə, həyatı daha dərindən dərk etdikcə duymuşam ki, mənən öz uşaqlığıma daha dərindən bağlıyam... Uşaqların söhbəti, davranışı, qəribə hərəkət və mühakimələri məni uşaq ədəbiyyatına bir daha dərindən bağlayıb."

Uşaqlarla daim ünsiyyətdə olan, onların sirli aləmini yaxından duyan Rafiq Yusifoğlu bu məsum varlıqların hər bir yaş mərhələsinin poetik təsvirini məharətlə yaradır. "Körpə" şeirində bunu görmək mümkündür:

Sən bizim körpəyə bax,
Sanki dil bilir.
Ağlayanla ağlayır,
Gülənlə gülür.
Ona bir şey uzatsan,
Əlini açır.
Su görəndə susayır,
Süd görcək acır...

Rafiq Yusifoğlu uşaq psixologiyasına yaxından bələd olduğundan, onun şeirləri öz yumoru, yığcamlığı, aydınlığı, obrazlılığı ilə diqqəti cəlb edir. Şairin şeirlərinin bir qismi novellavari bir üslubda yazıldığından maraq doğurur, oxucunu düşündürür. Bu baxımdan "Ağ yolların yolçusu", "Sehrli vağzal", "Bu kitabın sətirləri" şeirləri uğurludur.

“Daha uşaq deyiləm” kitabına daxil edilmiş”Qızlar, balaca qızlar”, “Dəcəllər”, “Gülzarın nəğmələri”, “Gündüzün nəğmələri”, “Gurselin nəğmələri” başlıqları altında verilmiş şeirləri özünün şirin yumoru ilə diqqəti cəlb edir. “Gülyaz” şeirini misal gətirsək, bunun bariz nümunəsini görərik:

Təzə-təzə dil açır,
Bir şeirdir hər sözü.
Mənə yazmaq öyrədir,
Yaza da bilmir özü.
Alan kimi qələmi
Sevinir dəcəl Gülyaz.
Qaralayıb dəftəri,
Deyir: – Sən də belə yaz!

Yaxud, “Tənbəl kimdir” şeirində yumor daha qabarıq nəzərə çarpır.

Tez qaçdılar mətbəxə
Arzu ilə Dürdanə.
Anası qoğal verdi
Hərəsinə bir dənə.
–Kim tez yeyəcək görək?
–Bu nədi ki?
–Qoğaldı.
–Ana, Arzu tənbəldi,
Mən qurtardım, o qaldı...

Predmeti uşaqların anlama səviyyəsinə uyğun şəkildə, real cizgilərlə təsvir etməyi bacarmaq şairin şeirlərinə təravət gətirir, onun təsir dairəsini artırır. Məsələn, yolbasanı yumağa bənzədən şair deyir ki, bu yumaq fırlandıqca, açılıb küçəyə çevrilir. Yaxud, “Kaktus” şeirində onun çiçək açmasını şair belə mənalandırır:

Ona mehriban olsan,
Mütləq açacaq çiçək.
Kirpi kimi yavaşca
Tikanlar arasından
Burnunu göstərəcək...

Yaxud, əks-sədanı uşaq dili ilə belə mənalandırır.

Saç-saqqalı ağdı bu,
Dağdan ağır dağdı bu.
Adama söz qaytarır,
Elə bil uşaqdı bu!

"Kal" şeirində meyvəni yetişməmiş yolan, onları bir-bir dişləyib yerə atan uşağa babasının məzəmmətlə dediyi sözlər yumor doğurur.

Dəymişi seçə bilmirsən,
Sən özün də hələ kalsan!

Rafiq Yusifoğlunun şeirlərinin böyük bir qismi doğma torpağımıza, onun gözəlliklərinin tərənnümünə həsr edilmişdir. Şair oxucuları gah tarixi keçmişimizə, gah təbiətin qoynuna, gah da sehrli uşaq dünyasına səyahətə aparır. Onun Yanardağa, Qobustana, Gəmiqayaya, Qəbələyə, Qubadlıya, Örənqalaya, Şuşaya, Xocamsaxlı qalasına və sair yerlərə həsr etdiyi şeirlər bu baxımdan maraq doğurur.

"Şuşada bitən çiçək" adlı yığcam şeirində şair böyük bir ustalıqla təbiət gözəlliyini təsvir edib onu mənalandırır, poetik misralarla əsrarəngiz bir gözəlliyin illüstrativ mənzərəsini yaradır:

Çıxanda Üçmıx dağına
Sevincdən qartala döndüm.
Xarıbülbülü görəndə
Heyrətimdən lala döndüm.

Deyirəm, təbiət necə
Əlvan xalı toxuyurmuş?!
Şuşada bitən çiçək də
Bülbül olub oxuyurmuş...

Rafiq Yusifoğlu kənd həyatı ilə, təbiətlə yaxından ünsiyyətdə olan, ona öz gözü ilə baxmağı, hər hansı təbiət hadisələrini poetik dillə mənalandırmağı bacaran şairdir. Onun şeirləri bir növ Azərbaycan ərazisinin poetik xəritəsinə bənzəyir. Şairin vətən torpağının tərənnümünə, otuna, çiçəyinə, dağına, dərəsinə, ətirli yamaclarına, göllərinə, çaylarına, çeşmələrinə həsr edilmiş şeirləri öz orijinallığı, obrazlılığı, lakonizmi ilə diqqəti cəlb edir.

**Nağıl-poemaları.** Rafiq Yusifoğlunun nağıl-poemaları folklor motivlərindən ərsəyə gəlmişdir. Onun "Ağıl döyüşü" nağıl-poeması olduqca maraqlı süjet əsasında qələmə alınmışdır. Əsərin əsas ideyası xalqın ağlını, zəkasını üzə çıxarmaqdır. Düşmənin bütün suallarını müdrikcəsinə, əməli surətdə cavablandıran qəhrəmanların ağlına düşmən elçisi də heyran qalır:

Dedi: – Ta mənim
Sualım yoxdu.
Hər bir kəlməniz
Qılıncdı, oxdu.
Ağılda imiş
Əsl güc-qüvvət.
Qəlbimdə sizə
Yarandı hörmət.
Burda zəkalı
İgid çox imiş.
Bilikli xalqa
Zaval yox imiş.

"Gül və bülbül əfsanəsi" nağıl-poeması şairin istedadını üzə çıxarır. Əsərin məzmunu belədir: Bir gənc şahın qızını sevir. Bağban oğlu olduğuna görə şah öz qızını ona vermək istəmir. Gənc

isə hər gün tütək çalıb qızın məhəbbəti ilə yaşayır. Şah bundan qəzəblənərək "günahkar sevən ürəkdir" deyən gəncin ürəyini çıxartdırır. Vəfalı qız isə dərindən ah çəkərək qızılgül koluna çevrilir. Gəncin ürəyinin qanından bir damla qızılgül kolunun üzərinə çilənir. Çıxarılmış ürək bir bülbülə dönür, uçaraq həmin qızılgülün budağına qonur, şaqraq, yanıqlı nəğmələr oxuyaraq onu oxşayır. Bu mənzərəyə tamaşa edən insanların gözləri yaşla dolur. Poema bu bəndlə sona yetir:

Zaman çapdı öz atını,
İllər döndü bir ağ yelə.
O zamandan sirdaş olub,
Gül bülbülə, bülbül gülə...

Rafiq Yusifoğlunun "Bacadan yağan qızıl" nağıl-poeması folklor motivlərindən yaransa da, əsərdə bir müasirlik ruhu duyulur. Burada paxıl, acgöz insanlar ifşa hədəfinə çevrilirlər.

Əsərin məzmunu belədir: elatın qoyunlarını otaran çoban öz peşəsindən usanır, həmişə öz-özünə şikayətlənir ki, çörəyi lap daşdan çıxır. Bir gün mağaraya girəndə kor canavara rast gəlir, görür ki, bir vaxtlar itmiş qoyunlarının sür-sümüyü onun ətrafına səpələnmişdir. Çoban bundan belə bir nəticə çıxarır ki, əgər kor canavarın ruzisi Allahdan gəlirsə, bəs mənə niyə belə ruzi qismət olmasın? Bu fikrin əsirinə çevrilən çoban öz sənətini atıb, evdə oturur, ruzisinin Allahdan nə vaxt gələcəyini gözləyir. Meşədən odun gətirməyə gedərkən ağacın koğuşunun qızılla dolu olduğunu görür. Lakin kor canavarı yada salıb, qızılları yerinə qoyur.

Tamahkar bir kişi bu söhbəti eşidir və özünü tələsik qızılla dolu ağaca çatdırır. Görür ki, çobanın nişan verdiyi ağacın koğuşuna bir ilan girdi. Kişi elə zənn edir ki, çoban onu aldatmışdır. Ona görə də ağacın ilan girən hissəsini kəsir, çobanın evinin bacasından içəri sallayır ki, ilan onu çalıb öldürsün. Sən demə ağacın koğuşunda ilanla bərabər xeyli sayda qızıl da var imiş.

O qızıllar bacadan çobanın evinə səpələnir, ilan isə koğuşdan çıxaraq paxıl kişini çalıb öldürür.

Çoban evinin bacasından qızıl töküldüyünü görüb uşaq kimi sevinir. Sevinir ki, nəhayət, Allah onun da ruzisini yetirdi. Qızıllardan götürüb gözlərinə sürtür. Onlar zəhərli olduğuna görə çobanın gözləri tutulur. Var-dövlət başından aşsa da, dünya işığına həsrət qalır və əvvəlki günlərin geriyə qayıtmasını arzulayır.

Rafiq Yusifoğlunun bütün şeirləri, poemaları, mənzum nağılları folklor çeşməsindən qida almışdır. Xalq yaradıcılığına böyük əhəmiyyət verən şairin şeirlərinin bir uğuru da elə buradan doğur.

**Zahid Xəlil, Füzuli Əsgərli. Uşaq ədəbiyyatı.**

*Bakı, 2007, s. 397-402.*

## RAFİQ YUSİFOĞLU

(1950)

Rafiq Yusifoğlu ADPU-nun filologiya fakültəsini bitirib. 1966-cı ildən respublika mətbuatında şeir və nəsr əsərləri, tərcümələri dərc olunmağa başlayıb. Bədii əsərləri müxtəlif dərsliklərə düşüb, eyni zamanda bir neçə xarici dilə tərcümə olunub. Uşaq və gənclər ədəbiyyatı tənqidçilərinin Moskvada keçirilən birinci, ikinci, üçüncü Ümumittifaq seminarlarının, Qazaxıstanda keçirilən beynəlxalq uşaq ədəbiyyatı günlərinin iştirakçısıdır.

İndiyə qədər şairin "Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı cığır", "Qəm karvanı", "Həsrət köçü", "Böyük arzuya gedən yol", "Söz çəməni", "Təzə sevdalara doğru", "Çiçək yağışı", "Ayrılığın qəm hasarı", "Həsrət sazağı", "Sevdalı sabahlar", "Eşqin qarlı yollarında", "Dəniz, sən və mən" və s.

şeirlər, “Bahar qatarı”, “Dəniz səviyyəsi”, “Şirin yağış”, “Elm və Helm” adlı nəsr, “Xatirə kəcavəsi”, “Bir sevdalı ürəyim var” və s. publisistika kitabı, “Kitab-Dədə Qorqud” adlı komikslər toplusu nəşr olunub. Füzuliyə həsr olunmuş poeması və şeirləri əsasında “Qəm karvanı” və “Bütün Azərbaycan əsgər olmalı” televiziya tamaşaları hazırlanıb. Şairin uşaqlar üçün yazdığı “Ətirli düymələr” kitabı 1989-cu ildə Azərbaycan Dövlət Nəşriyyat Komitəsinin, Azərbaycan Komsomolu Mərkəzi Komitəsini və Azərbaycan Yazıçılar İttifaqının mükafatına layiq görülüb.

Rafiq Yusifoğlu “Göyərçin” jurnalında şöbə müdiri, məsul katib, Azərbaycan Dövlət Televiziyasının Xəbərlər baş redaksiyasında “Elm, mədəniyyət, incəsənət” şöbəsinin müdiri vəzifəsində çalışıb. 1997-ci ildən “Göyərçin” jurnalının baş redaktorudur.

Rafiq Yusifoğlu uşaq psixologiyasını yaxşı bilən sənətkardır. Bunu “Aylı cığır”, “Çiçək yağışı” kitablarındakı bir-birindən gözəl, mənalı şeirlər təsdiqləyə bilər. Bu kitabları diqqətlə oxuyanda məlum olur ki, buradakı şeirlərin hamısı uşqalar üçün maraqlıdır. Elə bil uşaqlar çiçək, gözəllik, məhəbbət yağışına düşürlər. “Sap cığırı” şeirində şair gözəl, maraqlı bir tablo yaradıb.

Xəbəri yox xəbərdən,
Nənəm corab toxuyur.
Dalıb öz dünyasına
Asta-asta oxuyur.

Sap cığırı uzanır,
Gedirəm qarasına,
Düz nənəmin yanından
Güllərin arasına.

Sən demə bu cığırı
Bizim pişik salıbmış.
Yumağı siçan ilə
Tay-dəyişik salıbmış...

Uşaq dünyasına yaxından bələd olan şair şeirlərində daha çox informasiya verməyə çalışır, bir-birindən maraqlı bədii lövhələr yaratmaqla oxucuların zövqünü oxşamağa nail olur. Bu mənada "Göyərçin"in kitabxanası" seriyasından buraxılan kitablar çox maraqlıdır. Seriyaya daxil olan "Böyük arzuya gedən yol" kitabına əlamətdar günlərlə bağlı bayramlara həsr olunmuş şeirlər toplanıb. Kitab bir növ poetik təqvimdir. Şeirlərin hamısında vətən sevgisi, milli qürur hissi daha çox nəzərə çarpır, hələ uşaq yaşlarından gələcəyin vətəndaşlarında milli mentalitet formalaşdırılır. Həmin seriyadan olan "Yollar", "Zamanın qatarı" və sair şeir kitabları, eləcə də nəsr və tərcümə kitabları maraqlıdır.

Rafiq Yusifoğlunun uşaq şeirlərinin böyük bir qismi təbiət haqdadır. Təbiətin əsrarəngiz mənzərələri onun poeziyasında orijinal bir tərzdə öz əksini tapır. Şairin heyvanlar, quşlar haqqında şeirləri ensiklopedik səciyyəlidir. Təqdimat ümumi sözlərlə yox, bədii vasitələrlə aparıldığından şeirlərin hamısında poetizm güclüdür.

Rafiq Yusifoğlunun son illərdə çap etdirdiyi uğurlu şeirlər toplusundan biri də "Söz çəməni"dir. Bu toplunu dərslik kimi də qəbul etmək olar. Çünki kitabda müəllif şeir vasitəsi ilə uşaqlara fonetika, morfologiya, sintaksis və leksika haqqında bilgi verir. Bu kitab şeirlə yazılmış qrammatika kitabıdır elə bil.

Şair kitablarının birinə yazdığı ön sözdə deyir: "Mən də vaxtilə elə düşünürdüm ki, uşaq ədəbiyyatı elə uşaq-muşaq ədəbiyyatıdır. Ancaq sonra uşaqlar üçün yazanda gördüm və hiss etdim ki, uşaqlar üçün yazmaq heç də böyüklər üçün yazmaqdan asan deyil".

Şairin "Qəm karvanı" poemasını oxuyanda görürük ki, o, doğrudan da, sözə, sənətə yüksək qiymət verən, sözdə zərgər dəqiqliyi axtaran ədəbi şəxsiyyətdir. Poemada Məhəmməd Füzuli yaradıcılığı milli poeziyanın ən yaxşı örnəyi kimi təqdim olunur. Füzuli sənətindən bir damla götürməyi, nəsə öyrənməyi yaradıcılıq kredosu hesab edir.

Rafiq Yusifoğlu həm də tanınmış ədəbiyyatşünas kimi milli ədəbiyyatın klassik və müasir mərhələləri ilə bağlı elmi araşdırmalar aparır. "Azərbaycan poemsı: axtarışlar və perspektivlər", "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" elmi monoqrafiyalarının, "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Uşaq ədəbiyyatı" dərsliklərinin müəllifidir.

**Xanım Mustafayeva. Azərbaycan uşaq ədəbiyyatı,** *Bakı, Elm, 2011, s. 279-281.*

## RAFİQ YUSİFOĞLU

(1950)

Rafiq Yusifoğlu son illərdə uşaq ədəbiyyatımızın inkişafında öz töhfəsini verən, məhsuldar fəaliyyəti ilə ədəbi tənqidin, geniş oxucu kütləsinin diqqətini cəlb etmiş istedadlı sənətkardır. Onun "Söz çəməni", "Çiçək yağışı", "Bahar qatarı" kitablarındakı şeirlər, hekayələr oxucular tərəfindən böyük maraqla qarşılanmışdır.

Sənətkarın uşaq əsərləri janr baxımından olduğu kimi, mövzu, ideya-məzmun etibarilə də rəngarəngliyi ilə seçilir. "Qərənfil dənizi", "Qubadlım", "Qarabağım yenə geri dönəcək" əsərlərində vətənpərvərliyin tərənnümü, xalqın qəhrəman oğullarına məhəbbət sənətkarlıqla bədii ifadəsini tapmışdır. "Səhrada bulaq", "Dibçək gülləri", "Quruyan ağaclar", "Nağıllar aləmi", "Sel və bulaq" əsərləri şairin yaradıcılığında xüsusi diqqət yetirdiyi təbiət mövzusundadır.

Rafiq Yusifoğlu az sözlə dərin fikirlər deməyi, xırda ştrixlər, bədii detallarla böyük mətləbləri ifadə edən şairdir. Ədibin yığcam, təsirli şeirlərinin məna yükü ağırdır. "Pəncərə" şeiri bu baxımdan səciyyəvidir. Şair diqqəti dünyadakı müxtəlif pəncərələrə yönəldir. Pəncərələr dağa, dərəyə, meşəyə, dənizə açılır, evlərə, mənzillərə işıq gətirir, qocaya, uşağa nur bəxş edir.

Son bənddə söylənən fikir pəncərə barədə deyilənlərin məntiqi yekunu kimi səslənir:

Pəncərəsiz yaşamaq,
Bil ki, əfsanə sözdür.
Ürəyin pəncərəsi
Bir cüt işıqlı gözdür...

"Adam balaca olanda" şeirində uşaqların dünyaya baxışındakı özünəməxsusluğu şair belə ifadə edir:

Adam balaca olanda
Çiçəyin dilini bilir.
Kəpənəyin, qarışqanın,
Böcəyin dilini bilir.
Ağacı, otu, sünbülü,
Dağı, daşı danışdırır.
Yerdə çəpişi, quzunu,
Göydə quşu danışdırır.

Zahid Xəlil Rafiq Yusifoğlu poeziyasının bədii məziyyətlərindən bəhs edərək yazır ki, şair hamı üçün adi görünən predmetləri mənalandırmağa səy göstərir, əşyanın poetik cəhətlərini görməyə və onu oxucusuna göstərməyə çalışır. O, bəzən həyatda rast gəldiyi ən adi hadisələri şeir dilinə çevirərək mənalandırmağa çalışır və çox zaman məqsədinə nail olur.

Rafiq Yusifoğlunun oxucular arasında əsərlərinin uğurunu da ilk növbədə "uşaqların dilini" bilməsində, dünyaya uşaq gözləri ilə baxmağı bacarmasında axtarmaq lazımdır. Lakin şair oxucunun arxasınca getmir, bədii deyimlər, təsirli misralar əxlaqi-mənəvi dəyərləri əks etdirən fikirlərlə onun nitqini, dünyagörüşünü zənginləşdirir, ilk baxışda adi görünən məsələlərə, həyat, təbiət lövhələrinə həssas nəzərlərlə baxmağa sövq edir:

Göydə uçan ağ bulid
Zərif tülə bənzəyir.

Səmanın yaxasında
Quşlar gülə bənzəyir...

“Koroğlu olmağın sirri” hekayəsi həcmcə kiçik olsa da, orada taleyüklü məsələlərdən, qəhrəmanlıqdan danışılır. İlk baxışda elə görünür ki, əsərdə Koroğlunun qəhrəmanlığını əks etdirən döyüş səhnələri balaca oxucuların yaş, qavrama səviyyəsinə uyğun şəkildə təsvir ediləcək. Ancaq müəllif əsərdə başqa yol seçir, oxucunu düşündürmək üçün maraqlı problem situasiya yaradır, bu vasitə ilə Koroğluya el məhəbbətinin səbəbini aydınlaşdırır.

Çox igidlərin Koroğlu kimi şöhrətlənmək, el məhəbbəti qazanmaq arzusuna düşməsi təbiidir. Ancaq xalq atası kor olanlara, Qıratın, Düratın əvəzinə müasir atlara – sürətli maşınlara minənlərə, misri qılıncın əvəzinə silahlara yiyələnənlərə, başına dəliləri yığanlara Koroğlu deməyib. “Adamların ağlına da gəlməyib ki, Koroğlunu Koroğlu eləyən onun qəlbindəki vətən, torpaq sevgisidi, ürəyində yeni baş qaldıran haqq-ədalət çağırışıdı.

Koroğlunun özü qəhrəman olmaq, şöhrət qazanmaq arzusuyla yaşamayıb. O, həmişə öz ürəyinin səsinə qulaq asıb. Haqq-ədalət uğrunda mübarizə aparıb. Elə buna görə də elin sevimli qəhrəmanına – Koroğluya çevrilib”.

“Rənglərin anası” hekayısində müdrik bağban obrazı yaradılmışdır. Hansı rəngin daha yaxşı olduğu barədə mübahisə edən uşaqlara qoca bağbanın cavabı bol bəhrələr yetirən qara torpağa məhəbbət oyadır: “Balalarım, sizin hamınız haqlısınız. Hər rəngin öz yeri, öz gözəlliyi var. Ancaq mənə qalsa, rənglərin ən gözəli qaradır... Bu qara torpağı görürsünüzmü? Onun sehrli köksündə nə qədər istəsən gül-çiçək bitir. Elə buna görə də mənə elə gəlir ki, qara rəng rənglərin anasıdır.”

“İnsan, Pələng, İlan” hekayəsi orijinal süjet xəttinə malikdir. Əsərin qəhrəmanı meşədə yanğın zamanı yorulub əldən düşmüş insan dincini almaq üçün mürgüləyir. Qəfildən eşitdiyi

səslər onu yuxudan ayıldanda başının üstündə Pələnglə İlanı görür. İki düşmənin əhatəsində olan insan çıxış yolu tapa bilmir. Lakin İnsan, Pələng və İlan meşədə başlayan yanğın zamanı canlarını qurtarmaq üçün əlbir hərəkət etməyə məcbur olur, təhlükəni sovuşdururlar. Əsərdən çıxan əxlaqi nəticə kəndlinin sözləri ilə ifadə edilib: "Pələngin də, İlanın da əlinə imkan düşmüşdü məni öldürməyə. Ancaq onlar namərdlik etmədilər. Əvəzində mən də Pələnglə İlanı yanğından xilas etdim, son tikəmi qardaş malı kimi onlarla böldüm. Sən demə dünyadakı bütün canlıları yaxşılıqla ram etmək olarmış".

Hekayədə İnsan, Pələng və İlanın qarşılıqlı münasibətləri timsalında həyatda xeyirxahlıq, mərhəmətin zəruriliyi ideyası ifadə olunmuşdur.

Son illərdə ədibin "Yollar", "Zamanın qatarı", "Ana dilim" şeir kitabları, "Ulu yurd yerlərimiz", "Dəniz səviyyəsi", "Elm və Helm", "Qoruq və yasaqlıqlarımız" adlı nəsr əsərləri çap olunmuşdur. Şeir və poemaları əsasında "Qəm karvanı", "Bütün Azərbaycan əsgər olmalı" televiziya tamaşaları çəkilmişdir.

Rafiq Yusifoğlu "Göyərçin" jurnalının baş redaktoru kimi də uşaq ədəbiyyatı nümunələrinin nəşri, təbliği, gənc nəslə çatdırılması, oxucu zövqünün inkişaf etdirilməsi sahəsində də səmərəli fəaliyyət göstərir.

Rafiq Yusifoğlu həm də tanınmış ədəbiyyatşünas alimdir. O, "Uşaq ədəbiyyatı" dərs vəsaitində Azərbaycan və dünya uşaq ədəbiyyatının aparıcı simalarının yaradıcılığını araşdırmış, bədii əsərlərindən nümunələr vermişdir. Vəsaitdə dünya uşaq ədəbiyyatının görkəmli nümayəndələrinin həyat və yaradıcılığı ilə bağlı məlumatların, onların əsərlərinin verilməsi də bu sahədəki boşluğu doldurmaq baxımından böyük əhəmiyyət kəsb edir.

**Bilal Həsənli**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

*Azərbaycan uşaq ədəbiyyatı, Bakı,*
*Müəllim nəşriyyatı, 2015, s. 479-482.*

# MÜSAHİBƏ

## “Bu gün dünya ədəbiyyatında şeir nəsrə uduzur” – Rafiq Yusifoğlu

**“Ədəbiyyat yaradıcı adam üçün yalnız daxili dünyasını ifadə vasitəsi yox, həm də ağrılardan xilas vasitəsidir”**

**Bu gün “Qonaq otağı”nda sumqayıtlı şair, ədəbiyyatşünas, tərcüməçi, Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru , professor Rafiq Yusifoğludur.**

**- Neçə yaşınızdan şeir yazırsınız?**

- Mənim şeir yazmağa başlamağımın çox maraqlı bir tarixi var. Belə ki, bir gün atam mənə öz yazdığı şeiri dedi və məndən bunu bir yerə köçürməyimi istədi və tapşırdı ki, altından öz adımı yazım. Elə onun dediyi kimi də etdim. Və beləcə, boynuma şeir yazmaq yükü düşdü. O vaxtlar mənim 7-8 yaşım olardı. Nəzmlə cızma-qara etməyə başladım. Şeirin qaydalarını bilmədiyim üçün ilk yazdıqlarımı şeir adlandırmaq heç də düzgün çıxmaz. Babamın da şeir yazmaq bacarığı var idi və o biləndə ki, mənim şeirə marağım var, onun qaydalarını, “nizam-intizamını” öyrətdi. Beləcə, mən şeir yazmağa başladım.

**- İlk şeiriniz hansı mətbu orqanda, neçənci ildə işıq üzü gördü?**

- İlk çap edilən şeirim “Qarğa məhəbbəti” adlı bir təmsil idi, 1966-cı ildə “Avanqard” qəzetində işıq üzü gördü. Və beləcə digər şeirlərim ara-sıra çap olunmağa başladı.

**- Bu gün tanınmış şair Rafiq Yusifoğlu olmaqda özünüzü kimə borclu sayırsınız?**

- Mənə şeir yazmağın qaydalarını babam öyrətdiyi üçün bu sahədə özümə ilk müəllim onu sayıram. Pedaqoji İnstitutda oxuyarkən müəllimim İsmayıl Şıxlı mənə ünvanlanan məktub yazmışdı. Həmin məktubda babamdan sonra o da şeir yazarkən əməl etməli olduğum qaydaları izah etdi. Böyük İsmayıl Şıxlı düz 4 il mənim müəllimim olub. Həmin illərdə o mənə şair kimi yetişməkdə yol göstərib. O zamanlar "Ulduz" jurnalı çap olunardı. Onun şöbə müdiri böyük şairimiz Məmməd Araz idi, o həmin vaxtlar Məmməd İbrahim imzası ilə yazırdı. O zaman yazan hər kəsin diləyi yazdıqlarının həmin jurnalda işıq üzü görməyi idi. Mən də tez-tez şeirlərimi "Ulduz"un redaksiyasına aparar, Məmməd əminin dəyərli məsləhətlərinə qulaq asardım. Həmin jurnalın "süzgəcindən" keçib dərc olunmaq isə heç də asan məsələ deyildi. Orada həmin vaxt Məmməd Arazla yanaşı Tofiq Bayram, Cabir Novruz kimi sanballı adlar toplanmışdı.

**- Bəs sizin "şeir süzgəcinizdən" keçmək necə, asandır yoxsa daha çətindir?**

- Mən uzun müddət "Göyərçin" jurnalının ədəbiyyat şöbəsində müdür işləmişəm. Düzünü desəm, məndən şeir "keçirmək" çox çətin məsələdir. Az öncə adını çəkdiyim şairlərin əhatəsində püxtələşib, onlardan öyrənmişəm, ona görə onların xarakterləri də mənim üzərimə hopub. Məndən şeir keçirmək Tofiq Bayramdan şeir keçirmək qədər çətindir. Bu gün Yazıçılar Birliyinə üzv olan şairlərin çoxu döş cibində Birliyin vəsiqəsini gəzdirir, ancaq çoxunun şairliyin ibtidai qaydalarından xəbəri yoxdur. Belələri isə, özlərini elə yuxarıdan tuturlar ki, sanki şeiriyyəti bunlar yaradıblar. Bu gün ədəbiyyatımızda "boz ədəbiyyat"dan da aşağı şeir "örnəkləri" həddindən artıq çoxdur. Çünki bu tipli "şairlərə" bu gün "yaşıl işıq" yandırılır. Yazdıqları həmin an qəzetdə, jurnalda, saytlarda işıq üzü görür, bunun nəticəsində isə onlar alaq otu kimi ədəbiyyatımıza ayaq açırlar.

**- Yazmağı bacarmayanların Yazıçılar Birliyində haqsız toplanmağından şikayətləndiniz. Bəs Sizdən asılı olsaydı,**

**Birliyə üzvlüyün şərtlərinə hansı maddələri salıb üzvlüyü çətinləşdirərdiniz?**

- Mən Yazıçılar Birliyinə üzv olanda oraya 300 yazar üzv idisə, bu gün həmin rəqəm 1500-ə bərabərdir. Bizim dönəmimizdə birinin üç min misra şeiri çap edilməmişdisə, o, Yazıçılar Birliyinə ərizə belə verə bilməzdi. Ancaq bu gün həmin misraları dərc etməyə nə var ki? Bu dəqiqə mənim ağlıma hər hansı bir yol gəlmir. Ancaq düşünüb üzvlüklə bağlı daha ciddi üsullar seçmək olar. Yazıçılar Birliyinin üzvü olmaq hələ böyük "qələm sahibi" olmaq deyil.

**- Bu gün şeirlə dünya ədəbiyyatında yer tutmaq olarmı?**

- Mən bütün cəsarətimlə deyirəm ki, bu gün, ələlxüsus, bizim şeirlərimizlə dünya arenasında duruş gətirmək mümkün deyil. Ümumiyyətlə, bu gün şeirə dünya ədəbiyyatında demək olar ki, yer yoxdur. ABŞ kimi böyük bir ölkə nəzmdən imtina edib və başlıca üstünlüyü nəsr əsərlərinə verir. Şeirin ən böyük çatışmayan yönü onun tərcümə zamanı itirməsidir. Bir bənd şeir bizim dilimizdə anlamlı qafiyə kimi səslənsə də, əcnəbi dilə çevrildikdə o, qulağa xoş olmayan söz yığnağına çevrilir. Rəsul Rza deyirdi ki, şeiri tərcümə edəndə bilirsən ki, bu şeirdir, ya yox?

**- Yaradıcılığınızda uşaq ədəbiyyatına geniş yer verməyinizin səbəbi nədir?**

- Uşaq ədəbiyyatı mənim yaradıcılığımın bir qoludur. Mən həm ədəbiyyatşünasam, həm şairəm, həm müəlliməm, həm jurnalistəm, həm tərcüməçiyəm. Və bütün bunlar mənim yaradıcılığımın bir tamını təşkil edir. Bunların heç birini bir-birindən ayıra bilmərəm. Yəqin ki, uşaq ədəbiyyatında olan boşluğu mən doldurduğum üçün bu gün uşaq ədəbiyyatında olan şair kimi daha çox tanınıram. Mən yazarkən şeirlərimdə həm uşaqlara, həm də böyüklərə müraciət edirəm. Mənim üçün əsas oxucu kateqoriyası yox, fikrin böyüklüyü və dərinliyidir. Uşağı topluma hazırlamaq, ona lap kiçik yaşlarından xeyirxahlığı və əməksevərliyi aşılamaq, onu maarifləndirib, təhsil almağa, oxumağa həvəsləndirmək məni əlimə qələm götürüb yazarkən daha da ruhlandırır. Bu məsələlər

ayrıca önəmlidir. Çünki uşaq ikən oxumayan, böyüdükdən sonra da oxumur.

**- Son vaxtlar Yazıçılar Birliyinin sədri Anar Rzayevin işinə münasibət birmənalı deyil. Hətta onu istefaya səsləyənlər də var. Bəs siz Birliyin üzvü kimi Anarın işindən razısınızmı?**

-Tənqid edənləri də anlayıram. Ancaq orada Anar müəllimin işinə nəzər salsaq, görərik ki, o, hansısa bir qərara gəlmək, addım atmaq üçün həmişə gənclərlə, cavanlarla məsləhətləşir, fikir mübadiləsi aparır, bir sözlə, hər kəsə sayğı ilə yanaşır. Anar müəllimi tənqid edənlər, haqqında cəfəng fikirlər uyduranların ədəbiyyatdan anlayışları belə yoxdur. Yazıçılar Birliyinə sədr səsvermə yolu ilə seçilir. Qurultayda Anar müəllimin işindən razı və narazı olanlar müstəqil şəkildə öz iradələrini ifadə edib səsvermədə iştirak etsinlər, o zaman kim onlara nə deyə bilər ki? Mən özüm bu gün Anar müəllimin alternativini görmürəm. Əgər mənim düşüncəmi öyrənmək istəyirsinizsə, mənim aləmimdə yaradıcı qurumun rəhbərinə gərək yoxdur. Dünyanın heç bir yerində bu cür təşkilat da yoxdur, bütün bunlar SSRİ-dən qalma anlayışlardır.

**- Hansı misranız məhz elə Sizdən danışır?**

- Mənim bütüm misralarım məndən danışır, mən bütün misralarımda özümü görürəm. Mən ruhən bütün şeirlərimə hopmuşam. Mənim güclü və ya nisbətən zəif şeirlərim ola bilər. Ancaq onlardan heç birində bədii qüsur tapmaq mümkün deyil.

**- Ədəbiyyat sizin üçün nədir? Ədəbiyyat dedikdə gözünüz önündə nələr canlanır?**

- Ədəbiyyat insanın iç dünyasının, düşüncələrinin aynasıdır. İnsan irqindən asılı olmayaraq insandır və onun duyğuları da müəyyən mənada eynidir. Bütün bunların içində ortaq məxrəci tapanda bu, ümumbəşəri ədəbiyyata çevrilir. Ədəbiyyat yaradıcı adam üçün yalnız daxili dünyasını ifadə vasitəsi yox, həm də ağrılardan xilas vasitəsidir. Bax, mənim üçün ədəbiyyat budur.

**- Azadlıq sizin üçün nə deməkdir?**

- Azadlıq bir dustaqxanadan - ana bətnindən, o biri dustaqxanaya - qəbir evinə qədər olan yoldur. Toplumda yaşayıb azad olmaq mümkün deyil. Əgər bütün dünyanı nura boyayan, işıqlandıran günəş azad deyilsə, insan necə azad ola bilər ?

**- Hansı mövzuda yazacağınıza necə qərar verirsiniz?**

- Mən hansısa mövzuda öncədən düşünüb şeir yazmıram. Ağrılar, əzablar, düşüncələr müəyyən axara gəlib səni yazmağa məcbur edir. "İlham pərisi" deyirlər ona, əgər ilham pərisi gəldisə, o, sənin nə düşündüyünə baxmır.

**- Elə bir duyğu varmı ki, onu şeirlə ifadə etmək mümkün olmasın?**

- Mən elə bir fikri qəbul etmirəm. Şeir hər bir duyğunu, olayı izah edəcək qədər güclüdür. İstənilən həyat hadisəsini şeirin qüdrətinə etibar edib tapşırmaq olar.

**- Sizcə, şair nə vaxt xalqın sevgisini itirə bilər?**

- Şair özünə sevgisini itirəndə xalqın sevgisini də itirə bilər. Mənim yazdıqlarımda həqiqət varsa, xalq məni də şeirlərimi də sevəcək. Ona görə də, şair gərək nə qədər fantaziya və təxəyyülə varsa da, doğruluğu yerə qoymasın. Şair səmimidirsə, seviləcək. Səmimi olmayan şairi xalq heç vaxt sevməz. Xalqın sevgisini qazanmağın yolu özün olmaq və səmimi olmaqdır. Bunlardan birini itirsən, inan ki, xalq o an duyacaq və illərlə yığdığın hörməti itərəcəksən.

**- Siz uzun illərdir ki, həm də müəllim kimi çalışırsınız. Ən tanınmış, daha böyük uğurlar qazanmış şagirdlərinizə kimləri örnək göstərə bilərsiniz?**

- Mənim tanınmış, həyatda böyük uğurlara müvəffəq olmuş şagirdlərim saysız-hesabsızdır. Onlara örnək olaraq Ayət Kərimovanı, Sumqayıt İcra Başçısının müavini Akif Quliyev, Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev, SDU-nun müəllimi Hamlet Zeynalovun adını çəkə bilərəm.

**- Sumqayıtla eyni yaşda olmaq necə duyğudur? Sumqaytı necə ifadə edərsiniz?**

- Sumqayıt mənim taleyimin şəhəridir. Mən düzünü deyəcəm. Gənc yaşlarımda bu şəhərə heç köçmək istəmirdim, hətta Sumqayıtı bəyənmirdim də. Çünki şəhər zavodların tullantısı ilə o dərəcədə çirklənmişdi ki, heç yaşamalı yer deyildi. 1966-cı ildən - 16 yaşımdan mən Sumqayıtda yaşayıram. Bu illər ərzində məni bu şəhərə bağlayan isə, onun binaları, gözəlliyi, çiçəklərindən əlavə, ən başlıcası dəniz olub. Dənizə o qədər bağlıyam ki, bura köçdüyüm gündən bu günədək mənim hər səhərim dənizdə açılır. Dəniz sahili ilə bulvarı görmək isə, ayrı bir qürur, sevincdir. Sumqayıtı mən həm də camaatının istiliyinə, səmimiliyinə görə sevirəm. Sumqayıt böyük Azərbaycanın kiçik modelidir. Bu şəhər mənim gözlərimin önündə dəyişib, gözəlləşib. Mənim oğlum ABŞ-da - Los-Ancelesdə yaşayır. Ona tez-tez Sumqayıtın şəkillərini göndərirəm. Mən Los-Ancelesdə də olmuşam. Mənə görə, bu gün bizim şəhərimiz gözəllikdə Los-Ancelesdən heç də geri qalmır.

Ekologiya və Təbii Sərvətlər Naziri Muxtar Babayev şəhərimizə gəlmişdi. Zakir Fərəcov onunla birgə şəhərin ziyalılarının da görüşünü təşkil etmişdi. Məndən Sumqayıtı vəsf edəcək şeir söyləməyimi istədilər, ancaq mən digər bir şeirimi söylədim. Səbəbini soruşanda dedim ki, siz Sumqayıtda elə bir şeir yaratmısınız ki, mənim yazdığım şeir onun yanında adi görünər. Mən bu şəhərdə özümü görürəm.

**(168 saat qəzeti)**

Müsahibəni hazırladı: **Səbuhi Allahverdizadə**

# Professor, şair Rafiq Yusifoğlu ilə görüş keçrilib

18.12.2019-cu il tarixində Bakı şəhərində yerləşən Kəlbəcər rayon 19 saylı tam orta məktəbdə Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan tanınmış şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, ədəbi mükafatlar laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun iştirakı ilə "Mənim imzam" adlı tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan dilşünas, AMEA doktorantı Nofəl Şirinov tədbir iştirakçılarına Rafiq Yusifoğlunun həyat və fəaliyyəti ilə bağlı geniş məlumat verib.

Daha sonra məktəbin müəllimi, Rafiq Yusifoğlunun tələbəsi olmuş Sona Həsənova Rafiq müəllimlə bağlı xatirələrini bölüşüb, uşaq ədəbiyyatı və Azərbaycan ədəbiyyatşünaslığında Rafiq Yusifoğlunun yeri ilə bağlı fikirlərini söyləyib.

Tədbirin gedişində məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Təravət Hüseynova "Rafiq Yusifoğlu yaradıcılığı və müasir Azərbaycan uşaq ədəbiyyatı" adlı məruzəsi dinlənilib və şagirdlər müəllifin şeirlərini söyləyib.

Görüş iştirakçılarına Rafiq Yusifoğlunun şeirləri əsasında hazırlanmış tamaşa göstərilib.

Daha sonra qonaq məktəblilərin və görüş iştirakçılarının suallarını cavablandıraraq şeirlərindən nümunələr söyləyib, məktəb pedaqoji kollektivinə və şagirdlərə öz tövsiyələrini verib. Müəllifi olduğu kitabları şagirdlərə hədiyyə edib.

***mektebgushesi.az*** *18.12.2019*

# Məcburi köçkün məktəbində tanınmış şairlə görüş

Bakı şəhərində yerləşən Kəlbəcər rayon 19 saylı tam orta məktəbdə Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan tanınmış şair, ədəbiyyatşünas, Əməkdar mədəniyyət işçisi, ədəbi mükafatlar laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun iştirakı ilə "Mənim imzam" adlı tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Milli Elmlər Akademiyasının doktorantı Nofəl Şirinov Rafiq Yusifoğlunun həyat və fəaliyyəti ilə bağlı məlumat verib.

Daha sonra məktəbin müəllimi, Rafiq Yusifoğlunun tələbəsi olmuş Sona Həsənova Rafiq müəllimlə bağlı xatirələrini bölüşüb, uşaq ədəbiyyatı və Azərbaycan ədəbiyyatşünaslığında Rafiq Yusifoğlunun xidmətlərindən danışıb.

Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Təravət Hüseynovanın "Rafiq Yusifoğlu yaradıcılığı və müasir Azərbaycan uşaq ədəbiyyatı" mövzusunda məruzəsi dinlənilib. Sonra şagirdlər müəllifin şeirlərini söyləyiblər.

Görüş iştirakçılarına Rafiq Yusifoğlunun şeirləri əsasında hazırlanan tamaşa göstərilib.

Rafiq Yusifoğlu məktəblilərin və görüş iştirakçılarının suallarını cavablandıraraq şeirlərindən nümunələr söyləyib, O, müəllifi olduğu kitabları şagirdlərə hədiyyə edib.

Tədbirin sonunda məktəbin direktor müavini Şakir Süleymanov qonaqlara və tədbirin təşkilatçılarına minnətdarlığını bildirərək, Rafiq Yusifoğlunun yaradıcılığı ilə bağlı fikirlərini bildirib.

***Tehsil-press.az***

*Xəbərin tarixi: 19.12.2019 / 11:00*

## RAFİQ YUSİFOĞLUNUN KİTABLARI

1. Yurdum-yuvam (şeirlər). Bakı, Gənclik, 1983.
2. Ətirli düymələr (şeirlər). Bakı, Gənclik, 1986.
3. Ocaq yeri (şeirlər). Bakı, Yazıçı, 1989.
4. Aylı cığır (şeirlər və poemalar). Bakı, Gənclik, 1992.
5. Qəm karvanı (şeirlər və poema). Bakı, Sumqayıt, 1997.
6. Həsrət köçü (şeirlər). Bakı, Sumqayıt, 1998.
7. Sladkiy dojd (şeirlər, rus dilində). Bakı, Şuşa, 1998.
8. Dünya xalqlarının nağılları (tərcümələr). Bakı, Azərbaycan, 1998.
9. Azərbaycan poeması: axtarışlar və perspektivlər (monoqrafiya). Bakı, Elm, 1998.
10. Xatirə kəcavəsi (elmi-publisistik məqalələr). Bakı, Elm, 1999.
11. Bahar qatarı (hekayələr və nağıllar). Bakı, Azərbaycan, 1999.
12. Kitabi-Dədə Qorqud (komikslər). Bakı, İşıq, 1999.
13. Böyük arzuya gedən yol (şeirlər). Bakı, Azərbaycan, 2000.
14. Möcüzəli xəzinə (tərcümələr). Bakı, Azərbaycan, 2000.
15. Təzə sevdalara doğru (şeirlər və tərcümələr) Bakı, Şuşa, 2000.
16. Çiçək yağışı (şeirlər və poemalar). Bakı, Şuşa, 2000.
17. Ədəbiyyatşünaslığın əsasları (dərslik). Bakı, Sabah, 2001.
18. Söz çəməni (şeirlər). Bakı, Azərbaycan, 2002.
19. Uşaq ədəbiyyatı (dərslik). Bakı, Təhsil, 2002.
20. Ayrılığın qəm hasarı (şeirlər). Bakı, Təhsil, 2002.
21. Günlərimiz, aylarımız (şeirlər). Bakı, Azərbaycan, 2003.
22. Bir sevdalı ürəyim var (məqalələr). Bakı, Çaşıoğlu, 2003.
23. Ədalətli hakim (tərcümələr). Bakı, Azərbaycan, 2004.
24. Şirin yuva (hekayələr və nağıllar). Bakı, Azərbaycan, 2004.
25. Müasir ədəbi proses və ədəbi tənqid (dərslik). Bakı, Çaşıoğlu, 2004.
26. Min dovşan otaran çoban (tərcümələr). Bakı, Azərbaycan, 2005.
27. Zamanın qatarı (şeirlər). Bakı, Azərbaycan, 2005.
28. Həsrət sazağı (şeirlər). Bakı, Şirvannəşr, 2005.
29. Ədəbiyyatşünaslığın əsasları (dərslik). Bakı, Şirvannəşr, 2005.
30. Dəniz səviyyəsi (nəsr əsərləri). Bakı, Şirvannəşr, 2005.
31. Meymunlar ölkəsi (tərcümələr). Bakı, Azərbaycan, 2006.

32. Yollar (şeirlər). Bakı, Azərbaycan, 2006.
33. Uşaq ədəbiyyatı (dərslik). Bakı, Şirvannəşr, 2006.
34. Daha uşaq deyiləm (şeirlər). Bakı, Şirvannəşr, 2006.
35. Sevdalı sabahlar (şeirlər və poema). Bakı, Şirvannəşr, 2007.
36. Namuslu oğru (tərcümələr). Bakı, Azərbaycan, 2007.
37. Ana dilim (şeirlər). Bakı, Azərbaycan, 2007.
38. Tanrının ömür payı (məqaləslələr). Sumqayıt, 2007.
39. İlahi qazlar (tərcümələr). Bakı, Azərbaycan, 2008.
40. Sehrli üzük (tərcümələr). Bakı, Azərbaycan, 2008.
41. Ana dili -1 (Əlifba, oxu) Birinci siniflər üçün dərslik. Bakı, Çaşıoğlu, 2008.
42. Eşqin qarlı yollarında (şeirlər). Bakı, ADPU, 2008.
43. Ana dili -1 (Əlifba, oxu) Birinci siniflər üçün dərslik. Bakı, Çaşıoğlu, 2009.
44. Dəniz, sən və mən (şeirlər). Bakı, ADPU, 2009.
45. Ədəbiyyatşünaslığın əsasları (dərslik). Bakı, ADPU, 2009.
46. Qızıl balıq (tərcümələr). Bakı, Lider-press, 2009.
47. Ulu yurd yerlərimiz (məqalələr). Bakı, Lider-press, 2009.
48. Azərbaycan dili – 2. İkinci siniflər üçün dərs vəsaiti. Bakı, Çaşıoğlu, 2009.
49. Çiçək yağışı (şeirlər). Bakı, Çaşıoğlu, 2009.
50. Pamela Trevers. Meri Poppins (tərcümə). Bakı, Çaşıoğlu, 2009.
51. Möcüzəli ağac (tərcümələr). Bakı, Azərbaycan, 2010.
52. Elm və helm (hekayələr və nağıllar). Bakı, Azərbaycan, 2010.
53. Qoruq və yasaqlıqlarımız (məqalələr). Bakı, Azərbaycan, 2010.
54. Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri (monoqrafiya). Bakı, ADPU, 2010.
55. Qızıl saçlı gözəl (tərcümələr). Bakı, Azərbaycan, 2011.
56. Quşlar dünyası (şeirlər). Bakı, Azərbaycan, 2012.
57. Qurbağa libaslı gözəl (tərcümələr). Bakı, Azərbaycan, 2012.
58. Xoşbəxt günlər yolçusu (tərcümələr). Bakı, Azərbaycan, 2012.
59. Könül səltənəti (şeirlər və tərcümələr). Bakı, ADPU, 2012.
60. Tapmacalar ölkəsi (nağıllar və hekayələr). Bakı, Azərbaycan, 2013.
61. Həyat ağacı (tərcümələr). Bakı, Azərbaycan, 2013.

62. Kiçik siçanın böyük sərgüzəştləri (tərcümələr). Bakı, Azərbaycan, 2013.
63. Qızılı məktublar (şeirlər). Bakı, ADPU, 2013.
64. Müasir ədəbi proses və ədəbi tənqid (dərslik). Bakı, Çaşıoğlu, 2014.
65. Ağıl sınağı (tərcümələr). Bakı, Azərbaycan, 2014.
66. Arzular kəhkəşanı (şeirlər). Bakı, ADPU, 2015.
67. Xeyirxah ovçu (tərcümələr). Bakı, Azərbaycan, 2015.
68. Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri (monoqrafiya). Bakı, Elm və təhsil, 2016.
69. Sabahın sorağında (şeirlər). Bakı, ADPU, 2016.
70. Durna lələyi (tərcümələr). Bakı, Azərbaycan, 2016.
71. Bulud fayton (şeirlər). Bakı, ADPU, 2017.
72. Üçüncü qərinə (şeirlər). Bakı, ADPU, 2017.
73. Gəzən balqabaq tağı: tərcümələr. Bakı, Azərbaycan, 2017.
74. Rain, flowers and I**.** Yağış, çiçəklər və mən. Şerlər və kiçik hekayələr (ingilis dilində və orijgnalda). Baku, ADPU, 2017.
75. Bədii söz – məna ocağının közləri (ədəbi-tənqidi məqalələr) Bakı, ADPU, 2018.
76. Ağıllı dovşan (tərcümələr). Bakı, Azərbaycan, 2018.
77. Bitdilicə (hekayələr və nağıllar) Bakı, Azərbaycan, 2018.
78. Nağıl qapısı (şeirlər, poemalar, mənzum nağıllar). Bakı, ADPU, 2018.
79. Ömür ağacından düşən yarpaqlar (şeirlər). Bakı, ADPU, 2019.
80. Yaddaş kitabı – 1 (şeirlər). Bakı, Azərbaycan, 2019.
81. Yaddaş kitabı – 2 (şeirlər). Bakı, Azərbaycan, 2019.
82. Taleyimdən keçən yollar (publisistika). Bakı, ADPU, 2019.
83. Sevdalı ömür yaşadım (şeirlər). Bakı, ADPU, 2019.

## Rafiq Yusifoğlu haqqında kitablar


1. Aygün Cəfərova. Rafiq Yusifoğlu lirikasının sənətkarlıq xüsusiyyətləri (monoqrafiya). Bakı, Şirvannəşr, 2006
2. Rafiq Yusifoğlu (bibloqrafiya). Bakı, Şirvannəşr, 2011
3. Günel Almaz. Rafiq Yusifoğlu poeziyasında sənətkarlıq axtarışları (monoqrafiya). Bakı, ADPU, 2013
4. Elmin və sənətin ucalığında (məqalələr). Bakı, ADPU, 2020

# Kitabın içindəkilər

Ön söz əvəzi....................................................................................3-8
Təltiflər, təbriklər,.................................................................................. 9-18

## Portret cizgiləri

Azərbaycan Milli Ensiklopediyası. Əliyev Rafiq Yusif oğlu................19
Ədəbiyyatımızın inkişafı naminə (**Nizami Cəfərov**).............................20
Təmənnasız oxucu sevgisi (**Əbülfət Mədətoğlu**).................................28
Tanrının ömür payı ("Azərbaycan")......................................................31
Sözün keşiyində (**Adil Cəmil**)..............................................................32
Ürəklərə sevgi daşıyan şair (**Zahid Xəlil**)...............................................35
Rafiq Yusifoğlu – 60 ("Azad Azərbaycan").........................................42
Ziyalı təfəkkürü insan həyatı üçün stimuldur (**Hikmət Məlikzadə**)......42
Təfəkkürlə təxəyyül qovuşanda (**Şamxəlil Məmmədov**).....................50
İyirminci qrupun şairi – Rafiq Yusifoğlu (**Seyfəddin Eyvazov**)...........57
Söz sərrafı (**Elman Quliyev**)..................................................................64
Ürəklərə sevgi və xeyirxahlıq toxumları səpir ("Tumurcuq")...............70
Rafiq Yusifoğlunun sənət dünyası (**Məmməd Əliyev**).........................72
Sözün və sənətin ucalığında (**Mahmud Allahmanlı**)............................86
İşığa can atan durna qatarı (**Zahid Xəlil**)............................................100
Şairin meyarı (**Füzuli Əsgərli**) ..........................................................108
Bulaq saflığını yaşadan ömür (**Avtandil Ağbaba**).............................114
Daha uca zirvələrə, qardaşım (**Qəşəm İsabəyli**).................................117
Ədəbiyyatımıza, bu günümüzə, sabahımıza gərəkli adam..................121
Oxucu ürəyini sinəsinə sıxıb saz kimi dilləndirməyi bacaran şair.......122
Rafiq Yusifoğlunun təzə kitabı: "Taleyimdən keçən yollar"...............123

## Poeziya

Dəniz nəğmələri – məhəbbət nəğmələri (**Ağəddin Mansurzadə**)....125
Dilçiliklə döyünən şair ürəyi (**Əzizxan Tanrıverdi**)...........................135
Duyğularım (**Sevinc Həmzəyeva**)......................................................146

Narahat ürəyin yanğısı (**Hikmət Məlikzadə**)......................................151
Hər kitabın öz dünyası (**Sərvaz**)........................................................156
"Eşqin qarlı yollarında" (**Əbülfət Mədətoğlu**)....................................158
Rafiq Yusifoğlunun könül səltənəti (**Pərvin**)......................................160
Yazıçı, publisist Pərvinə məktub (**Qəzənfər Paşayev**)........................164
"Könül səltənəti"ndə insan zərurəti (**Hikmət Məlikzadə**)...................166
Xoşbəxtliyini etiraf edən şair (**Əbülfət Mədətoğlu**)............................175
Yaşamaq necə gözəldi (**Gülnar Əkbərova**).......................................180
Rafiq Yusifoğlunun peyzaj lirikası (**Vəsilə Əbdülhəsənova**)..............184
Sevdayla qaynayan qəlbim (**Rübabə Sərdarova**)..............................189
Həsrət alovu (**Nuranə Hüseynova**)....................................................194
"Könül səltənəti" oxucu könlünə... (**Aygül Əlimərdanova**)...............197
Rafiq Yusifoğlu yaradıcılığında peyzaj lirikası (**Elşad Talehoğlu**).....202
Sevgi əzabı ilə inildəyəndə (**Əzizxan Tanrıverdi**).............................203
"Arzular kəhkəşanı" və ya ...(**Hikmət Məlikzadə**).............................210
"Üçüncü qərinə" (**Əbülfət Mədətoğlu**)...............................................218
Hər şey həyatın bir parçası, məqamıdır (**Bədirxan Əhmədli**).............222
Bu – Rafiq Yusifoğludur (**Vaqif Yusifli**)............................................229
"Üçüncü qərinə"nin otuz beş illik şairi (**Əsgər Rəsulov**).....................239
R.Yusifoğlu poeziyasında Füzuli sevgisi (**Zəki Bayram**)...................250
Sələfin kədəri xələfin poeziya aynasında (**Yaqub Babayev**)...............261
Başıma bəla Rafiq Yusifoğlu (**Elşad Əliyev**).....................................269
"Rafiq Yusifoğlu poeziyasında sənətkarlıq axtarışları".......................272
Dəyərli tədqiqat əcəri (**Arzu Əliyeva**)...............................................273
Söhbət yaradıcılıq axtarışlarından gedir (**S.Aranlı**)............................275
"Ömür ağacından düşən yarpaqlar" (**Manevr.az**)..............................275
"Ömür ağacından düşən yarpaqlar" (**Əbülfət Mədətoğlu**).................277
"Mən payız axtarıram" (**Əbülfət Mədətoğlu**).....................................280
Ədəbiyyatımızın Məcnunu və... (**Manevr.az**)....................................285

## Uşaq ədəbiyyatı

Söz ağacının meyvələri (**Flora Xəlilzadə**)...........................................286
Sehrli güzgü kimi **(S.Aranlı**)...........................................................293
R.Yusifoğlunun poeziyasında fəlsəfi yozum (**R.Əşrəfqızı**)................294
"Uşaq şeiri məsələsi" (**A.Eminov**)....................................................301
R.Yusifoğlunun uşaq şeirləri haqqında (**C.B.Rəcəbov**).......................302

“Eşqin qarlı yollarında üzü dənizə” (**S.Qafarova**)..............................306
Uşaq sevincinin poeziyası (**Balakişi İsgəndərov**)..............................311
“Quşlar dünyası” (**Günel Almaz**)......................................................316
“Göyərçin”in hədiyyəsi (**M.Sadıqzadə**)............................................318
Şairin “Qızılı məktublar”ı (**Günel Almaz**)..........................................319
Uşaq ədəbiyyatına yeni töhfə (**Günel Almaz**)....................................321
“Qızılı məktublar” (**Əbülfət Mədətoğlu**)..........................................324
Uşaq folkloru: problemlər, mülahizələr (**Aynur Xəlilova**).................326
Poetik sözün gücü (**Məmməd Əliyev**)................................................330
Professorun “Bulud fayton”u (**Aygün Cəfərova**)..............................337
Uşaq ədəbiyyatımızın yeni uğuru (**Günel Hüseynova**)......................343
“Bulud fayton” (**Əbülfət Mədətoğlu**)................................................346
Rafiq Yusifoğlunun “Nağıl qapısı”........................................................350
Tanınmış şair Rafiq Yusifoğlunun “Nağıl qapısı”..............................351
Rafiq Yusifoğlunun uşaq poeziyası (**Allahverdi Eminov**)................353
Rafiq Yusifoğlunun poetik möcüzəsi (**Allahverdi Eminov**)..............363
Rafiq Yusifoğlunun uşaq şeirlərinin... (**L.Xanlarova**)........................370
Rafiq Yusifoğlunun yaradıcılığında cocuq şeirləri (**M.Quliyeva**)......376
Bağımsızlık devri çoçuk şiirinde... (**L.Allahverdiyeva**)......................384
“Nağıl qapısı” (**Əbülfət Mədətoğlu**)..................................................387
Rafiq Yusifoğlu və onun “Nağıl qapısı” (**Əbülfət Mədətoğlu**) .........390
Rafiq Yusifoğlunun “Nağıl qapısı” (**Mina Rəşid**) ............................396
Məqalələrindən sətirlər...........................................................................401

## Ədəbiyyatşünaslıq

Ədəbiyyatşünaslığa yeni baxış (**Allahverdi Eminov**).........................404
Dəyərli dərs vəsaiti (**Günel Almaz**)...................................................409
Azərbaycan poeması haqqında uğurlu kitab (**T. Novruzov**)................411
Azərbaycan poemasının sənətkarlıq problemi (**H.Qasımov**)...............419
Azərbaycan poemasında sənətkarlıq axtarışları (**Y.Aslanov**).............423
Hər söz bir dünyadı (**Əbülfət Mədətoğlu**)..........................................427
Açıq məktub (**Vaqif Qurbanov**)..........................................................429
Müasir ədəbi proses və ədəbi tənqid (**Günel Almaz**)..........................433
Ədəbi-nəzəri fikir tarixi haqqında... (**T.Novruzov**)............................435
Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri (**M.Əliyev**)............................446
“Bədii söz – məna ocağının közləri” (**Əbülfət Mədətoğlu**) ..............452

"Bədii söz – məna ocağının közləri" (**Manevr.az**)............................453

## Dərslik və monoqrafiyalarda gedən yazılar

"Müstəqillık dövrü Azərbaycan ədəbiyyatı" kitabından......................456
"Şairdirsə, babasına çəkib"(**Rəşid Təhməzoğlu**)...............................462
Rafiq Yusifoğlu (**Məmməd Əliyev**)..................................................465
Rafiq Yusifoğlu (**Aydın Hacıyev**)....................................................476
Rafiq Yusifoğlu (**Zahid Xəlil, Füzuli Əsgərli**)..................................484
Rafiq Yusifoğlu (**Xanım Mustafayeva**)............................................490
Rafiq Yusifoğlu (**Bilal Həsənli**).........................................................493
Müsahibə (**Səbuhi Allahverdizadə**).................................................497
Professor, şair Rafiq Yusifoğlu ilə görüş keçirilib...............................503
Məcburi köçkün məktəbində tanınmış şairlə görüş............................504
Rafiq Yusifoğlunun kitabları.............................................................505

# ELMİN VƏ SƏNƏTİN UCALIĞINDA

**Rafiq Yusifoğlunun həyatı və yaradıcılığı haqqında məqalələr**

Bakı, ADPU nəşriyyatı, 2020

Rəssamlar: İ.Tofiqoğlu

K.Əkbərova

Korrektor: F.Əliyeva

Arzu və təkliflərinizi bu ünvana göndərməyi xahiş edirik:

**rafig_yusifoglu@mail.ru**